**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

# FİLOLOGİYA MƏSƏLƏLƏRİ

# № 4

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

**«Elm və təhsil»**
**Bakı – 2023**

**REDAKSİYA HEYƏTİ**: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №4

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

# DİLÇİLİK

**FİZULİ NƏCMƏDDİN OĞLU MUSTAFAYEV**
**AMEA Nəsimi adına Dilçilik**
**İnstitutunun Tətbiqi dilçilik şöbəsinin**
**aparıcı elmi işçisi, f.ü.f.d., dosent**
***mustafayev.fizuli8@gmail.com***

## KİNO DİLİNDƏ SÖZ BİRLƏŞMƏSİ VƏ SÖZ HAQQINDA

**Açar sözlər:** *söz birləşməsi, kino dili, morfologiya, qrammatika, sintaqma, leksik kateqoriya, mürəkkəb sözlər.*

**Ключевые слова:** *словосочетание, язык, кино, морфология, грамматика, синтаксис, лексическая категория, составные слова.*

**Key words:** *phrase, cinematic language, morphology, grammar, syntax, lexical category, compound words.*

**Giriş.** Ayrı-ayrı əsərlərdə söz birləşməsinin sözə münasibəti, sözlə səsləşən və ondan fərqlənən cəhətləri haqqında müəyyən qeydlər edilmişdisə də, bu məsələ tam mənası ilə aydınlaşdırılmamışdır. Lakin söz birləşməsi, söz və xüsusən mürəkkəb söz haqqında yazılmış əsərlərdə bu məsələyə toxunulmuş və bəzi fikirlər söylənilmişdir. Belə qeydlər rus dilçiliyində olduğu kimi, ümumiyyətlə, türkologiyada, eləcə də Azərbaycan dilçiliyində olmuş, bu və ya başqa cəhətdən söz birləşmələri ilə sözlər, xüsusən söz birləşmələri ilə mürəkkəb sözlər müqayisə edilmiş və maraqlı xüsusiyyətlər göstərilmişdir.

x x x

Söz birləşməsi sintaktik mövqeyinə, cümlədəki roluna və mənasına görə sözə yaxınlaşır və o da söz kimi, cümləyə tikinti materialı olaraq daxil olur.

Bədii filmlərdən seçdiyimiz misallara baxaq:

"Abbas: – Sənin üçün almışam. *Məktəb direktoru Kərim məruzə etdi*, dedi ki, şagirdlər üçün rahat çantalar olmalıdı. Dəftər-kitabını gətir, yığaq içinə".

["Qırmızı bağ", 2011].

"Bu gün *məktəb direktoru məruzə etdi*. Mən onu birinci dəfə görəndə fikirləşdim ki, bu bir yuxudur".

["Buta", 2004].

"Tapdıq: – Yəni o kapitan olub?

Qorxmaz: – Nə bilim ey. Dünən həm də *Kərim məruzə etdi*. Kapitanın adını hallandırdı..."

["Kapitanın xəzinəsi", 2013].

Məsələn, *Məktəb direktoru Kərim məruzə etdi* mənasında *Məktəb direktoru məruzə etdi. Məruzə etdi* cümlələrini işlədərək eyni mənanı, fikri ifadə üçün bu cümlələrin hər birindən istifadə edə bilərik. Deməli, burada *məktəb direktoru* birləşməsinin ifadə etdiyi məna da, onun rolu da *Kərim* sözünün məna və roluna bərabərdir.

Hər şeydən əvvəl, söz leksik kateqoriyadır, söz birləşməsi isə qrammatik kateqoriyadır. Söz birləşməsi söz kimi nominativ xarakterə malik olub əşyaları, hadisələri və s. ifadə etsə də, onları təklikdə, təcrid olunmuş halda deyil, bir-biri ilə əlaqədə, münasibətlə ifadə edir. Kino dilində söz müəyyən məfhumları ifadə edərək öz-özlüyündə o məfhumun başqasına münasibətini göstərmir, lakin bütün söz birləşmələrinin mənasında belə bir əlaqə vardır. Söz birləşmələrinin ümumi mənası məhz bu əlaqələr əsasında meydana gəlir.

Bunlar göstərir ki, kino dilinin bu iki vahidi arasında bəzi ümumi cəhətlərlə yanaşı, çox ciddi fərqlər də vardır. Lakin qeyd edilən bu fərqlər, hələ praktik olaraq, söz birləşməsi ilə sözü ayırmaq üçün tam əsas vermir. Bunun üçün bu kateqoriyaların zahiri əlamətlərini, strukturunu, ifadə xüsusiyyətlərini, qrammatik dəyişmə üsullarını nəzərdən keçirmək lazım gəlir.

Ümumiyyətlə, kino dilində sözlə söz birləşməsinin fərqləndirilməsi bir qədər asandırsa da, mürəkkəb sözlərlə söz birləşməsinin münasibətini müəyyənləşdirmək, onları fərqləndirmək nisbətən çətindir. "Mürəkkəb sözlər məsələsindəki mübahisəli cəhətlər, dilçilikdə gah mürəkkəb söz, gah da birləşmə adlanan ifadələr və s. nəzərə alınarsa, bu məsələnin mürəkkəbliyi bir daha diqqəti cəlb edir. Mürəkkəb sözlərin bir çoxunun formalaşma prosesində olması və mürəkkəb söz kimi tam sabitləşməməsi də məsələni çətinləşdirir" [1, 135].

"Mürəkkəb sözlər də əsasən söz birləşməsinə uyğun şəkildə formalaşır. Hətta birləşmələrin tərəfləri arasında olan sintaktik əlaqələr mürəkkəb sözlərin əmələ gəlməsi üçün də mühüm əhəmiyyət kəsb edir və söz birləşmələrində olduğu kimi, mürəkkəb sözlər də bu cəhətdən qruplaşır" [2, 15].

Azərbaycan və başqa türk dillərinə aid yazılmış əsərlərdə bəzən söz birləşmələrinin mürəkkəb sözlərlə qarşılaşdırılması halları da bu ümumi cəhətlərlə əlaqədardır. Məsələn, 1951-ci ildə nəşr edilmiş "Azərbaycan dilinin qrammatikası" kitabında *boş-boş danışan* (adam), *ağlına gələni danışan* (uşaq), *barmaq şəkilli damarlı* (yarpaq), *iki qat dişli* (yarpaq), *iki qat lələk şəkilli damarlı* (yarpaq) kimi söz birləşmələri mürəkkəb sözlər sırasında verilmişdir. Akad. L.V.Şerba da söz birləşmələri ilə mürəkkəb sözlər arasında ciddi fərqi nəzərə almamış və buna görə də bir sıra söz birləşmələrini mürəkkəb sözlərə aid etmişdir. Bu cəhətdən onun aşağıdakı izahatı xarakterikdir: "Söz birləşməsinin formal ifadəyə ehtiyacı yoxdur, yalnız təşkil olunduğu sözlərin mənasının məcmuyundan artıq məna ifadə etdiyinə görə söz qrupundan fərqlənən hər bir sintaktik qrup mürəkkəb söz ola bilər" [3, 182].

Qeyd etmək lazımdır ki, kino dilində bu məsələ söz birləşməsi problemi ilə nə qədər bağlıdırsa, bir o qədər də mürəkkəb söz problemi ilə bağlıdır. Ona görə də bu məsələyə həm söz birləşmələrinə, həm də mürəkkəb sözlərə aid əsərlərdə toxunulur. Azərbaycan dilçiliyində bu məsələdən ilk dəfə M.Hüseynzadə bəhs etmişdir. Müəllif birinci növ təyini söz birləşməsi ilə o əsasda yaranan mürəkkəb sözlər arasında əsas fərqi onların komponentlərinin müstəqil vurğuya malik olub-olmamasında; ikinci növ təyini söz birləşmələri ilə o əsasda yaranan mürəkkəb sözlər mürəkkəb sözlər arasındakı fərqi isə komponentlərinin müstəqil vurğuya malik olub-olmamasında, cəmlənmə, hallanma qaydalarında, mənsubiyyət şəkilçiləri qəbul edib-etməməklə görür [4, 165].

Yuxarıda deyilənlər barədə ümumi nəticələr aşağıdakılardan ibarət ola bilər:

1. Söz birləşmələrini əmələ gətirən sözlərin komponentləri leksik-semantik müstəqilliyini tamamilə saxlayır, ayrılıqda olduğu kimi, birləşmə daxilində də ayrı-ayrı məfhumlarla bağlı olur.

2. Söz birləşməsinin hər komponentinə ayrılıqda sual vermək olur.

"Qoca: – Sən sabahdan məktəbə getməlisən. *Kitab almaq* üçün. Sən oxumalısan... Eşidirsən?

["Buta" bədii film, 2004].

"Sədr: – Elə bil *maraqlı kitab* oxumusan?

"Müxbir: – Bəli, elədi. Deməli, bu boyda kənddə, qohum-əqrəbanın içində Əziz kişinin evinə baxmağa bir adam tapılmadı?"

["Babamın babasının babası", 1979].

"İkinci arvad: – Yox, *evə getmək* istəyən gədəni ağır yaralayıb. Sabunçuda balniskədədir.

"Birinci arvad: – Deyirəm axı, gecə güllə səsi haradan gəlirdi".

["Yuxu", 2001].

"Kitab (nə?) – almaq (nə etmək?), maraqlı (necə?) – kitab (nə?), evə (hara?) – getmək (nə etmək). Mürəkkəb sözlərin komponentlərinin isə xüsusi sualları olmur, yəni onlara ayrıca sual vermək mümkün olmur, mürəkkəb söz bütünlükdə bir suala cavab verir.

"Bayandır: – Hazırlıqlı olmalıyıq, xanım. Xəzinəmiz daha dolu olmaq məcburiyyətində. *Mirzə-salman* dedi ki, döyüş xərclərimizi artıraq".

["Mahmud ilə Məryəm", 2011].

"Xalid: – Buyursun. Buyursun. Əlbəttə. *Ağsaqqal* xoş gəlib. İndi gedib xadiməyə deyərəm, gəlib yorğan-döşəyin ağların da salar".

["Kapitanın xəzinəsi", 2013].

"Kababçı: – Bura bax, *günəbaxan* günə baxan kimi sən də mənim üzümə baxırsan. Sən yoxsa bu kişini elə yubiley günü öldürmək istəyirsən?"

["Babamın babasının babası", 1979].

*Günəbaxan* (nə?), *ağsaqqal* (kim?), *Mirzə Salman* (kim?) və s.

3. Söz birləşmələrinin tərəfləri arasındakı sintaktik əlaqələr təsiredici vəziyyətdə olur, özünü açıq şəkildə hiss etdirir. Məsələn, *evə getmək* birləşməsindəki *evə* və *getmək* sözləri arasındakı idarə əlaqəsi bütün varlığı ilə özünü göstərir və diqqət mərkəzində dayanır, oradakı *ə* hal şəkilçisi kimi xüsusi qeyd edilir və birləşmənin xüsusiyyətlərini müəyyənləşdirməkdə həm komponentlərin forması, həm əlaqəsi, həm də şəkilçi nəzərə alınır. *Günəbaxan* mürəkkəb sözündə isə əlaqə gizli formaya keçir, oradakı *ə* isə öz əslindən fərqli olaraq, şəkilçi deyil, sözün bir səsi kimi çıxış edir. *Yaxud tarix kitabı* birləşməsinin ikinci tərəfindəki *ı* şəkilçidirsə, *ayaqqabı* sözünün sonundakı *ı* sözün bir səsidir.

4. Söz birləşməsinin hər komponentinin özünəməxsus müstəqil vurğusu olur və onların vurğusunda hiss edilə biləcək heç bir dəyişiklik olmur.

"Qız: – Mən ki, sizə öz adımı söyləmədim.

"Oğlan: – Sizin əlinizdə *boş qab* vardı. Məndən qorxub qaçanda mən bu adı eşitdim".

["Buta" bədii film, 2004].

"Qadın: – Sənə baş həkim neçə dəfə deyib ki, o zəhrimarı içmə. Yazıqsan. Bir gün Mustafa kişini apardığı kimi səni də aparacaq bu zəhrimar araq. Əlində *boşqab* qan qusacaqsan".

["Kapitanın xəzinəsi", 2013].

"Sədr: – Yetim uşaqdı. *Günəbaxan* yağı kimi axır gedir. Atası getdi rəhmətə, anası getdi ərə. Uşaq qaldı aralıqda. İstədik göndərək detdoma..."

["Babamın babasının babası", 1979].

"Qubernator: – Necə deyir onlar? Mülkədar torpaqları kəndlilərə paylansın? Çar olmasın? *İncə sənət* işinə bənzəyir əməlləri".

["Qaçaq Nəbi", 1980].

"Sədr: – Əziz kişi qoymadı, götürdü saxladı. Mən *kolxoz sədri* çox dedim. İndi maşallah yekə oğlan olub. Əziz kişi sürünün ayağına gedəndə, başını o çəkir".

["Babamın babasının babası", 1979].

Müqayisə edək: qab-boşqab, evə getmək – günəbaxan, incə sənət – incəsənət, kolxoz sədri – kəklikotu. Bu xüsusiyyət göründüyü kimi, onların qrafikasına da təsir edir. Bir halda sözlər ayrı-ayrı vurğular altında ifadə olunur və ayrı yazılır, digər halda sözlər bir vurğu altında deyilir və bir yerdə yazılır.

5. Söz birləşmələrinin tərəfləri mütəhərrik olur. Onlar hər təsadüfdə yeni sözlərlə birləşərək başqa birləşmələrin komponentləri ola bilir.

Nakaşidze: – Buta baxın, Arkadi Semyonoviç, zarafat bir yana, bəlkə *o qulduru* yaxalamaqda bizə kömək eliyəsiz.

Həkim: – Bu məsələdə *kolxoz sədrinin qardaşı* sizə kömək edə bilər".

["Qaçaq Nəbi", 1980].

"Qadın: – Kazım müəllim pansionata bu gün gəlib. Sabah *kolxoz sədri* də gəlməlidir. Bəhruz müəllim dedi ki. hələlik sənin yanında qalsın, başqa otaq boşalan kimi, onu köçürəcək".

[“Kapitanın xəzinəsi”, 2013].

“Ziyad xan: – Nə düşünürsən, *kitabı oxumaq* lazımdır, yoxsa yox...Yavuz ilə İsmayıl şah arasındakı hüsumət bir savaş olmadan çözülməyəcək kimidir”.

[“Mahmud ilə Məryəm”, 2011].

“Leyla: – Mən bu yaxınlarda bir Amerika fantastik kitabını oxudum. Sənə dediyim *həmin kitabı oxumaq* çox maraqlı idi. Kitabda radiasiya ucbatından, yalnız yeddi gün yaşayan adamlardan söhbət gedir...”

[“Məhkumların cənnəti”, 2012].

Məsələn*, kolxoz sədri – kolxoz sədrinin qardaşı, kolxozun sədri – bu kolxozun sədri, kitabı oxumaq – həmin kitabı oxumaq*. Mürəkkəb sözlərin tərkib hissələri isə belə xüsusiyyətə malik olmur.

**Nəticə.** Bir sıra birləşmələrin tərəfləri arasına başqa sözlərin əlavə olunmasından da çıxış edərək onları mürəkkəb sözlərdən fərqləndirmək olar, lakin bu xüsusiyyət birləşmələrin bir çoxuna aid olmadığına görə onu ümumi hal kimi qeyd etmək olmaz. Buna görə də, ümumiyyətlə, söz birləşməsi ilə mürəkkəb sözü fərqləndirmək üçün onların konkret formalarından asılı olmayaraq bütün təsadüflərdə tətbiq edilə biləcək fərqli cəhətləri nəzərə almaqla, söz birləşməsi ilə mürəkkəb sözün konkret formasından irəli gələn cəhətlərə də nəzər yetirmək lazımdır. Əlbəttə ki, burada birincilər ön planda dayanır və söz birləşməsi ilə mürəkkəb sözü fərqləndirmək üçün onların konkret formasına nəzər yetirmədən ilk növbədə bu ümumi əlamətlərdən çıxış etmək lazım gəlir.

## Ədəbiyyat

1. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı. 1968. s. 135.
2. Адилов М.И. Ложные слова в современном азербайджанском языке (автореферат). 1962. с. 15.
3. Щерба Л.В. Очередные проблемы языковедения. «Известия АН СССР. IV вып. Москва. 1945. с. 182.
4. Hüseynzadə M. Təyini söz birləşmələri. “Müasir Azərbaycan dili, sintaksis”. Bakı. 1968. s. 165.

## Bədii filmlər

1. “Qırmızı bağ”. 2011.
2. “Buta”. 2004.
3. “Kapitanın xəzinəsi”. 2013.
4. “Babamın babasının babası”. 1979.
5. “Yuxu”. 2001.
6. “Qaçaq Nəbi”. 1980.
7. “Məhkumların cənnəti”. 2012.
8. “Mahmud ilə Məryəm”. 2011.

**Fizuli Nəcməddin oğlu Mustafayev**

## Kino dilində söz birləşməsi və söz haqqında

### Xülasə

Məqalədə kino dilində söz birləşməsi və söz haqqında söhbət açılır. Aparılmış araşdırmada bu və ya başqa cəhətdən söz birləşmələri ilə sözlər, xüsusən söz birləşmələri ilə mürəkkəb sözlər müqayisə edilmiş və maraqlı xüsusiyyətlər göstərilmişdir. Bəzi xüsusiyyətlərə görə söz birləşməsi də söz kimi nominativ xarakter daşıyır. Söz birləşməsi də söz kimi dilin nominativ vasitələri sahəsinə aid olub əşyaları, hadisələri, prosesləri bildirir. Söz birləşmələrinin nominativ xarakteri onu əmələ gətirən sözlərin nominativ xarakterindən irəli gəlir. Bunlar göstərir ki, kino dilinin bu iki vahidi arasında bəzi ümumi cəhətlərlə yanaşı, çox ciddi fərqlər də vardır. Lakin qeyd edilən bu fərqlər, hələ praktik olaraq, söz birləşməsi ilə sözü ayırmaq üçün tam əsas vermir.

Tədqiqata görə söz birləşmələri ilə mürəkkəb sözlər bir sıra cəhətlərdən eyni əlamətlərlə müəyyənləşdirilir. Hətta bunları bir-birinə uyğun şəkildə tərifləndirmək də olur. Həm söz birləşməsi, həm də mürəkkəb söz müstəqil sözlərin qrammatik və məna cəhətindən əlaqələndirilməsindən əmələ gəlir.

**Физули Наджмаддин оглу Мустафаев**

## О словосочетаниях и словах на языке кино

### Резюме

В статье рассматриваются слово и словосочетания на языке кино. В исследовании так или иначе сравнивались слова со словосочетаниями, особенно сложные слова со словосочетаниями, и были выявлены интересные особенности. По некоторым признакам словосочетания бывают такими же именительными, как и слова. Словосочетания, как и слова, относятся к области именительных средств языка и выражают вещи, события и процессы. Именительный характер словосочетаний проистекает из номинативного характера слов, из которых они состоят. Они показывают, что, помимо некоторых общих черт, существуют также очень серьезные различия между этими двумя единицами языка кино. Однако эти различия еще не дают полной основы для различения слов по словосочетаниям.

Согласно исследованиям, словосочетания и составные слова во многих отношениях определяются одними и теми же характеристиками. Их даже можно хвалить в соответствии друг с другом. И словосочетания, и составные слова образуются из грамматической и семантической связи независимых слов.

**Fizuli Najmaddin oglu Mustafayev**

**About phrases and words in the language of cinema**

**Summary**

The article discusses phrases and phrases in the language of cinema. In the study, one way or another, words were compared with phrases, especially complex words with phrases, and interesting features were revealed. For some reasons, phrases are as nominative as words. Phrases, like words, belong to the field of nominative means of language and express things, events and processes. The nominative character of phrases stems from the nominative character of the words of which they are composed. They show that, besides some similarities, there are also very serious differences between the two units of cinematic language. However, these differences do not yet provide a complete basis for distinguishing words by word combinations.

Research has shown that phrases and compound words are defined in many ways by the same characteristics. They can even be praised according to each other. Both phrases and compound words are formed from the grammatical and semantic connection of independent words.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: professor İsmayıl Məmmədli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**MİRZƏHRA İMAMƏLI QIZI QULUZADƏ**
Xəzər Universiteti
mirzahra.guluzade@khazar.org

# QUANTITATIVE ANALYSIS OF MOTIVATION OF PRIMARY SCHOOL STUDENTS DURING THEIR EDUCATION IN ENGLISH

**Abstract**

It is widely accepted that motivation is one of the most important factors affecting the process in foreign language teaching. Many studies have been conducted on motivation in language teaching and the relationship between motivation and students academic success has been revealed. Student motivation is the element that directs student behavior in the learning process. Motivational factors are predictors of academic success. In general, students who have long-term goals and are highly motivated can be better educated than those who do not have such goals. “Student motivation is accepted as one of the most important prerequisites for successful learning”. "When teachers are asked to describe the good student, they usually list features such as diligence and interest in the lesson. Sometimes they simply reply, Good students are the ones who are motivated. Therefore, it can be said that motivated students are the type of student that all teachers desire.

Motivation is, in a way, establishing a psychological bond between the student and the subject to be learned. Motivation is also an indispensable factor in language learning.

Many factors such as the methods and techniques followed by the teacher, the classroom environment, the group the student is in, the students attitude towards language, the books and materials used, the number of students in the classroom, and the equipment can affect the motivation of students in the foreign language teaching process. For a successful foreign language learning, it is important to use methods and techniques that positively affect students motivation, as well as methods and techniques that can increase their motivation in the classroom environment.

All these are very important in language education in our modern life. Based on this, we will conduct a research to explain the role of motivation in primary school students choosing English as the language of instruction - why they are curious about English. In the research, firstly, after giving general information, the results obtained by making a small query at Dunya school will be stated.

**Keywords:** Primary School Students, Language of Instruction, English, The Role of Motivation

***Introduction***

Motivation is the most basic factor explaining success or failure in many subjects. With sufficient internal and external motivation, you can strive to be successful even in difficult matters and ensure continuity in your studies. Motivation

is of great importance in the learning process as it ensures that the person is ready to learn.

It influences the students attitude in the learning process and offers a purpose that will motivate him/her. The more motivated the person is, the more willing to learn and the more attentive they are in the process. Have you ever thought why we need to be motivated when learning a second language, while we do not need such a thing when learning your mother tongue?

Motivation has an effect that increases ones interest and determination in learning a foreign language. Like many other skills, motivation can be increased and improved. Motivation is related to many different variables such as the persons energy, learning environment, self-confidence, whether the subject is appropriate for his level, the feeling of success, learning goals, teachers attitude, and taking into account the desire and interest of the student.

In order to understand how low motivation is an inhibitory factor on the student, it should be noted that it prolongs the students learning time, reduces his/her desire and has an effect that can even eliminate the need for learning.

***The Relationship between Attention and Motivation in Learning***

One of the factors affecting learning is attention. “Attention is the state of the thought (consciousness) towards a stimulus. Attention is divided into two as willful and involuntary attention.” “For willed attention, an effort and willpower must be exerted, and therefore it will not last long. Involuntary attention, on the other hand, is passive and is the kind of attention that comes from within and does not cause fatigue.” Attention is also divided into outward-directed attention (objective) and inward-directed attention (subjective) (Aydın, 2022).

According to Senemoğlu, attention strategies are included in the "learning strategies according to internal processes" and drawing the attention of the student to the subject to be learned is at the top of the teaching activities. Strategies that can be used are “underlining strategy, note-taking strategy that identifies important information, and putting notes in the margin” (punctuation and marking) in order to direct the students attention to the subject.

***Factors Affecting Motivation: A suitable environment for teaching English***

It is known by educators that the classroom environment has a significant impact on learning and motivating students for primary school students. However, learning environment choices are highly individual and differ according to the learner. However, Sprinthall define each class as a different unit from all other classes with its own rules, psychological and social atmosphere. It is obvious that it is difficult to create a learning environment that can appeal to all students.

Teachers who want to increase intrinsic motivation in primary school students learning environments should give students control and make sure that they can be successful in such a classroom environment.

The features that should be found in an effective learning environment are as follows: Social interaction, social facilitation and cooperation, brainstorming, effective group work, harmony and similarity within the group. Although group work is given importance in an effective classroom environment, it is clear that in some cases, individuals perform better when they work alone and come up with creative ideas.

The factors that increase and nurture harmony in the classroom are friendly approach, cooperation, increasing the self-confidence of the groups by the teacher, an external threat and democratic classroom environment, and teacher leadership. Here, what is meant by external threat is that in a war environment, in the face of external threats, the country can unite with all its citizens, and in the classroom environment, the classroom can unite against the teacher and form a harmonious group within itself.

The characteristics of the motivating classroom environment are that teachers provide regular feedback to primary school students about their personal development, that students have confidence in themselves and their abilities, that the lessons are meaningful, that they minimize the pressure, that group work and the students self-evaluation are given importance (Bacanlı, 2016).

***Motivating Primary School Students to Choose English as the Language of Instruction***

All over the world, parents and teachers struggle to understand why students seem less and less interested in school and school subjects with each passing day. In the past, the parents job was simply to prepare their child for school, to take him to school, and to ensure that homework was done regularly.

According to Sullo, “Our ideas about motivation are wrong; Drop-outs and indifference will increase as we continue to build education on reward and punishment. When we structure the school and classrooms with the idea of intrinsically motivated students, we can benefit from many of the innovations and advances in curriculum and teachers.”

In recent years, many students drop out of school or remain indifferent to school even if they do not. According to the Pisa 2020 results published by the OECD, it is stated that among OECD countries, approximately 25% of students have low school engagement and approximately 20% do not attend school regularly. It is also stated that these rates are even higher in non-OECD countries. Probably part of the problem is a lack of understanding of what really motivates students. Some views on ways to motivate students are given below. In our opinion, the teacher should banish fear from the classroom. “Fear is a great motivator, if I dont impose it on my classroom, I wont be doing my job. Despite a teacher who says that fear and pain are necessary for success, a student in a psychologically fearful environment cannot think and learn as effectively as a student who feels safe in a safe environment.

***Methodology***

We used a survey method to find out what motivates primary school students to choose English as their language of instruction. The survey was conducted among children in class 4B of private school called World School, located in Ajami Nakhchivani street, Baku city. The obtained results are recorded in the following table from the opinions of each student.

**Survey questions:**

What motivates you to choose English as a language of instruction?

Why do we need English?

***Results***

*Table 1*

Survey results - responses provided

| | | |
|---|---|---|
| Huseyn H. | **Q1** | I want to study in English in order to study abroad in the future. |
| | **Q2** | In my relatives, children of my age know English |
| Gunel Y. | **Q1** | My family really wants me to know English. I want to be their pride. |
| | **Q2** | If I know English, I can always communicate with foreigners. |
| Nermine M. | **Q1** | My family encourages me and says that if you know English, you can work in any job you want. |
| | **Q2** | My family is forcing me to learn English. |
| Sevda N. | **Q1** | I have always been interested in foreign languages. I also want to learn Russian. I am very motivated to understand songs especially in English. |
| | **Q2** | I like English language. |

**Source: prepared by author**

*Azeri students also make learning English an important part of their education life because of the long-term opportunities it will provide to them, such as being able to communicate with the whole world, have a good job, and follow current developments.*

**Discussion**

***The Importance Of Motivation In Learning A Foreign Language***

So, in general, how can we motivate students to learn foreign languages? We will talk about it in this part. It is widely accepted that motivation is one of the most important factors affecting the process in foreign language teaching. Many studies have been conducted on motivation in language teaching and the relationship between motivation and students academic success has been revealed. Afzal et al., investigating the relationship between university students motivation and academic achievement. (2010) student motivation is the element that directs student behavior in the learning process.

Motivational factors are predictors of academic success. In general, students who have long-term goals and are highly motivated can be better educated than those who do not have such goals. “Student motivation is accepted as one of the most important prerequisites for successful learning”. "When teachers are asked to describe the good student, they usually list features such as diligence and interest in the lesson.

Sometimes they simply reply, Good students are the ones who are motivated. Therefore, it can be said that motivated students are the type of student that all teachers desire. Shinn (2000) suggests to educators that each student can be asked to set a goal for himself in the foreign language learning process. However, these goals should be feasible and through them, students are guided towards a goal while learning a foreign language (Dornyei, 2019).

According to Demirel (2004), motivation is, in a way, establishing a psychological bond between the student and the subject to be learned. Motivation is also an indispensable factor in language learning. In particular, factors such as intrinsic motivation, positive attitude towards the learned language and culture are necessary factors for success in foreign language teaching (Dörnyei, 2018).

General approaches and certain actions to be taken to ensure positive motivation at school can be expressed with the following items (Dörnyei, 2018):

1. To develop a sense of self-confidence in the student.
2. Acting on the students current interests.
3. To make learning meaningful and valuable for the student.
4. To help everyone choose their own goals and projects.
5. To prepare an enjoyable environment for learning in the classroom.
6. Leveraging students ideals and passions.
7. Using positive reinforcers when necessary.
8. To strengthen the self-respect and self-confidence of the student.
9. To include various learning styles in the learning environment and to take into account the individual differences of the students.
10. To support creativity in the classroom.
11. Giving students feedback on their personal progress.

Difficulties and problems may be encountered in English preparatory classes, and some solutions to these problems are suggested below (Dornyei, 2019):

1. It can be started by learning to use and control internal motivation.
2. To see clearly the place of learning a foreign language in the target set in students lives and to perceive its achievements.
3. Be aware of life and developments and innovations in life; They should be able to see the table created by English with these innovations and understand the importance of language in this table.
4. He should accept that learning English is not a chore, it is a necessity, and he should be aware that he should start with love.
5. It is also important to understand the Hierarchy of Needs.

The phenomenon of motivation, which is valid for all lessons, is also valid for language. Motivation is the power that drives a person to achieve something. Eggen and Kauchak stated that motivation can be examined at two different levels in terms of learning. The first of these is general motivation to learn, and the second is specific motivation to learn. In general learning motivation, the individual struggles for knowledge in learning environments and this type of motivation is long-lasting. Specific learning motivation motivates students towards a particular lesson (Dornyei, 2019).

***Other Factors Affecting Foreign Language Learners Motivation***

Many factors such as the methods and techniques followed by the teacher, the classroom environment, the group the student is in, the students attitude towards language, the books and materials used, the number of students in the classroom, and the equipment can affect the motivation of students in the foreign language teaching process.

For a successful foreign language learning, it is important to use methods and techniques that positively affect students motivation, as well as methods and techniques that can increase their motivation in the classroom environment.

***Teaching Methods as a Motivation Tool***

There are various teaching methods commonly used in foreign language classrooms. According to Demirel, after the traditional grammar translation method, the direct method, the ear-tongue habit method, the cognitive learning approach, the natural method, the communicative approach and the elective method are used respectively. The traditional grammar translation method is also called the classical method and this method was not developed according to a certain learning theory.

The directive method, on the other hand, emerged as a reaction against the grammar-translation method and has been widely used in the world. In this method, learning by seeing and exemplifying is very important and it is ensured that the language is used intensively and that the students learn the target language by hearing the target language, not by mother tongue or translation, by the instructors who have command of the target language.

The ear-tongue habit method, which is another method, was developed by linguists such as Bloomfield, Brooks and Lado, who think that the classical grammar-translation method is not an effective method in foreign language. In addition, behavioral psychologists such as Skinner contributed to the development of this method.

Among the findings of the research, the first three types of motivation, which are the most adopted among the motivation types adopted by the students, emerged. Accordingly, integrative motivation comes first, followed by intrinsic and instrumental motivation.

In short, integrative motivation arises mostly from the desire to communicate with other people who speak the language to be learned. In fact, students learn that language, motivated by the desire to know the culture to which the target language belongs.

Intrinsic motivation, on the other hand, is trying to reach a goal in line with ones own inner desire, without any external reward or reward. In instrumental motivation, a persons desire to learn a language depends on some purpose, such as reading an article written in that language or finding a better job. It was also revealed that the higher the students integrative motivation, the higher their English grades. Students with high English proficiency were found to have higher integrative motivations than those with low English proficiency (Dornyei, 2019).

The results of the tests conducted by looking at the demographic characteristics of the students show that the presence of military personnel in the family of the students, the high or low monthly income or the English proficiency of the family do not affect the English motivation of the students. In the suggestions part of the study, while reminding the teachers that students should be motivated week by week, it is argued that teachers working in military schools should have more experience in military life.

In the classroom, it is recommended to increase motivation by creating real materials and situations. It is suggested that the use of various activities will attract students interest and enable them to be successful. The teacher should ensure that students are more aware of the English learning process and that students participate in classroom activities.

**Conclusion**

In this section, the conclusions and recommendations made in the light of the findings obtained from the research data are given. Below are the important results obtained from the research:

While there was no significant difference between the factors affecting motivation, understanding abroad and being able to relate abroad and the gender of the students, there was no significant difference between the factors of learning motivation, motivation to find a job abroad or in the country, motivation to facilitate domestic education and general motivation and gender. there is a significant

difference. Accordingly, the motivation of women was higher than that of men. The motivation of women was lower than men in terms of the factor of understanding abroad and establishing relations with abroad.

According to the results of the research, being able to find a better job is an important factor among the reasons why parents want their children to study English as their medium of instructions. As can be seen in the literature, one of the most important elements in ensuring the motivation of the person is meeting the basic needs of the person such as nutrition / shelter, as in Maslows hierarchy.

When the basic needs of the person are not met, it becomes difficult to provide motivation. According to the result here, students want a job that can meet their basic needs and they think that they need to learn English for a better job.

According to the results of the research, the factors of understanding abroad and establishing a relationship with abroad highly affect the motivation of students studying in English preparatory classes to learn English.

The results of this research revealed the importance of student motivation in language learning in foreign language preparatory classes. In our country, a common problem faced by educators and students for many years is the decrease or loss of motivation of students during foreign language learning.

Since learning a foreign language is a long-term and motivational process, the decreasing motivation of students over time reduces the interest in the lesson and becomes an exponentially growing problem for educators.

In our country, foreign language learning in primary education generally requires a preparatory education covering one year. In this process, the motivation of the students in the first days decreases over time for various reasons, and the students interest in foreign language decreases at the same rate.

The inevitable result of this is a mass of students and lecturers who have not reached the targeted level in the foreign language. Considering the importance of learning English in primary school education and in the following years, foreign language students who are boring and not motivated by thinking that they cannot learn are a problem faced in our education system for years.

## References

1. Aydin, E. (2022). Analysis of Motivation, Attitudes and Perceptions of TOBB University of Economics and Technology Students towards Learning English as a Foreign Language. (Masters Thesis). Hacettepe University, Ankara, 400 p.
2. Bacanli, H. (2016). Development and learning (12), Ankara: Nobel, 344 p.
3. Dornyei, Z. (2019). Motivation and Motivation in the Foreign Language Class. Journal of Modern Language, 78, 284 p.

4. Dornyei Z. (2019). Motivational Strategies in the Language Classroom, Cambridge: Cambridge University Press, 300 p.
5. Dornyei Z. (2005) "The psychology of the language learner: Individual differences in second language acquisition". Mahwah, NJ: Erlbaum.
6. Dörnyei Z., Csizer K. (1998) "Ten Commandments for Motivating Language Learners: Results of an Empirical Study Language Teaching Research", 2 (3), p.203-229.
7. Dörnyei, Z. (1994) "Motivation and Motivating in the Foreign Language Classroom". The Modern Language Journal, 78, 273-284
8. Eggen P., Kauchak D. (1994) "Educational Psychology Classroom Connections", USA: Macmillan Publishing Company, p.427
9. Engin, A. O. (2006). Yabancı dil (İngilizce) öğretiminde öğrenci başarısını etkileyen değişkenler. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 8 (2), 287- 310
10. Erkır, S. (2010). Yabancı dil olarak İngilizce öğretimi bağlamında Türkçeden İngilizceye çeviride internet kullanımının öğrencilerin hedef dil başarı düzeyleri üzerinde etkililiği, (Yayımlanmamış Doktora Tezi), Dokuz Eylül Üniversitesi/ Eğitim Bilimleri Enstitüsü, İzmir.

**М.Гулузаде**

## КОЛИЧЕСТВЕННЫЙ АНАЛИЗ МОТИВАЦИИ МЛАДШИХ ШКОЛЬНИКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

### РЕЗЮМЕ

Общепризнано, что мотивация является одним из важнейших факторов, влияющих на процесс обучения иностранному языку. Было проведено множество исследований мотивации в обучении языку, и была выявлена связь между мотивацией и успеваемостью студентов. Мотивация учащихся – это элемент, который направляет поведение учащихся в процессе обучения. Мотивационные факторы являются предикторами академического успеха. В целом учащиеся, имеющие долгосрочные цели и сильно мотивированные, могут быть лучше образованы, чем те, у кого таких целей нет. «Студенческая мотивация воспринимается как одна из важнейших предпосылок успешного обучения». «Когда учителей просят описать хорошего ученика, они обычно перечисляют такие черты, как усердие и интерес к уроку. Иногда они просто отвечают: «Хорошие ученики — это те, кто мотивирован». Следовательно, можно сказать, что мотивированные ученики — это тип ученика, которого желают все учителя.

Мотивация – это своего рода установление психологической связи между учеником и предметом изучения. Мотивация также является незаменимым фактором в изучении языка.

Многие факторы, такие как методы и приемы, используемые учителем, обстановка в классе, группа, в которой находится ученик, отношение учеников к языку, используемые книги и материалы, количество учеников в классе и оборудование, могут повлиять на качество обучения. мотивация студентов в процессе обучения иностранному языку. Для успешного изучения иностранного языка важно использовать методы и приемы, положительно влияющие на мотивацию учащихся, а также методы и приемы, способные повысить их мотивацию в учебной среде.

Все это очень важно в языковом образовании в нашей современной жизни. Исходя из этого, мы проведем исследование, чтобы объяснить роль мотивации учащихся начальных классов, выбирающих английский язык в качестве языка обучения, - почему они интересуются английским языком. В исследовании, во-первых, после предоставления общей информации, будут изложены результаты, полученные путем выполнения небольшого запроса в школе «Дуня».

**Ключевые слова: учащиеся начальных классов, язык обучения, английский язык, роль мотивации.**

**M.Quluzadə**

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İNGİLİS DİLİNDƏ TƏHSİLİ DÖVRÜNDƏ MOTİVASİYALARININ KƏMİYYƏTİ TƏHLİLİ

### XÜLASƏ

Xarici dilin tədrisində prosesə təsir edən ən mühüm amillərdən biri motivasiya olduğu geniş şəkildə qəbul edilir. Dil tədrisində motivasiya ilə bağlı çoxlu araşdırmalar aparılıb və motivasiya ilə tələbələrin akademik uğurları arasında əlaqə aşkarlanıb. Tələbə motivasiyası təlim prosesində şagird davranışını istiqamətləndirən elementdir. Motivasiya faktorları akademik uğurun göstəriciləridir. Ümumiyyətlə, uzunmüddətli hədəfləri olan və yüksək motivasiyaya malik olan tələbələr, belə məqsədləri olmayanlardan daha yaxşı təhsil ala bilərlər. “Tələbə motivasiyası müvəffəqiyyətli təhsil üçün ən vacib ilkin şərtlərdən biri kimi qəbul edilir”. "Müəllimlərdən yaxşı şagirdi təsvir etmələri istənildikdə, onlar adətən çalışqanlıq və dərsə maraq kimi xüsusiyyətləri sadalayırlar. Bəzən sadəcə olaraq cavab verirlər ki, yaxşı tələbələr motivasiya olunanlardır. Ona görə də demək olar ki, motivasiyalı şagirdlər bu tipdir: bütün müəllimlərin arzuladığı tələbə.

Motivasiya, bir növ, şagirdlə öyrəniləcək mövzu arasında psixoloji əlaqə yaratmaqdır. Motivasiya həm də dil öyrənilməsində əvəzolunmaz amildir.

Müəllimin izlədiyi metod və üsullar, sinif mühiti, şagirdin olduğu qrup, tələbələrin dilə münasibəti, istifadə olunan kitab və materiallar, sinifdəki şagird sayı, avadanlıq kimi bir çox amil təsir edə bilər. xarici dilin tədrisi prosesində tələbələrin motivasiyası. Xarici dilin uğurlu öyrənilməsi üçün şagirdlərin motivasiyasına müsbət təsir göstərən metod və üsullardan, eləcə də sinif mühitində onların motivasiyasını artıra biləcək üsul və üsullardan istifadə etmək vacibdir.

Bütün bunlar müasir həyatımızda dil təhsilində çox vacibdir. Buna əsaslanaraq, ibtidai sinif şagirdlərinin ingilis dilini tədris dili kimi seçməsində motivasiyanın rolunu - onların ingilis dilinə niyə maraq göstərdiyini izah etmək üçün araşdırma aparacağıq. Araşdırmada ilk olaraq ümumi məlumat verildikdən sonra Dunyai məktəbində kiçik sorğu aparılaraq əldə edilən nəticələr ifadə olunacaq.

**Açar sözlər: İbtidai sinif şagirdləri, Tədris dili, ingilis dili, Motivasiyanın rolu**

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya elmləri doktoru Azərbaycan Dillər Universitetinin professoru AZAD YƏHYA OĞLU MƏMMƏDOV tərəfindən çapa tövsiyə olunmuşdur**

**AYSEL ŞAVAAT QIZI FƏTƏLİYEVA**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
**ayselfeteliyeva00@gmail.com**

# XARİCİ DİL TƏDRİSİNDƏ NITQ TAPŞIRIQLARI

**Xülasə**

Məqalənin əsas əhəmiyyəti müasir dövrdə xarici dilin tədrisində nitq tapşırıqlarını tətbiqidir. Son illərdə təhsil sahəsində ünsiyyətə getdikcə daha çox maraq artır. Nitq tapşırıqları xarici dilin tədrisinin əsas vahidi hesab olunur. İndi bir çox dilçilər və müəllimlər tələbələrin "qarşılıqlı əlaqə" ilə ikinci dildə danışmağı öyrənmələrini fikirləşirlər. Kommunikativ dil tədrisi və birgə öyrənmə bu məqsədə ən yaxşı şəkildə xidmət edir. Kommunikativ dil tədrisi ünsiyyət tələb edən real həyat vəziyyətlərinə əsaslanır. Dərslərdə bu üsuldan istifadə etməklə tələbələr bir-biri ilə xarici dildə ünsiyyət qurmaq imkanı əldə edəcəklər. Qısaca desək, tələbələrin real həyatda ünsiyyət, real fəaliyyətlər və şifahi dili inkişaf etdirən mənalı tapşırıqları olduğu bir sinif mühiti yaratmalıdır. Bu, tələbələr məqsədə çatmaq və ya tapşırığı yerinə yetirmək üçün qruplar şəklində əməkdaşlıq etdikdə baş verə bilər.Sonda belə bir neticəyə gəmək olar ki, tapşırıqların tipologiyasının öyrənilməsi xarici dillərin tədrisinin keyfiyyətini artıra bilər. Şagirdlərin müstəqil olaraq öz fikirlərini formalaşdırmaq, öz təcrübələrindən və düşüncələrindən məntiqi nəticə çıxarmaq, fikirlərini aydın ifadə etmək, bir-birlərinin fikirlərindən yararlanmaq üçün nitq tapşırıqları vacibdir.

**Açar sözlər:** xarici dil, ünsiyyət, tapşırıq, nitq, tələbə, müəllim, nümunə, fikir.

Bu gün bir çox insan ingilis dilini öyrənmək və ya uşaqlarının ingilis dilini yaxşı bilməsini istəyirlər. İngilis dilini öyrənmək müasir dövrdə çox çətin deyil, bəzi insanlar xarici dili səyahət, internet və ya media vasitəsilə öyrənirlər və inkişaf elətdirirlər. Müasir dünya şifahi öyrənmə məqsədinin şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirməsini tələb edir, çünki yalnız bu şəkildə şagirdlər özlərini ifadə edə və hər ünsiyyət vəziyyətinə uyğun sosial və mədəni qaydalara riayət etməyi öyrənə bilərlər. Uğurlu nitq fəaliyyətinə və qrammatik bacarıqların formalaşmasına kömək edən əsas amillərdən biridə tapşırıqlardır. Onlar dil bacarıqlarını formalaşdırır, inkişaf etdirir və təkmilləşdirirlər. Ümumiyyətlə, tələbələr öz qrammatikasını çox məşq etməlidirlər, lakin bunu necə edəcəkləri yalnız müəllimdən asılıdır. Yaxşı müəllim yadda saxlamalıdır ki, şagirdlər tapşırıqları təkcə zərurət olaraq deyil, məmnuniyyətlə yerinə yetirəcəklər. G. Rogova qeyd etmişdi ki, tapşırıqlar müxtəlif xüsusiyyətlərinə görə bölünə bilər:

Tələffüzü inkişaf etdirmək üçün tapşırıqlar;

Lüğətin mənimsənilməsi üçün tapşırıqlar;

Nitqin inkişafı üçün tapşırıqlar;

Oxumağı inkişaf etdirmək üçün tapşırıqlar;

Qrammatik tapşırıqlar.

Tələffüzü inkişaf etdirmək üçün tapşırıqlar şagirdlərə düzgün tələffüzü əldə etməyə kömək etməlidir. Bu məqsədlə xüsusi tapşırıqlar nəzərdə tutulmalıdır, o cümlədən tələbələrin səsləri, vurğuları və ya melodiyaları ayırd etmək bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulmalıdır. Lüğətin mənimsənilməsi üçün tapşırıqlar şagirdlərə danışıq və yazı zamanı sözlərdən istifadə etmək, dinləmə və oxuma zamanı onları tanımaq vərdişləri və bacarıqları əldə etməyə kömək etməlidir. Lüğət təlimlərinin əksəriyyəti təbiətcə kommunikativ olmalıdır:

1) Onlar təbii söhbət suallarını, ifadələri, nida cümlələrini təqdim etməlidirlər;

2) Tələbələrin fəaliyyəti ilə məntiqi əlaqadə olmalıdır;

3) Tələbələrin mühitini əks etdirməlidir;

Şagirdləri aktiv lüğətdən istifadə etməyə həvəsləndirməlidir.

Bütün mərhələlərdə nitqin inkişafı üçün tapşırıqlar şagirdləri mənimsənilən material daxilində söhbəti davam etdirməyə hazırlamalıdır. Oxumağı inkişaf etdirmək üçün məşqlər şagirdlərə mətni oxumaq və başa düşmək üçün lazım olan bütün bacarıqları əldə etməyə kömək etməlidir. Nitq tapşırıqlarına aşağıdakılar daxildir:

1) Qrammatik ("Feilləri uyğun şəxsə qoyun", "Mötərizələri açın və feili düzgün zaman formasına qoyun" və s.);

2) Leksik ("Sözləri sinonimlərlə əvəz edin", "Uyğun sözlər daxil edin", "Sözləri qruplaşdırın" və s.)

3) Fonetik ("sözləri tələffüz metoduna görə qruplaşdırın", "Sözləri oxuyun" və s.).

Müasir xarici dil dərslərində nitq tapşırıqları üstünlük təşkil edir. Onlar 60-cı illərdə xarici dillərin tədrisi metodologiyasına daxil edilmişdir. Təbii kommunikativ vəziyyəti təqlid edən bu tapşırıqlar təlim mühitində kommunikativ bacarıqları formalaşdırır. Nitq tapşırıqlarına təkrar etmek, öz fikrini bildirmək, təsvir etmək aiddir. Adi "keçmiş zamanda işlədin" əvəzinə "mən adətən etdiyim işlərdən danışacağam və siz bunu əvvəllər edib-etmədiyinizi mənə danışacaqsız"deyə bilərsiniz. Tapşırıq sisteminin əhəmiyyəti ondan ibarətdir ki, o, assimilyasiya prosesinin təşkilini və təlim prosesinin təşkilini təmin edir.

Tapşırıqlar toplusu keyfiyyəti, kəmiyyəti, növ və yarımnövlərinin ardıcıllığı və nisbəti bacarıqların formalaşdırılmasıdır. Bir sıra tapşırıqları hazırlayarkən, dil hadisələrinin öyrənilməsinin müvəffəqiyyətinə təsir edən bir sıra amilləri nəzərə almaq lazımdır, yəni:

1) Məqsəd (hədəf qoyulması);

2) Linqvistik forma və məzmun;

3) Tapşırıq üçün ayrılmış müəyyən vaxt;

4) Nəticə;
5) Material (mətn, şəkillər, diaqramlar, xəritələr və s.);
6) Tapşırığın yerinə yetirilməsi üsulu (şifahi, yazılı);
7) Təşkil formaları (fərdi, qrup şəklində və s.).

Nitq tapşırıqlarına aid nümunələr:

**Exercise №1. Make up sentence.**

For example: We/on/out of/town/weekends/like/to go/.
We like to go out of town on weekends.
1. Sara/the/always/with/help/housework/tries/her/ to/mother/.
2. My/is/of/knitting/dishes/aunt/fond/different/ cooking/and/.
3. Ann/a/good-looking/with/blue/hair/is/wavy/ brown/woman/eyes/and/.
4. Tom`s/not/big/but/family/very/is/either/it/ small/not/is/very/.
5. All/members/enjoy/our/of/having/together/ supper/family/.

Tapşırıq nömrə birin əsas məqsədi şagirdlərdə düzgün cümlə qurmaq bacarığını formalaşdırmaqdır. Şagirdlər bu tapşırığı yazarkən həm də qrammatik qaydalarıda təkrarlamış olurlar. Bəzi şagirdlər qrammatikanı və sözlərin tərcüməsini əzbər bilirlər lakin bu sözləri və qrammatikanı öz danışıqlarında istifadə edə bilmirlər. Bu növ nitq tapşırıqlarının köməyi ilə şagirdlər öz nitqlərini daha da inkişaf etdirə bilərlər.

**Exercise №2. Read this statement and discuss the problem of fathers and children by answering questions.**

The generation gap is the difference in ideas, feelings and interests between older and younger people, especially considered as causing a lack of understanding. 1. When do children start feeling the difference in ideas and interests between them and their parents? 2. Do you think the generation gap is a natural phenomenon? Why? 3. Explain the following words that belong to J.Korch: «There are no children — there are people, but with their own thoughts, their own source of experience, their own desires and feelings» 4. Do you think it is necessary for young people to find a mutual language with adults? Why? 5. Is it necessary to respect elderly people? 6. Do you want to be independent? 7. Do you have problems of misunderstanding with your parents?

Bu tapşırıq həm leksik, həm də qrammatik şifahi nitq bacarıqlarını inkişaf etdirir. Tapşırıq müəllimlə tələbələr arasında “sual-cavab” şəklində dialoqdur, ona görə də bu tapşırığın icrası zamanı suallara cavab vermək bacarığı kimi leksik bacarıqlar inkişaf etdirilir. Beləliklə, şifahi nitq ünsiyyəti sinifdə təsadüfi söhbət şəklində həyata keçirilir.

**Hekayələr və səhnəciklər.**

Rol oyunları və simulyasiyalar situativ çalışmalar içərisində ən çox istifadə olunanlar və ən effektiv olanlardır desək yanılmarıq. Rol oyunu ilə simulyasiya

arasında aydın şəkildə fərq qoymaq asan deyil. Hər ikisi də gerçək həyatın bir parçasını əks etdirən oyun formalarıdır.

Tələbələr özlərini müxtəlif sosial kontekstlərdə olduqlarını və müxtəlif sosial rollara malik olduqlarını iddia edirlər. Rol oyunu fəaliyyətlərində müəllim şagirdlərə onların kim olduqları, nə düşündükləri və ya hiss etdikləri kimi məlumat verir. Bir qayda olaraq simulyasiyalar daha yüksək səviyyədə qurulub və məzmunu və prosedurunda daha müxtəlif elementlər ehtiva edir. 'Simulyasiyalar, oyunçuların rollarda iştirak etdikləri real sosial proseslərin və ya ünsiyyətin sadələşdirilmiş nümunələridir. Simulyasiyalardan fərqli olaraq, rol oyunları daha çox qısa səhnələrdən ibarətdir. Bu rol oyunları gerçək həyatdan götürülmüş situasiyaların canlandırılması da ola bilər. Məsələn, alış-verişdə, restoranda, aeroportda və s. olan situasiyanı canlandırmaqla tətbiq oluna bilər. Rol oyunları, oyunçuların həm xarici dilin özü, həm də oynanan xüsusi rol baxımından xarici dildən düzgün və adekvat istifadə etmələri üçün ən çox tələb olunan xarici dil situasiyalarıdır.

Rol oyunları daha çox tələbələrin dil bacarıqlarını inkişaf etdirdiyi halda, simulyasiyalar dörd bacarığı da inkişaf etdirir. Telephoning (telefon etmək), talk show (söhbət şouları), controversy in the school (məktəbdə mübahisə), interview for a job (iş müsahibəsi), making a radio programme (radio proqram hazırlamaq) kimi müxtəlif rol oyunları və simulyasiya çalışmaları mövcuddur.

**Müsahibə**

Tələbələr müxtəlif insanlarla seçilmiş mövzular üzrə müsahibələr apara bilərlər. Müəllim tələbələrə hansı növ suallar verə biləcəklərini və ya hansı yolu izləməli olduqlarını bilmək üçün onlara rubrika təqdim edir, lakin tələbələr özləri müsahibə suallarını hazırlamalıdırlar. İnsanlarla müsahibələrin keçirilməsi tələbələrə nitq qabiliyyətini təkcə sinifdə deyil, həm də kənarda məşq etmək şansı verir və onların sosiallaşmasına kömək edir. Müsahibədən sonra hər bir tələbə öz işini sinifə təqdim edə bilər. Üstəlik, tələbələr bir-birindən müsahibə götürə və tərəfdaşını sinifə "tanıda" bilərlər.

Danışıq öyrətmək ikinci dil öyrənmənin çox vacib hissəsidir. İkinci dildə aydın və səmərəli ünsiyyət qurmaq bacarığı şagirdin məktəbdəki uğuruna və sonrakı həyatın hər mərhələsində uğur qazanmasına kömək edir. Ona görə də dil müəllimlərinin nitqin öyrədilməsinə böyük diqqət yetirmələri vacibdir. Tələbələri təmiz əzbərləməyə aparmaq əvəzinə, mənalı ünsiyyətin baş verdiyi zəngin bir mühit təmin etmək məsləhətdir. Bu məqsədlə yuxarıda sadalananlar kimi müxtəlif nitq fəaliyyətləri həyat üçün zəruri olan əsas interaktiv bacarıqların inkişaf etdirilməsində tələbələrə böyük töhfə verə bilər. Bu fəaliyyətlər şagirdləri təlim prosesində daha fəal edir və eyni zamanda öyrənmələrini onlar üçün daha mənalı və əyləncəli edir.

**Ədəbiyyat:**

1. Alekseeva D.N. Methods of teaching foreign languages [Text]. - St. Petersburg, 2005. - 256 p.
2. Friederike Klippel. Keep Talking. Communicative fluency activities for language teaching. Cambridge, London, New York, New Rochelle, Melbourne, Sydney: Cambridge University Press, 1985. 206 p
3. Пассов Е.И. Основы методики обучения иностранным языкам.— М.: Русский язык, 1977.— 216 с.
4. Пассов Е.И. Сорок лет спустя, или сто и одна методическая идея. — М.: Глосса-Пресс,2006.— 240 с.
5. Рахманов И.В. Обучение устной речи на иностранном языке.— М., 1980.— 120 с.
6. Тополева О.В. Комплекс упражнений, направленный на формирование лингвострановедческой компетенции студентов // Языковое образование в вузе / под ред. М.К. Колковой.— СПб.: Каро, 2005.— С. 88–101.

**АЙСЕЛЬ ФАТАЛИЕВА**

## РЕЧЕВЫЕ ЗАДАНИЯ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

**РЕЗЮМЕ**

Основное цель статьи заключается в применение речевых заданий при обучении иностранному языку в современную эпоху. В последние годы наблюдается интерес к коммуникации в сфере образования. Речевые задания считаются основной единицей обучения иностранному языку. Сейчас многие лингвисты и преподаватели считают необходимым, чтобы студенты учились говорить на втором языке путем «взаимодействия». Коммуникативное обучение языку и совместное обучение лучше всего служат для этой цели. Обучение коммуникативному языку основано на реальных жизненных ситуациях, требующих общения. Используя этот метод на занятиях, студенты получат возможность общаться друг с другом на иностранном языке. Короче говоря, это должно создать классную среду, в которой учащиеся имеют значимые задачи, которые развивают реальное общение, реальную деятельность и словесный язык. Это может произойти, когда учащиеся сотрудничают в группах для достижения цели или выполнения задачи. В конце концов, можно прийти к такому выводу, что изучение типологии заданий может повысить качество обучения иностранному языку. Речевые задания важны для того, чтобы учащиеся могли самостоятельно формулировать свои

мысли, делать логические выводы из собственного опыта и мыслей, четко выражать свои мысли, пользоваться мнениями друг друга.

**Ключевые слова**: иностранный язык, общение, задание, речь, студент, учитель, пример, идея.

**AYSEL FETELIYEVA**

## SPEECH TASKS IN FOREIGN LANGUAGE TEACHING

## SUMMARY

The main importance of the article is the using of speech tasks in foreign language teaching in modern era. In recent years, there has been an increasing interest in communication in the field of education. Speech tasks are considered the main unit of foreign language teaching. Now many linguists and teachers consider it necessary for students to learn to speak a second language by "interaction". Communicative language teaching and collaborative learning best serve for this aim. Communicative language teaching is based on real life situations that require communication. Using this method in classes, students will have the opportunity to communicate with each other in a foreign language. In brief, it should create a classroom environment where students have meaningful tasks that develop real-life communication, real activities, and verbal language. This can happen when students collaborate in groups to achieve a goal or complete a task. Finally, it can be concluded that the study of the typology of exercises can improve the quality of teaching foreign languages. Speaking tasks are important for students to form their own opinions independently, draw logical conclusions from their experiences and thoughts, express their opinions clearly, and use each other's opinions.

**Key words:** foreign language, communication, task, speech, student, teacher, example, idea.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: f.ü.f.d.dos.Faidə İsayeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**KƏRİMOVA ŞƏRQİYYƏ ELBRUS QIZI**
Odlar yurdu Universiteti
Sshashaa48@gmail.com

# ƏNƏNƏVİ VƏ FƏAL TƏLİMİN MÜQAYISƏLI ÖYRƏDILMƏSI YOLLARI

**Açar sözlər:** interaktiv öyrənmə , ənənəvi təhsil, təhsilin inkişafi, metod, dil
**Key word:** interactive learning, traditional education, development of technology, method, language.
**Ключевые слова**: интерактивное обучение, традиционное обучение, развитие образования, метод, язык

İngilis dilinn tədrisində interaktiv yanaşma ölkəmizdə olduqca yenidir və təhsili keyfiyyətini yaxşılaşdırmaq üçün bir vasitədir. Məqsəd aktiv öyrənmə üçün əlverişli bir öyrənmə mühiti yaratmaqdır. Bu gün təlim prosesindəki interaktiv yanaşma yenilikçi bir prosesdən danışan fəaliyyət növüdür. İnteraktiv təlim metodu ilə öyrənməyi nəzərdə tutur, ünsiyyətə istiqamətlənmişdir.

Əsas hədəflərdən biri, interaktiv təlim, təhsil alanların ümumi inkişafı, formalaşması müstəqil düşüncə və idrak qabiliyyətinə malik şəxsiyyət fəaliyyətləridir. İnteraktiv təlim, metodlarından istifadə edərək, tədris edənin vəzifəsi, yanaşması təhsil fəaliyyətinin inkişafını təmin etməkdir. Mütəşəkkil fəaliyyətlərdə, tədris edənlər özləri çalışırlar ki, öyrənənin fəaliyyətinin nəticəsi yüksək səviyyədə olsun. Təhsil prosesinin təkmilləşdirilməsi və məktəblərdə interaktiv yanaşma tətbiq olunur ki, bir çox alim və müəllimin diqqətini fəal təlimə cəlb edərək bu mövzuya yanaşmanın mahiyyətini açan bir çox ədəbiyyat yazılmışdı.

T.S. Panina "interaktiv öyrənmə" nin aşağıdakı tərifini verir - birgə fəaliyyət formalarında həyata keçirilən bir idrak yoludur, təhsil prosesinin bütün iştirak edənlər qarşılıqlı bir-biri ilə əlaqə qurur, məlumat mübadiləsi, birgə həll etmək yolu, vəziyyətləri simulyasiya etmək, bir-birinin hərəkətlərini və özlərinin davranışını qiymətləndirmək, əsl işgüzar atmosferində iş birliyinin nəticəsində problemlərin həll edilməsidir[4, s.11].

"İnteraktiv qarşılıqlı təsir" termini yuxarıda sadaladığımız tərifl ərə əsasən deyə bilərik ki, interaktiv təlim qarşılıqlı əlaqəyə əsaslanır. İnteraktiv öyrənməni təmin etmək, tam xüsusiyyətlərini açıqlamaq lazımdır.

S.S. tərifinə görə Kashleva, “interaktiv təlim pedaqoji qarşılıqlı əlaqə" dir, bir müəllimin gücləndirilmiş, məqsədyönlü fəaliyyətidir və inkişaf məqsədi ilə qarşılıqlı əlaqənin təşkil edir [5, s.35].

Korotaeva E.V.-yə görə, təhsil alanın fəaliyyəti interaktiv təlim zamanı qarşılıqlı inkişaf edir, həm də rəqabət üçün şərait yaradır. Qarşılıqlı tədris

müddətində bir tələbənin ifadəsi digər tələbələrin reaksiyasına səbəb olur [6, s.42]. İnteraktiv təlim zamanı öyrənmək, mənimsəmək prosesi mühüm rol oynayır.

İnsan cəmiyyəti öz inkişafı prosesində elə bir nöqtəyə gəlib çatır ki, burada əvvəllər son dərəcə məhdud sayda olan və ayrı-ayrı tayfalar, qəbilələr çərçivəsinə sığışa bilən ictimai xalqlar artıq mövcud çərçivəyə sığmayaraq, ondan kənara çıxmaq və özünə daha geniş meydan axtarmağa başlayır. Xarici dillərin öyrənilməsinin əhəmiyyəti ictimai hadisə olan dilin insan cəmiyyətindəki rolu və funksiyası ilə izah olunur. Ayrı-ayrı xalqlar və millətlər arasında ünsiyyət ehtiyacı hiss olunan ilk andan xarici dillərin öyrənilməsi həyati bir zərurət kimi meydana çıxmışsa, istehsalın və ticarətin, ədəbiyyatın və incəsənətin, elm və texnikanın, ümumiyyətlə, insan cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq onun əhəmiyyəti, vacibliyi bir daha artmışdır.

Tarixdə baş verən saysız-hesabsız hadisələrin dillərin statusunda nə kimi əhəmiyyəti olduğunu nəzərə alsaq, İngilis dilinin gündən-günə inkişaf etməsi və dünyanın beynəlxalq dilləri arasında öz yerini möhkəmləndirməsini bütün bunların məntiqi nəticəsi də adlandıra bilərik. Maraqlısı da odur ki bu dilə olan istər maraq, istərsə də ehtiyac azalmır, əksinə gündən-günə daha da artaraq bütün diqqətləri öz üzərində toplamağı bacarır. Elə buna görədir ki, bu gün sayı yüzlərlə, minlərlə ölçülən yanaşma, metodika, üsul vasitə və s. meydana çıxır və hamısı dili daha asan və tez öyrənmək kimi bir vəzifəyə xidmət edir. Hər yeni bir metod, vasitə və s. yarandıqca təlimə fərqlilik , özünəməxsusluq gətirir , köhnə və yeni və ya ənənəvi və innovativ adlanan və ikiyə bölünən "dairəni" daha da genişləndirir.

İstər ənənəvi, istərsə də fəal metodların iki aparıcı qüvvəsi var - müəllim və şagird. Bəs əsas fərq nədən ibarətdir?

Ənənəvi təlimdə müəllim- ilk növbədə təlimin ən önəmli ünsürü olan müəllimdən başlamaq təsdüfi deyil. O, tədris prosesinin ən önəmli iki tərəfindən biridir. Tədrisi yönləndirən, onu həyata keçirəndir. Bəli, ənənəvi metodda müəllim həqiqətəndə təlimi yönləndirir. Başqa sözlə ifadə etsək, bu təlim tipini müəllimsiz təsəvvür etmək mümkün deyil. Çünki, burada müəllim məlumatın əsas qaynaqlarından biridir. Digər qaynaq isə dərslik vasitəsidir. Müəllim dərslikdəki məlumatlara şagirlərə çatdırır, izah edir və növbəti dərs günündə olduğu kimi tələb edir. Bununla şagird dərslikdəki məlumatla kifayətlənir və onu olduğu kimi qəbul edir. Beləliklə, müəllim ən vacib vəzifəsini yerinə yetirir- biliyi şagirdə ötürür və ötürülməsinə şərait yaradır.

Bu təlim növündə dərsin çox hissəsi müəllimin danışığına ayrılır və sualların cavablayan tərəf daim müəllim olur. Əslində bu özü müəllimin çiyinlərinə böyük bir məsuliyyət qoyur, dərs prosesinin əvvəlindən sonuna kimi onu aktiv olan tərəfə çevirir. Ona görə də onu müəllim yönümlü (teacher-centered) təhsil adlandırırlar.

Müəllim və şagird münasibətlərinə gəldikdə, burada avtoritar üslubun üstünlük təşkil etməsi nəzərə çarpır. Belə münasibət bəzən onlar arasında olan əməkdaşlıq, bir-birini anlama kimi məsələlərdə çətinlik yaradır.

Ənənəvi təhsil sistemi bütünlükdə müəllimin auditoriyada olan fəaliy-yətinə, onun bilik və bacarıqlarının tələbəyə köçürülməsinə, tələbələrin passiv dinləyici kimi dərs prosesində yalnız mühazirə dinləməsinə və qeydlər götür-məsinə əsaslanmışdır.

Fəal təlimdə müəllim- bu metodda müəllimin funksiyalarına gəldikdə ilk öncə onu qeyd edə bilərəm ki, burada müəllimin rolu tamamilə yeni forma almışdır. Müasir təlimi təsvir edərkən müəllimin bir deyil bir neçə funksiyası qeyd olunur:

a) fasilitator, bələdçi (facilitator)
b) məlumat verən (informer)
c) idarə edən (manager)
d) müşahidəçi (monitor)
e) məlumat mənbəyi (resource)
f) tərtibatçı (planner) və s.

a) İlk növbədə qeyd etdiyimiz fasilitator mövqeyi təlimdə yön, istiqamət verən mənasına gəlir. Yəni, burada müəllim şagirdə biliyi necə əldə etməyi öyrədir. Bunu öyrənməyi öyrətmək də adlandıra bilərik. Bütün bunlar şagirdlə müəllimin birgə fəaliyyəti sayəsində həyata keçir. Belə ki, öyrədən tərəf öyrənən tərəf üçün problem-vəziyyəti təşkil edir, bu problemi necə həll etməyin yollarını göstərir. Nəticədə problem şagirdin özü tərəfindən həll olunur. Amma bu o demək deyil ki, müəllim bu situasiyada kənarda qalır, əksinə o, elə bir şərait yaradır ki, şagird daim onun dəstəyini hiss edə bilir.

b)Məlumat verən- müəllimin ən başlıca funksiyalarından biridir. Əslində bu funksiya ənənəvi metodda da mövcuddur. Yeganə fərq ondadır ki, innovativ təlim şəraitində təhsil alan şagird məlumatı birinci və ən əsas mənbədən-müəllimdən almaqla və dərslikdən mənimsəməklə bərabər, bu məlumat dairəsini genişləndirməyə davam edir.

Bu mövqe şagirdlərin dərs müddətində etdikləri fərdi (individual work ), cütlüklərlə iş ( pair work), qrup işlərində (group work) də köməyinə çatır. Belə ki, bunlardan hər hansı birini yerinə yetirərkən müəllim detallı bir şəkildə məlumatı onlara çatdırır. Burada təlimatçı (instructor) vəzifəsini də yerinə yetirmiş olur.

c)Hər bir şəxsiyyətin formalaşmasında onun ətraf mühiti, ailəsi, aldığı tərbiyə böyük əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, insanın formalaşması prosesinin müəyyən müddəti məhz məktəb vaxtına təsadüf edir, onda müəllimin idarə edən mövqeyini daha aydın başa düşmüş olarıq. Müəllim valideynlərindən sonra şagirdə nümunə olan ikinci şəxs qismində çıxış edir. Bu nümunənin biliyi, hər bir davranışı, münasibəti, yanaşma tərzi, etikası, hətta geyimi belə böyük bir nəsli yetişdirir. Ənənəvi təhsildə də mövcud olan amma bir qədər yenilənmiş, modern düşüncəyə sahib bu nümunə fəal təlimdə şagirdlərə olan münasibətilə fərqlənir və onların rəğbətini qazanmağı bacarır.

İdarə edən təkcə təbii ki, müəllim-şagird münasibətində deyil, həm də tədris prosesində özünü göstərir. Belə ki, dərs prosesində idarəçilik mövqeyində olan

müəllim sinifdaxili qaydaları təyin edir, onlara əməl olunmasına ciddi şəkildə nəzarət edir.

d)Müşahidəçi rolu- əslində müəllim üçün vacib olan ən önəmli roldur. Çünki, yalnız bu yolla o şagirdlərin güclü və zəif nöqtələrini təyin edə bilər. Yaxşı bir müəllim həm də yaxşı psixoloq olmalıdır. O, uşaqları daim müşahidə etməli, onlar arasındakı münasibətdən xəbərdar olmalıdır. İstər fərdi (individual work ), istər cütlüklərlə iş ( pair work), istərsə də qrup işlərində (group work) müəllim şagirdlərlə yaxından maraqlanmalı, həmişə onların yanında olduğu hiss etdirməlidir.

e)Məlumat mənbəyi- bu rola da müəyyən mənada ənənəvi metodda rast gəlmişik. Lakin yenə də müəyyən fərqlər özünü göstərir. Birinci növbədə onu qeyd edim ki, innovativ atmosferdə təhsil alan şagird bir mənbəni bilik əldə etmək üçün yetərli saymır, durmadan araşdıran qismində çıxış edir. Təbii ki, müəllim də şagirdlərlə paralel olaraq yeni məlumatları tədqiq edir, eyni zamanda araşdırma yollarını onlarla bölüşür. Onu qeyd edim ki, bütün bunlar müəllimin məlumat mənbəyi kimi mövqeyini azaltmır, əksinə onu şagirdin gözündə ən etibarlı mənbə kimi yüksəldir. Qarşıya çıxan istəlin çətin vəziyyətlərdə şagirdlər şübhəsiz bu mənbəyə yönəlir və problemin həlli yollarını tapır.

f)Tərtibatçı rolunu bir qədər dərsdən kənar cərəyan edən bir proses adlandırmaq olar. Belə adlandırmağımı onunla əlaqələndirə bilərəm ki, bu vəzifəsində müəllim mövzunu, onlara ayırdığı vaxtı, mənimsəməni yoxlamaq məqsədilə seçdiyi fəaliyyətləri əvvəlcədən tərtib edir, hazırlayır. Amma dərs prosesinin bəzən proqnozlaşdırdığımız kimi keçməməyi qaçınılmazdır. Belə ki, bu, mövzuların çətinlik dərəcəsindən, şagirdlərin qavramasından və s. asılı olaraq dəyişə bilir. Bu hallarla qarşılaşdıqda yenə də əsas məsuliyyət müəllimin üzərinə düşür və fəal təlimi həyata keçirən müəllim zamanı əsas götürərək hər bir halda tədbirini əldən vermir.

Onu da qeyd edim ki, innovativ təlimin bizə təqdim etdiyi müəllim çox yenilikçi , modern düşüncəyə malikdir. O, bəzən hətta burada qeyd olunanlardan əlavə vəzifələr də daşıyır. Bununla da yeni əsrin mükəmməl müəllim modeli formalaşır.

Ənənəvi təlimdə şagird- müəllim yönümlü təhsil mühitində tədris aldığı üçün burada onun bir qədər passivliyinin şahidi oluruq. O, müəllimin izahını, mülahizələrini dinləyir, onları dərslikdən oxuyaraq möhkəmləndirir. Belə tip şagird axtarmağa, yeni məlumat mənbələri araşdırmaqda maraqlı deyil. Eyni zamanda mühitin təsiri ilə də əlaqədar olaraq yeni mənbələr araşdırma, təhlil etmə, texnologiyadan istifadə kimi bu və ya digər yeni təlim vasitələrindən də uzaqdır. Bunların olmaması şagird –müəllim, şagird-şagird əməkdaşlığını da geri planda qoyur.

Eyni zamanda yeni kurrikulum sistemindən fərqli olaraq, burada müəllimdə motivasiya azlığı hiss olunur və bu şagirdə də müəyyən mənada yansımış olur. Bu da

burada əsas məqsədin şagirdə məlumatların düzgün ötürülməsindən ibarət olduğunu göstərir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. // ARTPİ-nin elmi əsərləri //, Bakı, 2006, s. 132.
2. A.Mehrabov. Təhsilin demokratikləşməsi: problemlər, vəzifələr. //Təhsil, mədəniyyət və incəsənət, Bakı, №4, 2001
3. Bakalavr pilləsi üçün "Xarici dillərin tədrisi metodikası" fənni üzrə proqram, Bakı, 2003.s22-29
4. Bünyadova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000. S 27-22
5. Babayev C. İngilis dilinin tədrisi və rast gəlinən problemlər. Naxçıvan, 2020, s.1-13.
6. M.Mərdanov Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr... Bakı, 2001.
7. M.Mərdanov, A.Mehrabov, T.Qardaşov Təlim-tərbiyə prosesinin və nəticələrinin qiymətləndirilməsi islahatın mühüm amili kimi. //Azərbaycan məktəbi. Bakı, №1, 2002.
8. Jonassen, D.H., Peck, K.L., & Wilson, B.G. Learning with technology: A constructive perspective. Upper Saddle River, NJ: Prentice Hall, 1999.
9. Jones, G. How do I learn to speak? A review of the possibilities and constraints of online language learning. London: London University Institute of Education, 2000
10. Алхазишвили А.А. Основы овладения устной иностранной речью. М., Просвещение, 2004.
11. Архипова Ж.Ю. Интерактивные методы обучения на уроках английского языка как средство развития коммуникативной компетентности учащихся. [Электронный ресурс]. / Режим доступа: http://rudocs.exdat.com/docs/index-152177.html (дата обращения: 13.04.2016)
12. Бабанский К.С. Методы обучения в современной общеобразователь-ной школе. – М.: Просвещение, 2005
13. .http://www.informatik.az
14. .http://www.edu.gov.az
15. .http://www.curriculum.org
16. .http://www.kurikulum.az

**Kərimova Şərqiyyə**

## XÜLASƏ

**Bu məqalədə fəal ( interaktiv )**
**və ənənəvi təlimin müqayisələrindən bəhs olunur.**

İnteraktiv təlim zamani tələbələrdə özünün bilik və bacarıqlarını inkişaf etdirmək xüsusi rol oynayır. Tələbənin müstəqil düşünməsi, sərbəst fikirləşməsi, özünü qiymətləndirməyi bacarmasi interaktiv təlimin keyfiyyət göstəricilərindəndir. Müasir təhsil prosesinin təkcə məqsədi müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsi ilə kifayətlənmir. Həmçinin tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, verilən məlumat və öz düşüncələri arasında əlaqələrin yaradılmasıdır. Nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək və qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq etmək müasir təhsildə interaktiv metodun xüsusiyyətlərindəndir. Yeni tədris metodunun gətirdiyi dəyişikliklər təbii ki, bununla məhdudlaşmır. O, həm də prosesin iştirakçılarının da üzərinə daha fərqli bir vəzifə qoyur. Belə ki, artıq müəllim təkcə məlumat vermək funksiyasını daşımır və şagirdin də yeganə funksiyası məlumatı olduğu kimi qəbul etmək deyil. Artıq şagird müstəqil şəkildə təhlil edir, araşdırır, mülahizələr edir və nəticə çıxarır. Qarşılıqlı həyata keçirilən informasiya mübadiləsi xarici dilin tədris prosesini daha effektiv edir və inkişafa gətirib çıxarır.

Ənənəvi təlim zamanı müəllim aktiv rol oynayır. Tələbənin öyrənməsi müəllimin öyrətməsi ilə limitlənir. Müəllimin esas rol oynadığı bu təlimdə şagirdin şəxsi təcrübəsi, maraq və şəxsi xüsusiyyətləri nəzərə alınmır. Şagird dərketmə cəhətdən passivləşir. Şagirdin hazır biliklərə yiyələnməsi onun idrakinin kütləşməsinə gətirib çıxardır. Bu təlim reproduktiv xarakter daşıyır.

**КАРИМОВА ШАРГИЯ**

## РЕЗЮМЕ

## СРАВНИТЕЛЬНЫЕ МЕТОДЫ ОБУЧЕНИЯ ТРАДИЦИОННОГО И АКТИВНОГО ОБУЧЕНИЯ

В этой статье обсуждается сравнение интерактивного и традиционного обучения. Интерактивное обучение играет особую роль в развитии собственных знаний и умений учащихся. Способность учащегося мыслить независимо, свободно мыслить и оценивать себя являются одними из качеств интерактивного обучения.

Целью современного образовательного процесса является не только передача знаний и умений от учителя к ученику. Это также развитие у учащихся способности к постоянному самоуправлению, аналитическому анализу, свободному мышлению, установлению связей между полученной

информацией и собственными мыслями. Углубление теоретических знаний практическим путем и применение полученных знаний и умений в будущей профессиональной деятельности является одной из особенностей интерактивного метода в современном образовании. Конечно, этим изменения, вносимые новой методикой обучения, не ограничиваются. Это также накладывает иную задачу на участников процесса. Таким образом, у учителя больше нет функции предоставления информации, а единственная функция ученика — не принимать информацию такой, какая она есть. Теперь студент самостоятельно анализирует, исследует, выносит суждения и делает выводы. Взаимный обмен информацией делает процесс обучения иностранному языку более эффективным и ведет к развитию.

При традиционном обучении преподаватель играет активную роль. Обучение студентов ограничено преподаванием учителя. В этом обучении, в котором главную роль играет преподаватель, не учитываются личный опыт, интерес и личностные особенности ученика. Учащийся становится пассивным. Приобретение учеником готовых знаний приводит к притуплению его восприятия. Это обучение носит репродуктивный характер.

**KARIMOVA SHARGIYA**

**SUMMARY**

**COMPARATIVE TEACHING METHODS OF TRADITIONAL AND ACTIVE LEARNING**

This article discusses the comparisons between interactive and traditional learning.

During interactive training, students play a special role in developing their own knowledge and skills. A student's ability to think independently, think freely, and self-evaluate is one of the quality indicators of interactive training. The goal of the modern educational process is not only the transfer of knowledge and skills from the teacher to the student. It is also to develop students' ability to continuously self-manage, analytical analysis, free thinking, creating connections between given information and their own thoughts. Deepening theoretical knowledge in practical ways and applying acquired knowledge and skills in future professional activities is one of the features of the interactive method in modern education. Of course, the changes brought by the new teaching method are not limited to this. It also imposes a different task on the participants of the process. Thus, the teacher no longer has the function of providing information, and the only function of the student is not to accept information as it is. Now the student independently analyzes, investigates, makes judgments and draws conclusions. The mutual exchange of information makes the foreign language teaching process more effective and leads to development.

During traditional training, the teacher plays an active role. Student learning is limited by teacher teaching. In this training, in which the teacher plays the

main role, the personal experience, interest and personal characteristics of the student are not taken into account. The student becomes cognitively passive. The student's acquisition of ready-made knowledge leads to the dulling of his perception. This training is reproductive in nature.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Dos. Nəsirova Ülviyyə Əligüllah qızı**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**MÜJGAN MƏMMƏDZADƏ CEYHUN**
***ADPU***
***memmedzade.müjgan@gmail.com***

# ƏDƏBİ DİL NORMALARININ TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ

**Açar sözlər:** ədəbi dil, norma, müəllim, şagird, tədris, interaktiv təlim metodu;
**Ключевые слова:** литературный язык, норма, учитель, ученик, обучение, интерактивный метод обучения;
**Keywords:** literary language, norm, teacher, student, teaching, interactive teaching method.

Ədəbi dil tarixi - mədəni hadisədir. Bu dil cəmiyyətin mədəni tələbatına əsaslanaraq və müəyyən tələbat nəticəsində şifahi və yazılı şəkildə formalaşır.

Azərbaycan ədəbi dili milli dil əsasında şifahi şəkildə yaranmağa başlamışdır. Ədəbi dilimiz təşəkkül tapmağa başladığı illərdən milli dilin mövcud materiallarına və vasitələrinə əsaslanıb, onlardan müəyyən bir hissə seçib mənimsəmişdir. Bu halda milli dilin bir sahəsi yox, onun bütün strukturu, yəni qrammatik quruluşu, lüğət tərkibi, səs sistemi diqqətə alınmış və seçim əməliyyatı həyata keçirilmişdir.

Ədəbi dilin normaları aşağıdakılardır:

1. fonetik normalar;
2. orfoqrafik normalar;
3. orfoepik normalar;
4. leksik normalar;
5. onomastik normalar;
6. semantik normalar;
7. frazeoloji normalar;
8. derivatoloji normalar;
9. morfoloji normalar;
10. sintaktik normalar;
11. üslubi normalar [5, s. 22].

Bunlardan başqa ədəbi dildə mənsubiyyət, zaman, hal, şəxs, dərəcə və s. ədəbi dildə işlədilməsi ilə bağlı qrammatik normalar da vardır.

Qrammatik normalardan uzaqlaşma hallarına şifahi nitqdə geniş rast gəlinir. Yazılı nitqdə normadan kənara çıxmalara, demək olar ki, rast gəlinmir.

Orfoqrafik normalar yazılı nitq vahidlərinin yazılışını təmin edən qaydalar sistemidir. Bu qaydalar dövlət tərəfindən təsdiqlənir, onun tələblərinə riayət etmək hər kəs üçün vacib hesab edilir.

Dilimizin yazılı nitq normaları cəmiyyətdə baş verən sosial-siyasi hadisələr ilə əlaqəli olaraq dəfələrlə yenilənmiş, köhnə, əsassız elementlər atılmış, bununla da yazı normaları təkmilləşdirilmişdir.

Yazı nitqimizin təkmilləşdirilməsi üçün aparılan dəyişikliklər, yeniliklər respublikanın ali və orta məktəblərində, yazıçıların, KİV-lərin və digər ixtisaslaşdırılmış qurumların yığıncaqlarında layihələr şəklində geniş müzakirə olunur.

A.Qurbanovun fikirlərinə görə: "Yazılı nitqdə orfoqrafiyamızın prinsiplərindən vəhdətdə istifadə edilir ki, bu, yazımızın inkişafını və yeniləşməsini təmin edir" [6, s. 126 -127].

Dilin şifahi nitq normaları birdən-birə deyil, tarixən formalaşmışdır. Bir çox dillərdə şifahi nitq normaları çox yaxşı qurulmuş və vahid qanuna çevrilmişdir.. Azərbaycan dilçiliyində də şifahi nitq normalarına aid çoxlu tədqiqatlar aparılmışdır. Ə.M.Dəmirçizadənin "Azərbaycan dili orfoepiyasının əsasları" kitabında dilimizdə saitlərin və samitlərin tələffüzü, qrafikası, morfoloji, sintaktik xüsusiyyətləri tələffüz, alınma sözlərin orfoepiyası və sairə məsələlər geniş şəkildə şərh edilmişdir" [3, s. 53].

Bu gün ümumtəhsil müəssisələrində tətbiq olunan yeni təlim – tədris metodları məktəblilərin mənəvi və intellektual inkişafına yönəlmişdir. Tədrisdə interaktiv təlim metodlarından istifadə şagirdlərə fikirlərini aydın, məntiqi ardıcıllıqla təqdim etməyə imkan verir.

İnteraktiv təlim – tədris prosesinin və şagirdlərdə zehni fəaliyyətin hərəkətə gətirilməsi və idarə edilməsi üçün metodların məcmusudur. Bu təlim aşağıdakı xüsusiyyətlərə malikdir:

- Müəllimin şüurlu şəkildə idrak fəaliyyətini aktivləşdirmək üçün problemli vəziyyəti yaratması;
- Problemlərin həllində şagirdlərin fəal tədqiqatçı mövqeyini stimullaşdırması;
- Şagirdlər tərəfindən yeni zəruri biliklərin müstəqil kəşf edilməsi və öyrənilməsi üçün əlverişli mühitin təşkili [8, s.74].

Fəal tədris metodlarından istifadə edilməsi sürətli şəkildə dəyişilən və daima inkişafda olan çağdaş dünyada ömür sürmək, əməkdaşlıq etmək, fəaliyyət göstərmək və müəyyən qərarlar vermək kimi qabiliyyəti təcəssüm etdirən bacarıqların yaranması orta ümumtəhsilin məqsədlərinə və vəzifələrinə yeni bir yanaşmanın göstəricisidir.

Eləcə də, Azərbaycan dili dərslərində ədəbi dil normalarının tədrisində bu tələblərə riayət edilməlidir. Ədəbi dilin hər bir normasını tədris edərkən yeni təlim metodlarından istifadə şagirdlərin yeni bilikləri daha asan qavramalarına, uzunmüddət hafizələrində saxlamalarına, o cümlədən də yeri gəldikdə bu ədəbi normaları düzgün tətbiq etməklərinə köməkçi olur.

Ədəbi dil normalarının tədrisinə xüsusi həssaslıqla yanaşmaq lazımdır. Bu mövzunu şagirdlərin daha mükəmməl səviyyədə mənimsəmələri üçün müəllim çalışmalıdır ki, onu şagirdlərə nümunələr üzərində izah etsin. Bunun üçün müəllim yeni təlim metodlarından düzgün və səmərəli istifadə etməlidir. Hər bir mövzuya uyğun dəqiq təlim metodu seçilməlidir ki, şagirdlər yeni bilikləri daha yaxşı qavrasınlar.

Şagirdlərin ədəbi dil normalarını daha yaxşı dərk edib qavramaları üçün müəllim dərsin sonunda mövzu ilə əlaqəli test tapşırıqlarının həll edilməsini də onlara tapşıra bilər. Yaxud da, müəyyən mətnlərdə ədəbi dil normalarına nə dərəcədə riayət olunub- olunmadığını yoxlamağı şagirdlərə tapşırmaq olar. Bu onların analiz və sintez bacarıqlarını daha da inkişaf etdirər.

Ümumiyyətlə, interaktiv təlim prosesi elə qurulmalıdır ki, uşaqlar tədqiqat yolu ilə biliklər qazansınlar. O təlim sistemində sinif qruplar halında problemin həllini axtarır, yekun nəticələri iş vərəqlərinə yazır və sonra təqdimatlarını edirlər. Təqdimatların axırında bu araşdırmanın nəticələri əlaqələndirilir, məlumatlar sistem halına salınır və ümumi olaraq təsnif olunur. O nəticələri tədqiqatın başlanğıcında uşaqların irəli sürdüyü fərziyyələrlə müqayisə edilir. Uşaqlar hansılarının yeni olduğunu müşahidə edir, son olaraq da ümumi bir nəticə əldə edirlər.

Yeni tədris texnologiyalarının üstünlükləri ondan ibarətdir ki, dərs yalnız aktiv bir mühitdə baş verir, yalnız müəllimlər deyil, həm də şagirdlər yaradıcılıq axtarışında olurlar, sərbəst düşüncə tərzi formalaşır, təşəbbüskarlıq və yeniliyə meyl artır [1, s.44].

Məlum olduğu kimi, müasir təlim – tədris texnologiyaları, yaxud da interaktiv tədris metodları yaddaşa deyil, düşünməyə əsaslanır. Bu sahədə məktəblilərin inkişafına nail olmaq üçün təlimdə bəzi tələblər sisteminə riayət etmək gərəkdir. Həmin tələblər aşağıdakılardır:

-Problemlilik: təlim modelində problemin inkişafı üçün şərtlərin modelləşdirilməsi; ətraf mühitin obyektlərindəki və hadisələrindəki həqiqi ziddiyyətləri həll etmək cəhdinə əsaslanan təlim;

-Bilik və düşüncənin bölünməzliyi: bilik hazır vəziyyətdə qəbul edilməməlidir; düşüncəni inkişaf etdirmək üçün bir vasitə olmalıdır;

-Məzmun məlumatlılığının dərəcəsinin və elmi tutumluluğunun: tədris proqramlarının vacib elmi nailiyyətlərini və məlumatlarını göstərməlidir;

-Yaradıcılığı təşviq etmək: təlimdə hər cür fəaliyyəti və yaradıcı fikri dəstəkləmək;

-Biliklə həyatın ehtiyacları arasındakı əlaqə: öyrənmə məzmunu şagirdin öyrəndiklərinin həyatla necə əlaqəli olduğunu başa düşməlidir;

-Şəxsi yönəlişlik: tədris proqramları şagirdlərə şəxsi təcrübələrindən yararlanmağa imkan verməlidir;

-Müstəqil öyrənmə vərdişlərinə yiyələnmə: bilikləri sərbəst əldə etməyi, işləməyi və onu yaradıcılıqla tətbiq etməyi öyrədən tapşırıqların olması vacibdir;

-Təlim proqramının məzmununun inkişafında çeviklik: proqramın məzmununun dəyişkənliyi və sistematik yenilənməsi;

-Ümumiləşdirilmiş bilik əldə etmə: tədris proqramları yalnız fərdi biliklərin əldə edilməsinə deyil, həm də biliyin özəyi olan fundamental elmi biliklərin öyrənilməsinə istiqamətlənməlidir;

-Gələcəyə istiqamətlənmə: öyrənmə məzmununun gələcək üçün proqnozlaşdırıla bilən və aktual olmasını təmin edən məsələlərin həllində elementlər olmalıdır;

-Təlim nəticələrinin əks olunması. Tədris proqramı şagirdləri təlimin sonunda nə bildiyini və nə edə biləcəyini əks etdirməlir [7, s.219].

İnteraktiv təlim istər məzmunun mənimsənilməsinin, istərsə tətbiq edilməsinin səmərəliliyini yüksəldir və uşaqların idrak fəaliyyətini aktivləşdirir Ölkəmizdə müasir təlim metodlarının tətbiqi ilə bağlı layihə artıq yerinə yetirilir.

İnteraktiv təlimin aşağıdakı metodları vardır:

1. Söz assosiasiyaları
2. Beyin həmləsi
3. BİBÖ
4. Ziqzaq
5. Rollu oyun
6. İdeyalar
7. Debatlar
8. Diskussiya
9. Akvarium
10. Təqdimat
11. Kublaşdırma
12. Auksion
13. Venn diaqramı
14. Klaster və s. [ 2, s. 48].

Bu metodlardan bəzilərinin necə tətbiq edildiyi ilə tanış olaq:

Söz assosiasiyaları metodundan istifadə edilərkən lövhədə öyrənilən mövzuya aid açar söz (və ya ifadə) yazılır. Şagirdlər bu sözlə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır.Mövzu ilə bağlı xatırladıqları ilk fikirləri deyirlər və müəllim bu fikirləri lövhəyə yazır. . Mövzuya aid sözlər deyilən fikirlərdən seçilərək əlaqələndirilir və bu anlayış əsasında yeni materialın mənimsənilməsinə başlanır. Bu metod şifahi olaraq da tətbiq oluna bilər.

Beyin həmləsi metodu ədəbiyyat dərslərində problemli vəziyyət yaratmaq üçün zəruri olan ilkin fikrin formalaşmasında əvəzsiz rol oynayır. Bu metod şagirdlərdə yeni biliklərin və müzakirə olunan məsələnin kəşfinə maraq oyadır.

BİBÖ (bilirik, istəyirik bilmək, öyrəndik) şagirdlərin əvvəlki bilikləri, təcrübələri ilə yeni biliklər arasında əlaqə qurmağa şərait yaradır, onlara mövzu, problem haqqında düşünməyə imkan verir.

Ziqzaq metodunun iri həcmli mətnlərin üzərində aparılarkən tətbiq edilməsi məqsədəuyğundur.Bu metod vaxtdan daha səmərəli istifadəyə imkan yaradır, əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Ziqzaq metodunda tədqiq olunacaq mətn hissələrə bölünür və nömrələnir. Qruplara bölünmüş şagirdlər 1-dən 4-ə kimi sayırlar. Qrupdakı şagirdlər nömrələr ilə işarələnir, sonra eyni nömrəli şagirdlər bir stol ətrafına toplaşır, mətnin müvafiq hissəsini oxuyur və verilən tapşırıqları yerinə yetirirlər. İş bitdikdən sonra ikinci mərhələ başlayır. Şagirdlər ekspert kimi əldə etdikləri məlumatları bölüşür və mətn üzərində işi tamamlayırlar [9].

Bu metodlar bilik, bacarıq və vərdişlərin sərbəst şəkildə əldə edilməsinə və yeniliklərin kəşfinə, əldə edilən biliklərin yaradıcı şəkildə işlənməsinə, praktikada istifadəsinə, problemləri həll etmək üçün həmyaşıdları ilə işləmək bacarığına imkan verir. Hər bir şagirdin ədəbi dil normalarının düzgün və dəqiq mənimsəmələri üçün interaktiv təlim metodlarından istifadəsi yüksək səmərə verər.

Tədris prosesində interaktiv təlim metodlarından istifadə edilməsi sürətlə dəyişən və daima inkişaf edən müasir dünyada yaşamaq, fəaliyyət göstərmək, əməkdaşlıq etmək və müəyyən qərar vermək kimi qabiliyyəti əks etdirən bacarıqların yaranması orta təhsilin məqsəd və vəzifələrinə yeni yanaşmanı əks etdirir. Hal - hazırda metodik, elmi, pedaqoji və psixoloji baxımdan təkmil olan müəllimlər yenilik və müasirliyin nə olduğunu anlayır, onları dərslərində tətbiq edərək müasir dərslərdən və təşkilatçılıq tələblərindən geniş istifadə edirlər.

## ƏDƏBİYYAT

1. Ağayev Əjdər. “Yeni təlim metodlarından və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri” // Azərbaycan Respublikasnın Təhsil Problemləri İnstitutununn Elmi əsərləri. Bakı, 2006, №2. 44 səh.

2. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li. Sənaye Liseyi, 1997,102 səh.

**3.** Dəmirçizadə Ə.M. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı**:** APİ, 1969, 82 səh.

4. Əliyeva F., Məmmədova Ü. “Müasir təlim texnologiyaları” Bakı: MBM, 2015, 190 səh

5. Qurbanov A. M. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı, 2019. 464 səh

6. Qurbanov A.M. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı: Nurlan, 2019, 512 səh.

7. Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu, Bakı: Qanun, 2009

8. Veysova Z. “Fəal (İnteraktiv) təlim”. Müəllimlər üçün vəsait.Unicef, 2009, 219 səh.

9. https://aztehsil.com/kurikulum/136-fal-tlimin-sullar-tqdimat-kubladrmaziqzaqbeyin-hmlsi.html

# ƏDƏBİ DİL NORMALARININ TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ

**Xülasə**

Məqalədə ədəbi dil normalarının tədrisində interaktiv təlim metodlarının tətbiqindən bəhs edilmişdir. Həmçinin müasir təhsil sistemində interaktiv təlim metodlarının hansı əhəmiyyətə malik olması analiz edilmişdir. Qeyd edilmişdir ki, interaktiv tədris metodlarının istifadəsi tədris sistemini xüsusi dərəcədə intensivləşdirir. Bu təlim metodu dərsi şagirdlərin hər biri üçün maraqlı edir. Eyni zamanda, dərsdə maksimum fəallığa şərait yaradır. Bununla da təhsilin inkişafetdirici aspektinin təkmilləşdirilməsini gücləndirilir. Həmin metodlar təhsilalanların yaradıcılıq qabiliyyətlərinin inkişafını dəstəkləyən ali ünsiyyət mədəniyyəti yaradır. Hər bir müəllim müasir təlim texnologiyalarından istifadə edərək tədris prosesini daha da effektli və maraqlı edə bilər.

Yeni tədris metodları tədris materialının daha yaxşı mənimsənilməsi və şagirdlərin müstəqil mühakimə yürütmələri üçün çox əhəmiyyətlidir. İnkişaf edən cəmiyyətdə uşağın ətraf mühitə qarşı münasibəti dəyişir. Bu da uşağın hadisələri necə qəbul etdiyini və anladığını göstərir. Beləliklə, uşaq bilik əldə etdikcə qavrayışı da inkişaf edir.

Müasir təlim metodlarından istifadə edərək şagirdlər müstəqil olaraq bilik əldə edirlər. İnteraktiv təlim şagirdlərin təkcə düşüncə tərzini deyil, yaradıcılıqlarını da təkmilləşdirir. Ədəbi dil normalarının tədrisində bu metodların tətbiq edilməsi yüksək səmərə verir.

# ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ПРЕПОДАВАНИИ НОРМАТИВНОМУ ЯЗЫКУ

**Резюме**

В статье говорится о применении интерактивных методов обучения в преподавании норм литературного языка. Также было проанализировано значение интерактивных методов обучения в современной системе образования. Было отмечено, что использование интерактивных методов обучения в особой степени интенсифицирует образовательную систему. Такой метод обучения делает урок интересным для каждого из учеников. В то же время он создает условия для максимальной активности на занятиях. Таким образом, усиливается развивающий аспект образования. Эти методы создают культуру высшего общения, что способствует развитию творческих способностей учащихся. Каждый учитель может сделать учебный процесс более эффективным и интересным, используя современные технологии обучения.

Новые методы обучения очень важны для лучшего усвоения учебного материала и самостоятельного суждения учащихся. В развивающей среде меняется отношение ребенка к окружающей среде. Это показывает, как ребенок воспринимает и понимает события. Таким образом, по мере приобретения ребенком знаний развивается и его восприятие.

Используя современные методы обучения, студенты приобретают знания самостоятельно. Интерактивное обучение улучшает не только мышление учащихся, но и их творческие способности. Применение этих методов при обучении нормам литературного языка весьма эффективно.

## APPLICATION OF INTERACTIVE LEARNING METHODS IN TEACHING LITERARY LANGUAGE STANDARDS

**Summary**

The article talks about the application of interactive learning methods in the teaching of literary language norms. It was also analyzed the importance of interactive learning methods in the modern education system. It was noted that the use of interactive teaching methods intensifies the educational system to a special degree. This teaching method makes the lesson interesting for each of the students. At the same time, it creates conditions for maximum activity in class. In this way, the improvement of the developmental aspect of education is strengthened. Those methods create a culture of higher communication that supports the development of creative abilities of students. Every teacher can make the teaching process more effective and interesting by using modern teaching technologies.

New teaching methods are very important for better mastering of teaching material and independent judgment of students. In the developing environment, the child's attitude towards the environment changes. This shows how the child perceives and understands events. Thus, as the child acquires knowledge, his perception also develops. Using modern teaching methods, students acquire knowledge independently. Interactive learning improves not only students' thinking, but also their creativity. Application of these methods in the teaching of literary language norms is highly effective.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: f.ü.e.d., prof., Fikrət Xalıqov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**fil.ü.f.d. MƏMMƏDOVA ELNARƏ ADİL qızı**
*ATU-nun Azərbaycan dili kafedrası,*
**İRADƏ İMANOVA**
*ATU-nun Azərbaycan dili kafedrası*

# MAHMUD KAŞQARLININ "DİVANÜ LÜĞAT İT-TÜRK" ƏSƏRİNDƏ FEİLİN ŞƏKİLLƏRİ

## X Ü L A S Ə

Göytürklər zamanında bir sıra parlaq əsərlər yazılmışdır. Bu əsərlər içərisində türk dünyasının ən möhtəşəm əsəri M.Kaşğarinin "Divanü lüğat-it Türk" əsəridir. Bu əsər elmi dəyərinə görə Türkçülüyün Ensiklopediyası olmuşdur. Əsər XI əsrə yox, daha qədim dövrə aid türk tarixini özündə əks etdirir.

Görkəmli türk alimi Ə.B.Ərcilasunun hesablamasına görə, iri həcmli Kül tigin, Bilgə Xaqan və Tonyukuk abidələrində işlənmiş sözlərin sayı onamastik sözləri çıxmaq şərti ilə 700 sözə bərabərdir. M.Kaşğari "Divan"ında isə 9000-ə yaxın söz vardır. Bu sözlər içərisində ən çox yer tutan sözlər feillərdir.

Feillər zaman, şəxs və şəkil əlamətlərinə görə müxtəlif formalara malikdir: təsriflənən və təsriflənməyən. Nitqin qurulmasında, cümlənin formalaşmasında təsriflənən forma, yəni feil şəkilləri mühüm rol oynayır. Feil şəkilləri subyektin hərəkətinin icra olub-olunmamasında müxtəlif münasibətləri əks etdirir. Feil şəkilləri hərəkətin icrasının zəruriliyi, arzu olunması müəyyən şəkildə bağlılığı kimi meydana çıxır.

Müasir dilimizdə feilin altı şəkli vardır: əmr, xəbər, lazım, vacib, arzu, şərt.

Qədim türk dillərinin ilk araşdırıcısı M.Kaşqarinin "DLT" əsərində bu şəkillərin hamısına rast gəlirik. "Divan"dakı feillər qrammatik xüsusiyyətlərinə görə müasir türk dillərindəki feillərdən əsaslı şəkildə fərqlənmirlər. Bu xüsusiyyət türk dillərinin qrammatik, xüsusən də morfoloji quruluşunun mühavizəkarlığı ilə birbaşa bağlıdır.

**Açar sözlər:** *feillər, kateqoriya, feilin şəkilləri, türk dilləri, qrammatik xüsusiyyətlər.*

Qədim türklər dünya mədəniyyətinə dəyərli töhvələr verən, bəşəri idealları zənginləşdirən, maddi-mənəvi sərvətləri ilə öyünməyə layiq bir xalq olmuşlar.

Həmin dövrdə türklərin yaşadığı ərazilər Çindən Macarıstana, Avropanın ortalarına, digər tərəfdən Şimal Buzlu Okeandan Ərəbistana, Sudana, Hindistana kimi uzanırdı.

Türklərin yaratdığı və əbədiyaşar abidələrindən bəlkə də birincisi M.Kaşğarinin "Divanü Luğait it-türk" əsəridir. Dilçilik əsəri kimi yazılan bu əsər türk varlığının həyat tərzini, adət-ənənələrini özündə əks etdirən abidədir.

Lüğətdə verilmiş sözlərin çoxu müasir türk dillərində, o cümlədən Azərbaycan dilində də işlədilən sözlərdir. Buna baxmayaraq, əsər yarandığı dövrün dil mənzərəsini özündə əks etdirir.

"Divan"da olan feillərin tədqiq edilib öyrənilməsi türk dillərinin, o cümlədən Azərbaycan dilinin tarixi-inkişaf yoluna işıq salır.

Feillər zaman, şəxs və şəkil əlamətlərinə görə müxtəlif formalara malikdir: təsriflənən və təsriflənməyən. Nitqin qurulmasında, cümlənin formalaşmasında təsriflənən forma, yəni feil şəkilləri mühüm rol oynayır. "Bütövlükdə feil şəkilləri subyektin hərəkətin icra olunub-olunmamasına müxtəlif münasibətini əks etdirir və məntiqi modallığın qrammatik ifadə vasitələrindən biri kimi özünü göstərir. Ayrı-ayrı feil şəkilləri bu modallığın təzahür xüsusiyyəti (subyektin hərəkətin icrasında iştirakı haqqında məlumatın gerçəkliyi nə dərəcədə əks etdirməsi, hərəkətin icrasının zəruriliyi, labüdlüyü, arzu olunması, müəyyən şərtlə bağlılığı və s.) kimi meydana çıxır" (53: 162).

Müasir dilimizdə feilin altı şəkli vardır: əmr, xəbər, lazım, vacib, arzu, şərt. "Divan"da bunların hamısına rast gəlirik. Tədqiqatçıların göstərdiyi kimi qədim türk dilində feil şəkilləri müasir türk dilləri ilə demək olar ki, eynidir (53). Lakin hər halda, müəyyən fərqli cəhətlər də özünü göstərir ki, aşağıda bunlardan bəhs edəcəyik. Yeri gəlmişkən bir məsələyə toxunaq. "Divan"ı Azərbaycan dilində ərsəyə gətirən R.Əskər feil şəkillərindən danışarkən göstərir ki, "Müasir dilimizdə *-maqda, -məkdə* şəkilçisi ilə meydana gələn davam şəkli və *-a, -ə* şəkilçisi *bilmək* köməkçi feili ilə düzələn bacarıq şəkli "Divan"da yoxdur" (24: 271). Düzdür, bəzi dilçilik əsərlərində bunlardan biri və ya hər ikisi feil şəkli kimi təqdim olunur, lakin ümumilikdə bunlar şəkil kimi öyrənilmir (53). Bizim fikrimizcə, bacarıq forması müstəqil sözün *bilmək* köməyi ilə yarandığı üçün bunu feil şəkli hesab etmək olmaz. Təsadüfi deyil ki, bir çox əsərlərdə bu forma hətta "bacarıq tərzi" adlandırılır. "Davam şəkli" deyilən forma isə məsdər və yerlik hal şəkilçisindən formalaşıb və daha çox substantiv xarakter daşıyır və fikrimizcə, məsdər, feili sifət, feili bağlama ilə yaxın qrammatik səciyyəyə malikdir. Y.Seyidov yazır: "Feilin şəkil kateqoriyası feilin təsrifi fonunda reallaşdığına görə *-maq+da, -mək+də* əlamətli formaların bu sistemə qatılması doğru deyil (55:350). "Divan"da əmr şəkli xüsusilə diqqət önündədir. Belə ki, M.Kaşğari feilləri təhlil edərkən onların əmr formasını da əsas aldığını hər yerdə söyləyir. Feilin əmr şəkli xüsusi morfoloji əlamətə malik deyil; feilin əsası və şəxs sonluqları ilə formalaşır. Qeyd etmək lazımdır ki, əmr şəklinin şəxslər üzrə dəyişməsində müasir vəziyyətdən fərqli hal özünü göstərir. Azərbaycan dilinin tarixi materiallarında XX əsrin əvvəllərinə qədər özünü göstərən, lakin indi arxaik forma hesab edilən *–ayın*[2]*, -alın*[2] şəxs sonluqları (43:129) "Divan"da da mövcuddur. Bunlardan *–ayın*[2] birinci şəxsin təkinə, *-alın*[2] isə birinci şəxsin cəminə aiddir. Məsələn:

*Tünlə bilə köçəlim* "Gecə ikən köçək" (36: 35).

*Tün min bilə səvnəlim* “Gecə-gündüz sevinək” (36: 64). T.Hacıyev bu faktdan danışarkən göstərir ki, “türk dillərində, o cümlədən Azərbaycan dilinin tarixində I şəxsin təkini bildirmək üçün *–m* və *-n* elementləri növbələşir" (27: 28).

Onu da deyək ki, *-alın*[2] şəkilçisi burada yalnız birinci şəxsin cəminə aiddir, lakin Azərbaycan dilinin tarixinə aid ədəbi əsərlərin dilində, xüsusilə də “Kitabi-Dədə-Qorqud”da bu şəkilçinin birinci şəxsin təkində də işləndiyini müşahidə edirik (50).

Əmr şəklinin ikinci şəxsinin təkində iki forma özünü göstərir: 1) Şəxs sonluğu olmadan 2) xüsusi formal əlamət kimi *-ğıl, -gil, -kıl, -kil* şəkilçisinin iştirakı ilə *üzüm yegil*, *azu kağun yegil* “üzüm ye, qovun ye” (I c, s. 153). Burada bir məsələyə toxunmağı lazım bilirik. R.Əskər buradakı *–gıl*[4] şəkilçisini şəxs sonluğu adlandırır (24:272). Halbuki, dilçilik əsərlərindən tam aydındır ki, bu şəkilçi əslində əmr şəklinin tarixən xüsusi göstəricisi olmuşdur (53:138). Onu da deyək ki, bu forma müasir dilimizin dialektlərində indi də yaşamaqdadır (53:163). Hətta onun *–qınan, -ginən* forması da vardır.

M.Kaşğari göstərir ki, oğuz və qıpçaqlar ikinci şəxsin cəmində *-nq,* qalan türklər isə *-nqlar* işlədirlər: *barınq* “gedin”, *barınqlar* “gedin”. Amma bütün türklər cəmdə iki və və ya daha çox şəxsin işini də formal cəhətdən fərqləndirirlər; yəni bu zaman leksik vahiddən – sözdən istifadə edirlər: *barınqlar ikigü* “ikiniz gedin”, *barınqlar kamuğ* “hamınız gedin”. Göründüyü kimi, əslində müasir dilimizdəki forma ilə bir o qədər də fərq yoxdur.

Üçüncü şəxsin təki *–sun*, *-sün* şəxs sonluğu ilə formalaşır ki, bu da tarix boyu, demək olar ki, dəyişməmişdir. Məsələn: *barsun, kəlsün* (IIc, s.80)

Məlumdur ki, xəbər şəkli də özünəməxsus xüsusi şəkilçiyə malik deyil, sadəcə, zaman şəkilçilərindən sonra şəxs sonluqlarından istifadə olunur. İndiki zaman feillərdə birinci şəxsdə mən, ikinci şəxsdə sən, üçüncü şəxsdə o əvəzlikləri, bir növ, şəxs sonluğunu əvəz edir.

Qeyd edək ki, şəxs sonluğu kimi əvəzliklərdən istifadə gələcək zamanda da özünü göstərir. Məsələn: *Mən barğay mən* “Mən gedəcəyəm” (IIIc.,s.221). Demək lazımdır ki, bu zaman şəxs sonluqsuz, yaxud şəxs əvəzliyinin sona artırılmaması üsulu ilə də formalaşır: *Ol ya kurğay* “O, yay quracaq” (IIc., s.82).

Maraqlı hallardan biri də qeyri-qəti gələcək zamanda özünü göstərir. M.Kaşğari yazır: “Oğuzlar müzaredə *barır* sözündəki ikinci *-r* hərfini atıb kökdəki *bar -r* hərfini saxlayaraq *mən baran*, *mən turan* deyirlər ki, “mən gedərəm”, “mən qalxaram” deməkdir. Əgər sözün özündə *-r* hərfi yoxdursa, o zaman sözə müzaredə *-r* əlavə edirlər: *mən kəlirən* “mən gələrəm”, *mən külərəm* “mən gülərəm”. *kəldi*, *küldi* sözlərində *-r* yoxdur. *Mən barır mən* sözündə isə əlif yoxdur, buradakı *-m* hərfi əlifə çevrilmişdir. Və yenə *Mən ya kuraran* deyilir, halbuki o biri türklər *kurar mən* deyirlər. Burada iki *-r* hərfi vardır, biri sözün kökünə məxsusdur, digəri isə müzare əlamətidir, bu *-r* hərfindən sonra *mən* sözünü söyləyirlər. Qaydaya uyğun olan da elə budur. Oğuzların tutduğu yol qaydaya uyğun olmasa da, asan yoldur” (II c., s. 81).

Göründüyü kimi, qeyri-qəti gələcək zamanın birinci şəxsində bir sıra hallarda *–an*[2] sonluğundan istifadə olunur.

Türkoloji dilçilikdə türk dillərində, o cümlədən də türk dillərinin yazılı abidələrində zaman şəkilçilərinin meydana çıxardığı semantikaların obyektiv zaman formalarına münasibəti problemi (9a, 31-36) indi də mübahisəli şəkildə qalmaqdadır və öz həllini gözləyir. "Divan"dakı dil materialları bu problemin həlli üçün xeyli material verir.

"Divan"da müəllif tərəfindən daha çox xatırladılan formalardan biri feilin şərt şəklidir. Müasir dövrümüzdəki kimi, "Divan"da da şərt şəklinin *-sa*[2] şəkilçisi ilə formalaşdığı göstərilir və ona aid çoxlu misallar verilir. Məsələn:

*Sartınq azukı arığ bolsa*, *yol üzrə yer* "Satıcının malı təzə olsa, elə yoldaca yeyər" (I,135); *Kiçikdə katığlansa*, *ulğadhu səvnür* "Kiçikkən çabalasa, böyüdükdə sevinər" (II, 265). Bəzən şərt şəklinin *–sar, -sər* şəkilçisi ilə formalaşdığını da müşahidə etmək olar. Dilçilər bu formanın daha qədim forma olduğunu qeyd edirlər (49:370; 54:279). Ə.Rəcəbli Göytürk abidələrində şərt şəklinin yalnız *–sar, -sər* formasından bəhs edir (49: 370-374). H.Mirzəzadə isə *-sar, -sər* formasının Azərbaycan dili materiallarında yox dərəcəsində olduğunu göstərir (43:166).

"Divan"da feil şəkillərindən biri də arzu şəklidir. Müxtəlif şəkilçilərlə formalaşan bu şəkil arzu-istəklə yanaşı, həm də olmayan bir hərəkəti olmuş kimi göstərmək mənasını bildirir.

Feilin lazım şəkli müasir dövrdə olduğu kimi, tarixən də, o cümlədən "Divan" yaranan dövrdə *-ası, -əsi* şəkilçisi ilə formalaşmışdır. Məsələn: *Ol bizgə kələsi boldı* "O, bizə gələsi oldu" (II c, s.84).

Burada bir məsələyə toxunmaq istəyirik. R.Əskər feilin lazım şəklində danışarkən əslində feili sifətə aid nümunələr verir: *bu ya kurası oğur təgül* "Bu, yay qurası zaman deyil", *bu turası yer təgül* "Bu, durası yer deyil" *bu tağ ağası oğur təğül* "Bu dağa çıxılası zaman deyil" (24: 280).

Qeyd etmək lazımdır ki, M.Kaşğari də bu formadan danışarkən "ismi-məkan" terminindən istifadə edir; "ismi-məkan" isə həmin məqamda feili sifət məzmunundadır və misallar da bunu göstərir. Hətta yuxarıda lazım şəklinə aid verdiyimiz misal da əsərdə ikili şəkildə təqdim edilmişdir: *Ol bizgə kəlgü boldı* "Onun bizə gəlmə zamanı oldu" deyilir. Oğuzlar bu mənada *ol bizgə kələsi boldı* deyirlər (IIc.,s.84).

Məlumdur ki, eyni məna-məzmun müxtəlif qrammatik formalarla ifadə oluna bilər. Bizə belə gəlir ki, M.Kaşğaridən verilmiş nümunələrdən birincisi feili sifət, ikincisi isə feilin lazım şəklidir.

Feil şəkillərindən biri də vacib şəklidir. Məlumdur ki, feilin təsriflənən və təsriflənməyən formaları içərisində morfoloji baxımdan omonimlik vardır. Onlar şəxs şəkilçisi ilə işlənib-işlənməməsinə görə bir-birindən fərqlənirlər. Fikrimizə şörə, M.Kaşğari "Divan"da lazım şəklindən bəhs açmamış, "ismi-zaman" və ya "ismi-məkan"dan bəhs edərkən bənzər faktdan danışmışdır.

Məlumdur ki, arzu və vacib şəkilləri məzmunca bir-birinə yaxındır, lakin onların qrammatik formaları, yəni morfoloji əlamətləri həqiqi kateqoriyanı dəqiqləşdirir. Burada da iki formadan biri verilməlidir: 1) *gərək onu öpə*; 2) *onu öpməlidir*. *Gərək* sözü arzu ədatıdır və arzu formasının yaranmasında iştirak edir. Hətta *gərək* sözü qoşa şəkildə bölüşdürmə bağlayıcısı kimi işləndikdə də "istər" mənasını ifadə edir ki, bu da "arzu etmək" deməkdir. Ona görə də, fikrimizcə, yuxarıdakı misalın daha dəqiq tərcüməsi məhz birincidir, çünki mətnin özündə elə *gərək* sözü işlənmişdir. Bu baxımdan həmin nümunə vacib yox, arzu şəkli kimi təqdim edilməlidir.

Qeyd edək ki, türkologiyada *–sa+gərək* formasının daha qədim vaxtlarda, habelə orta əsr Azərbaycan ədəbi dilində vacib şəkli yaratdığı göstərilir (43:167).

Göründüyü kimi, feil şəkillərində də müasir dilimizlə səsləşən və səsləşməyən hallar vardır.

## Ə D Ə B İ Y Y A T

1. Divanü-lüğat-it-türk tərcüməsi (çevirəni Besim Atalay). I – IV cild, Ankara: I c. 1939; II c. 1940; III c. 1941, 425 səh.; IV c. 1943, 885 səh.
2. Əskər R. M.Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri. Bakı, "MBM" nəşriyyatı, 2008. 432 səh.
3. Hacıyev T.İ. Azərbaycan dilinin yazıyaqədərki izləri haqqında. // Azərbaycan filologiyası məsələləri, Bakı: Elm, 1983. səh. 25-34.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: "Maarif" nəşriyyatı, 1983, 320 səh.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, II hissə. Bakı: "Adiloğlu" nəşriyyatı, 2007, 354 səh.
6. "Kitabi-Dədə Qorqud". Tərtib edəni F.R.Zeynalov və Ş.Q. Əlizadədir, Bakı: "Yazıçı" nəşriyyatı, 1988, 265 səh.
7. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Bakı Universiteti nəşriyyatı, 1990, 376 səh.
8. Rəcəbli Ə. Göytürk dilinin morfologiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, 475 səh.
9. Rəhimov M.Ş. Azərbaycan dilində fel şəkillərinin formalaşması tarixi. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965, 268 səh.
10. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 368 səh.
11. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: "Şərq – Qərb" nəşriyyatı, 2008, 416 səh.

## Р Е З Ю М Е
## ИЗОБРАЖЕНИЯ ГЛАГОЛА В СЛОВАРЕ М. КАШГАРЛИ "ДИВАНИ-ЛУГАТ- ИТ ТЮРК"

Во времена гойтюрков был написан ряд блестящих произведений. Среди этих произведений величайшее произведение тюркского мира - «Дивану лугат-ит тюрк» М. Кашгари. Этот труд был энциклопедией тюркизма из-за его научной ценности. Произведение отражает турецкую историю не XI века.а более раннего периода.

По подсчетам видного турецкого ученого А.Б. Эрчиласу, количество слов, используемых в крупных памятниках Кул Тигина, Билга Кагана и Тоньюкука, без учета ономастических, составляет 700 слов. "Диван" М. Кашгари содержит около 9000 слов, самые распространенные среди них - глаголы.

Глаголы изменяются по временам, лицам, по элементам суффиксов относятся к различным формам. Известно, что глаголы делятся на 2 группы и бывают спрягаемые и неспрягаемые. Спрягаемые глаголы, которые имеют окончания и неспрягаемые- инфинитив, деепричастие и причастие. При использовании в речи и образовании предложений большую роль играет спряжение глаголов, т.е. их окончания. Окончания глаголов играют роль средств выражения. В современном языке имеется 6 форм глагола: повелительный, желательный, изъявительный, повествовательный, обязательный, условный. В старотюркском языке глаголы имеют такие же формы, что и в современном языке. Но своеобразная сторона некоторых из них отмечается Махмудом Кашгари, который, при разборе глаголов повествовательного наклонения, обращал большое внимании на них. Из-за того, что, эта форма не имела особых форм, использовались суффиксы и корни.

**Ключевые слова:** *глаголы, категория, глагольные картинки, турецкие языки, грамматические особенности.*

## S U M M A R Y
## MEANGS OF THE VERB IN M. KASHGARLI'S "DIVANI LUGHAT-IT-TURK"

A number of brilliant works were written during the time of the Goyturks. Among these works, the most magnificent work of the Turkish world is M. Kashgari's "Divanu lugat-it Turk". This work was the Encyclopedia of Turkism due to its scientific value. The work reflects the Turkish history of the earlier period, not the XI century.

According to the calculations of the prominent Turkish scholar AB Ercilasu, the number of words used in the large monuments of Kul Tigin, Bilga Khagan and Tonyukuk is equal to 700 words, excluding onomastic words. M. Kashgari's "Divan" contains about 9000 words. The most common of these words are verbs.

Verbs have different forms according to the signs of time, person and image: definite and indefinite. The form described, that is, the verb forms, plays an important role in the construction of speech, in the formation of sentences. Verb images reflect different attitudes in whether or not the subject's actions are performed. Verb images appear as a necessity, a desire, a certain connection to the performance of an action.

In our modern language, there are six forms of the verb: command, message, necessary, important, desire, condition.

We come across all these pictures in the work "DLT" by M. Kashgari, the first researcher of ancient Turkish languages. The verbs in "Divan" do not differ significantly from the verbs in modern Turkish languages due to their grammatical features. This feature is directly related to the conservatism of the grammatical, especially morphological structure of the Turkish languages.

**Keywords:** *verbs, category, verb pictures, Turkish languages, grammar features.*

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Allahverdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**TURKAN ALI GIZI GULUZADA**
*Xəzər Universiteti*
*e-mail: tguluzada@khazar.org*

# LINGUISTIC FEATURES OF WRITTEN ACADEMIC TEXTS

***Keywords:*** *academic text, linguistics, linguistic features of an academic text, lexical features, grammatical features, stylistic features, scientific and technological progress, trends in world science*

***Açar sözlər:*** *akademik mətn, dilçilik, akademik mətnin linqvistik xüsusiyyətləri, leksik xüsusiyyətlər, qrammatik xüsusiyyətlər, üslub xüsusiyyətləri, elmi-texniki tərəqqi, dünya elminin trendləri*

***Ключевые слова:*** *академический текст, лингвистика, лингвистические особенности академического текста, лексические особенности, грамматические особенности, стилистические особенности, научно-технический прогресс, тренды мировой науки*

Today's scientific conference is dedicated to the 100th anniversary of the national leader of the Azerbaijani people Heydar Aliyev. Because H.Aliyev played an important role in the development of Azerbaijan in general, including science and culture. As noted in the Decree of the President of the Republic of Azerbaijan "On declaring 2023 as the Year of Heydar Aliyev in the Republic of Azerbaijan" (Baku, September 29, 2022), "the formation of the ideology of Azerbaijanism, which unites our people around a single action, the state's concern for the native language, the creation of a tradition of regularly celebrating significant events in our history of scientific and cultural thought is an integral part of Heydar Aliyev's building program".

The continuation and development of this program in modern times has provided the development of Azerbaijani literature and linguistics. Today, important steps are being taken towards solving urgent problems in the field of linguistics. Special attention is given to the development of linguistics.

The linguistic features of written academic texts are one of the areas studied in Azerbaijan from a theoretical and practical point of view.

Globalization, the current stage of development of society, the rapid development of science, its integration at the international level, the convergence of its various areas, as well as the internationalization of scientific communication make the study and improvement of academic writing more and more relevant.

Academic writing involves the complex development of metalinguistic and linguistic competencies to achieve the goal of scientific communication. Effective written communication in an academic environment involves the ability to create

texts of different genres based on the formed professional skills of writing, critical thinking, independence and reflection [1, p. 3].

Academic texts written by speakers of different languages have similar linguistic characteristics. The main purpose of these texts is to acquaint the scientific community with the results of the research of the respective authors. At the same time, it reflects the tools used to consistently, logically and convincingly build their ideas for the correct and unambiguous perception of information.

Although the term “academic writing” originates from the theory of English writing, it has already moved from the status of tracing paper to other languages. Over time, the trend of penetration of the English-language norms of academic writing and their influence on the established system of another language has acquired a large-scale character. Today, the attention of researchers is attracted by the connection between "academic writing" and traditional written speech forms and styles characteristic of different languages of the world [4, p. 7].

Foreign researchers refer abstracts, notes, reviews, abstracts, essays, etc. to the genres of academic writing. Academic texts related to the natural and technical sciences are characterized by logic, abstraction, standardized form, information content and neutral modality.

Academic text uses words-concepts that carry the most abstract semantic load, most often used by scientists-specialists in one or another field of science. For example, instead of the concept of “origin”, historians usually use the term “ethnogenesis”; instead of the phrase “construction of canals” – “irrigation facilities”. If “ruler” is applied to a country or another country, then the historical name of ancient rulers is used: pharaoh in Egypt, lugal in Mesopotamia, van in China, etc. [2, p. 14].

N.S.Valgina writes that a academic text has combined lexical, grammatical, stylistic connections that have a certain purposefulness and pragmatic setting [5, p. 2]. Therefore, the text is not just a fixed oral speech on paper, it cannot be spontaneous and unorganized, it is presented correctly, according to a certain plan, within the framework of the structure and is drawn up in accordance with the rules.

Linguistics of the text studies it as a process, therefore, it is necessary to take into account the extra-linguistic factors of the functioning of the text: the historical period of the development of society, the sociocultural situation, the circumstances of communication. The academic text is formed under the influence of extra-linguistic factors and manifests itself as a complex and integral “organism”, having a certain content and form, which implement the linguistic and structural characteristics of the text through the strategies of influencing the addressee [5, p. 3].

The concept of “academic written text” includes the main meanings listed below:

*1) A specialized text written for a narrow audience.* In such works, there is a balance of theoretical provisions made with reference to already published works, and practical results of the author's research.

*2) Texts of certain genres.* This interpretation corresponds to the purpose of writing texts of such genres as an article, course research, thesis, abstract, dissertation.

*3) A text created in accordance with the requirements of the academic style* [4, p. 8-9].

Based on the analysis of scientific literature, it is possible to show the following linguistic features of the academic text (table 1):

| Lexical Features | Grammar Features | Stylistic Features |
|---|---|---|
| ➢ vocabulary of an abstract character;<br>➢ terminology, special lexicon;<br>➢ neutral, book vocabulary;<br>➢ lack of vocabulary with colloquial, emotionally expressive, evaluative connotations | ➢ impersonal offers;<br>➢ passive structures;<br>➢ neuter singular nouns;<br>➢ desemantized verbs of timeless meaning in the form of the third person<br>➢ singular nouns in the plural sense;<br>➢ adjectives in comparative and superlative form;<br>➢ nominative prepositions and conjunctions;<br>➢ absence of emotional and subjective-modal particles and interjections | ➢ dynamism;<br>➢ contextuality;<br>➢ integrity;<br>➢ situational conditioning;<br>➢ intentionality;<br>➢ indiscreteness;<br>➢ dialogue;<br>➢ impersonality;<br>➢ terminology;<br>➢ genre and stylistic standardization |

**Table 1. Linguistic features of the academic text [Лядова, p. 67]**

And so, according to the results of the study, we can say that academic texts have their own characteristics of presentation and linguistic characteristics.

Thus, academic writing is a generally recognized, well-founded and time-tested method of developing research competence acquired by the researcher himself in the process of creating a scientific work.

There is no doubt that the scientific conference dedicated to the 100th anniversary of the national leader at the Sumgayit State University will be remembered for its important scientific results. I express my gratitude to everyone who contributed to the organization of the conference.

## REFERENCES

1. Khlybova M.A. Development of master students' academic writing skills at a non-linguistic university // World of Science. Pedagogy and psychology No 5, Volume 9, 2021, p. 1-7

2. Квициния М.Б. Академическое письмо: учебное пособие. Сухум, 2018, 145 с.

3. Лядова О.Н. Лингвистические особенности академического дискурса // Слово в зеркале истории языка. Сборник тезисов IV Всероссийских научных чтений с участием РСМД. Том 2. Набережные Челны, 02 июня 2021, с. 66-68

4. Чуйкова Э.С. Академическое письмо: учим писать профессионально на английском языке. Самара, 2021, 176 с.

5. Ягенич Л.В. Характеристика письменных научных текстов // Научно-методический электронный журнал "Концепт", № 5, 2018, с. 1-5

## LINGUISTIC FEATURES OF WRITTEN ACADEMIC TEXTS
## SUMMARY

The linguistic features of written academic texts are one of the areas studied in Azerbaijan from a theoretical and practical point of view.

Globalization, the current stage of development of society, the rapid development of science, its integration at the international level, the convergence of its various areas, as well as the internationalization of scientific communication make the study and improvement of academic writing more and more relevant.

Although the concept of "academic text" is characteristic of the English language, it has found its place in all languages as a result of the development of scientific and technical progress and the expansion of scientific relations between the countries of the world. It gradually gained a more important position against the background of the trends of modern world science. Also, "Academic text" is taught as a free subject in higher education institutions of America, as well as many European countries.

Academic texts written by speakers of different languages have similar linguistic characteristics. The main purpose of these texts is to acquaint the scientific community with the results of the research of the respective authors. At the same time, it reflects the tools used to consistently, logically and convincingly build their ideas for the correct and unambiguous perception of information.

Scientists from many countries of the world involve the "academic text" itself in scientific research from various aspects. In this article, the linguistic features of academic texts were also investigated.

## YAZILI AKADEMİK MƏTNLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ


### XÜLASƏ

Yazılı akademik mətnlərin linqvistik xüsusiyyətləri Azərbaycanda nəzəri və praktiki baxımdan öyrənilən sahələrdən biridir.

Qloballaşma, cəmiyyətin müasir inkişaf mərhələsi, elmin sürətli inkişafı, beynəlxalq səviyyədə inteqrasiya, müxtəlif sahələrinin yaxınlaşması, eləcə də elmi kommunikasiyanın beynəlmiləlləşməsi akademik yazının öyrənilməsini və təkmilləşdirilməsini getdikcə aktuallaşdırır.

"Akademik mətn" anlayışı ingilis dili üçün xarakterik olsa da, elmi-texniki tərəqqinin inkişafı, dünya ölkələri arasında elmi əlaqələrin genişlənməsi nəticəsində bütün dillərdə özünə yer tapmışdır. O, müasir dünya elminin trendləri fonunda get-gedə özünə daha önəmli mövqe qazanmışdır. Həmçinin, Amerikanın, eləcə də bir çox Avropa ölkələrinin ali təhsil müəssisələrində "Akademik mətn" sərbəst fənn kimi tədris edilir.

Müxtəlif dillərdə danışanlar tərəfindən yazılmış akademik mətnlər oxşar linqvistik xüsusiyyətlərə malikdir. Bu mətnlərin əsas məqsədi elmi ictimaiyyəti müvafiq müəlliflərin tədqiqatlarının nəticələri ilə tanış etməkdir. Eyni zamanda informasiyanın düzgün və birmənalı qavranılması üçün öz ideyalarını ardıcıl məntiqli və inandırıcı şəkildə qurmaq üçün istifadə olunan vasitələri əks etdirir.

Dünyanın bir çox ölkələrindən olan alimlər "akademik mətn"in özünü müxtəlif aspektlərdən elmi tədqiqata cəlb edirlər. Bu məqalədə də akademik mətnlərin linqvistik xüsusiyyətləri araşdırılmışdır.


## ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПИСЬМЕННЫХ АКАДЕМИЧЕСКИХ ТЕКСТОВ


### РЕЗЮМЕ

Лингвистические особенности письменных академических текстов являются одной из областей, изучаемых в Азербайджане с теоретической и практической точки зрения.

Глобализация, современный этап развития общества, стремительное развитие науки, ее интеграция на международном уровне, сближение различных ее направлений, а также интернационализация научной коммуникации делают изучение и совершенствование академического письма все более актуальным. .

Хотя понятие «академический текст» характерно для английского языка, оно нашло свое место во всех языках в результате развития научно-технического прогресса и расширения научных связей между странами мира. Постепенно она заняла более важное положение на фоне тенденций современной мировой науки. Также «Академический текст» преподается как

бесплатный предмет в высших учебных заведениях Америки, а также многих европейских стран.

Академические тексты, написанные носителями разных языков, имеют схожие лингвистические характеристики. Основная цель этих текстов – ознакомить научную общественность с результатами исследований соответствующих авторов. В то же время он отражает инструменты, используемые для последовательного, логического и убедительного построения своих представлений для правильного и однозначного восприятия информации.

Ученые многих стран мира вовлекают сам «академический текст» в научные исследования с разных сторон. В статье исследуются лингвистические особенности академических текстов.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Professor, filologiya elmləri doktoru Azad Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur**

**GÜLNAR TARIYEL QIZI İSMAYILOVA,**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu**
**e. posta: gulnar.ismayilova @ inbox. ru**

# YUNUS ƏMRƏ VƏ QAZI BÜRHANƏDDIN "DIVAN"LARINDA SÖZ YARADICILIĞI ( morfoloji yolla düzələn sözlər, ad düzəldən şəkilçilər)

## Xülasə

XIII-XIV əsrlərdə ortaq ədəbiyyatdan anadilli ədəbiyyata keçid prosesi genişlənmiş və dərinləşmişdir. Bu mənada Türk dünyasının böyük sənətkarı, sufi-təsəvvüf ideyalarını tərənnüm edən, lirika ustadı Yunus Əmrə ortaq ümumtürk ədəbiyyatına keçid prosesini reallaşdıran görkəmli sənətkarlardandır. Yunus Əmrə "Divan"ının dili daha çox sufi-təsəvvüf ideyalarını tərənnüm etməklə fərqli xüsusiyyət qazanır. Qazi Bürhanəddin yaradıcılığında isə bu xüsusiyyət daha az nəzərə çarpır.

Məqalədə XIII-XIV əsrlərə məxsus ədəbi dilin bir sıra əlamətlərini özündə əks etdirən Yunus Əmrə və Qazi Bürhanəddin "Divan"larında söz yaradıcılığı prosesi nəzərdən keçirilmişdir. Söz yaradıcılığı dilimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Tarixən dilimizdə sözlərin nitq hissələrinə görə təsnifi zamanı bir nitq hissəsindən digər nitq hissəsi düzəldən leksik şəkilçilər mühüm rol oynamışdır. Düzəltmə sözlərin yaranma prosesi hər dövrdə dilin lüğət tərkibini xeyli zənginləşdirmişdir. Tədqiqatlar zamanı bəlli olurki, şifahi dil heç də ümumi ədəbi dilin zənginləşməsi prosesindən kənarda qalmamış, əksinə, yeni sözlərin və anlayışların dövriyyəyə, yazılı nitqə və lüğət fonduna daxil olmasında fəal surətdə iştirak etmişdir.

Məqalədə hər iki "Divan"dakı müxtəlif söz qruplarının söz yaradıcılığı baxımından təhlili aparılmış, isim düzəldən şəkilçilər vasitəsilə yeni sözlərin yaranma prosesi izlənmişdir. Hər iki sənətkarın poetik irsində, əsərlərinin dilində təsadüf olunan və morfoloji yolla yaranan yeni sözləri müqayisəli şəkildə izləmək daha obyektiv elmi nəticələrə gəlməyə imkan yaradır. Həmçinin məqalədə ad düzəldən şəkilçilər həm adlardan isim, həm də feildən isim düzəldən şəkilçilər kimi iki qrupda təsnif olunur. Ad düzəldən şəkilçilər söz yaradıcılığında fəal surətdə işlənən, tarixən mövcud olan şəkilçilərdən hesab olunur. Yunus Əmrə və Qazi Bürhanəddinin "Divan"larında da ad düzəldən şəkilçilər fəal surətdə iştirak edir. Hal-hazırda yeni söz yaratmaq prosesində öz məhsuldarlığını qoruyub saxlayan bu şəkilçilər ayrı-ayrı sözlərə qoşularaq müxtəlif anlayışları ifadə edir. Hər iki "Divan"da ad düzəldən şəkilçilərin işlənmə mövqeyi müqayisəli şəkildə nəzərdən

keçirilir. Bu baxımdan divanların təhlili o dövrkü türk ədəbi dilinin mənzərəsi barədə yekdil qənaət hasil etməyə imkan verir.

**Açar sözlər**
Divan ədəbiyyatı, söz yaradıcılığı, morfoloji yolla yaranan sözlər, leksik şəkilçilər, qrammatik şəkilçilər, isim düzəldən şəkilçilər.

Söz yaradıcılığı dilçiliyin zaman-zaman inkişaf edən, özünün zənginləşmə imkanlarını bütün tarixi təkamül boyu qoruyub saxlayan sahələrindən biridir. Ümumxalq dilinin, canlı ünsiyyətdə işlənən leksik vahidlərin söz yaradıcılığında müstəsna rolu var. Tarixən ədəbi dilə bu tipli sözlərin birbaşa və sözdüzəldici (leksik) şəkilçilərdən istifadə yolu ilə daxil olması özünü büruzə vermişdir. Belə faktın özü bir daha onu təsdiqləyir ki, şifahi dil heç də ümumi ədəbi dilin zənginləşməsi prosesindən kənarda qalmır, əksinə, yeni sözlərin və anlayışların dövriyyəyə, yazılı nitqə və lüğət fonduna daxil olmasına fəal surətdə qoşula bilir.

Belə səciyyəvi keyfiyyətlərin türk dillərində müşahidə olunması, hər şeydən əvvəl, dilin öz daxili qanunuyğunluğundan irəli gəlir. Bu doğru qənaətdir ki: "Azərbaycan türk ədəbi dili milliləşənə qədər (və milliləşmə prosesində) ümumiyyətlə, türk dilləri (ədəbi və qeyri-ədəbi formalar) ilə tarixi-tipoloji əlaqədə inkişaf etmişdir, ona görə də Azərbaycan türk ədəbi dilinin təşəkkülü, təkamülü və milli əsaslar üzərində yenidən təşkil olunması kimi məsələlərin izahı ümumtürk kontekstindən çıxış etməklə mükündür." [3, s. 352]

Ədəbi-bədii abidələrin dilində belə keyfiyyət göstəricilərinin olması təbii zərurətdən irəli gəlir. Geniş oxucu kütləsi ilə bərabər, elitar zümrələrin maraq dairələrini nəzərə alan klassik poetik nümunələrdə bu ənənənin davam və inkişaf etdirilməsi şifahi və yazılı dillərarası əlaqə və bağların fasiləsizliyi barədə yekdil qənaət hasil edir.

Yunus Əmrə və Qazi Bürhanəddinin yaradıcılığı bu mənada xalqla canlı ünsiyyətdən, onun düşüncə tərzindən və adət-ənənəsindən qaynaqlanan ədəbi-linqvistik hadisə kimi xüsusi əhəmiyyət kəsb edir. Sufi-təsəvvüfi ideyaları yaymaq, bu dini-fəlsəfi təmayülü bütün yaradıcılığı boyu tərənnüm etmək bir şair-mütəfəkkir kimi Yunus Əmrənin poetik irsinin əsas qayəsi idi. Şübhəsiz ki, Qazi Bürhanəddinin yaradıcılığında da Yunus Əmrədən əxz olunan keyfiyyətləri təcrübi şəkildə davam və inkişaf etdirilməsini görmək mümkündür. Belə ki, şair-hökmdarın ədəbi dilində Yunus Əmrə tərəfindən dil dövriyyəsinə gətirilən söz və ifadələrin və ya onun qarşılığının istifadə olunması halları belə qənaətə gəlməyə əsas verir. Söz yox ki, üslubi baxımdan Yunus Əmrə və Qazi Bürhanəddin yaradıcılığında fərqli xüsusiyyətlər də nəzərə çarpır. Bu fonetik, leksik və morfoloji aspektlərdə özünü qabarıq göstərir.

Hər iki sənətkarın poetik irsində biçimlənən üslubi çalarları, əsərlərinin dilində təsadüf olunan birbaşa və morfoloji yollarla yaranan yeni sözləri belə məqamlarda müqayisəli şəkildə izləmək daha obyektiv elmi nəticələrə gəlməyə imkan yaradır.

Ad düzəldən şəkilçilər söz yaradıcılığında fəal surətdə işlənən, tarixən mövcud olan şəkilçilərdən hesab olunur. Ad düzəldən şəkilçilərin həm adlardan isim, həm də feildən isim düzəldən şəkilçilər kimi iki qrupda təsnif olunması fikrinə G.Abdullayevanın "Müasir Azərbaycan dili" adlı dərs vəsaitində də rast gəlinir. "Sözdüzəldici (leksik) şəkilçilər vasitəsilə müxtəlif nitq hissələrindən yaranmış isimlər düzəltmə isimlər adlanır. Düzəltmə isimlər adlardan və feillərdən əmələ gəlir. Adlardan əmələ gələn isimlər həm öz milli şəkilçilərimiz, həm də başqa dillərdən gələn alınma şəkilçilər vasitəsilə yaranır" [2, s.26]. Yunus Əmrə və Qazi Bürhanəddinin "Divan"ında ad düzəldən şəkilçilər fəal surətdə iştirak edir. Hal-hazırda yeni söz yaratmaq prosesində öz məhsuldarlığını qoruyub saxlayan bu şəkilçilər ayrı-ayrı sözlərə qoşularaq müxtəlif anlayışları ifadə edir. Hər iki "Divan"da ad düzəldən şəkilçilərin işlənmə mövqeyini müqaisəli şəkildə nəzərdən keçirək.

Türk dillərinin morfologiyasında **–lık, -lik,- luk, lük** şəkilçiləri tarixən işlənmə tezliyi ilə seçilən və yazılı abidələrdə müəyyən fonetik dəyişikliklərlə işlənən şəkilçilərdən hesab olunur. Qədim yazılı abidələrdən olan "Göytürk" abidələrində və Mahmud Kaşğarinin "Divani-luğat-it-türk" əsərində də bu şəkilçi vasitəsilə əmələ gələn sözlərə rast gəlinir.

Son illərin dilçilik tədqiqatlarında bu şəkilçilərin işlənilmə səviyyəsi barədə belə qənaətə gəlinir ki: "Müasir oğuz qrupu türk dillərində bu şəkilçinin daşıdığı məna xüsusiyyətlərinin əksəriyyəti XIII əsr bədii materiallarda da istifadə olunmaqdadır." [6, s. 34]

Mövcud araşdırmalarda sifət düzəldən **-lı**[4] şəkilçisinin tarixən **-lıq**[4] və **-lığ**[4] kimi işlənməsi xüsusi olaraq vurğulanır. **-lıq, -lik** şəkilçisinin zaman, yer, əşya, peşə, vəzifə, hal-vəziyyət, topluluq (cəm), mücərrəd anlayışlar, şəxs və aidlik bildirmək xüsusiyyəti mövcud tədqiqatlarda nəzərə çatdırılır. Mərhum dilçi-alim Hadi Mirzəzadə bu şəkilçinin hansı sahələrə aid sözlərdə işlənilməsi haqqında yazırdı: "Müşahidələrdən təxminən belə nəticə alınır ki, **-lıq, -lik** şəkilçisi əşya, peşə, vəzifə məfhumları əmələ gətirmək üçün sonralar daha çox aktiv olmuşdur. Çünki yazı materiallarımızda belə sözlərə nadir hallarda təsadüf edilir." [9, s. 55]

Yunus Əmrə və Qazi Bürhanəddinin "Divan"larının dilində bu şəkilçilərin işlənmə mövqeyini izləməyə çalışaq.

**-lix, -lığ, -lig, -lug, -lik, -lux, - luğ, -lüg:**

**Yunus Əmrədə**

*Hak yarattı yeri göğü ol Ahmed'in* ***dostluğuna***
*Levlak ona delil oldu onsuz yer gök var olmadı* [10, s. 122];
*Nice ömrüm olur ise* ***azadlığım*** *muhaldürür*

*Seyyadın elündedürür tuzağa tutulan* nahcır [10, s. 127]

**-lik, -lix, -lığ, -lig:**

**Qazi Bürhanəddində**

*Hər bir kişi dünyada* ***ərlikdən*** *edər dəva,*
*Mərdanə olur isə mərdaneyi-eşq olsa.* [8, s. 10 a];
*Daneyi-xalünə düşdi bu dəli könül,*
***Aləmilixdür****, nola bağışla günahın.* [8, s. 41 a]

Türk dillərində işlənən **–lı**[4] tarixən əsas nitq hissələrindən olan isim və sifət köklərinə artırılmaqla müxtəlif məna daşıyan sözlər düzəldir. Bu mənada həmin şəkilçini omonim şəkilçi də hesab etmək olar. Şəxsin-subyektin mənsubluğunu bildirmək baxımından bu şəkilçinin yazılı abidələrdə az sayda işlənilməsi "... bu şəkilçinin passiv olduğuna dəlalət etmir, çünki müasir ədəbi və canlı danışıq dilində buna tez-tez təsadüf edilməsi və adamların mənsub olduqları yeri ilə fərqləndirilməsi halları belə düşünməyə imkan verir ki, **-li** şəkilçisi əvvəllərdə söz yaradıcılığı prosesində yaxından iştirak etmişdir." [9 s 64]

**-lu, -lü, -lı, li:**

**Yunus Əmrədə**

*Akılları şaşırır deryalara düşürür*
*Nice ciger pişirir key* ***odlu*** *nesnedir aşk* [10, s. 119];
*Bu gönlüm garip idi cigerim kebab idi*
***Görklü*** *yüzünü gördüm içim dışım bezendi* [10, s. 121]

**Qazi Bürhanəddində**

*Əgər səbr edə gözlərün nəzər qılınca atmağa,*
*Bu* ***yaralı*** *könlümə bu dəxi həm himatdür.*[ 8, s. 46];
*Bən xo sənə* ***bağluyam****, bu dam ilə danə,*
*Nə gərəkdür ki, düzdi zülf ilə bu xal.* [8, s. 55]

İnkar şəkilçisi kimi türk dillərində işlənən bu şəkilçi tarixən sifət düzəltmə prosesində fəal surətdə iştirak etmişdir. Dil tarixinə aid akademik nəşrlərdə bu şəkilçi belə səciyləndirilir: "Bu şəkilçi türk sözlərində özünü göstərdiyi kimi, qeyri-türk ərəb, fars mənşəli sözlərdə də eyni uğurlu təyinlərin, epitetlərin düzəlməsini təmin edir, hər hansı bir anlayışın, mənanın, keyfiyyətin varlığını inkar etmək semantikasını ifadə edir." [1, s. 171]

Yunus Əmrə və Qazi Bürhanəddinin "Divan"larında bədii təyin və epitetlərin yaranmasında bu şəkilçinin müstəsna rolu var.

**-suz, -süz:**

**Yunus Əmrədə**

*Deniz oldu birkaç kadeh* ***susuzluğum*** *kanmaz benim*
*İniltilerim eksilmez gözüm yaşı dinmez benim* [10, s. 150];
*Söyledin cümle aleme henüz nikab içindesin*
*Bir dem* ***perdesiz*** *yürüsen iki cihan olur helak* [10, s. 120]

**Qazi Bürhanəddində**

*Tuza axar gibi axar könüllər zülfinə anun*
*Zəhni **insafsuz** şol ki, bəni mən, edə tuzumdan.* [8, s. 461];
*Eşqümün vəsfini hər **dilsüz** de,*
*Yüzünün hüsnini hər **gözsüz** görə.* [8, s. 459]

Türkoloji araşdırmalarda **–daş, -taş** şəkilçilərinin yeni söz yaradıcılığında mühüm bir vasitəyə çevrilməsi haqqında yekdil nəticəyə gəlinən fikirlər söylənilmişdir. Bu mülahizələrdə səslənən əsas müddəa ondan ibarətdir ki, **-daş** şəkilçisi **da+eş** hissələrindən əmələ gəlmiş, **-da** ismin yerlik halını, **-eş** isə yoldaş, ortaq mənalarını bildirir. Hal-hazırda türk dillərində söz kökünün son hecasındakı cingiltili samitlərdən sonra **– daş,** kar samitlərdən sonra **– taş** şəkilçisi işlədilir.

Yunus Əmrə və Qazi Bürhanəddinin ədəbi dilində **-daş** şəkilçisinə bilavasitə isimlərdən ibarət sözlərin yaranmasında rast gəlinməkdədir.

**-daş:**

**Yunus Əmrədə**

*Gör nice taşlar atılır dost için başlar tutulur*
*Gelir gönüle batılır halimize **haldaş** gelir* [10, s. 117]

**Qazi Bürhanəddində**

*Zülfi qədi-sərvinə çünki **ayaxdaşdurur,***
*Sərvi-xuraman ilə sərbəsər olmışdurur.* [8, s. 543]

Fars dilindən alınan “xane” sözü lüğəvi mənaca “ev” deməkdir. Sonralar türk mənşəli sözlərin sonuna (kökünə) artırılan şəkilçi funksiyası daşıyan “xana” sözü yeni sözlərin yaranması prosesinə fəal şəkildə qoşulmuşdur.

XIII-XIV yüzilliyin ədəbi dilində də bu qəbildən olan sözlərin işlənilməsinə təsadüf edilməkdədir.

**-xana:**

**Yunus Əmrədə**

*Ger **meyhaneye** vardım onsuz yer göremedim*
*Yine ona sataşdım girdim dahi külhanda* [10, s. 308]

**Qazi Bürhanəddində**

*Ləbün eşqinədür **meyxanələrdə***
*Ki, içərlər şərabi-nab hər dəm.* **[**8, s. 24]

Yer, məkan, ərazi və ölkə adları bidirən bu şəkilçinin türk dillərində işlənilməsinin böyük tarixi ənənəsi var. Bu şəkilçi qoşulduğu, birləşdiyi söz köklərindən asanlıqla ayrılmaq imkanına da malikdir. Fars mənşəli sözlərdə bu şəkilçi daha fəal işlənməkdədir.

**-stan:**

**Yunus Əmrədə**

*Varam ol dostu kul olam hem açılıban gül olam*
*Hem öpüb bülbül olam durağım **gülistan** ola* [10, s. 135];
*Dost yüzünü gördü gözüm erenlere toprak yüzüm*

*Söz anlayana bu sözüm gerek* ***şekeristan*** *ola* [10, s. 135]

**Qazi Bürhanəddində**

***Gülsitanü*** *dilsitanü dustan,*
*Andururlar könlümə Hindustan.* [8, s. 157];
*Apardı bənüm könlüm bir dilbəri-məstanə,*
*Boynına taxıb zülfin iləddi* ***şəbistana****.* [8, s. 331]

Məkan-yer mənası bildirən sözlərin yaranmasında iştirak edən **"zar"** şəkilçisi bir növ **"stan"** şəkilçisinə paralel (sinonim) olaraq işlənən şəkilçidir. Bu şəkilçinin işlənmə dairəsi bu qəbildən olan şəkilçilərlə müqayisədə kəmiyyətcə bir qədər azdır. Söz kökünə qoşulan **"zar"** şəkilçisi ayrıca nitq hissəsi olduğundan onu düzəltmə söz kimi qəbul etmək özünü doğrultmur. Bu, onun şəkilçilik xüsusiyyətinin itirməsi ilə bağlı izah oluna bilər.

**-zar:**

**Yunus Əmrədə**

*Yine sahra vü* ***mergzar*** *hoş akar esrik bu sular*
*Cihanlara saçdı nisar cümle alem dostu yine* [10, s. 295]

**Qazi Bürhanəddində**

*Könül ilə can içində* ***karzar*** *olmış durur,*
*Bülbülü-divanə noldun növbahar olmışdurur.* [8, s. 163];
*Bülbül ilə gül həvasın aqil andan anlaya*
*Qanda gülzar olmış isə* ***mürğzar*** *olmışdurur.*[8, s. 163]

Yunus Əmrə və Qazi Bürhanəddinin klassik janrlarda qələmə aldıqları nümunələrdə **-gah** şəkilçisi vaxt və məkan mənalarını bildirir. Daha sonrakı mərhələlərdə bu şəkilçinin passivləşməsi prosesi baş vermiş, fonetik dəyişikliyə uğraması nəticəsində **–gə** şəkilçisi yeni mənalı sözlərin yaranmasında fəal şəkildə iştirak etmişdir.

**-gah:**

**Yunus Əmrədə**

*Nazar kıl bu gevhere bu gizli gence nura*
*Nur kaçan yavıvara kendi* ***nazargahıdır*** [10, s. 80];
*Meydanımız meydan oldu canlarımız hayran oldu*
*Her dem arş* ***seyran-gah*** *oldu hazret oldu revanımız* [10, s. 141]

**Qazi Bürhanəddində**

*Çeşmini baz edərü gisularun* ***damgahinə***
*Göz yüzinə baxıcax yazmaya vay ilə nəzər.* [8, s. 234];
*Müzəlzəldür, müsəlsəl zülfinün sözinə inanma*
*Vəli könül* ***kəmərgahi*** *özini key mübin söylər.* [8, s. 378]

Fars dilində iş mənasını bildirən bu söz türk mənşəli dillərdə peşə sahibi bildirən isimlərin əmələ gəlməsində iştirak edir. Türk dillərində, o cümlədən

Azərbaycan dilində isim köklərinə qoşulan bu şəkilçilərin qoşulduğu sözlərin əksərən milli sözlərdən ibarət olması tədqiqatçılar tərəfindən xüsusi olaraq nəzərə çatdırılır.

Filologiya elmləri doktoru, professor Hüseyn Əsgərov Azərbaycan dilinin peşə-sənət leksikasından çıxış edərək ümumən türk dilləri üçün xarakterik cəhətləri üzə çıxararaq yazır: "Beləliklə, belə qənaətə gəlmək olar ki, Azərbaycan dilinin peşə-sənət leksiksının əsasını türk mənşəli sözlər təşkil edir. Əlbəttə, digər sənət leksikalarında olduğu kimi, peşə-sənət leksikasında da alınma sözlərə rast gəlmək olar. Lakin qəti şəkildə deyə bilərik ki, alınmalar peşə-sənət leksikasının cüzi qismini təşkil edir." [5 s 32]

Bu cəhəti Yunus Əmrə və Qazi Bürhanəddinin yaradıcılığında da izləmək mümkündür.

**-kar:**

**Yunus Əmrədə**

*Dünya vü izzet aşk ile bunlar* ***sazkar*** *olmadı*
*Vallah nükte benim degil aşk hazırdır görmez reva* [10, s. 113]

**Qazi Bürhanəddində**

*Sənün ilə* ***sazkar*** *olısaram demiş idi,*
*Bu söz içində bən yenə ol saza oynaram.* [8, s. 349]

**Feillərdən ad düzəldən şəkilçilər.** Feillərin kökünə və əsasına artırılaraq düzəltmə isimlərin əmələ gəlməsində fəal surətdə iştirak edən **–ış**[4] şəkilçisi zaman-zaman məhsuldar şəkilçiyə çevrilmişdir. Feil köklərinə artırılan bu şəkilçilərdən düzələn elə isimlər var ki, onlar arxaikləşərək türk dillərinin lüğət tərkibindən çıxmışdır. Məsələn, vaxtilə *"elm*", *"bilik"* mənalarında işlənən *"biliş"* sözü buna nümunə kimi göstərilə bilər. *"Elm" və "bilik"* sözlərinin istifadəsi ilə əlaqədar olaraq bu leksik vahidlərin işlənilmə dairəsi məhdudlaşdırılmış, yalnız *tanış-biliş* sinonim ifadəsinin tərkibində öz xüsusiyyətini qoruyub saxlamışdır.

**-ış, -iş, -uş, -üş:**

**Yunus Əmrədə**

*Gören pervaneleyin nice oda düşmesin*
*Gözlerinin* ***bakışı*** *can alır iki çırak* [10, s. 118];

**Qazi Bürhanəddində**

*Kimdə ki, ola* ***biliş*** *qapunda yazılur qul,*
***Bilişi*** *bulımayan biganə gəliməz ol.* [8, s. 190];

Məhsuldar şəkilçi kimi söz yaradıcılığında iştirak edən **–aq, əg, k** şəkilçisi isim, sifət, feil kimi əsas nitq hissələrinə artırılaraq əlamət, əşya, yer və mücərrəd məfhum adları bildirmişdir. Türk mənşəli sözlərdə **-aq** şəkilçisinin söz kökündə assimliyasiyaya uğrayaraq ayrıca leksik mənalı sözə çevrilməsi də müşahidə olunmaqdadır. Bu tipli sözlərdə "... köklə şəkilçi bir-biri ilə elə qovuşmuşdur ki, bunları çətinliklə ayırmaq olur. Bəziləri tərkib hissələrinə ayrıldıqda isə kök hissəsi *(oyaq-oy, otaq-ot)* heç bir məna ifadə etmir." [9, s. 609]

**Yunus Əmrədə**

*Namaz kıl **yarağ** olsun ahrette gerek olsun*
*Sinlekte çerağ olsun dur erte namazına* [10, s. 100];
*Geh feleklerden meleklerden **dilekler** dileyem*
*Gah arş u şemste gerdun olam gerdan olam* [10, s.196]

**Qazi Bürhanəddində**

*Oyana dövlətüm ol gecə ki, ol*
***Döşəgüm** üsdinə gələ uyari*. [8, s. 38];
*Varluğumun cümləsini gəldi apardı,*
*Varluğuma **qonaq** olalı həmeyi-eşq.* [8, s. 61]

Yazılı abidələrdə feil köklərinə artırılan **–ıx, -ux, -ük** şəkilçisi işlənilmə miqyasına görə ədəbi dildə davamlı şəkildə iştirak edən şəkilçilərdəndir. Müasir türk dillərində də bu şəkilçi vasitəsilə əmələ gələn sözlərə təsadüf olunmaqdadır. Buna nümunə kimi *"oyuq", "donuq" sözlərini* göstərmək olar.

Yunus Əmrə və Qazi Bürhanəddinin "Divan"larında bu şəkilçi vasitəsilə əmələ gələn sözlərə rast gəlinməkdədir.

**-ıx, -ux, -ük:**

**Yunus Əmrədə**

*Gönlüm canım aklım bilim senin ile karar eder*
*Can kanadı **açık** gerek uçuban dosta gitmeğe* [10, s. 137];
*Benim canım **uyanıktır** dost yüzüne bakan benim*
*Hem denize karışmağa ırmak olup akan benim* [10, s. 205]

**Qazi Bürhanəddində**

*Qiyamətdür boyun, ey şah, dayim,*
*Saçun **bölükləri** ana əlayim.* [8, s. 51];
*Hər nə ki, yük götürür surəti **əksük** olur,*
*Quş ola gərək könül çün götürür bari-eşq.* [8, s. 51]

Hər iki "Divan"da söz köklərinə artırılan**–ğu, -gü** şəkilçisi qeyri-məhsuldar şəkilçi kimi iştirak edir. Digər yazılı abidələrdə də bu şəkilçinin işləklik qazanması müşahidə olunmur. Müasir Azərbaycan dilində işlənən "*sayğı", "duyğu",* "*sevgi"* kimi sözlərdə də bu şəkilçinin iştirakını görmək mümkündür.

**-ğu, -gü**

**Yunus Əmrədə**

*Yunus'un gönlü gözü doludur Hak **sevgisi***
*Sohbet ihtiyar eden yad u bilişten geçer* [10, s. 142]

**Qazi Bürhanəddində**

*Gözi çü babilidürü zülfi əbabili,*
*Qondarı **güzgünün** yerinə bu həvasili* [8, s. 87]

**-ım**[4] şəkilçisi feil əsasına artırıldıqda məna baxımından hərəkətin nəticəsini ifadə edən sözləri bildirir.

**-ım, -im, -um, -üm, -əm**

**Yunus Əmrədə**

*Tama, kervanı ile yoldan azdım*
*Sana geldim çün* ***ögüm*** *sende sezdim* [10, s. 7]

**Qazi Bürhanəddində**

*Hoqqəyi-ləldə incü* ***düzümini*** *gördüm,*
*Sorıcağaz ləbü dəndən dedilər, gərçəkmi?* [8, s.89]

Hər iki "Divan"da qeyri-məhsuldar şəkilçi kimi iştirak edən **–ı**[4] şəkilçisi feil əsasına qoşulmaqla müxtəlif məna daşıyan adların yaranmasında iştirak edir. Hadi Mirzəzadə **-ı**[4] şəkilçisi haqqında belə qənaətə gələrək yazırdı: "Əsasən, feil köklərinin sonuna gələrək əşya, vəziyyət və s. adlar düzəldir. Orta səviyyəli bir şəkilçidir. Əmələ gətirdiyi bir qrup söz, bütün dövrlər üçün eyni dərəcədə *əhəmiyyətini* saxlamışdır; *qorxu, çəki, yazı, ölü* və s. sözlərdə qalmışdır..." [9, s. 62]

**-ı, -i, -u, -ü**

**Yunus Əmrədə**

*Buların şahdan* ***korkusu*** *yokdur*
*Kimsene begenesi husu yokdur* [10, s. 32]

**Qazi Bürhanəddində**

***Qatı*** *gələ ləbün cəvhər der isəm,*
*Mükərrərdür əgər şəkkər der isəm.* [8, s. 28]

Feil köklərinə artılaraq isim düzəldən **–ın**[4] şəkilçisi tarixən az məhsuldar hesab olunan şəkilçilərdən biridir. Ancaq bununla belə, bu şəkilçiyə **-tı**[4] əlavəsi artırılmaqla əmələ gələn **–ıntı**[4] məhsuldar şəkilçisi "...oğuz qrupu türk dillərində də bu şəkilçi söz yaradıcılığında fəal iştirak edir. Xüsusilə, müasir türk ədəbi dilində ərəb və fars mənşəli sözlərin əvəzlənməsində, yeni anlayışların ifadə edilməsində olduqca məhsuldardır.." [6, s.78]

**-ın**

**Yunus Əmrədə**

*Bu dünya hep ıssız kala altını malı döküle*
*Səbil olubam yata herkiz assı* ***bulunmaya*** [10, s. 92]

**Qazi Bürhanəddində**

*Könli qarət etdi cadu zülfi*
*Sanasın qüdsə* ***axın*** *etdi küffar*. [8, s. 214]

**-t/-d** şəkilçisi feillərə bitişərək icra olunan bir işin nəticəsini bildirən isimlərin əmələ gəlməsində iştirak edir. Hadi Mirzəzadə bu şəkilçinin ədəbi dildə işlənilmə tarixinin daha qədimlərə gedib çıxması barədə yazırdı: "Hələ XI-XII əsrlərdə t ilə düzəlmiş isimlər canlı dilin tərkib hissələri olmuşdur. Müasir ədəbi dilimizdə işlənən *bulut(d), öyüd, keçid* sözləri bu cəhətdən daha qədim dövrə gedib çıxır." [9, s. 62]

**-t/-d**

**Yunus Əmrədə**

***Öğüt*** *gerek ise sabr ile iş et*

*Uzayım derisen sabır ile bir* [10, s. 29]

**Qazi Bürhanəddində**

*Vaiz* ***ögüdün*** *tut sana ayrılmazam andan,*
*Təndən canını kişi ayırmağa yaramaz.* [8, s. 143]

**-ri, -ru** şəkilçisi məhdud şəkildə işlənən qeyri-məhsuldar şəkilçilər sırasına daxildir. Aşağıda verilən nümunələrdə işlənən *toğru//doğru* sözünün kök və əsasında *toğ//doğ* lekseminin dayanmadığını iddia edən mülahizələr həqiqəti ifadə edir. *Doğru* sözü ilə *doğ* feilinin eyni kökdən yaranmadığı belə məqamlarda üzə çıxır.

**Yunus Əmrədə**

*Hey Yunus Emre ölünce var yürü* ***doğru*** *yolunca*
*Dünyasını terk edenler yarın hasrette olmaya* [10, s. 92]

**Qazi Bürhanəddində**

*Ani ki, iki hacibün qıldı cəmalun əlinə,*
***Əgri*** *otur və* ***toğru*** *de, ədli-Ömər dəgülmidir*?! [8, s. 28]

Feilin məsdər forması (şəkilçisi) kimi işlənən **–maq**[2] şəkilçisi hərəkətin adını bildirir. Bu şəkilçinin leksik və qrammatik şəkilçi olması haqqında dilçilikdə bir-birini təkzib edən fikrlər mövcuddur. Dilçilərdən A. Kononovun qənaətincə tarixən bu morfem leksik şəkilçi funksiyasını yerinə yetirmiş, sonralar o feil kökünə qoşularaq qrammatik şəkilçi kimi formalaşmışdır. Azərbaycan dilçilərindən professor Səlim Cəfərov "...maq//-mək şəkilçisi indi olduğu kimi, əslində də qrammatik bir şəkilçi olub infinitiv mənanı əmələ gətirməyə xidmət etmişdir" [4, s. 101] –qənaətinə gəlir.

**-maq//-mək**

**Yunus Əmrədə**

*Kimdürür kim eren ona dün gün taat kılan ona*
*Verilir* ***uçmak*** *onlara zira biliştir yad degil* [10, s. 72]

**Qazi Bürhanəddində**

***Uçmaxda*** *çün yüzün ola huri nə məcal,*
*Ol təndə ki, tapun ola hər ruha nə mahal?!* [8, s. 21]

Feil köklərindən isim düzəldən **–ma**, **-mə** şəkilçisinin felin məsdər forması olan **-maq**, **-mək** şəkilçisindən əmələ gəldiyini iddia edən fikirlər mövcuddur. Sonralar isim düzəldən bu şəkilçinin feillərə qoşularaq sözyaratma prosesində fəal iştirakı da müşahidə olunmaqdadır. Əşya bildirən isimlərin əmələ gəlməsi ilə yanaşı, bu tipli sözlər həm də isimlərlə omonimlik yaratmaq xüsusiyyətinə malikdir. Türk dillərində işlənən *tutma, asma, saçma, çözme* kimi sözlər buna nümunə kimi göstərilə bilər.

**-ma, -mə**

**Yunus Əmrədə**

*Küfr ile iman dahı hicab imiş bu yolda*
*Selalaştık küfr ile iman* ***yağmaya*** *verdik* [10, s. 229]

**Qazi Bürhanəddində**

*Nigara,* ***qıyma*** *gözün qıydı bizə,*

*Mübariz ortalıxda həm əndərmiyandur*.[ 8, s. 152]

**-ıcı** şəkilçisi Yunus Əmrə və Qazi Bürhanəddin "Divan"larında qeyri-məhsuldar şəkilçilərdən biridir. Təbii ki, feil kökünə artırılan bu şəkilçi məhdud səviyyədə olsa da, peşə və sənət bildirən isimlərin əmələ gəlməsində iştirak edir.

**Yunus Əmrədə**

*Evvel gele şol* ***yuyucu*** *ardınca şol su koyucu*
*İledip keten* ***sarıcı*** *bunlar halin bilmez ola* [10, s. 98]

**Qazi Bürhanəddində**

*Qoçuz uş görməmişüz buncı layın bir dəxi hiç*
*Könül* ***aparıcı****, can* ***qapıcı*** *bir şivğə quzi.* [8, s. 173]

Azərbaycan dilində tarixən isim düzəldən şəkilçilərin zənginliyinin səbəblərindən biri də onların həm isimlərdən, həm də digər nitq hissələrindən isim düzəldə bilməsidir. Görkəmli dilçi alim Q.Kazımov düzəltmə isimlərdən bəhs edərkən yazırki, "düzəltmə isimlər sözlərin kök və əsaslarından sözdüzəldici şəkilçilər vasitəsilə düzələn isimlərdir. Azərbaycan dilinin sözdüzəldicilik vasitələri, o cümlədən isim düzəldən şəkilçilər zəngindir. İsim düzəldən şəkilçiləri bir neçə cəhətdən qruplaşdırmaq olar. Şəkilçilər həm adlardan (isim, sifət, say və əvəzlikdən) isim düzəldir, həm də feillərdən. Bir qismi yalnız söz köklərinə artırılır, bir qismi həm söz köklərinə, həm də söz əsasına" [5, s. 49]. Deməli, dilimizdə bu tip şəkilçilərin zəngin olmasının bir digər səbəbi onların həm söz əsasına, həm də söz köklərinə əlavə olunaraq yeni söz əmələ gətirə bilməsidir.

## Ədəbiyyat

1. Azərbaycan ədəbi dili tarixi, Dörd cilddə, I cild, XIII-XVI əsrlər, Bakı: "Şərq- Qərb" 2007.
2. Abdullayeva G. Müasir Azərbaycan dili ikinci hissə Bakı, Elm və təhsil, 2013.
3. Cəfərov N. Azərbaycan türkcəsinin milliləşmə tarixi, Seçilmiş əsərləri, beş cilddə, birinci cild, Elmi redaktoru: əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor T. İ. Hacıyev, Bakı: "Elm", 2007.
4. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı, Bakı: ADU nəşri, 1960.
5. Əsgərov H. A. Azərbaycan dilində maddi mədəniyyət leksikası, Elmi redaktor: Yusif Seyidov, Bakı: Bakı Universiteti nəşriyyatı, 2006.
6. Həsənli-Qəribova Şəbnəm Rasim qızı. Oğuz qrupu türk dillərində isimlərdə söz yaradıcılığı, Elmi redaktor: akademik Möhsün Nağısoylu, redaktor: professor R. Rüstəmov, Bakı: "Avropa" nəşriyyatı, 2017.
7. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Elm və təhsil , 2010.
8. Qazi Bürhanəddin. Divan, Ön söz, tərtib və lüğətin müəllifi: filologiya elmləri doktoru, professor Əlyar Səfərli, Redaktor: Samət Əlizadə, Rəyçilər: prof.

Malik Mahmudov və prof. Vasim Məmmədəliyev, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988.

9. Mirzəzadə H. İ. Azərbaycan dilinin tarixi qrammatikası, Dərslik, İşlənilmiş və əlavələr edilmiş ikinci nəşri, Professor T. Hacıyevin redaktəsi ilə, Tərtibçilər: pof. T. Hacıyev, filologiya elmləri namizədi Ç. Mirzəzadə, Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1990.

10. Yunus Emre ile Aşk Yolculuğu, Hayatı ve Seçme Şiirleri, Hazırlayan Mustafa Tatcı, İstanbul, H. Yayınları: 82, 3 Basım, 2018

**Гюльнар Исмайлова**

**Словотворчество в «Диване» Юнуса Амре и Гази Бурханеддина. (морфологически образованные слова, существительные суффиксы).**

## РЕЗЮМЕ

В XIII-XIV веках процесс перехода от общей литературы к носительному языку расширялся и углублялся. В этом смысле выдающийся литератор тюркского мира, воспевающий суфийские идеи, мастер лирики Юнус Эмре является одним из великих творцов, осуществивших процесс перехода к общетюркской литературе. Однако в творчестве «Диван»а Юнуса Эмре приобретает иной характер, прославляя больше суфийских идей. Эта особенность менее заметна в творчестве Гази Бурханеддина. В статье рассмотрен процесс словотворчества в «Диван»ах Юнуса Эмре и Гази Бурханеддина, включающий в себя ряд особенностей литературного языка, относящегося к XIII-XIV векам. Словообразование является одним из важных вопросов для нашего языка. Исторически сложилось так, что при классификации слов по частям речи в нашем языке важную роль играли лексические суффиксы, образующие из одной части речи другую часть речи. Процесс образования коррекционных слов в каждый период значительно обогащал словарный состав языка. В ходе исследований становится очевидным, что устный язык вовсе не был исключен из процесса обогащения общего литературного языка, а, напротив, принимал активное участие во введении новых слов и понятий в письменную речь и словарный фонд.

В статье был проведен анализ различных групп слов в обоих «Диван»ах с точки зрения словообразования, прослежен процесс образования новых слов через суффиксы, образующие существительные. В поэтическом наследии обоих художников сравнительное прослеживание новых слов, совпадающих и морфологически образующихся в языке их произведений, позволяет прийти к более объективным научным выводам. Также в статье суффиксы, образующие имена, делятся на две группы: суффиксы образующие существительные из существительных, и суффиксы образующие

существительные из глаголов. Суффиксы, образующие имена, считаются одними из исторически существующих суффиксов, которые активно копируются в словообразовании. В «Диван»е Юнуса Амра и Гази Бурханеддина также активно используются суффиксы, образующие имена. Эти суффиксы, которые в настоящее время сохраняют свою продуктивность в процессе образования нового слова, объединяются в отдельные слова и обозначают различные понятия. Положение функционирования суффиксов, образующих имя в обоих «Диван»нах, рассматривается сравнительно. В связи с этим анализ диванов позволяет сделать однозначный вывод о картине тюркского литературного языка того времени.

**Ключевые слова**

Диванная литература, словотворчество, слова образованные морфологическим путем, лексические суффиксы, грамматические суффиксы, суффиксы образующие существительные.

**Gulnar Ismayilova**

**Word creation in Yunus Amre and Gazi Burhaneddin's "Divan". (morphologically formed words, noun-forming suffixes).**

**Summary**

In the 13th-14th centuries, the process of transition from common literature to native language literature expanded. This process was owing to Yunus Amre, the prominent writer of the Turkish world, master of lyrics, who has an indispensable role in promoting sufi ideas. Promoting sufi ideas made the language of Yunus Amre's "Divan" specific. This feature is less noticeable in the works of Gazi Burhaneddin. In the article, the process of word creation in the "Divans" of Yunus Amre and Gazi Burhaneddin, which includes a number of features of the literary language belonging to the XIII-XIV centuries, was investigated. Word creation is one of the important issues for our language. Historically, during the classification of words according to parts of speech in our language, lexical suffixes played an important role. Derivative words has greatly enriched the vocabulary of the language in every era. It becomes clear that the oral language not exception in the process of enrichment of the general literary language, on the contrary, it actively participated in the introduction of new words and concepts into the circulation, written speech and vocabulary.

The analysis of different groups of words in both "Divan" was carried out from the point of view of word creation, and the process of creation of new words by means of noun-forming suffixes was followed in this article. In the poetic heritage of both artists, in the language of their works, the comparative observation of new words that occur and formed morphologically allows for more objective scientific

conclusions. Also, in the article, suffixes that form nouns are classified into two groups: suffixes that form nouns from nouns and nouns from verbs. Name-forming suffixes are considered to be actively used in word creation. Yunus Amre and Gazi Burhaneddin's "Divans" are also actively involved in the name of the suffixes. Currently, these suffixes, which retain their productivity in the process of creating new words, express different concepts by joining separate words. In both "Divan" the position of processing of suffixes forming names is considered in a comparative way. From this point of view, the analysis of divans allows us to make a conclusion about the picture of the Turkish literary language of that time.

**Key words**: Divan literature, word creation, morphologically formed words, lexical suffixes, grammatical suffixes, noun forming suffixes.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: fil.ü.f.d.,dosent Şəbnəm Həsənli-Qəribova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**NƏRMIN ELMIK QIZI QAFARLI**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*narmin.qafarli92@mail.ru*

# MÜASİR İNGİLİS DİLİNƏ TARİXƏN TƏSİR EDƏN EKSTRA-LİNQVİSTİK AMİLLƏR

**Xülasə**

Dilin leksik zənginliyi cəmiyyətin inkişaf səviyyəsindən xəbər verir. Dil dünya haqqında biliklərin inkişafı ilə daim böyüyür. Onun leksik tərkibi bir sabit formada qalmır, daim dəyişir. Dəyişikliyin çox sürətli olduğunu vurğulamaq lazımdır. Məhz buna görə də hər bir dilin leksik vəziyyəti daimi tədqiqata - müəyyən sinxron bölmə üzrə və diaxronik tədqiqata ehtiyac duyur, ona görə də lüğət dilin leksik zənginliyi cəmiyyətin inkişaf səviyyəsindən xəbər verir. Dünya haqqında biliklərin inkişafı ilə dil daim böyüyür. Onun leksik tərkibi bir sabit formada qalmır, daim dəyişir. Dəyişikliyin tərkibinin inkişafı, zənginləşdirilməsi ilə bağlı linqvistik və sosial-linqvistik məsələlər həmişə dilçilərin diqqət mərkəzində olmuşdur.

İngilis dilinin tarixi uzun və mürəkkəbdir. İngilis dili dəyişdi, genişləndi və nəhayət müasir dünyanın lingua francasına çevrildi. Erkən Müasir İngilis dili dövründə, 1500-dən 1700-ə qədər saysız-hesabsız amillər ingilis dilinin inkişafına təsir göstərdi. Beləliklə onu bu gün tanıdığımız dilə çevirdi. Bu dilin tarixi mürəkkəbdir. Buna görədə bu məqalənin əsas məqsədi var. Nəzərdə tutulan əsas məqsəd, tarixi və sosial ekstra-linqvistik təsirləri müəyyən etmək və xəritələşdirməkdir.

**Açar sözlər: müasir ingilis dili, alınma sözlər, tarixi amillər, sosial-linqvistik təsirlər**

# EXTRA-LINGUISTIC FACTORS HISTORICALLY AFFECTING MODERN ENGLISH

**Summary**

The lexical richness of the language indicates the level of development of the society. Language is constantly growing with the development of knowledge about the world. Its lexical composition does not remain in one fixed form, it is constantly changing. It should be emphasized that the change is very fast. That is why the lexical situation of each language needs constant research - on a certain synchronic section and diachronic research, so the lexical richness of the language indicates the level of development of the society. Language is constantly growing with the

development of knowledge about the world. Its lexical composition does not remain in one fixed form, it is constantly changing. Linguistic and socio-linguistic issues related to the development and enrichment of the composition of change have always been the focus of linguists.
The history of the English language is long and complicated. English changed, expanded, and eventually became the lingua franca of the modern world. During the Early Modern English period, from 1500 to 1700, countless factors influenced the development of the English language. Thus he transformed it into the language we know today. The history of this language is complex. That is the main purpose of this article. The main objective envisaged is to identify and map historical and social extra-linguistic influences.

**Keywords: modern english, borrowing words, historical factors, socio-linguistic influences**

## ВНЕЯЗЫКОВЫЕ ФАКТОРЫ, ИСТОРИЧЕСКИ ВЛИЯЮЩИЕ НА СОВРЕМЕННЫЙ АНГЛИЙСКИЙ ЯЗЫК

### Резюме

Лексическое богатство языка свидетельствует об уровне развития общества. Язык постоянно растет с развитием знаний о мире. Его лексический состав не остается в одной фиксированной форме, он постоянно меняется. Следует подчеркнуть, что изменения происходят очень быстро. Именно поэтому лексическая ситуация каждого языка нуждается в постоянном исследовании - на определенном синхроническом разрезе и диахроническом исследовании, поэтому лексическое богатство языка свидетельствует об уровне развития общества. Язык постоянно растет с развитием знаний о мире. Его лексический состав не остается в одной фиксированной форме, он постоянно меняется. Лингвистические и социолингвистические вопросы, связанные с развитием и обогащением состава изменений, всегда находились в центре внимания лингвистов.

История английского языка долгая и сложная. Английский изменился, расширился и в конечном итоге стал лингва-франка современного мира. В период раннего Нового английского языка, с 1500 по 1700 год, на развитие английского языка влияли бесчисленные факторы. Таким образом, он преобразовал его в язык, который мы знаем сегодня. История этого языка непростая. Это основная цель этой статьи. Основная предполагаемая цель состоит в том, чтобы выявить и нанести на карту исторические и социальные экстралингвистические влияния.

**Ключевые слова: современный английский язык, заимствование слов, исторические факторы, социолингвистические влияния**

Hisslərimizi, fikirlərimizi, düşüncələrimizi, təcrübələrimizi və bu kimi şeyləri ifadə etmək üçün istifadə olunan alət və ya vasitə, geniş şəkildə dil kimi tanınan insan səslərinin istehsalıdır. Baxmayaraq ki, biz ənənəvi olaraq "dil" terminini danışıq səsləri, jestlər və ya yazılı simvollar kimi təsadüfi siqnallardan istifadə edən şifahi və ya yazılı insan ünsiyyətin ixtiyari sistemi, metodu və ya vasitələri kimi təyin edirik, lakin bu, daha mürəkkəb, qarışıq və eyni zamanda da dilçilərin diqqətini cəlb edən bir məsələdir ki, dil anlayışı qısa tərifl aydınlaşdırıla bilməz. Digər insanlarla ünsiyyət qurmaq üçün hamımız həyatımızın ilk dövrlərindən bəzi dilləri öyrənməyə çalışmalıyıq. Universal qrammatika konsepsiyasını inkişaf etdirən və populyarlaşdıran dilçilik üzrə ekspert, professor Noam Xomskinin fikrincə, təəccüblü olan odur ki, insan böyüyəndə bir və ya bir neçə dili həqiqi həyatın bir hissəsi kimi eşidə, mənimsəyə və işlədə bilər. Lakin yetkinlik dövründən sonra (yəni, kritik dövr, təxminən on dörd yaşında) yeni bir dil inkişaf etdirərkən, insan dilin inkişafına təsir edən bəzi problemlərlə və ya faktorlarla qarşılaşır [1, s.3].

Dilin tarixi mürəkkəb olsa da, bu məqalənin məqsədi əsas tarixi və sosial ekstra-linqvistik təsirləri müəyyən etmək və xəritələşdirməkdir.

### *1) İngilis dilinə tarixi ekstra-linqvistik təsirlər*

Dilin inkişafına böyük təsir göstərən ilkin tarixi hadisələrdən biri mətbəənin yaranmasıdır. 1476-cı ildə Londonun Vestminster rayonunda Villiam Kakston tərəfindən yaradılmış mətbəə ingilis dilini ümumi standarta doğru cəlb etməyə kömək edən dilin qorunması və saxlanması vasitəsi yaratmaqla mövcud dil formasını dəyişdirdi. Beləliklə, əlyazmaları əvvəlkindən daha tez təkrarlamaq və eyni nüsxələr yaratmaq mümkün oldu. Çap dəzgahına görə orfoqrafiya dəyişikliyi nəhayət azaldı, xüsusilə dini və bədii mətnlərdə. Mətbəə həm leksikonu tənzimlədi, həm də bədii ədəbiyyat nümunələrini əbədiləşdirməyə kömək etdi [7, s.72].

İngilis dilinə dramatik təsir göstərən başqa bir tarixi hadisə Protestant Reformasiyası idi. Protestant kilsələri özlərini Latın dilində xidmət edən romalılardan fərqləndirmək üçün daha çox ingilis dilində xidmət edirdilər. İngilis dilinə bu keçid o demək idi ki, dini mətnlər latın dilindən tərcümə edilsin və Müjdəni ümumi dil vasitəsilə sadə insanlara çatdırsınlar. Həmçinin, İngilis dilinə daha orijinal tərcümə üçün Müqəddəs Kitabın yunan və ivrit dillərindən ingilis dilinə tərcümələri edilmişdir. Reformasiya ingilislərə nüfuz qazanmağa imkan verdi. İngilis dili indi dini sahədə olduğundan, dil indi kilsədən məhkəməyə və məhkəmədən məktəbə yayıla bilərdi. Bu çeviklik dini və təhsil sahələrində lüğət çatışmazlığını kompensasiya etmək üçün latın dillərindən alınma sözlərin sayının artmasına səbəb oldu [7, s.73].

Müstəmləkəçilik tarixən çoxsaylı dillərin ölümünə və bəzilərinin isə inkişafına səbəb oldu. Məsələn, Britaniya müstəmləkəçiliyinin təsiri bu gün də dünyanın o vaxtkı müstəmləkə yerlərində və dünyanın daha fərqli yerlərində ingilis dilinin

statusuna təsir göstərmişdir. Britaniya İmperiyasının inkişafı ilə ingilis dili dünyanın hər bir küncünə yayıldı və indi bütün dünyada istifadə olunur. Bu gün ingilis dili dünya miqyasında bir dil kimi qəbul edilir.

Böyük Britaniyanın XVI əsrdən etibarən yaşadığı sərhədləri genişləndirmək zərurəti ingilis dilinin bütün dünyaya yayılmasına səbəb oldu. Ən bariz nümunəni 53 dövlətin daxil olduğu Birliyin yaradılmasında görmək olar. Bu millətlər icması ingilis dilini yeganə rəsmi dil olaraq saxlayır. Rəsmi olmasa da, ingilis dilində danışılan bəzi ölkələr Baham adaları, Yamayka (İngilis dili faktiki dildir, lakin rəsmi dil Yamayka Patois dilidir) və Trinidad və Tobaqo və başqalarıdır. Digər tərəfdən Banqladeş, Filippin, Keniya, Malavi, Malayziya, Nigeriya, Şri-Lanka və Tanzaniya kimi ekzotik yerlər öz ana dillərindən imtina etmədən ölkəni birləşdirmək məqsədi ilə rəsmi olaraq ondan istifadə edirlər. Hər halda, onun danışıldığı daha çox xalqlar var. Şimali Amerikadan Okeaniyaya, Afrika və Asiya vasitəsilə. Düzdür, bu yerlərin çoxunda rəsmi deyil, lakin müstəmləkəçilik keçmişi bir çox millətlərin və ölkələrin insanlarını ingilis dilində yaşamağa vadar edib.

İngilis öz koloniyalarından hind dilindən *shampoo (şampun), tank (tank), jungle (cəngəllik)*, avstraliyadan *boomerang (bumeranq), kangaroo (kenquru)* kimi sözləri mənimsəmişdir [3, s.23].

İngilis dilinin koloniya ölkələrinə kifayət qədər böyük təsir göstərməsinə baxmayaraq, dilin çiçəklənməsi Yeni Dünyanın kəşfi oldu. Şimali Amerikanın ingilis müstəmləkəsi hələ 1600-cü ildə başlamışdı, bu o deməkdir ki, ilk mühacirlər Şekspirə bənzər bir ləhcədə danışırdılar. Bəzi tələffüzlər və istifadələr Amerikada ingilis dilində dəyişməz qaldı, İngiltərədə isə təkamül etməyə davam etdilər. Buna görə də bəzi baxımdan Amerika İngilis dili Müasir Britaniya İngilis dili ilə müqayisədə Şekspir İngilis dilinə daha yaxındır (*AmE: gotten – BrE: got*) [3, s.23-24].

Təbii ki, yerli amerikalılarla əlaqə dilə əsasən yerli həyat tərzi, heyvan və qida ilə bağlı kifayət qədər çox sözlər gətirdi *raccoon (yenot), tomato (pomidor)* [3, s.24].

Tudorlar nəslindən olan VII Henrinin dövründə İngiltərə müharibədən yayındı və ticarət gəmiləri inşa edildi, çünki İngiltərəni müstəqil, güclü və qüdrətli etmək siyasətinin əsası İngiltərənin yaxşı biznesə sahib olmasını təmin etmək idi. Bu o deməkdir ki, İngiltərə başqa ölkələrlə ticarətə başladı və bu, sonradan İngiltərənin öz məhsullarını satmaq üçün bazar paylarına ehtiyacı olduğu üçün müstəmləkəçi olmasına səbəb oldu. İngiltərənin yavaş-yavaş etdiyi ixtira, xüsusən də sənayenin inkişafı, yəni Sənaye İnqilabı İngiltərəni kənd təsərrüfatından sənaye ölkəsinə və ya kapitalizmə dəyişdirdi. Afrika, Amerika, Asiya və Avstraliya kimi dünyanın dörd bir tərəfindəki digər ölkələr, mədəniyyətlər və dillərlə əlaqə onun lüğət ehtiyatını zənginləşdirdi, çünki ingilis dili bir çox müxtəlif dillərdən sözləri qəbul etməyə açıq idi.

İngilis dilinə təsir edən uzunmüddətli sosial faktorlardan biri də mətbəədən qaynaqlanır. Nəşrin asanlığı yazı savadlılığının artmasına səbəb oldu, baxmayaraq ki,

kişilər qadınlardan daha çox oxuyub yaza bilirdilər. Bu gender fərqliliyi təhsil imkanları ilə bağlı idi. Həmin dövrdə qadınların formal təhsil almaq imkanı daha az idi. Bununla belə, korpora məlumatlarının yaxından təhlili göstərir ki, qadınlar kişilərdən daha ümumi standart dialektdə daha təsirli olublar. Buna misal olaraq 1545-ci ildə Con və Sabine Conson arasında mübadilə edilən məktublarda rast gəlinir. Con "sən/siz" əvəzliyi üçün "ye" istifadə etdiyi halda, Sabine isə "you" əvəzliyindən istifadə edir. Bununla belə, təhsilin dil dəyişikliyinə təsir etdiyi hallarda (məsələn, cümlədə birdən artıq inkarın azalması) kişilər bu nümunələri davam etdirdilər.

Əslində ingilis dili beynəlxalq ünsiyyət üçün qlobal dil kimi formalaşıb və genişlənib. Cəmiyyətin inkişafı və elm və texnikanın, siyasətin, mədəniyyətin, təhsilin, iqtisadiyyatın tərəqqisi ilə dünyanın hər yerində insanlar tərəfindən tanınan və başa düşülən bir dildir. İngilis dilində çox sayda söz var və sözlərin əksəriyyəti yunan, latın, fransız, alman, italyan, ispan, ərəb, hindi, urdu, rus və s. kimi digər dillərdən götürülüb.

İngilis dilində başqa dillərdən götürülmüş (və ya alınmış) çoxlu sözlər var. Müasir ingilis dilində sözlərin əksəriyyəti köhnə ingilis köklərindən deyil, xarici köklərdən gəlir. İngilis dili 350-dən çox başqa dildən sözlər götürüb və ingilis leksikonunun dörddə üçündən çoxu əslində Yunan və ya Latın mənşəlidir. İngilis lüğətindəki alınma sözlər İngiltərənin tarixini əks etdirən, xarici qeyri-linqvistik səbəblərdən dilin təsirini göstərən leksikologiya sahəsini təmsil edir. Sözlərin çoxu bizim üçün adidir və biz onlar haqqında "qəribəlik və ya yadlıq" olduğunu hiss etmirik.

Sözlər müxtəlif dövrlərdə və müxtəlif məqsədlər üçün, elm, tibb, incəsənət, texnologiya və s. məqsədlər üçün götürülüb. Zaman keçdikcə alınma sözlər ingilis dilinin özü üçün ümumi olan bir sıra dəyişikliklərə məruz qalıb. Alınmış sözlər təsirə məruz qalmış və semantik, struktur və ya az-çox morfoloji mənasını, hətta fonetik görünüşünü dəyişmişdir. Daha sonra onlar öz mənşəyini və ya etimologiyasını itirən sırf ingilis dili kimi görünən doğma ingilis sözləri ilə assimilyasiya olundular.

Başqa dillərdən sözlərin götürülməsinin əsas səbəbi hədəf dildə uyğun mövcud söz olmadıqda mənbə dil müxtəlifliyindən bir söz təqdim etməkdir. Alınan söz danışanların mənbə dildən sözləri öz ana dilinə qəbul etmə prosesinə aiddir. Ehtiyac anlarında danışanlar məqsədli şəkildə yeni sözü götürdükləri dildən qəbul edirlər, çünki sözün ifadə etməyə çalışdıqları fikrə ən uyğun mənaya sahib olduğu düşünülür. Məsələn, yapon sözü olan *tsunami (sunami)*, xüsusilə 2004-cü ildə İndoneziyanı viran qoyan fəlakətdən sonra işıq üzü görüb və daha geniş yayılıb. Bu, təbii fəlakətə ən uyğun sözdür, çünki bu söz yapon xalqı tərəfindən istifadə olunur. Yaponiyada sunamilər tez-tez baş verir [4, s.12].

Əvvəlki dövr fransız dilinin təsiri ilə yadda qaldığından, erkən Yeni dövr ingilis dilinin dövrləri əsasən Latın və Yunan dilinin təsiri dövrü idi. *Bura catastrophe, exist, debt, doubt və ya autumn* kimi sözlər daxildir [6, s.5].

İngilis dilinə alınma sözlərin daxil edilməsi təcrübəsi hətta son bir neçə onillikdə başqa dillərdən də davam etmişdir. Tarix boyunca ingilis dilinə keçmiş sözlərin əksəriyyəti fransız, yunan və latın köklərinə malikdir. İngilis dili, fransız dilinin əsas rol oynadığı çoxsaylı dillərin və ya dialektlərin təsirinə məruz qalmışdır.

***2) İngilis dilinə təsir edən social amillər***

İngilis dilinə təsir edən sosial amillərdən biri İngiltərənin sosial təbəqələri ilə bağlı idi. Bu dövrdə çoxlu sosial sarsıntılar oldu. Tacirlərin sayı və sərvəti artmağa başladı və tezliklə heç kim şənlikdə varlı sənətkardan əsl hersoqla necə fərqlənəcəyini bilmədi. Müəyyən edilmiş sosial iyerarxiya zadəganların hər bir üzvü (*lord and lady, sir and dame, master and mistress*) üçün xüsusi titullar saxlamışdı; lakin bu qədər insanın statusa qalxması ilə şərtlərin meyarları ümumiləşməyə və dərəcəni itirməyə başladı. Söhbətdəki nəzakət *lady, sir, Mr. və Mrs.* kimi sözlərin aşağı təbəqələrdə ümumiləşməsinə səbəb oldu. Bu gün İngiltərədəki tualetlər *"gentlemen" və "ladies"* kimi etiketlənir, baxmayaraq ki, heç kimin onlardan istifadə etmək üçün mülk sahibi və ya cəngavər olması lazım deyil.

İngilis dilinin inkişafına təsir edən üçüncü sosial amil kütləvi miqrasiya idi. Londonun əhalisi Erkən Müasir dövrdə on dəfə artdı. Ölkənin hər yerindən gələn insanlar Londonu dilçilik qazanına çevirdilər. Dialektlər arasında daha çox dil təması ilə dəyişiklik sürətlə baş verməli idi - və etdi. Vurğular birləşdi, yeni sözlər əmələ gəlib qəbul edildi, semantik məna dəyişdi. Adi xalqın dili kral sarayından daha tez dəyişdi, çünki saray miqrasiyadan fəhlə sinfi qədər təsirlənmədi. Bununla belə, Londonda yaranan dialekt tezliklə ümumi standarta çevrildi və İngiltərənin şimalından bir neçə əlaməti özündə birləşdirdi: (1) üçüncü şəxsin tək forması üçün "–eth" sonluğu -s ilə əvəz olundu; (2) "are be" feilinin bir forması kimi istifadə olundu; (3) təyinedicilər üçün "mine və thine" yerinə "my və they" istifadə olundu.

1990-cı illərin əvvəllərində internetin yayılmasından sonra o, qloballaşma və ingilis dilinin geniş yayılması prosesində çox mühüm komponentə çevrildi. Əslində, internet kiçik cəmiyyətlərdə dünyanın yavaş-yavaş ölən dillərini və dialektlərini qoruyub saxlamaq üçün də faydalıdır. Bu gün texnologiyadan və ya internetdən istifadə bütün dünyada məlumat mübadiləsinin ən yeni, ən geniş və ən sürətli vasitəsidir. İngilis dili müxtəlif icmalar arasında müxtəlif məlumat mübadiləsinin vacib vasitələrindən biridir.

Texnoloji ixtiralar müasir dövrümüzdə dilin lüğət tərkibinə əhəmiyyətli dərəcədə təsir göstərir. İngilis dili universal dildir və texnologiyanın inkişafına uyğunlaşmaq üçün daim dəyişir. Yeni ixtiralara istinad etmək üçün tamamilə yenidən icad edilən çoxlu sözlər mövcuddur, məsələn, *drone*-lardan tutmuş *bitcoin*-lərə, *fidget spinners*-ə qədər. Bu, həmişə mövcud olan və eyni zamanda, kifayət qədər məhsuldar olan bir prosesdir [5, s.4].

Nəticə etibarilə, ingilis dili bu gün dünyada ən sürətlə dəyişən dillərdən biridir, çünki ingilis dili təhsil dilinə çevrildiyi üçün dilin həm köhnə, həm də yeni istifadəçiləri onu fəal şəkildə formalaşdırırlar. Bu gün ingilis dili ondan istifadə edən

hər hansı bir ölkəyə aiddir və nə qədər çox insan ingilis dilindən istifadə etsə, bu dil dəyişikliyinə bir o qədər çox təsir edər.

Dəyişiklik çox yaxşı bir şey ola bilər, çünki o, iş adamlarına mal və xidmətlər alqı-satqısına, səyahətə və digər xalqlarla daha effektiv ünsiyyət qurmağa kömək edir. Əgər danışdığımız dil dəyişməsəydi, onsuz da mövcud olduğundan daha böyük bir dil çətinliyi olardı. Dillərin dəyişdirilməsinin başqa bir səbəbi də fərqli mədəniyyətə, dilimizdən anlayışa və tələffüzə malik olan insanların başqaları ilə ünsiyyət qurmasıdır. Dəyişiklik olmasaydı, insanlar bu müxtəlif dillər və fərqli inanclar dünyasında çox çətinlik çəkərdilər.

**Ədəbiyyat**


1. Chomsky. N – "Language & Thoughts" January 1995, 96 pages
2. Oxford University Press - Oxford English Dictionary,1056 pages, 1st November, 2013, 7th edition
3. Qin X.B. - A brief history of the English language. Changsha: Hunan Education Press. 1983
4. Ukut S.O. - "Word Borrowing: A Feature of Vocabulary Development in Ibibio", in David Eka (ed.) Journal of Humanities. Vol. 5 Faculty of Arts, University of Uyo. 1996
5. https://www.researchgate.net/publication/273040824_Factors_Affecting_Language_Change
6. https://www.researchgate.net/publication/324273536_The_Significance_of_the_Words_Borrowed_Into_English_Language
7. https://schwa.byu.edu/files/2015/04/W2015-Wright.pdf


**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: F.ü.f.d.dos. Qəribə Məmməd qızı Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur**

**LAMİYƏ İLDIRIM QIZI ƏLIYEVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**lamiyesefiyeva17@gmail.com**

# AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ MƏTNLƏRİN TƏHLİLİNİN NƏTİCƏLƏRİNƏ DAİR

## XÜLASƏ

Məlumdur ki, Azərbaycan dili dərliklərində imla, ifadə, oxu, danışıq, inşa məqsədli mətnlərdən istifadə olunur. Eyni zamanda dil dərsliklərində əsas mətnlər üzərində bir çox təmrinlər həyata keçirilir. Hal-hazırda dil dərslikləri əsas mətnlərlə başlayır. Mətnlər həm öyrətmək, həm də tərbiyəetmək vasitələridir. Başlıca olaraq şagirdlərin inkişafına yönələn bu dərsliklərdəki mətnlər onların idraki bacarıqlarını formalaşdırmaq, həyati vərdişlərini zənginləşdirmək, intellektual potensialına dəstək olmaq ön planda dayanır. Hər şeydən öncə, şagird şəxsiyyətində məntiqi, tənqidi, yaradıcı təfəkkürə söykənən kreativliyin formalaşdırılması prioritet istiqamət təşkil edir. Azərbaycan dili dərsliklərində müxtəlif üslublarda verilən mətnlər öz növbələrində bir dil, nitq daşıyıcısı olmaqdan əlavə, eyni zamanda müəyyən əxlaqi, mənəvi keyfiyyətləri transformasiya edən vasitə kimi də çıxış edir. Onlar şagirdlərdə yüksək insani keyfiyyətlərin formalaşmasına təsir göstərir. Dərslikdə azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik hissi, Vətənə hörmət və məhəbbət hissinin aşılanması, ətraf mühitə münasibət, Azərbaycan flora və faunasının qorunması, ailə-məktəb münasibətlərinin düzgün qurulması və s. bu kimi məsələlər diqqətdə saxlanılmışdır.

Motivasiyalar da bir qayda olaraq bunların üzərində qurulur. Əslində əsas mətnlər dil qaydaları üzrə daha çox bilikvermək üçün didaktik vasitədir. Əsas mətnlərin funksionoloji cəhətdən təhlili göstərmişdir ki, onlar dinləyib-anlama və danışma, oxu, yazı məzmun xətlərinin standartlarını reallaşdırmaq üçündür. Şagirdləri bilikverici potensialdan bəhrələndirmək belə mətnlərin tərtibində və ya seçimində başlıca məqsəd sayılır. Bilikverici və tərbiyəverici mətnlər bütün üslublarda olan mətnlərdən gözlənilən nəticələrə aparıb çıxarmalıdır.

Təhlillərimiz göstərir ki, bilikverici mətnlər tərbiyəedicilərdən sayca çox ola bilər. Hər halda bu fikri söyləyərkən biz V-VII sinif “Azərbaycan dili” dərsliklərindəki mətnlərin əsasında apardığımız təhlillərə istinad edirik. Gəldiyimiz bir mühim didaktik nəticə də ondan ibarətdir ki, həm bilikverici və həm də tərbiyəedici mətnlərin didaktik və pedaqoji imkanlarından heç də həmişə səmərəli istifadə olunmur . Bu işin metodikası tədqiqatçılar tərəfindən araşdırılmır. Deməli, müəllimlərə bu sahədə zəruri bilik və metodik istiqamətlər verilməsinə, habelə çox şeyin onların nəzərinə çatdırmasına zəruri ehtiyyac var. Məqalədə bu kimi məsələlərdən bəhs olunur.

**Açar sözlər :** mətnlər, bilikverici, tərbiyəedici, mətnlərin didaktikası, mətnlərin məzmunu, təlim məqsədləri, təlim nəticələri, qiymətləndirmə

Azərbaycan dili dərslikkəri 2008-ci ildən kurikulum fəlsəfəsinə uyğun tərtib olunur və getdikcə də təkmilləşdirilir. Həmin tarixdən qabaq V-XI siniflər üzrə Azərbaycan dili dərsliklərində təhsilin məzmun xətləri içərisində dinləyib-anlama və danışma, habelə oxu iştirak etmirdi. Lakin ifadə mətnləri verilirdi. Onların da üzərində şifahi və yazılı şəkildə nitq inkişafı təmrinləri qurulurdu. İkinci dil dərsliklərində isə didaktik sistem indikinə daha çox uyğun forma və məzmunda verilərdi. Belə ki, ikinci dil - Azərbaycan dili dərsliklərində dərs mətnlər üzərində işdən başlayardı. Mətnlər də dünyagörüşü aşılayan və yaxud da maraqyaradıcı məqsədlərə görə seçilərdi. Mətn üzərində oxudan və mətnin məzmununun suallarla təhlilindən sonra fonetik, leksik, qrammatik təmrinlər edilər, mətnin məzmunu danışdırılar və qiymətləndirilərdi.

Müasir mərhələdə ikinci dil dərslikləri kimi Azərbaycan dili dərsliklərində də mətnlər bölmələrə, bölmələr mövzulara və dil qaydalarına görə planlaşdırılır. Təkcə elə bölmələrin adlarından mətnlərin, mövzuların bilikverici və ya tərbiyəedici xarakterdə olmasını müəyyən etmək mümkündür. Sual oluna bilər : Mətnlərə bu iki əsasa və ya məqsədə görə təhlil verməyin əhəmiyyəti nədən ibarətdir ? Mətnləri məhz bu əsaslara görə vurğulamaq təhsilə nə verir ?

İndi də bu suallara cavab verək : Qeyd etməliyik ki, pedaqoji prosses fəndən asılı olmayaraq, belə bir didaktik formulaya uyğun qurulur. Bilik - Tərbiyə; bilik-inkişaf ; tərbiyə-inkişaf ;

Bu formuladan çıxan nəticə ondan ibarətdir ki, dil dərsliklərində mətnlərin biliklərdən inkişafa və tərbiyədən inkişafa istiqamətində qurulması təhsilin harmonik tamamlanmasını təmin edən elmi sistemdir. Fikrimizə aydınlıq gətirmək üçün bunları deyə bilərik : VI sinif "Azərbaycan dili" dərsliyində "Yusif Məmmədəliyev" mətni (Bax:2:1,s.59-60) ixtiralar və kəşflər bölməsində verilir. Buradan da müəyyən etmək olur ki, bu mətnin ideya məzmunu bilikvericilik üzərində qurulur. Lakin mətnin məzmunu elədir ki, orada xeyli düşündürücü məqamlar qarşıya çıxır. Həmin hallar şagirdlərin fikrini məşğul etməyə bilmir. Misal üçün, kəşf və ixtiralarına görə Azərbaycan alimi dünyada ilk dəfə olaraq çoxoktanlı benzin icad etdiyinə görə, Nobel mükafatına təqdim olunmalıdır. Lakin həmin alim bu mükafata layiq görülsə də, həmin beynəlxalq təşkilata və ya mükafata təqdim olunmasına süni etirazlar yaradılır. Səbəbini şagirdlər mətndən dərk etmiş olurlar. Bu həm bilikverici və həm də düşündürücü məqam bilik və tərbiyədə inkişafa yol açmırmı ? Ensklopedik informasiya təsdiq edir ki, ermənilər həmişə elmimizə də və alimlərimizə də maneçilik yaratmış və onları layiq olduqları adlardan mərhum etmişlər. Belə bir fikir formalaşdırmağa çalışmışlar ki, ixtiralar, kəşflər gizlin saxlanılmalıdır. Ermənilərin belə qısqanclığına qarşı çıxa bilmək və fikir söyləmək şagirdlərin milli şüurunun inkişafına yol açmış olur.

Başqa bir misal. Həmin dərslikdə (Bax: 1, s.124-126) "Ustadın məsləhəti" mövzusuna fikr verək. Adından da göründüyü kimi, burada tərbiyə, nəsihət aparıcı meyar olmalıdır. Təbiidir ki, mətnin qədim hind nağılı əsasında olması da bunu deməyə əsas verir. Lakin mətndə rəssamlıq sənətinin incəliklərindən, habelə qabiliyyətdən, istedaddan bəhs olunması bilikvericilikdən inkişafa inteqrasiya darvazaları açır. Bunları deməkdə onu vurğulamaq istəyirik ki, tərbiyəedici görünən mətnin bilik arsenalı inkişafa aparıb çıxara bilərmiş. Müəllimlərin, "Sizcə, nə üçün Racın çəkdiyi rəsm əsəri "x" işarəsi ilə dolu idi ?" sualı şagirdləri tədqiqata cəlb etmiş və onların təfəkküründə inkişafa meyl edən platformaya çevirilmişdir. Bununla belə, mətnin sonluğu sırf tərbiyəedici kəlamlardan ibarətdir. Orada bu sözləri oxuyuruq : "Mehriban və əziz oğlum ! Sənin biliyin, istedadın, qabiliyyətin çox çalışmağının, səy göstərməyinin nəticəsindən əmələ gəlmişdir. Sənə deyilən və ya haqsız, məzəmmətli, tənqidi sözlərə görə heç vaxt həvəsdən düşmə. Əksinə, özünə inamını itirmə, öz tənqidçin özün ol və özünü qiymətləndir. Hər zaman uğur qazanacaqsan. Səni əmin edirəm ki, belə etsən, uğur həmişə sənin olacaq. Oğlum, get, Tanrı səni qorusun. Racın gözləri dolmuşdu. Bu sonuncu dərs onun üçün həyat dərsi idi". (Bax: 1, s. 145)

Mətnin sonluğunun sırf tərbiyəedici və ya nəsihətedici akkordları əsasında şagirdlərin düşündürülməsi və onların yazılı və ya şifahi cavabları inkişafetdirici təlimin ən bariz nümunəsidir. Buradan da çıxan ümumiləşmiş nəticə cəhət ondan ibarət olur ki, təlimin bu iki aspekti inkişafa doğru pərvaz edən qoşa qanadlardır.

I bölmədə əvvəlində şagirdə yelkənli gəmi ilə "səyahətə çıxmaq", kəşflər etmək və ya səfər etmək təklif olunur. Bələdçi obraz şagirdlərə səyahəti ailəsindən başlamağı təklif edir. 5-ci sinif dərsliyində verilmiş materiallara əsasən şagirdlərin özünə dair araşdırma aparması, kim olduğunu, malik olduğu müsbət və mənfi xüsusiyyətləri araşdırması nəzərdə tutulur.(2,s.5)

II bölmədə də eyni prinsip, eyni yanaşma gözlənilmişdir. Bu bölmədə şagird Vətən, torpaq və yurd sevgisinin nə olduğunu öyrənmək üçün səyahətə çıxır, tarixi hadisələrin burulğanına düşür. Bu bölmə Azərbaycan Respublikasının işğalçı Ermənistan üzərindəki parlaq qələbəsini özündə ehtiva edir. Bu bölmədə şagirdə tarixi hadisələrin fonunda planlı çalışma, ədalətli olma, qərar qəbuletmə, hadisələrə münasibətbildirmə kimi xüsusiyyətlər aşılanır. Şagird mövzu ilə bağlı tədqiqat aparır, təkliflər verir, münasibət bildirir, müzakirə olunan mövzularla bağlı mülahizələrini bildirir, təqdimatlar, bülletenlər, bukletlər, divar qəzetləri və s. hazırlayır.(2,5)

6-cı sinif Azərbaycan dili dərsliyində verilmiş "İtirilmiş açar" mətni xüsusilə fərqlənir. Azərbaycanlıların doğma yurdlarından qovulması haqqında sadə məlumatlar əldə edirlər. Hadisələrə şagirdlərin münasibəti öyrənilir.Bundan əlavə" Ataya məktub" mətni 28 il işğal altında olan Qarabağda baş verənlər haqqında (torpaqların işğalı, tarixi abidələrin məhvi, Qarabağın mədəniyyət beşiyi olması və s.) şagirdlərdə təsəvvür yaradır. Şagird xəyalən Qarabağ torpağına səyahət edir. Bu

mətn vasitəsilə şagird fakt və hadisələrin müəyyən edilməsini, onların fərqləndirilməsini, istifadə qaydalarını öyrənir. (2,s.3)

III bölmə şagirdlərdə diqqətcillik, zəhmətsevərlik, səbir, təmkin, dözümlülük, özünəinam, ətrafa münasibət, başqalarına hörmət, qayğı, mərhəmət kimi xüsusiyyətlər, məqsədə nail olmaq üçün hədəfləri düzgün müəyyən etmək, tədqiqatçılıq, müxtəlif mənbələrdən məlumatların top- lanması, onların emal edilməsi, ümumiləşdirilməsi və qərarvermə kimi bacarıqlar formalaşdırır. (2,5)

IV bölmədə şagirdlər I bölmədə teleqram vasitəsilə onların dəvət edildiyi zirvəyə çatırlar. Bu zirvənin işğaldan azad olunmuş, işğaldan azad ediləcəyinə ümidini itirməyən musiqi beşiyinin, musiqi konservatoriyasının ocağı hesab edilən doğma Şuşanın olduğunu anlayırlar. Bu bölmədə şagird doğma vətəninin bir hissəsini – Şuşaya gedən yolu səyahətə çıxır, keçdiyi yerlərin tarixi, mədəniyyəti ilə tanış olur, əldə etdiyi məlumatlar əsasında yığcam təqdimatlar edir. Təqdimatları əsasında təklif olunan layihəni hazırlayır .(2,s.5)

Biz bilirik ki, ənənəvi təlim texnologiyasında mətnlər bilik vermək, dil qaydalarını öyrətmək üçündür. Lakin Mətnlərin bilikverici və ya tərbiyəediciliyini təmin edən təlimin inteqrativ adlarda qurulması da ola bilər. Təhlillərimiz göstərir ki, təkcə mətnin məzmun təhlili ilə inkişafa yol açmaq məqsədə çatmağın hamısı deyil. Mətnin tədrisini araşdırmaq lazım gəlir. Faktlarla danışsaq, bunları deməklə çox düzgün nəticələrə gəlib çıxa bilərik. Belə ki, VII sinif "Azərbaycan dili" dərsliyində (Bax: 2, s. 13-16) "Mübariz" mətni verilir. Əvvəla, şagirdləri bu mətnin məzmunu üzərində tədqiqata cəlb etmək üçün "Siz Azərbaycanın Milli Qəhrəmanlarından kimləri tanıyırsınız ?" sualından istifadə olunur. Şagirdlər xalqımıza baş ucalığı gətirmiş döyüş qəhrəmanlarını sadalyırlar (və ya hər kəs dəftərində onları bir-bir qeyd edib yazır). Şagirdlər Azərbaycanın müstəqilliyi uğrunda şücaət göstərmiş qəhrəmanların siyahısında Mübariz İbrahimovun adını birinci yazırlar. Ondan sonra Pəncəli Teymurov, Polad Həşimov, Hikmət Mirzəyev, Tehran Mənsimov və başqalarının mübarək adları sıralanır. Buna da motivasiyadan başlanan tərbiyəedicilik deyilir. Daha sonra şagirdlər "Mübariz" mətni üzərində oxu treninqi keçirirlər. Ədəbi tələffüz gözlənilir, disskusiya yaradılır, son nəticədə "Mübariz və onun 44 günlük Qarabağ müharibəsində rolu" mövzusunda aşağıdakı suallar əsasında şagirdlərin düşüncələri yoxlanılır.

1. 2010-cu ildə Mübariz İbrahimov cəbhədə necə bir cəsarət göstərmişdir ?
2. O nə üçün düşmən üzərinə atılmışdır ?
3. Mübariz İbrahimov ermənilərdən kimlərin intiqamını almışdır ?
4. Ona nəyə görə Rembo ləqəbi verilmişdir ?
5. Sizcə, Mübarizlər, Pəncəlilər, Poladlar nə deməkdir ?
6. Xüsusi təyinatlıların qəhrəmanlığı haqqında nə eşitmişsiniz ?
7. 2020-ci il . Bakı . Azadlıq meydanı . Zəfər nümayişi. Bu haqda düşüncələriniz .
8. "Mübariz" mətninin əhəmiyyətini necə qiymətləndirirsiniz ?

Təhlillərimiz göstərir ki, VII sinif "Azərbaycan dili" dərsliyində "Mübariz" mətni qədər bilikvericilik və tərbiyəediciliyi geniş olan mətn yoxdur. Həmin dərslik əsasında hazırlanmış müəllim üçün metodik vəsaitdə də (Bax: 3, s. 25-26) bu mətnin inkişafetdiriciliyi istiqamətində zəruri didaktik işlər həyata keçirilir.

Mətnlərin oxunması üçün vaxtın müəyyən olunması vacib məsələlərdən biridir. Şagirdlər sürətli oxu vərdişlərinə alışmalıdırlar. Araşdırmalar göstərir ki, insan bir səhifəlik mətni 1,5-2 dəqiqəyə oxuyub anlaya bilir. Sinfin səviyyəsini və mətnin informasiya yükünü nəzərə almaqla 7-ci sinifdə mətnlə ilkin tanışlıq zamanı bir səhifəni oxumaq üçün 2-4 dəqiqə ayırmaq kifayətdir. Mətnin qavranılması üzrə işə (qeydlər götürmək, istiqamətləndirilmiş oxu üzrə suallara cavab axtarmaq, şərhlər yazmaq və s.) isə, əlbəttə, daha çox vaxt ayırmaq lazımdır.(4,s. 7)

Bəzi mətnlər informasiya çoxluğu baxımından ilk baxışda müəllimlərə yüklü görünə bilər. Lakin bu cür mətnlərlə işləmə üsulları və metodikası ilə yaxından tanış olduqda məlum olur ki, şagirdlər belə mətnləri asanlıqla qavraya bilərlər. Bu gün dil tədrisində əsas məqsədlərdən biri də mətndəki informasiyanı qavra- maq bacarığını inkişaf etdirməkdir. Ölkəmizin də iştirak etdiyi bir çox beynəlxalq qiymətləndirmələrdə şagirdlərin məhz bu bacarığı qiymətləndirilir.(2,s.5)

## Ədəbiyyat

1. Azərbaycan dili. Ümumitəhsil məktəblərinin VI sinfi üçün dərslik. Bakı : Altun kitab, 2013 . 191 səh .

2. Azərbaycan dili. 6-cı sinif Müəllim üçün metodik vəsait . Bakı: Şərq-Qərb,170 səh.

3. Azərbaycan dili. Ümumitəhsil məktəblərinin VII sinfi üçün dərslik. Bakı : Altun kitab, 2014 . 176 səh

4. Azərbaycan dili. VII sinif Müəllim üçün metodik vəsait . Bakı : Altun kitab, 2014. 176 səh.

**Alıyeva Lamia Ildırım**

## ON THE RESULTS OF THE ANALYSIS OF TEXTS IN AZERBAIJANI LANGUAGE TEXTBOOKS.

**SUMMARY:**

It is known that texts for spelling, expression, reading, speaking, and composition are used in Azerbaijani language textbooks. At the same time, many exercises on basic texts are carried out in language textbooks. Nowadays, language textbooks start with basic texts. Texts are both teaching and educating tools. The texts in these textbooks, which are mainly aimed at the development of students, are in the foreground to form their cognitive skills, enrich their life habits, and support their intellectual potential. First of all, the formation of creativity based on logical, critical, creative thinking in the personality of the student is a priority direction. In

addition to being a carrier of language and speech, texts given in different styles in Azerbaijani language textbooks also act as a means of transforming certain moral and spiritual qualities. They influence the formation of high human qualities in students. In the textbook, the propaganda of the ideology of Azerbaijaniism, the feeling of patriotism, instilling the feeling of respect and love for the Motherland, the attitude towards the environment, the protection of the flora and fauna of Azerbaijan, the proper establishment of family-school relations, etc. such issues have been kept in mind.

As a rule, motivations are based on them. In fact, basic texts are a didactic tool for imparting more knowledge about language rules. The functional analysis of the main texts has shown that they are intended to realize the standards of the content lines of listening and speaking, reading and writing. Making students benefit from the informative potential is considered the main goal in the compilation or selection of such texts. Informative and educational texts should lead to the results expected from texts of all styles.

Our analysis shows that informative texts may outnumber educational ones. In any case, when expressing this opinion, we refer to the analyzes we conducted on the basis of the texts in the V-VII "Azerbaijani language" textbooks. An important didactic conclusion we came to is that the didactic and pedagogical possibilities of both informative and educational texts are not always effectively used. The methodology of this work is not investigated by researchers. Therefore, there is an urgent need to provide teachers with the necessary knowledge and methodical directions in this field, as well as to bring many things to their attention. The article talks about such issues.

**Key words:** texts, informative, educational, didactics of texts,
content of texts, learning objectives, learning outcomes, assessment.

**Алиева Ламия Йылдырым**

**О результатах анализа текстов в учебниках азербайджанского языка**

**Резюме:**

Известно, что в учебниках азербайджанского языка используются тексты для правописания, выражения, чтения, говорения и сочинения. В то же время многие упражнения по базовым текстам выполняются в языковых учебниках. В настоящее время учебники по языку начинаются с базовых текстов. Тексты являются одновременно обучающими и воспитательными средствами. Тексты в этих учебниках, направленные в основном на развитие учащихся, на первый план выступают для формирования у них познавательных навыков, обогащения жизненных привычек, поддержки их интеллектуального потенциала. Прежде всего, приоритетным направлением является формирование в личности школьника творческих способностей на основе логического, критического, творческого мышления. Помимо того, что они

являются носителями языка и речи, тексты, данные в разных стилях в учебниках азербайджанского языка, также выступают средством трансформации определенных нравственных и духовных качеств. Они влияют на формирование высоких человеческих качеств у студентов. В учебнике пропаганда идеологии азербайджанства, чувства патриотизма, привитие чувства уважения и любви к Родине, отношение к окружающей среде, защита флоры и фауны Азербайджана, правильное создание семьи- школьные отношения и т.д. такие вопросы были учтены.

Как правило, мотивации основаны на них. По сути, базовые тексты являются дидактическим инструментом для передачи дополнительных знаний о языковых правилах. Функциональный анализ основных текстов показал, что они призваны реализовать нормы содержательных линий аудирования и говорения, чтения и письма. Главной целью при составлении или отборе таких текстов считается использование учащимися познавательного потенциала. Информационно-образовательные тексты должны приводить к результатам, ожидаемым от текстов всех стилей.

Наш анализ показывает, что информационных текстов может быть больше, чем образовательных. В любом случае, высказывая это мнение, мы ссылаемся на анализы, проведенные нами на основе текстов V-VII учебников «Азербайджанский язык». Важный дидактический вывод, к которому мы пришли, заключается в том, что не всегда эффективно используются дидактические и педагогические возможности как познавательных, так и учебных текстов. Методология данной работы исследователями не исследована. Поэтому возникает настоятельная необходимость обеспечить учителей необходимыми знаниями и методическими указаниями в этой области, а также довести до их сведения многое. В статье говорится о таких проблемах.

**Ключевые слова: т**ексты, познавательные, обучающие, дидактика текстов, содержание текстов, цели обучения, результаты обучения, оценивание.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: pedaqogika üzrə elmlər doktoru Vaqif Qurbanov tərəfindən çapa tövsiyə olunmuşdur**

**HƏQİQƏT MÜBARİZ qızı HÜSEYNOVA**
**ADU**
**Rəşid Behbudov küç. 134,**

# HİSS-HƏYƏCAN İFADƏ EDƏN KONSEPTLƏRİN MƏTNYARATMA İMKANLARI

***Xülasə***

*Müəyyən yolla nizama salınmış, kommunikativ üzvlənmənin vahidliyi ilə birləşmiş cümlələr çoxluğu adətən mətn kimi başa düşülür. Mətn mürəkkəb anlayış hesab edilir, çünki o, çoxmənalı bir termindir. Mətnin müəyyənləşməsində onun komponentləri ön plana çəkilir və mətn həm bağlayıcı, həm də bağlayıcısız əlaqələnən istənilən sayda düzülmüş cümlələrin ardıcıllığı kimi qəbul edilir. Düzgün mətnin qurulmasında mühüm rol oynayan vasitələr vardır. Mətnlərin düzəldilməsində qrammatik və leksik vasitələr eyni dərəcədə mühüm rol oynayır. Bundan əlavə, semantik, fonetik bağlılıq da vacib hesab edilir. Mətnin dərin semantik makro və mikro strukturu vardır. O, həmçinin iç-daxili və üz forma strukturuna malik hesab olunur.*

*Mətnin bağlılığı bir neçə faktorun qarşılıqlı hərəkətinin nəticəsidir. Bu zaman leksik-semantik və qrammatik dil vasitələri ön planda olur. Mətnlərin düzgün qurulmasında onların koherentliyi mühüm rol oynayır. Mətn koherent olaraq o zaman düzgün dərk edilir ki, onda iştirak edən konseptlər "qarşılıqlı şəkildə anlaşsın" və bir-birini şərtləndirsin. Mövzumuz emosiya konseptləri olduğu qeyd etməliyik ki, mətnlərin formalaşmasında, onlarda ifadə edilən eksplisit və implisit mənanın açılmasında emosiyanın düzgün müəyyən edilməsi və anlaşılması vacib faktordur. İştirakçıllar arasındakı münasibət elə qurulmalıdır ki, lazım olan pozitiv, yaxud negativ emosiya konseptləri düzgün işlədilə bilsin.*

**Açar sözlər:** mətn, konsept, emosiya, leksik vasitə, semantik, məna

Mətnin əlamətlərindən danışmazdan əvvəl, ilk əvvəl mətndə kontekstin rolunu qeyd etmək istərdik. Kontekst termininin mənasını mətn dilçiliyində üç fərqli şəkildə müəyyənləşdirirlər [1, s. 100]. Birincisi cümlə tələffüz olunmalıdır (yaxud yazılmalıdır), yəni deyilməlidir. İkincisi, aydınlaşdırılmalıdır ki, onda hansı propozisiya ifadə olunub. 3-cüsü müəyyən edilməlidir ki, propozisiya hansı illokutov gücə malikdir, yəni məqsədə çatmağa qadirdirmi? Bütün bu suallara kontekst cavab verə bilir. Məsələn, bir cümlə yazaq:

*Just my father found the shop after looking for it for some minutes.* ('Yalnız atam bir neçə dəqiqə axtarandan sonra mağazanı tapdı').

Bu cümlədə çoxmənalılıq müşahidə olunur. Cümlədə müşahidə olunan çoxmənalılıq leksik səviyyə ilə bağlıdır. Cümlədə işlədilən *just* leksemi hadisənin

yalnız Əhməd tərəfindən icra olunduğunu vurğulayır. Leksem müəyyən qrammatik qüvvətləndirici və həmçinin də məhdudlaşdırıcı göstəricilərə malikdir.

Burada *just* ədatının həm qüvvətləndirici, həm də məhdudlaşdırıcı mənalarını müşahidə etmək olur. Adətən, çoxmənalılığı (polisemiya) omonimlikdən fərqləndirməyə çalışırlar. Hər halda *just* sözünün ifadə etdiyi mənalar arasında birbaşa əlaqə olmadığı üçün onları omonim kimi götürmək düz olardı. Polisemiyada mənalar arasında müəyyən əlaqə vacibdir.

Kontekstdə mənanın keçməsini də müşahidə edirik. Mətn və kontekst cümlənin natamamlığını açır.

Mətnin əlamətləri bunlardır:

1) Mətn cümlədən böyükdür;
2) Elə danışıq hərəkətləri var ki, onu yalnız mətndə vermək olur. Məsələn, ‘sən’ və ‘siz’ müraciət formalarında axırıncıdan birinciyə keçid üçün yalnız mətn olmalıdır. Müqayisə edək:

*Əhməd: Mən sizə hədiyyə almışam, əminəm ki, o sizin xoşunuza gələcək.*

*Ev sahibi: Sizə deyə bilərəmmi ki, bir-birimizə “sən” deyə müraciət edək?*

*Ev sahibi: Bilirsinizmi, siz çoxdandır mənim yanımda qalırsınız. Artıq biz həqiqi dostlara çevrilmişik. Qısası, mən təklif edirəm, gəl bu gündən bir-birimizə “sən” deyə müraciət edək. Etiraz etmirsən?*

*Əhməd: Xeyir, adım Əhməddir.*

*Mənim adım isə Anardır. Hə, Əhməd, nə fikirləşirsən, bunu qeyd etmək olar?*

Müraciət formaları arasındakı kontradiksiya cümlələrlə aradan qaldırıla bilmir. Bunun üçün mətn lazımdır. Bu onu ifadə edir ki, mətndə fərqli cümlələrin ideyalarını saxlamaqla kontradiksiya aradan qaldırıla bilər, yəni bir cümlə daxilində iki bir-birinə zidd fikirlər yerdləşdirilə bilməz. Mətn müxtəlif dil hərəkətlərinin düzxətt boyunca ardıcıl düzülüşüdür. Ancaq mətndə gələn cümlələrdəki danışıq hərəkətləri sərbəst fikir bazasında təşkil olunur.

Mətnin struktur elemntləri aşağıdakılardır [2, s. 112]:

a) başlıq (hətta başlıq olmayanda belə onu başlıq kimi qəbul edirlər). Başlığın əsas funksiyası mətn və kontekst yaratmaqdan ibarətdir. Burada epiqraf və psevdoepiqraf xüsusi fərqləndirilir. Başlıqların seçilməsi və şərhi müəllifin və əsərin taleyini həll edən əsas amillərdəndir. Məsələn, T.Drayzerin “Amerika faciəsi” romanının adı artıq əsər haqqında tam təsəvvür ədə etməyə imkan verir. Mətnin qrafik strukturu xüsusi qeyd olunmalıdır (fənlər, durğu işarələri, ayrılma, seçilmə və vurğulama, dırnaq, mötərizələr, abzas, böyük hərflə yazmaq və s.). Eyni zamanda mətnin hipertekst növünü də fərqləndirirlər. Bu da mətn daxilində arasıkəsilməz axım deməkdir.

Bundan sonra mətnin üzvlənəsi məsələsi aktuallaşır. Mətn adətən, bitmiş abzaslarla, abzaslarla, cümləüstü sintaktik bütövlərlə və mikrotekstlərə bölünür. Abzasda şərh olunan hadisənin bütövlüyü, onun tərkibinə daxil olan elementlərin bağlılığı və tamlığı gözlənilməlidir. Strukturlaşmış anlam strukturun genişlənməsini,

Təhsil sistemində Azərbaycan dili fənni aparıcı yerlərdən birini tutur. Müxtəlif biliklərin qorunması və mənimsənilməsi formasını təmsil edən Azərbaycan dili sadəcə öyrənmə obyekti deyil, həm də öyrənmə və ünsiyyət vasitəsidir və bütün tədris fənləri ilə sıx əlaqəlidir. Bu baxımdan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi bir tərəfdən fənnə dair kifayət qədər yüksək səviyyədə bilik təmin etməli, digər tərəfdən şagirdlərə həyatın müxtəlif sahələrində istifadə edəcəkləri yüksək səviyyədə orfoepiya qanunlarının ədəbi dil normalarına riayət etməklə nitq vərdişləri aşılamalıdır. Azərbaycan dili, eyni zamanda, mühüm tərbiyə vasitəsidir – bəşəriyyətin mənəvi dəyərləri ilə tanış olmağı, şagirdlərin mənəvi, əxlaqi, ünsiyyət mədəniyyətinin formalaşmasını, dünya haqqında öz baxış və düşüncələrini ifadə etmələrini, fərqli insanlarla ünsiyyət qura bilmələrini təmin edir.

Hələ 2016-cı ildə Trend-in məlumatına görə, Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunda "Orta məktəb dərsliklərinin dili: norma və üslub problemləri" mövzusunda konfrans keçirilib. Konfransda qeyd olunub ki, dərsliklərin dilində fonetik, leksik və qrammatik normaların pozulması hallarına tez-tez rast gəlmək olur.

Bildirilib ki, durğu işarələrinin bəzi hallarda buraxılması, söz sırasının pozulması, sözlərin yerində düzgün işlədilməməsi, morfoloji əlamət və sintaktik vasitələrdən düzgün istifadə olunmaması, fikir mücərrədliyi və s. dərsliyin dilində rast gəlinən əsas norma pozuntularıdır. Hətta bəzi dərsliklərdə dərslər ağır dildə izah olunur, bir səhifədə 20 termin işlədilir. Üstəlik də həmin terminlər şagirdlər üçün yad

olan xarici dildə verilir. Bu isə şagird üçün çox ağırdır. Normal halda bir səhifədə bir necə termin verilə bilər. Ancaq loru və vulqar sözlərin dərsliklərdə olması yolverilməzdir (5,2).

Ümumitəhsil məktəblərində tədris olunan "Azərbaycan dili", "Ədəbiyyat" və başqa fənn dərslikləri aşağı siniflərdən başlamış məktəb illəri sona yetənə qədər bizə Azərbaycan haqqında, azərbaycançılıq haqqında, dilimiz, dinimiz haqqında, türkçülük və müasirlik haqqında şagirdlərə zəngin məlumat verir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dərsləklərin əksəriyyəti şagirdlərin yaş həddinə uyğun deyil və şagirdlərin başa düşəcəkləri bir dildə yazılmır.

Azərbaycan ədəbi dilinin lüğət tərkibi çox zəngindir və dərslik müəllifləri şagirdlərin yaş həddini mütləq nəzərə almalıdırlar. Çünki təhsilin məzmunu, onun öyrədici, tərbiyələndirici və inkişafetdirici xüsusiyyətləri dərsliklər vasitəsilə konkretləşdirilir. Keyfiyyətli dərslik tədris prosesində qarşıya çıxa biləcək bir çox problemi aradan qaldırır, təlimin səmərəliliyini artırır, şagirdlərin biliklərinin sistemləşdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan verir. Müəlliflər dərsliyə səhifələrin sayına görə yanaşırlar. Səhifələr doldu, kitab yazılıb qurtardı, vəcalam. Dərsliyin hansı səviyyədə, necə olmasını hamı bilsə də, heç kəs onu lazım olduğu səviyyədə hazırlamır. Etiraf etmək lazımdır ki, bu gün orta məktəblərin bütün siniflərində istifadə olunan dərslik deyil, əzab mənbəyidir. Dərsliklərdə jarqon ifadələr, küçə sözləri işlədilə bilməz. Bu, şagirdlərə çox pis nümunə ola bilər.

Ümummilli Lider Heydər Əliyev sözün semantikasına xüsusi əhəmiyyət verir, dilçilik baxımından məqbul sayılan qaydalara əməl edir. Onun hər bir sözə yanaşması göstərir ki, o sözə söz xatirinə deyil, konkret mənanı çatdırmaq vasitəsi kimi baxır və qiymətləndirir. (1,1).

Görkəmli Azərbaycan şairi, mütəfəkkür və filosof, Azərbaycan ədəbiyyatı tarixində divan janrının ən məşhur nümayəndəsi Məhəmməd Füzuli sözün qüdrətini, dəyərini, belə qiymətləndirir:

«Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
Artıran söz qədrini sidq ilə qədrin artırır,
Kim nə miqdar olsa da, əhlin eylər ol miqdar söz.
Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl
Edə hər saət səni ol yuxudan bidar söz...» (3.151)

Uşaqlar anadan olandan bir qədər sonara dildəki ən sadə sözləri öyrənməyə, cümlə qurmağa can atırlar. Onları əhatə edən ətraf aləm yeni sözlər öyrənmələrinə şərait yaradır və onlar ana dilində sərbəst danışmağa başlayırlar. Altı yaşından sonara isə məktəbə gedən uşaqlarda yeni fikir ifadə etmək, istədikləri fikri daha dəqiq və anlaşılan bir şəkildə bildirmək istəyi yaranır. Bu baxımdan şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi və nitqlərinin düzgün inkişafı onlara təqdim olunan dərsliklərin və müəllimlərin üzərinə düşür.

Söz nitqin əsas vahididir. Lüğət fonduna daxil olan sözlər zəruri, həyati məfhumları ifadə edən, hamı tərəfindən anlaşılan sözlərdir. Dildə daim yeni sözlər yaranır, bəziləri isə köhnələrək əsas fonddan çıxır. Elmi terminlər, dialektizmlər, jarqonlar, arxaik sözlər, yeni sözlər isə dilimizin lüğət tərkibinin əlavə hissəsinə daxildir. Həmin sözlərin şagirdlərin lüğət ehtiyatına daxil olması və ya onların mənalarının anlaşılması təqdim edilən dərsliklərdən asılıdır. Ona görə də dərslik müəllifləri şagirdlərin yaş həddini mütləq nəzərə almalıdırlar.

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi müəllimlərin həmişə diqqət mərkəzində olmalıdur. Sözləri şagirdlərə mənimsətmək üçün əvvəlcə onun leksik və qrammatik mənasını izah etmələri çox vacibdir. Belə olduqda söz ehtiyatı zəngin olan şagirdlər fikirlərini daha aydın, səlis ifadə edərək, düşündüklərini dinləyənlərə çətinlik çəkmdən çatdıra bilərlər. Dil normalarının qanunlarına görə leksik normada əsas prinsip işlədilən sözlərin mənaca aydın, sadə, anlaşıqlı olmasıdırsa, bəs niyə körpə uşaqlara (1- 4-cü siniflər) təqdim olunan dərsliklər çox mürəkkəb və anlaşılmayan, yaç səviyyəsinə uyğun olmayan şəkildə yazılır? Bu yaşda uşaqlara onların yaşına uyğun olmayan söz və ifadələrlə dərslikləri doldurmaqla müəllif özünün söz ehtiyatını göstərmək istəyirsə, həmin müəllif fəlsəfədən kitab yazsa daha yaxşı olar. Uşaqların yaş həddinə uyğun olmayan, anlaşılmayan, ədəbi dil normalarına riayət olunmayan "dərsliklər" kimə və nəyə lazımdır? Belə "dərsliklər" dərslik yazmaq xatirinə "dərsliklər" adlanır.

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzində "Azərbaycan dili beynəlxalq aləmdə" layihəsi çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş onlayn beynəlxalq tədbir keçirilib (4,2).

Monitorinq Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan dilinin qorunması, dünya miqyasında təbliği istiqamətində cari ildə görülmüş işlərin müzakirəsi ilə bağlı keçirilən tədbirdə Türkiyə, Kanada, Misir, Çin, İngiltərə, Fransa, Niderland və s. ölkələrdə yaşayan və müxtəlif qurumlarda çalışan soydaşlarımız iştirak ediblər.

Mərkəzin direktoru filologiya elmləri doktoru, professor Sevinc Əliyeva soydaşlarımızı vahid məfkurə ətrafında birləşdirən milli-mənəvi dəyərimiz olan ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan dilinin beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin hər kəsə nümunə olacaq dil sevgisindən danışıb. Sevinc Əliyeva dominant dillərin təsirinə baxmayaraq, xarici ölkələrdə öz dilini, mədəniyyətini yaşadan və layiqincə təmsil edən həmvətənlərimizin fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, doğma dilimizin təbliği Mərkəz üçün də prioritet məsələdir. Hazırda Mərkəzin əməkdaşları tərəfindən "Azərbaycan dili" dərsliyi və ədəbi dil normalarını əks etdirən audiovəsaitlər hazırlanır. Azərbaycan dilinin düzgün tələffüz qaydalarının təbliğinə xidmət edən

nağıllar və hekayələrdən ibarət disklər artıq dinləyicilərə və xaricdə yaşayan soydaşlarımızın ailələrində böyüyən uşaqlara təqdim edilib (4,2).

Orta məktəb Azərbaycan dili dərsliklərinin müəllifi filologiya üzrə fəlsəfə doktoru, Rafiq İsmayılov yazır: "Sözlərin yazılışını elmi, linqvistik, etimoloji cəhətdən əsaslandırmaq üçün çox arqument gətirmək olar. Amma adi vətəndaş bütün bunları bilməyə məcbur deyil. Onun üçün söz müəyyən anlayışı bildirən bir işarədir və o istəyir ki, orta məktəbdə öyrəndiyi bu işarə tez-tez dəyişməsin. Əgər dəyişərsə, onda bu işarələrə və qaydalara qarşı bir etinasızlıq yaranar... Biz dilin lüğət tərkibinin leksik, həm də orfoqrafik baxımdan mükəmməl variantına nail olmalıyıq." (7.3).

Ümumtəhsil məktəbləri üçün dərslik yazmağı öhdəsinə götürən müəlliflər bu işə çox məsuliyyətlə yanaşmalı, özlərinin deyil, məhz uşaqların yaş həddini nəzərə almalıdırlar. Dərslikləri özlərinin deyil, uşaqların başa düşəcəyi dildə, özləri üçün deyil, uşaqlar üçün yazmalıdırlar.

Təhsil haqqında qanunda nəzərdə tutulur ki, orta məktəb şəxsiyyət yetişdirir, dərsliklər milli dövlətçilik və dəyərlərə sadiq olan vətəndaşların yetişdirilməsinə xidmət edir, amma reallıq isə bunun əksini göstərir.

Acınacaqlı da olsa, bu gün vəziyyət belədir ki, məzmunu tez-tez dəyişən, heç kimin tanımadığı sərişтəsiz müəlliflər tərəfindən yazılan orta məktəb dərslikləri şagirdlərə bilik qazandırmaqdan daha çox elmin tənəzzülünə gətirib çıxarır.

Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov da dərsliklərdəki nöqsanlardan şikayətçidir. Onun fikrincə, hazırda orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərs vəsaitləri 6-17 yaşında olan insanın beyninə uyğun deyil. Dərsliklərin məzmunundan belə məntiq çıxır ki, bu dərslikləri oxuyub başa vuran şagirdin elmi dərəcəsi olmalıdır. Çünki dərsliklərə demək olar ki, bakalavr, magistr pilləsində keçilən mövzular daxil edilib. Dərsliklərimizi müəlliflər ona görə ağırlaşdırır ki, şagirdlərə çətin olsun, valideynlər də kömək edə bilməsin. Nəticədə valideynlər müəllimlərə müraciət etsinlər. 4-cü siniflər üçün hazırlanan kitablarımız dünya standartlarına görə, 28-29 yaşlı insanların informasiya götürmə yükünə bərabərdir.

Ekspert hesab edir ki, bu gün orta məktəblərin bütün siniflərində istifadə olunan dərsliklər sanki şagirdə əzab vermək üçündür, bilik qazandırmaq üçün deyil.

O deyir: "Hesab edirəm ki, bu gün dərsliklər şagirdlər üçün yox, müəllimlər üçün yazılır. Çünki bu kitabları müəllimlər özləri güclə qavrayıb başa düşür. Bəzi dərsliklərdə çətin məsələ-misallardan, ibtidai siniflər üçün istifadə olunun dərsliklərdə şivədən, dialekt sözlərdən, uşaqların qavraya bilməyəcəyi şeirlərdən çox istifadə edirlər. Bu da dərsliklərimizin dilinə ağırlıq, akademiklik gətirir. Dərslik elə tərtib edilməlidir ki, uşaq bu dərsliyi bağlayıb kənara atmasın, əksinə, sevsin. İbtidai sinif şagirdi kitabı üçün darıxmalıdır. Onları sevə-sevə açmalıdır. Təəssüf ki, bizdə bu baş vermir. Problemin həlli üçün, istifadə olunan dərsliklərin seçimində yaxşını ancaq onda əldə etmək olar ki, alternativlər olsun. Dərslik fikir laboratoriyasıdır, tapşırıqlarda əlavə göstərişlər olmalı, şagirdə seçim imkanı verilməlidir. O zaman şagird riyaziyyatın köməyi ilə həyatı öyrənəcək. Bizdə isə dərsliklərə jarqon ifadələr,

vulqar cümlələr verilib, guya ki, uşağa seçim imkanı yaradılır. Halbuki mahiyyətindən asılı olmayaraq, dərsliklərdə jargon ifadələr, küçə sözləri işlədilə bilməz. Çünki bu ifadələr şagirdlərə pis nümunə ola bilər." (6.2).

Qeyd olunur ki, hazırda orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərs vəsaitləri və kitabları 6-17 yaşında olan insanın beyninə görə deyil. İstifadə olunan kitabların proqramlaşdırılmasından belə məntiq çıxır ki, ilin sonunda məzun olmuş hər şagirdin elmi dərəcəsi olmalıdır. Çünki onlar demək olar ki, bakalavr, magistr pilləsində keçrilən eyni mövzuları mənimsəyirlər.

Dərslik müəllifləri aşağıdakı funksiyaları mütləq nəzərə almalıdırlar: yaş həddinə görə məlumatlandırma, maraqlandırma, savadlandırma, sistemləşdirmə, həvəsləndirmə, inkişaf etdirmə, inteqrasiyaetmə, tərbiyələndirmə, dərsliyin fonetik, leksik və qrammatik cəhətdən düzgün və savadlı tərtibatı və sairə.

Qeyd etməliyik ki, dərsliklərdə Azərbaycan Respublikasının Konstitusiyasına, ölkənin qoşulduğu beynəlxalq hüquq konvensiyalarına zidd olan fikirlərə, elmi mübahisə doğuran məsələlərə yer verilməməli, siyasi, milli, dini, mübahisəli məlumatlar olmamalıdır.

## Ədəbiyyat

1.H. Əliyev «YAP-ın Gənclər Birliyi nümayəndələrinin Umumrespublika toplantısında» söylədiyi nitqdə. «Xalq» qəzeti, 22 fevral 1998-ci il.
2.Sadiq Qurbanov. Heydər Əliyev və dil mədəniyyətimiz. "Azərbaycan" qəzeti, 02 fevral 2023.
3.Məhəmməd Füzuli. "Söz" qəzəli. Əsərləri 1 cild, səhifə 151, "Şərq-Qərb", Bakı-2005.
4.Monitorinq Mərkəzində tədbir: Azərbaycan dili beynəlxalq aləmdə. Bakı, AZƏRTAC, 26.12.2022.
5.Orta məktəb dərsliklərindəki dil qüsurları açıqlandı. Bakı, Publika az. 1.04. 2016
6.Kamran Əsədov Bizdə dərsliklər şagirdə əzab vermək üçündür.Cebhe.info, 31oktyabr,2018.
7.Rafiq İsmayılov. Dilçilərin vəzifəsi dildə dəyişiklik etmək deyil. 30 Yanvar 2018, Bakı, Modern.az İnformasiya agentliyi.

## Xülasə

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ DƏRSLİKLƏRİNİN VƏZİYYƏTİ (AZƏRBAYCAN ƏDƏBİ DİLİNİNN LEKSİK NORMALARINA ƏMƏL OLUNMASI). DƏRSLİK MÜƏLLİFLƏRİNİN MƏSULİYYƏTİ

**Əliheydər Yunis oğlu Ağakişiyev**
**İradə İsrafil qızı Kərimova**

Məqalədə ümumtəhsil məktəbləri dərsliklərinin vəziyyəti və bu dərsliklərdə Azərbaycan ədəbi dilinin leksik normalarına necə əməl olunması araşdırılır. Eyni zamanda dərslik müəlliflərinin məsuliyyətinə münasibət bildirilir.

Göstərilir ki, Azərbaycan dilinin hərtərəfli inkişafı Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Müzəffər Ali Baş Komandan Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, bu siyasəti uğurla davam etdirir.

Qeyd olunur ki, Ulu Öndər Heydər ƏIiyev sözün semantikasına xüsusi əhəmiyyət verir, dilçilik baxımından məqbul sayılan qaydalara əməl edir. Onun hər bir sözə yanaşması göstərir ki, o sözə söz xatirinə deyil, konkret mənanı çatdırmaq vasitəsi kimi baxır və qiymətləndirir.

Məqalədə sözün qüdrətinə, dəyərinə böyük qiymət verən görkəmli Azərbaycan şairi, mütəfəkkir və filosof, Azərbaycan ədəbiyyatı tarixində divan janrının ən məşhur nümayəndəsi Məhəmməd Füzulinin "Söz"qəzəlindən sitat verilib.

Tədqiq olunur ki, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi müəllimlərin həmişə diqqət mərkəzində olmalıdır. Hər bir sözü şagirdə mənimsətmək üçün əvvəlcə onun leksik və qrammatik mənasını izah etmək çox vacibdir. Belə olduqda söz ehtiyatı zəngin olan şagirdlər fikirlərini daha aydın, səlis ifadə edərək, düşündüklərini dinləyənlərə çətinlik çəkmdən çatdıra bilərlər.

Araşdırılır ki, ümumitəhsil məktəblərində tədris olunan "Azərbaycan dili", "Ədəbiyyat" və başqa fənn dərsliklərinin əksəriyyəti şagirdlərin yaş həddinə uyğun deyil və şagirdlərin başa düşəcəkləri bir dildə yazılmır. Ümumtəhsil məktəbləri üçün dərslik yazmağı öhdəsinə götürən müəlliflər bu işə çox məsuliyyətlə yanaşmalı, özlərinin deyil, məhz uşaqların yaş həddini nəzərə almalıdırlar. Dərslikləri özləriu üçün deyil, uşaqlar üçün yazmalıdırlar.

Göstərilir ki, dərslik müəllifləri aşağıdakı funksiyaları mütləq nəzərə almalıdırlar: yaş həddinə görə məlumatlandırma, maraqlandırma, savadlandırma, sistemləşdirmə, həvəsləndirmə, inkişaf etdirmə, inteqrasiyaetmə, tərbiyələndirmə, dərsliyin fonetik, leksik və qrammatik cəhətdən düzgün və savadlı tərtibatı və sairə. Qeyd etmək lazımdır ki, nəinki dilçilər, müəllimlər, hər bir azərbaycanlı ədəbi dilin fonetik, leksik, qrammatik normalarına əməl etməli və onun saflığı uğrunda mübarizə aparmalıdır.

**Açar sözlər:** Azərbaycan dili, sözün mənası, leksik norma, ədəbi dil, ümumtəhsil məktəbləri, orta məktəb şagirdləri, orta məktəb dərslikləri, dərslik müəllifləri, müəllif məsuliyyəti, orta məktəb müəllimləri.

**Резюме**

**ПОЛОЖЕНИЕ УЧЕБНИКОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ (СОБЛЮДЕНИЯ ЛЕКСИЧЕСКИХ НОРМ АЗЕРБАЙДЖАНСКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА). ОТВЕТСТВЕННОСТЬ АВТОРОВ УЧЕБНИКОВ**

**Агакишиев Алигейдар Юнис оглы**
**Керимова Ирада Исрафил кызы**

В статье исследуется положение учебников общеобразовательных школ, лексические нормы Азербайджанского дитературного язжка в учебниках. Изучается ответственность авторов этих учебников.

Указывается, что всестороннее развитие Азербайджанского языка связано с языковой политикой, заложенной Общенациональным Лидером Гейдаром Алиевым. Надо отметить, что Президент Азербайджана Госпадин Ильхам Алиев сегодня успешно продолжает эту политику.

Отмечается, что Великий Лидер Гейдар Алиев придает особое значение семантике слова и следует правилам, которые считаются приемлемыми с точки зрения языкознания. Его подход к каждому слову показывает, что он видит и ценит слово не ради слов, а как средство передачи определенного смысла.

В статье приведена цитата из газели «Слово» Мохаммеда Физули, известного азербайджанского поэта, мыслителя и философа, самого известного представителя диванного жанра в истории азербайджанской литературы.

Указывается, что обогащение словарного запаса учащихся всегда должно быть в центре внимания педагогов. Чтобы ученики освоили каждое слово, очень важно сначала объяснить его лексическое и грамматическое значение. При этом учащиеся с богатым словарным запасом могут четко и бегло излагать свои мысли и без затруднений доносить свои мысли до слушателей.

Дается, что учебники «Азербайджанский язык», «Литература» и другие предметы, преподаваемые в общеобразовательных школах, начиная с младших классов и до конца школьных лет, дают учащимся богатую информацию об Азербайджане, азербайджанстве, о нашем языке, религии и т. д. Однако большинство учебников не соответствуют возрасту учащихся и написаны не на понятном им языке. Авторы учебников для общеобразовательных школ, должны подходить к этой работе очень ответственно, учитывая возраст детей, а не свой собственный.

В заключении указывается, что авторы учебника должны учитывать следующие функции: возрастная информация, интерес, воспитание, систематизация, поощрение, развитие, интеграция, воспитание, фонетически, лексически и грамматически правильное и грамотное оформление учебника. Следует отметить, что не только лингвисты, преподаватели, каждый азербайджанец должен соблюдать фонетические, лексические, грамматические нормы литературного языка и бороться за его чистоту.

**Ключевые слова:** Азербайджанский язык, значение слова, лексическая норма, литературный язык, общеобразовательные школы, ученики средних школ, учебники средней школы, авторы учебников, ответственность автора, учителя средней школы.

## Summary

## THE SITUATION OF GENERAL EDUCATION SCHOOL TEXTBOOKS (APPLYING TO THE LEXICAL NORMS OF THE AZERBAIJAN LITERARY LANGUAGE). RESPONSIBILITY OF TEXTBOOK AUTHORS

**Agakishiev Aliheydar Yunis oglu**
**Kerimova İrada İsrafil kyzy**

The article examines the position of textbooks in secondary schools, the lexical norms of the Azerbaijani literary language in textbooks. The responsibility of the authors of textbooks in secondary schools is being studied.

Today, the comprehensive development of the Azerbaijani language is connected with the language policy founded by the National Leader Heydar Aliyev. President Ilham Aliyev is successfully continuing this policy.

The great leader Heydar Aliyev attaches special importance to the semantics of the word and follows the rules considered acceptable from the point of view of linguistics. His approach to each word shows that he sees and values the word not for the sake of words, but as a means of conveying a specific meaning.

The article quoted from the ghazal "Word" by Mohammad Fuzuli, the famous Azerbaijani poet, thinker and philosopher, who greatly appreciates the power and value of the word, the most famous representative of the divan genre in the history of Azerbaijani literature.

It is studied that enriching students' vocabulary should always be the focus of attention of teachers. In order to master each word, it is very important to first explain its lexical and grammatical meaning. In this case, students with a rich vocabulary can express their thoughts more clearly and fluently and convey their thoughts to the listeners without difficulty.

It is investigated that most of the "Azerbaijani language", "Literature" and other subject textbooks taught in general education schools are not suitable for the

age of the students and are not written in a language that the students can understand. Authors who undertake to write textbooks for secondary schools should approach this work very responsibly, taking into account the age limit of the children, not their own. They should write textbooks for children, not for themselves.

It is shown that textbook authors must take into account the following functions: age-specific information, interest, education, systematization, encouragement, development, integration, education, phonetically, lexically and grammatically correct and literate design of the textbook, etc. It should be noted that not only linguists, teachers, every Azerbaijani should follow the phonetic, lexical, grammatical norms of the literary language and fight for its purity.

**Key words:** Azerbaijani language, the meaning of the word, lexical norms, literary language, comprehensive schools, secondary school students, high school textbooks, textbook authors, responsibility of the author, high school teachers.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Muradov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**MAMMADOVA SVETLANA NASIB**
*Azərbaycan Dövlət Pedoqoji Universitetinin*
*Xarici Dillər Mərkəzinin dosenti,filologiya üzrə fəlsəfə doktoru*

# TRANSLATION OF IDIOMS IN ENGLISH INTO OTHER LANGUAGES

Idioms contain all information in compressed form. This quality is typical of idioms, it makes them very capacious units (idiom is a compressed text). An idiom can provide such a bright explanation of an object that can be better than a sentence. We can compare idioms with fables. Idioms based on cultural components are not motivated. Idiomaticity is the quality of phraseological unit, when the meaning of the whole is not deducible from the sum of the meanings of the parts. Stability of a phraseological unit implies that it exists as a ready-made linguistic unit which does not allow of any variability of its lexical components of grammatical structure. Phraseological meaning contains background information. It covers only the most essential features of the object it nominates. It corresponds to the basic concept, to semantic nucleus of the unit. It is the invariant of information conveyed by semantically complicated word combinations and which is not derived from the lexical meanings of the conjoined lexical components.

**Key words: Idioms, word combinations, phraseological units, grammatical structure, lexical meaning, characteristic feature, sentence structure.**

One of the main features of fixed phrases is that they cannot be translated into another language in most cases and often result in meaningless ridiculous expressions. Some linguists explain this sign by the fact that phraseological units reflect the national character of the language. A. N. Gvozdyev gives the definition of idiomatic combinations and writes: "The general stylistic meaning of idioms is explained by the fact that they act as synonyms of words and word combinations and enrich the lexicon of the language. In addition, idioms preserve the characteristic feature of the language to which they belong, so that they do not have a literal equivalent in other languages, usually they cannot be translated literally into other languages, and they ensure the vivid expressiveness of the national character in speech.This issue has been interpreted in different ways in Azerbaijani linguistics. M. Huseynzade notes that idioms cannot be translated into other languages in the same way.

S. Jafarov talks about this issue in a different way and writes: "One of the main features of fixed word combinations is that they cannot be translated into another language in most cases. "

It follows that phraseological units can be translated into other languages in some cases; because the author writes "... in most cases it is not translated".

In general, it is not appropriate to raise the issue of whether the phraseological units of one language have been translated into other languages in the same way: here, in fact, we should not talk about translation, but whether the fixed combinations of a language have the same equivalent in the language being encountered. This correspondence should be sought in the compatibility of the meaning-idea expressed by the phraseological unit in the compared languages. As the Azerbaijani linguist R. A. Budagov remembers, "Each language understands this or that idiom in its own way."

Therefore, every linguist should be able to learn the appropriate and distinctive stylistic and grammatical features of the language he is studying or studying. Because in the inner form of the word and in a number of other phenomena, it is impossible not to see that not only the separated aspects between languages, but also the corresponding aspects exist in the way of expression of idioms. Therefore, although the ways of expressing idioms in different languages are different, it is easy to find commonality in idioms in the meaning they express.

Under the concept of idiomaticity is understood not only the extraction of the complete meaning from the meaning of its parts, but also the acquisition of additional meaning.A.I. According to Smirnitsky, the idiomaticity of phraseological units consists of semantic completeness and equivalence to words. Since idiomaticity is described in different ways by different scientists, it is necessary to specify it. Discussions and debates are still going on about the question of whether or not these or other stable combinations should be included in phraseology. In this case, the solution to the problem is to approach the phraseological unit from one or another point of view. Linguists who see stability as the main criterion of phraseology consider all types of stable combinations, including proverbs and proverbs, as a phraseological unit (V.L. Arkhangelsky, N.M. Shansky). Linguists who look at phraseological units as descriptive synonyms do not attribute constituent terms and auxiliary words to phraseology. However, in a number of researchers, it is not observed that the criterion, which is usually taken as a basis, is consistently followed, this or that general provision does not always apply to all types of fixed word combinations, for some of them the author called them phraseologism. Exceptions are made depending on the non-naming. Thus, V. L. Arkhangelsky, considering fixed word combinations as a phraseological unit, removes them from the list of fixed combinations that act as connectors, prepositions, and adverbs, and considers them a compound word. N.M. Shanski, who is a supporter of the stability criterion, also removes stable compounds from the list of phraseological units and includes only single-stressed words in their composition.

There are 4 types of idiom. They are: pure idioms, binomial idioms, partial idioms, prepositional idioms. Pure idioms are idioms whose original meaning is lost

to the extent that there is no possible way to analyze the phrase logically to come to an understanding of its meaning. Unlike some of the other types of idioms listed below, these idioms tend not to have significant overlap with figures of speech like metaphors and similes, because there is no comparison or meaning that could possibly be derived from it. Binomial idioms are idioms that involve two parts that work together or in contrast to construct an expression. black and white (there are clear differences).

night and day (there has been a distinct and remarkable change).

more or less (something is close enough to correct).

give or take (there is some room for error).A partial idiom contains a literal part and a non-literal part. An example is “storm brewing in his eyes.” This idiom refers to a look of ferocity in someone’s face that can usually be identified in the intensity of their eyes. There is a literal part in the idiom (we are referring to something in someone’s eyes). But, there is also a non-literal part (the storm). A language user would need to understand that by ‘storm’, the speaker means that the person’s eyes are intense and fierce. Partial idioms are often also metaphors because the half of the idiom that is literal part (the eyes) derive additional descriptive meaning via comparison to the non-literal part (the storm, in the above instance, implying the eyes are ‘fierce like a storm’). Prepositional idioms are idioms that contain prepositional verbs plus an adverb or a preposition to create non-literal meaning. These types of idioms need to be placed into a sentence and cannot be used in isolation (they are not ‘fixed collocational idioms’). You may notice that prepositional idioms are barely recognizable as idioms because they are so commonplace in the English language. Nonetheless, their meanings aren’t derived from the sum of the words in the phrase, but rather through iterative exposure to the English language.

Idiomatically, languages use colors to express moods and feelings. In each language, there are numerous expressions in which color plays an important role. In most cases there is no equivalent in other languages and when translating them literally the meaning is lost. Thus, Color idiomatic expressions are considered to be one of the most difficult problems that a translator may encounter. These expressions are often used beyond their original meaning. They are difficult because of their unpredictable meaning and grammar. Furthermore, color idiomatic expressions may be culture bound and this may cause greater problems for the translator. Thus, a translator must choose the most appropriate strategy when translating color idiomatic expressions. Color idiomatic expressions must be recognized, understood and analyzed before appropriate translation methods can be considered. The ability to identify color idiomatic expressions is of enormous importance, since their meaning may not be understood literally. In other words, the translator must first analyze what the writer has meant before s/he can eventhink of translating the expression

Used in everyday language, idioms are fixed expressions that are meant to be understood figuratively, such as “out of the blue,” “rub someone the wrong way,” “at the drop of a hat,” “hit the nail on the head,” “let the cat out of the bag” or “miss the boat.” People who speak the same language may not understand the same idioms either. For example, some idioms are universally understood throughout England and the United States, but others aren’t understood beyond the originating nation’s borders. To add further possibilities for confusion, idioms understood by one person may not necessarily be understood by another if there is a large gap in education, social class or age between them. In short, idioms are tricky business. dioms have always been a worth-studying and exciting phenomenon in the language . One characteristic of idioms, as identified by Johnson-Johnson-Laird, is that they are mysterious and "the poetry of daily discourse". They, moreover, are so exciting, as they occupy imagination, and have the liability to transform abstract meanings into more concrete ones and augment the meaning of simple concepts. They exist in every area of human communication . Besides, idioms are prevalent, which confers more importance on their use in the language. Another critical feature of idioms is that they contribute to fluency and speech spontaneity.

Idioms are truly unique expressions of human communication. They are rooted in the values, history, geography, religion, ideology and/or social classes of the culture that produced it.

Thus, these sorts of phrases are often learned by rote by new English language learners in order to understand the language. Idioms constitute one important part of the language and culture. Knowing a language includes knowing idioms in that language. Different from ordinary phrases, idioms tend to be frozen in form and meaning and don’t allow change in structure and meaning. However, variation is one important aspect to idiom. The words of some idioms can be moved or substituted by other words. The syntactic structure of idioms can be altered. Some idioms function as normal sequence of grammatical words. They have changes in tense and aspect. All these changes contribute to the creation of idiom variation. Speakers create new idiom out of the original ones by modifying the original idiom to convey extra meanings. Idiom variations are the results of people’s creative use of language, expressing people’s subjectivity. By studying idiom variation from the perspective of subjectivity, subjective feelings, perspective, judgments and expectation in using a modified idiom are examined. It conforms to the fact that language is use-based and subjectively motivated. An elaborated analysis of idiom variation in the framework of linguistic subjectivity will offer us new insight into the issue we are discussing and uncover the hidden motivation behind linguistic facts.

The translation of idiomatic expressions in general, and color idiomatic expressions in particular usually meets some difficulties that are hard to overcome. Color idiomatic expressions express the uniqueness of the language and culture they originated in. Thus, one can safely assume that translating color idiomatic

expressions is quite difficult, especially if the translator is not aware of the cultural differences of the source and the target languages. History also plays an important role in the origin of color idioms. That is the case of English Expressions such as “blue blood” and “red carpet” which go back to the Middle Ages.

To set a scene for our discussion, consider the idiom “black-faced”. It designates fury in English, whereas it signifies humiliation and disgrace in Arabic. In English, for instance, the color term “blue” may be associated with grief as in "I have the blues", whereas in Arabic only dark blue may be associated with calamities as a substitute of black in that case. .Such instances can be serious pitfalls for translators unless they are aware of the differences that each color underlies. Colors are not used haphazardly but, rather, symbolically depending on the impressions or feelings each color may arouse. Though color symbolism is looked upon differently by different cultures and peoples, human beings seem to have oneness in experiencing color expressions, with relative differences among mankind. Simply, each individual sees color in a very personal way, and each color produces an impression on the mind that addresses at once the eye and the feelings.

The translation is meant to transfer the meaning of a word from one language into another. Sometimes, there are words and expressions that are difficult to translate due to different cultures and their usage. Idioms are not an exception. An idiom, roughly described as a phrase or expression that has a metaphoric rather than literal meaning, may be difficult when it comes to translation. As a proverb understood within a certain demographic community, an idiom can drop vivacity and tone when it is extracted into translated form. A highly experienced and knowledgeable translator comprehends this specific test and works hard to condense idioms and related figures of speech in a way that captures both the original expression but similarly the meaning implied by the words.

The best way to translate an idiom is to find an equivalent idiom in the target language. The author of the source text will have included the idiom for a reason, and it makes sense to try and follow their lead by incorporating a suitable equivalent into your translation.

This is not always possible, however. Sometimes there simply aren’t any suitable idioms in the target language. The idiom that you have stumbled across is basically untranslatable.

Idioms possess an exceptional role in the setting of a language. Their sense cannot be derived by purely trying to add together the connotation of all the words in the phrase. In fact, idioms habitually challenge definition through traditional ways. To precisely extract an idiom in translation, a translator must have an understanding of the culture and societies in which it occurs, as well as an understanding of the idiom’s indirect meaning.

**Reference list**

1. "Proverbs, sentences and proverbial phrases from English writings before 1500" by Bartlett Jere Writing with the collaboration of Helen Wescott Writing. Cambridge, Massachusetts, 1968
2. "1340 English proverbs and sayings with Russian equivalents." "Ibis". Moscow 1992.
3. "Selected proverbs and sayings of the Russian people." State publishing house of fiction, Moscow 1957.
4. Abasguliyev T. Science publishing house. Baku, 1981.
5. Abbasguliyev T.A. "On the lexical composition of words of Arabic origin in the English language". Methodology and linguistics. Pg. 8-21. BakI-1984.

**Məmmədova Svetlana Nəsib qızı**

## İNGILIS DILINDƏ IDIOMLARIN BAŞQA DILLƏRƏ TƏRCÜMƏSI

**Açar sözlər:Idiomlar, söz birləşmələri, frazeoloji vahidlər, qrammatik quruluş,leksik məna,xarakterik xüsusiyyət,cümlə quruluşu.**

İdiomlar sıxılmış formada bütün məlumatları ehtiva edir. Bu keyfiyyət idiomlara xasdır, onları çox tutumlu vahidlər edir (idioma sıxılmış mətndir). Bir idiom bir cümlədən daha yaxşı ola biləcək bir obyektin belə parlaq izahını verə bilər. İdiomları təmsillərlə müqayisə edə bilərik. Mədəni komponentlərə əsaslanan deyimlər motivasiya edilmir.İdiomatiklik frazeoloji vahidin keyfiyyətidir, o zaman bütövün mənası hissələrin mənalarının cəmindən çıxarılmır.Frazeoloji vahidin sabitliyi onun qrammatik quruluşun leksik komponentlərində heç bir dəyişkənliyə yol verməyən hazır linqvistik vahid kimi mövcud olmasını nəzərdə tutur.Frazeoloji məna arxa məlumat ehtiva edir. O, irəli sürdüyü obyektin yalnız ən vacib xüsusiyyətlərini əhatə edir. Əsas anlayışa, vahidin semantik nüvəsinə uyğundur. Semantik cəhətdən mürəkkəb söz birləşmələri ilə ötürülən və birləşmiş leksik komponentlərin leksik mənalarından alınmayan informasiyanın invariantıdır.

**Мамедова Светлана Насиб**

## ПЕРЕВОД ИДИОМ С АНГЛИЙСКОГО НА ДРУГИЕ ЯЗЫКИ

Ключевые слова

**Идиомы, словосочетания, фразеологизмы, грамматический строй, лексическое значение, характерный признак, структура предложения.**

Идиомы содержат всю информацию в сжатой форме. Это свойство характерно для идиом, оно делает их очень емкими единицами (идиома – это сжатый текст). Идиома может дать такое яркое объяснение предмета, что

может быть лучше, чем предложение. Мы можем сравнить идиомы с баснями. Идиомы, основанные на культурных компонентах, не мотивированы. Идиоматичность – это качество фразеологизма, когда значение целого не выводится из суммы значений частей. Устойчивость фразеологизма предполагает, что он существует как готовая языковая единица, не допускающая никакой вариативности своих лексических компонентов грамматического строя.Фразеологическое значение содержит справочную информацию. Он охватывает только самые существенные черты объекта, который он номинирует. Он соответствует основному понятию, смысловому ядру единицы. Это инвариант информации, передаваемой семантически сложными словосочетаниями и не производной от лексических значений составных лексических компонентов.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Nadir Məmmədli Filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur**

**ZAMANOVA ZÜLEYXA HAFİZ QIZI**
*Azərbaycan Dövlət Dəniz Akademiyası*

**İSGƏNDƏRZADƏ İRADƏ**
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN LEKSİK- SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN QARIŞILIQLI MÜNASİBƏTLƏRİNƏ DAİR

## XÜLASƏ

Bu məqalə elliptik söyləmlərin struktur-semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. Məqalədə ellipsis anlayışına yanaşmaların sistemləşdirilməsi təqdim edilmişdir. Ellipsis təbiətinə görə mürəkkəb hadisə kimi təbii dilin sintaktik sistemində xüsusi yer tutur. Məqalədə elliptik cümlə probleminin həll edilməsi sintaksis elminin ən aktual məsələlərindən biri hesab edilir. Qeyd olunur ki, elliptik cümlələrin öyrənilməsində ən mühüm məsələlərdən biri onların struktur və semantik planlarda tamlığı və natamamlığı məsələsidir. Məqalədə həm də elliptik cümlələrin əsasən şifahi dialoji nitq üçün xarakterik olduğu qeyd edilir. Yarım-çıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasındakı fərqlərdən danışılır.Məqalədə göstərilir ki,elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır.Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan,kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir.Onların çatışmayan üzvləri kontekst və situasiyadan bərpa edilə bilir. Kommunikativ-semantik strukturun formalaşmasına şifahi nitqin baş verdiyi mühitin, jestlərin, nitqin tempinin , intonosiyanın və digər amillərin təsiri olduğundan əsasən yarımçıq cümlələrdən istifadə olunur.Qeyri formallıq, səmimi ünsiyyət kimi amillər ifadələrə qənaət etməyə, mənanı anlamq üçün yetərli olan ifadələrin istifadə olunmasına imkan verir.Bu səbəblə ellipsisin öyrənilməsi bütün müasir dillərdə baş verən ünsiyyət vasitələrinə qənaət proseslərini anlamaq üçün kifayətdir.

**Açar sözlər: cümlə, struktur, kontekst, cümlə modeli, elliptik cümlə**

Müasir dilçilikdə təktərkibli cümlələrin statusuna dair fərqli fikirlər hökm sürür. Bu fikirlər arasında ortaq məqam ondan ibarətdir ki, təktərkibli cümlələr tərkibində feilin şəxsli forması olmayan cümlələrdir. A.A.Şaxmatova görə, "yarımçıq cümlələr bu və ya digər üzvün buraxıldığı halda özünə yer alır. Elliptik cümlələri tam cümlələrin struktur variantı kimi şərh edən A.A.Şaxmatovun fikrincə, "qrammatik

baxımdan təktərkibli cümlələrin mahiyyəti subyekt və predikatın birləşməsi cümlənin bir üzvündə özünə uyğunluq tapmasından ibarətdir". A.M.Peşkovski isə öz tədqiqatlarında elliptik cümlələri "yarımçıq cümlələr" kimi nəzərdən keçirir və onları "bir və ya bir neçə üzvü çatışmayan" cümlələrə aid edir . Müəllifin fikrincə, "ikinci dərəcəli üzvləri olmayan cümlələr yarmçıq cümlələrdir". Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, "ellip-tik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya yerinə yetirirlər".(1.-s.620)

Onun fikrincə, "elliptik cümlələr danışıq dili cümlələrinin özünəməxsus tipikləşmiş for-malarıdır, onların xüsusi struktur tipləri özlüyündə tam cümlələrin normasının posulmasını təmsil etmir" .Qeyd edək ki, xüsusi sintaktik hadisə olan ellipsis zamanı semantik strukturun element-lərindən biri söyləmin üst qatında ifadə olunmur. Halbuki elliptik konstruksiyaları linqvistik baxımdan nəzərdən keçirərkən onu struktur-qrammatik və məna vahidi kimi təqdim etmək mümkündür. Elliptik cümlələrin struktur-semantik təşkili məna yarımçıqlığı və onun yerinin doldurulması üsulları baxımından araşdırılır. Bu cür yarımçıqlığın yerinin dolumunun mənbəyi dialoq və danışığın konsituasiyası ola bilər. Elliptik cümlələrin formalaşmasında linqvistik kon-tekstlə müqayisədə konsituasiyanın təsiri daha güclüdür.Göründüyü kimi, linqvistik kontekst elliptik cümlələrin struktur-semantik tərtibinə təsir edən amillərdən biridir. Elliptik söyləm gerçəklik situasiyasının hər hansı bir elementinin nomi-nasiya vasitəsi kimi çıxış edir. Elliptik cümlələrin semantik strukturunun formalaşması onların tipikləşmiş ünsiyyət situasiyasına daxil olması nəticəsində baş verir. Bu cür cümlələr özlərinin spesifik struktur sxemlərilə konsituativ linqvistik vahidlər kimi çıxış edirlər. Danışıqda elliptik cümlələr dildənkənar gerçəklik situasiyası ilə bağlılıq nümayiş etdirir, onların semantikası kommunikativ, situativ-istiqamətli, üstəlik mürəkkəb xarakter daşıyır. .Мамедов А.Я. Эллипсис в азербайджанском языке: . Баку: 1981,.Müəllif yazır:"Ellipsisin müəyyənləşdiril-məsində kontekst və situasiyanın həlledici rolunu nəzərdən keçirən Ş.Balli yazırdı ki, "biz ellipsisi situasiyanı "prezentasiya edən" deyktik elementlərin və ya konteksti "reprezentasiya" edən anaforik elementlərin "düşünülməsi" kimi nəzərdən keşirməkdə israrlıyıq". Oxşar fikri qeyd edən A.Mamedovun fikrincə, "bəzi hallarda kontekst və ya situasiya cümləni "yüngülləşdirə" bilirlər və bununla da onun tərkibinə müvafiq birləşmə formalarının birbaşa daxil edilməsindən yan keçməyə imkan verir, bu forma isə özünün real məna dolumunu situasiya və ya kontekstdən alır" (2.s.147).

Qərb, xüsusən də ingilis dilçiliyində tərkibində feilin şəxsli formasının olmadığı, lakin bu-nunla belə onların tam məzmuna malik olmalarında və buna görə də cümlələrin ekvivalenti kimi çıxış edən bilən cümlələrdən bəhs edilir. Bəzi Qərb qrammatistləri, məsələn, V.L.Çeyf təktərkibli cümlələri müstəqil cümlələr kimi fərqləndirmir . Ç.Fris isə öz növbəsində təktərkibli cümlələrin mövcudluğunu qəbul edir: "təktərkibli cümlələrin iki növü vardır: onlar ya müəyyən mübtəda və ya

xəbərdən, ya da bir sözdə cəmləşdirilmiş mübtəda və ya xəbər ideyasını təmsil edən sözdən ibarət olurlar".Linqvistik mənbələrdə yarımçıq cümlələrə münasibətdə ortaq cəhət onların istənilən dildə monoloji, dialoji təzahür formalarından asılı olmayaraq danışıq dili üçün səciyyəvi olmasından ibarətdir. G.O.Kerm elliptik cümlələrdən bəhs edərkən onları struktur baxımdan tam, lakin tərkibində feili olmayan cümlələr kimi izah edir. Fikrini əsaslandırmaq üçün isə o, feilsiz əmr cümlələrinin müsal göstərir. Məsələn,Hat soff!;.Your passport, please! B.Blekston isə bu tip cümlələri üslubi vasitələr kimi müəyyənləşdirir və onlara danışıda daha çox rast gəlindiyini qeyd edir. Müəllif buraya nida cümlələrini - What a hot day! və inkarlıq bildirən sözün bütöv cümləni əvəz edə bildiyi inkarlıq bildirən cavabları aid edir. Məsələn,İs it going to rain?-/I hope not.İ.F.Vardula görə, "sıfır sintaksemlər təkcə məzmuna deyil, həm də ifadəyə malik olmurlar. Sıfır ifadələrin özünəməxsusluğu ondan ibarətdir ki, onlarda "akustik xüsusiyyətlərin məcmusu sıfıra bərabərdir, lakin onlar da özlərini eksplisit kimi, yəni maddi ifadə olunmuş kimi aparırlar. Maraqlı məqam ondan ibarətdir ki, İ.F.Vardul sıfır və ellipsis anlayışlarını fərqləndirməyə cəhd edir: "ellipsiyaya uğramış üzvdən fərqli olaraq, sıfır üzv kontekst və situa-siyadan asılı deyildir və eksplisit sintaksemlərin yerləşdirilməsinə yol vermir".

İ.F.öz araşdırmasında "ellipsis" və "yarımçıqlıq" anlayışlarının fərqinə ciddi yanaşmamış və buna görə də o, ellipsis dedikdə, cümlənin kontekst və ya konsituasiyadan bərpa oluna bilən buraxılmış elementi kimi başa düşür.

H.Poutsuma isə elliptik cümlələrə mübtəda və ya xəbəri olmayan cümlələri aid edir və onlar, onun fikrincə, "kontekstdən bərpa edilə bilməz". Müəllif elliptik cümlələrin beş növünü müəyyən edir: faktı təsdiq edən, məsələn, /No pains, no gains//, emosiya ifadə edənlər, məsələn, All right!, sual, məsələn, What about her?), ritorik sual və nidalar, məsələn, One knows the value of freedom, what then?, əmr cümlələri, məsələn, Your passport,please.A.İ.Smirnitski isə elliptik cümlələr dedikdə, quruluş elementləri – sözönülər, artikllər, bağlayıcılar, köməkçi feillərin olmadığı cümlələri nəzərdə tutur . Ümumiyyətlə, danışıq üçün səciyyəvi olan elliptik cümlələr ikinci həmsöhbətin danışığında məna baxımından yarımçıq olması ilə xarakterizə edilə bilər. Bu səpkili cümlələr semantik cəhətdən tam, struktur cəhətdən isə yarımçıq olan cümlələrdir. Elliptik cümlələrin strukturunda xəbər olmur və bu da həmin cümlələrə sürətlilik, şiddətlilik, intensivlik, gərginlik çaları verir.

K.M.Abdullayev:"Elliptik cümlələrin sadə cümlədə işlənməsi"Müəllif kitabında yazır:"Ellipsis ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər " kimi qiymətləndirən K.M.Abdullayevin fikrincə, "elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur və məhz belə bir yoxluq ellipsisli komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır" . Cümlə daxilində ellipsis hadisəsinin baş verməsi heç də həmin konstruksiyada fikrin yarımçıqlığı anlamında qəbul edilməməlidir, çünki belə cümlələrdə istənilən bir üzv ellipsisə yalnız o şəraitdə uğrayır ki, cümlənin özündən və ya mətndən onun bərpası mümkün olsun. K.M.Abdullayev hesab edir ki,

“ellipsisləşmə dolayısı ilə cümlə quruluşunda danışanın, infor-masiya verənin əvvəlcədən nəzərdə tutduğu modelin təqdim edilməsinə xidmət edir. Beləliklə, ellipsisli cümlə quruluşunu yalnız formal baxımdan deformasiyaya uğramış kimi qəbul etmək olar. Əslində bu deformasiyaya uğramış quruluş informasiya qəbul edənin dil şüurunda gizlənmiş tam təsəvvürüdür” .(3-s.156)

Cümlənin insan fikrinin subyektiv xüsusiyyətlərinə şərtlənmiş ellipsisi dilin ən geniş ya-yılmış hadisələrinə aiddir. F.Y.Veysəllinin fikrincə, “elliptik cümlələrə - Haraya? - /Evə// (gedirəm), /Evə// - /Hə// (əvəzinə). Bu cümlələr qrammatik cəhətdən tam formalaşmadığına görə onlara parselyativ və ya parazitiv cümlələr də deyilir” .

A.Y.Məmmədov ellipsis hadisəsini tədqiq edərkən onun kontekst və konsituasiya ilə bağlı aşağıdakı növlərini fərqləndirmişdir:

1) dialoqda ellipsis;

2) anaforik konstruksiyalarda ellipsis;

3) yarımçıq cümlələrdə ellipsis”

İngilis dilində feilsiz əmr cümlələri adi məişəşət danışığında geniş işlənməkdədir. Tərki-bində feil olmayan bu söyləmlər adətən isimlərdən ibarət olur. Bu söyləmlər xüsusi intonasiya ilə müşayiət olunur. Məsələn, ¡Silence!, ¡The salt, please!, ¡Hats off!, ¡Quite!, ¡Out!, ¡Out with it!

Məlumdur ki, feilsiz əmr cümlələrinin hamısı üçün ümumi cəhət onların kontekst (konsi-tuasiya) və danışıq situasiyası ilə sıx bağlılığıdır ki, məhz bunun sayəsində onlar kommunikativ cəhətdən funksionallıq qazana bilirlər. Bundan başqa, bu tip cümlələrdə emosiyanın ifadəsində intonasiya xüsusi rol oynayır. Bu cümlələrin emosionallığın gücü onların struktur natamamlığı ilə mütənasibdir, yəni söyləm qısa olduqca, onların intonasiyası bir o qədər qabarıq olur.Fərqləndirici əlaməti feilin (xəbərin) olmaması olan qeyri-predikatıv söyləmlər (təqdi-matlar) linqvistik baxımdan xüsusi maraq kəsb edir.,Özlərinin qrammatik naqisliyinə görə bu tip söyləmlər ellipsis, sıfır üzvlü cümlə adlandırılan nitq strukturlarına yaxındır. Lakin qeyri-predikatıv söyləmləri ellipsislərlə eyniləşdirmək məqsədəuyğun deyildir, çünki elliptik cümlələr danışıqda müəyyən konnotativ şəraitdə meydana çıxır. Məsələn, ¡Here! və ya ¡Quickly!

Məqalədə həmçinin göstərilir ki,elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır.Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan,kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir.Onların çatışmayan üzvləri kontekst və situasiyadan bərpa edilə bilir. Kommunikativ-semantik strukturun formalaşmasına şifahi nitqin baş verdiyi mühitin, jestlərin, nitqin tempinin , intonosiyanın və digər amillərin təsiri olduğundan əsasən yarımçıq cümlələrdən istifadə olunur. Qeyri formallıq, səmimi ünsiyyət kimi amillər ifadələrə qənaət etməyə, mənanı anlamq üçün yetərli olan ifadələrin istifadə

olunmasına imkan verir.Bu səbəblə ellipsisin öyrənilməsi bütün müasir dillərdə baş verən ünsiyyət vasitələrinə qənaət proseslərini anlamaq üçün kifayətdir.

Müasir dilçilikdə təktərkibli cümlələrin statusuna dair fərqli fikirlər hökm sürür. Bu fikirlər arasında ortaq məqam ondan ibarətdir ki, təktərkibli cümlələr tərkibində feilin şəxsli forması olmayan cümlələrdir. A.A.Şaxmatova görə, "yarımçıq cümlələr bu və ya digər üzvün buraxıldığı halda özünə yer alır. Elliptik cümlələri tam cümlələrin struktur variantı kimi şərh edən A.A.Şaxmatovun fikrincə, "qrammatik baxımdan təktərkibli cümlələrin mahiyyəti subyekt və predikatın birləşməsi cümlənin bir üzvündə özünə uyğunluq tapmasından ibarətdir" . A.M.Peşkovski isə öz tədqiqatlarında elliptik cümlələri "yarımçıq cümlələr" kimi nəzərdən keçirir və onları "bir və ya bir neçə üzvü çatışmayan" cümlələrə aid edir . Fikrimizcə, "ikinci dərəcəli üzvləri olmayan cümlələr yarmçıq cümlələrdir". Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, "elliptik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya daşıyır Qeyd edək ki, xüsusi sintaktik hadisə olan ellipsis zamanı semantik strukturun elementlərindən biri söyləmin üst qatında ifadə olunmur. Halbuki elliptik konstruksiyaları linqvistik baxımdan nəzərdən keçirərkən onu struktur-qrammatik və məna vahidi kimi təqdim etmək mümkündür. Elliptik cümlələrin struktur-semantik təşkili məna yarımçıqlığı və onun yerinin doldurulması üsulları baxımından araşdırılır. Bu cür yarımçıqlığın yerinin dolumunun mənbəi dialoq və danışığın konstuasiyası ola bilər. Elliptik cümlələrin formalaşmasında linqvistik kontekstlə müqayisədə konsituasiyanın təsiri daha güclüdür.

Реунова О.И. Эллипсис как лингвистическое явление:. Пятигорск: Из, 2000,

Burada daha bir məqama diqqət yəetirmək istərdik ki, yarımçıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasında müəyyən aşkar fərqlər mövcuddur. Hələ bir vaxtlar H.Svit yazırdı ki, "elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır".

Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, 608 s.O.Musayev həm də təktərkibli və yarımçıq cümlələrin fərqləndirilməsinə də münasibətini bildirir. Onun fikrincə, "...yarımçıq cümlədə buraxılmış üzv asanlıqla bərpa edilə bildiyi halda, təktərkibli cümlələrdə heç bir üzv buraxılmadığına görə, onu bərpa etmək mümkün olmur" Ellipsis dialoji nitqi xarakterizə edən əsas vasitələrə aiddir. Ellipsisin dialoji ünsiyyətdə müntəzəm istifadə edilməsi təkcə normativliyini deyil, həm də həmin vasitənin qanunauyğun və məqsədəuyğun olmasını sübut edir. Ellipsisdə dialoji nitqin əsas məziyyəti – fuksiyanın mənasının strukturun mənasının üzərində üstünlüyünə meyil" özünü büruzə verir. Ellipsisin köməyilə informasiya cərgəsi daha dəqiq qurulur, mənanın detallaşmasına yardım edən sinonim əvəzetmələr vasitəsilə həmin informasiya cərgəsinin dəyişməsi baş

verir”.Dialoq struktur tərtib qaydaları sosial kontekstin təsiri altında olan elliptik konstruksiyaların işləndiyi əsas sahədir. (5-s.608)

Ellipsis danışıqda və ya mətndə (diskursda) dil vahidinin buraxılmasıdır ki, onun köməyilə müəyyən şəraitdə bir sözlə digər hallarda bütöv bir cümlənin vasitəsiləifadə oluna biləcək fikri ifadə etmək olar. Bu hadisə konkret dildə hərəkətdə olan dil vasitələrinə qənaət prinsipinin təsirindən yaranır.

**Ədəbiyyat:**

1. Шахматов А.А. Синтаксис русского языка. С-Петербург: Изд, 2007, 620 с.

2.Мамедов А.Я. Эллипсис в азербайджанском языке: . Баку: 1981, 147 с.

3. K.M.Abdullayev:”Elliptik cümlələrin sadə cümlədə işlənməsi”s.156.

4.Реунова О.И. Эллипсис как лингвистическое явление:. Пятигорск: Из, 2000, 230 с.

5..Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, 608 s.

**З.Зейналова, И.Ибрагимова**

## О ЛЕКСИКО-СЕМАНТИЧЕСКИХ ХАРАКТЕРИСТИКАХ ЭЛЛИПТИЧЕСКИХ ПРЕДЛОЖЕНИЙ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ И ИХ СООТНОШЕНИИ

**РЕЗЮМЕ**

Данная статья посвящена вопросам изучения структурно-семантические особеннос-тей эллиптических предложений. В ней представлена систематизация подходов относительно статуса понятия эллипсиса. Эллипсис, как сложное по своей природе явление, занимает особое место в синтаксической системе естественного языка. В статье подчеркивается, что решение проблемы эллиптических предложений является одной из важнейших задач синтаксической науки. Автором отмечается, что при изучении эллиптических предложений одной из важных задач является определение их полноты или неполноты в структурном и лсемантическом отношениях.

В статье также указывается, что эллиптические предложения в основном характерны для устной диалогической речи. Говорится о различиях между неполными (формально неполные предложения смысл которых понятен по контексту, ситуации или интонации) и эллиптическими предложениями.

В статье эллиптические предложения описываются как особый вид предложений, которые могут быть использованы автономно. Их специфической особенностью является отсутствие глагола в контексте, не имеющего важности в передаче информации. Эллиптические предложения рассматриваются как не полносоставные, в которых недостает одного или нескольких членов, которые характерны для реплик в диалогах и которые в контексте соответствуют полным двусоставным предложениям.,

**Ключевые слова: предложение, структура, контекст, модель предложения, эллиптическое предложение.**

**Z.Zeynalova,I.Ibragimova**

**ON THE LEXICAL-SEMANTIC CHARACTERISTICS OF ELLIPTICAL SENTENCES IN ENGLISH AND AZERBAIJAN LANGUAGES AND THEIR RELATIONSHIPS**

**SUMMARY**

The article focuses on the study of structural and semantic features of Elliptical sentences. It provides the systematization of approaches concerning the status of ellipsis. Ellipsis is of a complex nature and has been particularly significant for the syntactic system of natural language. In the article it is stressed that dealing with the issue of elliptical sentences is a major challenge for Syntax. It is submitted that defining structural and semantic completeness or incompleteness of elliptical sentences is one of the priority tasks for research of elliptic sentences.

The article further provides that the elliptical sentences are more common for oral dialogical speech. İt distinguishes between incomplete sentences (structurally incomplete sentences where the meaning is understood from the context, situation and intonation) and elliptical sentences. In the article elliptical sentences are described as a special type of sentences that can be used autonomously.

Their characteristic feature is the lack of the verb in context which is not necessary in the transmitting information. Elliptical sentences are described as incomplete sentences without one or two parts of sentences which are typical for dialogues and replicas and correspond to complete sentences. Their omitted parts can easily be rebuilt by context The phenomenon like informality ease in communication enables it to reduce expressions and use only the ones necessary for understanding the meaning. That is the reason why the study of the term of ellipsis is necessary for understanding the processes related to economy of language means which is common for all modern languages

**Key words: proposal, structure, context, model proposal, elliptical proposal.**

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru ,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur**

**HƏSƏNOVA NİGAR XALİD QIZI**
**ZAMANOVA XALİDƏ YAŞAR QIZI**
**Azərbaycan Texniki Universiteti**
**"Xarici dillər"kafedrasının baş müəllimləri**
**H.Cavid pr.25**
**nigarxalida@ gmail.ru**

# MÜASIR İNGİLİS DİLİNDƏ PRAKTİK- DİPLOMATİK DANIŞIQ TƏRZİ

## XÜLASƏ

Xarici dillərin içində ingilis dili ən geniş yayılmış dillərdən biridir. 1960-cı illərdən başlayaraq Ümumi İngilis dilinin öyrədilməsi tələbələrin və ya sahibkarların tələblərini ödəmədiyi üçün İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi anlayışının yaranmasına təkan oldu. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi ingilis dilinin xüsusi sahələrdə istifadəsi üçün tədris edilməsi və öyrənilməsidir.

İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni dil tədrisidir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi proqramı həmçinin Xüsusi Sahələr üçün İngilis dili də adlanır. Bu proqram müxtəlif ixtisas sahələrinə aid kursları əhatə edir. Bu ixtisaslaşdırılmış dil kurslarına Menecerlər üçün İngilis dili (English Course for Managers), Elmi və Texnoloji İngilis dili (English for Science and Technology), Tibbi İngilis dili (English for Medical Purposes), Hüquqi İngilis dili (Legal English), Diplomatik İngilis dili (Diplomatic English), Aviyasiya üçün İngilis dili (English for Aviation), Akademik İngilis dili (English for Academic Purposes), Turizm üçün İngilis dili (English for Tourism), Biznes İngilis dili (Business English), Beynəlxalq Auditorlar üçün İngilis dili (English Course for International Auditors), İnsan resursları üçün İngilis dili (English Course for Human Resources) və sairə daxildir.

**Abdullayev S . Müasir İngilis və Azərb. dillərində inkarlıq kateqoriyası** , İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahələri içində Diplomatik ingilis dili dünyanın bir çox ölkələrində tədris edilir. Əvvəllər diplomatik sferada digər dillərdən istifadə edilsə də daha sonralar ingilis dilinin istifadəsi geniş vüsət aldı. Diplomatik İngilis dili müəyyən səviyyədə ingilis dili biliyi ilə yanaşı, eyni zamanda düzgün ifadə seçimini, diplomatik danışıq, yazı, oxu, dinləmə və anlama bacarıqlarını inkişaf etdirən mövzuları tərkibinə daxil edir. Diplomatik İngilis dili programında iştirak edən tələbələr burada xüsusi vurğu və tonlarla ingilis dilində danışa, öz fikirlərini aydın ifadə edə, həmçinin kütlə içində əminliklə təsirli danışıq bacarıqlarını inkişaf etdirəbilərlər. Praktik diplomatiya, diplomatik simulyasiyalar, ictimai diplomatiya, beynəlxalq əlaqələr, siyasət və ideologiya kimi sahələrdə uğurlu çıxışlar etmək istəyən diplomat Diplomatik İngilis dilinə yiyələnməlidir**.(1.s.114)**

İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi və onun sahələrdən biri olan Diplomatik İngilis dilidir.İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi təcrübəsinin

Diplomatik İngilis dili nümunəsində öyrənilməsi zamanı söz, söz birləşməsi təşkil edir.

**Acar sözlər:İngilis dili,xüsusi məqsəd,diplomatiya,problem,öyrətmək.**

**Məgalənin əsas mahiyyəti** ondan ibarətdir ki, ingilis dili təhsili verən və ya ingilis dilinin köməkçi fənn kimi tədris edildiyi universitetlərdə onun istifadə edilməsidir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi universitetlərdə istər humanitar, istərsə də texniki ixtisaslarda oxuyan tələbələrə və ya artıq həmin ixtisaslar üzrə çalışan şəxslərə akademik və peşəyönümlü cəhətdən tədris edilir.

Burada təqdim edilmiş məlumatlardan tərcümə mədəniyyəti ilə məşğul olan mütəxəssislər, eləcə də azərbaycanlı oxucular (ingilis dilində olan) orijinal əsəri oxuyarkən faydalana bilər, ingilis dilli və azərbaycan dilli insanların biri-biri ilə canlı ünsiyyət zamanı istifadə edə bilərlər.

Bu məqsədlərə çatmaq üçün aşağıdakı *vəzifələr* həyata keçirilmişdir:

a)Elmi ədəbiyyatda mövzu ilə əlaqədar olan müddəaları nəzərdən keçirmək;

b)Tədqiqat işinin nəzəri bazasını və praktik dil materiallarını müəyənləşdirmək;

c)Tədqiqata cəlb edilmiş və ingilis dilində daha çox işlədilən diplomatik terminləri dəqiqləşdirmək.

d)Diplomatik ingilis dilinin tədrisində lazım olan bilik və bacarıqları müəyən etmək.

Məgalənin yazılmasında müsahibə metodundan, müşahidə metodundan istifadə edilmişdir. Araşdırmalar zamanı mövzu ilə əlaqədar dövrü mətbuat, elmi–praktiki konfranslarının metodoloji əhəmiyyət daşıyan müvafiq materiallarından istifadə edilmişdir.

***.Musayev O . İ . ( Türksevər ) . İngilis dilinin qrammatikası Məgalənin elmi yeniliyi*** ondadır ki, Azərbaycanda ilk dəfə İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi təcrübəsinin Diplomatik İngilis dili nümunəsində öyrənilməsi konkret nümunələr əsasında tədqiqata cəlb olunur və Diplomatik İngilis dilində istifadə edilən terminlərin, ifadələrin müxtəlifliyi ingilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi prosesinin səmərəli təşkili yollarının müəyyənləşdirilməsinin vacibliyi göstərilir. Burada diplomatik ingilis dili materiallarıı vasitəsi ilə beynəlxalq sferada tələbələrin diplomatik dil bacarıqları müəyyənləşdirilir**.(2.s.46-48)**

a) **İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin tarixi.**

İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir. Hazırda ingilis dili demək olar ki, bütün ölkələrdə milyonlarla insan tərəfindən danışılır və müxtəlif məqsədlərlə istifadə edilir. İlk əvvəllər ingilis dili xarici yaxud da ikinci dil kimi öyrənilirdi, burada ingilis dilinin öyrənilməsində əsas məqsəd qarşılıqlı ünsiyyəti təmin etmək və məhz həmin dildə ünsiyyət qurmağı bacarmaq idi. Ona görə də Ümumi ingilis dilinin öyrənilməsi daha çox məşhurlaşmışdı.

Ümumi ingilis dilinin öyrədilməsi programı demək olar ki, son dörd onillik ərzində universitetlərdə müxtəlif sahələr üzrə tədris olunub. Ümumi məqsədlərlə ingilis dilinin öyrədilməsinin tədris programına xarici dildə ümumi bilik və bacarıqlarının öyrədilməsi, dil səviyyəsinin artırılması kimi məsələlər daxildir. Halbuki İngilis

dilinin professional cəhətdən öyrədilməsi hesab olunan İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi ümumi məqsədlərlə eyni məzmunlu deyildir. İndi artıq bir çox universitet məzunları öz ixtisaslarını bilməklə yanaşı, həmin bilikləri xarici dillərdə, xüsusilə ingilis dilində elmi cəhətdən izah etməyi bacarmalıdırlar. Bəzi səbəblərə görə məzunların bir hissəsi xarici dili peşəyə aid və yaxud peşəyönümlü tapşırıqlara lazımı şəkildə tədbiq edə bilmirlər. Bu da, əlbəttə, peşələrə uyğun ünsiyyət bacarıqlarının tədbiqində uğursuzluğa səbəb olur. Bu sahəni araşdıran metodistlər xüsusi məqsədləri əsas götürərək ingilis dilini peşəyönümlü məqsədlərdə tələbələrin istifadə etməsi üçün peşələrə aid xüsusi program hazırlamaq qərarına gəldilər.İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni dil tədrisidir. Bu sahəyə dair müxtəlif fikirlər irəli sürülmüşdür. Bütün bu fikirləri ümumiləşdirərək İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsini 4 tarixi inkişaf xronologiyasına bölə bilərik: erkən dövr (1960 – 1981), yaxın keçmiş (1981 – 1990), müasir dövr (1990 – 2011), gələcək dövr (2011-dən indiyədək və sonrakı illər).

Lakın İngilis dilinin ikinci dil kimi öyrədilməsi və İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi yalnız tələbələrin xüsusiyyətlərindən, məqsədlərindən asılı deyil, həmçinin buradakı təlimatların məqsədindən də asılıdır. Bu məqsədlər normalardan kənara çıxa bilər, yəni bu deməkdir ki, bu məqsədlər biri digərlərindən fərqlənə bilər. Əslində bir qayda olaraq ikinci dil kimi İngilis dili tədrisi dinləmə, oxu, danışıq və yazı kimi bütün dörd dil bacarıqlarını özündə bərabər şəkildə vurğuladığı halda, İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsində isə tələbatların təhlili ilə tələbələr üçün ən çox lazım olan dil bacarığı məyyən edilir, və tədris programı ona uyğun olaraq tərtib edilir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi programı biznes idarəçiliyi sahəsini öyrənən və bu sahəni bitirməyə hazırlaşan tələbələrdə oxu bacarıqlarını inkişaf etməsini nəzərə çarpdıra bilər, yaxud da bu program turizm sahəsini araşdıran və gələcəkdə turist bələdçiləri olmaq istəyən tələbələrin danışıq bacarıqlarının inkişafına kömək edə bilər. [20]

.**Nuriyeva S . T. Cerund , Bakı** Müəllif S.Nuriyeva yazır:**",** Həqiqətən də İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi fənlərin mahiyyətini, məzmununu və İngilis dili tədrisini özündə cəmləyir. Belə bir birləşmə və yaxud kombinasiya olduqca motivəedicidir, çünki tələbələr İngilis dili dərslərində öyrəndiklərini mühasibatlıq, biznes idarəçiliyi, kompüter elmləri, turizm, tibb, aviasiya, diplomatiya və sair bu kimi əsas tədris sahələrinə tədbiq edə biləcəklər".**(3.s.123-136)**

İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi həm yeni, həm də aktual sahədir. Müəyyən və ya istənilən dil tədrisindəki kimi İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi də dil təliminin əsas sahələrindən biri hesab olunur. Lakin İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi araşdırıldıqca burada "hansı xüsusi məqsədlər movcuddur?", "deyilən xüsusi məqsədlərə uyğun xarici dili necə öyrənmək olar?", "xarici dildə nəyi öyrənmək lazımdır?" kimi suallar meydana çıxdı. Bu artıq xarici dil tədrisində fərqli yanaşma idi. Bu yanaşma əksəriyyət tərəfindən maraq göstərilən

xüsusi dil tələbatının tərkibini, onun nəzərə çarpılan, olduqca vacib xüsusiyyətlərini özündə cəmləyirdi.

**Бархударов Л . С . Грамматика английского языка , Москва , 1973.Barxudarov öz**

məqaləsində qeyd edir**:"**İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi ümumiyyətlə İngilis dili tədrisində müstəqil dil tədrisi sahəsidir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi haqqında tədqiqatlar Tədbiqi Dilçilikdə araşdırılan tədqiqatların əsas komponenti kimi tanınır. Hatçinson və Uoters İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsini fənn anlayışından daha çox yanaşma anlayışı kimi qəbul edirdilər və bununla da onlar İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin heç bir dilə, tədris materiallarına və ya yaxud hər hansı metodologiyaya aid olmağınını göstərirdilər. Onlar təklif edirlər ki, İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin əsası – "Tələbəyə xarici dili öyrənmək niyə lazımdır?" sualı idi. Bu sualın cavabına tələbələr, lazım olan, tələb olunan dil və təlimin məzmunu kimi anlayışlar daxildir**."(4.s.211**)

Beləliklə, bunlar İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsində vacib tələbatları formalaşdırır. Həmin tələbatlər tələbənin İngilis dilini nə üçün öyrənməsi, tədris prosesinin iş və ya təhsil məqsədlərindən fərqlənməsi ilə müəyyən edilir. Məhz bu məqsədlər öyrədiləcək dilin müəyyən edilməsi üçün əsas müddəalardır. Onlar İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi metodologiyasının iki aspektini xüsusi vurğulayırlar:

1) İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi tədris qaydalarına və peşələrə uyğun metodologiya ilə əks etdirilməlidir;

2) İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi prosesində tələbə və müəllim arasındakı qarşılıqlı ünsiyyət Ümumi ingilis dili tədrisindən fərqli ola bilər.

*Robinsonun* İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi haqqında fikirləri 2 mühüm kriteriyaya əsaslanır:

1) İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi məqsəd-yönümlü tədrisdir;

2) İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi kursları mütəxəsislər tərəfindən eyni xarakterli siniflərdə yetkin tələbələrə keçirilməsini nəzərdə tutur.

İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi programlarının uğurla hazırlanılmasında və formalaşdırılmasında sosial-siyasi məsələlər həlledicidir. Bu sosial-siyasi məsələlər 3 aspekt ilə əlaqəlidir:

1) ingilis dilinin qlobal dil kimi yayılması;

2) dil və təhsildə dil siyasəti;

3) kurrikulum innovasiyası və yenilik. Bu aspektlər İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi, öyrənilməsi və tədqiqatına təsir edir.

Dövlətlər və xalqlar arasındakı qarşılıqlı əlaqələri daha da dərinləşdirən və genişləndirən qlobal prosseslər, praktiki olaraq insan fəaliyyətinin bütün sahələrinə təsir edir. "Qlobal dil" terminini dilçiliyə ilk dəfə görkəmli ingilis linqvisti Devid Kristal gətirmişdir. Devid Kristal belə hesab edirdi ki, hər hansı bir dilin "qlobal dil"

statusunu alması üçün onun bir çox ölkələrdə aparıcı, hakim mövqedə olması vacib şərtdir. Daha sonra Devid Kristal bu statusu əldə etməyin üç yolunu və ya dilin qloballaşması üçün vacib olan üç müxtəlif funksiyanı göstərir. Birincisi, bir çox ölkələrin dövlət dili olmaq funksiyasıdır. Yəni, hər hansı bir dil "qlobal dil" statusunu əldə etmək üçün eyni zamanda bir neçə ölkənin ya əsas dövlət dili, ya da ikinci dövlət dili olmalıdır. İkincisi, bir çox ölkələrdə dil rəsmi status əldə edərək dövlət qurumlarında, hüquqi sistemlərdə, reklamlarda, kütləvi informasiya vasitələrində, təhsil sistemində geniş şəkildə yayılır. Bu halda dil ikinci dövlət dili səviyyəsinə yüksəlir. Bəzən onun tədrisi hətta ana dili ilə bərabər ibtidai siniflərdən başlanır. Bu zaman xarici dil həmin dövlətdə yeganə rəsmi dil və ya yarımrəsmi dil ola bilər. Dilin qloballaşmasının üçüncü mərhələsi isə dövlətin təhsil siyasəti ilə bağlıdır. Belə ki, dilin heç bir rəsmi status almamasına baxmayaraq, o həmin ölkədə xarici dil tədrisində üstün mövqeyə malik olur. Dünyada qloballaşma prosesi İngilis dilinin istifadəsində və statusunda dəyişikliklərlə nəticələnir. İngilis dilinin geniş şəkildə yayılması İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsinə təsir edən bir sıra digər problemləri irəli çəkir. Bu problemlərə yerli dil daşıyıcısının daxili dairələrə təsir edən Kaçrunun 3 dairə modelinin (inner circle, outer circle, expanding circle) yenidən qiymətləndirilməsi, ingilis dilinin mənimsənilməsi, ingilis dilinin mühafizəkar funksiyası, ingilis dilinin yeni variantlarının, hər iki yerli variantlarin və beynəlxalq inglis dili və lingua franka kimi inglisi dilinin inkişaf edtdirilməsi, Qərb dəyərlərinin və mədəniyyətinin yayılması, ingilis dilin genişlənməsinin idarə edilməsi yaxud da təbliği aiddir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi son 40-50 il ərzində formalaşaraq bugünki İngilis dilinin xarici dil kimi tədrisinin ən əsas sahələrindən birinə çevrilmişdir. Beynəlxalq biznes bazarının inkışafından yaranan tələblərlə əlaqədar bir sıra müəssisələr, o cümlədən universitetlər öz üzvlərini, kadrlarını məlumatlandırmaq, bilikləndirmək üçün İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi kurslarının təşkilinə başladılar. Öz ixtisas sahələrinin texnologiya və beynəlxalq inkişaf ilə bərabər addımlaması üçün universitet məzunları artıq İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsində kommunikativ bacarıq əldə etməyi vacib məsələ kimi qəbul ediblər. Belə ki, bu kommunikativ ehtiyacları, tələbatları ödəmək üçün universitet, kollec kimi müəssisələr olduqca xüsusi akademik və peşəyönümlü sahələrə dair İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin yeni tədris programlarını tərtib etməyə çalışdılar. Bura mühəndislik, tibb, hüquq, turizm, biznes, diplomatiya və sair bu kimi sahələri daxil etdilər. Buna görə də İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi programları ölkələrin milli ingilis dili tədrisi kurrikulumuna daxil edildi. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi programlarının əksəriyyəti məzmun cəhətdən tələblərə uyğun olaraq elə tərtib olunur ki, İngilis dilini xüsüsi məqsədlərlə öyrənən tələbələrin dil tələbatlarını, ehtiyaclarını qarşılaya bilsin. İxtisaslaşmış universitet məzunları ilk əvvəl ümumi ingilis dilində bilik və bacarıqlara sahib olmalı, daha sonra özünəməxsus peşə sahələrində müvəffəqiyyətli ünsiyyət yaratmağı bacarmalıdırlar.

Son onilliklərdə İngilis dilinin ya iş yerlərinin tapılmasında, ya da karyerada, rütbədə yüksəliş əldə etməkdə, ingilis dili tədrisi strategiyalarını müxtəlif peşə sahələrində tədbiq etməkdə, yaxud da irimiqyaslı araşdırmalar, tədqiqatlar aparılmasında zəruri vasitəyə çevrilməsi İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsinin məşhurlaşmasına və geniş sürətdə yayılmasına səbəb olmuşdur. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi elm və texnologiyanın inkişafı ilə, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi ilə əlaqədar olaraq daha da təkmilləşmişdir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi, ümumiyyətlə bu anlayış İngiltərə, ABŞ, Sinqapur kimi ölkərdə uzun illər formalaşmışdır. Bu ölkələrdən başqa Azərbaycanda, Rusiyada, Türkiyədə və digər bu kimi ölkələrə də inteqrasiya etmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**

:1.Abdullayev S . Müasir İngilis və Azərb. dillərində inkarlıq kateqoriyası , B,1998 s.114.
2.Musayev O . İ . ( Türksevər ) . İngilis dilinin qrammatikası , B , Qismət , 2007 s.46-48.
3.Nuriyeva S . T. Cerund , Bakı , 2011.səh:123-136
4.Бархударов Л . С . Грамматика английского языка , Москва , 1973 с.211

***N.Gasannova,.X.Zamanova***

.

**PRACTICAL-DIPLOMATIC SPEECH IN MODERN ENGLISH**
**SUMMARY**

The scientific novelty of the article is that for the first time in Azerbaijan, the study of the practice of teaching English for special purposes in the example of Diplomatic English is based on concrete examples. Students' diplomatic language skills in the international arena are determined through diplomatic English language materials English is one of the most popular languages in the world. Today, English is spoken by millions of people in almost every country and is used for a variety of purposes. Initially, English was studied as a foreign or second language, where the main purpose of learning English was to provide communication and to be able to communicate in that language.

The field of teaching English for special purposes has further improved with the development of science and technology and the strengthening of interstate relations. The field of teaching English for special purposes, in general, this concept has been formed for many years in countries such as the United Kingdom, the United States and Singapore. In addition to these countries, it has integrated into Azerbaijan, Russia, Turkey and other similar countries

The process of globalization in the world results in changes in the use and status of the English language. The proliferation of English raises a number of other issues that affect the teaching of English for specific purposes.,

**Key words: English, special purpose, diplomatic, problem, teach.**

**Н.Гасанова,Х.Заманова**

## ПРАКТИЧЕСКИ-ДИПЛОМАТИЧЕСКАЯ РЕЧЬ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

## РЕЗЮМЕ

Научная новизна статьи заключается в том, что впервые в Азербайджане изучение практики преподавания английского языка для специальных целей на примере дипломатического английского основано на конкретных примерах. Навыки дипломатического языка студентов на международной арене определяются с помощью дипломатических материалов на английском языке.

Преподавание английского языка для конкретных целей, как правило, является независимой областью обучения английскому языку. Исследования в области преподавания английского языка для специальных целей признаны ключевым компонентом исследований в области прикладной лингвистики. Хатчинсон и Уотерс ановрассматривали преподавание английского языка для определенной цели как подход, а не как предмет, и, таким образом, показали, что преподавание английского языка для конкретной цели не применимо ни к какому языку, учебным материалам или методологии.

Распространение английского языка поднимает ряд других вопросов, влияющих на преподавание английского языка для конкретных целей. Эти проблемы включают переоценку внутреннего круга Качру 3 (внешний круг, расширяющийся круг Английского языка.

**Ключевые слова:Английский язык,специальное назначение,дипломатия,проблем, учить.**

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Rəfiq Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur**

**İRADƏ VƏLİYEVA**
**KƏMALƏ HÜSEYNOVA**
*Azərbaycan Texniki Universiteti*
*"Xarici dillər"kafedrasının baş müəllimləri*
*H.Cavid pr.25.*
*iradakamala@gmail.com*

# INGILIS DILINDƏ CERUNDUN FEİLİ - İSMİ XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCAN DİLİNDƏ MƏQBUL EKVİVALENTLƏRİ

**Xülasə**

Feilin şəxsiz formalarından biri də cerunddur. Cerund ancaq ingilis dilinə xas olan bir nitq hissəsidir. Nə german qrupuna daxil olan başqa dillərdə, nə də Hind-Avropa dillərində cerunda muvafiq nitq hissəsi yoxdur. Cerund da məsdər kimi, ikili xarakterə malikdir. Onun həm feili, həm də ismi xüsusiyyətləri var. Məsdərdən fərqli olaraq, cerund davamlılıq məna çalarlarına malikdir.

**N.Xudiyev: "Azərbaycan dilinin lüğət tərkibinin zənginləşmə yolları"1963** ." Cerund məsdərin sonuna (**to** ədatsız **) -ing** sonluğu əlavə etməklə düzəlir. Əmələgəlmə formasına görə cerund feili sifətdən ( Patriciple) fərqlənmir. Öz əsas feli xüsusiyyətlərinə görə cernd feli sifətin və məsdərin xüsusiyyətlərinə uyğun gəlir. İsmi xüsusiyyətlərinə görə isə cerund məsdərə uyğun gəlir".(1.s.56)

I.Cerundun ismi xüsusiyyətləri;

Yuxarıda qeyd ediyimiz kimi, cerundun ismi xüsusiyyətləri var. Cerund aşağdakı ismi xüsusiyyətlərə malikdir:

a)Cerund cümlədə mübtəda, vasitəsiz tamamlıq və mürəkkəb ismi xəbərin ad hissəsi ola bilər.Məs: Heating the substance up to 85$^{o}$C was absolutely necessary.

Bu maddəni 85$^{o}$C-dək qızdırmaq tamamilə zəruri idi.

b) Cerunddan əvvəl sözönü işlədilə bilər. Bu zaman cerund cümlədə tamamlıq, təyin və ya zərflik vəsifəsində olur.Məs: I think of making her a present.Mən ona bir hədyyə verməkhaqqında düşünürdüm.

c) İsim kimi cerund da yiyəlik hada olan isimlə və yiyəlik əvəzliyi ilə işlədilə bilər:Məs: I object to his playing football all day long.Mən onun bütün gün futbol oynamağınn əlehinəyəm.

**Açar sözlər: İngilis dili. feili tərkiblər,feili bağlama,Azərbaycan dili,məsdər**

II.Cerundun feili xüsusiyyətləri (The verb Functions of the Gerund)

Cerund feili sifətlə eyni xüsusiyyətlərə malikdir.

a).Cerund vasitəsiz tamamlıq qəbul edə bilir. Məs:

I remember reading that novel-O novellanı oxuduğum yadımdadır.

b) Cümlədə cerund zərflə təyin oluna bilər:Məs:She likes playing alone- O, tək oynamağı xoşlayır.

c).Cerundun öz zaman və təsirli feillərin cerundunun növ kateqoriyası var.

Müasir ingilis dilində cerundun aşağdakı formaları var:

| | active | passive |
|---|---|---|
| İndefinite | writing | being witten |
| Perfect | having written | having been writton |

Indefinite cerund sadə növlü cerund olub, indiki zaman feili sifəti Participle İ kimi, felin kökünə - ing suffiksi əlavə etməklə əmələ gəlir:

Məs: Speak – speaking

tell - telling

İndenfite cerundun məchul növü **to be** felinin sadə cerund forması və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti (Participle İİ) vasitəsi ilə əmələ gəlir Məs: Being written

Indefinite cerund cümlədə əsas feilin zamanı ilə eyni vaxtda icra olunan hərəkəti göstərir.Buna görə də İndefinite cerund əsas məna daşıyan felin zamandan asılı olaraq indiki, keçmiş və gələcək zamana aid ola bilər.Məs:

She insists on my singing to them - O təkid edir ki, mən onlar üçün oxuyum.

Perfect cerund məlum növü **to be** felinin İndefinite cerundu və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti ( Participle İİ) ilə əmələ gəlir: having written.

A.**Qarayev: "Müasir Azərbaycan dilində Avropa mənşəli alınmalar.1972**.Müəllif yazır:

" Perfect cerundun məchul növü köməkçi to be felinin Perfect cerund forması ( having been) və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti (Participle II) vasitəsilə əmələ gəlir: having been written." (2.s.44-48)

Perfect cerund cümlədə əsas məna daşıyan feilin göstərdiyi hərəkətdən əvvəl icra olunmuş hərəkəti göstərir:

She denies her having spoken with them – O, onlarla danışdığını danır.

Cerundun inkar forması **not** inkar sözü vasitəsilə əmələ gəlir: not writing, not having written.

**E.Haugen "The analyse of indiguistic horriwing".Lang", 1950.Haugen Cerundun cümlədə vəzifəsi ( The Functions of the Gerund in the Sentence)haqqında qeyd edir:"**

Cerund cümlədə aşağdakı funksiyalarda çıxış edə bilər.

1.Mübtəda funksiyasında.Məs:Talking with you is a real pleasure – Sənlə danışmaq həqiqətən ləzzətdir.

2. Mürəkkəb ismi xəbərin ad hissəsi funksiyasında.Məs:Our aim is mastering English – Məqsədimiz ingilis dilinə yiyələnməkdir.

3. Mürəkkəb feili xəbərin bir hissəsi funksiyasında.Məs:The teacher stopped reading when the dean entered the room

Dekan otağa daxil olanda müəllim oxunu dayandırdı4. Tamamlıq funksiyasında.Məs:He insisted on my going there – O, oraya getməyi təkid edirdi.

5. Təyin funksiyasında həmişə **of** sözönu ilə işlədilir:

I don’t like the idea of going there – Ora getmək fikri xoşuma gəlmir.

6. Zərflik funksiyasında cerund həmişə **after, in spite of, before, on (upon), in,at, by,for, without, owing to** sözönlükləri ilə işlədilir.

Məs: On hearing a short report she immediately left the room ( zaman zərfliyi)

Güllə səsini eşidən kimi onlar dərhal otağı tərk etdilər. .(3.s.33-39)

**Gerund və məsdər (Gerund and indefinite)**

Cerund məsdərə nisbətən ümumi, mücərrəd xarakterə malikdir.

Məs:He likes reading. He does not like to read today.

Cerunda mübtədanın göstərdiyi icraçıya aid olmaqdan başqa digər bir icraçıya da aid ola bilər, məsdər isə cümlədə mübtədaya aid olur.

Bir sıra feillər və söz qrupları var ki, onlar həm cerund, həm də məsdərlə işlədilə bilər. Belə feil və söz qruplarının ən çox işlədilənləri aşağdakılardır:

**To be afraid, to begin, to cease, to hate, to continue, can (cannot),to forgot, to like (dislike), to fear, to prefer, to remember, to start, to stop, to dread.**

At last he began to speak – Nəhayət o, danışmağa başladı.

He began speaking again – O, yenə də danışmağa başladı.

Bu məqalədə bizim məqsədimiz həmçinin **silent** sifəti və onun sinonimləri vasitəsilə əmələ gələn söz birləşmələrini İngilis və Azərbaycan dillərində müqayisəli – semantik təhlilini təqdim etmək, onlar ararsında oxşar və fərqli cəhətləri aşkara çıxarmaqdan ibarətdir.

**Horn P. “crungries der neupersisielie etimologie”, “Strasbourg”,1993.Müəllif yazır:** Ingilis dilində **sakit** mənasını ifadə edən “ silent “ sifəti müxtəlif məna çalarlarına malik olduğu kimi “ sakit “ anlayışlı sifətlər də başqa isimlərlə birləşərək müxtəlif məna ifadə etməklə dilə rəngarənglik gətirir və onun leksik-semantik və üslubi imkanlarini genişləndirir, bədii ifadə vasitələrini rəngarəngləşdirir. “Silent “ sifəti “man” – adam, “ person” – şəxs və müxtəlif şəxs əvəzlikləri ilə birləşərək, haqqında danışılan şəxsin “ **sakit” , “dinc” , “dinməz”, “ fağır**” kimi cizgilərini üzə çıxarır. Məsələn:1) He began to climb the badder and the silent soldier his stengun... Luige was silent and forgot for a while be a film manBut this evening she was silent for a moment. But he was silent. ( carter D)”., (4.s.41-44)

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də “sakit” sifəti şəxs adları bildirən xüsusi isimlərə birləşərək, birləşmə daxilində adamın “sakit” , “dinc” və s. Oldugu bildirir. Məsələn: Bu səs işçilərin qulağında bir top mərmisi kimi partladı: hər kəs sakit gənc Məhərrəmi dinləməyə başladı.

Ingilis dilində olduğu kimi, Azırbaycan dilində “sakit” sifəti “heyvan” anlayışını bildirən isimlərlə birləşərək, sakit, dinc mənasını anladır. Məsələn:

1)Axı mənim ulağım sakit ulağdır

2) Əlimi atın hər tərəfinə gəzdirdim, at sakit idi, amma elə ki, əlim atın quyrugunun altına toxundu, heyvan çırpındıIngilis dilində olduğu kimi Azərbaycan

dilində də adamın dinc sakit olmasını ifadə etmək üçün “quzu kimi”, “dilsiz – ağızsız” kimi metaforik birləşmələrdən istifadə olunur. Məsələn:The younger knights told eachoyher with their eyes in silent correspondence

.**R.C.Cəfərov:”Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər”, Bakı, 2001.**Müəllif Rəfiq Cəfərov yazır:”Azərbaycan dilində isə adamın öz fikirlərini danışmadan, pünhan işarə ilə bir-birinə çatdırmaqları “sakit” sifətinin sinonimi “dinməz”,”səssiz-səmirsiz”, “lal” sifətləri vasitəsilə ifadə olunur: məsələn:Lal baxışlar toqquşanda elə bil ildırım çaxdı. “Silent” sifəti “house”, “church”, “wood”, “lake”, “room” və s. Cansızlıq bildirən konkret isimlərlə birləşərək, müəyyən bir məkanın sakit, kimsəsiz olduğunu ifadə edir. The wood was silent and empty Ingilis dilində olduğu kimi Azərbaycan dilində də “**sakit” “səssiz” sifəti “bina” “tarla”, “küçə”, “meşə”, “çöl**” və s. Isimlərlə birləşərək, olarda sakitliyin hökm sürdüyünü, kimsəsizliyi ifadə edir.”(5.s.16-26)

Məsələn: Qəza şəhərinin küçələri sakit və boş idi. Beləliklə, yuxarıda müqayisə olunan nümunələrə əsasən deyə bilərik ki, hər iki dildə təhlil olunan “ sakit” sifətləri çox mənalıdır və bunlar birləşmə daxilində semantik valentliyə uyğun müxtəlif məna ifadə edirlər.

Araşdırmalar göstərir ki, ingilis dilində “sakit” mənasını “silent” sifətilə yanaşı, “still”, “quiet”, “motiolles” və s. Sifətləri ifadə edir. Fikri daha rəngarəng , dəqiq və sahmanlı ifadə etmək üçün ingilis dilində sinonim sözlərdən istifadə olunduğu kimi, Azərbaycan dilində də “sakit” sifətinin sinonimlərindən ( “dinc” “fəqir” “səssiz” “lal” “ölgün” “ hərəkətsiz” və s.

Ingilis və Azərbaycan dillərində “sakit” mənasını ifadə edən sifətlərlə əmələ gələn söz birləşmələri təhlil edilərkən onların arasında həm oxşar, həm də fərqli cəhətlərə təsadüf olunur. Bu fərqli və oxşar cəhətləri aparılan təhlillərdən və aşağıda verilmiş cədvəldən aydın görmək olar:

1.Semantik quruluşu və birləşmə qabiliyyətinə görə müqayisə olunan sifətlər arasında həm ümumi, oxşar, həm də fərqli cəhətlər özünü göstərir.

2. Müxtəlif söz birləşmələrində İngilis dilində “silent” və Azərbaycan dilində “sakit” sifətləri nitqdə daha çox işlədilir, halbuki onların sinonimləri haqqında bu sözləri demək olmaz. Hər iki sifət sinonimlik cərgədə dominantliq təşkil edir və çoxmənalı leksik vahid kimi çıxış edir.

**H.Ə.Həsənov: “ Müasir Azərbaycan dilinin leksikası”, Bakı, 1978, ADU**.H.Həsənov yazır:

“İngilis dilində “silent” sifətinin çoxmənalılığı Azərbaycan dilindəki “sakit” sifətinə nisbətən daha genişdir. Böyük Oksford lüğətində “silent” sifətinin 5 mənası verilir. Lakin bizim bədii ədəbiyyatdan götürdüyümüz nümunələrə əsasən demək olar ki, “silent” sifəti quruluşuna görə birləşmə daxilində 7 mənada, “sakit” sifəti isə 3 mənada çıxış edir.

Azərbaycan dilində işlədilən “sakit” sifətinin ekvivalentlərini birləşmə sahəsi, ingilis dilində işlədilən “silent” sifətinin ekvivalentlərinin birləşmə sahəsinə nisbətən

genişdir. Burada sahə daxilində qarşılıqlı kompensasiya qanuni işə düşmüş olur".(6.s.123-132)

Azərbaycan dilində işlədilən "sakit" sifəti semantik quruluşuna görə ingilis dilində işlədilən "silent" sifətinin semantik quruluşu ilə tamamilə müqayisə oluna biləndir. Başqa sözlə birləşmə daxilində hər iki sifət müqayisəli şəkildə qarşılaşdırıla bilən ümumi və fərqli əlamətlər kəsb edir.

İngilis dilində işlədilən "silent" sifətinin ifadə etdiyi rəngarəng məna çalarları Azərbaycan dilində "sakit" sifətindən savayı digər eyni və yaxud da leksik-semantik qrupa daxil olan digər sifətlərlə ifadə olunur, -yəni:

1)Lal və hərəkətsiz sifəti ( sakit-dinməz canilər lal və hərəkətsidirlər )

2) "Quzu kimi" söz birləşmələri ( sakit adam haqda quzu kimi adam , quzu kimi uşaq )

3) "Dilsiz –ağızsız" sifəti ( sakit-sakit haqda, dilsiz- ağızsız uşaq və s.)

**Cerund və feili sifət (Gerund and Participle)**

Cerundu feili sifətdən fərqləndirən cəhətlər aşağdakılardır:

1. Cerund sözönü ilə işlədilir.
2. Cerund yiyəlik halda isim və yiyəlik əvəzlikləri ilə təyin edilir.
3. Cerund mübtəda, tamamlıq və predikativ vəzifəsində olur.

4.Zərflik və təyin vəzifəsində həm feili sifət, həm də cerund işlədilir, lakin bu halda

**O. Musayevin "İngilis dilinin qramatikası**" kitabında işlədilmiş terminlər cerund-məsdər tərkibi, mübtəda məsdər tərkibi və "for" sözönü məsdər tərkibləri həm sintaktik, həm də semantik baxımdan daha məqsədəuyğundur.

Müasir ingilis dilində bəzi təsirli feillərdən sonra ümumi halda olan isim (yaxud obyekt halda olan əvəzlik) və məsdərdən ibarət olan birləşmə işlədilir və bu növ birləşmələrə "tamamlıq məsdər tərkibi" (the objevtive with the Infinitive construction) deyilir. Məsələn:" I saw Jane (her) enter the room**."(7.s.77-82)**

Bu tərkibdə işlədilən isim (yaxud əvəzlik ilə məsdər arasındakı münasibət cümələnin mübtədası ilə xəbəri arasındakı münasibəti xatırladır.Buna görə də, həmin tərkibə isim, yaxud əvəzliyi ikinci dərəcəli mübtəda (a secondary subject) məsdər isə ikinci dərəcəli xəbər (a secundary preducate) adlandırmaq olar.

Cerund məsdər tərkibində mövcud olan iki komponent bir-biri ilə sıx əlaqəyə girir və sintaktik vahid tamamlıq olur.

## ƏDƏBİYYAT:

1.N.Xudiyev: "Azərbaycan dilinin lüğət tərkibinin zənginləşmə yolları"1963 .səh:56.

2.A.Qarayev: "Müasir Azərbaycan dilində Avropa mənşəli alınmalar.1972.səh:44-48

3.E.Haugen "The analyse of indiguistic horriwing".Lang", 1950.s.33-39

4.Horn P. "crungries der neupersisielie etimologie", "Strasbourg",1993.s.41-44

5.R.C.Cəfərov:"Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər", Bakı, 2001..s.16-26.

6.H.Ə.Həsənov: " Müasir Azərbaycan dilinin leksikası", Bakı, 1978, ADU.s.123-132.

7. O. Musayevin "İngilis dilinin qramatikası"Bakı."Elm"nəşr.1987.s.77-82.

**И.Велиева,К.Кусейнова**

## ГЛАГОЛ-СУЩЕСТВИТЕЛЬНЫЕ ХАРАКТЕРИСТИКИ ГЕРУНДИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ И ПРИЕМЛЕМЫЕ ЭКВИВАЛЕНТЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

### РЕЗЮМЕ

В статье рассматриваются употребление Cerunda в английском языке и его эквиваленты в азербайджанском языке, а также анализируются некоторые форм Cerunda в простых и сложных предложениях в разных ситуациях.

В данной статье нашей целью является также представить сравнительно-семантический анализ словосочетаний **silent**, образованных через прилагательное молчание и его синонимы в английском и азербайджанском языках, выявить сходства и различия между ними.

Одной из личных форм глагола является герундий. Герундий — это часть речи, уникальная для английского языка. Ни другие языки германской группы, ни индоевропейские языки не имеют соответствующей части речи в герундии. Герундий, как и инфинитив, имеет двойной характер. Он имеет свойства как глагола, так и существительного. В отличие от инфинитива герундий имеет оттенки непрерывности.

Герундий образуется прибавлением окончания -ing к концу инфинитива (неправильное). Глагол герундия по форме конструкции не отличается от прилагательного (отец). По своим основным глагольным характеристикам глагол cernd соответствует характеристикам прилагательного и инфинитива. По своим именным признакам герундий соответствует инфинитиву.

**Ключевые слова: английский язык. глагольные формы, глагольная связка, азербайджанский язык, инфинитив**

**I.Velieva,K.Kuseynova**

## VERB-NOUN CHARACTERISTICS OF THE GERUND IN ENGLISH AND ACCEPTABLE EQUIVALENTS IN AZERBAIJAN LANGUAGE

### SUMMARY

The article speaks about the use of the Gerund in English and its equivalent in Azerbaijani, also analyses some forms of Gerund in simple and complex sentences in various situation/

In this article, our goal is also to present a comparative semantic analysis of word combinations silent, formed through the adjective silence and its synonyms in English and Azerbaijani languages, to identify similarities and differences between them. One of the personal forms of the verb is the gerund .

The gerund is a part of speech unique to the English language. Neither the other languages of the Germanic group nor the Indo-European languages have a corresponding part of speech in the gerund. The gerund, like the infinitive, has a dual character. It has both verb and noun properties. Unlike the infinitive, the gerund has shades of continuity.

The gerund is formed by adding the ending -ing to the end of the infinitive (incorrect). The verb gerund does not differ from the adjective (father) in its form of construction. According to its main verbal characteristics, the verb cernd corresponds to the characteristics of the adjective and the infinitive. Gerunds correspond to infinitives according to their nominal characteristics.

**Key words: English language. verb forms, verb binding, Azerbaijani language, infinitive.**

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur**

**LEYLA VƏLI QIZI QOCAYEVA**
**DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA**
Azərbaycan Tibb Universiteti,
filologiya iizrə fəlsəfə doktorları,dosent

***qocaleyla511@gmail.com***

# METAFORİKLƏŞMƏ PROSESİ VƏ BU PROSESƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

**Açar sözlər:** *metaforikləşmə hadisəsi, qiymətli metal adları, heyvan və quş adlan, fəsil adları, göy cisimlərinin adları.*

***Ключевые слова****: явление метафоризации, названия ценных металлов, названия животных и птиц, названия времён года, названия объектов растительного мира.*

**Key words:** *the event of métaphorisation, names of precious metals, names of animais and birds, names ofseasons, names of celestial bodies.*

Metaforikləşmə linqvistik hadisələrdən biridir. Bu hadisə sözün semantikasından irəli gələn bir hadisədir. Metoforikləşmə həmişə obrazlılığa meyl göstərən insan düşüncəsinin məhsuludur, bədii dilin mühüm kateqoriyalarından sayılır. Bu hadisə nəticəsində dilin ifadəlilik imkanları artır, lüğət tərkibi çoxalır. Sözün dominant mənasından əmələ gələn metoforikləşmə hadisəsi sonsuz sayda assosiativ əlaqələrin qurulmasına imkan yaradır. Metafora insan düşüncəsidir. Anlayışlararası əlaqədə çox zaman metaforlar “gizli" şəkildə mövcud olur. Bu yolla formalaşan obraz fikrin mühüm forması kimi çıxış edir; daim dildə reallaşır. Obraz-hərəkətin semantik pilləsidir. T.Əfəndiyeva yazır ki, metaforikləşmə prosesi dildə ayrı-ayrı leksik vahidlərin məcazlaşması ilə kifayətlənmir. Müxtəlif sözlərin birləşməsi nəticəsində də metafora əmələ gəlir. Bu cür metoforlar mürəkkəb struktura malik olduğuna görə metaforik birləşmə adlanır. (1. 97)

Metafora funksiyasında Azərbaycan dilinin söz varlığı kifayət qədər material verir. Bu proses həm danışıq dilində, həm də bədii əsərlərdə işlənir. Amma Azərbaycan dilinin izahlı lüğətlərində metaforikləşmə prosesində müəyyən tematik qruplar diqqəti cəlb edir. Bu qruplar leksik-semantik qruplardır. Leksik-semantik bölgüdə metaforikləşməyə məruz qalan heyvan, quş və həşarat adları; bitki, meyvə və ağac adları; qiymətli mineral və metal adları; ilin fəsillərini ifadə edən adlar təhlil üçün əsas götürülür. Tədqiqatımızın obyekti sözügedən lüğətdə həmin sahələrlə əlaqədar sözlərin yaratdığı metoforikləşmiş mən onun əks olunması hadisəsidir.

I. Heyvan, quş və həşarat adları: dovşan, dovdaq, əqrəb və s.

Məlumdur ki, dovşan gəmiricilər dəstəsindən qabaq ayaqları dal ayaqlarından qısa, uzun və dik qulaqlı, dodağı yarıq kiçik heyvandır. Azərbaycan dilinin izahlı lüğətində dovşan sözü metoforikləşmiş anlamda qorxaq, cəsarətsiz

adam haqqında göstərilmişdir. Lüğətdə I tərəfi dovşan sözü ilə yaranmış dovşan bığı (xeyrə-şərə yaramayan adam haqqında), dovşan qulağı (dik duran şey haqqında: Toybəyi bığlarını dovşan qulağına döndərmişdir. M.Cəlal); dovşan yuxusu (qısa, lakin bərk yuxu, dərin yuxu), dovşan ürəkli (ürəksiz, cürətsiz, qorxaq) dovşana qaç, tazıya tut demək (ikiüzlülük etmək), dovşanı araba ilə tutmaq (bir şeyi üsulluca, tələsmlədən. səbirlə, ustalıqla əldə etməyə çalışmaq). (ADİL, II, 1980,123). Göründüyü kimi, lüğətdə dovşan sözünün həqiqi mənası ilə birlikdə, onun insanların üzərinə köçürülmüş mənasına da ayrıca yer ayrılmışdır. Bu lüğətin əhəmiyyəti orasındadır ki, həmin sözlə (dovşan) bağlı obrazlı ifadələr də verilmiş və onların da metoforik mənaları qeyd edilmişdir. Dovdaq zooloji termindir. Leylək fasiləsindən əti yeyilən iri çöl quşudur. Sözün metaforik mənası- çox asan aldadıla bilən, uzağı görməyən, dardüşüncəli adam haqqında (Dovdaq adamı aldatmaq asandır) deyilir (ADİL, II, 1980, 123). Hər iki ad (dovşan, dovdaq) ilə yaranan metaforlar qiymətverici emosional- ekspessiv xüsusiyyət daşıyır. Dilimizdəki "əqrəb" sözündə də qiymətvericilik keyfiyyəti qabarıqdır. Ərəb mənşəli bu zooloji termin olan və həqiqi mənasında "quyruğunun ucunda zəhərli iynəsi olan onurğasız həşərat" - metaforikləşərək "gizlindən pislik edən müzür adam barədə söylənilir". Sən ki bir əqrəb imişsən, görcək; Bu zəhərlər, bu tikanlar nə demək. H.Cavid. Basma ayağını bizim torpağa; İlandan, əqrəbdən yara ola bilməz. S.Vurğun (ADİL, II, 1980, 230)

II. Bitki, meyvə, ağac və tərəvəz adları: Tumurcuq, turp, turşəng, turşu və s. Lüğətdə tumurcuq sözünün həqiqi mənada gül, yarpaq və ya zoğun rüşeymi anlamı göstərilmişdir. Ağacların tumurcuqları açılıb, yarpaq olmuşdu. B. Bayramov. (ADİL, IV, 1987,211). Bu söz düzəltmə yolla isimdən felə çevrilərkən metaforikləşmiş mənanı da özündə ehtiva etmişdir. Yəni tumurcuqlanmaq feili poetik dildə metaforikləşərək obrazlı təəssürat, bədii detal yarada bilmişdir. Məsələn: Sıxdımı, dost kimi əlimi bahar; Qəlbimdə arzular tumurcuqlanar (S.Rüstəm). Misradakı "tumurcuqlanar" əmələ gəlmək, doğmaq, yetişmək, çiçək açmaq mənasında metaforikləşmişdir.

Bəzi tərəvəz adları frazeoloji ifadənin tərkibində metaforikloşmiş duruma düşür. Məsələn, turp sözü qalın kökü-başı olan birillik bostan bitkisi-tərəvəz növüdür. Bu bitki-tərəvəz adı "başına turp əkmək" (çox incitmək, bərk cəzalandırmaq, əziyyət vermək), "yurdunda (yerində) turp əkmək (xaraba qoymaq, viran qoymaq, dağıtmaq)" kimi metaforikləşmiş mənalarda işlədilir. Xan yanında nökərəm, işim yoxdur, bekaram; Töycünü gətirməsən; Başında turp əkərəm (Bayatı), Ağaxan bəy sənin yurdunda... Bir yekə turp əkəcəkdir. S.Rəhimov (ADİL, IV. 1987, 212). Bəzi göyərti adları və onların xassələri həmin adların terminoloji yöndə metaforaya çevrildiyini fakt kimi göstərir. Məsələn: "Turşəng" sözünü götürək. Fars mənşəli bu söz turş olan, uzunsov yarpaqları olan yeyilən göyərtidir. Kimyada-rəngsiz kristallar şəklində olan üzvü birləşmə (kimya və toxuculuq sənayesində işlədilir) "turşəng turşusu" adlanır. (ADİL, IV, 1987,212). Kimyada "turşu" termini də motivləşərək adətən turş olan hər hansı bir kimyəvi birləşmə (sulfat turşusu, turşu

oksidi, yağ turşusu və s.) adı kimi istifadə olunur. Belə terminoloji motivləşmə (metaforikləşmə mənasında) "turş sular" (tərkibində karbon turşusu olan müalicəvi (mədən) suları) birləşməsini də əmələ gətirmişdir.

III. Qiymətli metal adları: mərmər, mərcan, sədəf, gümüş və s.

"Azərbaycan dilinin izahlı lüğətf'ndə "mərmər" sözünün latın mənşəli (marmar) olduğu və 1-ci mənada heykəltəraşlıqda və memarlıqda işlənən müxtəlif rəngli kristallıq dağ süxuru- kirəc daşı (ağ mərmər, qara mərmər) mənasında işləndiyi qeyd olunub. Lüğətdə verilmiş başqa mənalar "mərmər" sözünün epitet (bədii təyin) kimi (mərmər sinə, mərmər üz, mərmər bədən və s.) metaforikləşməsi göstərilmişdir. Mərmər kimi ağ, hamar, parlaq. Mənnər üz. Mərməz bədən. - Əziziyəm bağ sinə; Səyyad keçər dağ sinə; Baxdım, huşum apardı; Mərmər buxaq, ağ sinə (Bayatı). Zoologiyada terminoloji birləşmə tərkibində "mərmər" sözü motivləşir. Məsələn: "Mərmər xur- yeyilən xul balığ növlərindən biri. Mərmər xul - başının qalınlığı hündürlüyündən azdır. Çənələri eyni uzunluğundadır. (ADİL, *III,* 1983, 300). Mərcan sözü ilə əlaqədar metaforlar yalnız müsbət eksperessivlik yaradır. Azərbaycan dilinin izahlı lüğətində mərcan sözünün obrazlı təşbehlərdə al-qırmızı mənasında işləndiyi vurğulanır. Məsələn: Yüz lalə yanaqlı ləbləri mərcan; Könül dönməz səndən kimsəyə, Pəri (M.P.Vaqif).Metaforikləşməyə meyilli olan qiymətli əşya adlarından biri də "Sədəf' sözüdür. "Bəzi balıqqulağıların iç qatını təşkil edən və müxtəlif bəzək şeyləri hazırlamaq üçün istifadə edilən, müxtəlif rənglərə çalan parlaq bərk maddə metaforikləşərək öz parlağlığı, zərifliyi, zənginliyi, zənginin saflığı ilə sədəfi xatırladan (bəzən obrazlı təşbehlərdə işlənir) mənasını ifadə edir. Məsələn: Bir şirin koftalı, bir şəkər sözlü; Ağzı sədəf, dişi dürdanədəndir. (M.V.Vidadi), Sədəf dəhanından çıxan sözlərin; Hər biri qeyri-xəzaııədəndir (M.P.Vaqif), "Sədəf' sözü "sədəf saçmaq" (səpmək) birləşməsində məcazlaşaraq nur saçmaq, işıqlandırmaq, parıldatmaq mənalarında motivləşir. Məsələn: Gündüz yağan qar toxtamış, ay aləmə sədəf saçırdı. (ADİL. IV, 1987, 50)."Gümüş" - nəcib metal adının metoforikləşməsi dilimizin izahlı lüğətində aşağıdakı cümlələrin içərisində göstərilmişdir: Dərələrdən gümüş sular çağlar (A.Şaiq), Ay gümüş dalğalarda; Nazlanır gəmi kimi (N.Rəfibəyli).

IV. Fəsil adları: yay, payız, bahar, qış, yaz və s. Qeyd olunan ilin fəsil adları poetik mətnlərdə metaforikləşir. Bu adlar semiotik mənalar qazanır, insanın sevincini, azadlığını, xoşbəxtliyini, gənclik, qocalıq anlarını tərənnüm edir. Azərbaycan dilinin izahlı lüğətində fəsil adları rəngarəng çalarlarda mctoforik məzmun qazanır. Məsələn:Bahar ömrüm çiçəkləndi bir zaman. İllər sorağını haradan aldı? (Ş.İsmayıl) Payız dərdim, yaz möhnətim, yay qəmim (Aşıq Alı)

V. Günün vaxtım bildirən adlar: gün, gündüz, gecə, səhər, axşam və s. Sən mənim gündüzüm, sən mənim gecəm, Niyə bu günlərdə küsmüsən gülüm? (Ş.İsmayıl) Mənim səhərim, mənim axşamım, həyatın şirin anlarını yalnız səninlə yaşamaq istədim. (Ə.Vəliyev)

VI. Göy cisimlərinin adları: ay, günəş, ulduz və s. Planet sisteminin işıq

və istilik verən, közərmiş böyük şar şəklində olan mərkəzi göy cismi-günəş metaforikləşən obrazlı ifadələrdən biridir. Günəş bədii əsərlərdə gözəllik, ülvilik və dahiliyin simvolu kimi işlədilir. Azərbaycan dilinin izahlı lüğətində günəş sözünün klassik şeirdə və folklarda bənzətmə kimi işlədildiyi qeyd olunur. Klassik şeirdə və folklarda gözəlin sifəti günəşə bənzədilir (adətən tərkiblərdə işlədilir). Gür; - camalısan, gül yanaq ilən; Mən incəlib yengi aya dönmüşəm. (M.P.Vaqif) Qurban olum nazlı varın özünə; Günəş camalına, göyçək üzünə.(R. Rza). Günəş sözü feili birləşmələrdə metaforik mənalar qazanır. Məsələ.-.: günəş batmaq- süqut etmək, əvvəlki şan-şöhrətini itirmək inkişafında: qalmaq. Günəş gülmək (gülümsəmək) və s. sevinmək, çəməndə; seyrar.; çıxıb dadğa, çəməndə; Güldükcə günəş mən də gülərdim (H.Cavid). Təbiət dirçəldi həyacana gəldi; Günəş gülümsündü dağlar başınd..- (B.Vahabzadə). ''Günəş'' sözü - li şəkilçili sifətlə işlənərək məcaziləşir, xoşbəxt sevincli, fərəhli, işıqlı mənasında işlənir. Məsələn: Günəşli tale - Beşilliklər günəşli, xoşbəxt bir gələcəkdir. Ə.Cəmil. (ADİL, III, 1983 215). Öz təbiəti etibarilə günəşə bənzəyən və gecələr göydə parıldayara. nöqtə kimi görünən göy cismi olan ‘*ulduz"un metaforik mənas, sözügedən lüğətdə aşağıdakı kimi əks olunmuşdur:1) Hər hansı bir sahədə məşhur, tanınmış şəxs haqqında. Eln: aləminin məşhur ulduzları. Kino ulduzu (ən məşhur kinoartist). Futboi ulduzu. 2). Qüvvətli bədii təsir vasitəsi kimi.Təşbehlərdə parlayan şey haqqında. Araz öz adını elə cəsarətlə dedi ki, fəhlələrin gözləri onun ulduz kimi yanan parlaq gözlərinə dikildi. A.Şaiq (ADİL, 1987,IV,231).

VII. “Dünya” sözünün sinonimləri metaforikləşir: Cahan, aləm. Mən cahan mülkündə mütləq doğru halət görmədim. Hər nə gördüm əyri gördüm, özgə babət görmədim. (M.P.Vaqif). Aləm yığılsa da, şahin qızma əncam çəkilmədi. (Nağıllardan)

VIII. Qiymətli parça adları metaforikləşir: məxmər, ipək, atlas və s.Tut yarpaqları ilə bəslənən barama qurdlarının əmələ gətirdiyi çox incə və parlaq tellər bu tellərdən toxunan qiymətli parça - ipək sözü dildə metaforikləşərək sifət mənasında, eləcə də çox incə parlaq, yumşaq; mülayim, xoşrəftarh mənalarında məcaziləşir: İpək kimi saçları var. Tüklərin də ipək kimi parlaq; Bədnəzərdən vücudun olsun iraq. (M.Ə.Sabir)

IX. Dini- əsatiri məfhumları bildirən sözlər metaforikləşir: şeytan, mələk, və s.

Bu qəbildən olan sözlər, məsələn, mələk sözü metaforikləşərək çox gözəl və ya məsum, xasiyyət adam haqqında deyilir. Çöllər, təpələr doldu; şən üzlü mələklərdə. A.Şaiq (ADİL, III, 1983, 289).

Beləliklə, Azərbaycan dilinin, izahlı lüğətlərində (4 cilddə) metaforikləşmə hadisəsi də geniş şəkildə öz əksini tapmışdır. Metaforikləşmə prosesində heyvan, quş və həşarat adlan; bitki, meyvə, ağac və tərəvəz adları; qiymətli metal adlan; fəsil adlan, günün vaxtını bildirən adlar; göy cisimlərinin adlan, “dünya” sözünün sinonimləri; qiymətli parça adları, dinin əsatiri anlayışlannı bildirən sözlər və s. fəal

rol oynayır.

**Ədəbiyyat**

1. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. (bədii üslub). Bakı, “Elm” nəşriyyatı, 1980.
2.ADİL - Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı. “Elm” nəşriyyatı, 1980
3.ADİL - Azərbaycan dilinin izahlı lüğəti III cild, Bakı, “Elm” nəşriyyatı, 1983
4. ADİL - Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, “Elm” nəşriyyatı, 1987
5.M.P.Vaqif. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2004. 269 s.
6. B.Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə. Bakı, “Öndər”nəşriyyatı, 2004, s.328

Leyla Qocayeva

**Процесс метафоризации и факторы, влияющие на этот процесс**

**Xülasə**

Metoforikləşmə təfəkkür mexanizminə aid olduğundan insanların hadisə və predmetlərə yanaşma tərzini özündə əks etdirir və hədəf obyektlərin mahiyyətinə qədər nüfuz edir. Bu da həmin prosesin təbiətindən irəli gəlir: əgər insanda müqayisə olunan və müqayisə edilən haqqında semantik sintez səviyyəsinə qədər bilik olmasa, metoforikləşmə prosesi də baş tuta bilməz. Məqalədə metaforalaşma hadisəsinin mahiyyətini, onun əsas xüsusiyyətlərini müəyyənləşdirmək və təhlil etmək məqsədilə 4 cildlik Azərbaycan dilinin izahlı lüğətindən istifadə edilmişdir. 9 qrupa münasibətdə dil tərkibinin linqvistik mahiyyəti, lüğət tərkibinin zənginləşdirilməsi və obrazlılığın bərpasının xüsusiyyətləri və xüsusiyyətləri təhlil edilmiş və izah edilmişdir.

**Лейла Годжаева**
**Дурдана Нагиева**

**Отражение процесса метафоризации в толковом словаре азербайджанского языка**

**Резюме**

В статье в целях выявления и анализа сущности явления метафоризации, её основных признаков был использован толковый словарь азербайджанского языка в 4-х томах. Лингвистическая природа, особенности и свойства словарного обогащения языкового состава и воспроизведения образности были проанализированы и разъяснены относительно 9 групп. Поскольку метафоризация связана с механизмом мышления, она отражает способ подхода людей к событиям и объектам и проникает в сущность изучаемых объектов. Это связано с характером этого процесса: если у человека нет знаний о сопоставляемом и сопоставляемом на уровне семантического синтеза, не может происходить и процесс метафоризации.

**Leyla Gojayeva**
**Durdana Nagiyeva**

**Process of metaphorization and factors affecting this process**

**Summary**

The author of the article has applied to the four volume explanatory dictionary of the Azerbaijani language for the purpose of analysis of essence and main indications of the event of métaphorisation. Linguistic feature and peculiarities of this process in enrichment of vocabulary and creation of figurativeness in the language are explained according to 9 groups. Since metaphorization is related to the mechanism of thinking, it reflects the way people approach events and objects and penetrates to the essence of the target objects. This is due to the nature of that process: if a person does not have knowledge about the comparable and the compared to the level of semantic synthesis, the process of metaphorization cannot take place either.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: f.ü.f.d., dos.P.Ə.Əzizova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAMARA ŞƏRBƏT QIZI ƏLİZADƏ**
**ATU-nun müəllimi**
**tamara.alizade.60@mail.ru**

# QƏDİM ABİDƏMİZ – “KİTABİ-DƏDƏ QORQUD”UN DİLİNƏ DAİR

**Açar sözlər:** Dədə Qorqud, dastan, türk dünyası, dil xüsusiyyətləri, fonetik səviyyə, feillər.

**Key words:** Dede Gorgud, epic, Turkic world, language features, phonetic level, verbs.

**Ключевые слова:** Деде Горгуд, эпос, тюркский мир, особенности языка, фонетический уровень, глаголы.

Bəlli olduğu kimi, qədim abidəmiz olan “Kitabi-Dədə Qorqudun 1300 illiyi yüksək səviyyədə təşkil edildi. Nəticə olaraq dilimizin bu böyük abidəsi geniş, əhatəli tədqiqata cəlb edildi. Ağamusa Axundovun redaktorluğu ilə 2400-ə yaxın sözü əhatə edən “Kitabi-Dədə Qorqud”un dilinin izahlı lüğəti” işıq üzü gördü. “Kitabi Dədə Qorqud”un statistik təhlili” kitabında on minə yaxın söz-formanı əhatə edən tezlik lüğəti, əlifba tezlik siyahısı, həmçinin əks əlifba siyahısı yer almışdır. Adil Babayev üçüncü əlyazmanın tapılması və Azərbaycan türkcəsinə çevrilməsi ilə bağlı bir neçə cəhəti qeyd edir:

1. Üçüncü əlyazma əvvəlkiləri təkrar etmədən onları tamamlayır.
2. Obrazların xarakteri və fəaliyyət istiqamətləri bir-birindən fərqlənmir. Bu o deməkdir ki, üçüncü katib həm yaşadığı yer, həm milli mənsubiyyət cəhətdən əvvəlki katiblərin yanındadır.
3. Əsərin dili əvvəlki nüsxələrin dili ilə eynidir.
4. Əsərin mənsub olduğu coğrafiya bir daha sübut edir ki, bu əlyazma da məhz Azərbaycanda baş verən hadisələri, Azərbaycan türkcəsində təqdim etməklə onun vətəninin Azərbaycan olduğunu sübut edir.
5. Əsərin dili isə heç şübhəsiz ki, türk dil ailəsinin Oğuz qrupunun Oğuz-Səlcuq yarımqrupuna və yarım qrupa daxil olan Azərbaycan türkcəsinə aiddir (2, 18).

“Dastan” ədəbiyyat tariximizin qədim yazılı abidəsi olmaqla yanaşı, həm də dilimizin xüsusiyyətlərinin ifadə edildiyi qiymətli mənbədir. Burada elə dil faktlarını müşahidə edirik ki, həmin faktlara digər türk dillərində rast gəlmirik və həmin faktlar Azərbaycan dilinin dialekt və şivələrində izlənilir. “Kitabi-Dədə Qorqud”un dili üslubundan, sənətkarlıq xüsusiyyətindən asılı olmayaraq, sonrakı dövrlərdə canlı danışıq dili əsasında yaranmış nəsr əsərlərinin dilinin leksik, qrammatik dayağı olmuşdur. Zamanla bir sıra üslub fərqləri özünün göstərsə də, əsas dil faktlarının sabitliyi aydın müşahidə olunur. “Kitabi-Dədə Qorqud”da işlənmiş müxtəlif leksik, qrammatik xüsusiyyətlərin sonrakı dövr Azərbaycan nəsr əsərlərində ifadəsi - leksik, qrammatik varislik “Kitab-Dədə Qorqud”un Azərbaycan xalqına aidliyini və müasir

Azərbaycan dilinin əsas qaynaqlardan birinin "Kitabi-Dədə Qorqud" olduğunu bəlli edir. "Dastan"ın dilindəki leksik və qrammatik kateqoriyaların ayrıca olaraq araşdırılması tarixi leksikologiya, tarixi qrammatikanın bir sıra məsələlərinə aydınlıq gətirərkən çox vacibdir. "Danışıq dili xüsusiyyətlərini özündə əks etdirən hər hansı bir abidə dil tarixinin tədqiqi prosesində ən etibarlı və ən yararlı mənbə hesab olunur. Məhz bu düşüncələrdən çıxış edərək, yazılı dövrə qədər Azərbaycan dili tarixinin tədqiqi zamanı "Kitabi-Dədə Qorqud" dastanları Azərbaycan şifahi xalq ədəbiyyatının ilk nümunələrindən biri kimi şifahi ədəbi dilimizin yazıyaqədərki dövrünün araşdırılmasında mötəbər bir mənbə olaraq tədqiqata cəlb edilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanlarında Azərbaycan xalq danışıq dilinin ən kiçik fonetik ünsürlərindən tutmuş ən geniş mətnlərə qədər, xalq danışıq dili xüsusiyyətləri diqqəti çəkir" (6, 192).

"Kitabi-Dədə Qorqudun boylarının təhkiyə dili aydındır. Obrazların dili sadədir, səmimidir. İlk olaraq "Xanım hey!" müraciəti gəlir. Sonda isə Dədə Qorqud gəlir, boy boylayır, soy söyləyir, oğuznaməni düzüb-qoşur, igidlərə bəylik verir və s. Boyların əksəriyyəti Dədə Qorqudun xeyir-dua verdiyi bu sözlərlə bitir: "Qarlı qara dağların yıxılmasın! Kölgəlicə qaba ağacın kəsilməsin! Qamən axan görklü suyun qurumasın! Qanatların ucu qırılmasın! Çaparkən ağ-boz atın büdrəməsin! Çalışanda qara polad üz qılıncın kütəlməsin! Haqq yandıran çrağın yana dursun!" (5, 27)

"Kitabi-Dədə Qorqud"un dili, üslubu, poetikası haqqında Əbdüləzəl Dəmirçizadə, Samət Əlizadə, Fərhad Zeynalov, Tofiq Hacıyev, Nizami Cəfərov, Kamal Abdulla, Əzizxan Tanrıverdi və digər alimlərimiz bəhs etmişlər. Buna baxmayaraq "Dastan"ı daha diqqətlə araşdırarkən aydın olur ki, boyların bir sıra dil xüsusiyyətlərini, o cümlədən sənətkarlıq xüsusiyyətlərini araşdırmağa hələ də ehtiyac vardır. "Dastan"da işlınmiş bədii təyin nümunələrinə baxaq: *Bir gün Qamğan oğlu* ***xan*** *Bayandır yerindən durmuşdu; Bəli,* ***xan*** *Qazan məsləhətdir* və s. Bundan başqa, çox işlənən bədii təyin nümunəri xeyli saydadır: *xan babam, qadın anam, alca qanım, al şərab, qara ölüm, qara bağrım, ağ əllər, qazlıq atım, bədöy at, bol xəzinə.* Qeyd edək ki, bu nümunələri iki sözlü (*qara qanlar, qara ölüm, ağ otaq, qara otaq, qırmızı otaq, ulu toy, acı sözlər)*, üç sözlü (*qırx incə belli qız, azğın dinli kafir, qara qıyma gözlər, ala gözlü gəlin* vəs. ), dörd sözlü (*boynu uzun bədöy at, altın başlı ban ev, at yeməyən acı otlar, qonağı gəlməyən qara evlər* və s.), beş sözlü (qoşa badam sığmayan dar ağızlım, güz almasına bənzər al yanaqlım, qurulu yaya bənzər çatma qaşlım) olaraq izləyirik.

Qeyd edək ki, saylarla ifadə edilən bənzətmələr də xeyli saydadır:

Bir bin ərdən yağı gördümsə, oyunum dedim,
Yikirmi bin ər yağı gördümsə, yılamadım.
Otuz bin ər yağı gördümsə, ota saydım.
Qırq bin ər yağı gördümsə, qıya baqdım.
Əlli binər gördümsə, əl vermədüm.
Altmış bin ər gördümsə, aytışmadım.

Səksən bin ər gördümsə, səksənmədim.
Toqsan bin ər gördünsə, tonatmadım
Yüzbin ər gördümsə, yüzim dönmədim (5, 117, 277).

Bu mətndə saylar çoxluq təşkil edir və ümumiyyətlə, bədii ifadə vasitəsi olaraq, saylardan istifadə şifahi xalq şeirimizdə geniş istifadə olunur. "Dastan poetikası" kitabında Kamil Vəliyev poetik sintaksis baxımından geniş elmi təhlil vermişdir. Burada boyların poetik biçimləri, paralelizm, bədii təyinlər mövzusunda təhlillər yer almışdır (7).

"Dədə Qorqud" : dilimiz, düşüncəmiz" əsərində akademik Tofiq Hacıyev yazırdı: "... dastanımızın sintaksisi XIV-XVI əsrə aid nəsr abidələrinin heç birində olmadığı qədər təmiz türkcədir (4). Alim müxtəlif dil faktlarının paralelliyi ilə zəngin olan paralelizmi belə dəyərləndirir: Müəyyən inkişaf mərhələsində dövrün koloriti kimi təzahür edir: bir tərəfdən müxtəlif türk tayfa dillərinə məxsus faktlar sabitləşməyib, ikinci tərəfdən danışıq dili və ədəbi təzahürlər diferensiasiya tapmayıb, üçüncü tərəfdən, başqa dillərdən - ərəb və fars dillərindən mənimsəmələr hələ vətəndaşlaşmayıb. Bu, ümumiyyətlə, ədəbi dilin başlanğıc mənzərəsidir" (3, 70). " Kitabi-Dədə Qorqud" vasitəsilə oğuz qəbilələrinin dili bizə olduğu kimi gəlib çatmışdır. Bir sıra sözlər, o cümlədən bəzi feillər müasir Azərbaycan ədəbi dili üçün arxaikləsə də, dialekt və şivələrimizdə işlənməkdədir. Azərbaycan ədəbi dilinin zənginləşməsində böyük rola malik dialekt və şivələrimizdə izlənən, "Dədə Qorqud" dastanının dili ilə eyniyyət təşkil edən feillər mövcuddur. Qax şivələrində rast gəlinən "gizlənmək" anlamını verən yöşünmək "Kitabi-Dədə Qorqud"da yaşırmaq kimi qeydə alınmışdır: - Alp ər ərdən adın yaşırmaq eyib olur. "Kitabi-Dədə Qorqud"da "sərxoş" anlamında işlənmiş *əsrük* sözü şivələrimizdə həm ad, həm feil kimi müşahidə olunur. Qazax bölgəsində işlən bu örnəyə diqqət edək:

Əzizinəm, nərgizdər,
Qərənfillər, nərgizdər.
*Əsrəmiş* maya gördüm,
Qoltuğunda nər gizdər.

*Varmaq* feili "getmək" mənasında "Dastan"da işlənmişdir: Altı yüz kafər varsun, qoyunı gətürsin.

"Dastan"ın dilimizin bugünkü vəziyyətindən fərqli olan bir sıra dil özəllikləri vardır. Əslində dilimizdə bu gün işlənən elə bir növ semantikası yoxdur ki, "Dastan"da müşahidə edilməsin. Nümunələrə diqqət edək: Ağzı böyük xümrələr ortalığa *salınmışdı.* Toquz yerdə badyələr *qurılmışdı*. Altun ayaq sürahilər *dizilmişdi (5, 68)*. Qarağuca qıymayınca yol *alınmaz* (5, 31). İç Öğuz, Taş Oğuz bəgləri Bayandır xanın söhbətinə *dərilmişdi (5,* 52).

Bütün faktlar bizə əsas verir deyək ki, "Kitabi-Dədə Qorqud" hər sözünün altında hikmət yatan xəzinədir. Akademik Ağamusa Axundov "Kitabi-Dədə Qorqud"un qədimliyini daha çox tarix və başqa elmlərə əsaslanan mülahizələrlə yanaşı, daha əsaslı sayıla bilən dil faktlarını qeyd edir:

1. Fonetik səviyyəsində KDQ-də bəzi səslərin məsələn, *b* və *m* samitlərinin söz başında (anlautda) müvazi işlənməsi ümumxalq danışıq dilinin hələ tam formalaşmadığını, yəni oğuz və qıpçaq dilləri ünsürlərinin "mübarizəsinin" hələ başa çatmadığını göstərir; misallar: Xan qızı səbəbi nədir, degil mana (5, 35). Hay Dirsə xan, bana qəzəb etmə. Bu m-b müvaziliyinin ər-arvad arasında özünü göstərməsi onlardan birincinin qıpçaq, ikincinin isə oğuz tayfalarına mənsubluğuna dəlalət edir və dastanın qədimliyini, oğuz və qıpçaqların bir "dövlət daxilindəmi deyək, hələ bərabər vəziyyətdə olmasını göstərir...

2. Fonetik səviyyədə olduğu kimi, leksik səviyyədə də sözlərin müvaziliyi müşahidə olunur... dastanın dilində müasir dilimiz üçün arxaikləşmiş sözlərin müvaziliyi müşahidə olunur. KDQ üzrə aparılmış tədqiqata əsasən, dastanın dilində *demək* sözü 1183 dəfə, eyni mənalı *ayıtmaq* sözü isə 816 dəfə işlənmişdir. Bəlli olduğu kimi, bunların birincisi oğuz, ikincisi isə qıpçaq dillərinə mənsub leksik vahidlərdir...

3. Morfoloji səviyyədə. Nitq hissələri içərisində ən gənci olan əvəzliklərin məhdudluğu da KDQ-nin qədimliyinə dəlalət edir. Dastanda məsələn, özüm, özün kimi qayıdış əvəzlikləri də şəxs əvəzlikləri ilə verilir: Gördünmü, mən mənə nə etdim (5, 80). Dastanda dil faktı olan bu linqvistik hadisəyə Nəsimi və Füzulinin əsərlərinin dilində üslubi fakt kimi rast gəlirik (1, 178).

Nəticə olaraq deyə bilərik ki, yarandığı dövrün izlərini özündə ifadə edən "Kitabi-Dədə Qorqud"da həmin dövrə aid dil mənzərəsi – fonetik, leksik, morfoloji, sintaktik vəziyyəti aşkar şəkildə verilmişdir.

## Ədəbiyyat

1. Axundov A. Kitabi-Dədə Qorqud" Azırbaycan dilinin qədim abidəsi kimi. "Kitabi-Dədə Qorqud" (Məqalələr toplusu). Bakı, Elm, 1999, 316 səh.,176-179.

2. Babayev A. Qorqudşünaslıqda yeni səhifə. "Dədə Qorqud dünyası" Elmi-nəzəri jurnal, Bakı, 2001, 168 s.

3. Hacıyev T. Azərbaycan ədəbi dil tarixi., bakı, ADU nəşri, 1976

4. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz.Bakı, Elm, 1999.

5. Kitabi-Dədə Qorqud. Bakı, 1988.

6. Mehdiyeva S. "Kitabi-Dədə Qorqud" qədim Azərbaycan şifahi ədəbi dilinin abidəsidir. "Kitabi-Dədə Qorqud" (Məqalələr toplusu). Bakı, Elm, 1999, 316 səh.,192-202.

7. Vəliyev K. Dastan poetikası. Bakı, Yazıçı, 1984.

## Xülasə

Bəlli olduğu kimi, qədim abidəmiz olan "Kitabi-Dədə Qorqudun 1300 illiyi yüksək səviyyədə təşkil edildi. Nəticə olaraq dilimizin bu böyük abidəsi geniş, əhatəli tədqiqata cəlb edildi. "Dastan" ədəbiyyat tariximizin qədim yazılı abidəsi

olmaqla yanaşı, həm də dilimizin xüsusiyyətlərinin ifadə edildiyi qiymətli mənbədir. Burada elə dil faktlarını müşahidə edirik ki, həmin faktlara digər türk dillərində rast gəlmirik və həmin faktlar Azərbaycan dilinin dialekt və şivələrində izlənilir. "Kitabi-Dədə Qorqud"un dili üslubundan, sənətkarlıq xüsusiyyətindən asılı olmayaraq, sonrakı dövrlərdə canlı danışıq dili əsasında yaranmış nəsr əsərlərinin dilinin leksik, qrammatik dayağı olmuşdur. Zamanla bir sıra üslub fərqləri özünün göstərsə də, əsas dil faktlarının sabitliyi aydın müşahidə olunur. "Kitabi-Dədə Qorqud"da işlənmiş müxtəlif leksik, qrammatik xüsusiyyətlərin sonrakı dövr Azərbaycan nəsr əsərlərində ifadəsi - leksik, qrammatik varislik "Kitab-Dədə Qorqud"un Azərbaycan xalqına aidliyini və müasir Azərbaycan dilinin əsas qaynaqlardan birinin "Kitabi-Dədə Qorqud" olduğunu bəlli edir. "Kitabi-Dədə Qorqudun boylarının təhkiyə dili aydındır. Obrazların dili sadədir, səmimidir. " Kitabi-Dədə Qorqud" vasitəsilə oğuz qəbilələrinin dili bizə olduğu kimi gəlib çatmışdır. Bir sıra sözlər, o cümlədən bəzi feillər müasir Azərbaycan ədəbi dili üçün arxaikləsə də, dialekt və şivələrimizdə işlənməkdədir.

"Kitabi-Dədə Qorqud"un dili, üslubu, poetikası haqqında Əbdüləzəl Dəmirçizadə, Samət Əlizadə, Fərhad Zeynalov, Tofiq Hacıyev, Nizami Cəfərov, Kamal Abdulla, Əzizxan Tanrıverdi və digər alimlərimiz bəhs etmişlər. Bu gün də "Dastan"ı daha diqqətlə araşdırarkən aydın olur ki, boyların bir sıra dil xüsusiyyətlərini, o cümlədən sənətkarlıq xüsusiyyətlərini öyrənməyə hələ də ehtiyac vardır. "Dastan"ın dilindəki leksik və qrammatik kateqoriyaların ayrıca olaraq araşdırılması tarixi leksikologiya, tarixi qrammatikanın bir sıra məsələlərinə aydınlıq gətirərkən çox vacibdir.

**Alizadeh T.**

**About the language of our ancient monument - "Kitabi-Dede Gorgud".**

**Summary**

As it is known, the 1300th anniversary of our ancient monument "Kitabi-Dede Gorgud" was organized at a high level. As a result, this great monument of our language was involved in a wide, comprehensive study. "Dastan" is not only an ancient written monument of our literary history, but also a valuable source that expresses the characteristics of our language. Here we observe such linguistic facts that we do not find in other Turkic languages, and these facts are observed in the dialects and dialects of the Azerbaijani language. The language of "Kitabi-Dede Gorgud" was the lexical and grammatical support of the language of the prose works created on the basis of the living spoken language in the later periods, regardless of its style and craftsmanship. Although a number of stylistic differences have appeared over time, the stability of basic linguistic facts is clearly observed. The expression of various lexical and grammatical features developed in "Kitabi-Dede Gorgud" in later Azerbaijani prose works - the lexical and grammatical succession makes it clear that "Kitab-Dede Gorgud" belongs to the Azerbaijani people and that "Kitabi-Dede

Gorgud" is one of the main sources of the modern Azerbaijani language. . "Kitabi-Dede Gorgud's speech is clear. The language of the images is simple and sincere. Through "Kitabi-Dede Gorgud", the language of the Oguz tribes has reached us as it is. Although a number of words, including some verbs, are archaic for the modern literary language of Azerbaijan, they are used in our dialects and dialects.

Abdulazal Demirchizadeh, Samet Alizadeh, Farhad Zeynalov, Tofig Hajiyev, Nizami Jafarov, Kamal Abdulla, Azizkhan Tanriverdi and other scientists talked about the language, style, and poetics of "Kitabi-Dede Gorgud". Even today, when examining "Dastan" more carefully, it is clear that there is still a need to study a number of language features of the Boy, including artistic features. The separate examination of lexical and grammatical categories in the language of "Dastan" is very important in clarifying a number of issues of historical lexicology and historical grammar.

**О языке нашего древнего памятника - "Китаби-Деде Горгуд".**

**Резюме**

Как известно, 1300-летие нашего древнего памятника «Китаби-Деде Горгуд» было организовано на высоком уровне. В результате этот великий памятник нашего языка был привлечен к широкому, всестороннему изучению. «Дастан» является не только древним письменным памятником нашей литературной истории, но и ценнейшим источником, выражающим особенности нашего языка. Здесь мы наблюдаем такие лингвистические факты, которых мы не находим в других тюркских языках, и эти факты наблюдаются в диалектах и диалектах азербайджанского языка. Язык «Китаби- Деде Горгуд» явился лексико-грамматической поддержкой языка прозаических произведений, созданных на основе живого разговорного языка в более поздние периоды, вне зависимости от его стиля и мастерства. Хотя с течением времени появился ряд стилистических различий, четко прослеживается устойчивость основных языковых фактов. Выражение различных лексико-грамматических признаков, развитых в «Китаби-Деде Горгуд» в более поздних азербайджанских прозаических произведениях - лексическая и грамматическая последовательность дает понять, что «Китаби-Деде Горгуд» принадлежит азербайджанскому народу и что «Китаби-Деде Горгуд» является одним из основных источников современного азербайджанского языка. «Речь Китаби-Деде Горгуда ясна. Язык образов прост и искренен. Через «Китаби-Деде Горгуд» язык огузских племен дошел до нас в своем нынешнем виде. Хотя ряд слов, в том числе и некоторые глаголы, являются архаичными для современного литературного языка Азербайджана, они употребляются в наших говорах и говорах.

Абдулазал Демирчизаде, Самет Ализаде, Фархад Зейналов, Тофик Гаджиев, Низами Джафаров, Камал Абдулла, Азизхан Танриверди и другие ученые рассказали о языке, стиле и поэтике «Китаби-Деде Горгуд». Даже сегодня, при более внимательном рассмотрении «Дастана», становится ясно, что еще существует необходимость изучения ряда языковых особенностей Мальчика, в том числе и художественных. Отдельное рассмотрение лексических и грамматических категорий в языке «Дастан» очень важно для выяснения ряда вопросов исторической лексикологии и исторической грамматики.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur**

**SÜDAVƏR İQBAL QIZI BAĞIROVA**
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Bakı şəhəri, Binəqədi rayonu rayonu, Baksol küçəsi, 59
bagirovasudaver@gmail.com

# MOTİVASİYA HƏVƏSLƏNDİRİCİ, HƏRƏKƏTVERİCİ VƏ STİMULLAŞADIRICI TƏLİM FAKTORU KİMİ

**Xülasə:**

Təbiətdə heç bir şey hər hansı bir səbəb olmadan öz statik durumundan mütəhərrik vəziyyətə keçə bilməz. Buna görə də insanın hərəkətə gəlməsi üçün müəyyən səbəblər olmalıdır. Bu səbəblərdən ən ümdəsi motivasiyadır. Motivasiya insanın iş görməsini dəstəkləyən təhrikedici psixoloji qüvvədir. O, insan davranışlarını istiqamətləndirməklə onların fəaliyyətsizliyini aradan qaldırır, fəaliyyətin davamlılığını təmin edir.

Motivasiya elmi-pedaqoji texnologiyadır. Təhsil fəaliyyətinin müvəffəqiyyəti onun motivasiyasından-mənimsəmənin keyfiyyətini artıran daxili və xarici amillərdən asılıdır. Müxtəlif komponentlər: tələbənin ehtiyacları, başqalarının nümunəsi, mükafatlandırma, cəza sistemi və s. belə həvəsləndirici amillər kimi çıxış edə bilər.

Fəal təlim prosesində motivasiya istənilən səviyyədə olarsa, nəticələrə yiyələnmək asan olar. Hər bir müəllimin əsas vəzifələrindən biri motivasiyanı, onun təlimdəki mövqeyini düzgün qiymətləndirmək, onu təhsilalanlarda yaradıb inkişaf etdirməkdən ibarətdir.

Tədris üçün formalaşdırılmış motivasiyanın olmaması təkcə müəllimlər üçün deyil, həm də təhsilalanların özləri və valideynləri üçün də aktual olan problemdir. Təhsil fəaliyyəti şəxsiyyətin ən fəal şəkildə formalaşmasının bütün illərini, uşaq bağçasından tutmuş ümumi və ali təhsil müəssisələrindəki dövrünü əhatə edir. Buna görə də onun motivasiya problemi pedaqogika və təhsil psixologiyasında ən önəmli məsələlərdəndir.

Məqalədə də təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən motivasiyanın psixoloji bir faktor kimi əhəmiyyəti, təlimdə təzahür formaları, növləri və təhsilalanlarda yaranma səbəbləri, təlim prosesinə təsiri araşdırılır. Eləcə də motivasiya anlayışının mahiyyəti, onun dərk olunma mexanizmi, motivasiyanın inkişafının şagird şəxsiyyətinin formalaşmasına təsiri kimi məqamlara toxunulmuşdur.

**Açar sözlər**: motivasiya, öyrədən, öyrənən, təlim, idrak fəallığı

Dilçilikdə “Fəal təlim” istilahında olan “interaktivlik”, yəni daxili fəallıq “ənənəvi” adlandırdığımız dərslərdə də vardır. Dərsdə şagirdlərin təfəkküründə fəallığı məsələsi, yəni öyrənənlərin təfəkküründə inkişaf etdirilməsi tələbi həmişə əsas məqsəd olmuşdur. Lakin “ənənəvi” adlandırdığımız dərslərdə “quru didaktizm”, elmiliyə daha çox diqqət ayrılması, motivasiyanın yaradılmaması, frontallıq,

emosionallığın zəifliyi, tədqiqatçılığa, fikir müstəqilliyinə yer verilməməsi kimi faktorlar həmin tələbin bugünkü müstəvidə reallaşmasına imkan verməmişdir [5; 54].

Motivasiya fəal dərsin ən ümdə komponentlərindən biridir. Motivasiya təfəkkür fazasını hərəkətə gətirən, şagirdlərin idrak fəallığına təkan verən prosesdir. Sövqedicilik onda yaranır ki, şagird bir neçə nöqtədən baxılan fakt, hadisə, səbəblərlə rastlaşır və onda idraki fəallığı şövqə gətirən psixoloji maraq, "ehtiras" yaranır [2; 132]. İnteraktiv təlim prosesində açar rolunu oynayan, təhrikedici qüvvə olan motivasiya insanın iş görməsini, fəaliyyətini dəstəkləyir, onun davamlı olmasına və istiqamətləndirilməsinə xidmət edir.

Təlimlə bağlı müvafiq tapşırıqları icra etmək, yaxud da lazımı davranışlara sövq etmək niyyəti ilə yaradılmış motivasiya situativ motivasiyadır. Təlim prosesində motivasiyanın düzgün yaradılması daim təhsilverənin diqqət mərkəzində olmalıdır, çünki motivasiya lazımı şəkildə qurulmazsa, şagirdlər özləri özlərini stimullaşdırmaqda çətinlik çəkirlər.

Öyrənənlər yüksək səviyyədə motivasiya olunarsa, əvvəlcədən müəyyənləşdirilmiş təlim nəticələrinə, qarşıya qoyulmuş məqsədlərə çatmaq nə qədər asan olarsa, yüksək motivasiya olunmamış şagirdlərlə bu məqsədə çatmaq bir o qədər çətin olar. Araşdırmalar göstərir ki, motivasiya ilə nailiyyət arasında güclü müsbət əlaqə var. Motivasiyalı öyrənəndə müşahidə olunan bəzi ümumi xüsusiyyətlər, davranışlar bunlardır:

-məktəbə müsbət münasibət bəsləməklə tədrisin keyfiyyətinə müsbət təsir göstərmək;

-çətin işlərdə israrlı olmaq;

-informasiyanı dərindən emal etmək.

Bütün şagirdlər motivasiyalıdır, ancaq gözləniləndir ki, öyrənənlərin motivasiya mənbələri eyni olmasın. Bu müxtəlifliyi bilən müəllim şagirdlərin öyrənmə meyillərini nizamlama bacarığına sahibdir. Öyrənənləri motivə edə bilmək pedaqoji prosesin təşkilatçıları üçün olduqca önəmlidir. Prosesin müvəffəqiyyətli olması ilk növbədə öyrədənin dünyagörüşündən, səriştə və pedaqoji ustalığından asılıdır.

Bir sıra faktorlar mövcuddur ki, onların nəzərə alınması motivasiyanın uğurla yaradılmasına kömək edir:

- Motivasiya qismində istifadə olunan materialın xüsusiyyətləri cəlbedicidir, qeyri-adidir, müəmmalıdır, gözlənilməzdir, marağı və müstəqil təfəkkürü şövqləndirməyə qabildir;
- Materialın təqdim olunma üsulları və formaları;
- Fərziyyələri yoxlama və təqdimat aparma imkanının mövcudluğu;
- Yaradıcılıq imkanı;
- Müəllim tərəfindən düzgün fasilitasiya (yönəldici suallar, fərziyyələrin irəli sürülməsi zamanı həvəsləndirmə və dəstəkləmə);

- Əvvəlki məşğələlərdə fərziyyələrin irəli sürülməsi ilə bağlı müsbət emosiyalar təcrübəsi. [8; 50]

Motivasiyayla bağlı müxtəlif nəzəriyyələr vardır. Bu nəzəriyyələrdə motivasiyanın iki növü fərqləndirilir: daxili və xarici motivasiya.

Daxili (təbii) motivasiya daxili motivasiya faktorlarını özündə cəmləşdirir. Maraq, bilmək ehtiyacı, bacarıqlı olmaq istəyi, inkişaf etmək istəyi daxili motivlərə misaldır. Riyaziyyata marağı olan bir şagird ona "tapşırıqlarını yerinə yetir" demədən özü müstəqil şəkildə istəyinə uyğun olaraq riyaziyyatla məşğul olursa, bu həmin şagirdin daxili motivasiyaya sahib olmasının göstəricisidir. Təlim prosesində təhsil alanların təhsilverənə yönləndirdiyi sualların kəmiyyəti, keyfiyyəti də onların maraqları, ehtiyacları, daxili motivasiyası kimi dəyərləndirilməlidir. Daxili maraq və tələbatlar öyrənənlərin motivasiyasının dayanıqlığına, uzunmüddətliyinə, davamlılığına xidmət edir.

Xarici motivasiya isə özündə xarici faktorlarını ehtiva edir. Xaricdən təsir edən qüvvələrə misal olaraq öyrənənlərin yaşadıqları sosial həyat tərzini, təlim mühitini, metodlarını, təhsilverənləri göstərmək olar. Məsələn, cəmiyyətdə rəsm çəkməyə olan münasibət öyrənənlərin öyrənilən rəsmə münasibətinə təsir edir. Xarici motivasiya xaricdən gələn mükafat, cəza, təzyiq, tələb kimi təsirlərlə ortaya çıxır. Müəllimin "oxumasan, yaxşı qiymət ala bilməzsən" deməsinə görə oxuyan şagird xaricdən motivasiya olunmuşdur. Bir şagirdin müəllimin məzəmməti ilə qarşılaşmaması üçün, yaxud onun tərifini, təqdirini qazanmaq üçün verilən tapşırığı yerinə yetirməsi xarici motivasiyaya misal ola bilər.

Yüksək nailiyyətlər qazanmış bəzi şagird və tələbələr təqdir, təşəkkür kimi mükafatları rahatlıqla qazanmaq şansına sahib olduqlarını düşünürlər. Buna görə də onların motivasiya ehtiyacı xaricdən qarşılana bilməz. Məhz belələrini hərəkətə gətirən daxili motivasiyadır, ona olan ehtiyacdır.

Məktəbdəki qiymətləndirmə sisteminin zərərli tərəflərindən biri də şagirdləri "qiymət həvəskarı"na çevirməkdir. Şagirdlər ancaq qiymət üçün oxumuş olurlar. Şagird öyrənmənin verdiyi zövq və doyumu almaq yerinə, xarici mükafat almaq üçün çalışır. Fərdi yanaşma, tərif, qiymət kimi xarici mükafalarla öyrənənləri motivasiya etmək onların içdən gələn daxili motivasiyalarını zəiflədir və faydalı fəaliyyətlərdən imtina etmələrinə səbəb olur.

Güclü xarici motivasiya amili olan pedaqoji prosesin təşkilatçısı həm də stimullaşdırıcıdır. Öyrənənlərin zəif və yüksək motivasiyası öyrədəndən çox asılıdır. Müəllim təlimin prosesini təşkil edərkən onun maraqlı olmasını, istifadə olunan materialın rəngarəngliyini təmin etməlidir, yeri gəldikcə bu və ya digər formada onun təhsilalanlar tərəfindən əsaslı şəkildə qavranılmasına nail olmağa cəhd göstərməlidir.

Əksərən şagird və tələbələr müəllimləri onları sevdiyi üçün, onlara inandıqları üçün öyrənməyə çalışırlar.

Tədqiqatlar göstərir ki, daxili motivasiyalı öyrənənlər yalnız xarici motivasiyalılardan daha yüksək nailiyyətlər əldə edirlər. Yüksək daxili motivasiyaya sahib olan öyrənənlərin ötürülən informasiyaya maraqları olduğu üçün məlumatın dərinliklərinə gedərək geniş biliyə yiyələnib uğurlu nailiyyət əldə etdikləri halda, zəif xarici motivasiyalı və daxili motivasiyası olmayan öyrənənlər cüzi cəhdlərlə çətinlik səviyyəsi aşağı olan tapşırıqlara meyilli olurlar. Daxili motivasiyalı öyrənənlərin fəallığı yüksək səviyyədə olur, xüsusi cəhdlərlə qarşılarına çıxan müxtəlif maneələri, çətinlikləri dəf etməkdə israrlı olurlar, tapşırıqların icrasına çox vaxt ayrırır, onları həvəslə, sevərək yerinə yetirirlər. Buna görə də təlim prosesinin gedişi çox sadələşir.

Öyrənənlərin motivasiyasında valideyn faktoru da nəzərdən qaçmamalıdır. Hətta bu amili bünövrə də adlandıra bilərik. Şagirdlərin ailə (ev) şəraiti öyrənmə sevgisinin ilkin bazasını yaradır. Bu isə ailə daxilində uşaqlarla ünsiyyətin lazımı qədər məhsuldar olmasının nəticəsidir. Uşaqlar ətraf aləmin dərki üçün danışmağa başladıqdan sonra saysız-hesabsız suallarına cavab axtarmağa başlayırlar. Çox şey məhz bu suallara necə cavab veriləcəyindən, necə qarşılanacağından asılıdır. Müstəqillik, özünədəyər, özünəinam hissləri ilə böyüdülmüş uşaqlar təhsil aldıqları müddətdə öyrənmə prosesində qarşılaşa biləcəkləri risklərə hazır olurlar. Qeyd edilən hisslərin olmaması isə problemin aradan qaldırılması və uğursuzluqlara dözüm üçün zəruri olan qüvvəni ciddi şəkildə azaltmış olur.

Şagirdlərin motivasiyasına təsir edən digər faktorlar kimi yaş faktoru da diqqəti cəlb edir. Valideyn faktoru kimi bu faktor da təhsilin orta (orta ümumtəhsil) və aşağı (məktəbəqədər) pillələrində özünü daha qabarıq göstərir. Aşağı sinif şagirdləri hədəflərinə çatmaq üçün çəkdikləri əziyyətin nəticəsinin pozitiv olacağına ümidvar olduqları halda, yuxarı sinif şagirdləri neqativ nəticə gözləyirlər, əvvəlcədən öz uğursuzluqları ilə barışır, hər hansı bir cəhd etmədən yaxud da minimal cəhdlərlə kifayətlənməyə üstünlük verirlər.

Tədris nəticələri ilə əlaqəli motivasiyanın iki növü fərqləndirilir: mənfi və müsbət motivasiyalar.

İnsanların öyrənmə fəaliyyətlərinin səbəbi olduqca neqativ ola bilər. Məsələn, məktəbdə cəzalanmamaq, sinifdə qalmamaq üçün çalışmaq kimi xoşagəlməz hər hansı bir səbəbdən qaçmaq məqsədilə öyrənmək yanlış olsa belə, istifadə olunan və təsirli sayıla biləcək bir öyrənmək qaydasıdır.

Pozitiv motivasiya isə insanların əldə etmək istədikləri bir nəticə üçün oxumaları ilə bağlıdır. Pozitiv motivasiya neqativ motivasiya ilə müqayisədə daha təsirlidir.

Pedaqoji prosesin təşkilatçısı öyrənənlərin motivasiyasını inkişaf etdirmək üçün xüsusi bacarığa, strategiyaya malik olmalıdır. Öyrədənin xüsusi strategiyası dedikdə öyrənənlərin istəklərinə, maraqlarına, yaş səviyyələrinə uyğun təlim prosesini təşkil etmək, təlim materiallarının maraqlı olmasını təmin etmək, rəngarəng təlim üsul və vasitələrinin seçilməsi nəzərdə tutulur.

## ƏDƏBİYYAT

1. Akbaba S, Aktaş A. İçsel motivasyonun bazı değişkenler açısından incelnmesi. M.Ü.Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, 2005.

2. Balıyev H, Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı. Qismət. 2014, 384 s.

3. Dilekmen M, Şükrü. A. Öğrenmede güdüleme. Kazım Karabekir Eğitim Fakültesi Dergisi, 2005.

4. Hüseynova E.Q. Musayeva T.M. Emosiya və motivasiya. Bakı, 2003.

5. İlyasov M. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, Elm və təhsil, 208 s.

6. İsgəndərova S. Tədris prosesində motivasiya sahəsinin idarə olunmasının psixoloji xüsusiyyətləri. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 3, 2018

7. Qəhrəmanov A. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim materialı. Bakı. 2012. 69 s.

8. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007, 150 s.

**Baghirova Sudavar Igbal**

## MOTIVATION - AS A FACTOR OF MOTIVATION, MOVING AND STIMULATING TRAINING

**Summary:**

Nothing in nature can change from its static state to a dynamic state without any reason. Therefore, there must be certain reasons for a person to act. The most important of these reasons is motivation. Motivation is a stimulating psychological force that supports a person's work. By directing human behavior, it eliminates their inactivity and ensures continuity of activity.

Motivation is a scientific-pedagogical technology. The success of educational activity depends on its motivation - internal and external factors that increase the quality of learning. Various components: the needs of the student, the example of others, the reward system, the punishment system, etc. can act as such motivating factors.

If motivation is at any level in the active learning process, it is easy to master the results. One of the main tasks of every teacher is to correctly assess motivation, its position in training, to create and develop it in students.

The lack of formed motivation for teaching is an actual problem not only for teachers, but also for students themselves and their parents. Educational activity covers all the years of the most active formation of the personality, from kindergarten to the period in general and higher education institutions. Therefore, his motivation problem is one of the most important issues in pedagogy and educational psychology.

The article examines the importance of motivation as a psychological factor, which sets the thinking process in motion and stimulates the cognitive activity of students, the forms and types of its manifestation in training, the causes of its occurrence in students, and its effect on the training process. Also, points such as the essence of the concept of motivation, the mechanism of its understanding, the influence of the development of motivation on the formation of the student's personality were touched upon.

**Keywords:** motivation, teaching, learning, training, cognitive activity

**Багирова Судавар Икбал**

## МОТИВАЦИЯ КАК МОТИВИРУЮЩИЙ, ДВИЖУЩИЙ И СТИМУЛИРУЮЩИЙ ФАКТОР ОБУЧЕНИЯ

**Резюме:**

Ничто в природе не может переходить из статического состояния в динамическое без какой-либо причины. Следовательно, должны быть определенные причины, по которым человек действует. Наиболее важной из этих причин является мотивация. Мотивация – это стимулирующая психологическая сила, поддерживающая деятельность человека. Направляя поведение людей, она устраняет их бездеятельность и обеспечивает непрерывность деятельности.

Мотивация – это научно-педагогическая технология. Успешность учебной деятельности зависит от ее мотивации - внутренних и внешних факторов, повышающих качество обучения. Различные составляющие: потребности ученика, пример других, система поощрений, система наказаний и др. могут выступать в качестве таких мотивирующих факторов.

Если мотивация присутствует на любом уровне активного процесса обучения, легко освоить результаты. Одной из основных задач каждого преподавателя является правильная оценка мотивации, ее положения в обучении, создание и развитие ее у учащихся.

Отсутствие сформированной мотивации к обучению является актуальной проблемой не только учителей, но и самих учащихся и их родителей. Учебная деятельность охватывает все годы наиболее активного становления личности, начиная с детского сада и заканчивая периодом в общеобразовательных и высших учебных заведениях. Поэтому проблема его мотивации является одной из важнейших проблем педагогики и педагогической психологии.

В статье рассматривается значение мотивации как психологического фактора, приводящего в движение мыслительный процесс и стимулирующего познавательную деятельность студентов, формы и виды ее проявления в

обучении, причины возникновения у студентов, влияние на тренировочный процесс. Также были затронуты такие моменты, как сущность понятия мотивации, механизм ее понимания, влияние развития мотивации на формирование личности студента.

**Ключевые слова**: мотивация, преподавание, преподаватель, обучение, познавательная деятельность

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: F.ü.e.d., prof. Fikrət Xalıqov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İBRAHİMOVA İRADƏ RZA QIZI**
**Azərbaycan Tibb Universiteti**
**"Xarici dillər"kafedrası,b\m**
**S.Vurğun158**
**iradaibragimova@com.ru**

# MÜASİR İNGİLİS DİLİNDƏ ALINMA SÖZLƏRİN LEKSİK VƏ FONETİK MƏNİMSƏNİLMƏSİ

## Xülasə

**İngilis dilində leksik alınmaların fonetik mənimsənilməsi.**Alınma sözlərin, o cumlədən beynəlmiləl termin və sözlərin qrafik mənimsənilməsi onların qrafik vasitələri, hərfləri,qrafemləri ilə yazılışını nəzərdə tutur. Qrafik mənimsəmə transkripsiya və transliterasiya ilə birbaşa bağlıdır.**Transliterasiya** latın dilindəki trans+litera komponentlərinin birləşməsindən əmələ gəlmişdir.

Trans ikikomponentli sözün birinci hissəsi olub Azərbaycan dilində vasitə ilə mənasına gəlir.İkinci component litera, hərf mənasındadır.Transliterasiya bir dilin hərflərinin basqa dilin hərfləri ilə verilməsidir.Transkripsiya əcnəbi sözün səslərini qəbul edən dilin səsləri ilə verilməsidir.Başqa dilin səslərinin yazıda verilməsi səsin uyğun gələn səsi verən qrafemlə əvəzlənməsi nəzərdə tutulur.Bu baxımdan transkripsiya da qrafik mənimsəmə ilə bağlıdır.

Bir dildən digərinə transliterasiyanın yerinə yetirilməsi üçün bu iki dilin əlifbasindaki qrafemlərin qarsılaşdırılmasını, onların qarşılıqlarını müəyyənləş-dirməyi tələb edir.Şübhəsiz ki, bu zaman bir dildə olan hərflərin bütünluklə və ya olduğu kimi başqa dildə verilməsi mumkun olmur. Bunun əsas səbəblərindən biri hərf-səs uyğunluğunu nəzərə almaqdır.Belnəlmiləl sözun hansi dildən alinmasi müvafiq dildən transliterasiyanı nəzərdə tutur.

**Rəyçi: f.ü.f.d., dosent L.V.Qocayeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAĞIYEVA TƏHMİNƏ**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Baş mütəxəssis*
*Bakı şəhəri, İstiqlaliyyət 26*
*tehmine_tagizade@mail.ru*

# QARABAĞIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİNİN YARADICILIĞININ MİLLİ-MƏDƏNİ İRSİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

## Xülasə

*Məqalədə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında onun əzəli tarixi torpağı olan Qarabağın görkəmli şəxsiyyətlərinin zəngin irsinin rolu və əhəmiyyəti araşdırılır. Xalqımızın milli-mədəni inkişafında onların yaradıcılığının əsas cəhətləri və ideya-məzmun xüsusiyyətləri öyrənilir. Tədqiqatın mövzusuna əsasən, bu görkəmli şəxsiyyətlərin ədəbiyyat və mədəniyyətimizə gətirdiyi yeniliklər hərtərəfli təhlilə cəlb olunur.*

*Milli-mədəni irsimizi mahiyyətcə yeni inkişaf mərhələsinə yüksəldən Qarabağın görkəmli şəxsiyyətlərinin fəaliyyətinin təbliğinin əhəmiyyəti və zəruriliyi bir daha təsdiq olunur. Bugünki tarixi reallıqlar şəraitində müzəffər Azərbaycan əsgərinin düşmən tapdağından azad etdiyi Qarabağın tarixi, mədəni, ictimai-fəlsəfi mühitinin beynəlxalq ictimaiyyətə layiqincə tanıdılması məsələsi ilə əlaqədar məqalədə təklif və tövsiyələr irəli sürülür.*

**Açar sözlər:** mədəniyyət, ədəbiyyat, incəsənət, musiqi tarixi, fəlsəfi düşüncə, mənəvi dəyərlər.

Xalqımızın iftixar mənbəyi olan müstəqil Azərbaycan Respublikasının əsrarəngiz təbiətə malik əzəli torpağı Qarabağ, qədim və zəngin milli-mədəni irsimizin ayrılmaz tərkib hissəsidir. Tarixin dərin qatlarında yaşayış məskənlərinin izləri aşkarlanmış bu qədim bölgə, özünəmxsusluğu ilə seçilən mənəvi və mədəni adət-ənənələrimizin və mədəniyyətimizin beşiyi hesab olunur. Qürur hissi keçiririk ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev haqlı olaraq Qarabağı xalqımızın mədəniyyət paytaxtı kimi dəyərləndirir, onun inkişafına xüsusi diqqət və qayğı göstərir. Bununla bağlı ölkəmizdə qəbul olunmuş normativ hüquqi sənədlər Qarabağın gələcək mədəni inkişafına təminat verir.

Xalqın milli-mədəni irsinin zənginləşməsində, regional ədəbi-bədii, fəlsəfi və mədəni fikrin inkişafında vacib əhəmiyyət kəsb edən problemlərdən biri də, konkret coğrafi ərazidə formalaşmış bu mühitin öyrənilməsindən ibarətdir. Aparılan araşdırmalar təsdiq edir ki, bədii-fəlsəfi və milli-mədəni mühitin ictimai, sosial və

siyasi düşüncədə və ədəbi-nəzəri fikirdə tutduğu mövqeyi müəyyən etmək, eləcə də onun əsas qayəsini və ideya-məzmun xüsusiyyətlərini hərtərəfli öyrənmək zəruridir. Bu kontekstdə, Azərbaycan xalqının milli-mədəni irsinin zənginləşməsində mühüm rola malik olan Qarabağın ədəbi-mədəni mühitini tədqiq və təbliğ etmək hazırda aktual məsələlərdən biridir. Doğrudur, bugünə kimi mütəxəssislər tərəfindən bu istiqamətdə aparılmış araşdırmaların nəticələri bir çox tədqiqat əsərində çap edilmişdir [1; 2; 3; 4; 5].

Həmin əsərlərdə Qarabağın görkəmli şəxsiyyətlərinin yaradıcılıq fəaliyyəti müxtəlif aspektlərdə təhlilə cəlb olunmuşdur. Lakin mövzu ilə bağlı yeni tədqiqatların aparılmasına və xüsusilə də, təbliğatla əlaqədar mövcud problemlərin həllinə ciddi ehtiyac duyulur. Bu səbəbdən, hazırki tədqiqat işində mövcud problemlərin həllini göstərmək məqsədilə Qarabağın görkəmli şəxsiyyətlərindən Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyli, Bülbül, Xan Şuşinski və Əfrasiyab Bədəlbəylinin irsinin səciyyəvi xüsusiyyətləri, bədii-estetik mahiyyəti, o cümlədən xalqımızın milli-mədəni potensialının inkişafındakı rolu və əhəmiyyəti ilk dəfədir ki, sistemli şəkildə araşdırılır və ümumiləşdirilir. Tədqiqatın əsas vəzifəsi onların yaradıcılığının Azərbaycan xalqının milli-mədəni irsinin zənginləşməsi kontekstində öyrənilməsi, respublika və beynəlxalq səviyyədə təbliği istiqamətində yeni təklif və tövsiyələrin verilməsidir.

Azərbaycan ədəbiyyatında özünəməxsus bədii təfəkkür tərzi ilə seçilən şairlərdən biri Qarabağ ədəbi mühitinin görkəmli nümayəndəsi Qasım bəy Zakir (1784-1857) olmuşdur. Onun yaradıcılığının formalaşması Qarabağda cərəyan edən siyasi-hərbi hadisələr dövrünə təsadüf etmişdir. Bu səbəbdən, şairin satirik şeirlərinin əsas qayəsində çar hökuməti tərəfindən təyin olunan hakimlərin və çarizmin müstəmləkəçi qanun və qaydalarının kəskin ifşası dayanır. Zakirin böyük ustalıqla yazdığı satiralarında gücsüzlərin və acizlərin hüquqlarını tapdalayan məmurlar və din xadimləri amansız tənqid olunur. Yaradıcılığında mənzum hekayələrə də üstünlük vermiş Zakir, müxtəlif mövzularda yazdığı "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Zövci-axər", "Tərlan və elçi", "Dərviş ilə qız", "Əxlaqsız qazı", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim" və s. əsərləri ilə məşhurdur. Onun mənzum hekayələrinin ideya-məzmun cəhətlərini insanın saf və ülvi məhəbbəti, eləcə də nəcib hisləri təşkil edir. Şübhəsiz ki, Zakirin ədəbi irsində qələmə aldığı müxtəlif təmsillərin – "Aslan, qurd və çaqqal", "Dəvə və eşşək", "Tülkü və qurd", "Xain yoldaşlar haqqında", "İlan, dəvə, tısbağa", "Tülkü və şir", "Sədaqətli dostlar haqqında", "Tısbağa, qarğa, kəsəyən və ahu" müstəsna yeri vardır. Beləliklə, bütün bu əsərlər göstərir ki, Qasım bəy Zakirin yaradıcılığı milli-mədəni irsimizi xeyli zənginləşdirmiş və onun inkişafına güclü təsir göstərmişdir.

Artıq əsr yarımdan çox bir müddətdir ki, estetik təşəkkürümüzdə Xurşidbanu Natəvan (1832-1897) imzalı fenomenal bir şəxsiyyətin əvəzolunmaz yeri görünür.

Xan qızı ləqəbi ilə məşhurlaşmış Natəvan, dövrün tələblərinə uyğun olaraq doğma dili ilə bərabər, ərəb və fars dili təlimindən keçmiş, onları mükəmməl şəkildə öyrənmiş və bununla da, mürəkkəb xarakterə malik klassik şeirin əsas qayda-qanunlarını mənimsəmişdir. Təsadüfi deyildir ki, bunun sayəsində dahi şərq şairlərinin nadir kitablarını və qiymətli əlyazmalarını mütaliə edən Xan qızı klassik ədəbiyyata meyl etmiş və ona dərindən bağlanmışdır. X.Natəvanının yaradıcılığı göstərir ki, o, parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət kimi formalaşmışdır. Xan qızı Şuşadan olan bir qrup şairin təklifi ilə qısa müddətdə şəhərdə "Məclisi-üns" (dostluq, ülfət məclisi) təşkil etmiş, bu məclisə rəhbərliyi və onun bütün xərclərini öz üzərinə götürmüşdür. Yaradıcılığa XIX yüzilliyin 50-ci illərdən ənənəvi şərq mövzusu və şeirlərlə başlayan Natəvanın qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülün", "Qərənfil" və s.) tərənnüm olunmuşdur. *"Oğlunun gənc yaşda vəfatından sonra o, bədbin ruhlu şeirlər yazmışdır – "Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s. Şairənin yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşma, rədif, məcaz və s. bədii vasitələr məharətlə işlənmişdir."* [5, s.27]. Onun əsərləri dərin səmimiyyəti və incə lirizmi ilə seçilir. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Xurşidbanu Natəvan Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

XIX əsrin ortalarında Azərbaycanın hər yerində kapitalist münasibətləri cücərən və yeni təfəkkür yaranan bir zamanda orta əsrlərə məxsus elmi biliklər sisteminə sahib ensiklopediyaçı alim Mir Möhsün Nəvvab (1833-1918) Qarabağda yaşayıb-yaradır. Şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas-alim olan Nəvvab Şuşanın mədəni və ictimai həyatında fəal iştirak etmişdir. O, müxtəlif lirik şerlər yazmış, özünün açdığı mətbəədə kitablar nəşr etmiş, məktəblərdə dərs demiş, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş iyirmidən artıq kitab qələmə almış, "Məclisi-fəramuşan" adlı ədəbi, "Məclisi-xanəndə" adlı musiqi məclisləri qurmuşdur. Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab heç şübhəsiz, öz bədii yaradıcılığı ilə vermişdir. Alim "Vüzuhül-ərqam" adlı musiqi traktatında Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını çəkmişdir. Beləliklə, Mir Möhsün Nəvvabı əsərlərinin məzmunu, səviyyəsi və həcmi etibarilə həqiqətən də, orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsindən hesab etmək olar.

Azərbaycanda feodal-patriarxal quruluşa qarşı çevrilmiş maarifçilik hərəkatının genişlənməsində yaxından iştirak etmiş Qarabağın görkəmli şəxsiyyətlərindən biri də Nəcəf bəy Vəzirov (1854-1926) olmuşdur. Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoymuş N.Vəzirov milli dramaturgiyamızın inkişafında, onun ideya-estetik məzmun, bədii sənətkarlıq keyfiyyətlərinin zənginləşməsində, milli teatrın yaradılmasında və inkişafında müstəsna xidmətləri təqdirəlayiqdir. Bədii yaradıcılığında "Yağışdan çıxdıq yağmura düşdük", "Müsibəti-Fəxrəddin" və "Pəhləvanı-zəmanə" kimi klassik əsərlərini yaradan N.Vəzirov Həsən bəy Zərdabi ilə

birlikdə doğma xalqının tərəqqisi üçün yeni məktəblərin, müxtəlif maarif ocaqlarının açılması işində yaxından iştirak etmişdir. Xalqın ehtiramı N.Vəzirovun yaradıcılıq ilhamını, işləmək həvəsini coşdurmuş, ədib həm ictimai həyatda, həm də bədii yaradıcılıq sahəsində daha fəal çalışmışdır. O, "Pul düşkünü Hacı Fərəc" komediyasını, "Təzə əsrin ibtidası" dramını yazmış, böyük fransız yazıçısı Jan Batist Molyerin "Xəsis" komediyasını "Ağa Kərim xan Ərdəbili", fransız məzhəkəsi "Vəkil Patelen"i isə "Dələduz" adı ilə tərcümə etmişdir. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Nəcəf bəy Vəzirov Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Azərbaycan və Türkiyə ictimai xadimi, siyasətçi, jurnalist, pedaqoq, yazıçı, türkoloq, liberal Kamalizmin banisi Əhməd Ağaoğlu (1869-1939) həyatında ilk dəfə qərb ideologiyası ilə Şuşada oxuduğu real məktəbində tanış olmuşdur. Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsil sahəsində inkişafından keçdiyini bildirmişdir. Qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadilsənin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycan ziyalıları arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan hesab olunur. *"1901-ci ildə çapdan çıxan "İslam dünyasında qadın" adlı kitabında "azad qadınsız milli inkişaf ola bilməz" fikrini sübuta yetirir. "1908-ci ildə İstanbula köçdükdən sonra Ə.Ağaoğlu jurnalistika fəaliyyətini də davam etdirmiş və 1909-cu ildən "Kaspi" qəzetində "Türkiyədən məktublar", "Türkiyədə milli sual" mövzularında silsilə məqalələri çap olunmuşdur."* [1, s.7]. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd bəy Ağaoğlu Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) milli dramaturgiyamızı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirmişdir. O, "Leyli və Məcnun" operasının premyerasında ilk dirijor, Teatr Şurasının təsisçisi və birinci rəhbəri, Yazıçılar İttifaqının üzvü və "Molla Nəsrəddin" jurnalının yazarlarından biri kimi Azərbaycan mədəniyyətinə böyük xidmətlər göstərmişdir. Tələbəlik dövründə Ə.Haqverdiyevdə ədəbiyyata güclü meyil oyanmışdır. "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) və "Dağılan ittifaq" (1896) əsərlərini yazmışdır. Daha sonra Bakıda yaşadığı dövrdə "Bəxtsiz cavan" (1900) və "Pəri-cadu" (1901) faciələrini yazmışdır. O, bir tərəfdən müəllimliklə məşğul olmaqla yanaşı, digər tərəfdən teatrlarda verilən tamaşalara rejissorluq etmişdir. O, "Marallarım", "Xortdanın cəhənnəm məktubları", "Şeyx Şaban", "Xəyalət", "Ac həriflər" və s. əsərlərinin müəllifidir. Bunlardan başqa, ədib Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Volterin "Soltan Osman", Zolyanın "Qazmaçılar", Andersenin "Bülbül", "Şahın təzə libası", Lanskoyun "Qəzəvat", Çirikovun "Yəhudilər", Korolenkonun "Qoca zəng çalan" əsərlərini də dilimizə tərcümə etmişdir. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin

7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əbdürrəhim bəy Haqverdiyevin əsərləri dövlət varidatı elan edilmişdir.

Qarabağın görkəmli şəxsiyyətlərindən biri olan dramaturq, nasir, maarif xadimi Süleyman Sani Axundovun (1875-1939) ilk yaradıcılıq əsəri "Tamahkar" komediyasıdır. O, bu əsərini Mirzə Fətəli Axundovun "Hacı Qara" əsərinin təsiri ilə 1899-cu ildə yazmışdır. "Qonaqlıq" (1905), "Kövkəbi-hürriyyət" (1905), "Yuxu" (1905) onun ilk hekayələridir. S.S.Axundovun yazdığı "Qan bulağı" (1923), "Ümid çırağı" (1923), "Cəhalət qurbanı" (1923) və s. hekayələri Azərbaycan nəsrinin qiymətli nümunələrindəndir. XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında onun böyük xidmətləri vardır. Ədib "Qorxulu nağıllar" (1912-1914) başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız", "Əşrəf" ilə Azərbaycan uşaq ədəbiyyatına forma, məzmun, üslub yenilikləri gətirmişdir. Bu hekayələrdə valideynlərini itirmiş uşaqların acı taleyindən söhbət açılır. Hekayələrdən üçü Hacı Səmədin adından söylənilir. Onun oğlu Məmmədə və qızı Fatiməyə danışdığı qorxulu əhvalatlar uşaqları dəhşətə gətirir. Oxucular bu silsilədən "Qaraca qız" hekayəsini xüsusilə sevirlər. Uşaqların mənəvi dünyası, həyatı, insanlığı sevmək və qiymətləndirməyi bacarmaq qabiliyyəti burada daha mənalı verilib. Beləliklə, Süleyman Sani Axundovun yazdığı əsərlərdə gerilik və mühafizəkarlıq tənqid edilmişdir.

Azərbaycan xalq musiqisinin canlı tarixi və ensiklopediyası hesab olunmuş Cabbar Qaryağdıoğlu (1861-1944) XIX əsrin II yarısında yetişən və musiqi tariximizdə ən görkəmli rol oynayan sənətkarlardan biridir. Xalqın içərisindən çıxmış bu sənətkar özünün bütün mənalı həyatını klassik Azərbaycan musiqisinin inkişafına həsr etmişdir. Ömrünün 60 ilini xalqdan öyrəndiyi və topladığı 500-dən artıq mahnını işləyib, Azərbaycanın xanəndəlik sənətini yaratmağa həsr etmiş müğənni Zaqafqaziyada ən yaxşı xalq ifaçısı şöhrətini qazanmışdır. Seyid Şuşinski, Bülbül, Davud Səfiyarov, Zülfü Adıgözəlov, Xan Şuşinski, Cahan Talışinskaya, Yavər Kələntərli, Mütəllim Mütəllimov kimi görkəmli muğam ustaları məhz C.Qaryağdıoğlunun tələbələri olmuşlar. *"Cabbar Qaryağdıoğlunun böyük sənəti və zəngin səsi dünyanın bir çox bəstəkarlarının, musiqişünas və mədəniyyət xadimlərinin diqqət mərkəzində olmuşdur. Akademik B.Astafyev, professor Y.Braudo, bəstəkarlardan M.İppolitov, V.Georgixubov, R.Qlier və başqaları C.Qaryağdıoğlu sənətinin vokal ustalığını yüksək qiymətləndirmişlər"* [3, s.6]. Azərbaycanda opera sənətinin meydana gəlməsində də onun rolu böyükdür. Beləliklə, C.Qaryağdıoğlunun adı dünya vokal sənətinin bir sıra görkəmli sənətkarlarının adları ilə yanaşı çəkilir.

XX əsrin əvvəllərində ictimai-siyasi və mədəni yüksəliş şəraitində Üzeyir Hacıbəyli (1885-1948) müasir Azərbaycan professional musiqi mədəniyyətinin özülünü qoydu və şifahi ənənəli milli sənətlə bəstəkar yaradıcılığının sintezini yaratmaqla Şərq və Qərb mədəniyyətinin fəal qarşılıqlı təsirinə səbəb oldu. Ü.Hacıbəylinin yaradıcılığında milli bəstəkar musiqisinin, demək olar ki, bütün janrlarının təməli qoyulmuşdur (opera, musiqili komediya, simfonik musiqi, kantata,

romans-qəzəl, kütləvi mahnı və başqa). Yeni Azərbaycan musiqisinin formalaşması azadlıq ideyalarını, yüksək mənəviyyatı təsdiq edən musiqili teatrdan başlandı. Onun 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə həm milli operanın, həm də bütün müsəlman Şərqində opera sənətinin, muğam-opera janrının əsasını qoymuşdur. Ü.Hacıbəyli, Füzulinin "Leyli və Məcnun" poeması və xalq musiqi janrlarına (muğam, mahnı, rəqs) müraciət etmiş, dövrün əhvali-ruhiyyəsi, xalqın mənəvi tələbləri ilə səsləşən səhnə əsəri yaratmışdır. Bəstəkarın başqa erkən operaları – "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşud banu" (1912), "Əsli və Kərəm" (1912) və "Harun və Leyla" (1915) operaları da bu janrdadır.

Bu operalarda əsas musiqi-dramaturji vəzifəni muğamlar daşıyır. Muğamlar qəhrəmanların obrazlarını açmaqla ənənəvi musiqi səhnə formalarını əvəz edir. Operalarda xordan geniş istifadə edilmişdir (xorun musiqisi müəllif tərəfindən bəstələnmiş və ya xalq melodiyaları əsasında yaradılmışdır). Ü.Hacıbəyli sosial-məişət mövzularında yazdığı operettalarının musiqisini ("Ər və arvad", 1910; "O olmasın, bu olsun", 1911; "Arşın mal alan", 1913) xalq havalarına əsaslanaraq bəstələmiş və dahiyanə əsərlər yaratmışdır. *"Onun "Arşın mal alan" operettası dəfələrlə ekranlaşdırılmış, ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmiş, dünyanı gəzərək, Moskva, İstanbul, Nyu-York, Paris, London, Tehran, Qahirə, Pekin, Berlin, Varşava, Sofiya, Budapeşt, Buxarest və digər şəhərlərdə tamaşaya qoyulmuşdur"* [2, s.104]. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Üzeyir Hacıbəyli Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Qarabağın görkəmli şəxsiyyətlərindən biri olan Bülbül (1897-1961) peşəkar vokal məktəbimizin banisi, təkrarolunmaz ifası ilə milyonlarla dinləyicinin sevimlisi, nəhəng səs diapazonuna malik dahi musiqiçi, musiqişünas-alim, pedaqoq, fədakar insan, novator kimi adı musiqi tariximizdə qalacaq əbədiyaşar sənətkarlarımızdan biridir. Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətləri olmuş Bülbül həm də mütərəqqi ideyaların və yeniliklərin təşəbbüskarı və təbliğatçısı kimi tanınmışdır. 1937-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində Üzeyir Hacıbəylini "Koroğlu" operası tamaşaya qoyulmuşdur ki, Koroğlu rolunun ilk ifaçısı görkəmli Azərbaycan müğənnisi Bülbül olmuşdur. O, demək olar ki, ömrünün sonuna kimi – 25 ilə yaxın bir müddətdə bu mürəkkəb rolda çıxış edərək, böyük bədii əhəmiyyətə malik obraz yaratmışdır. Bülbül aşıq yaradıcılığına dair şifahi materialların - xalq nağılları, əfsanə, dastan, qəzəllərin, aşıq musiqi yaradıcılığının 250 çap vərəqi həcmində toplanması üçün briqadaların təşkil edilməsinin təşkilatçısıdır. Beləliklə, Bülbül spesifik Şərq ifa tərzindən Avropa vokal məktəbinə keçmiş, Azərbaycan milli ifa sənətinin ən yaxşı üsullarını rus və Avropa məktəbi ilə sintez etmiş və Azərbaycanda yeni vokal məktəbi yaratmış böyük incəsənət xadimidir.

Azərbaycan muğam sənətinin korifeylərindən, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri olan Xan Şuşinski (1901-1979) Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməmişdir. Bu mənada, dahi bəstəkarın "Qara göz" mahnısının ilk ifaçısı olmuş və mahnını yüksək zövqlə oxuyaraq yaşatmışdır. Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" dəsgahları, "Qarabağ şikəstəsi", "Arazbarı" və "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tutmuşdur. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxumuş, onlara yeni çalarlar aşılamışdır. Xan əsl yaradıcı sənətkar kimi milli musiqi xəzinəsini yeni mahnılarla zənginləşdirmişdir. Bu baxımdan onun "Qəmərim" və "Şuşanın dağları" mahnıları dillər əzbəri olmuşdur. Beləliklə, Xan Şuşinski Azərbaycan musiqi mədəniyyətini ölkəmizdə və xarici dövlətlərdə yüksək səviyyədə və layiqincə təmsil etmişdir.

Azərbaycan musiqi mədəniyyətinin ən böyük şəxsiyyətlərindən biri olan Əfrasiyab Bədəlbəylinin (1907-1976) XX əsrdə Azərbaycan bəstəkarlıq məktəbinin, peşəkar dirijorluq sənətinin, musiqi elminin, musiqi publisistikası və tənqinin inkişaf və nailiyyətlərində misilsiz xidmətləri vardır. Üzeyir bəyin ilk yetirməsi, Üzeyir bəyin ilk dəstəkçisi, ilk peşəkar opera və simfonik dirijoru, ilk milli bəstəkarlıq nəslinin təmsilçisi, bütün Şərqdə ilk professional balet incəsənətinin banisi, ilk musiqi şərqşünası, ilk uşaq baletinin müəllifi, Rusiyada bəstəkarlıq və dirijorluq təhsili alan ilk azərbaycanlı... Təkcə bu "ilk"lərə imza atması, onların müəllifi olması yetərlidir ki, Əfrasiyab Bədəlbəyli şəxsiyyətinin, sənətinin və sənətkarlığının, Əfrasiyab ömrünün və yaradıcılığının Azərbaycan xalqı və mədəniyyəti üçün böyük tarixi dəyəri, yüksək qiyməti, zirvə mövqeyi və əbədiliyi öz həqiqiliyini təsdiq eləsin. Onun yaradıcılığına musiqi xadimləri tərəfindən yüksək qiymət verilmiş, əsərləri haqqında elmi araşdırmalar yazılmışdır.

Ə.Bədəlbəylinin yaradıcılığı çoxşaxəlidir: bəstəkar, dirijor, musiqişünas, publisist, tənqidçi, şərqşünas, librettoçu, jurnalist, folklorçu, musiqi maarifçisi. Yaradıcılığının bütün sahələrində o, eyni dərəcədə professionaldır, ciddir, fəaldır, məhsuldardır, dəyərli və səmimi olmuşdur. Fəaliyyətinin hər bir anını, hər bir məqsədini, bütün yaradıcılıq yolunu və ömrünü Azərbaycan professional musiqi mədəniyyəti və incəsənətinin inkişafına, təbliğinə həsr etmişdir. Ü.Hacıbəyli XX əsr musiqi tarixində Şərqdə Avropa tipli və sintez modelli ilk milli operanın müəllifidirsə, Ə.Bədəlbəyli Şərqdə həmin model əsasına ilk baletin – "Qız qalası"nın müəllifidir. *"Baletin musiqi dramaturgiyası məlum əfsanənin iki personajı arasındakı ziddiyyət, iki gəncin uğursuz sevgisi, xalq və despot hökmdar arasındakı qarşıdurma, xalqın qələbəsi kimi motivlərin maraqlı bədii həlli üzərində qurulmuşdur"* [4, s.129]. Müəllif dahi bəstəkar Ü.Hacıbəylinin musiqidə Şərq-Qərb sintezini baletdə uğurla davam etdirmiş, xalq rəqs melodiyalarımızı ilk dəfə xoreoqrafik dramaturgiyaya gətirmiş, tar alətini əsərin partiturasına daxil etmişdir. Beləliklə, qürurverici haldır ki, bu əsərlə Azərbaycan musiqisində balet janrının əsası

qoyulmuş, qarşıdakı dövrlərdə neçə-neşə istedadlı baletin yazılmasına bədii zəmin yaradılmışdır.

Tədqiqatın nəticəsi olaraq belə bir qənaətə gəlmək olar ki, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyli, Bülbül, Xan Şuşinski və Əfrasiyab Bədəlbəyli kimi Qarabağın görkəmli şəxsiyyətlərinin çoxşaxəli yaradıcılığı Azərbaycan xalqının milli-mədəni irsinin məzmun və keyfiyyət baxımından xeyli zənginləşməsinə səbəb olmuşdur. Bir daha təsdiq olunur ki, belə mükəmməl yaradıcılıq irsi formalaşdıran Qarabağın görkəmli şəxsiyyətlərinin beynəlxalq səviyyədə tanıdılmasına ciddi ehtiyac vardır. Bu məqsədlə, müasir informasiya kommunikasiya texnologiyalarının geniş tətbiq edilməsi ilə əcnəbi dillərdə elekton məlumat bazalarının və yeni rəqəmsal nəşrlərin hazırlanması istiqamətində müvafiq işlərin görülməsi zəruridir.

**Ədəbiyyat siyahısı**

1. Babayeva, G. Qarabağın mədəni irsi xalqımızın misilsiz sərvətidir// Xalq qəzeti. – 2011. – 24 noyabr. – s. 7.
2. Hacıyev, Q. Qarabağın maddi və mənəvi mədəniyyəti / Q.Hacıyev; elmi red. Y.Mahmudlu. – Bakı: Təhsil, – 2010. – 152 s.
3. Hacıyev, Q. Qarabağın maddi və mənəvi mədəniyyətinə bir nəzər // Respublika. – 2011.- 10 aprel. – s. 6-7.
4. Hüseynova, N. XIX-XX əsrin əvvəllərində Qarabağın sosial-mədəni mühiti və milli musiqi mədəniyyətinin inkişaf aspektləri // – Bakı: Dədə Qorqud, – 2014. №1, – s. 127-135.
5. Məsud, A. Qarabağın incisi Şuşa / A.Məsud ; arxiv materiallarının topl. üzrə məsul H.Nərimanoğlu ; red. Y.Əliyev. – Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi, – 2010. – 164 s.

**Taghıyeva Tahmina**

## THE ROLE AND SIGNIFICANCE OF CREATIVITY OF PROMINENT PERSONALITIES OF KARABAKH IN THE ENRICHMENT OF NATIONAL-CULTURAL HERITAGE

**Summary**

The article examines the role and importance of the rich heritage of prominent personalities of Karabakh, its ancient historical land, in the development of Azerbaijani literature and culture. In the national-cultural development of our people, the main aspects of their creativity and idea-content features are studied. Based on the topic of the research, the innovations brought by these prominent personalities to our literature and culture are involved in a comprehensive analysis. The importance

and necessity of promoting the activities of prominent personalities of Karabakh, who raised our national-cultural heritage to a new stage of development, is once again confirmed. In the conditions of today's historical realities, suggestions and recommendations are put forward in the article regarding the issue of properly introducing the historical, cultural, socio-philosophical environment of Karabakh, which the victorious Azerbaijani soldier freed from the enemy, to the international community.

**Ключевые слова:** culture, literature, art, music history, philosophical thought, moral values.

**Тагиева Тахмина**

## РОЛЬ И ЗНАЧЕНИЕ ТВОРЧЕСТВО ВЫДАЮЩИХСЯ ЛИЧНОСТЕЙ КАРАБАХА В ОБОГАТЕНИЯ НАЦИОНАЛЬНО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ

### Резюме

*В статье рассматривается роль и значение богатого наследия выдающихся личностей Карабаха, его древней исторической земли, в развитии азербайджанской литературы и культуры. В национально-культурном развитии нашего народа изучаются основные стороны его творчества и идейно-содержательные особенности. Исходя из темы исследования, всестороннему анализу подлежат новшества, привнесенные этими выдающимися личностями в нашу литературу и культуру. Еще раз подтверждается важность и необходимость популяризации деятельности видных деятелей Карабаха, поднявших наше национально-культурное наследие на новую ступень развития. В условиях сегодняшних исторических реалий в статье выдвигаются предложения и рекомендации по вопросу надлежащего представления международному сообществу историко-культурной, социально-философской среды Карабаха, освобожденного от врага победоносным азербайджанским воином.*

**Ключевые слова:** культура, литература, искусство, история музыки, философская мысль, нравственные ценности.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: tarix üzrə elmlər doktoru Tahirə Həsənzadə**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**SABİR ƏSƏDOV**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: sabir.alim80@gmail.com*

# XX ƏSRİN İKİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDA ANA DİLİ MƏSƏLƏSİ

**Xülasə**

1979-cu il İran İnqilabından inqilabından sonra "Varlıq", "Yoldaş", "Koroğlu", "Ülkər", "Çənlibel", "Dədə Qorqud", "Günəş", "İnqilab yolunda", "Füruği-azadi" və s. mətbuat orqanları qapılarını ana dilində yazan şair və yazıçıların üzünə açıq elan etdilər.

Şah rejimi devriləndən sonra anadilli ədəbiyyatda bir canlanma, oyanış, dirçəliş baş verdi. Yazıçı və şairlər ölkədə baş verən ictimai-siyasi hadisələrin öndəgedənlərindən oldular. Milli-mənəvi dəyərlərin qədrini bilən, qiymətini anlayan hər bir şəxs onu qorumaq, gələcək nəsillərə ötürmək üçün ölümü belə gözə alaraq bu dəyərlərin qorunması üçün əlindən gələni etməyə, bacardığını həyata keçirməyə çalışdı. Bu dövrdə yazan yazıçı və şairlər əsərlərində əsas mövzunu xalq həyatından, xalqın səfil yaşayışından, acınacaqlı vəziyyətindən alırdılar. Onlar gündəlik həyatdan bəhrələnir, üsyan ruhundan, ayrılıq dərdindən irəli gələn əsərlər yaradırdılar.

Bu dövrdə Kərim Məşrutəçi Sönməz, Məhəmmədhüseyn Şəhriyar, Əziz Səlami kimi şairlər vətənə, doğma türk dilinə həsr olunmuş şeirlər yazmışlar.

***Açar sözlər:*** *Kərim Məşrutəçi Sönməz, Məhəmmədhüseyn Şəhriyar, Əziz Səlami, mühacir poeziyası, İran inqilabı, ana dili.*

"Zaman-zaman baş qaldıran milli oyanış hər şeydən əvvəl anadilli ədəbiyyatda özünü göstərib. Burada yaranan ədəbiyyat milli azadlıq hərəkatı ilə həmişə yanaşı addımlayıb. Hər inqilabdan, xalq hərəkatından sonra mədəni həyatda da irəliləyiş olub" [4, s.9].

1979-cu il İran inqilabından sonra da belə oldu. Şah rejimi devriləndən sonra anadilli ədəbiyyatda bir canlanma, oyanış, dirçəliş baş verdi. Yazıçı və şairlər ölkədə baş verən ictimai-siyasi hadisələrin öndəgedənlərindən oldular. Milli-mənəvi dəyərlərin qədrini bilən, qiymətini anlayan hər bir şəxs onu qorumaq, gələcək nəsillərə ötürmək üçün ölümü belə gözə alaraq bu dəyərlərin qorunması üçün əlindən gələni etməyə, bacardığını həyata keçirməyə çalışdı. Məlumdur ki, son iki əsr ərzində Cənubi Azərbaycanda xalqın dili, ədəbiyyatı, milli-mənəvi dəyərləri fars şovinist rejiminin siyasi təzyiqləri və qadağaları altında əzilmiş, zülmə məruz qalmışdır. Pəhləvi rejiminin sərt işgəncələri altında min bir əziyyət çəkən xalq və bu

xalqın yaradıcı ziyalıları, şair və yazıçıları yeni bir mühitin və yaşayışın yaranacağına böyük ümidlərlə bel bağladılar. Anadilli poeziya yeni inkişaf mərhələsinə qədəm qoydu. İnqilabdan sonrakı Güney Azərbaycan ədəbiyyatında ana dilində yazan sənətkarları birləşdirən, onları bir qayə altında oxşar mövzulara kökləyən xeyli səbəb vardı. Bu səbəblər vətən, azadlıq, milli dil, ayrılıq və s. ilə bağlı idi. Həmin dövrdə yazılmış, qələmə alınmış əsərlərə diqqət yetirərkən, onları təhlil edərkən bütün bu deyilənlərin əyani şahidi olursan.

Almaz Əli qızı Məmmədova özünün "Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər, şeir və nəsr)" mövzusunda dissertasiya işində yazır: "Fevral inqilabı həmişə olduğu kimi, yenə də Təbrizdən başlandığına görə ən böyük təsir və güclü reaksiya da Cənubi Azərbaycan poeziyasında özünü göstərirdi. On illərlə dili bağlanmış, gözünü tək-tək nəşrlərə dikmiş Azərbaycan xalqı aşıb-daşan ana dilli şeirləri kütlələr arasında yaymaq üçün çıxış yolu axtarırdı. Belə bir yol tapıldı: Tehranda və Cənubi Azərbaycanın özündə neçə-neçə qəzet-jurnalın nəşrinə başlanıldı. Qısa müddətdə "Varlıq", "Yoldaş", "Koroğlu", "Ülkər", "Çənlibel", "Dədə Qorqud", "Günəş", "İnqilab yolunda", "Füruği-azadi" və s. mətbuat orqanları Azərbaycan ədəbiyyatını, o cümlədən, poeziyanı ümumiran səviyyəsində təbliğinə başladı" [7, s. 189].

Fevral inqilabından sonra yuxarıda adı çəkilən mətbuat orqanları qapılarını ana dilində yazan şair və yazıçıların üzünə açıq elan etdilər. Bu da özlüyündə yaranan anadilli əsərlərin kitablarından çox mətbuat orqanlarında, qazet və jurnallarda dərcinə və yayılmasına səbəb oldu. Yaradıcı insanlar nə vaxtsa başlarına gətirilə bilərək terror və repressiyalardan qətiyyən çəkinməyərək və qorxmayaraq ana dilimizdə yeni sənət nümunələri yaratdılar. Anadilli ədəbiyyat və anadilli mətbuat nəzərə çarpacaq dərəcədə artdı. Doğrudur, hələ o vaxt bu cür mətbuat orqanlarının, qəzet və jurnalların ömrünün nə qədər olacağı hələ heç kəsə məlum deyildi. Təəssüf ki, onların çoxu tez bir zamanda bağlandı, uzun ömür yolu yaşaya bilmədi. Amma buna baxmayaraq, onların poeziyanın və Güney Azərbaycan ədəbiyyatının gələcək işlərində təsiri və mayak rolunu oynaması danılmaz faktdır. Bir tərəfdən inqilab dövrü şairləri, yuxarıda da qeyd etdiyimiz kimi, ana dilində yeni üslublu və mübarizə ruhlu əsərlər yazmağı qarşılarına məqsəd qoymuşdular. Bir qrup üsyankar ruhlu yaradıcı gənc bu amal uğrunda cəsarətlə irəliləyirdi. Həmin gənclərlə bərabər haqq yoluna çıxmış orta və yaşlı nəslin nümayəndələri də var idi.

"Anadilli mətbuatın boy və say artımı Cənubi Azərbaycan poeziyasının inkişafına təsirsiz qala bilməzdi. İllər boyu arxivlərdə yatıb qalan şeirlər işıq üzü görür, ürəklərdə nisgilə dönən arzular, ideyalar üzə çıxır, çağdaş vəziyyətlə əlaqədar yazılmışlar xalqa çatdırılırdı" [7, s. 189-190].

Bu dövrdə yazan yazıçı və şairlər əsərlərində əsas mövzunu xalq həyatından, xalq məişətindən, xalqın səfil yaşayışından, acınacaqlı vəziyyətindən alırdılar. Onlar gündəlik həyatdan bəhrələnir, üsyan ruhundan, ayrılıq dərdindən irəli gələn əsərlər yaradırdılar.

İnqilab dövründə xalqın öndə gedən nümayəndələrindən biri Kərim Məşrutəçi Sönməz idi. Sönməz 1928-ci ildə Təbrizdə doğulmuşdu. İran inqilabı zamanı onun 51 yaşı var idi. 1979-cu ildə İran inqilabından sonra "Varlıq" jurnalı ilə sıx əməkdaşlıq edənlərdən biri də məhz Sönməz idi. Yaradıcılığı birbaşa xalqın həyatına, dərdinə, istək və arzularına, xəyallarına bağlı olan Sönməz insanların çəkdiyi əzab-əziyyətlərə acıyan, yanan şairlərdəndir. O, mövcud vəziyyətlə barışmaq istəmir, Vətəndə vətənsiz yaşadığı üçün heyfslənir, dərd çəkirdi. O, "Mənsizləmişəm" şeirində fikirlərini bu cür ifadə edirdi:

Əskidən şanlı-şərəfli el idim,
Zalıma qarşı amansız sel idim.
Zirvəsi çənli-dumansız bel idim
İndi, müddətdi ki, sənsizləmişəm.

Məndə, ərdəmli ərənlər yaşamış,
Səttara, Babəkə tənlər yaşamış,
O qədər eləcə, bilənlər yaşamış,
İndi mən arsız-ərənsizləmişəm [3, s.322].

Şair burda keçmişini unutmur, kimliyini, hardan gəldiyini, kim olduğunu xatırladır. Zalıma, qaniçənə qarşı amansız olduğunu nəzərə çatdırır, yüksək əzmlə bəyan edir. Daha sonra, şair, Səttarın, Babəkin nəslindən olduğunu söyləyir. Keçmişini, kim olduğunu unutmamağa çağırır. Eyni zamanda özünü məzəmmət edir, qınayır:

"Dərdimin yox adı, ünvanı", – desəm,
Heyrətə qaldırar insanı, desəm,
Başqa bir sözlə bu mənanı desəm:
Öz diyarımda, vətənsizləmişəm.

Dərd məni yandırır, amma odu yox,
Odur ağzımda həyatın dadı yox,
Demirəm dərdlilər içrə adı yox,
Deyirəm: mən belə mənsizləmişəm.

Ey mənim mənliyim, imdadima yet,
Bircə gəl mənlə qovuş, dadıma yet!
Məni bas bağrına, fəryadıma yet,
Axı mən gör necə sənsizləmişəm [3, s.208].

Bu misralarda ifadə olunmuş fikir, öz diyarında yurdsuzlaşmaq, vətənsizləşmək şairə acı verir, qəlbini ağrıdır. Dərd şairi yandırır, ağzında həyatın dadı yoxdur. Sənətkar haqsızlıqla və ədalətsizliklə barışmır, mənliyini, kimliyini köməyə çağırır.

Hələ 1979-cu il inqilabına kimi nə qədər təhlükəli də olsa, şairlər yazdıqları əsərləri çap etdirməklə xalqda özünə qayıdış, milli ruh aşılamağa çalışırdılar.

İnqilabdan sonra əsər yazan sənətkarlar isə artıq yazdıqlarını, əsasən, Azərbaycan dilində qələmə alırdılar. Şah rejimi zamanı dilə qarşı qoyulmuş qadağalar şüuraltı qatlarda cücərib üzə çıxır, ana dilimizdə yazılan əsərlərin sayı anbaan artırdı. Bütün bunlar ana dilinin poeziyadakı işinə yeni təkan verdi. Bir sözlə, 1979-cu il inqilabından sonra Cənubi Azərbaycan şairlərinin arasında ana dilində yazmaq meylləri daha da gücləndi. Bu dirçəliş böyük bir mərhələnin başlanğıcı idi. Dövrün şairləri həm öz əsərlərini ana dilində yazır, həm də qələm dostlarını əsərlərini ana dilində yazmağa səsləyirdilər.

Ötən əsrin 80-ci illərində güneyli yazarlar ana dili poeziyada milli-mənəvi dəyərlərin mühafizəçisi mövqeyində çıxış edirdi. Çünki Güney Azərbaycan şeirinin əsas nümunələri ana dilimizdə yaranırdı və bu poeziya öz gücünü xalq həyatından, gündəlik yaşayışdan alırdı. 1979-cu il inqilabından sonra Cənubi Azərbaycanda ana dilimizdə yazmaq ənənəsi genişlənsə və çoxalsa da, biz yazılan əsərlərin ana dilində meydana çıxmasını yalnız həmin illərə aid edə bilmərik. İllər öncə Şəhriyarın ana dilimizdə yazdığı əsərlər var idi. Onun ana dilində yazdığı "Heydərbabaya salam" poemasını hələ 1954-cü ildə iki dəfə Təbrizdə çap etdirmişdi. Bu poema zamanında otaylı-butaylı Azərbaycanda dillər əzbəri olmuşdu. Canlı xalq dilində yazılmış bu poema, eyni zamanda, həm də Azərbaycan ədəbi dilinin bədii imkanlarını ortaya qoymuş, Güney poeziyasında yeni yol müəyyən etmişdi:

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar[5, s. 22], – deyən şair 1969-cu ildə "Türkün dili" [Bax: 2, s. 126] şeirini yazmış və bu şeirdə dilimizə qarşı biganəliyə etiraz etmiş, ciddi mətləblərə toxunmuşdur

Şəhriyarın ana dilində yazdığı əsərlər özündən sonra yaranan anadilli ədəbiyyata ciddi təsir göstərmiş, inqilab ruhlu əsərlərin yaranmasında mayak rolunu oynamışdır.

Filologiya üzrə fəlsəfə doktoru Bahar Bərdəli "Cənubi Azərbaycan mühacir poeziyası" (1947-1990) adlı monoqrafiyasında yazır: "Fevral inqilabından sonra yaranan ədəbiyyat, xüsusilə poeziya da birdən-birə meydana çıxmadı. İnqilab ərəfəsində Azərbaycan xalqına olan zülm daha dözülməz idi. Xalqın şaha, onun üsul-idarəsinə olan nifrəti son həddə çatmışdır. Bu qəzəbin, nifrətin güclənməsində şairlər, onların yaradıcılığı da az rol oynamırdı. Fəhlə həyatının bədii inikası 1979-80-ci illər poeziyasının əsas mövzusu idi. Vətənpərvər şair Haşım Tərlanın Abadan neft fəhlələrinin məşəqqətli həyatından, mübarizəsindən söz açması, bir çox şeirlərində Cənubda baş verən aclıqdan, səfalətdən bəhs edən lövhələr yaratması dövrünün əks-sədası idi" [1, s.71].

Cənubi Azərbaycan ədəbiyyatının bir qolunu mühacirətdə yazıb-yaradan sənətkarlar inkişaf etdirirdilər. Bir sözlə, Cənubi Azərbaycan ədəbiyyatından, bu

ədəbiyyatın keçdiyi inkişaf yolundan, poeziyasından danışarkən mühacir şairləri mütləq xatırlamaq yerinə düşər. Bir məsələni də xatırlamaq vacibdir ki, mühacir şairlər öz yurd-yuvalarından ayrı düşsələr də, bir an belə öz doğulduqları bölgələri heç vaxt unutmamış, hər an qəlbləri bu həsrətlə döyünmüşdür.

İran inqilabı zamanı şah rejiminə qarşı etiraz edən şairlərdən biri Əziz Səlamidir. Əziz Səlami 1953-cü ildə Miyana kəndində anadan olub. İran inqilabından sonra vətəni tərk edib mühacir həyatı yaşamağa məcbur olub. Az müddət Şimali Azərbaycanda yaşayıb. Sonradan Almaniyaya köçüb.

Əziz Səlami çağdaş şeirinin yol göstərənlərindən biridir desək, yanılmarıq. Onun "Günəş mahnıları" şeiri yaradıcılığı haqqında məlumat əldə etməyə şərait yaradır:

Babil –
İsadan yeddi yüz il öncə,
"Gilqamış" eposundan.
Sıx bir qaranlıqdı,
Bir işartı yoxdur bu işıqdan.
Qaranlıqda heç görünmürdü
Onun önündə və ardında olan.
Gəlib-keçdi ikiqat doqquz saat,
Bu zaman duydu o quzey yolunu,
Azaldı qaranlıq və işıq yaxınlaşdı… [4, s. 49].

Bu şeirdə söz yığını yoxdur. Bu şeirdə ədəbi fakt, ədəbi deyim tərzi özünü göstərir. Bu şeir sanki bir tablonu xatırladır. Aydın məsələdir ki, ədəbiyyat təkcə düşüncənin və ədəbi təfəkkürün bəhrəsi deyil. O həm də digər ədəbi proseslərlə, ədəbiyyatçılarla, xarici ədəbiyyatla tanışlığın, əlaqənin və müzakirənin sayəsində yaranıb. Eyni xüsusiyyətləri Əziz Səlaminin yaradıcılığında da görürük. Şairin yaradıcılığında qəriblik hissinin qabarıq və geniş ifadəsi var. Bunun üçün onun "Qərib külək" adlı şeirinə baxmağımız kifayətdir:

Bu külək hardan gəlir, görəsən?
Qərib-qərib dəyir saçlarıma
Ürkək-ürkək toxunur üzümə,
Oynayır kövrək barmaqları havada
Toxunmayır alnıma
Qəlbimdə gözləyən bu sazın
Həsrətli tellərinə.
Bu gülək hardan gəlir görəsən?! [6, s.233]

Mühacir ömrü yaşayan şairlərin yaradıcılığında doğma yurd həsrəti, ikiyə bölünmüş Azərbaycanın ağrı-acıları, yurddaşlarımızın başlarına gətirilmiş faciələrin təsviri və bədii ifadəsi ön planda verilirdi.

Filologiya üzrə fəlsəfə doktoru Bahar Bərdəli "Cənubi Azərbaycan mühacir poeziyası"(1947-1990) adlı monoqrafiyasında yazır: "1970-90 ci illərdə mühacir

şairlər artıq müdrik yaş həddinə çatmışdılar. İndi onların poeziyasında həyat, dünya, ölüm, olum kimi fəlsəfi düşüncələr yer tuturdu. Yüksək pafoslu, inqilabi-romantik şeirlər öz yerini sakitcə həyat fəlsəfəsinə güzəştə gedirdi. Dünyanın hər üzünü görmüş, taleyin bəxş etdiyi ağrı-acıları yaşamış bu şairlər təbii ki, onun amansızlığını, vəfasızlığını, hər bir insan üçün ötəri, ani olduğunu da poetik dildə deməliydilər. Və hər kəs bu fəlsəfi yüklü şeirləri öz duyduğu, düşündüyü, gördüyü kimi qələmə alırdı" [1, s.78].

Bəli, Bahar xanımın da dediyi kimi, inqilabdan sonra yaranan ilk ədəbiyyat nümunələri, şeirlər və poemalar səs-küylü, nifrət və qəzəb duyğuları ilə dolu idisə, getdikcə bu nümunələr öz yerini fəsəfi-romantik yazılara verirdi. Artıq zaman keçdikcə Cənubi Azərbaycan poeziyasında həm Şimallı şairlərin, həm də müasir Avropa poeziyasının təsirləri duyulurdu. Bu təsir eyni zamanda yeni meydana çıxan gənc nəslin nümayəndələrini bir-biri ilə birləşdirirdi. Onu da qeyd etməliyik ki, son illərdə yaranan ədəbiyyatda, ortaya çıxan şairlər arasında ana dilində yazmaq ənənəsinin daha geniş vüsət aldığının və yayılmasının şahidi oluruq.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

**1.** Bərdəli, B. Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990) / B.Bərdəli. – Bakı: Elm və təhsil, – 116 s.
**2.** Cənubi Azərbaycan antologiyası: [dörd cilddə] / tərt.ed. Z.Əkbərov, T.Əhmədov, B.Abdullayev [və b.] – Bakı: Elm, – 1988. – 552 s.
**3.** Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018. – 671 s
**4.** Güney Azərbaycan antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015. – 362 s.
**5.** Məhəmmədhüseyn Şəhriyar. Heydərbabaya salam / Şəhriyar Məhəmmədhüseyn. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1964. – 24 s.
**6.** Məmmədli, P. Cənubi Azərbaycanda ədəbi-bədii prosesin inkişaf mərhələləri / P.Məmmədli. – Bakı, – 2021. – 318 s.
**7.** Məmmədova, A.Ə. Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər, şeir və nəsr) / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1993. – 344 s.

**Сабир Асадов**

## В ПОЭЗИИ ЮЖНОГО АЗЕРБАЙДЖАНА ВТОРОЙ ПОЛОВИНЫ XX ВЕКА ПРОБЛЕМА РОДНОГО ЯЗЫКА

### Резюме

После иранской революции 1979 года «Варлыг», «Йолдаш» (Товарищ), «Кероглу», «Улкар», «Чанлибель», «Деде Горгуд», «Гюнеш», «Ингилаб йолунда» (Во имя революции), «Фуруги-азади» и др. агентства печати открыли свои двери для поэтов и писателей, пишущих на их родном языке.

После свержения шахского режима произошло возрождение, пробуждение, возрождение литературы на родном языке. Писатели и поэты стали лидерами общественно-политических событий в стране. Каждый человек, который ценит и понимает значение национальных и нравственных ценностей, всеми силами старался сохранить эти ценности, защитить их и передать будущим поколениям. Писатели и поэты, писавшие в этот период, брали основную тему своих произведений из народной жизни, нищенской жизни народа, его бедственного положения. Они извлекали пользу из повседневной жизни и создавали произведения, проистекающие из духа бунта и боли разлуки.

В этот период такие поэты, как Карим Машрутачи Сонмез, Мухаммад Хусейн Шахрияр, Азиз Салами написали стихи, посвященные родине, родному тюркскому языку.

***Ключевые слова:*** *Карим Машрутачи Сонмез, Мухаммад Хусейн Шахрияр, Азиз Салами, эмигрантская поэзия, Иранская революция, родной язык.*

**Sabir Asadov**

## THE PROBLEM OF THE NATIVE LANGUAGE IN THE POETRY OF SOUTH AZERBAIJAN IN THE SECOND HALF OF THE XX CENTURY

After the Iranian revolution of 1979, “Varlyg”, “Yoldash” (Comrade), “Koroglu”, “Ulkar”, “Chanlibel”, “Dede Gorgud”, “Gunesh”, “Ingilab Yolunda” (O the way of the revolution), “Furugi-Azadi” and other press agencies opened their doors to poets and writers writing in their native language.

After the overthrow of the Shah’s regime, there was a revival, an awakening, a rebirth of literature in the native language. Writers and poets became leaders of social and political events in the country. Every person who appreciates and understands the significance of national and moral values, tried with all his might to preserve these values, protect them and pass them on to future generations. Writers and poets who wrote during this period took the main theme of their works from the

life of the people, the miserable life of the people, their plight. They benefited from daily life and created works arising from the spirit of rebellion and the pain of separation.

During this period, such poets as Karim Mashrutachi Sonmez, Mohammad-Hossein Shahriar, Aziz Salami wrote poems dedicated to their homeland, their native turkic language.

***Key words:*** *Karim Mashrutachi Sonmez, Mohammad-Hossein Shahriar, Aziz Salami, emigrant poetry, Iranian revolution, native language.*

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya elmləri doktoru, professor Vüqar Əhməd**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**AYTAC MEHMAN QIZI HƏSƏNOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**hesenovaaa1905@gmail. com**

# ŞAGİRDLƏRİN FƏALİYYƏTİNDƏ MOTİVASİYANIN ƏHƏMİYYƏTİ

**Xülasə**

Müasir dövrdə həyatın bütün sahələri sürətlə inkişaf edir. Hər kəs öz peşəsində olan yeniliklərlə uyğunlaşmağa çalışır. O cümlədən, müəllimlər də öyrənənlərin təhsilə olan marağını artırmaq üçün müxtəlif motivasiyaedici üsulları araşdırır və tədris prosesində tətbiq edir. Motivasiya tədris prosesinin vacib hissəsidir. Hər kəsin həyatında motivasiya mühüm rol oynayır. Həmçinin motivasiya davranışa təşviq edən və istiqamətləndirən prosesdir. Tədris zamanı əzbərçilik etmədən uğurlu öyrənmə və yadda saxlamanın təmin edilməsi motivasiyadan çox asılıdır. Bu məqalədə şagirdlərin fəaliyyətində motivasiyanın əhəmiyyəti araşdırılıb, təhlil olunmuşdur. Şagirdləri motivasiya etməyin bir çox yolları vardır. İlk növbədə müəllim öz pozitiv nitqi ilə tələbələrin diqqətini çəkməyi bacarmalıdır. Müəllim təhsilalanları motivasiya edərək onların dərsə olan marağını daha da artırmalıdır. Motivasiya elə formada tətbiq olunmalıdır ki, şagird və ya tələbələrin fəaliyyətində irəliləyiş kəskin surətdə artsın. Tələbələrin motivasiyasına təsir edən amillərdən biri də qiymətləndirmıə prosesidir. Dərs prosesi və ya imtahan zamanı alınan qiymətlər onların motivasiyasına müsbət və ya mənfi şəkildə təsir göstərir. Əgər biz şagirdlərin motivasiyasını artırmaq istəyiriksə, mükafatlandırma metodundan da istifadə edə bilərik.

**Açar sözlər:** şagird, motivasiya, qiymətləndirmə, müəllim, mükafatlandırma

# THE IMPORTANCE OF MOTIVATION IN STUDENTS' ACTIVITY

**Summary**

Nowadays,all areas of life are developing rapidly. Everyone tries to adapt to the innovations in their profession.Teachers also investigate motivational methods and make use of them in the teaching process in order to increase student's in learning. Motivation is an important part of the educational process. Motivation plays an important role in everyone's educational life. It is also a process that encourages and directs behavior. The provision of successful learning and memorization without rote learning depends on motivation a lot.In this article the role of motivation in student's learning is investigated and analyzed. There are many ways to motivate students. First of all, the teacher must be able to involve the attention of students with his

speech. The teacher should motivate the students and increase their interest in the lesson. Motivation should be applied in such a way that the progress in the activity of the pupils or students increases sharply. One of the factors affecting students' motivation is the assessment process. The grades obtained during a lesson or exam have a positive or negative effect on students' motivation. If we want to increase student motivation, we can also use the reward method.

**Key words:** student, motivation, assignment, teacher, praising

## ЗНАЧЕНИЕ МОТИВАЦИИ В ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

**Резюме**

В современное время стремительно развиваются все сферы жизни. Каждый старается не отставать от новшеств в своей профессии. Поэтому для того, чтобы цели и мечты реализовывались, интерес учащихся к урокам, особенно к обучению иностранному языку, должен быть должным образом мотивирован. Мотивация является важной частью образовательного процесса Мотивация играет важную роль в образовательной жизни каждого человека. Кроме того, мотивация - это процесс, который поощряет и направляет поведение. Успешное обучение без заучивания во время обучения и обеспечение запоминания очень зависит от мотивации. В данной статье исследуется и анализируется значение мотивации в деятельности учащихся. Существует множество способов мотивации учащихся. Прежде всего учитель должен уметь привлекать внимание учащихся с его положительной речью.должны увеличиваться дальше. Мотивация должна применяться таким образом, чтобы прогресс в деятельности ученика или учеников резко возрастал. Одним из факторов, влияющих на мотивацию учащихся, является процесс оценивания. Оценки, полученные в ходе урока или экзамена, положительно или отрицательно влияют на их мотивацию. Если мы хотим повысить мотивацию студентов, мы также можем использовать метод вознаграждения.

**Ключевые слова**: ученик, мотивация, оценивание, учитель, награждение

Motivasiya təhsil sisteminin ən önəmli komponentlərindən biridir. Motivasiya mürəkkəb bir prosesdir və bura insanın maraqları, idealları, istəkləri, gündəlik vərdişləri, məqsəd və emosiyaları aid edilir. Motivasiya bizi nələrisə etməyə təşviq edən gücdür. Elə motivasiya sözünün kökü olan "motiv" sözünün mənası da "təkan" deməkdir. Bu təkan bəzən kifayət qədər güclü olur, bəzənsə tükənir və funksiyasını dayandırır. Motivasiyalı qalmağın ən yaxşı yolunu tapmaq üçün motivasiya üslubunuzu müəyyənləşdirməlisiniz. Motivasiya üslubunuzun nə olduğunu bilmək motivasiyalı qalmağın da açarıdır. Çünki motivasiya bizim davranışımızı dəyişdirir.

İstifadə etdiyimiz motivasiya üslubundan asılı olaraq, düşüncəmiz dəyişə bilər. Bir motivasiya üslubu bizi uzunmüddətli ruhdan sala biləcəyi kimi, digər bir motivasiya üslubu bizi irəli apara bilər. Həmçinin qarşımıza qoyduğumuz məqsədə, hədəfə çatmaq üçün də bu ən güclü stimuldur. Əlbəttə motivasiya üslubu deyildikdə xarici və daxili motivasiya nəzərdə tutulur.

Xarici motivasiya ətrafımızdakı şeylərin bizi motivasiya etməsidir. Nümunələrə Youtube videoları, motivasiya edən natiqlər, afişalar və ya bizə ilham verən məqalələri göstərə bilərik.

Daxili motivasiya xarici motivasiyanın əksidir. Daxili motivasiyanın daha üstün olduğuna inanılır. Daxili motivasiyanın ən yaxşı nümunələrindən biri məqsədlərimizə çatma səbəblərimizdir. Bu motivasiya növlərinin hər ikisi vacibdir və həlledici rol oynayır.

Tədris zamanı əzbərçilik etmədən uğurlu öyrənmə və yaddasaxlamanın təmin edilməsi motivasiyadan çox asılıdır. Öyrənmənin keyfiyyətini artırmaq üçün müxtəlif fəaliyyətlərdən istifadə edərək, dialoqlar quraraq, oyunlar tətbiq edərək təhsilalanları motivasiya etmək olar. Müəllim şagird və ya tələbələrdə öyrətdiklərinə qarşı maraq yaratdıqda təhsilalanlar mənimsədiklərini daha asan, keyfiyyətli mənimsəyə bilərlər. Yaxşı öyrətməyin şərtlərindən bir də müəllimin dərs zamanı təhsilalanların diqqətini dərsə yönəldə bilməsidir. Bu baxımdan dərs müddətində şagird və ya tələbələrin diqqətini tədris edilən mövzu üzərinə yönəltmək ən zəruri şərtlərdəndir. Öyrədilən mövzunun daha yaxşı yadda saxlanılması müəllimin məqsədlərindən biri olmalıdır.

Tədris sistemində motivasiyanın mərkəzi strukturunda insan dayanır. Hər insan fərqli xarakterə malik olduğundan, müxtəlif formada motivasiya edilir. Bildiyimiz kimi təlim-tədris prosesində şagirdlərin rolu, müəllim-şagird münasibətləri, valideynlərin onlara olan yanaşması vacib faktorlardır və daim diqqət mərkəzində saxlanılmalıdır.

Tədris prosesində müəllimlər hər zaman "Şagirdləri öyrənməyə necə həvəsləndirmək olar?" "Təhsilə motivasiyanı necə artırmaq olar?" kimi suallara cavab tapmağa çalışırlar.

Hər bir şagird fərqli xarakterik xüsusiyyətlərə malikdir. Buna görə də, müəllim dərs zamanı müxtəlif vəzifələri icra edərək, onları motivasiya etməli, düzgün hədəfə doğru yönəltməlidir. İlk olaraq, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Çünki, erkən yaş dövründə uşaqlar öyrənməyə daha həvəsli olurlar və onların motivasiyaları da yüksək olur. Ancaq yeniyetmələr onlara nisbətdə daha az motivasiyalı olur və tez ruh düşkünlüyü yaşayırlar. Xüsusi ilə də orta məktəb dövründə şagirdlərdə "şəxsiyyət" problemi ön mövqedə dayanır. Bu yaş dövründə şagirdlər müəllim və valideyndən daha çox öz dostları, həmyaşıdları ilə əlaqə qurur və hər hansısa bir məqsədə çatmaqda bir-birlərini motivasiya edirlər. Həm valideynlər, həm də müəllimlər uşaqlarda təhsil motivasiyasını artırmaq barədə düşünürlər. Çünki motivasiyalı uşaqlar daim məşğul olmağa, daha yaxşı öyrənmə

nəticələrinə sahib olmağa və standartlaşdırılmış nailiyyət testlərində digər uşaqlardan daha yaxşı çıxış etməyə meyillidirlər.

Motivasiya prosesində qiymətləndirmə vacib rol oynayır. Dərs prosesi müddətində uşaqlar "yaxşı", və ya "pis" qiymətlər ala bilərlər. Bütün bunlar onların motivasiyasına əsaslı şəkildə təsir göstərir. "Yaxşı", "əla" qiymətlər aldıqları zaman bu onlara müsbət təsir göstərir, motivasiyalarını artırır, dərs prosesində daha aktiv şəkildə iştirak etmələrinə şərait yaradır. Həmçinin onlar növbəti dərsə daha yaxşı hazırlaşır və müəllimin verdiyi tapşırıqları həvəslə yerinə yetirirlər. Lakin zəif qiymət şagirdləri motivasiyasından salır, tapşırıqları yerinə yetirməyə olan həvəsləri azalır. Ona görə də, müəllim uşaqları qiymətləndirərkən, bu qiymətləndirmənin nəyə əsasasən aparıldığını vurğulamalıdır. Qiymətləndirmə aydın, birmənalı olmalıdır. Tədris ilinin sonunda müəllim qiymətləndirmə zamanı sadəcə öyrənənlərin zəif cəhətlərini yox, həm də onların güclü tərəflərini də qeyd etməlidir.

Motivasiya prosesi zamanı müəllimin verdiyi geridönüşlər də vacibdir. Bir çox hallarda müəllim uşaqları dinlədikdikdən sonra onları motivasiya edən "Əla", "Cavabın tamamilə doğrudur", "Afərin", "Sənlə fəxr edirəm!", "Əhsən!" kimi ruhlandırıcı sözlərdən, cümlələrdən istifadə etməlidir. Bütün bunları eşitmək təhsilalanları daha da həvəsləndirir. Çünki sözlə təqdir etmək, yəni tərifləmək diqqət göstərməyin əla üsuludur. Bəzən isə müəllimlər bir şagirdi dinlədikdən sonra heç bir şey demədən növbəti şagirdi dinləməyə başlayır və digər şagird diqqətdən kənar qaldığını düşünür. Belə olduqda, həmin şagirdin dərsdə iştirakına olan maraq azalır və motivasiya sıfırlanır.

Müəllim təkcə sinifdə yox, həmçinin sinifdənkənarda şagirdlərlə maraqlanmalı, onların daxili istəklərini nəzərə almalıdır. Həm müəllim, həm də şagirdlər bir-birini tanımalı və işgüzar münasibət qurmalıdır. O zaman şagirdlər həyatdan razı qalacaq və bir şəxsiyyət kimi formalaşmağa başlayacaqlar. Bu da şübhəsiz ki, onların daxili motivasiyasına təsir edəcəkdir.

Motivasiyanın artmasında şagird və müəllim arasındakı əlaqə modeli əsasdır. Hansı əlaqə modelinin daha yaxşı işlədiyini müəyyən etmək üçün müxtəlif əyləncəli fəaliyyətlərdən və məşqlərdən istifadə etmək olar. Müəllimlərin avtoritar nəzarəti ilə şagirdlərin seçim azadlığı arasında tarazlıq yaratmağı vacibdir. Müxtəlif, interaktiv oyunlar təşkil etmək, qrupla və ya cütlərlə iş şagirdləri daha çox həvəsləndirir. Öyrədici oyunlar oynamaq, bir-birlərinə suallar vermək, əyləncəli rəqabət mühiti yaratmaq motivasiyanı artıran amillərdəndir.

Motivasiya müəyyən bir şagirdin öz sosial mühitinə baxışından irəli gələn və bu şagirdi çox və ağıllı oxumağa sövq edən bir növ güclü stimuldur. Şagirdlərin motivasiyasının artırılması yollarından biri də mükafatlandırma metodundan istifadə etməkdir. Skinner və başqaları mükafatlandırma haqqında müəyyən fikirlər irəli sürmüşdülər. Skinnerə görə motivasiyalı davranış əvvəlki oxşar davranışların nəticələrindən yaranır. Əgər şagirdlər müəyyən davranışlarına görə

mükafatlanıblarsa, onlar onu böyük həvəslə yenidən təkrar edirlər. Əksinə olduqda isə onların marağı itir və nəticələr zəif olur.

Müəllimlər sinifdə nazarəti necə əldə saxlaya bilər? Skinner inanırdı ki, pozitiv mükafatlandırmanın tətbiqi daha uğurlu olacaqdır. Şagird və ya tələbələr yaxşı nəticələrə görə mükafatlandırılmalı və səhv cavablara görə cəza almamalıdırlar. Motivasiya zamanı həvəsləndirmə və mükafat çox önəmlidir. Ata və ananın dilindən söylənilən adi həvəsləndirici ifadələr onların diqqətini cəlb edərək, çalışan uşağa böyük stimul verə bilər. Lakin buna baxmayaraq, bəzi uşaqlara təlim materiallarını mənimsətmək üçün daha güclü motivasiya tələb olunur. Belə hallarda uşağı mükafatlandırmaq yaxşı nəticə verir. Amma həmçinin, valideynlər də bu mövzuda diqqətli olmalıdırlar. Mükafat böyük olmamalıdır. Çünki əsas məqsəd təlim fəaliyyətinin öndə tutulmasıdır. Mükafat uşağın şəxsi maraqlarından qaynaqlansa yaxşıdır. Məsələn, mükafat dostları ilə daha artıq vaxt keçirmək, sevdiyi oyunları oynamaq, cizgi filmi izləmək ola bilər. Bəzən valideynlər bu baxımdan böyük səhvlərə yol verirlər. Mükafat heç bir halda pul formasında olmamalıdır.

Məqsədyönlü uşaqlar daha rahat idarə olunurlar və daha effektli öyrənirlər. Ona görə də valideynlər və müəllimlər bu imkanlardan istifadə etməlidirlər. Düzgün təlim strategiyası və qiymətləndirmənin nəticəsi belə uşaqlara möcüzəvi təsir edir. Amma bəzi uşaqlar yüksək motivasiyalı və məqsədyönlü olmurlar. Onlar çətinliklə öyrənirlər və yavaş-yavaş uğur əldə edirlər. Belə uşaqların inkişafına dəstək olmaq üçün valideynlər xüsusi şərait yaratmalıdırlar və övladlarını daima motivasiya etməlidirlər. Valideynlər uşaqları motivasiya etmək üçün onlara yaxşı kommunikasiya bacarığı aşılaya bilərlər.

Güclü motivasiya edilmiş uşaq, zəif motivasiya edilmiş uşağa nisbətən özünü ifadə edən, məqsədyönümlü, biliklərinə inanan, uğur əldə etməyə can atan biridir. Zəif motivasiya edilmiş uşaq isə əksinə utancaq, qorxaq, ünsiyyətdən çəkinən olur.

Tədris edilən dərsi unutmamağın ən səmərəli yollarından biri də təhsilalanların öyrəndiklərini şüurlu şəkildə anlamağıdır. Əgər müəllim tədris etdiyi materialın şagird və ya tələbələr tərəfindən mənimsənilməsini təmin edərsə, mövzunun yadda saxlanılması həm davamlı, həm də keyfiyyətli olacaqdır.

Şagirdlər arasında motivasiyanın yaradılması yollarından biri də mühitin düzgün yaradılması və ya seçilməsidir. Auditoriya öyrənmək üçün gözəl məkandır. Lakin onun darıxdırıcı olması gözlədiyimiz effekti verməyə bilər. Buna görə də auditoriyanı daima dinamik vəziyyətdə saxlamalıyıq. Dərslərin müxtəlif şəraitdə keçirilməsi, metodların tez-tez dəyişdirilməsi, yeniliklər in tətbiq edilməsi şagirdlərin motivasiyasının artmasına yardımçı olur. Şagirdlər yenilikləri və müxtəlif metodlarla keçirilən dərsləri böyük maraqla izləyirlər. Bəzən şagirdlərin yorğunluğunu unutdurmaq və onların diqqətini toplamaq üçün əyləncəli vasitələrdən istifadə etmək olar ki, bu da onların motivasiyasının artmasına kömək edəcəkdir. Belə üsullardan istifadə etməklə müəllimlər, dərsləri tələbələr üçün daha maraqlı və daha rahat auditoriya şəraiti yarada bilərlər.

Keyfiyyətli öyrənməni təmin edən yolların sayını daha da artırmaq olar. Şübhəsiz ki, müəllimlər burada qeyd etdiyimiz və ya etmədiyimiz digər səmərəli yollardan istifadə edərək təhsilalanları bilik, bacarıq, vərdişlərə yiyələnməsi üçün motivasiya edərsə bu həm onların işini asanlaşdırar, həm də fəaliyyətin uğurunu artırar.

**Ədəbiyyat siyahısı**

1. Dörnyei, Z. - Motivational strategies in the language classroom. Cambridge University Press. (2001).
2. Gardner, R. C. & Lambert, W. E. - Attitudes and Motivation in Second-Language Learning. (1972).
3. Csizer, K. , Dörnyei, Z. (2005). Language learners' motivational profiles and their motivated learning behavior. Language Learning, 55 (4), 613-659.
4. Gardner. R. C. and MacIntyre, P. D. - A student's contributions to second-language learning. Part Il: Affective variables', Language Teaching, 26, 1, 1-11. (1993)

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: f. ü. f. d. dos. İsayeva Faidə**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**FİDAN ALIŞAN QIZI ƏLİYEVA**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
fidaneliyeav99@gmail.com

# NƏSR ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏTBİQİ

**Xülasə**

Ədəbiyyat dərslərində şagirdlərin müstəqil işinin təşkilinə geniş imkan vardır. Tərcümeyi- hal materiallarının, icmal mövzuların, ədəbiyyat nəzəriyyəsi anlayışlarının öyrədilməsində müxtəlifnöv müstəqil işlərin tətbiqi mümkün və faydalıdır. Lakin metodik ədəbiyyatda göstərildiyi kimi, bədii əsərlərin tədrisində müstəqil işlərdən istifadəyə daha çox diqət yetirilir. Bədii əsərlərin öyrənilməsində şagirdlərin müstəqil işinin təşkili təkcə mətnin dərindən mənimsənilməsinə deyil, şagirdlərdə zəruri bacarıqların formalaşmasına da əhəmiyyətli təsir edir. Bədii əsərlərin öyrənilməsi isə geniş anlayışdır. Bu, bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə mərhələnin rallaşdırılması əsasında mümkün olur. Həmin mərhələlər metodik ədəbiyyatda belə adlandırılır: əsərin oxusu, məzmununun mənimsənilməsi və təhlili. Həmin mərhələlərin hər birində şagirdlərin müstəqil işinin təşkili mümkün və faydalıdır. Mərhələlər üzrə tətbiq edilən müstəqil işlərin əlaqələndirilməsi, onlarıdan tədris ili boyu ardıcıl, sistemli istifadə vacibdir. Məhz bu tələbin gözlənilməsi əsasında işin təşkili şagirdlərdə müstəqil düşüncənin və fəaliyyətin formalaşmasına imkan yarada bilər. Məqalədə hər mərhələ üzrə müstəqil işlərin sistemli təşkili üzrə nümunələr verilmiş, şagirdlərdə müstəqilliyin inkişafı izlənilmişdir. Müstəqil iş üçün təklif edilmiş tapşırıqlar hazırlanarkən hər mərhələnin qarşısında duran məqsəd diqqət mərkəzində saxlanılmışdır.

**Açar sözlər:** müstəqillik, müstəqil iş, nəsr, hekayə, süjetli əsər, mövzu, problem

Ədəbiyyat dərslərində, xüsusən bədii əsərlərin öyrənilməsində şagirdlərin müstəqil işinin təşkilinə geniş imkan vardır. Süjetli əsərərin tədrisi prosesində müstəqil işlərin tətbiqi mətnin az vaxt içərisində dərindən mənimsənilməsinə, şagirdlərdə zəruri bacarıqların formalaşmasına imkan yaradır. Hazırladığım metodik tövsiyə əsasında tədris olunan dərslərin səciyyəvi məqamlarını oxucuların diqqətinə çatdırıram. Xalq yazıçısı M.İbrahimovun "Azad" hekayəsinin tədrisi xüsusi qayğı tələb edir. Hekayədəki ictimai mənanın aydınlaşdırılması, əsərin bu gün üçün də aktual olması diqqət mərkəzində saxlanılmalıdır.

Tövsiyəyə uyğun olaraq, hekayənin ilk üç parçasının fərdi səssiz oxusu həyata keçirildi. Oxuya başlamazdan əvvəl şagirdlərin diqqəti dərslikdəki "Yada salın" başlıqlı suallara cəlb edildi:

– Cənubi Azərbaycan, orada baş vermiş milli-azadlıq hərəkatı barədə nə bilirsiniz?
– Cənub mövzusunda hansı əsərlərlə tanışsınız? Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

Bu suallar fəndaxili inteqrasiyanın yaradılması baxımından səmərəlidir. Onlar yeni öyrəniləcək əsərin mövzusunun başa düşülməsinə də əhəmiyyətli dərəcədə təsir edir.

Hekayənin ilk üç parçasının müstəqil oxusuna ayrılmış vaxt başa çatdıqdan sonra ilkin qavrama səviyyəsinin aşkara çıxarılması məqsədilə hazırlanmış tapşırığın yerinə yetirilməsi şagirdlərə təklif edildi. Tapşırıq aşağıdakı məzmunda olmuşdur:

– Hekayədə diqqətinizi daha çox çəkən nə oldu?
– Azad və Fərda haqqında ilkin təəssüratınız nə oldu? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.

Hazırlanmış yazılı cavablar səviyyəcə fərqlənir. Məsələn, birinci səviyyəli cavablarda sözçülük çoxdur, obrazlar barədə ümumi sözlərlə kifayətlənilmişdir. İkinci səviyyəli cavablarda isə faktlara müraciət, fikirlərin təsdiqi üçün əsərə müraciət halları müşahidə olunur. Üçüncü səviyyəli cavablarda konkretlik daha güclüdür. Belə cavablarda ədəbi qəhrəmanlar haqqındakı təəssüratın nümunələr əsasında bildirilməsinə səy göstərilmişdir.

Bu istiqamətdə yerinə yetirilən tapşırıqlar hekayənin öyrənilməsinin ikinci mərhələsində – məzmunun mənimsənilməsində tətbiq edilən müstəqil iş üçün zəmin rolunu oynamışdır. Bu mərhələdə tapşırıq aşağıdakı şəkildə təklif edilmişdir:

– Hansı təsvirlər Fərda haqqında təsəvvürünüzü daha da zənginləşdirdi?
– Hansı epizodlar Azadı sizə daha ətraflı tanıtdı?

Tapşırığa hazırlanmış yazılı cavabların təhlili onların səviyyələri arasındakı fərqi müəyynləşdirməyə imkan vermişdir. Azad haqqında Fərdanın dedikləri əhəmiyyətli olsa da, bu obrazı oxucuya daha yaxından tanıdan əsərin finalındakı epizod olur. Bütün bunların şagirdlər tərəfindən araşdırılması hekayənin məzmununun daha dərindən mənimsənilməsinə imkan yaradır. Birinci səviyyəli cavablarda əhatə olunan faktlar xeyli məhduddur:

– Fərdanın səmimi, açıqürəkli gənc olduğunu Azadın ölməsi epizodunda daha aydın şəkildə görürük. Həmin epizod Azadı da daha yaxından tanımağımıza səbəb olur.

II səviyyəli cavablarda faktlar nisbtən çoxdur, onlarda, həmçinin Azad obrazı haqqında daha inandırıcı fikir ifadə edilmişdir. Həmin cavablar üçün səciyyəvi olan bir işdə oxuyuruq:

– Hekayə boyu Fərdanın səsini eşidir, fikirləri ilə tanış oluruq. Onun söylədikləri özü haqqında xeyli təsəvvür yaradır. Fərdanın ədalətsizliyə, haqsızlığa nifrət etdiyini Azadın dükanında söylədiklərindən aydın başa düşmək olur: "Acıqlı olduğum günlərdən birisi yadıma düşür. Kirayə pulunu gecikdirdiyimiz üçün ərbab bizi evdən qovmaqla təhdid etmişdi. Pul yox idi. Qazanmağa da iş tapılmırdı. Küçələri boş-boş gəzib yorulduqda sonra Azadın yanına getdim.

– Azad, – dedim, – dərd ürəyimi dağıdır. Ağlamaq istəyirəm. Gözlərimdən yaş gəlmir. Bu nə güzəran, bu nə dirilikdir? Azad! İşləməyə yer yox, danişgahda oxumağa imkan yox, oğurluqmu edim, qardaş?"

– III səviyyəli cavablarda mühüm cəhətlərin üzərində dayanıldığını, eləcə də münasibətbildirmə, dəyərləndirmə elementlərini də müşahidə etmək mümkündür. Bu qəbildən cavablardan birində deyilir:

– Hekayədəki təsvirlərdən Fərdanın səmimi, mehriban, bir az da çılğın olduğunu görmək olur. Fərdanın Azad və ailəsi haqqında ürək yanğısı ilə dedikləri onun gözəl qəlb sahibi olduğunu əks etdirir... Azadın dükanında baş verənlərin təsvirindən aydın olur ki, Fərda üsyankardır, haqsızlığa, ədalətsizliyə düşməndir: "Yazıq, min yazıq bizə baxıb "övladlarım var" deyən vətənə! Yazıq bu gül kimi Azərbaycan torpağına ki, üstündə biz gəzirik. Bizim həyatımız bir qara quruşa dəyməz!.. Çünki, bizcə, həyat yeməkdən, yatmaqdan, yenə yeməkdən və yatmaqdan ibarətdir... "

Fərdanın söylədiklərindən Azad haqqında xeyli məlumat öyrənsək də, hekayənin sonundakı epizodda onu daha ətraflı tanıya bilirik. Azadın son nəfəsdə dedikləri vətənini, onun azadlığını hər şeydən uca tutduğunu təsdiq edir: "Bizim hamımızın səadəti bax bu alçaq daxmaların, bu doğma yurdun, bu ana torpağın azadlığındadır. Yerə qoymayın o tüfəngləri ki, onları bu doğma torpaq sizə tapşırmşdır."

Əsərin öyrənilməsinə həsr edilmiş ilk iki mərhələnin bu məzmunda təşkili təhlilin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Təhlil xarakterli tapşırıq aşağıdakı məzmunda təqdim edilmişdir:

– Əsərin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin.
– Azad və Fərda obrazlarının xarakterlərindəki başlıca cəhətləri aydınlaşdırın. Onların xarakterlərindəki oxşar və fərqli cəhətləri müəyyənləşdirirn.

Cavabların təhlilindən aydınlaşdı ki, müxtəlif səviyyəli cavabların arasında xeyli fərq vardır. Birinci səviyyəli cavablarda əsərin mövzusu ilə bağlı ümumi sözlərlə kifayətlənilmişdir. Hekayədə qaldırılmış problemin aydınlaşdırılmasına isə cəhd edilməmişdir. Ədəbi obrazların xarakterləri ilə bağlı müəyyən fikirlər söylənsə də, onların müqayisəsinə yer verilməmişdir.

İkinci səviyyəli cavablarda əhatə olunan faktların dairəsi genişləndirilmiş, obrazların səciyyəsi barədə əsaslandırılmış fikrin səsləndirilməsinə səy

göstərilmişdir. Lakin əsərdə qaldırılan problemlə bağlı fikir söylənməmiş, müqayisə tələbi bu qəbildən cavablarda da qədərincə reallaşdırılmamışdır.

Üçüncü səviyyəli cavablarda hekayənin mövzusunun, onda qaldırılmış problemin müəyyənləşdirilməsinə ciddi səy göstərilmiş, buna xeyli dərəcədə nail olunmuşdur. Obrazların oxşar və fərqli cəhətlərinin aydınlaşdırılması baxımından da maraqlı fikirlər səsləndirilmişdir. Səciyyəvi cavablardan birində oxuyuruq:

– Hekayədə Cənubi Azərbaycanda baş vermiş hadisələrdən danışılır. Deməli, onun mövzusu Cənubi Azərbaycan həyatından götürülmüşdür. Elə ilk səhifələrdən insanların ağır dolanışığı, çətin həyat şəraitləri ilə tanış oluruq. Haqsızlıq, ədalətsizlik baş alıb gedir. İşsizlik, yoxsulluq, əsarət altında yaşamaq soydaşlarımızın səbir kasasını doldurub. Yazıçını narahat edən, düşündürən problem də budur...

Azad və Fərda obrazları xaraktercə fərqlənsələr də, onların oxşar cəhətlər cəhətlər daha çoxdur. Azad az danışan, utancaq bir gəncdir. Xeyirxah və səmimidir. O, əməksevərdir, atasını tez itirdiyindən işləməyə məcbur olur. Fərda da Azad kimi səmimi, mehriban gəncdir. Onların hər ikisi öz həyatlarından narazıdırlar. Vətən, xalq üçün faydalı nə isə bir iş görmək istəyirlər. Fərda Azaddan fərqli olaraq, hisslərini, qəzəbini gizlədə bilmir...

Onlar vətənin azadlığı, doğma xalqlarının xoşbəxtliyi uğrunda mübarizəyə qoşulurlar...

Hər üç mərhələ üzrə təklif edilmiş tapşırıqların tələbləri tədricən mürəkkəbləşdirilmişdir. Bu, hər üç səviyyə üzrə irəliləmələr nəzərə alınmaqla həyata keçirilmişdir. Məsələn, S.S.Axundovun "Nurəddin" hekayəsinin təhlilinə həsr edilmiş dərsdə tətbiq edilən tapşırıq aşağıdakı məzmunda olmuşdur.

1. Sizcə, yazıçı əsərdə hansı problemin həllini vacib hesab etmişdir? Müəllif həmin problemin necə həll edilməsini doğru saymışdır?
2. Nurəddinin xarakterindəki mühüm cəhətləri müəyyənləşdirin, digər obrazların, yazıçının ona münasibətini aydınlaşdırın.

Birinci səviyyəli cavablarda irəliləmə nəzərə çarpır. Belə ki əsərdə qaldırılmış problem haqqında düşüncələrin dilə gətirildiyini, obrazların davranış və əməllərinə münasibət bildirməyə səy göstərildiyini müşahidə etmək olur. Bu qəbildən cavabların birində deyilir:

3. Atasını, anasını itirən Nurəddin çətinliklərlə üzləşir... Hətta ölüm onun başının üstünü kəsdirir. Bütün bu çətinliklərdən o, çıxa bilir. Bunun səbəbini yazıçı onun elmli, təhsilli olmasında görür...

Ağıllı və tərbiyəli olan Nurəddin hamı ilə mehriban rəftar edir. O çox həssasdır. Anasının ölümünü heç cür qəbul edə bilmir, günlərini kədər-qəm içində keçirir...

II səviyyəli cavablarda fərqli yanaşma, bədii mətnə müraciət edilməsi müşahidə olunr. Bu cavablar III səviyyəli cavablara çox yaxınlaşmışdır.

III səviyyəli cavablarda tapşırığın tələblərinin daha ətraflı əhatə edilməsinə səy göstərilmişdir. Bu cavabların müəllifləri daha məntiqli olmuş, mülahizələrini əsərdən gətirdikləri nümunələrlə əsaslandırmağa çalışmışlar. Cavabların birindən seçilmiş parşaya nəzər salaq:

4. Bu hekayəni yazıçı nə üçün yazmışdır? Onun məqsədi nə olmuşdur? Onu narahat edən əsas məsələ nə olmuşdur? Hekayədə Əmiraslanın, Gülpərinin, Nurəddinin taleyi ilə tanış olduq. Onların həyat yolu, taleyi bir-birindən çox fərqlənir. Əmiraslan məktəbdən, təhsildən qaçaq düşür. Gözübağlı qalan bu adam pis əməllərə qurşanır və edam olunur. Savadsız, gözübağlı Gülpərini Əmiraslanın pis əməllərinə ortaq olur.

Məktəbə, təhsilə rəğbəti ilə diqqəti cəlb edən Nurəddin həyatda ləyaqətli yer tutur. O, xeyirxah, rəhmdil bir gənc olur. Yazıçı əsərdə savadsızlığın, elmdən qaçaq düşməyin faciələrə səbəb olduğunu göstərir...

Ədəbi qəhrəmanların xarakter və əməllərindən çıxış etməklə onları səciyyələndirmək, mənəvi inkişaflarını sezmək, dəyərləndirmək şagirdlərə daha çox müəssər olur. Eksperiment materialları olan "Nəvə" (E.Hüseynbəyli), "İki bala" (B.Həsənov) əsərlərinin tədrisində icra edilmiş müstəqil işlərin təhlili bu barədə danışmağa əsas verir.

Kamal obrazı şagirdlərin xüsusi maraq göstərdikləri ədəbi qəhrəmanlardandır. Onun mənəvi təkamülünün izlənilməsinə şagirdlər böyük həvəs göstərirlər. Bu cəhət nəzərə alınaraq şagirdlərə təklif edilmiş tapşırığa belə bir bənd də daxil edilmişdir: – Müxtəlif məqamlardakı davranış və əməllərini nəzərə almaqla Kamalın xarakterindəki başlıca cəhətləri müəyyənləşdirin. Birinci səviyyəli cavab məzmunca ikinciyə, o isə üçüncüyə xeyli yaxınlaşmışdır. İkinci səviyyəli cavablardan birində oxuyuruq: – Kamal mənim ən çox xoşladığım obrazlardandır. Onun bəzi hərəkətləri xoşuma gəlmirdi, amma inanırdım ki, o bunlardan uzaqlaşacaqdır. Onun nadincliyi bəzən hamını əsəbləşdirir, hətta onu çox istəyən nənəsi də ondan inciyir. Amma Kamal başqaları ilə tez dil tapır, onlarla ünsiyyət qurur. O, kənddə olarkən uşaqlarla kobud davranır. Ərköyün davranışı kənd uşaqlarını bezdirsə də, onunla mehriban rəftar etməyə çalışırlar. Bunu Kamalın özü də başa düşür: "Mənsiz oyun, yəqin ki, maraqsız idi. Çünki onların balaca rezin topları vardı. Yekə dəri top isə ancaq məndəydi və kənddə belə toplara Pelenin oynadığı top kimi baxırdılar. Mən oynamayanda topu onlara vermirdim, oynasam, mütləq kapitan olmalıydım. Mənim şərtim beləydi. Özü də 11 metrlik cəriməni özüm vurmalıydım... Top əyri gedəndə isə 11 metrlik təkrar edilirdi. Çünki topun əyri getməsinə it hürüşü, yaxud kiminsə dərindən nəfəs alması da səbəb ola bilərdi." III səviyyəli cavablarda faktların çoxluğu ilə seçilir. Kamal obrazının xarakterindəki başlıca cəhətlərin açıqlanması üçün əsərdən nümunələrin gətitilməsinə diqqət yetirilmişdir. Səciyyəvi cavabların birindən parçalara nəzər salaq: – Kamal həmyaşıdlarından fərqlənir. Əsəri oxuduqca sanki iki Kamal gördüm. Birinci Kamal nadinc və ərköyündür. Nənəsi xəstələnəndən sonra Kamalın xasiyyətində, davranış və əməllərində çoxlu dəyişiklik olur.

Qəribədir, Kamal tamamilə dəyişilir. Onun ərköyünlüyündən, nadincliyindən əsər qalmır. Evin işlərini görür, nənəsinin qayğısına qalır, ona qulluq edir. O, günlərinin necə keçdiyini səmimi şəkildə nağıl edir: "Tezdən qalxır, su hazırlayır, nənəmin əlüzünü yumasına yardım edirdim. Artıq çay dəmləməyi, Nübar xalanın bişirdiyi xörəyi isitməyi, qablara çəkməyi öyrənmişdim... Evləri süpürür, həyətdəki quyudan su çəkir, yetişmiş pomidorları bostandan yığırdım. Toyuq-cücəyə dən səpmək, su qoymaq, hini təmizləmək, ağacların dibinə tökülmüş meyvələri yığıb səliqə ilə çardağın altında düzmək mənim üçün adi işə çevrilmişdi."

Ədəbi qəhrəmanların təhlili üzrə bacarıqların inkişaf etdiyini "İki bala" hekayəsinin tədrisində icra edilən tapşırıqların cavabları da təsdiq edir. Yeddinci sinif şagirdləri bu hekayəni maraqla oxuyurlar. Əsərin qəhrəmanı Murad maraqlı taleyi ilə şagirdləri cəlb edir. Eləcə də əsərdə təsvir edilən təbiət təsvirinə, heyvanlar aləminə məktəblilərdə böyük maraq yaranır. Əsərin oxusunun səmərəli təşkili, məzmununun əhatəli öyrənilməsi təhlil üzrə tapşırığın uğurla yerinə yetirilməsinə imkan yaradır.

Bu məzmunda işlərin sistemli tətbiqi ədəbi qəhrəmanların xarakter və əməllərindən çıxış etməklə onları səciyyələndirmək, mənəvi inkişaflarını sezmək və dəyərləndirmək baxımından faydalıdır.

## Ədəbiyyat


1. Həsənli B., Hüseynoğlu S., Mustafayeva A. Müəllim üçün metodik vəsait. 7-ci sinfin dərsliyi üzrə. Bakı, 2020.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, "Müəllim" nəşriyyatı, 2016.
3. Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Məmmədova S. Ədəbiyyat. 7-ci sinif üçün dərslik. Bakı, "Bakı" nəşriyyatı, 2022.
4. Hüseynoğlu S. Ədəbiyyat dərslərində şagirdlərin fəallıq və müstəqilliyinin inkişaf etdirilməsində müqayisə priyomundan istifadə. /APİ-nin "Elmi əsərlər"i, 1976, №2.
5. Hüseynoğlu S. Bədii əsərlərin müqayisəli öyrədilməsi prosesində şagirdlərin müstəqil işi. / Nam . diss. Bakı, 187, 190 səh.
6. İsmixanov M. İki siniflə dərsin xüsusiyyətləri və səmərəliləşdirilməsi yolları./ Nam. diss. Bakı, 1968, 280 səh.
7. https://muallim.edu.az/news.php?id=3114
8. https://soltanhuseynoglu.com/
9. www.researchgate.net publication.

**ALIYEVA FIDAN ALISHAN**

## APPLICATION OF INDEPENDENT WORK IN TEACHING PROSE WORKS

**Summary:**

There are large possibilities for organization of pupils at literature lessons. It is possible and benefecial for different kinds of works at Resume materials, overview topics and literature theory. On the other hand, as it shown at methodic literature, it is been more attentive to independent works at artistic vestige. To be learnt of artistic vestige to organize pupils' indepent work is not just for deeply understand of the topic, it is as well as it makes huge impact to form pupils' skills. To learn the artistic vestige is a large concept. It is possible to realize several stages to each other. The stages are called as it is shown below at methodic literature. Organizing of Pupils' indepent works are possible and beneficial. Coordination of the indepent works at the stages, parallel during the study period, systematic use is essential. Because of this, organization of work forms independent thoughts and activities at Pupils. There are examples about the indepent works at the article, it has been watched the pupils' independent works. It has been at the attention of making independent works.

**Key words:** independence, independent work, prose, story, plot work, theme, problem

**АЛИЕВА ФИДАН АЛИШАН**

## ПРИМЕНЕНИЕ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ В ОБУЧЕНИИ ПРОЗАИЧЕСКИМ ПРОИЗВЕДЕНИЯМ

**Резюме:**

На уроках литературы у учащихся есть широкая возможность организовать свою самостоятельную работу. Можно и полезно применять различные виды самостоятельной работы при обучении биографическим материалам, обзорным темам, понятиям теории литературы. Однако, как показано в методической литературе, больше внимания уделяется использованию самостоятельных работ при обучении художественным произведениям. Организация самостоятельной работы учащихся при изучении литературных произведений оказывает существенное влияние не только на глубокое усвоение текста, но и на формирование у учащихся необходимых умений и навыков. Изучение произведений искусства – понятие широкое. Это возможно на основе реализации нескольких этапов, взаимодействующих друг с другом. Эти этапы в методической литературе называются: чтение работы, усвоение ее содержания и анализ. На каждом из этих этапов можно и полезно организовать самостоятельную работу студентов. Применяемые самостоятельные работы важно согласовывать по этапам, а использовать их последовательно и систематически в течение учебного года. Организация работы на основе

предвосхищения этой потребности может создать возможность для формирования у учащихся самостоятельного мышления и деятельности. В статье приводились примеры системной организации самостоятельной работы на каждом этапе, осуществлялся мониторинг развития самостоятельности у учащихся. При подготовке предложенных заданий для самостоятельной работы в центре внимания была цель каждого этапа.

**Ключевые слова**: самостоятельность, самостоятельная работа, проза, рассказ, сюжетное произведение, тема, проблема.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Soltan Hüseynoğlu tərəfindən çapa tövsiyə olunmuşdur**

**BABAYEVA MƏLAHƏT RAMIZ QIZI**
**milababayeva@mail.ru**
**ADPU-nun Ədəbiyyat kafedrasının dosenti**
UOT-5719.01

# MÜASİR POST-QEYRİKLASSİK DİSKURSDA FOLKLOR ANLAYIŞININ TRANFORMASİYASI

Məqalə folklor anlayışının müasir post-qeyri-klassik diskursa daxil edilməsi ilə transformasiyasından bəhs edir. Folklorun fənlərarası prizmadan nəzərdən keçirilməsi onun tədqiqinin problemli sahəsini genişləndirməklə yanaşı, semantik məzmununu da dərinləşdirir. Folklorun "funksional xassələrinin" dəyişməsinə diqqət yetirən müəlliflər tarixi dinamikada təkcə kəndli cəmiyyətinin özünüdərkinin ifadə forması və tərbiyə mənbəyi kimi deyil, həm də kənd folklorunu ilkin hesab edirlər. sosial-mədəni varislik mexanizmi kimi, şəhər folkloru isə ikinci dərəcəli kimi. Sonuncu şəhər mühitində fərdlərin - müəyyən bir əmlak və peşəkar mühitdən olan insanların özünüdərkinin təmsil forması və fərdi (və ya bir şəxs kimi qrupun) özünü ifadə etmə üsulu kimi çıxış edir. Müəlliflərin fikrincə, mədəniyyətin qapalı subkulturoloji formasiyaların konqlomeratı ilə təmsil olunduğu "post-mədəniyyət" mərhələsində ikinci dərəcəli şəhər folkloru postfolklordan çox, müasir post-orta folklordan ibarətdir.

**Açar sözlər: müasir post-qeyri-klassik diskurs, fənlərarası, ilkin (kənd) və ikinci dərəcəli (şəhər) folkloru, postkultura, müasir post-orta folklor.**

Folklorun xalq mədəniyyətinin təmsil forması kimi başa düşülməsi heç kim tərəfindən şübhə altına alınmır. Şifahi poeziya ilə təmsil olunan xalq mədəniyyəti XIX əsrdən etibarən tədqiqat obyektidir. Folklorun məzmunu onu yaradanların və daşıyıcılarının mənəvi həyatı (dünyagörüşü, dünyanın mənzərəsi, həyatın mənası) haqqında təsəvvür yaratdığından o, təkcə folklor və etnoqrafiyanın deyil, həm də tarix, ədəbiyyat və sənətşünaslıq "klassik" elmi fənlər kimi fəlsəfənin baxış sahəsinə düşür. 20-ci əsrin ikinci yarısından xalq mədəniyyəti və folkloru mədəniyyətşünaslığın, 20-ci əsrin sonu – 21-ci əsrin əvvəllərindən isə mədəniyyətşünaslıq "qeyri-klassik" və "post qeyri-klassik" intizam. Xalq mədəniyyəti və folkloruna ənənəvi fenomen kimi baxılması mədəniyyətşünaslıq nöqteyi-nəzərindən xalq mədəniyyəti əslində bu hadisələrin müasir post-klassik diskursda iştirakını nəzərdə tuturdu. 20-ci əsrin ikinci yarısından xalq mədəniyyəti və folkloru mədəniyyətşünaslığın, 20-ci əsrin sonu – 21-ci əsrin əvvəllərindən isə "qeyri-klassik" və "post-qeyri" kimi kulturologiyanın dərketmə predmetinə çevrilmişdir. -klassik" intizam. Xalq mədəniyyəti və folkloruna mədəniyyətşünaslıq nöqteyi-nəzərindən ənənəvi xalq mədəniyyətinin fenomeni kimi baxılması, əslində, bu hadisələrin müasir post-qeyri-klassik diskursa cəlb olunması demək idi. Ənənəvi olaraq, klassik ölçüdə folklor

geniş (xalq mədəniyyətinin bir forması kimi) yox, əsasən dar (şifahi xalq yaradıcılığı və ritualla əlaqəli) mənada nəzərdən keçirildiyindən o, "arxaik" ilə eyniləşdirilirdi. Xalq mədəniyyətinin müasir post-qeyri-klassik diskursa daxil edilməsi folklorun öyrənilməsinin problemli sahəsini kökündən dəyişir. Beləliklə, folklorun sosial-mədəni (kənd-şəhər) və zaman ölçüsü ön plana çıxır. Ənənəvi (kənd) və son dövrlər qeyri-ənənəvi (şəhər) folklorunun məzmunu, dili və estetikasının təhlili bizə təkcə linqvistik konnotasiyalarda deyil, həm də istifadədə olan fərqi nəzərə almağa imkan verir. Problem ondadır ki, kəndin və şəhərin folklor mühitinin mətn aləminin linqvistik kontekstinin öz tarixi dinamikasında dəyişməsi təkcə folklorun özünün mətn formasının dəyişməsini deyil, həm də folklorun funksional "xüsusiyyətlərinin" dəyişməsini tələb edirdi. " - maarifçilikdən (kənddən) özünüifadəyə (şəhərə) - və "onun varlıq yolu" [10] müasir şəhər mühitində sonuncunun "kommunikativ keyfiyyətlərinin" [10] transformasiyasına qədər.

Yuxarıdakılar 20-ci əsrin total urbanizasiyası şəraitində folklorun "varlıq tərzi" və "kommunikativ keyfiyyətlərinin" dəyişməsi ilə ikincinin nə üçün artıq təkcə "keçmişdən gələn səs" kimi qəbul edilmədiyini izah edir. Şəhərin sosial-mədəni ("dünya sistemi") məkanında folklorun "kommunikativ keyfiyyətlərinin" dəyişməsi, dəyişən həyat reallıqlarına reaksiya olaraq yeni toplu ifadələrin dövriyyəyə buraxılması və köhnə toplu ifadələrin dövriyyədən çıxarılması daimi prosesinə baxmayaraq, yeni atalar sözləri və məsəllərin yaranmasına səbəb olmur: onların yerini şəhərlə kəndin "dünya sistemi" yaxınlaşması mərhələsində yaranmış şifahi yaradıcılığın spesifik forması kimi lətifə tutur. Bu fakt onu göstərir ki, şəhərin "dünya-sistemində" folklorun kommunikativ məqsədləri köklü şəkildə dəyişir. Və kommunikasiya məqsədlərinin dəyişdirilməsindən danışdığımız üçün sonuncusu XX-ci əsrin son onilliyi və 21-ci əsrin əvvəllərindəki "subkulturalarda folklor təbəqəsi" [9] üçün maraq doğurur ki, bu da təkcə müasir Azərbaycan cəmiyyətinin mənəvi həyatının vəziyyətini deyil, həm də mənəviyyatının vəziyyətini ölçməyə imkan verir. müasir sosial-mədəni mühitdə folklorun tipoloji vəziyyətinin də dəqiqləşdirilməsini tələb edir. Bununla belə, kulturoloji - mədəniyyət və onun təmsil formaları haqqında ümumiləşdirici biliklərə [14] - folklorun konkret bir sosial-mədəni hadisə kimi dərk edilməsinə başlayarkən, fikrimizcə, ondan sonrakı dövrdə ondan çıxış etmək vacibdir. qeyri-klassik humanitar elmlər ("nitq mexanizmlərini öyrənən dilçilik", ədəbi tənqid, mədəniyyətin fəlsəfəsi və sosiologiyası, pedaqogika, psixologiya) düşüncənin metodoloji vektorlarını dəyişdirən yeni qnoseoloji cərəyanlar səbəbindən əvvəllər müntəzəm olaraq müraciət etməyən elmlər sosial və humanitar biliklərin ekzistensializm, antropologiya və mədəni mərkəzçilik prinsiplərinə uyğunlaşdırılması. Xüsusilə, sonuncu semiotik-linqvistik, etnoqrafik, antropoloji metodoloji paradiqmaların plenar statusu fənlərarası bəyanatda ifadə edilir. Amma humanitar fənlərin hər biri öz mövzusunu təşkil edərək folklorda onun ona əlçatan olan və metodologiyasına uyğun olan cəhətlərini işıqlandırdığından, fənlərarası münasibətdən folklor əlavə semantik məzmun qazanır. Yalnız nəzəri

qavrayış predmetinə çevrildikdən sonra folklor etnokulturoloji profilli fənlərin əsas anlayışı kimi çıxış edir və s. Bu, sosial-mədəni hadisə, xalqın bədii özünəxidmət yolu, məlumatların toplanması, ötürülməsi və mübadiləsi forması, fərdlərin, etno-sosial, peşə və cinsiyyət və yaşın özünü ifadə etmə üsulu kimi qəbul edilir. qruplar, sub- və əks-mədəniyyət formasiyaları, qeyri-rəsmi icmalar və s. Folklorun klassik tipologiyasından çıxış etsək - erkən ənənəvi (arxaik), ənənəvi (klassik) və xalq mədəniyyətinin dəyişən hallarının tarixi dinamikada ifadə forması kimi çıxış edən gec ənənəvi (müasir) [6], aydın olur ki, sonuncu təkcə şəhərin dünya sistemi ilə birbaşa bağlı deyil, həm də xalq mədəniyyətinin tarixi dinamikasında özünü göstərir. həm də erkən ənənəvi və ənənəvi folklordan fərqli olaraq (kənd, "arxaik") özünəməxsus – "modern" formalarına malik olmalıdır. Bu münasibətlə V.L. Klyaus əsaslı şəkildə qeyd edir ki, "ənənəvi (klassik) folklorun öyrənilməsində elmin topladığı, geniş spektrli məsələlərin qoyulmasına və həllinə imkan verən təcrübə, təəssüf ki, müəyyən bir janrın yaranmasına təsir etmiş real tarixi vəziyyəti ancaq hipotetik şəkildə təsvir edə bilər. formalar, süjetlər, yerli variantlar.ənənəvi folklor" [8, s. 14]. Bu gün vəziyyət tamam başqadır. "Biz həm post-folklor, həm də "üçüncü mədəniyyət" adlanan "yeni" folklorun yaranmasının şahidi oluruq [8, s. 14] və "biz folklorun, etnologiyanın, sosiologiyanın və mədəniyyətşünaslığın mövcud analitik-metodoloji aparatına əsaslanaraq onun forma və mətnlərinin yaranması prosesini təsbit edə bilərik" [8, s. 15]. Xüsusilə, kulturoloji diskurs çərçivəsində folkloru dərk etməyin ən azı iki yolu açılır: onu 1) tarixi dinamikada təkcə dünyagörüşünün və həyati dəyərlərin təsbit forması kimi çıxış edən sosial-mədəni hadisə kimi nəzərdən keçirmək. onun yaradıcılarının və daşıyıcılarının, həm də müəyyən bir sosial-mədəni mühitin (kənd-şəhər) dünyasının mənzərəsini "obyektivləşdirir" və 2) qeyri-yazılı kənd və "ot kökləri" şəhərdə mədəniyyət forması kimi sosial-mədəni mühit, çünki folklorun nəzərdən keçirilməsinə gəldikdə, təkcə məzmun və funksional prizmadan deyil (ideoloji, uyğunlaşma, sosiallaşma, "tərbiyəvi" s.) spesifikasiyalar, həm də onun "kommunikativ keyfiyyətləri" prizmasından bu fenomenin "sərhədləri" tərifinə görə genişlənir. Ancaq bunların heç biri, hər halda, folklor nədir sualına dolğun cavab verməyə imkan vermir:

- əgər folklorun sosial-mədəni hadisə olmasından çıxış etsək, onda bu çoxfunksiyalı hadisənin növ-janr formalarının (arxaik, klassikdən müasirə) ardıcıl dəyişməsi kimi folklorun "xətti" baxışı daha da inkişaf etdirilir;

- əgər folkloru öyrənərkən onu mədəniyyətin bir forması kimi dərk etməkdən çıxış etsək, o zaman sonuncuya çoxsəviyyəli bir fenomen (kənd və şəhər) kimi yeni baxış açılır ki, bu da problem sahəsini genişləndirən dərketmə üçün yeni perspektivlər deməkdir. Əslində, folklorun öyrənilməsinin problemli sahəsinin genişləndirilməsi "bu və buna bənzər problemlərin inkişafının ənənəvi olaraq aparıldığı və hər hansı təklif olunan metodların formalaşdırıldığı o tarixi məntiqi sərhədləri, onların həlli yollarını aşmağı nəzərdə tutur." [1]. Bu yanaşma tədqiqatçılara elmi biliyin "daha yüksək ümumilik və mücərrədlik nəzəriyyələri...

[kimi] inteqral-ümumiləşmiş formaları" istiqamətində hərəkət etməyə imkan verir [1]. Xüsusilə, folklor növlərinin "fərqlənməsi" problemini həll etmək üçün inteqrativ yanaşmadan istifadə etmək olar ki, bu da fənlərarası inteqrasiya çərçivəsində özünü doğrultmuş "çoxvektorlu" fənləri birləşdirməyə ("sintez etməyə") imkan verir. Fənlərarası inteqrasiya çərçivəsində yeni fənn sahəsi (elmi intizam) hazırlandığından onun meydana çıxması faktının özü, lazım gələrsə, həm xalq mədəniyyətinin özünün, həm də onun nəzəri aspektlərinin problemli tədqiqat sahəsini dəyişməyə imkan verir.

Başlamaq üçün, mədəniyyət fenomeninin özü ilə bənzətmə apararaq, folkloru onun "üfüqi" və "şaquli" ölçülərində nəzərdən keçirmək məntiqlidir. Folkloru "üfüqi" nəzərdən keçirərkən bu fenomeni "oxumaq" üçün yeni imkanlar açan bir mədəniyyət forması kimi biz öyrənirik.

Burada aşağıdakılar böyük əhəmiyyət kəsb edir:

- folklorun təkcə (yazılı olmayan/yazılı) formalaşma mühiti deyil, həm də mövcudluq mühiti (kənd-şəhər);

- folklorun funksiyaları (mədəni məqsədlər kimi). Folklorun funksiyalarının fərqləndirilməsi onu təsdiq etməyə imkan verir ki, dünyagörüşünün onun yaradıcılarının və daşıyıcılarının dünyagörüşü kimi təmsil forması əgər kənd mühitində bu mədəniyyət və incəsənət formasıdırsa, onda şəhər mühitində bu, daha çox fərdin (və ya fərdi olaraq qrupun) özünüifadə yolu və prosesidir;

- folklorun sosial təbəqələşməsi. Kənddə, eləcə də şəhər mühitində bu, "bizim" və "yad" bölünməsidir.

Folkloru "şaquli" boyunca nəzərə alsaq, onun tarixi və sosial-mədəni dinamikasının gedişində spesifik dəyişikliklərini öyrənirik. Burada bizi ilk növbədə maraqlandırırıq:

- folklorun məzmununun dəyişməsinə və onun yeni forma və janrlarının yaranmasına təsir edən tarixi zaman (sabitlik dövrləri və keçid dövrləri);

- klassik (arxaik) və müasir (müasir) folklor növlərinin şəhər mühitinə nüfuz etməsi (onun hibrid formalarının görünüşü);

- folklorun növ müxtəlifliyi. Xüsusilə, folklor "postkultura" mərhələsində - 20-ci əsrin sonu - 21-ci əsrin əvvəllərində maraq doğurur. Burada bu tip folklorun fərqləndirilməsi ön plana çıxır.

Folkloru bu şəkildə nəzərdən keçirsək, belə nəticəyə gəlmək olar ki, folklor 1) özünəməxsus mədəni-tarixi (kənd mühiti, tarixi dövr) və sosial-mədəni (kənd-şəhər, müasir dövr) ölçüsünə, 2) özünəməxsus iyerarxiyaya - növ-janr spesifikliyinə, aşkara çıxaran kənd və şəhərin ənənəvi mədəniyyətinin tarixi ölçüsündə folklorun yeni janr və formalarının yaranmasının mədəni və tarixən şərtlənmiş ardıcıllığı. Başqa sözlə desək, folkloru "şaquli" nəzərə alsaq, biz xalq mədəniyyətinin tarixi və sosial-mədəni dinamikası gedişində sonuncunun növ dəyişməsini öyrənirik.

Müasir sosial-mədəni şəraitdə folklorun təkamülü və onun öyrənilməsinin problemli sahəsinin təkcə mədəni fenomen və ya subkulturalar (folklor bir sosial-mədəni hadisə kimi) daxilində məlumat mübadiləsi yolu kimi genişlənməsindən

danışmaq lazımdır. həm də 1) folklorda subyektivlik-qeyri-subyektivlik nöqteyi-nəzərindən, 2) folklorun mövcudluq səviyyələrini (şəxsi-transpersonal) nəzərə almaqla, 3) folklorda ümumi və xüsusi.

Ümumilikdən çıxış etsək, folklor yazılmamış bir hadisədir, xalq mühitinin yerli mədəniyyətinin (ümumi folklor hadisələri buradan qaynaqlanır), lakin "özəl"dən çıxsaq, folklor bədii özünəxidmət, məlumat mübadiləsi (kənd) və "intrasosial" (şəhər) formalaşmalarının özünüifadəsi formasıdır.

Sonuncu milli mədəniyyətin tarixi dinamikası gedişində folklorun məqsədlərindəki dəyişikliklər sistemliliyin obyektiv səbəblərini başa düşməyə imkan verir. Folklorun öyrənilməsinin problem sahəsinin genişlənməsi onu da əhatə edir ki, xalq mədəniyyətinin növlərə görə - tarixi (kənd mədəniyyəti) və müasir (şəhər aşağı təbəqələrinin mədəniyyəti) diferensiallaşdırılmaması səbəbindən folklorun folklor mədəniyyəti ilə bağlı olması fikri yaranır. cəmiyyətin bütün təbəqələri üçün xarakterikdir. Əslində söhbət kəndli folklorundan və şəhər mühitində sinfi qrupların folklorundan gedir – hərbçilər (əsgərlər, aşağı, orta və yuxarı zabit rütbələri, hər birinin öz "jarqonu" olan), xırda tacirlər, otxodnik kəndliləri ilə məşğul olmuşlar. ofendə (onlar fen dilində danışırdılar), tacirlər, katiblər, filistlər, dünyəvi zəriflər, siyasətçilər və s. Lakin bu cür folklor (folklorun şəhər ibtidai və hibrid formaları adlanır) kəndin ilkin ənənəvi"yazılı olmayan" kənd mühitində idi və ənənəvi folkloru ilə müqayisədə ikinci dərəcəlidir, çünki yazılı şəhər mühitində o, əsas təhsil funksiyasından məhrumdur. Şəhər mühitində o, əsasən özünüifadə məqsədlərinə xidmət edirdi, buna görə də onun istinad nümunələrinə görə, təkcə onun mövcud olduğu mühiti deyil, həm də konkret tarixi (XVIII, XIX, XX, XXI əsrlər) fəaliyyət mərhələlərini müəyyən edir. Burada nəzərə almaq lazımdır ki, kənd folkloru ilkin olaraq təkcə kəndli cəmiyyətinin kollektiv təfəkküründün və kollektiv şəxsiyyət kimi özünüdərkinin ifadə forması deyildi, "yazılı olmayan" formada. kənd cəmiyyəti mühitində həm təhsil mənbəyi, həm də sosial-mədəni varislik mexanizmi kimi çıxış edir, şəhər mühitində isə müəyyən mülkdən gələn şəxslərin özünüdərkini təmsil etmək üsulu kimi çıxış edirdi.

Vəziyyət "post-mədəniyyət" dövründə özünəməxsus şəkildə dəyişir, o zaman ki, mədəniyyət xarici bütövlük əlamətlərini saxlamaqla, nə ümumi dəyəryönümlü ideyalarla, nə də bir-biri ilə bağlı olmayan qapalı subkultural formasiyaların konqlomeratı kimi çıxış edir.

Parçalanmış, az oxuyan, yarıtəhsilli bir dil məkanında - R. Quenonun münasib ifadəsi ilə profan-şəhərləşmiş cəmiyyətin ikinci dərəcəli folkloru - artıq reqressiya kimi - "yeni həyat" alır: o, ilə birlikdə yaşayır. peşəkar hakerlərin, şoumenlərin, spikerlərin, menecerlərin və s. "folkloru", yeniyetmələrin, tələbələrin "folkloru", gənclərin alt və əks mədəniyyətlərinin "folkloru", siyasətçilərin, yuxarı və aşağı menecerlərin, pensiyaçıların, evdar qadınların "folkloru". və s.

Amma burada biz artıq təkcə ikinci dərəcəli folklorla deyil, "post-folklor"la və ya refleksiv qavrayış məntiqindən irəli gələrək, "post-mədəniyyət" dövrünün "folklor

fenomeni”nin tərifi ilə post-orta folklorla qarşılaşırıq. Bu, daha vacibdir, çünki “sosial-zaman və məkan diapazonunda (mədəni xronotop) məhdudiyyət şəraitində dövrümüzün qrup (qeyri-şəxsi) subkulturalarının xüsusi tədqiqinin vəzifələri, onların folkloruna baxış bucağı aktuallaşır” [9 ,s. 14].

Bu baxımdan E.Dürkheimin ən maraqlı qənaəti diqqəti cəlb edir ki, parçalanmış şəhər cəmiyyətində zaman keçdikcə konkret folklor formuluna bağlanmaq üçün kifayət qədər spesifik olan kollektiv ideyalar getdikcə azalır. Ona görə də şəhər cəmiyyətləri yalnız ilk vaxtlar atalar sözləri və məsəllərlə zəngindir. Şəhər cəmiyyətləri inkişaf etdikcə nəinki yeni atalar sözləri yaranmır, köhnələr də yavaş-yavaş yaddaşlardan silinir: ya öz həqiqi mənasını itirir, ya da “nəhayət, ümumiyyətlə başa düşülməkdən çıxır” və mədəni dövriyyədən çıxarılır [5].

Durkheimin gözlənilməz müşahidəsi yalnız şəhər mühitinin folklorunun ikinci dərəcəli olduğunu təsdiqləyir və bu hadisənin tərifinin hələ qarşıda olması anlayışından irəli gəlir. Beləliklə, xalq mədəniyyətinin qeyri-klassik diskursa daxil edilməsi folklorun öyrənilməsinin problemli sahəsini genişləndirir. Söhbət folklorun funksional xassələrinin – maarifçilikdən (kənddən) özünüifadəyə (şəhər) – müasir şəhər mühitində sonuncunun kommunikativ keyfiyyətlərinin transformasiyasına qədər mövcud olması yolundan gedir. Nəzərə alsaq ki, şəhər mühitinin sosial heterojenliyi şəraitində folklor mədəniyyəti parçalanmış, sinif-qrupun dəyər yönümlərini ifadə edir, (submədəni) mühit, sonuncu məişət mədəniyyətinin tarixi dinamikası zamanı folklorun məqsəd və formalarının sistemli şəkildə dəyişməsinin obyektiv səbəblərini başa düşməklə yanaşı, həm də şəhər mühitinin folklorunu təsdiq edir. iqtisadi, mədəni və siyasi qloballaşmanın nəticəsi olan “post-mədəniyyət” şəraitində ikinci dərəcəli folklor kimi çıxış edir.

**Ədəbiyyat**

1. Altuxov V. A. Obyektin dərinliklərində idrak hərəkətinin təbiəti haqqında // Fəlsəfə sualları, 1982. № 11. S. 30–42.

2. Antonov E. A. Fəlsəfi metodların inteqrasiyası modelləri haqqında // Tarix, fəlsəfi, siyasi və hüquq elmləri, mədəniyyətşünaslıq və sənət tarixi. Nəzəriyyə və təcrübə məsələləri: saat 4-də Tambov: Diplom, 2011. No 8(14). II hissə. səh. 16–20.

3. Антонова Е.Л. Авторский «текст» как «инструмент» управления социумом в городской среде // Исторические, философские, политические и юридические науки, культурология и искус- ствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2012. №8 (22): в 2 ч. Ч. II.

4. Антонова Е.Л. Фольклор как «канал» ретрансляции культурной традиции и просвещения в неписьменном информационном пространстве народной среды // Исторические, фило- софские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2012. № 8 (23): в 2 ч. Ч. II.

5. Дюркгейм Э. О разделении труда. Москва: Наука, 1991. 244 с.

6. Зуева Т. В., Кирдан Б. П. Русский фольклор: учебник для высших учебных заведений. Москва: Флинта: Наука, 2002. 400 с.

7. Каргин А.С. Народная художественная культура. Москва: Государственный центр русского фольклора, 1997. 228 с.

8. Кляус В.Л. Реплика к статье А. С Каргина, А.В. Костиной «От фольклора сословий и классов – к фольклору групп и личностей» // Традиционная культура. 2009. № 3. С. 14–15.

9. Михайлова Н. Г. О связи современных субкультур с фольклором: Реплика к статье А. С Каргина, А.В. Костиной «От фольклора сословий и классов – к фольклору групп и лич- ностей» // Традиционная культура. 2009. № 3. С. 14.

10. Неклюдов С.Ю. Фольклор: типологический и коммуникативный аспекты [Электронный ресурс]. URL: http://www. ruthenia. ru/folklore/neckludov15. htm

11. Неретин О.П. Культурологический дискурс в контексте современных социальных трансформаций: монография. Москва, 2012. 190 с.

12. Розов А. Посткультура и высшая мера гуманитарной защиты [Электронный ресурс]. URL: https://libcat. ru/knigi/dokumentalnye-knigi/publicistika/244228-aleksandr-rozov-postkultu- ra-i-vysshaya-mera-gumanitarnoj-samozashhity. html

13. Супрун А.Е. Текстовые реминисценции как языковое явление // Вопросы языкознания. 1995. № 6. [Электронный ресурс]. URL: http://philology. ru/linguistics2/suprun-95. htm 14. Флиер А.Я. Кул

**дос.Бабаева Малахат Рамиз гызы**
**АГПУ, кафедра Литературы**

## ТРАНСФОРМАЦИЯ ПОНИМАНИЯ ФОЛЬКЛОРА В СОВРЕМЕННОМ ПОСТНЕКЛАССИЧЕСКОМ ДИСКУРСЕ

В статье рассматривается трансформация понимания фольклора с включением его в со- временный постнеклассический дискурс. Рассмотрение фольклора сквозь призму междис- циплинарности не только расширяет проблемное поле его изучения, но и углубляет смыс- ловое содержание. Акцентируя внимание на изменении «функциональных свойств» фоль- клора, авторы рассматривают деревенский фольклор как первичный, который выступа- ет в исторической динамике не только формой выражения самосознания крестьянского социума и источником просвещения, но и механизмом социально-культурного наследо- вания, а городской фольклор – как вторичный. Последний выступает в городской среде как форма репрезентации самосознания индивидов – выходцев из конкретной сословной и

профессиональной среды – и способ индивидуального (или группового как индивиду- ального) самовыражения. По мнению авторов, на этапе «посткультуры», когда культура представлена конгломератом замкнутых субкультурных образований, вторичный город- ской фольклор представляет собой не столько постфольклор, сколько современный по- ствторичный фольклор.

**Ключевые слова:** современный постнеклассический дискурс, междисциплинарность, пер- вичный (деревенский) и вторичный (городской) фольклор, посткультура, современный по- ствторичный фольклор.

**Phd, dos., Babayeva Malahat Ramiz gizi**
**ASPU, Department of Literatura**

## TRANSFORMATION OF UNDERSTANDING OF FOLKLORE IN THE MODERN POST-NONCLASSICAL DISCOURSE

In article transformation of understanding of folklore with its inclusion in a modern post-nonclassi- cal discourse is considered. Consideration of folklore through a prism of interdisciplinarity not only broadens the problem field of its studying, but also deepens semantic contents. Focusing attention on change of "functional properties" of folklore, authors consider rural folklore as primary which acts in historical dynamics not only as a form of expression of consciousness of country society and a source of education, but also the mechanism of welfare inheritance, and city folklore – as second- ary. The last acts in the urban environment as a form of representation of consciousness of individ- uals – natives of the concrete class and professional environment and a way individual (or group as individual) self-expression. According to authors, at the stage "post-cultures" when culture is pre- sented by conglomerate of the closed subcultural educations, secondary city folklore represents not so much post-folklore, how many modern post-secondary folklore.

**Keywords**: modern post-nonclassical discourse, interdisciplinarity, primary (rural) and secondary (city) folklore, post-culture, modern post-secondary folklore.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: akademik Muxtar İmanov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAHİRƏ FƏRMAN QIZI YUSİFOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**E-mail: tahireyusifova7**@gmail.com

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİZAMİ GƏNCƏVİ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ İMKANLARI

**Xülasə**

Cəmiyyətin mənəvi potensialının inkişaf etdirilməsi, gənc nəslin fəal, məqsədyönlü şəxsiyyət kimi formalaşdırılması müasir mərhələdə təhsil sisteminin qarşısında duran başlıca vəzifələrdəndir. Bədii ədəbiyyatın əsas obyekti insandır, onun mənəvi-əxlaqi problemləridir. Bu baxımdan Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin bədii irsi mənəvi sərvət xəzinəsidir. Nizami mütərəqqi dünyagörüşünə, mükəmməl biliyə malik olmuş, bir çox elmləri dərindən mənimsəmişdir. Mütəfəkkir şairin yaradıcılığında həyat həqiqətləri, cəmiyyətdə bərabərlik və azadlıq ideyaları öz əksini tapmışdır.

Müasir mərhələdə ədəbiyyat dərslərində Nizami irsindən şagirdlərin mənəvi tərbiyəsində məqsədyönlü istifadə diqqət mərkəzində saxlanılmalıdır. Nizaminin bədii yaradıcılığında mənəvi dəyərlər, əxlaqi keyfiyyətlər - humanizm, xeyirxahlıq, saflıq ideyaları parlaq insan obrazları vasitəsilə əks etdirilmişdir. Böyük sənətkar öz əsərlərində öz dövründəki haqsızlıqlara qarşı çıxmış, zülmü, ədalətsizliyi əsərlərində tənqid etmişdir. O, insan şəxsiyyətini yüksək qiymətləndirmiş, insanı məğrur yaşamağa, alçaqlara baş əyməməyə, öz əlinin zəhməti ilə mənalı bir ömür yaşamağa səsləyirdi. Nizami insanı kamil görmək istəyir, onu mənəvi saflıq mücəssəməsi kimi görmək istəyirdi. O, xalqı təmsil edən sadə insanların arzu və istəklərini tərənnüm etmişdir.

Müəllim ədəbiyyat dərslərində şairin əsərlərindən nümunələr söyləməli, onun hikmətli sözlərini, görkəmli şəxsiyyətlərin sənətkar haqqında fikirlərini şagirdlərin diqqətinə çatdırmalıdır. Sənətkarın həyatı, şəxsiyyəti ilə bağlı əsas məqamlar ümumiləşdirilməli, başlıca cəhətlər ön plana çəkilməlidir.

Nizami Gəncəvinin şəxsiyyəti, həyat və yaradıcılıq yolunun öyrənilməsi əsrlər boyu gənc nəslin mənəvi tərbiyəsinin mühüm amillərindən olmuşdur. Müasir ədəbiyyat dərslərində sənətkarın şəxsiyyəti, yaradıcılığı ilə bağlı müzakirələr şagirdlərdə fəal həyat mövqeyi formalaşmasına müsbət təsir göstərir.

**Açar sözlər:** mənəvi, ədəbiyyat, hekayə, şagird, dərs, təhsil, müzakirə, problem, humanizm

Cəmiyyətin mənəvi potensialının inkişaf etdirilməsi, gənc nəslin fəal, məqsədyönlü şəxsiyyət kimi formalaşdırılması müasir mərhələdə təhsil sisteminin qarşısında duran başlıca vəzifələrdəndir. Bədii ədəbiyyatın əsas obyekti insandır,

onun mənəvi-əxlaqi problemləridir. Bu baxımdan Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin bədii irsi mənəvi sərvət xəzinəsidir.

Müasir mərhələdə ədəbiyyat dərslərində Nizami Gəncəvi irsindən şagirdlərin mənəvi tərbiyəsində məqsədyönlü istifadə mühüm əhəmiyyət kəsb edir. Nizaminin bədii yaradıcılığında mənəvi dəyərlər - vətənpərvərlik, mərdlik, mübarizlik, qorxmazlıq, əməksevərlik, düzlük, humanizm, xeyirxahlıq, saflıq, ideyaları parlaq insan obrazları, ibrətamiz həyat hadisələri vasitəsilə əks etdirilmişdir.

Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti qeyd edilir: "Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir." [1]

Bu qərarla əlaqədar respublikamızda dahi sənətkarın əsərləri nəşr edilmiş, həyat və yaradıcılığına dair geniş ədəbiyyatşünaslıq tədqiqatları aparılmış, beynəlxalq səviyyəli təntənəli yubiley tədbirləri keçirilmişdir.

Ədəbiyyat dərslərində Nizaminin yaradıcılığının öyrənilməsi zamanı şagirdlərin mənəvi tərbiyəsi imkanları genişdir. Təhsil proqramı bu baxımdan fənn müəllimlərinin gənc nəslin mənəvi tərbiyəsi istiqamətində fəal, sistemli iş aparması üçün zəmin yaradır. V sinifdə sənətkarın "Kərpickəsən kişinin dastanı", "İskəndərin taxta çıxması", VI sinifdə "Yaralı bir uşağın dastanı", VIII sinifdə "Sultan Səncər və qarı", X sinifdə "İskəndərnamə" poeması tədris olunur. Bu əsərlərdə şairin məqsədi oxucuların diqqətini onu düşündürən mənəvi problemlərə yönəltməkdir.

Məlumdur ki, «Sirlər xəzinəsi» Nizaminin ilk irihəcmli əsəridir. Dərsdə bu əsər üzrə müzakirə zamanı qeyd edilir ki, poemaya daxil olan iyirmi məqalət və iyirmi hekayətdə sənətkarın qarşıya qoyduğu məqsəd insanı şər əməllərdən çəkindirmək, mənəvi cəhətdən saflaşdırmaq, kamil şəxsiyyət kimi görməkdir. Ədibin fikrincə, insan həmişə yadda saxlamalıdır ki, Tanrı onu saf mənəviyyatlı, xeyir işlər, xoş əməllər üçün yaratmışdır.

Şairin qənaətinə görə, insan həyatda bəzən büdrəsə, şərə uysa da, daim mənəvi kamilləşməyə, doğruçuluq, çalışqanlıq, qocalara hörmət, öz nəfsini cilovlamaq, az danışmaq, dostluqda sədaqət və s. sifətlərə yiyələnməyə can atmalıdır.“Sirlər xəzinəsi”nə daxil olan hekayələrin leytmotivini mütərəqqi istək və arzular, humanist ideyalar - ictimai ədalət, əməyə, əməkçi insana ehtiram hissi təşkil edir. Şairin yaradıcılığının məfkurəvi istiqaməti, ictimai-siyasi və mənəvi baxışları ilk dəfə bu əsərdə geniş əks olunmuşdur.

Nizami əməksevərliyi, insanın ictimai faydalı əməklə məşğul olmasını mənəvi dəyər kimi təqdim edir. Sənətkarın fikrincə, əmək insan həyatının əsasıdır. İnsan əməklə ucalır, zəhmətin sonunda rahatlıq, şadlıq vardır. İnsan gəncliyindən səylə işləməli, zəhmətə alışmalı, qarşısına qoyduğu məqsədə çatmaq iüçün səbr və inamla fəaliyyət göstərməlidir.

V sinifdə ədəbiyyat dərsində “Kərpickəsən kişinin dastanı” əsərinin məzmununun mənimsədilməsi üzrə iş aparılır. Şagirdlər kərpickəsən qoca ilə ona ağıl öyrədən, acı sözlərlə tənbeh edən təcrübəsiz cavanın dialoqunu şərh edir, aşağıdakı misralardakı fikirlərə münasibət bildirirlər:

Onunçün öyrətdim ki, əlimi bu sənətə.
Bir gün sənə əl açıb düşməyim xəcalətə.
Deyiləm heç bir kəsə xəznədən ötrü möhtac,
Əlimin zəhmətiylə toxdur gözüm, deyil ac.
Məni bu ruzi üçün günahkar sayma bəsdir,
Düşünsən bilərsən ki, dediklərin əbəsdir.[3, s.72]

Əsərin təhlili zamanı şagirdlər Venn diaqramından istifadə edərək kərpickəsən qoca ilə cavan oğlanı müqayisə edirlər. sənətkar burada təzadlı bir vəziyyət yaradır. Adətən dünyagörmüş qocalar cavanlara nəsihət verər, onları səhv addımdan çəkindirər. Bu əsərdə isə əksinədir, cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. Lakin Nizami hekayədə cavan oğlanı tam mənfi planda təsvir etmir, onun gələcəyinə ümidlə baxır. Kərpickəsən kişinin sözlərini dinləyən gənc onun dediklərinin həqiqət olduğunu anlayır. Öz hərəkətindən utanan cavan oğlan səhvini başa düşüb sarsılır, göz yaşları içində qocanı tərk edir:

Cavan oğlan sarsıldı qocanın bu sözündən,
Orda durmadı getdi, yaş axıdıb gözündən.
Dünya görmüş adamdı söylədiyim bu qoca,
Öz işiylə hamının gözündə oldu uca.[3, s. 72.]

VII sinifdə “Sultan Səncər və qarı” hekayəsinin məzmununun mənimsədilməsindən sonra təhlil aparılır. Əsərin müzakirəsi zamanı şagirdlərin diqqəti xalqı, sadə insanları təmsil edən qarı ilə Sultan Səncərin qarşılaşdırılmasına yönəldilir. Müəllimin tapşırığı ilə şagirdlər aşağıdakı fikirlərə münasibət bildirirlər:

Bir kefli darğa gəlib evimdə məni söydü,
Salıb təpik altına doyunca döydü, döydü.
Mən günahsız qarının saçlarına atdı əl,

Üzü üstə sürüdü evdən çölə əlbəəl.
Camaat arasında söyüb məni qudurdu,
Evimin qapısına zülmün möhrünü vurdu.
Dedi: - Ey qozbel qarı, söylə, filan gecədə
Filankəsi kim vurdu yaşadığın küçədə?
Evimi çox axtardı: Qatil hardadır? - deyə,
Ey padşah, bu həqarət sığarmı yerə, göyə?
Darğanın sərxoşluğu olmuş bu işə maya,
Bəs niyə mən yazığı salır qısma-boğmaya? [4, s.30]

Dərsdə müzakirə şagirdlərdə belə qənaət yaradır ki, sənətkar qarının sözləri ilə hökmdarın ədalətsizliyini, cəmiyyətdə günahsız insanların haqsız təqiblərə məruz qaldığını ifşa edir, dövrün mənəviyyatsı hakim təbəqəsinə ibrət dərsi verir.

Nizami özünün ədalətli insan cəmiyyəti haqqındakı mənəvi baxışlarını, humanist mövqeyini ifadə edərək dövrün hökmdarlarının qarşısında böyük tələblər qoyurdu. Nizamiyə görə, hökmdar xalqın dərdlərinə şərik olmalı, sadə insanların qayğısına qalmalı, xalqın mənafeyi üçün çalışmalı, zülm edənlərə, ictimai qanunları, asayişi pozanlara qarşı ciddi mübarizə aparmalıdır.

Nizami insanın mənəvi təkamülü, kamilliyə can atması ilə bağlı ideyalarını elmi və bədii axtarışlarının məntiqi yekunu olan «İskəndərnamə» poemasında böyük sənətkarlıqla əks etdirmişdir. X sinifdə poemanın təhlili zamanı əsərin qəhrəmanı İskəndər yeni, orijinal, monumental bir surət kimi səciyyələndirilir. Qeyd edilir ki, sənətkarın mənəvi təkamül, humanizm, ictimai ədalət ideyaları bu obrazda özünün mükəmməl bədii təcəssümünü tapmışdır.

Müzakirə zamanı aydınlaşdırırlır ki, Nizami yaradıcılığı üçün səciyyəvi olan ədalətli hökmdar ideyası poemada inkişaf etdirilmiş, daha yüksək səviyyəyə qaldırılmışdır. Əsərdə var-dövlət, sərvət üçün qan tökməkdən çəkinməməsi, ölkələri işğal və qarət etməsi İskəndərin nöqsanı kimi göstərilir. Şair onu elmə, biliyə, alimlərlə ünsiyyətə dəvət edir. Alimlərlə görüşüb onların tövsiyələrini dinləyən İskəndər daxili, mənəvi saflaşmaq yolunu tutur, dövləti idarəetmə işlərində elmi yanaşma nümayiş etdirir, bilicilərdən öyrəndiklərini əməldə tətbiq edir. Alimlərin məsləhətləri İskəndəri niyyət və arzularını dəyişməyə, insanpərvərliyə, düzgün mənəvi mövqe tutmağa sövq edir. İskəndər bu nəticəyə gəlir ki, ölkədə əmin-amanlığa nail olmaq, aclığı, yoxsulluğu aradan qaldırmaq, xalqın rifahını təmin etmək üçün ilk növbədə humanist, ədalətli olmaq lazımdır.

Şagirdlərdə bu qənaət yaradılır ki, İskəndər obrazı vasitəsilə şair onu düşündürən mənəvi, əxlaqi problemləri həll etməyə, insanlarda fəal mənəvi mövqe, doğru yol göstərməyə çalışmışdır. Əsərdə Nizaminin işğalçı müharibələrə, günahsız insanların qətl və qarətinə, zalım şahların ədalətsizliyinə, dərəbəylərin özbaşınalığına etirazı öz əksini tapmışdır.

"İskəndər bu baxımdan Nizaminin sevə-sevə qələmə aldığı ideal qəhrəmandır.

Ancaq, eyni zamanda o, öncədən proqramlaşdırılmış bir robot deyil, bəzən yanıla bilən, bəzən bilmədən ədalətsizlik də edən canlı bir insandır. Bunun nəticəsidir ki, bəzən İskəndərin qadına yuxarıdan aşağı baxmasının, bəzən öz gücünə həddən artıq arxayın olub təhlükəli vəziyyətə düşərkən qorxmasının, bəzən insanlar içərisində ən böyük önəm verdiyi bir alimi-filosofu təpikləyib yuxudan oyatmasının da şahidi oluruq.

Ancaq bütövlükdə İskəndər ümumbəşəri ədalət, xeyir, əmin-amanlıq, düzlük və rifah uğrunda mübarizə aparan bir ideal obraz, Nizami qələminin yaratdığı dahi bir şəxsiyyətdir. İskəndəri yalnız öz xalqının xoşbəxtliyi düşündürmür; bütün dünyadakı əzilən insanlara, zülm görmüş xalqlara himayədarlıq edən bu hökmdar gözlərimiz önündə ümumbəşəri xeyir mücəssəməsi kimi canlanır. [5,s.58]

Dərsdə əsərin digər qəhrəmanı Nüşabə obrazının təhlili zamanı vətənpərvərliyini, zahiri gözəlliyi ilə yanaşı mənəvi zənginliyini, şərəf və ləyaqətini qorumasını, İskəndər kimi bir fatehə ağıl öyrətməsini, özünü aslan adlandırmasını onu səciyyələndirən başlıca cəhətlər kimi qeyd edilir.

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.[5,s.59]

Şagirdlər bu obraza münasibətlərini ifadə edərək bildirirlər ki, Bərdə hökmdarı Nüşabə Azərbaycan qadınlarının mənəvi kamilliyini əks etdirən qəhrəman bir qadındır. Vətəninə, xalqına dərindən bağlı olan bu ağıllı, fərasətli qadın öz ölkəsini ədalətlə idarə edir, onu xarici işğalçı qüvvələrin hücumundan qoruyur, ölkədə əmin-amanlıq yaradır.

Şagirdlər müqayisə apararaq qeyd edirlər ki, əsərdə Nüşabə obrazı öz cəsarəti, uzaqgörənliyi, mərdliyi ilə diqqəti cəlb edir. Nizaminin ədalətli hökmdar haqqında düşüncələrini əks etdirən bu obraz öz idrakı, cəsarəti, mərdliyi, tədbirliliyi ilə ədibin əsərlərindəki digər şah surətlərindən fərqlənir.

Müasir mərhələdə ədəbiyyat dərslərində Nizami irsindən şagirdlərin mənəvi tərbiyəsində məqsədyönlü istifadə diqqət mərkəzində saxlanılmalıdır. Nizaminin bədii yaradıcılığında mənəvi dəyərlər, əxlaqi keyfiyyətlər - humanizm, xeyirxahlıq, saflıq ideyaları parlaq insan obrazları vasitəsilə əks etdirilmişdir. Böyük sənətkar öz əsərlərində öz dövründəki haqsızlıqlara qarşı çıxmış, zülmü, ədalətsizliyi əsərlərində tənqid etmişdir. O, insan şəxsiyyətini yüksək qiymətləndirmiş, insanı məğrur yaşamağa, alçaqlara baş əyməməyə, öz əlinin zəhməti ilə mənalı bir ömür yaşamağa səsləyirdi. Nizami insanı kamil görmək istəyir, onu mənəvi saflıq mücəssəməsi kimi görmək istəyirdi. O, xalqı təmsil edən sadə insanların arzu və istəklərini tərənnüm etmişdir.

Ədəbiyyat dərslərində Nizami Gəncəvinin əsərlərinin öyrənilməsi şagirdlərin mənəvi tərbiyəsi baxımından böyük imkanlar yaradır. Sənətkarın mənəvi dəyərlərlə bağlı düşüncələri müasir gənc nəslin düzgün tərbiyəvi istiqamət almasına imkan

yaradır. Dərsdə müzakirə, müqayisə metodlarından məqsədyönlü istifadə, şagirdlərin fəallıq və müstəqilliyinə geniş yer verilməsi bu baxımdan çox əhəmiyyətlidir.

Müəllim müzakirə, müqayisə kimi interaktiv metodlardan məqsədyönlü istifadə edərək ədəbiyyat dərslərində şairin əsərlərindən nümunələr söyləməli, onun hikmətli sözlərini, görkəmli şəxsiyyətlərin sənətkar haqqında fikirlərini şagirdlərin diqqətinə çatdırmalıdır. Təlim prosesində şagirdlərin müstəqillik və fəallığına geniş yer verərək sənətkarın həyatı, şəxsiyyəti, yaradıcılığı ilə bağlı əsas məqamlar ümumiləşdirilməli, başlıca cəhətlər ön plana çəkilməlidir.

Nizami Gəncəvinin şəxsiyyəti, həyat və yaradıcılıq yolunun öyrənilməsi əsrlər boyu gənc nəslin mənəvi tərbiyəsinin mühüm amillərindən olmuşdur. Müasir ədəbiyyat dərslərində sənətkarın şəxsiyyəti, yaradıcılığı ilə bağlı müzakirələr şagirdlərdə fəal həyat mövqeyi formalaşmasına müsbət təsir göstərir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [https://www.muallim.edu.az/news.php?id=14082]

2. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:Müəllim, 2015.

3. Əliyev S. , Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. V sinif üçün dərslik. Bakı: Bakınəşr, 2016.

4. Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S.Ədəbiyyat. VIII sinif üçün dərslik. Bakı: Bakınəşr, 2015.

5. Cəfərov N., Kərimli T., Əsgərli Z., Baxıxanova A. Ədəbiyyat. 10-cu sinif üçün dərslik. Bakı:Çaşıoğlu, 2005.

**TAHİRA YUSİFOVA**

## OPPORTUNITIES FOR THE MORAL EDUCATION OF STUDENTS IN THE PROCESS OF STUDYING THE CREATIVITY OF THE NIZAMI IN LITERATURE LESSONS

The development of the moral potential of society, the formation of the younger generation as an active, purposeful personality is one of the main tasks facing the education system at the present stage. The main object of fiction is a person, his spiritual and moral problems. In this regard, the artistic heritage of the prominent representative of Azerbaijani literature, Nizami Ganjavi, is a treasury of spiritual wealth. Nizami had a progressive outlook, excellent knowledge, and a deep knowledge of many sciences. Life truths, ideas of equality and freedom in society are reflected in the work of the thoughtful poet.

At the present stage, the focus should be on the purposeful use of Nizami's heritage in the spiritual education of students in literature lessons. In the artistic work of Nizami, spiritual values, moral qualities - the ideas of humanism, goodness, purity are reflected through bright human images. The great artist spoke out in his works

against the injustice of his time, criticized oppression and injustice in his works. He highly valued the human personality, urged people to live proudly, not to bow before the humble, but to live a meaningful life with the efforts of their hands. Nizami wanted to see a person perfect, he wanted to see in him the embodiment of spiritual purity. He sang the wishes and aspirations of ordinary people who represent the people.

In literature lessons, the teacher should give examples of the poet's works, bring to the attention of students his wise words, the opinions of prominent personalities about the artist. It is necessary to summarize the main points related to the life and personality of the artist, to highlight the main aspects.

The study of the personality, life and creative path of Nizami Ganjavi has been one of the important factors in the spiritual education of the younger generation for centuries. Discussions about the personality and work of the artist in the lessons of modern literature have a positive effect on the formation of an active life position in students.

**Key words:** spiritual, literature, story, student, lesson, education, discussion, problem, humanism

**ТАХИРА ЮСИФОВА**

## ВОЗМОЖНОСТИ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ИЗУЧЕНИЯ ТВОРЧЕСТВА НИЗАМИ НА УРОКАХ ЛИТЕРАТУРЫ

Развитие нравственного потенциала общества, формирование подрастающего поколения как активной, целеустремленной личности является одной из основных задач, стоящих перед системой образования на современном этапе. Главный объект художественной литературы - человек, его духовно-нравственные проблемы. В этом отношении художественное наследие видного представителя азербайджанской литературы Низами Гянджеви является сокровищницей духовного богатства. Низами обладал прогрессивным мировоззрением, прекрасными знаниями, глубоко владел многими науками. Жизненные истины, идеи равенства и свободы в обществе нашли отражение в творчестве вдумчивого поэта.

На современном этапе в центре внимания должно быть целеустремленное использование наследия Низами в духовном воспитании учащихся на уроках литературы. В художественном творчестве Низами духовные ценности, нравственные качества - идеи гуманизма, добра, чистоты находят отражение через светлые человеческие образы. Великий художник выступал в своих произведениях против несправедливости своего времени, критиковал в своих произведениях угнетение и несправедливость. Он высоко ценил человеческую

личность, призывал людей жить гордо, не преклоняться перед смиренным, а усилиями своих рук жить осмысленной жизнью. Низами хотел видеть человека совершенным, он хотел видеть в нем воплощение духовной чистоты. Он воспевал пожелания и стремления простых людей, которые представляют народ.

На уроках литературы учитель должен приводить примеры произведений поэта, доводить до сведения учащихся его мудрые слова, мнения выдающихся личностей о художнике. Следует обобщить основные моменты, связанные с жизнью и личностью художника, выделить основные аспекты.

Изучение личности, жизненного и творческого пути Низами Гянджеви на протяжении веков было одним из важных факторов духовного воспитания молодого поколения. Дискуссии о личности и творчестве художника на уроках современной литературы положительно влияют на формирование у учащихся активной жизненной позиции.

**Ключевые слова:** нравственность, литература, рассказ, студент, урок, образование, обсуждение, проблема, гуманизм

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Fiologiya elmləri doktoru, professor Yaqub Babayev tərəfindən çapa tövsiyə olunmuşdur.**

**GÜNAY MƏTLƏB QIZI QULIYEVA**
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun Türk dünyası*
*əlyazmalarının tədqiqi şöbəsinin elmi işçisi*
**email: quliyeva.gunayy@mail.ru**

# İBRAHİM HƏQQİ ƏRZURUMININ "MƏRİFƏTNAMƏ" ƏSƏRİ

## XÜLASƏ

Görkəmli alim İbrahim Həqqi Ərzurumi astronomiya, anatomiya, geometriya, triqonometriya, fiziologiya, psixologiya, sosiologiya, fəlsəfə, tibb, din və s. sahələrdə bir-birindən önəmli bir çox əsərə imza atmışdır. Lakin bu əsərlər içərisində alimin "Mərifətnamə" əsəri xüsusi yer tutur. 1757-ci ildə tamamladığı bu əsər təxminən 600 səhifədən ibarət olan ensiklopedik bir əsərdir. Alim "Mərifətnamə" əsərini yazarkən 400 kitabdan yararlandığı qeyd edir. Əsərin ən önəmli özəlliklərindən biri onun xalqın anlaya biləcəyi şəkildə, sadə bir dildə yazılmasıdır. Möhtəşəm bir əsər olan "Mərifətnamə" Osmanlı təsəvvüfünün tipik və canlı bir nümunəsidir. İbrahim Həqqi Ərzurumi "Mərifətnamə" əsərini oğlu Seyid Əhməd Nəiminin şərəfinə yazdığını bildirmişdir. Kitabın bir müqəddimə, üç əsas bölmə (fənn) və bir xatimədən ibarət olduğunu bildirən İbrahim Həqqi öz oğlunun simasında bütün oxuyucularını bu dəyərli əsərdən nəticələr çıxarmağa, dərs almağa səsləyir. Müəllif yazır ki, dünya və axirət insan üçün, insan da Yaradıcısını tanımaq üçün yaradılmışdır. Yaradıcısını tanımaq isə insanın özünü tanıması, özününü tanıması isə həm maddi aləmi, həm də fiziki aləmi tanıması deməkdir.

**Açar sözlər:** İbrahim Həqqi Ərzurumi, "Mərifətnamə", islam, təsəvvüf, sufi, astronomiya, anatomiya, coğrafiya, insan

18 may 1703-cü ildə Ərzurumun Həsənqala vilayətində anadan olan İbrahim Həqqi Ərzurumi astronomiya, anatomiya, geometriya, triqonometriya, fiziologiya, psixologiya, sosiologiya, fəlsəfə, tibb, din və başqa sahələrdə bir-birindən önəmli bir çox əsərə imza atmışdır. Lakin bu əsərlər içərisində alimin "Mərifətnamə" əsəri xüsusi yer tutur. 1757-ci ildə tamamladığı bu əsər təxminən 600 səhifədən ibarət olan ensiklopedik bir əsərdir. Alim "Mərifətnamə" əsərini yazarkən 400 kitabdan yararlandığı qeyd edir. Əsərin ən önəmli xüsusiyyətlərindən biri, onun xalqın anlaya biləcəyi şəkildə, sadə bir dildə yazılmasıdır. İbrahim Həqqi Ərzurumi "Mərifətnamə" əsərini oğlu Seyid Əhməd Nəiminin şərəfinə yazdığını bildirmişdir. Təsəvvüfə dair mövzularla yanaşı, İslam dini, astronomiya, coğrafiya, geologiya, insan anatomiyası və fiziologiyası, psixologiya, riyaziyyat, həndəsə, tibb və s. elm sahələrinə aid öz dövrünün önəmli bilgilərini əhatə edən bu möhtəşəm əsər ərəb, fars və bir çox dillərə tərcümə olunmuşdur. Kitabın bir müqəddimə, üç əsas bölmə (fənn) və bir xatimədən ibarət olduğunu bildirən İbrahim Həqqi öz oğlunun simasında bütün oxuyucularını

bu dəyərli əsərdən nəticələr çıxarmağa, dərs almağa səsləyir. Müəllif yazır ki, dünya və axirət insan üçün, insan da Yaradıcısını tanımaq üçün yaradılmışdır. Yaradıcısını tanımaq isə insanın özünü tanıması, özününü tanıması isə həm maddi aləmi, həm də fiziki aləmi tanıması deməkdir.

"Mərifətnamə"də əsas bölmələr (fənlər) bab, fəsil və növ adları ilə qruplara ayrılmışdır. Dörd fəsildən ibarət olan müqəddimənin ilk fəsli dünya və axirət aləminin quruluşu ilə bağlı olub, təxminən səksəndən ibarət ayə ilə başlayır. Müqəddimənin son mövzularını isə qiyamət əlamətləri, sura üfürüldükdən etibarən baş verəcək axirət əlamətləri təşkil edir.

Üç bab və iyirmi dörd fəsildən ibarət olan birinci bölmə, maddi aləmin yaradılması və xüsusiyyətlərinə həsr olunmuşdur. Birinci babda ağıl, nəfs, dörd ünsürdən (od, hava, su, torpaq) bəhs olunmuş, maddənin başlanğıc nöqtəsi olan torpaqdan bitkiyə, oradan da heyvana və nəhayət, insana doğru inkişaf edən bir növ təkamül prosesi izah olunmuş, İlahi nurdan başlayıb torpağa eniş və oradan da İlahi nura yüksəliş şəklində olan dövrdən bəhs edilmişdir. Birinci bab, riyaziyyat elmi ilə davam edib, həndəsəyə dair mövzularla başa çatır. On fəsildən ibarət olan ikinci babda dünyanın kürə şəklində olması qeyd olunduqdan sonra ayələrlə sübut edilmiş, daha sonra bürclər, yeddi planet haqqında geniş məlumat verilmiş, müxtəlif rəsmlər çəkilmiş və cədvəllər tərtib olunmuşdur. Üçüncü babda müəllif dörd ünsür üzərində dayanmış, bu aləmdəki var oluş və dəyişikliklər vasitəsilə "heyəti-cədidə" adlandırdığı Kopernik sistemindən söhbət açmışdır. Bu babın ayrı-ayrı fəsillərində müxtəlif rəsmlər və cədvəllərlə qədim və yeni astronomiya biliklərinə dair nümunələr göstərilmişdir.

İkinci bölmə, beş bab və on səkkiz fəsildən ibarətdir. Müəllif əvvəlki dörd babda fiziologiyanın faydaları, fiziologiyanın köməyi ilə insan orqanizmini tanımaq, bədən ilə ruhun əlaqəsi, orqanların fəaliyyəti, damarlar, zahiri və batini hisslər haqqında məlumatlar vermiş, dördüncü babın son fəslində isə orqanların formasından yola çıxaraq, insanların psixoloji bacarıqlarını və əxlaqını müəyyən etmək (qiyafət elmi) texnikasını izah etmişdir. Beşinci babda alim insanın maddi və psixoloji xüsusiyyətləri ilə zahiri aləm, zaman və məkan, o cümlədən insan aləmi ilə axirət aləmi arasında olan oxşarlıq və onlar arasında bir növ əlaqə qurmaq təcrübəsi üzərində dayanmışdır. Bütün bunlara insanın öz varlığı və sifətlərindən ilhamlanaraq Allahın varlığı və sifətləri haqqında təsəvvür əldə etmək mövzusu əlavə olunmuş, kamil insanın əlamətləri araşdırılmışdır. Bununla yanaşı, bu babda insanın fiziki sağlamlığı, dərmanlar, qida və içkilər, geyim tərzi ilə əlaqədar izahatlar verilmişdir.

"Mərifətnamə" əsərinin üçüncü bölməsi isə beş bab, iyirmi yeddi fəsildən ibarətdir. Əsərin ilk iki bölməsinin üçüncü bölməyə bir giriş təşkil etdiyini söyləsək yanılmış olmarıq. Kitabın əvvəlində də qeyd etdiyi kimi, müəllif birinci bölmə ilə oxucunun zahiri aləmi tanıması, ikinci bölmə ilə özünü tanıması, üçüncü bölmə ilə isə Allahı tanıyıb İlahi səadəti tapmasını önünə məqsəd qoymuşdur. Üçüncü

bölmənin birinci babında "Kitab"a ("Qurani-Kərim"ə) və Peyğəmbərin sünnəsinə əməl etməyin vacibliyi vurğulanmış,

Xuda Rəbbim, nəbim haqqa Məhəmməddir rəsulullah
Həm İslam dinidir dinim, kitabımdır kəlamullah

ilə başlayan 116 beytlik mənzumə verilmiş, daha sonra isə təmizlik qaydaları ilə namaz haqqında məlumatlar verilmişdir. Daha sonra dünya həyatının faniliyi, əbədi aləmin əhəmiyyəti və Allaha bağlılığın zəruriyyəti vurğulanır. Alim burada, həmçinin mərifət və hikmət mərkəzi olan ağlın mahiyyəti və xüsusiyyətlərindən, onun qəlblə olan əlaqəsindən bəhs etmiş, sünni təsəvvüf anlayışı çərçivəsində sufizm anlayışını və mövzularını olduqca sadə bir dildə və geniş şəkildə işıqlandırmışdır. Övliya elmi, övliyaların üstün keyfiyyətləri və möcüzələri, həmçinin Nəqşbəndiyyə təriqətinin əsasları və həqiqətləri də üçüncü bölmənin mövzuları arasında yer alır. Bölmənin son babında isə nəfsin mərtəbələri haqqında məlumatlar verilmiş, daha sonra İbrahim Həqqi Ərzuruminin və onun atası Osman əfəndinin şeyxi olan "Fəqirullah" təxəllüsü ilə tanınan İsmayıl Tillovinin tərcümeyi-halından, atasının və özünün şeyxinə olan bağlılığından bəhs olunmuşdur.

Əsərin dörd fəsildən ibarət olan xatiməsi isə bütün təbəqələrdən olan insanlarla yaşaya bilmək mədəniyyəti mövzusundadır. Burada bildirilir ki, bir insan üçün hər zaman Allahın Rəsulunu (s.a.s.) örmək götürmək olduqca vacibdir. Daha sonra isə müəllif insanlara qarşı davranışlarda xeyirxah, nəzakətli, mərhəmətli olmağın zəruriliyini vurğulayan bir çox ayə, hədis və s. nümunələr göstərmiş, müxtəlif təbəqələrə mənsub olan insanların öz davranışlarında hansı ədəb qaydalarına riayət etmələrinin lazım olduğunu qeyd etmişdir. Daha sonra isə din alimlərinin və övliya zümrəsinin ədəb-ərkan qaydalarından bəhs etmiş, müxtəlif orqanlar vasitəsilə insanların işləyə biləcəkləri günahlar bir-bir sadalanmış, bu bunların səbəbləri izah olunmuşdur. Alim xatimənin sonunda hər hansı bir şeyi asan şəkildə əzbərləməyin on yolu, unutqanlığın on səbəbi, insanı kasıblığa sürükləyən qırx səbəb, zənginliyə aparan on səbəb haqqında məlumat verir. Böyük həcmli bir əsər olan "Mərifətnamə"də, xüsusilə də, üçüncü bölmədə bir qismi ərəbcə və farsca olmaqla bir çox mənzumə verilmiş, həmçinin kitabda iyirmi iki rəsm və müxtəlif cədvəllər yer almışdır.

"Mərifətnamə" əsərinin ən maraqlı, diqqətçəkən mövzularından biri də "Qiyafətnamə"dir. "Qiyafətnamə", insanın ağız, burun, saç, göz, qulaq, əl, ayaq və s. bədən üzvlərinin quruluşundan və xarici görünüşündən yola çıxaraq onun əxlaqını, xarakterik xüsusiyyətlərini müəyyən etmək elmidir (physiognomy). Belə ki, insanın vücudu, onun ruhunu bürüyən, onu mühafizə edən bir növ paltar kimidir. Mövlana həzrətləri bu barədə yazır:

Bil ki, oldu ruha ten guya libas
Bilibas ol labisi qıl iltimas

Bu elmin mütəxəssisinə "qiyafətşünas" (physiognomist) deyilir. "Qiyafət elmi" ümumi mahiyyətinə görə "qiyafətül-isr" və "qiyafətül-bəşər" olmaqla iki yerə

bölünür. “Qiyafətül-isr”, insanların və heyvanların ayaq izlərindən bəhs edən bir elmdir. Belə ki, bu elmə vaqif olanlar ayaq izləri vasitəsilə cavanı qocadan, kişini qadından fərqləndirə bilirlər. “Qiyafətül-insaniyyə” və “qiyafətül-əbdan” da adlandırılan “qiyafətül-bəşər” isə qeyd etdiyimiz kimi insanın bədən quruluşundan onun əxlaqi keyfiyyətlərini, xasiyyətini müəyyən etmək elmidir. Hələ İslamiyyətdən qabaq dünyanın bir çox ölkələrində bu elm sahəsi ilə məşğul olunmuş və müxtəlif əsərlər yazılmışdır.

“Mərifətnamə” əsərinin dördüncü babının son fəslində yer alan “Qiyafətnamə” mənzum şəkildə olub həcm etibarilə qısadır. Səkkiz növə ayrılan bu fəsildə əsl “qiyafətnamə”ni əmələ gətirən növlər, dördüncü və beşinci növlərdir. Bunlar “muftəilun failun” vəznində yazılmış məsnəvilərdən ibarətdir. Digər növlər isə tamamlayıcı mahiyyət daşımaqdadır. Bu növlər insanın baş üzvlərinin və digər üzvlərinin hikmətinə, qadın gözəlliyinin əlamətlərinə, nəfslə əlaqədar olan hökmlərə və s. həsr olunmuşdur.

İbrahim Həqqi Ərzuruminin “qiyafətnamə”sində digər bir çox nümunələrdən fərqli olaraq hər üzvlə bağlı hökmlər verilərkən başlıq qoyularaq ayrı-ayrı üzvlər vurğulanmamışdır. “Qiyafətnamə”ni qələmə alarkən, müəllifin bu mövzuda ondan öncəki alimlərin əsərlərindən faydalanmış olması təbii bir hal olmaqla yanaşı, mənzumədə heç bir xarici təsir və tərcümə qoxusu duya bilmərik.

“Mərifətnamə” əsərində yer alan “Qiyafətnamə”dən bir parçaya nəzər salaq:

| | |
|---|---|
| کیمکه بوییدر طویل | ساده دیل اولور جمیل |
| کیمکه بوییدر قصیر | حیله سی واردر کثیر |
| کیمکه وسط بویلیدر | عاقل و خوش خویلیدر |
| کیمکه صاچی صرد اولور | عقلله جرأت بولور |
| کیکه صاچی نرم اولور | ابله و بی شرم اولور |
| کیمکه صاچی صاریدر | کبر و غضب کاریدر |
| کیمکه صاچیدر قره | صبری وار آنی آرا |
| قومرال ایسه صاچ کوزل | صاحبیدر بی بدل |
| صاچی آز اولان لطیف | اولدی عریف و ظریف |
| صاچی چوق اولسه زنك | فهمی آز اولور آنك |
| باشی کوچك عقلی آز | اولسه اکا دیمه راز |
| باشی بیوك اوله نك | عقلی چوق اولور انك |
| یصی ایسه فرق سر | صاحبی چکمز کدر |
| جلدی سری برك اولان | خیر ایدر ایتمز زیان |
| اقرعه اولمه یقین | بد خوی اولور پك صقین |
| جبهه سی ضیق اوله نك | ضیق اوله خلقی انك |
| یومری اولورسه جبین | صاحبی زشت و غبین |
| جبهه سی اولان عریض | بد خوی اولور جون مریض |
| معتدل اولسه جبین | صاحبنی بیل امي |
| جبهه سی بی چین اولان | کاهل اولور بیکمان |
| چینی اوزوندر فهیم | آز ایسه اولمش کریم |

قاش اره سی چین اولان غم یوکیدر اول همان
اذنی کبیر اولسه بول جاهل و کاهلدر اول
اذنی کوچك اوغریدر اوسط اولان طوغریدر
اینجه اولان قاش اوجی فتنه در ایشی کوجی
قاشده چوق اولان قیلی مکثر اولور غصه لی
قاشی آچق طوغریدر چاتمه ایسه اوغریدر
اینجه قاش اولور جمیل کبره طویلی دلیل
قاشی مقوس اولان دلبر اولور هر زمان
کوز چقور اولسه قلیل اولمش او کبره دلیل
چشمی سیهدر مطیع چشمی قزلدر شجیع
کوزلری کوکدر لبیب لیك الا کوزلی ادیب
چشمی کوچکدر خفیف چشمی بیوکدر ظریف
دیده سی یومری حسود اوسط اولاندر ودود
چشمی قپیق اولدی شین باقیشی سست اولدی زین
نقطه لی کوز اوق اولور دکمه سی پك چوق اولور
اعوره اولمه یقین صیق باقان اولمز امین
شاشی یه ایتمه نظر کیم سکا اکری بقار
چشمی کولجدر کوزل کربکی صیق بی بدل
وجهی بیوکدر علیل کبره کوچکدر دلیل
یومری اولندر بخیل یصی اولاندر جمیل
وجهی اریقدر محیل اتلی اولندر ثقیل
وجهی پك اوزون اولان لاف ایله سویلر یلان
کیمکه ترشدر یوزی تلخ اولور اکثر سوزی
وجه مدور کرك بدردن انور کرك
چون متبسم اولور انی کورن کام آلور
بکزی قزلدر ادیب اسمر اولندر لبیب
بکزی صاریدر علیل اسوده مائل محیل
کوزلری کوك اشقراق اولسه اندن اول ایراق
لونی اولان معتدل هم آغ اولور هم قزل
انف اکر اولسه دراز صاحبیدر فهمی آز
انف اکر اولسه قصیر خوف اولور انده کثیر

Möhtəşəm bir əsər olan “Mərifətnamə” Osmanlı təsəvvüfünün tipik və canlı bir nümunəsidir. Xüsusilə sufi-əxlaqi mövzulara aid fəsillərdəki ifadə və üslub tərzi bir daha onun səmimi təqvasını və təsəvvüf prinsiplərinə nə qədər ürəkdən bağlı olduğunu əks etdirir. İbrahim Həqqi Ərzuruminin Allaha qarşı hər gün bir az daha artan sevgisi, yaradılmışlara yönələn sevgi və mərhəməti daha çox onun mənzumələrində təsirli bir əhval-ruhiyyə yaradır. Dünyanın mənası və dəyəri, qəlbin mahiyyəti və Allahı tanımaqla bağlı olan mövzulara aid açıqlamalarında alimin, Qəzalinin “İhyai-ülumid-din” əsərindən geniş ölçüdə faydalandığı hiss olunur. İbrahim Həqqi insan anatomiyası və fiziologiyası ilə bağlı mövzularda isə İbn Sinanın “Qanun fit-tibb” kitabından yararlanmaqla yanaşı, öz dərin müşahidələrini

də geniş şəkildə ortaya qoymuşdur. Alimin insan psixologiyası və mənəviyyatının əsasını təşkil edən prinsiplərlə bağlı verdiyi məlumatlar bir daha onun İbn Sina ənənəsinin davamçısı olduğunu sübut edir. "Mərifətnamə"də tədqiq olunan ayrı-ayrı mövzuların əhatə dairəsinə görə təfsir və hədis əhlinə, hikmət və hesab əhlinə, irfan əhli və əhlullaha tez-tez müraciət olunur.

Əsərin bir çox əlyazma nüsxəsi vardır. Təkcə Süleymaniyyə kitabxanasında olan nüsxələrin sayı iyirmidən çoxdur (məsələn, Əsəd Əfəndi, nr.1902; Fatih, nr.2851; Həsən Hüsnü Paşa, nr.787 və s.). Kitab dəfələrlə nəşr olunmuşdur (Bulaq 1251, 1280; Qahirə 1255; Kazan 1261; İstanbul 1284, 1294, 1310, 1328, 1330, 1971, 1980, 1984). Eyni zamanda, əsər Turqut Ulusoy, Durali Yılmaz – Hüsnü Kılıç və Faruk Meyan tərəfindən günümüz Türkiyə türkcəsinə çevrilmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Mərifətnamə" əsərinin bir nüsxəsi tam şəkildə B-5723 şifrəsi altında qorunub saxlanılır. Əsər 543 vərəqdən ibarətdir.

**Ədəbiyyat**


1. Abdülbaki Gölpınarlı, "İbrahim Hakkı, Erzurumlu", *TA*, XIX, 507-508.
2. Adıvar, *Osmanlı Türklerinde İlim*, s. 78, 163-166.
3. Âmil Çelebioğlu, *Erzurumlu İbrahim Hakkı*, Ankara 1988, s. 29-31.
4. Âmil Çelebioğlu, *Eski Türk Edebiyyatı Araştırmaları*, 1998, s. 250-257.
5. Mesnevi-i Şerif, əsli ve sadələşdirilmiş variantıyla Mənzum Nahifi tərcüməsi, Hz. Amil Çelebioğlu, İstanbul, 1969, c.III, s.61
6. Ekmeleddin İhsanoğlu, "Batı Bilimi ve Osmanlı Dünyası: Bir İnceleme Örneği Olarak Modern Astronomi'nin Osmanlıya Girişi", *TTK Belleten*, LVI/217 (1992), s. 749-757.
7. Katib Çelebi, "Kəşfüzzünun", İstanbul, 1943, c.II, s.1366
8. Mehmed Ali Ayni, "Şeyh İbrâhim Hakkı", *DEFM*, sy. 2 (1332), s. 117-130.
9. Mustafa Çağrıcı, "İbrâhim Hakkı Erzurûmî", *DİA*, XXI, 306-310
10. Sadi Irmak, "Tıp Tarihi: İbrahim Hakkı (1703-1780) ve Pozitif İlimler", *İÜ Tıp Fakültesi Mecmuası*, XXXVI, İstanbul, 1973, s. 153-168.
11. Taşköprüzade Ahmed, terc. Kemaleddin Mehmed, "Mövzuatül-ülum", İstanbul, 1313, c.I, s.978
12. https://islamansiklopedisi.org.tr/marifetname
13. **ابراهيم حقّى ارزرومى، معرفت نامه** B-5723, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, 543 vərəq

**ГЮНАЙ КУЛИЕВА**

## РЕЗЮМЕ
## ПРОИЗВЕДЕНИЕ «МАРИФАТНАМЕ» ИБРАГИМА ХАККИ ЭРЗУРУМИ

Выдающийся ученый Ибрагим Хакки Эрзуруми является автором множества важных работ по астрономии, анатомии, геометрии, тригонометрии, физиологии, психологии, социологии, философии, медицине, религии и других областях. Однако среди этих работ особенно отличается труд ученого “Марифатнаме”. Эта работа, завершенная в 1757 году, представляет собой энциклопедическое произведение, состоящее примерно из 600 страниц. Ученый отмечает, что при написании “Марифатнаме” он использовал 400 книг. Одной из важнейших особенностей произведения является то, что оно написано простым языком, понятном широкому кругу читателей. Великолепное произведение «Марифатнаме» является типичным и ярким образцом османского суфизма. Ибрагим Хакки Эрзуруми заявил, что написал произведение «Марифатнаме» в честь своего сына Сейеда Ахмеда Наими. Утверждая, что книга состоит из введения, трех основных разделов (тем) и заключения, Ибрагим Хакки в лице своего сына призывает всех своих читателей сделать выводы и извлечь уроки из этой ценной работы. Автор пишет, что этот мир и загробный мир созданы для человека, а человек создан для познания своего Творца. Знать своего Творца, это значит знать себя, а знать себя, это значит знать и материальный мир, и физический мир.

**Ключевыеслова:** Ибрагим Хакки Эрзуруми, “Мерифатнаме”, ислам, тасаввуф, суфи, астрономия, анатомия, география, человек

**GUNAY GULIYEVA**

## SUMMARY
## THE WORK “MARIFETNAME” BY IBRAHIM HAKKI ERZURUMI

The outstanding scientist Ibrahim Hakki Erzurumi wrote many valuable works in the fileds of astronomy, anatomy, geometry, trigonometry, physiology, psychology, sociology, philosophy, medicine, religion and etc. However, among these works “Marifetname” has a special place. The work, completed in the year 1757, is an encyclopedic work consisting of nearly 600 pages. The scientist notes that he used 400 books while writing “Marifatname”. One of the most important features of the work is that, it was written in a simple language that people can understand. A magnificent work "Marifatname" is a typical and vivid example of Ottoman Sufism. Ibrahim Hakki Erzurumi declared that he wrote the work "Marifatname" in honor of his son Seyyed Ahmed Naimi. Declaring that the book consists of an introduction, three main sections (subjects) and a conclusion, Ibrahim Hakki, in the person of his son, calls all his readers to draw conclusions and learn

from this valuable work. The author writes that the world and the hereafter world were created for human, and human is created to know his Creator. To know his Creator means to know himself, and to know himself means to know both the material world and the physical world.

**Key words:** Ibrahim Hakki Erzurumi, "Marifetname", islam, sufism, sufi, astronomy, anatomy, geography, human

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: prof. Azadə Musayeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**ƏSMƏR DADAŞ QIZI HÜSEYNOVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat
İnstitutu, Ədəbi tənqid şöbəsi, böyük elmi işçi.
esmer.74.17@mail.ru

# SOVET TEATRŞÜNASLIĞINDA DRAMATURGIYA

## XÜLASƏ

Tarixə nəzər yetirsək, dram əsərlərinin yaranması yunan mədəniyyəti ilə bağlıdır. Yunanlar bəşəriyyətə Homer, Aristotel, Evripid, Sofokl, Esxil kimi elm və sənət xadimləri bəxş edən xalq sayılır. Bunun üçün də dünya mədəniyyəti xəzinəsinə bu gün də öz sanbal və əhəmiyyətini qoruyub saxlamağı bacaran elmi əsərlər bəxş etmişdir. Mənbələrə əsaslansaq, ilk dram əsərlərinin XIII-XIV əsrlərdə yazıldığı təxmin edilir. Yunan, ingilis, rus dramaturqlarının dünya kitabxanalarına bəxş etdikləri nadir incilərdən sayılan dram əsərləri tarixi səciyyə daşıyır. Onların günümüzə olduğu kimi gəlib çatması bu incilərin keçmişi qorumaqla müasirliklə ayaqlaşmasından irəli gəldiyini xəbər verir.

Sovet teatrşünaslığında dramaturgiya bir çox görkəmli ədiblərin adı ilə bağlıdır. Azərbaycanda milli teatrın təşəkkül tapmasında dramaturqların rolu böyükdür. Məlumdur ki, teatrın yaranması, onun yüksəlişi, inkişafı sovet quruculuğu illərinin payına düşüb. Müxtəlif çətinliklərlə yanaşı, təşəkkül tapan milli teatr görkəmli dramaturqlarımızın səyi nəticəsində sanballı dram əsərlərinin səhnə həyatına müvəffəq oldular. Bu barədə teatrşünasların mətbuat vasitəsilə öz aktuallığı ilə seçilən məqalə və yazılarında dəyərləndirilib. Kifayət qədər ciddi problemləri olan teatra biri-birindən məzmun, mövzu baxımından müraciət edən teatrşünaslar münasibətdə fərqli yanaşmalarla yadda qalmağı bacarıblar. İkinci dünya müharibəsi zamanı və ondan sonrakı dövrdə düşmənə qarşı nifrət əks etdirən, yüksək dəyərlər aşılayan səhnə əsərləri yarandı. Bu dövrdə yaranan dram əsərlərinin çoxu tarixi mövzuda idi. Zamanla səsləşən bu əsərlər uzun illər boyu teatr repertuarlarından, afişalardan düşmədi.

Dramaturqlarla teatr rejissorlarının müştərək iş birliyinin nəticəsində yeni, tamaşaçı zövqünü oxşaya bilən, uzun onilliklər boyu repertuarlardan düşməyən, səhnə qanunlarına, qaydalarına uyğun dram əsərləri yarandı. Ədəbiyyatımızın incilərindən hesab olunan bu dram əsərləri biri digərindən yüksək meyarlar baxımından fərqlənirdi. Zamanın tələblərinə uyğun olaraq, sovet adamının rifahına xidmət edən, gələcəyə ümid bəsləməyi öz əsərləri ilə təbliğ etmək dramaturqların əsas qayələrindən biri idi. Sadə sovet adamlarını buna inandırmaq və tam mənada buna nail olmaq dövrün qarşıya qoyulan tələblərindən biri kimi dəyərlənirdi.

**Açar sözlər:** sovet teatrşünaslığı, dramaturgiya, dram əsərləri, teatr, tamaşa

## Giriş

Bəşəriyyət dramın yaradıcısı kimi Aristoteli qəbul etməklə, onu bu janrın "atası" da sayır. Biri-birindən fərqli mövzularda yazılan dram əsərləri ilə tanınan ingilis yazıçısı, "bütün dövrlərin dramaturqu" adlandırılan Uilyam Şekspirdən sonra bu janra artan maraq mədəniyyət dünyasında yenidən kəşf edildi. Bu ənənəni rus dramaturqlarından A.S.Puşkin, F.M.Dostoyevski, A.N.Ostrovski, A.P.Çexov və başqaları davam etdirməklə dram janrının bünövrəsini möhkəmlətdi. Azərbaycanda dramaturgiyanın təməli bu janrın banisi, görkəmli ədib Mirzə Fətəli Axundzadənin adı ilə bağlıdır. XIX əsrin axırları və XX əsrin əvvəllərində inkişaf edən Azərbaycan dramaturgiyası, əsasən, milli dramaturgiya hesab olunan Mirzə Fətəli Axundzadə dramaturgiyası zəmini üzərində yüksəlmişdir. Sonralar bu ənənəni öz yaradıcılıqlarında N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Nərimanov, H.Cavid, Cabbarlı və başqaları davam etdirərək XX əsrin əvvəllərinə, yəni Sovet hakimiyyətinin yaranma mərhələsinə daşıdılar: "... Sovet Hakimiyyətinin ilk illərindən başlayaraq Sovet Azərbaycanının tənqidçi və yazıçıları da Cavidin yaradıcılığını diqqətlə izləmiş və demək olar ki, onun hər bir yeni əsəri haqqında məqalələr yazmış, fikir söyləmiş, xeyirxah bir niyyətlə onun əsərləri və görüşlərində olan müvəffəqiyyət və nöqsanları göstərmişlər. Bu obyektiv elmi tənqidin də şairin yaradıcılıq inkişafına çox müsbət təsiri olmuşdur" (1, s.6).

İdeologiyanın tüğyan etdiyi bu mərhələdə hələ kövrək addımlarını atan Azərbaycan teatrı öz çətinliklərindən doğan problemləri ilə möhkəmlənməyi bacardı. Teatrın repertuarını zənginləşdirmək, rejissor sənətinin inkişafı, aktyor çatışmazlığı, qadın aktrisaların məhdud sayda olmasından aslı idi. Həmin vaxt hələ tam püxtələşməyi bacarmayan Azərbaycan teatrı inkişaf etməklə yanaşı, yerli mürtəce qüvvələrin qəzəbinə də tuş gəlirdi. Lakin, bir çox qələm və söz sahiblərinin, mətbuat işçilərinin bu sahəyə olan maraq və dəstəyi nəticəsində Azərbaycan teatrşünaslığı bünövrəsini möhkəmlətdi: "Bakının böyük sənaye şəhəri kimi ictimai-siyasi hadisələrin mərkəzində olması, burada teatral həyatı da intensivləşdirir, dramaturqlar və teatr truppaları getdikcə daha çox tarixi mövzulu əsərlərə yer verməyə çalışırdılar. Lakin bütün tarixi mövzulu əsərlər demək olar ki, dövlətçiliklə, siyasətlə bağlı olduğundan həmişə senzura tərəfindən xüsusi təzyiqlə qarşılanır, mövcud hakimiyyətin siyasəti ilə uyğunluq dərəcəsinə görə səhnəyə gedən yolda qarşısına müxtəlif maneələr çəkilirdi" (2, s.118).

Sovet hakimiyyətinin möhkəmləndiyi dövrdə kəndlə şəhər arasında olan kəskin ziddiyyət mədəni əlaqələr baxımından kəskin fərqlənirdi. Bu fərqi azaltmaq məqsədilə teatr truppaları tərəfindən bölgələrə qastrollar təşkil edilirdi. Kolxozçulara, sadə adamlara, kənd ziyalılarına göstərilən diqqət və qayğı gələcəkdə yüksək əxlaqi keyfiyyətlərə malik olacaq ziyalıların formalaşıb yetişməsinə rəvac verirdi. Azərbaycan teatr dərnəklərinin maddi vəziyyəti çətin olsa da, yaradıcılıq və

repertuar cəhətdən bir çox nailiyyətlər əldə etməyə müvəffəq oldu. Doğrudur, teatr dramaturgiya sahəsində də yeni forma axtarışlarına cəhd edilsə də, bu hər zaman uğur qazana bilməmişdir: "1920-ci ilə qədərki Azərbaycan dramaturgiyasında dram bir janr olaraq meydana gəlsə də təşəkkül tapmayıb. Belə ki, klassik dramaturqlarımız yalnız komediya və faciə janrını qəbul etdiklərindən, demək olar ki, heç dram yazmaq iddiasında olmayıblar" (3, s.137).

Dram əsərlərinin məqsədini aktyorlara aşılamaq, dramaturqun məqsədini ətraflı izah etmək birbaşa rejissorun işidir. Məhz buna dörə də hər bir əsərin tamaşaya qoymaq rejissorlardan böyük yaradıcılıq işi tələb edir. Doğrudur, zaman-zaman dramaturgiyada ideya-bədii cəhətdən bir qədər zəif olan və teatr repertuarlarında uzun zaman yer tuta bilməyən pyeslər də nümayiş olunmuşdur. (Bəzən bunun səbəblərini rejissorlardan aslı olmadığını, başqa yerlərdə, məqamlarda axtarmaq lazım gəlir – Ə.H.). Rejossorlar əsərlərə can verməklə qalmır, yeri gəldikdə öz əlavələrini etməkdən çəkinmirlər. Buna görə də bəzən rejissoru səhnə əsərinin ikinci müəllifi kimi qiymətləndirən ədəbiyyat mütəxəssisləri də vardır: "Amma teatr nəinki təslim olmadı, əksinə, XIX əsr və XX əsrin başlanğıcı bu antik sənətin tarixinə yeni ifadə vasitələrinin zənginləşməsi dövrü kimi daxil oldu. Və elə burdaca bizi ilgiləndirən problemin üstünə gəlib çıxırıq. Çünki teatr sənətində mühüm rol oynayan peşə – rejissura məhz teatrın tezliklə yoxa çıxacağına dair fikirlərin yayıldığı bir dönəmdə yarandı. Sanki tale rejissoru kino qarşısında əlacsız qalmış teatra sahib çıxmaq üçün göndərdi. Və o teatra yiyə durdu. Beləcə, əvvəlki əsrlərin aktyor teatrını XX əsrdən etibarən rejissor teatrı əvəz etdi" (4, s.20).

Teatr repertuarlarında sovet həyatından alınmış dram əsərlərində konfliktlər nəyin üzərində qurulur, hansı mərama xidmət edirdi? Bu, o zaman tənqid və özünütənqid, yeniliklə köhnəlik arasında mübarizə kimi verilə bilərdi. Dramaturqların qarşısına qoyulan tələblərdən biri konfliktsiz dram əsərləri yaratmaq zamanın axınına olan şərtlər kimi dəyərləndirilirdi. Dramaturq təkcə teatra, səhnəyə bələd olmaqla işini bitmiş hesab etməməli, dramaturgiyaya dərindən bələd olmalı idi. Razılaşmaq lazımdır ki, əgər yüksək keyfiyyətli dram əsərləri yaratmaq istəyirsənsə mütləq ciddi konfliktlər üzərində əsərlər yazılmalıdır: "Dramaturgiyamızda sənətkarlığı yüksəltmək eyni zamanda Azərbaycan teatrının inkişafına yeni təkan vermək deməkdir. Bu məqsədə nail olmaq üçün, görünür, teatr dramaturqlara tələbkarlığı artırmalı, zəif əsərlərə qarşı mübarizədə liberalizmdən birdəfəlik əl çəkməlidir. Zəif pyeslər, mövzusundan və ideyasından asılı olmayaraq, teatr sənətinə pozucu təsir bağışladığından, dramaturgiyada sənətkarlıq uğrunda teatr da müəlliflərlə çiyin-çiyinə vuruşmalı və Azərbaycan səhnəsinin sürətlə irəliləməsini təmin etməyə çalışmalıdır" (5, s.302).

Dram başqa janrlara nisbətən daha mürəkkəb bir ədəbi növdür. Bunu onunla əlaqələndirmək olar ki, poema, roman və hekayəyə nisbətən dram əsərlərində yazıçı səhnənin tələblərinə uyğun olaraq, müəyyən şərtlər daxilində "hərəkət" etməyə məcburdur. Dram əsərlərində gərginlik, konflikt digər əsərlərə nisbətən daha çoxdur,

başqa növlərdə olduğu kimi, geniş təsvirlərə, müəllif sözlərinə yer verilmir və elə bir həcmdə yazılmalıdır ki, müəyyən zaman müddətində səhnədə oynanılıb bitsin. Buna görə də yazıçı səhnənin bir çox tələblərini mütləq nəzərdə saxlamalıdır. Səhnədə verilən hadisələrin izahatında yalnız aktyorların necə danışacağı deyil, onları əhatə edən şərait də (dekorasiya, əşyaların düzülüşü, işıq effektləri, musiqi və sairə) dramaturq tərəfindən müəyyən dərəcədə göstərilir. Səhnənin məhdud imkanlarını da nəzərə alsaq dramaturqdan nə qədər böyük yaradıcı əməyin tələb olunduğunu təsəvvür etmək çətin deyildir. Bəzən dramaturqlar yaratdıqları əsərlərdə müəyyən aktyorları nəzərə alıb, ona uyğun obraz yaradırlar. Aktyorlar arasında rol bölgüsü müəyyən kateqoriyalar (aktyorun fiziki xüsusiyyətləri, peşəkarlıq səviyyəsi, obraza uyğunluğu və sairə nüanslar nəzərə alınmalıdır) üzərində aparılır. Və onlar əmindirlər ki, məhz həmin aktyor bu rolun öhdəsindən gəlməyi bacaracaq. Buna görə də bəzi dramaturqların yaratdıqları əsərlər həmin dövrdə səhnədə müəyyən yer tutsalar da, tamaşaçıya özünü sevdirə bilməmiş, səhnə həyatını az bir zaman çərçivəsində başa çatdırmışdır. Məlumdur ki, dram əsərləri birbaşa tamaşaya qoyulmaq üçün yarandığından aktyorlar onun hüdudlarından kənara çıxmağı, improvizə etməyi bacarmır. Başqa sözlə ifadə etsək daha dəqiq ifadə etmiş olarıq, yəni, buna lüzum görmür. Dramatik əsərlər məzmun baxımından fərqli olması və konkret konflikt üzərində irəliləməsi onun səhnə tələblərindən başlıcasıdır.

Mədəniyyət aləminin hər bir nümayəndəsinə məlumdur ki, Azərbaycan teatrşünaslığının bünövrəsi görkəmli alim Cəfər Cəfərovun adı ilə bağlıdır. Onun gərgin əməyi sayəsində Akademik Milli Dram Teatrının nümünəsində dramaturgiya və teatr sənətinin bir çox sahələrinə dair araşdırmalar aparılmışdır. Milli kadrların yaranması, bu sahədə mütəxəssislərin yetişməsi və teatrşünaslığı bir elm kimi sərgiləmək məhz Cəfər Cəfərovun misilsiz xidmətləri sayəsindədir. Bunu da professional teatr xadımlərinin, teatrşünasların yaranması mərhələsinə yelkən açıldığı mərhələ kimi qiymətləndirmək olar. Cəfər Cəfərov teatrşünaslığın mühüm məsələlərinə dair bir çox elmi-nəzəri məqalələr müəllifidir. Bu məqalələrdə klassik irsə münasibət, realizm, dramaturgiya, yeni yaranan roman və poeziya haqqında dəyərli mülahizələr irəli sürmüşdür: "Milli teatrımızın təşəkkülü və inkişafına həsr edilmiş olduqca dəyərli elmi-nəzəri tədqiqatların müəllifi olan C.Cəfərov hər bir tamaşa ilə (istər paytaxtda olsun, istərsə də əyalətdə) bağlı səriştəli, həm də faydalı fikirlər söyləyəndə, ən vacib olanı göstərməklə yanaşı, ən adini də nəzərindən qaçırmırdı. Çünki o, teatr sənətinin yaradıcı həyatına yaxından bələd olan, təkcə dramaturgiyanın deyil, aktyor və rejissor sənətinin də "ali riyaziyyatına" mükəmməl yiyələnmiş bir professional idi" (6, s.34).

İkinci Dünya müharibəsi dövründə və ondan sonrakı mərhələdə dramaturgiya janrı sahəsində teatr repertuarını zənginləşdirmək dövrün əsas tələblərindən hesab olunurdu. Müharibə illərində yaranan dram əsərlərinin hər biri o dövr üçün insanların mənəvi dünyasını əks etdirirdi. Müharibədən sonrakı dövrdə isə dramaturqlarımız müasir mövzuda dram əsərləri yazırdı. Bakı neftçilərinin, kəndin sadə adamları və

kolxozçuların, şəhərin ziyalı elitasının həyatından bəhs olunan, sovet quruluşunu əks etdirən teatr nümunələri yaranır. Azərbaycan teatrı da öz növbəsində yeni yaranan dram əsərləri ilə tamaşaçı rəğbətini qazanmağı bacarırdı. İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (1954), İslam Səfərlinin "Göz həkimi" (1955), İmran Qasımovun "İnsan məskən salır" (1964) və sairə kimi bu gün də öz aktuallığını qoruyub saxlamağı bacaran pyeslər yarandı. Bu zaman Azərbaycan ədəbiyyatşünasları da öz yaradıcılıqlarında teatrşünaslığa da yer ayırdılar. Buna nümunə olaraq Məmməd Cəfər, Məmməd Arif, Qulu Xəlilov, Əkbər Ağayev, Bəkir Nəbiyev, Xalid Əlimirzəyev və başqaları teatr və dramaturgiyanı əhatə edən sanballı məqalə, monoqrafiya və resenziyalarla mətbuatda çıxış edirdilər: "Dramaturgiya – M.Arifin ədəbi fəaliyyətində əsas yer tutur. Bu sahədə o öz qələmini daha müntəzəm və ardıcıl işlədir, tənqidçilik və ədəbiyyatşünaslıq məharətini daha parlaq şəkildə nümayiş etdirə bilir. Doğrudur, M.Arif ədəbiyyatın bütün janrları haqqında yazmış, fikir söyləmişdir. Ancaq müqayisə edilsə, üstünlük, əlbəttə, dramaturgiyaya verilməlidir. Təsadüfi deyil ki, onun "Cəfər Cabbarlinin yaradıcılıq yolu" və "Səməd Vurğunun dramaturgiyası" kimi iki böyük monoqrafiyası da dramaturgiyaya həsr edilmişdir" (7, s.298).

Razılaşmaq lazımdır ki, bəzən mətbuat vasitəsilə işıqlandırılan bənzər yazılarda sərt tənqidlə yanaşı, qərəz və bayağı tərifl ərlə də rastlaşmaq mümkündür. Cəmiyyətdə bu kimi hadisələrə göstərilən laqeydsizlik tərəf tutmaq kimi dəyərləndirilirdi. Bəzi tənqidçilərin tutduqları mövqe (bəzi hallarda mövqesizlik – Ə.H.), hər şeydən əvvəl, yolverilməz hal kimi qiymətləndirilirdi. Və bu ədəbi ictimaiyyət tərəfindən təkcə müşahidə edilməklə kifayətlənilmir, əksinə dolğun ifadələrə nəticələnirdi: "Hələ 1946-cı ildə dramaturgiya məsələlərinə həsr edilmiş konfransda M.Cəfərin söylədiyi fikirlər bu gün, yəni üstündən yetmiş il keçməsinə baxmayaraq, aktuallığını itirməmişdir" (8, s.5).

Sovet illərinin ən qaynar dönəmində, daha dəqiq desək, 1970-ci illərdə Azərbaycanda teatr xadimləri, ədəbiyyatşünaslar hər zaman yüksək mövqeyə sahib olan Heydər Əliyev tərəfindən bir çox sahələrdə olduğu kimi bütün qayğı və dəstəyin əhatəsində olduqlarını (bu ənənə sonralar daha çox aktyor nəslinin yaşam rifahının yaxşılaşması ilə davam etdi) bu gün də təsdiqləyirlər. 1970-ci illərdən sonra dramaturgiyada müasirlik xeyli güclənmiş, səhnə əsərlərinin sənətkarlıq səviyyəsini yüksəltmək üçün yollar axtarılmışdır. Bunu onlara verilən dəyər və qayğının nəticəsi kimi dəyərləndirmək olar. Bəzən dramaturqların yaratdıqları əsərlərdə mövzu və süjet cəhətdən bir-birinə oxşar olan pyeslərdə hadisə və xarakter baxımından təkrarlığa yol verilirdi. Bu da sənətkarlıq baxımından orijinallığın zəifləməsinə yol açır, nəticədə tamaşaçı rəğbətini qazana bilmirdi. Doğrudur, 1970-1990-cı illərdə inkişaf edən dramaturgiya ziddiyyətlərdən də azad deyildi. Bu dövrdə yetişən dramaturq nəsli Mirzə Fətəli Axundzadə dramaturgiyasının ənənələrini qorumaqla inkişaf etdirmək yolunu seçsələr də onun səviyyəsinə qalxa bilmədilər. Mövzu etibarilə öz zəmanəsi, müasir həyatla səsləşən dram əsərləri də az deyildir. Lakin o

zirvəni fəth etmək cəhdinin çətin olduğu aydın görünür. Yəni, Mirzə Fətəli Axundzadə bu sahədə uzun illər keçməsinə baxmayaraq, öz yerini heç kimə güzəştə getmədi.

Ötən əsrin ortalarından Məcid Şamxalov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Seyfəddin Dağlı, Elçin, Əli Əmirli kimi dramaturqların fəaliyyəti sovet teatr tarixində əsas yerlərdən tutur və böyük mövqeyə malikdirlər. Dram əsərlərində əmək adamlarının ön plana çəkilməsi, dramaturgiyanın yüksəlişi yolunda çətinlik və nöqsanları sovet ideologiyası ruhunda aşılamaq mahiyyətcə əsas yerlərdən birini tuturdu. Zamanın axarın görə, başlıca vəzifə kimi təbliğ köhnəliyə, meşşanlığa qarşı qoyulan şərtlərdən ümdəsi idi. Yeni nəsilin kommunizm ruhunda yetişdirib tərbiyə etmək, ideologizmə xidmət göstəricisi idi.

Zəngin klassik irsin ən yaxşı ənənələrini yeni yaranan dram əsərlərində əks etdirən və sovet dramaturgiyasını düzgün istiqamətdə inkişaf olunması mühüm vəzifələrdən biri kimi təbliğ olunurdu. Dramaturqlar sovet adamının yeniliklərlə səsləşən müasir yaşamını xarici ölkələrə nümunə kimi təqdim edirdi. Bununla yanaşı, bəzi dramaturqlar mövhümata qarşı olmaqla, din pərdəsi altında gizlənən tiplərlə paralel əsərlərində iblis, cin, şeytan və sairə kimi xəyali obrazlar yaradırdı. Bu obrazların vasitəsilə tamaşaçıda keçmişin əyrintilərinə qarşı ikrah hissi oyatmaqla yanaşı, onları düşünməyə, səhnəyə, tamaşaya hazırlanan hər bir nümunədən dərs çıxarmağa səsləyir. Əslində dramaturqlar mifik obrazları insan cildinə salmaqla, insanın içindəki mənfilikləri ehtiva edir. Bu obrazların ifşası üçün aktyorların zəhməti danılmazdır. Buna nümunə olaraq, Əbrürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Abdulla Şaiqin "İdeal və insanlıq", Hüseyn Cavidin "İblis", "İblisin intiqamı", "Şeyda" və sairə pyeslərində bu tip personajlara rast gəlmək olar.

Sovet teatrşünaslığı lirik-psixoloji, lirik-romantik istiqamətdə İlyas Əfəndiyevin (1914-1996) dramaturgiyasında daha çox inkişaf etmişdir. Yazıçının dramaturgiya dili nəsr əsərlərində olduğu kimi səlis, təbii və obrazlı səslənir. İlyas Əfəndiyevin dramaturgiyaya meyl göstərməsinin yazıçının müasirliyə olan yaradıcılıq axtarışlarının səbəbi kimi də göstərilə bilər: "Sovet həyatındakı yeniliklə köhnəlik arasındakı mübarizə məsələsinə və yeniliyin qalib gəlməsinə İ.Əfəndiyevin pyeslərində çox böyük yer verilir. Xalqın mənəvi yüksəlişinə, köhnə ənənə və vərdişlərdən ayrılıb yeni keyfiyyətlər qazanmasına dramaturq böyük əhəmiyyət verir"(9, s.434).

Sovet dramaturqlarının qarşısında mövzu məhdudiyyəti yox idi, müxtəlif mövzuda yazan sovet yazıçısı həyatla nə qədər yaxından əlaqədə olarsa onun mövzusu bir o qədər də aktual hesab olunurdu. Sosializm cəmiyyətində yazıçının xalq qarşısında məsuliyyəti bədii zövqü artırmaqla yanaşı, sovet adamlarının arzu və istəklərini tərənnüm etməklə nəzərə alınırdı. İlyas Əfəndiyevin yaradıcılığında keçmişin yaxşı tərəflərini günümüzə daşımaq xüsusiyyətləri formalaşmışdır. Səhnəni yaxşı tanımaq bacarığı, qaydalarına düzgün riayət etmək onun dramaturgiyasının əsası idi. Cəmiyyətdəki mənfiliklərin təsvirini məqsədli boyalarla, sözalti ifadələrlə

ifşa etmək müəllifin özünəməxsus keyfiyyətlərindəndir: “Sən həmişə mənimləsən” (1964), “Unuda bilmirəm” (1968), “Mənim günahım” (1969), “Məhv olmuş gündəliklər” (1968), “Mahnı dağlarda qaldı” (1971), “Qəribə oğlan” (1974), “Xurşidbanu Natəvan” (1978), “Billur sarayda” (1983), “Sevgililərin cəhənnəmdə vüsalı” (1989), “Hökmdar və qızı” (1994) və sairə kimi dram əsərlərinin müəllifidir: “İlyas Əfəndiyevin nəsri də Azərbaycan ədəbiyyatının zirvələrindən biridir. ...Təsadüfi deyil ki, bu gün İlyas Əfəndiyevin nəsri, dramaturgiyası, teatr fəaliyyəti barəsində ədəbiyyatşünaslıqda və teatrşünaslıqda yazılmış məqalələri, resenziyaları, esseləri, bədii-publisistik oçerkləri, monoqrafiyaları, elmi-tədqiqat araşdırmalarını bir yerə toplayıb ayrıca kitabxana yaratmaq mümkündür” (10, s.14).

Keçən əsrin ortalarından gələn teatrşünas ənənəsinin davamçıları İnqilab Kərimov, İlham Rəhimli, İsrafil İsrafilov, Məryəm Əlizadə, Aydın Talıbzadə, Vidadi Qafarov, Elçin Cəfərov və başqaları kimi teatr xadimləri bu gün dramaturgiya ilə bağlı həm mətbuat, həm də tamaşaçı marağına səbəb olan silsilə yazı müəlliflərəidir. Məhz onların teatra göstərdikləri diqqət sayəsində aktyorlarımız onlara verilən dəyərin böyüklüyünü anlayır. Bu diqqət və qayğının nəticəsidir ki, bu gün teatr salonları tamaşaçı tərəfdən qıtlıq çəkmir. Bəzən mövzu, məzmun baxımından maraq kəsb etməyən dram əsərləri də səhnəyə yol tapır və bu da teatr tədqiqatçıları tərəfindən haqlı tənqiddən doğan fikirlərlə ifadə olunur: “Dram elə bir janrdır ki, onun öz mövzu-problemləri var. Elə problemlər ki, öz həllini başqa yerdə tapmayıb üzünü səhnəyə tutur. Bugünkü dramaturgiyamızın ən böyük problemi isə öz mövzu-problemini tapmamaqdır. Əslində tapmır ona görə ki, heç bunun axtarışında da deyil” (11, s.204).

SSRİ-nin süqutu, müstəqilliyimizin bərpasına qədərki və ondan sonra quruculuqla bağlı dövr hər bir sahədə olduğu kimi mədəniyyət sahəsində də bir çox çətinliklərlə yadda qaldı. Teatrlarda baş verən çəkişmələr, aktyorların mənəvi, maddi sıxıntıları onları daima izləyən tamaşaçılar tərəfindən qəbul edilmirdi. Teatra olan marağın itməsi, tamaşaçı azlığı teatrların ümumi probleminə çevrilmişdi. Repertuar zəifliyi, yeni əsərlərin yaranmaması, bir çox aktyorların teatrdan uzaqlaşması (könüllü və ya könülsüz – Ə.H) bəzən də bu sahə mütəxəsisslərinin işlərinə olan etinasızlığı bu məbədin dağılmağına gətirib çıxarırdı. Dünyaya sənaye sahələri ilə tanınan Azərbaycanda bu gün cəmiyyətin maraqları müxtəlifdir. İnformasiyanın zəngin olduğu bir dövrdə teatr salonlarının, səhnələrin, rejissor və aktyorların tamaşaçılar tərəfindən alqışlanması məqbul haldır. Çağdaş dövrün teatrı yeniliklərlə cəmiyyətin maraq dairəsini artırmağa çalışır, bu da öz növbəsində insanların mədəni zövqünü oxşamağa, ruhunun zənginləşməsinə xidmət edir.

## Nəticə

Məqalədə sovet teatrşünaslığında dramaturgiyası məsələləri haqqında məlumat verilir. Göstərilir ki, XX əsrin əvvəllərindən təməlini möhkəmlədən Azərbaycan teatrı qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, bu günə kimi gələn layiqli dram əsərlərinin çiyinləri üzərində durmağı bacarmışdır. Qeyd olunur ki, sovet dönəmində yaranan bir çox dram əsəri illərlə səhnə həyatını yaşamaqdadır. Onun səbəblərindən biri kimi əsərin öz səviyyəsi götürülürsə, digər tərəfdən tamaşaçıları müəyyən mənada intizarda saxlamağı bacaran rejissor işini də qiymətləndirmək lazımdır. Tamaşanın baxımlı olması üçün obrazlara uyğun aktyor seçimi rejissorların vəzifələrindən başlıcasıdır. Tamaşaçıda yanlış təsəvvür yaratmaq təhlükəsi rejissorlar üçün yolverilməz hal kimi hesab olunur. Bəzən dramaturq və rejissorların iş birliyindən doğan tamaşalar repertuarları bəzəməklə qalmır, illərlə teatr afişalarından düşmür. Dramlarda müxtəlif mənfi, müsbət xarakterlə arasında baş verən ziddiyyətlər həm də fikir toqquşmalarını ehtiva edir. Bu xüsusda dramaturq və rejissorların təmənnasız xidmətləri danılmaz fakt kimi dəyərləndirilir. Məqalədə dramaturqların yazdığı hər bir dram əsərinin səhnə tələblərinə cavab verməyi diqqətə çatdırılır. Diqqətə çatdırılır ki, ötən əsrin ortalarından başlayan mücadilə, bu gün dəyərini almış zirvədədir. Sovet teatrşünaslığında yaranmış olan dram əsərləri bu gün də tamaşaçı diqqəti və heyranlığı ilə öz mövqeyini saxlamaqdadır. Sovet dramaturqlarının qarşısında mövzu məhdudiyyətinin olmaması qeyd olunur. Müxtəlif mövzularda yazan sovet yazıçısının həyatla yaxından əlaqədə olması onun mövzusu aktual hesab olunması idi. Sovet dönəmi dramaturgiyasının ən məhsuldar illərinin 1970-1980-cı illərə təsadüf etməsi müsbət hal kimi dəyərləndirilir.

## Ədəbiyyat


1) Cəfər, M. Hüseyn Cavid, Bakı: Azərnəşr, 1960, 262 s.
2) Qafarlı, V. Azərbaycan teatr janrının poetikası. Bakı: Qanun Nəşriyyatı, 2012, 160 s.
3) Yenə orada. s.137
4) Cahangir, Ə. Dionisin şərəfinə. Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi, 2021, 636 s.
5) Cəfərov, C. Dramatutgiya və teatr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1968, I cild, 363 s.
6) İsrafilov, İ. Teatr haqqında söhbətlər. Bakı: Xəzər nəşriyyatı, 2020, 230 s.
7) Talıbzadə, K. Seçilmiş əsərləri, Məmməd Arif, Bakı: "Elm" nəşriyyatı, 2015, 352 s.
8) İsrafilov, İ. Məmməd Cəfər teatr tənqidi haqqında. Ədəbiyyat qəzeti, 04.05, 2019, 32 s.

9) Ağayev, Ə. Azərbaycan Sovet Ədəbiyyatı, İlyas Əfəndiyev. Bakı: Maarif, 1966, 436 s.
10) Əlizadə, M. Zamana məxsus sənətkar..., 525-ci qəzet, 2018, 26 may, s.14.
11) Mustafayeva, A. Ədəbi proses – 2017, Dramaturgiya haqqında monoloq, Bakı: "Hədəf" nəşrləri, 2018, 520 s.

## SUMMARY

**ASMAR HUSEYNOVA**

## DRAMATURGY IN SOVIET THEATER STUDIES

If we look at history, the creation of dramatic works is related to Greek culture. The Greeks are considered to be the people who gave humanity such figures of science and art as Homer, Aristotle, Euripides, Sophocles, and Aeschylus. For this reason, he has given scientific works that are able to preserve their significance and importance to the treasure of world culture. It is estimated that the first dramatic works were written in the XIII-XIV centuries. The dramatic works of Greek, English, and Russian dramatists, which are among the rare pearls gifted to the world's libraries, have a historical character. The fact that they have come to the present shows that these pearls came from preserving the past and keeping up with modernity.

Dramaturgy in Soviet theater studies is associated with the names of many outstanding writers. These playwrights played a great role in the formation of the National Theater in Azerbaijan. It is known that the creation of the theater, its rise and development fell to the years of the Soviet establishment. In addition to various difficulties, as a result of the efforts of our prominent dramatists, the national theater that was formed succeeded in the stage life of their drama works. This has been evaluated in the articles and writings of theater scholars that are distinguished by their relevance through the press. The theater scholars, who approached the theater with serious problems in terms of content and subject matter, managed to be remembered with different approaches. During the Second World War and in the period after it, stage works were created that reflected hatred of the enemy and instilled high values. Most of the dramas created during this period were based on historical plots. These works, echoing in time, did not fall out of the theatrical repertoire and posters for many years.

As a result of the joint cooperation of playwrights and theater directors, new, capable of pleasing the taste of the audience, dramas that did not fall out of the repertoires for many decades, in accordance with the laws and rules of the stage were created. These dramatic works, which are considered one of the pearls of our literature, differed from each other in terms of high criteria. In accordance with the requirements of the time, it was one of the main resources of playwrights to promote hope for the future through their works, which served the well-being of the Soviet

man. Convincing ordinary Soviet people of this and achieving it in the full sense was regarded as one of the requirements of the time.

**Keywords:** Soviet theater studies, dramaturgy, dramas, theater, performance

## ДРАМАТУРГИЯ В СОВЕТСКОМ ТЕАТРОВЕДЕНИИ

**АСМАР ГУСЕЙНОВА**

## РЕЗЮМЕ

Если обратиться к истории, то создание драматических произведений связано с греческой культурой. Греки считаются народом, давшим человечеству таких деятелей науки и искусства, как Гомер, Аристотель, Еврипид, Софокл, Эсхил. По этой причине он отдал научные труды, способные сохранить свою значимость и важность, в сокровищницу мировой культуры. На основании источников предполагается, что первые драматические произведения были написаны в XIII-XIV веках. Драматические произведения греческих, английских и русских драматургов, входящие в число редких жемчужин, подаренных библиотекам мира, носят исторический характер. Тот факт, что они пришли в настоящее, показывает, что эти жемчужины появились благодаря сохранению прошлого и не отставали от современности.

В советском театроведении драматургия связана с именами многих выдающихся писателей. Драматурги играют большую роль в становлении национального театра в Азербайджане. Известно, что создание театра, его подъем и развитие пришлись на годы советского становления. Помимо различных трудностей, в результате усилий наших выдающихся драматургов сложившийся национальный театр преуспел в сценической жизни их драматических произведений. Это оценено в статьях и трудах театроведов, которые отличаются своей актуальностью в средствах массовой информации. Театроведы, подходившие к театру с серьезными содержательными и предметными проблемами, сумели запомниться с разными подходами. В годы Второй мировой войны и в период после нее создавались сценические произведения, отражавшие ненависть к врагу и прививавшие высокие ценности. Большинство драм, созданных в этот период, были на исторические сюжеты. Эти произведения, отдаваясь эхом во времени, долгие годы не выпадали из театрального репертуара и афиши.

В результате совместного сотрудничества драматургов и театральных режиссеров создавались новые драматические произведения, которые могли радовать зрителей, не выпадали из репертуара на протяжении многих десятилетий, соответствовали законам и правилам сцены. Эти драматические произведения, считающиеся жемчужинами нашей литературы, отличались друг

от друга высокой планкой. В соответствии с требованиями времени одной из главных целей драматургов было вселить надежду в будущее своими произведениями, служившими на благо советского народа. Убедить в этом простых советских людей и добиться этого в полном смысле этого слова ценилось как одно из требований времени.

**Ключевые слова:** советское театроведение, драматургия, драматические произведения, театр, спектакль.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aynurə Mustafayeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**QULIYEVA PƏRVANƏ ELMAR QIZI**
**baş müəllim**
**Gəncə Dövlət Universiteti**

# M.S.ORDUBADİNİN DEMOKRATİK RUHLU ŞERLƏRİ

**Açar sözlər:** yaradıcılıq, satirik şeir, demokratik mətbuat, yazıçı, şair, oxucu, ədəbiyyat
**Ключевые слова:** творчество, сатирическая поэзия, демократическая пресса, писатель, поэт, читатель, литература
**Key words:** creativity, satirical poetry, democratic press, writer, poet, reader, literature

M.S.Ordubadi Azərbaycan ədəbiyyatında böyük bir epoxadır. Onun realist publisistikası çoxşaxəli geniş diapazonlu ədibin yaradıcılığında olduqca mühüm yer tutur. M.S.Ordubadi 1911-ci ildə "Qanlı illər" adlı kitabını çap etdirməklə 1905-1906-cı illərdə çar hökumətinin himayədarlığı ilə Azərbaycanlıların kütləvi qırğınına səbəb olmuş erməni kilsə millətçilərinin vəhşi simasını böyük ustalıqla açmışdır. O dövrdə çar hökuməti "erməni-müsəlman davası" adlandırılan milli qərğının əsil mahiyyətini nə qədər gizlətməyə çalışsa da, M.S.Ordubadi usta üsullarla xalqımızı kütləvi şəkildə qıran erməni və çar qatillərinin əsil məkrli niyyətlərini ifşa etmişdir.

M.S.Ordubadi XIX əsrin 90-cı illərindən yaradıcılığa başlasa da, müntəzəm ədəbi fəaliyyəti 1905 – ci ildən sonrakı dövrə aiddir. Yaradıcılığının ilk on ili üçün səciyyəvi olan əsərlər bəzi satirik şer və lirik qəzəllərdən ibarətdir.

Əzizim hicri – qəmin aşiqə müsibət olur,
O sərv qamətini görməsəm qiyamət olur,
Səfayi – gülşənə getmə, bahara görsənmə,
O gül camalı qızıl gül görüb xəcalət olur. [1, 269]

M.S.Ordubadinin ilk dövr yaradıcılığında yazdığı satirik şerlər bütünlüklə bizə gəlib çatmamışdır. Əlimizdə olan bəzi nümunələr göstərir ki, uşaqlıq yaşlarında həyatın maddi, mənəvi ağırlığını hiss edən gənc şair ictimai həyatda gördüyü zülm və istismara biganə qalmamışdır.

Fabrik sahibinin az yaşlı uşaqları həddindən artıq işlətdiyinə qarşı çevrilmiş aşağıdakı misralar səciyyəvidir:

Qorxuruq küləkdən, qorxuruq eldən
Ruzumuz asılmış incə bir teldən,
İşə çağırırlar ulduz batmamış,
İşdən buraxmazlar şəhər yatmamış. [2,269]

1905 – ci ildən başlayaraq müntəzəm şəkildə M.S.Ordubadi "Molla Nəsrəddin"də "Hərdəmxəyal" imzası ilə bir sıra dəyərli şerlər və felyetonlar yazır, 1906 – cı ildə "Qəflət" adı altında birinci şerlər məcmuəsini nəşr etdirir.

Bu dövrdə çarizmin milli qırğın siyasətindən təngə gələn yazıçı deyir: "Mən həmişə qanlı sənədlərdənmi yazacağam ?" [3, 126]

Lakin "Qanlı sənələr" adlı kitabında çarizmin milli qırğın siyasətinin əsil mahiyyətini dərindən başa düşməyən M.S. Ordubadi bir çox yerdə məsələyə bir tərəfli yanaşır.

Bu dövrdəki bəzi şeirlərində ciddi səhvlər buraxsa da, yenə xalqı mübarizəyə, öz hüququnu əldə etməyə çağıraraq "Vətən və hürriyyət" adlı şerlər kitabçasında yazırdı:

Gözün var isə hürriyyət ziyasından götür hissə,
Yaşa insanca, insanlar tək azad ol əsarətdən !

Bu dövrdə Ordubadi təkcə demokratik mətbuatdan deyil, burjua mətbuatı səhifələrindəki açıq imkanlardan da istifadə edirdi. O, geniş xalq kütlələrinin ağır həyat şəraitində yaşaması, bir parça çörək üçün min bir əziyyətə qatılaşması kimi hallara üsyan edirdi.

İstibdadın xalq üzərində əli qılınclı hücuma keçməsinə qarşı öz nifrətini bildirən şair, yenə həmin "Tazə həyat" qəzetinin 63-cü nömrəsində belə yazmışdı:

Kimsəsiz islama istibdadiyan etmiş qiyam,
Biz əzildik, başımızda qopdu müdhiş izdiham.

1905 – ci il inqilabından sonra, "Molla Nəsrəddin" məcmuəsinin nəşrilə əlaqədar olaraq M.S.Ordubadi yaradıcılığının yeni mərhələsi başlanır.

"Molla Nəsrəddin" cərəyanı onun demokratik ruhlu şerlər yazmasına kömək edir. Dövrün yaramazlığını mədəniyyətsizlikdə görən maarifçi – yazıçılar kimi M.S.Ordubadi də fəlakətlərin əsas səbəbini qəflətdə görür və yazırdı:

Hər bir işimiz getdi, qalıb qəlbdə həsrət,
Avara qoyan bizləri qəflətdi, bu qəflət !

Başqa şerlərində xalqı əsarətdən xilas olmağa çağıran yazıçı yenə bir neçə yerdə geriliyin başlıca səbəbini qəflətdə görür:

Heç kimsə bizi qılmadı bu dərdə giriftar,
Qəflət bizi bu dərdü qəmə eylədi vadar.

M.S.Ordubadi feodal – patriarxal həyatın geriliklərini yayan ruhanilərin İrandan keçərək Azərbaycanda geniş fəaliyyət göstərməsini kəskin satira atəşinə tuturdu. O, Şərq xalqlarının geri qalmalarının əsas səbəblərindən birini dində görür. Lakin bu mövzuya fəlsəfi, ictimai əsərlər deyil, satirik şerlər həsr edir.

Mövhumatçı, fırıldaqçı dindarlara qarşı mübarizədə o, "Molla Nəsrəddin" cəbhəsindən çıxış edir. Mövhumatçı ruhanilər şairin əsərlərində birinci tənqid hədəfi olur. Ruhaniləri ifşa etmək üçün Ordubadi "Molla Nəsrəddin" səhifələrindən istifadə edir.

Mövhumat və avamlığa qarşı M.S.Ordubadinin yazdığı felyetonlar da diqqəti cəlb edir.

Onun "Molla Nəsrəddin"in 1906 – cı il 14 – cü nömrəsində məktub şəklində dərc olunan "Qızdırılmaya məktub" felyetonunu nəzərdə keçirərək:

"... Məqalələrinizin hədərən – pədərən olmasından belə məlum olur ki, bir az da titrətməniz vardır. Onun da cəhəti bulvarda gəzəndə starşi qaradavoya börk götürmüsən, sənə soyuq dəyibdir. Əlbəttə, mənim ərzimi qəbul edib gərək bir krantsız hamam tapasan, bir qədər tərləyib, sonra suya girib, fitəni başına salıb altmış qab isti su fitənin üstündən başına tökəsən.

... Eşidirəm başınızda bir az da ağrı vardır. Həmin azara hükəma istilahında nüzlə deyilər. Qara toyuq yumurtasına bir neçə söz yazıb, kisəyə tikib məsciddə tirdən asarlar. Qorxma, mən onu da cabəca edərəm. İşdir, hərgah bu da mənfəət etməsə, onda yəqin elə ki, sənə göz vurublar. Bu aşağıda yazdığım duanı bir ovuc üzərliyə oxuyub, od içində yandırıb üstündən oyan – bu yana atılırsan. Duanın surəti:

Üzərlik sən havasan,
Həzar dərdə davasan." [4, 183]

M.S.Ordubadinin istər "Molla Nəsrəddin", istərsə də "Tuti", "Babayi - əmir" və başqa satirik jurnallarda, habelə müxtəlif qəzetlərdə çıxan felyeton və satirik şerləri C.Məmmədquluzadə və M.Ə.Sabir yaradıcılığına nisbətən zəifdir. Bunların dili nisbətən qəliz, forması yeknəsək, tənqid hədəfi də məhduddur.

Şair oxucunu mübarizəyə çağırır. Vətən yolunda baş verənləri, canlarını əsirgəməyənlər qəhrəman sayılırlar. Ancaq "bu mübarizə"nin zamanı, məkanı və obyekti məlum deyildir.

Vətənin dərdi nədir, düşməni kimdir, xilası nə ilə olur ? bunlar mücərrəd qoyulur, ona görə də müəyyən bədii idrak əhəmiyyətindən məhrum olur.

Ordubadinin bu şeirlərində kədər, qüssə və pərişanlıq hiss olunsa da, fərdi hisslər yox, ictimai hisslərin təsviri ilk plana çəkilir. Bu əsərlərdə qül – bülbülün yerini insanlar, eyş – işrət məclisinin yerini ictimai mübarizə məsələləri tutur.

Şair ictimai – siyasi məsələlərlə məşğuldur, bir vətəndaş kimi fikirləşir. Doğrudur, bu təsvirlər hələ bəsit və bəzən də ibtidaidir. O da doğrudur ki, şair siyasətdən, ictimai mübarizələrdən yazsa da, köhnə şer üslub və vasitələrindən daha çox istifadə edir.

Əgər gül – bülbül münasibəti, Ordubadinin fikrincə, bugünkü şeri məşğul edə bilmirsə, vətəndaşlıq münasibətinin təsviri üçün yeni məcaz və istiarələr də yaradılmamışdır. Ya siyasi şüarlar, müstəqim ifadələr, çağırışlar, mətbuat dilində daha xas olan üslubdan istifadə olunur, ya da şair keçmiş misrasa, qəzəl şerinin cəbbəxanasına müraciət edir.

Bunu biz XX əsrin əvvəllərində bir çox şairlərdə gördüyümüz kimi, Ordubadidə də görürük. "Vətənimizə bir neçə söz" adlı şeirində şair məhz belə bədii vasitələrdən istifadə etmişdir.

Şair təəssüf hissi ilə vətəninə müraciət edərək soruşur ki, sənin gülüstanın haçan gül açacaq, xəzanın nə vaxt bitəcəkdir ?

Açıb nərgiz ol məstü şəhla gözün,
Qızıl gül həyadan qızardır üzün.

Göz aç, sən də alqışla bu işrəti,
Verər bülbül elani – hürriyyəti !
Alar qumri məşrutə təlimini,
Bənövşə verər dərsi – təzimini,
Girər bağa tuti quşu bavüqar,
Oxur nitqlər, parlamanı açar.

Hürriyyət müjdəsini vuruşan ictimai mübarizələr yox, "bülbül, qumru, tuti, bənövşə" gətirir. Parlament, vətən, məşrutə sözləri olmasa, oxucu güman edir ki, bu, gülüstanın, baharın, çiçəklərin, quşların bir – birini çağırdığı bir çəmənliyin təsviridir.

Halbuki şair burada nə gülü, nə bülbülü, nə tutini, nə qumrunu, nə nərgizi, nə qərənfili göstərmək istəyir. Şair azadlıq hərəkatını, vətəni, vətənpərəstləri, natiqləri, millət xadimlərini nəzərdə tutur.

Şair oxucunu mübarizəyə çağırır. Vətən yolunda baş verənləri, canlarını əsirgəməyənlər qəhrəman sayılırlar. Ancaq "bu mübarizə"nin zamanı, məkanı və obyekti məlum deyildir. Vətənin dərdi nədir, düşməni kimdir, xilası nə ilə olur ? bunlar mücərrəd qoyulur, ona görə də müəyyən bədii idrak əhəmiyyətindən məhrum olur.

Ordubadinin şeirlərində kədər, qüssə və pərişanlıq hiss olunsa da, fərdi hisslər yox, ictimai hisslərin təsviri ilk plana çəkilir. Bu əsərlərdə qül – bülbülün yerini insanlar, eyş – işrət məclisinin yerini ictimai mübarizə məsələləri tutur.

Şair ictimai – siyasi məsələlərlə məşğuldur, bir vətəndaş kimi fikirləşir. Doğrudur, bu təsvirlər hələ bəsit və bəzən də ibtidaidir. O da doğrudur ki, şair siyasətdən, ictimai mübarizələrdən yazsa da, köhnə şer üslub və vasitələrindən daha çox istifadə edir.

Şair gözünü vətənə dikmişdi. Ancaq vətənin o zamankı halına, o zamankı hakimlərinə yox, gələcəyinə, gələcək quruluşuna dikmişdi. Ordubadinin ilk şeirlərində mücərrəd, dumanlı olsa da, bir arzu, bir ümid qanadlanmaqdadır. Bu şeirləri qismən də olsa yaşadan, oxucuya sevdirən bunların ruh etibarilə, məzmun cəhətdən yeniliyidir.

Ordubadinin ədəbiyyat və incəsənətin problemlərinə dair fikirləri onun Böyük Vətən müharibəsi illərində (1941-1935) yazdığı məqalələrdə də mühüm yer tutur. "Şərəf işimiz" (1941) məqaləsində o, müharibə dövrünün yazıçılar qarşısında qoyduğu yeni vəzifələrdən bəhs edir. 1942-ci ildə yazılmış "İncəsənət və müharibə" məqaləsində isə ədəbiyyat və incəsənətin vətənpərvərlik ruhunun təbliğinə, xüsusilə poeziyanın, şeirin bu sahədəki önəmli roluna diqqət çəkilir.

Həmin dövrdə Azərbaycan tarixindən ibrətamiz səhifələrinə, böyük sərkərdələrə, vətən yolunda canından keçən xalq qəhrəmanlarına həsr olunmuş məqalələri xüsusilə maraq doğurur.

Yazıçının "Qara Məlik" (1941), "Camal" (1941), "Səttarxan" (1942), "Tarix və qələbə" (1942), "Vaqif bir dövlət adamı kimi" (1943), "Farsca yazılmış klassik

Azərbaycan ədəbiyyatında azadlıq ideyaları" (1943) kimi məqalələri böyük təbliğati əhəmiyyətə malik olub, yüksək vətənpərvərlik hissləri aşılayırdı. Bu məqalələrində Ordubadi keçmiş tariximizi yada salmaqla qəhrəmanların, xalq içərisindən çıxmış igidlərin surətlərini canlandırıb.

Ordubadi məqalələrində bədii ədəbiyyatda sənətkarlıq məsələlərinə də geniş yer ayırıb. Bu baxımdan onun dövrün ədəbi proseslərinə, gənc yazıçı və şairlərin yaradıcılığına həsr olunmuş məqalələri diqqəti cəlb edir. Qocaman ədib ədəbiyyatımızın inkişafını diqqətlə izləyərək onun müvəffəqiyyət və qüsurlu cəhətlərini qeyd edir. Şeirdə sənətkarlıq, orijinallıq, bədiilik, yığcamlıq, şeir texnikası haqqında Ordubadinin maraqlı mülahizələri var. Yazıçı "Şeirimiz haqqında bir neçə söz" adlı məqaləsində (1946) yazırdı: "Ən birincisi şeir və ədəbiyyat oxucularının mədəni səviyyəsini öyrənmək və bu səviyyənin tələblərinə cavab verə biləcək əsərlər yazmaqdır... Buna görə də hər bir şair hər şeydən əvvəl özünün ədəbi və bədii səviyyəsi ilə oxucunun səviyyəsi arasında bir fərq olub-olmamasını öyrənməlidir və oxucuya görə çox yüksək səviyyəyə qalxmağa çalışmalıdır".

Ordubadi şeiri "ali sənət" adlandırır, onun ictimai vəzifəsini doğru izah edir və yazırdı ki, şeir adlandırdığımız ali sənət cəmiyyətin əxlaqını, onun ictimai düşüncəsini, onun fikir etibarilə nə qədər tərəqqi etdiyini təyin edən bir amildir. O, poeziyanı insanların əxlaqına tərbiyəvi təsir göstərən, onları yüksək və təmiz vicdanlı, xalqına və millətinə layiq adamlar kimi yetişdirməyə kömək edən bir vasitə kimi izah edir, bunun əksinə olan şeirləri isə tənqidə tutur.

Ordubadi sənətkar üçün elm və biliklərə yiyələnməyin, geniş məlumata, dərin savada malik olmağın, bəşər tarixini yaxşı bilməyin əhəmiyyətini də öz məqalələrində göstərib. Bu barədə o yazır: "Biz son zamanlar yazılan şeirlərdə ilham kəlməsini tez-tez təkrar edildiyini görməkdəyik. Əcəba, şairlərimiz ilham sözünü nə mənada tez-tez işlədirlər?! Əvvəla, bunu bilmək lazımdır ki, fitri qabiliyyət şeir sənətində hakim bir rol oynaya bilməz, çünki insan sövq təbii qanunlarının şəraiti altında fəaliyyət göstərən canlılardan deyildir. İlham deyilən söz, şairin əqlindən, vicdanından, şəxsi əxlaq və mədəniyyətindən, onun əxlaqca başqalarından irəlidə getdiyindən, fikir və düşüncə etibarilə yüksəkdə dura bilməsindən, onun daimi mütaliəsindən, sənət və iqtidarından doğan bir cavahirdir".

Ordubadinin məqalələrinin böyük qismi klassik yazıçılara həsr edilib. O, klassik yazıçılarımızı dərindən öyrənməyə və xalqa tanıtmağa çağırırdı.

Ordubadi müasirləri olan ədəbiyyat və incəsənət xadimləri barəsində də bir çox qiymətli məqalələr yazıb. Onun Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə haqqında xatirə-məqalələri xüsusilə qiymətlidir. Bu məqalələrdə ədəbiyyat və incəsənət tariximiz üçün əhəmiyyətli məsələlər, həmin sənətkarların yaradıcılığını öyrənmək, tədqiq etmək nöqteyi-nəzərindən qiymətli fikirlər var.

Ədəbiyyat tariximizi, onun ayrı-ayrı nümayəndələrini, xalqımızın keçdiyi şanlı tarixi yolu öyrənməkdə Ordubadinin məqalələrinin əhəmiyyəti böyükdür.

Ordubadi doğma xalqının maarifi, tərəqqisi uğrunda çalılşan, bu yolda mübarizə meydanına atılan sənətkar idi.

**Ədəbiyyat:**

1. C.Hacıyev. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı,1955
2. C.Hacıyev. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı,1955
3. F.Vəzirova. M.S.Ordubadi. Bakı, 1970
4. M.S.Ordubadi. Əsərləri, I cild, Bakı, 1964

**Xülasə**

M.Ordubadi Azərbaycan ədəbiyyatında böyük bir dövrdür. Onun realist reklamı çoxölçülü geniş ekranlı yazıçının yaradıcılığında həlledici rol oynayır. M.Ordubadi 1911-ci ildə, 1905-1906-cı illərdə isə "Qanlı illər"i nəşr etdirmişdir. O, çar hökumətinin himayəsi altında azərbaycanlıların qırğınına səbəb olan erməni kilsə əhlinin vəhşi üzünü məharətlə ifşa etdi. O zaman o, "erməni-müsəlman işi" adlanan milli müharibənin əsl mahiyyətini gizlətməyə çalışmış, M.Ordubadi isə xalqımızı kütləvi şəkildə korlayan erməni və şah qatillərinin əsl hiyləgər niyyətlərini ifşa etmişdir. M.Ordubadi "Həyatım və mühitim" adlı xatirələrində ermənilərin planladığı Azərbaycan türklərinin sona çatdığını qeyd edir.

Şair ictimai – siyasi məsələlərlə məşğuldur, bir vətəndaş kimi fikirləşir. Doğrudur, bu təsvirlər hələ bəsit və bəzən də ibtidaidir. O da doğrudur ki, şair siyasətdən, ictimai mübarizələrdən yazsa da, köhnə şer üslub və vasitələrindən daha çox istifadə edir. Şair gözünü vətənə dikmişdi. Ancaq vətənin o zamankı halına, o zamankı hakimlərinə yox, gələcəyinə, gələcək quruluşuna dikmişdi. Ordubadinin ilk şeirlərində mücərrəd, dumanlı olsa da, bir arzu, bir ümid qanadlanmaqdadır. Bu şeirləri qismən də olsa yaşadan, oxucuya sevdirən bunların ruh etibarilə, məzmun cəhətdən yeniliyidir.

**Summary**

**Hd.tch.P.E.Guliyeva**

**M.S. ORDUBADI'S POEMS WITH DEMOCRATIC SPIRIT**

M.Ordubadi is a great epoch in Azerbaijani literature. His realist publicity plays a crucial role in the creativity of a multidimensional wide-ranging writer. M.Ordubadi published his "Bloody Years" in 1911, and in 1905-1906, under the auspices of the tsarist government, he masterfully exposed the wild face of the Armenian church folk who caused the massacre of the Azerbaijanis. At that time, he tried to conceal the true essence of the national war of the so-called "Armenian-Muslim case", while M.Ordubadi exposed the real cunning intentions of the Armenian and Tsar killers who massively spoiled our people. In his memoirs "My Life and the Environment", M.Ordubadi noted the fact that the Azeri Turks planned by the Armenians had come to an end.

The poet deals with social and political issues and thinks like a citizen. True, these descriptions are still simple and sometimes primitive. It is also true that although the poet writes about politics and social struggles, he uses more old poetry styles and tools. The poet had his eyes fixed on the homeland. However, he did not focus on the state of the country at that time, its rulers at that time, but on its future, its future structure. In Ordubadi's first poems, although it is abstract and hazy, a dream and a hope are taking wings. What keeps these poems alive and endears them to the reader is their novelty in terms of spirit and content.

**Резюме**

**Ст.пр.П.Е.Кулиева**

***СТИХИ М.С.ОРДУБАДИ С ДЕМОКРАТИЧЕСКИМ ДУХОМ***

М. Ордубади - великая эпоха в азербайджанской литературе. Его реалистическая реклама играет решающую роль в творчестве многомерного широкоформатного писателя. М.Ордубади опубликовал «Кровавые годы» в 1911 году, а в 1905-1906 гг. Под эгидой царского правительства он мастерски разоблачил дикое лицо армянского церковного народа, вызвавшего резню азербайджанцев. В то время он пытался скрыть истинную сущность национальной войны так называемого «армяно-мусульманского дела», а М.Ордубади разоблачил настоящие хитроумные намерения армянских и царских убийц, которые массово испортили наш народ. В своих мемуарах «Моя жизнь и окружающая среда» М.Ордубади отметил тот факт, что азербайджанские турки, запланированные армянами, подошли к концу.

Поэт занимается социальными и политическими вопросами и мыслит как гражданин. Правда, эти описания пока еще просты, а иногда и примитивны. Верно и то, что, хотя поэт пишет о политике и социальной борьбе, он использует более старые поэтические стили и инструменты. Поэт неотрывно смотрел на родину. Однако он ориентировался не на тогдашнее состояние страны, ее тогдашних правителей, а на ее будущее, ее будущее устройство. В первых стихах Ордубади, хотя они и абстрактны и туманны, мечта и надежда окрыляются. Что сохраняет эти стихи живыми и вызывает у читателя любовь, так это их новизна с точки зрения духа и содержания.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: dos. A.X.Yusifli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**LEYLA ƏLƏSGƏROVA**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.**
**E-mail: leylaaleskerova20@gmail.com**

# S.YAĞMURUN "EŞQİN GÖZ YAŞLARI-ŞƏMS TƏBRİZLİ" VƏ E.ŞAFAKIN "EŞQ" ROMANINDA ŞƏMS SURƏTİNİN MÜQAYİSƏSİ

**Xülasə**.

Ədəbiyyatda tarixi hadisə və şəxsiyyətlərə müraciət hər zaman aktual olmuşdur. Orta əsrlərdən başlayaraq ədəbiyyata mövzu olan təsəvvüf özünü daha çox poeziyada göstərmişdir. Bu istiqamətdə son dönəmlərdə ədəbiyyatın daha böyük janrına müraciət artmışdır. Romanlarda irfan fəlsəfi fikir nümayəndələrinin bioqrafiyası və ya fəaliyyəti mövzu istinadgahı olmaqdadır. Burada təsəvvüf həm ağlı, həm də qəlbi doyurmağa xidmət edən bir vasitədir.

Məqalədə türk irfan düşüncəsinin önəmli şəxsiyyətlərinə olan münasibətə nəzər yetiriləcək. Mövlanə, onun təsirləndiyi Şəms Təbrizlinin əlaqələri və şəxsi həyatları Türkiyə yazıçılarının hər zaman diqqətində olmuşdur. Bunun əsas səbəbini müxtəlif şəkildə izah etmək mümkündür. Şəmsin mübahisəli varlığı və Ruminin bütün zamanlarda qüvvədə qalan fəlsəfəsi onları ədəbiyyatın baş surətlərinə çevirmişdir. Araşdırmamızda Şəms Təbrizli ilə əlaqəli ən çox sevilən və oxunan əsərlərə diqqət yetirəcəyik. Əsasən, Sinan Yağmurun "Eşqin göz yaşları – Şəms Təbrizli" və Elif Şafakın "Eşq" romanlarını müqayisəli şəkildə dəyərləndirəcəyik. Nəzərə alsaq ki, bu iki sima və onların əsərləri Türkiyə sərhədlərini aşaraq geniş oxucu kütləsi toplamışdır. Dünyada sayılıb-seçilən iki türkiyəli məşhur yazıçının düşüncələri müxtəlif formada bu mövzu ilə vəhdət hala gələrək oxucularda maraq oyatmışdır. Hər iki romanda fərqliliklər olsa da, Mövlanə-Şəms münasibəti üzərində qurulmuşdur. Məqaləmizdə iki əsər arasında paralelliklər apararaq, Şəmsə müraciətin səbəbləri araşdırılmışdır.

**Açar sözlər:** *Şəms, Mövlanə, təsəvvüf, roman, eşq.*

## Giriş

Dünyada mistik və mənəvi sahələrə maraq hər zaman mövcud olmuşdur. Türkiyə ədəbiyyatında XX əsrin 80-ci illərindən sonra dini, təsəvvüf və mistik mövzulara müraciət kəskin şəkildə artmışdır və bu gün də belə mövzuda olan əsərlərə böyük maraq müşahidə edilir. "Bu marağın əsas səbəbi maarifçilik dövründən sonra elmin sürətlə yüksəlişi ilə Avropada hakim olmağa başlayan pozitivizm və materializm cərəyanlarının dini və mistik sahələri rədd etməsidir" [5]. Təsəvvüfdə insanın varlığı ilə mənəvi olaraq ölmək Tanrı ilə dirilmək fəlsəfəsinə əsaslanaraq insanların zahiri və batini iztirablara dözmək üçün tək çarənin inanclar, dini məsuliyyətləri yerinə yetirərək Yaradana sığınmaqdır. Təsəvvüfün formalaşdığı zamanlardan uzun müddət keçsə də, bu gün o inanclara və onların tərəfdarlarına xidmət edən dünyaca tanınmış mütəfəkkirlər Ə.Yəsəvi, M.C.Rumi, Ş.Təbrizli,

Y.Əmrə, Hallac-ı Mənsur və başqaları fikirlərində mükəmməlliyə, kamilliyə aparan yolun müxtəlif üsullarla çatdırması çağdaş insanlarda maraq oyatmışdır. Onlar yaradılanları var olan Tanrının zərrələri adlandırır, "Quran"ın ayələrini müqəddəs hesab edir və onun hər kəlməsinə riayət etməyin tərəfdarları olmuşlar. Cümhuriyyət ədəbiyyatından sonra S.Karakoç, N.Araz, N.Bekiroğlu, A.Ümid, İ.Pala, E.Şafak, S.Yağmur eləcə bir çox türk yazıçıları yaradıcılıqlarında din, təsəvvüf və onların nümayəndələri ilə əlaqəli əsərlərə yer vermişlər.

**Əsas hissə**

Müəmmalı varlığı ilə maraq doğuran və haqqında dəqiq bilinən çox az məlumat olan Şeyx Şəms Təbrizlinin həyatı, fəlsəfi düşüncələri istər Türkiyə , istərsə də Azərbaycan ədəbiyyatında son zamanlarda çox müraciət olunan şəxsiyyətlərdən olmuşdur. Ş.Təbrizli ilə əlaqəli Türkiyə ədəbiyyatında son dövrlərdə Ahmet Ümitin "Bab-ı Əsrar" (Bab-ı Esrar" 2008), Elif Şafakın "Eşq" ("Aşk" 2009), Sinan Yağmurun "Eşqin göz yaşları – Şəms Təbrizli" ("Aşkın Gözyaşları - Şems Tebrizi" 2010), Azərbaycan ədəbiyyatında da bu böyük mütəsəvvüfə xüsusi maraq oyanmasına səbəb olmuşdur, beləliklə, Nəriman Əbdülrəhmanlının "Şəms" (2022 romanı Şəms haqqında yazılan roman silsiləsində xüsusi yer almaqdadır.

E.Şafak əsərində postmodernist roman ənənəsinə uyğun olaraq Şəmsə müraciət əsərin əsas qayəsinin oxucuya çatdırılmasında xüsusi vasitə kimi istifadə olunur, S.Yağmur isə tarixi həqiqəti açmağa çalışaraq birbaşa tarixə, mənqibələrə, yazılı mənbələrə istinad edib Şəmslə bağlı həqiqəti dünyaya çatdırmağı özünə vəzifə bilir. Ədəbiyyatda bu tip əsərlər bioqrafik roman adlanır. Göründüyü kimi, irfan nümayəndələrinə müraciət iki xətt istiqamətində formalaşıb:

1. Fikir və düşüncələrindən istifadə etmək;
2. Bioqrafik təsviri əks etdirmək.

Uzun müddət Avropada yaşayan Türkiyə yazıçısı E.Şafak "Eşq" romanını ilk dəfə ingilis dilində "Forty Rules of Love" – "Aşkın Kırk Kuralı" (Eşqin qırx qaydası"), daha sonra isə türk dilinə tərcümə olunaraq "Aşk" adı altında nəşr etdirilmişdir. Böyük oxucu kütləsi qazanan bu əsər 2012-ci ildə yazıçı N.Əbdülrəhmanlı tərəfindən Azərbaycan dilinə də tərcümə edilmişdir. Əsərdə postmodernist roman ənənəsinə uyğun olaraq paralel şəkildə cərəyan edən iki ayrı hekayə, məkan və zamanlar uzlaşdırılmışdır. Amerikada yaşayan Ella adlı 40 yaşlı ev qadını olan baş qəhrəman ilə "Eşq şəriəti" adlı təsəvvüf fəlsəfəsindən bəhs edən romanın müəllifi Ə.Z.Zahara arasında yaşanan eşqdən bəhs etməklə yanaşı, Anadoluda XIII əsrdə yaşamış Şəms və Mövlana eşqinin təcəssümü paralel şəkildə cərəyan etmişdir. Dünyəvi və ilahi eşqin təqdim edildiyi bu romanda eşq vasitə kimi istifadə olunaraq həm mənəvi , həm də dünyəvi yükdən qurtulmağın tək çarəsi kimi təqdim olunur. "Eşqsiz keçən ömür bihudə yaşanıb. Görəsən, ilahi, məcazi eşq arxasınca getməliyəm, yoxsa dünyəvi, səmavi və ya da cismaninin deyə soruşma! Ayrımlar ayrımlar doğurur. Eşqinsə heç bir təyinə, ifadəyə ehtiyacı yoxdur..." [1, s. 364]. Burada verilən ikinci mətn birinci mətni aydınlaşdırmağa xidmət etməkdədir.

Bu xüsusiyyət postmodernist əsərlər üçün, xüsusilə, fəlsəfi fikirlərin ötürülməsinə xidmət edən əsas forma hesab olunur. "Postmodernizmin ayrılmaz bir xüsusiyyəti kimi qəbul edilən intertekstuallıq (mətnlərarasızlıq) metodu hekayədə (romanda) sufizmin qəlib və anlamlarının həm olduğu kimi, həm də assosiasiyaları (çağrışmaları) ilə istifadəsi şəklində gərçəkləşir" [4, s. 101 ].

"Eşq" romanında canlandırılan Şəms və sufilərin 40 qaydasını müəllif təxəyyülü hesab edə bilərik. Romanda sufi şəxsiyyətlər və bəzi sufi ideyalar üst-üstə düşsə də, əsərdə səhv məlumatların çoxluğunu nəzərə alaraq, Elif Şafakın "irfan yazıçısı" olduğunu və ya birbaşa "təsəvvüf romanı" yazmağa çalışdığı fikrini düzgün hesab etmirik.

Bundan fərqli olaraq Sinan Yağmurun 26 illik təsəvvüf tədqiqatçısı olduğu, "Şəms Təbrizli" romanından öncə 2004-cü ildə "Tənnurə və Atəş" adlı təsəvvüf fəlsəfəsindən bəhs edən tədqiqat kitabını qələmə aldığı, sufi seminarlarında insanlarla söhbətlər aparmağı onun təsəvvüf və onun nümayəndələri haqqında daha dərin biliklərə sahib olduğunu deməyə əsas verməkdədir. "Eşqın göz yaşları"nın tədqiqat-roman olduğunu təsdiq edən bir fakt da kitabın sonunda istifadə olunmuş ədəbiyyat siyahısının yer almasıdır. Bütün bunlar, əsərdəki məlumatların yazıçı təxəyyülü olmadığını Şəms, Mövlana ilə əlaqəli mənbələrə əsaslanaraq orijinal mətn yaratmış olduğunu göstərir. Bunun yanaşı, E.Şafakın da əsərdə istifadə etdiyi rəvayətlərdən aydın olur ki, Şəms, Rumi ilə bağlı mənbələrə az da olsa istinad etmişdir. Tarixilik, gerçəklik və bədiilik bu romanda vəhdət şəklində olsa da, "Eşq" əsərində daha çox bədiilik, bu günlə sintezləşmə qüvvətlidir.

Daha öncə də qeyd etdiyimiz kimi, yazıçı düşüncələrinin üstünlük təşkil etdiyi "Eşq" romanında təsvir olunan Şəmsin bir çox cəhətləri ona xas olacaq xüsusiyyətləri əks etdirmir. "Eşq" romanında oxuyuruq: "...Şüşənin dibində ancaq bir neçə udum şərab qalmışdı. Bunu qədəhə boşaltdım. Yarısını içdim, qalan yarısını Rumiyə uzatdım..." [ 1, s. 341]. (Kimya:) ...Baxdım yatmışdı. Başını dizlərimin üstünə qoydum. Artıq bir xeyli uzun olan saçlarını sığalladım... Sonra gözləmədiyim şəkildə məni özünə sarı çəkdi, ehmalca öpdü... "[1, s. 421]. Burada Şəmsin şərab içməyi, Kimya xatunla olan münasibətində az da olsa ona meyl etdiyini vurğulamaq Şəms kimi içindəki nəfsi hələ kiçik yaşlarından boğan təsəvvüf nümayəndəsi üçün qəbul edilməz hesab olunmalıdır. Düşünürük ki, müəllif Şəmsin bir insan olaraq az da olsa nəfsinə yenilə biləcəyini göstərmək istəmişdir.

Lakin "Eşqin göz yaşları"ndakı Şəms obrazı daha realdır və mənbələrdən əldə etdiyimiz məlumatlarla üst-üstə düşür. "Eşqin göz yaşları"nda Şəmsin həyatı ilə bağlı hadisələr xırda detallarına qədər verilir və Şəmsin anadan olmasından ölümünə kimi əks olunanları sanki Şəms özü nəql edir. O, burada haqqında yalan danışanlara, onu qınayanlara, tənqid edənlərə, onu 40 qayda ilə məhdudlaşdırmağa çalışanlara sərt cavablar vermişdir: "Mən ki, qaydaları məhv etməyə gəlmiş Şəmsəm, mən ki dünya nemətlərini əliylə itələmiş Şəmsəm. Necə ola bilər ki, 40 qayda anlayışını mənə yaraşdırırlar?" [2, s. 6 ]. Nəzərə alaq ki, Şəms yazmağı xoşlamayıb bu bizə

ona aid olduğu söylənilən “Məqalat” (“Söhbətlər”) adlı kitabından da məlumdur [4]. O kitab isə onun tərəfdarları tərəfindən Şəmsin söhbətləri əsasında qeydə alındığı söylənilməkdədir. Lakin Şəms bu əsərdə, eləcə, bir çox mənbələrdə Mövlananı özünün əsəri kimi təqdim etmişdir.

Şəms bir çox əsərdə altıncı hissi qüvvətli və qeyri-adi gücə sahib bir şəxs kimi əks olunur. Hər iki əsərdə Şəmsin mistik tərəfləri ön planda təsvir edilir. “Eşq” romanında oxuyuruq: “Şərab şüşələrindən birini götürdüm. Qar altında qalmış, güllərini çoxdan tökmüş, tamam tikandan ibarət çılınçılpaq, cıpcılız bir gül ağacının yanına çökdüm. Başladım şüşədəki şərabı torpağa tökməyə.... Gül ağacı ağır-ağır canlanmağa başladı, qabığı insan dərisi kimi yumşaldı. Gözlərimizin qabağında bircə gül tumurcuqlandı, narıncı müjdə kimi açıldı” [1, s. 341]. Əsərin başqa yerində Şəmsin külək və şiddətli yağışın altında yanan çıraqla gəzməyi [ 1, s. 443] və s. kimi təsvirlətdə onun mistik yönləri vurğulanmışdır.

“Eşqin göz yaşları”nda təqdim olunmuş mistik xüsusiyyətlərindən - Şəmsə küfr edən müəzzinin dilinin boğazında şişib ölməsi [2, s. 38]; Şəmsin suya atdığı kitabları quru çıxartması [2, s. 48]; Ruminin Şəmsə gətirdiyi şərabı yerə tökərkən içindən süd axması [2, s. 68] və s. kimi hadisələrdə qeyri-adiliyini müşahidə edirik.

Əsərlər arasında bir çox çatışmazlıqların olmasına baxmayaraq, ortaq xüsusiyyətlərin mövcud olduğunu da müşahidə edə bilirik. Hər iki əsərdə Şəms-Mövlanə görüşü, Şəms-cəmiyyət qarşıdurması, Şəmsin şəxsi xüsusiyyətləri, insanlara, heyvanlara olan münasibəti reallığı ilə diqqəti çəkməkdədir. “Eşq” romanında Şəms bəzi hallarda ziddiyyətli xarakter kimi təqdim olunub, lakin müəllif bu böyük sufi şeyxi Şəmsə duyulan mənfi düşüncələrə qarşı iradını bildirməkdən çəkinməmişdir: “Təəssüf ki, çoxları qulaqdandolma biliklərlə hərəkətə gəlib başqalarını mühakimə eləyir. Onlara görə Şəms qiyamçı dərvişdi. Dikbaş, başıpozuq, neyləyəcəyi bəlli olmayan, inam təlqin eləməyən adamdır...” [1, 270 s]. Belə fikirlərə “Eşqin göz yaşları” romanında da təsadüf edə bilirik [2, 29 s].

Hər iki əsərdə biri-birindən fərqli əks olunan obrazlar da var. Məsələn, “Eşq” romanında Şəmsin qatili, Çöl Gülü, sərxoş Süleyman, Cəngavər Bəybars kimi surətlər “Eşqin göz yaşları”nda öz əksini tapmamışdır. Əsərdə iştirak edən bu surətlərin Şəmslə dialoqu onun daxili xarakterinin açılmasında xüsusi rol oynayır. Digər obrazlardan Mövlana, həyat yoldaşı Kerra xatun, böyük oğlu Sultan Vələd, kiçik oğlu Əlaəddin, Şəms, Kimya xatun hər iki əsərdə hadisələrin əsas iştirakçıları kimi təqdim olunmuşdur.

İki əsər arasında tarixi faktlar əsasında paralel müqayisələr apardıqda bir sıra ziddiyətlərlə qarşılaşa bilirik. Romanlarda Şəmsin naməlum ölümü ilə əlaqəli müxtəlif rəvayətlərdən istifadə olunmuşdur. S.Yağmur Şəmsi boyun əymədiyi üçün təriqət qurbanı kimi təqdim etmiş, Ə.Şəfəq isə Şəmsin Əlaəddin və yoldaşları tərəfindən öldürüldüyü rəvayətə əsaslanmışdır. Qeyd edək ki, hər iki variantın doğruluğu haqqında dəqiq bir söz söyləmək mümkün olmasa da, S.Yağmurun əsaslandırmalarını həqiqətə daha çox uyğun olduğunu hesab edirik. “Məqalət” və

digər mənbələrə əsasən Şəmsin S.Yağmurun da göstərdiyi kimi heç bir təriqətə, şeyxə bağlı olmadan, hür düşüncəli dərviş, Allah yolunun aşiqi olduğu qənaətinə gəlirik.

**Nəticə**

Məqaləmizdə İrfan mövzulu romanlar içərisində ən çox müraciət edilən iki əsərin əsas qəhrəmanı Şəmsin insanlara, cəmiyyətə təsiri, dünyaya səs salmasının dərin incəliklərini aydınlaşdırmağa çalışmışıq. Şəms kimi böyük mütəsəvvüf nümayəndəsinin türk dünyasının Mövlanasının yetişməsində və fikirlərinin insanlara məlhəm olmasında böyük rolu olduğunu danmaq heç də doğru hesab olunmamalıdır. Düşünürük ki, ona məqsədli və ya məqsədsiz qara yaxan, gözdən salmağa çalışanlardan fərqli olaraq tədqiq etdiyimiz əsərlərdə Şəmsi daha düzgün izah etməyə xidmət edən romanı müəyyən edə bilmişik.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Elif Şafak. Eşq. Bakı: Qanun Nəşriyyatı, 2012.
2. Sinan Yağmur. Eşqin göz yaşları 1 - Təbrizli Şəms. Bakı: Apostrof, 2012.
3. Şəms Təbrizi. Məqalat. (Tərcümə: Sevinc Natiqqızı). Bakı: Qanun Nəşriyyatı, 2016.
4. Tahirə Məmməd. Neosufizm: Yaradıcılıq və nəzəriyyə. Bakı: Xan, 2016.
5. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://dergipark.org.tr/tr/pub/apjir/issue/34102/377274&ved=2ahUKEwj-nPuYpLb9AhUKQ_EDHaF3CVAQFnoECAkQAQ&usg=AOvVaw3fYXAKIKRKX7LBGa5Z0rih


**Leyla Alasgarova**

**Comparison of the image of Shams in S. Yagmur's "Tears of Love - Shams Tabrizli" and E. Shafak's novel "Love"**

**Summary**

Addressing historical events and personalities in literature has always been relevant. Sufism, which has been the subject of literature since the Middle Ages, has shown itself mostly in poetry. In this direction, the demand for a larger genre of literature has increased in recent times. In the novels, the biographies or activities of representatives of gnostic and philosophical ideas are the reference points. Here Sufism is a tool that serves to satisfy both the mind and the heart. The article will look at the attitude towards the important figures of Turkish gnostic thought. Maulana, Shams Tabrizli's relationships and personal lives, which he influenced, have always been in the attention of Turkish writers. The main reason for this can be explained in different ways. The controversial existence of Shams and the philosophy of Rumi, which remains in force at all times, have made them the main copies of literature. In our research, we will focus on the most loved and read works related to Shams Tabrizli. Basically, we will evaluate Sinan Yagmur's "Tears of Love

- Shams Tabrizli" and Elif Shafak's "Love" in a comparative way. Considering that these two figures and their works crossed the borders of Turkey and gathered a wide readership. The thoughts of two world-renowned Turkish writers have united with this topic in different ways and aroused the interest of readers. Although there are differences in both novels, they are based on the Mevlana-Shams relationship. In our article, drawing parallels between the two works, the reasons for the appeal to Shams were investigated.
**Keywords:** *Shams, Maulana, Sufism, novel, love.*

**Лейла Алескерова**

**Сравнение образа Шамса в романе С. Ягмура "Слезы любви - Шамс Тебризли" и романе Э. Шафак “Любовь”**

**Резюме.**

Обращение к историческим событиям и личностям в литературе всегда было актуальным. Суфизм, который был предметом литературы со времен Средневековья, проявил себя главным образом в поэзии. В этом направлении в последнее время возрос спрос на более крупный жанр литературы. В романах ориентиром служат биографии или деятельность представителей гностических и философских идей. Здесь суфизм является инструментом, который служит для удовлетворения и ума, и сердца. В статье будет рассмотрено отношение к важным фигурам турецкой гностической мысли. Отношения и личная жизнь Мауланы, Шамса Тебризли, на которую он повлиял, всегда были в центре внимания турецких писателей. Главную причину этого можно объяснить по-разному. Спорное существование Шамса и философия Руми, остающаяся в силе во все времена, сделали их главными копиями литературы. В нашем исследовании мы сосредоточимся на самых любимых и читаемых произведениях, связанных с Шамсом Тебризли. В основном, мы будем оценивать “Слезы любви - Шамс Тебризли” Синана Ягмура и “Любовь” Элиф Шафак в сравнительном ключе. Учитывая, что эти два деятеля и их произведения пересекли границы Турции и собрали широкую читательскую аудиторию. Мысли двух всемирно известных турецких писателей по-разному соединились с этой темой и вызвали интерес читателей. Хотя в обоих романах есть различия, они основаны на отношениях Мевлана-Шамс. В нашей статье, проводя параллели между двумя произведениями, исследовались причины обращения к Шамсу.
**Ключевые слова:** *Шамс, Маулана, суфизм, роман, любовь.*

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: *fil.f.d., dos. Eşqanə Babayeva***
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAĞIYEVA TƏHMINƏ**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş, İstiqlaliyyət küç.26.*
*e-mail: tehmine_tagizade*

## AZƏRBAYCANIN XANIM ŞAIRI – XURŞİDBANU NATƏVAN

**XÜLASƏ.**

Azərbaycanın dahi şairi, "Xan qızı" ləqəbli Xurşidbanu Natəvanın qəzəl və rübailərinin əsas mövzusunu humanizm, mehribanlıq, dostluq və məhəbbət təşkil edir. Bu şeirlərin bir çoxu bu gün də xalq mahnılarında işlənir. Xurşidbanu yalnız şairlik etməmiş, eyni zamanda incəsənət sahəsində, dövlətin ictimai-siyasi həyatında da bir çox işlər görmüşdür. Xan qızı çox gözəl rəsmlər çəkir, məşhur Qarabağ xalçaları üçün eskizlər, arnamentlər hazırlayırdı. O, bu işləri "Gül Dəftəri" albomunda qeyd etmişdir.

Bu məqalədə Xurşidbanu Natəvanın həyatı haqqında qısa məlumat verilmiş və əsasən, yaradıcılıq işlərinə yer ayrılmışdır. Xurşidbanu xalq arasında böyük hörmətə sahib idi. Onun "Gül Dəftəri" albomu bizlər və gələcək nəsillər üçün çox dəyərli yaradıcılıq mirasıdır. Albom 277 səhifəlik rəsm əsərlərindən ibarətdir. Daha geniş məlumat məqalədə qeyd edilmişdir.

**Açar sözlər:** Xurşidbanu Natəvan, Gül Dəftəri, incəsənət, rəssam,Qarabağ

Xurşidbanu Natəvan 1832-ci il avqustun 6-da Şuşada anadan olmuşdur. Onun atası Qarabağ xanlığının sonuncu hökmdarı Mehdiqulu xan rus ordusunun general-mayoru rütbəsinə malik olub. Ona bu rütbə imperator I Aleksandr tərəfindən verilmişdi. Natəvan təhsilini o dövrdə tanınan alim və müəllimlərin rəhbərliyi altında almış, uşaqlıqdan elmə böyük həvəs və maraq göstərmiş, ərəb, fars və rus dillərini yaxşı və tez mənimsəmişdi. Firdovsi və Nizaminin, Hafiz və Füzulinin yaradıcılığını öyrənir, xalq yaradıcılığına həssaslıqla yanaşırdı.

Natəvan xalq tərəfindən hörmət və ehtiramla qarşılanırdı. Onun hakimiyyəti dövründə Şuşada saray, məscid, ticarət evləri, teatr, yay və qış klubları üçün binalar, real məktəb və s. tikilmişdir. Xurşidbanu 1872-ci ildə şəhər əhalisini su ilə təmin etmək və Şuşanı abadlaşdırmaq məqsədi ilə yüz min rubl bağışlayaraq Şuşadan 10 kilometr aralıda yerləşən Sarıbaba ərazisindəki İsa bulağından su xətti çəkdirmişdir.

M.F.Axundov öz yaradıcılığında əvvəlki Azərbaycan ədəbiyyatının humanist ideyalarını dövrünün yeni cərəyanları ilə birləşdirərək, insanların xoşbəxtliyi uğrunda mübarizə yollarının axtarışı ilə Natəvanın mənəvi dünyasının inkişafında mühüm rol oynamışdır. Axundovla şəxsi tanışlığı Xurşidbanunun ictimai məsələlərə, faydalı fəaliyyətə geniş marağına səbəb olmuşdur.[1,s 44]

Azərbaycanda o zaman qadın təcrid olunmuş həyat tərzi sürməli idi, lakin Natəvan bu adətləri pozaraq qeyri-adi cəsarət və qətiyyət göstərdi. 1849-cu ildə Natəvan Dağıstanlı zadəgan, general-mayor Xasay Xan Usmiyevlə evləndi. Elə

həmin il gənc ailə Tiflisə köçdü. O vaxtlar artıq tanınmış şairə olan Natəvan sevdiklərindən və doğma Azərbaycandan ayrılmasına çox üzülürdü. O, 1858-ci ildə Bakıya gəlir, 1861-ci ildə isə həmişəlik doğma Şuşaya qayıdır.

Natəvan müəyyən missiya daşıyıcısı kimi doğulub. Qarabağ xanının yeganə varisi, uşaqlıqdan gələcəkdə hökmdar olacaq şəxsiyyət kimi tərbiyə olunub. Natəvan gözəl şair, mahir rəssam və gözəl naxışlar tikməyi bacaran istedadlı bir xanım idi. Onun ceyranlı əlyazmaları, rəsmləri və tikmələri indiyə qədər qorunub saxlanılmışdır. Natəvan təkcə poeziyası ilə deyil, həm də xeyriyyəçilik fəaliyyəti ilə tanınır. Onun təşkil etdiyi məclisdə sinfi statusundan asılı olmayaraq istedadlı şəxslər iştirak edə bilirdilər. Bir çox gənc şairlər, müğənnilər, bəstəkarlar Natəvanın dəstəyi sayəsində uğur qazanmışlar.

Orta əsrlərdə nəzərəçarpacaq tərəqqi mərhələsini yaşayan, tədricən özünəməxsus bədii-estetik məziyyətlərə yiyələnən Azərbaycan miniatür rəssamlığı artıq XIX əsrdə Qərb və Şərq bədii ənənələrini özündə birləşdirən yeni xüsusiyyətlərlə zənginləşməyə başlayıb. Şuşada cərəyan edən bədii proseslərə nəzər salsaq, qeyd etmək lazımdır ki, Mir Möhsün Nəvvab, Usta Qənbər Qarabağı, qardaşı Səfər və oğlu Şükür ilə yanaşı Xurşidbanu Natəvan da rəssamlığın müxtəlif sahələrində fəaliyyət göstərib. Onun rəsmləri o dövrdə yaradılmış təsviri sənət nümunələri arasında öz bədii qərarı ilə seçilir.[3,s 124]

Şairənin 1886-cı ildə hazırladığı 227 səhifəlik albomunda onun özünəməxsus gözəllik hissi ilə tanış olmaq olar. Mütəxəssislərin "Gül dəftəri" də adlandırdığı bu albomda şairə-rəssamın qələmə aldığı on üç ceyranla yanaşı, onun çəkdiyi müxtəlif güllərin – qızılgül, bənövşə, qərənfil, eləcə də yasəmən, lalə və süsən çiçəklərinin rəsmləri yer alıb. Rəsmlər arasında mənzərələrin və müxtəlif bitkilərin təsvirlərinə rast gəlmək olar. Onların sayı otuza çatır. Ümumiyyətlə, həm rəngarəng motivlərində, həm də rəng çalarlarının dəyişməsində ifadə olunan təsirli melodiya şairin poetik irsinin lirik ruhu ilə ahəngdar şəkildə səsləşir. Əksər hallarda bunu albom səhifəsində yan-yana yerləşmiş şeirlə obrazın oxucu-tamaşaçıda ruhlandırdığı bədii-psixoloji əhval-ruhiyyə də təsdiqləyir. M. M. Nəvvab bunu daha çox Şuşada, Usta Qənbər isə Şəkinin divar rəsmlərində ifadə edirdisə, Natəvan qrafika sahəsində ifadə vasitələrinin orijinallığını dərk etmişdir. [2,s 33]

Deməli, obraza daxil olanlar nəinki nəzərə çarpacaq dərəcədə realdır, həm də bədii üsluba tabe olan lakonik formaya malikdir. Başqa sözlə, Natəvanın rəsmləri bədii təfsirinə görə kifayət qədər realistdir, qədim Çin-Uyğur bədii ənənələrini, Təbriz miniatür məktəbi nümunələrini bədii ümumiləşdirmələri ilə əks etdirir və onlarla xatirə yaradır. Təbiətdən heç şübhəsiz çəkilən "Üzüm salxımı", "Lalə", "Qızılgül", "Çiçək", "İris", "Qərənfil" və s. Onun rəsmləri Azərbaycan təsviri sənətində sonralar geniş yayılacaq natürmort janrının ilk əlamətləri olması baxımından da əhəmiyyətlidir. Bununla da özünəməxsus ceyranları ilə Azərbaycan poeziyasında dərin iz qoyduğunu təsdiqləyən şair bu gün də milli sənətimizə daxil olan əfsanəvi-mifik obrazlar aləminə yeni motivlər gətirmişdir. Xurşidban "Gül

Dəftəri” albomunda “Bülbül”, “Bənövşələr”, “Qızılgüllər”, “Qərənfillər”, “Kəpənəklər” obrazlarının yanında bu zərif və mülayim varlıqlara həsr etdiyi şeirlərini yerləşdirərək, ədəbiyyat və təsviri sənətin yaddaqalan sintezini yaratmağa nail olub. Əslində bunun özü də zəngin tarixə malik Azərbaycan kitab sənətinin qədim ənənələrinə yeni forma verilməsinin bariz nümunəsi sayıla bilər.

Bu rəsmlərin yer aldığı 227 səhifəlik albomun xarici də içindəki əsərlər qədər gözalıcı və möhtəşəmdir. Belə ki, albom ilk növbədə üz qabığında çoxrəngli saplardan və muncuqlardan hazırlanmış dekorativ elementləri ilə diqqəti cəlb edir. Cildin bir tərəfində “1886” nərgiz, qızılgül və qriqorian xurması, digər tərəfində isə “1304” cücərti, qovaq, şam və hicri xurma təsviri toxunmuşdur [5,s 54].

Natəvanın çəkdiyi bülbül, at, pərvanə və digər canlıların obrazlarında onun realistik sənətin bədii ənənələrinə yönəldiyini hiss etmək olar. Bütün bədii yaradıcılığında fitri istedadını nümayiş etdirən Xan qızı qədim milli bədii ənənələrə, eləcə də özünü artıq özünün bədii məkanında “qonaq” hesab etməyən Avropa realistik sənətinin ifadə xüsusiyyətlərinə bələd olduğunu nümayiş etdirə bilmişdir. Peyzajlarda onun Azərbaycan təsviri sənətində artıq geniş vüsət alan Qərb rəngkarlığına xas olan ifadə vasitələrindən geniş istifadə etdiyini müşahidə etmək olar. Natəvanın bədii ifadə tərzində bəzi ibtidai bədii başlanğıcların olması kompozisiyalara ləzzət verib desək, yanılmarıq. Bu mənzərələrə həm təbiətin fərdi təfərrüatları, həm də şəhər və dəniz mənzərələri daxildir. Dövrünə görə mənzərə janrında yazılmış bu əsərlərin diqqətəlayiq bədii məziyyəti onların perspektiv və məkan dərinliyinin özünəməxsus ifadəsidir. Natəvanın çəkdiyi Qarabağın ünvan lövhələrindən əlavə, bu fəzilətləri “Bakıya mənzərə”, “Dağlara gedən yol”, “Primorye”, “Məscidli qala”, “Sahil yaxınlığında körpü” və s. landşaftlarda müşahidə oluna bilər.

Tarixdən o da məlumdur ki, şairə-rəssam Tiflisdə Mehdiqulu xanın yanında olarkən bir neçə möhtəşəm səhnələr üzərində işləmişdir. Onun “Meteks qalası”, “Şeyx Sənan dağı”, “Narınqala”, “Kür qırağı” və “Müctəhid bağı” mənzərələri bu gün 19-cu əsr Gürcüstan paytaxtının görkəmini qoruyub saxladığından tarixi əhəmiyyət kəsb edir. Onun bədii yaradıcılığını görən müasirləri bu əsərləri yüksək qiymətləndirmişlər. Şair Həsən Yüzbaşının Natəvanın mənzərələri ilə bağlı “Bunu nəinki adi insan, hətta Şərqin məşhur rəssamları Mani və Behzad da yarada bilməz” sözlərində bir qədər mübaliğə olsa da, hər halda, yüksək sənətkarlıq, şairə-rəssamın yaradıcılığında bu gün də müasirlərinin diqqətini və heyrətini cəlb etməkdədir [4,s 26].

Xurşidbanu Natəvanın “Gül dəftəri”nə daxil edilmiş bədii yaradıcılıq nümunələri arasında tarixi əhəmiyyəti olan başqa rəsmlər də vardır. Onların arasında məşhur Şeyx Şamilin evinin və Günib qalasının rəsmini qeyd etmək lazımdır. Güman etmək olar ki, bu rəsmlər şairənin həyat yoldaşı Xasay Xan Usmiyevlə birlikdə Dağıstana səfərləri zamanı yaradılıb.

C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində saxlanılan Natəvanın dörd tablosu da öz ifadəli görünüşü və incə rəng sxemi ilə diqqəti cəlb edir, çünki onların tərkibində bitki motivləri var.Yəqin ki, lirik həssaslığa malik şairənin incə zövqlə muncuq texnikasından istifadə edərək diqqəti cəlb edən tikmələr yaratması təbii sayıla bilər. Yaxşı haldır ki, bu nümunələrin bir qismi dövlət muzeyləri üçün vaxtında alınıb. Məhz buna görə də bu gün bizim onları görmək, bu milli sənət və sənətkarlıq nümunələrini qiymətləndirmək imkanımız var. Məlumat üçün bildirək ki, məişətdə istifadə üçün nəzərdə tutulan bu tikmələr Milli Azərbaycan Tarixi Muzeyində və Milli Azərbaycan İncəsənət Muzeyində saxlanılır. Yeri gəlmişkən, Natəvan Düma ilə bəzilərinin dediyi kimi Qafqaza səfəri zamanı Qarabağda deyil, birbaşa Bakıda - İçərişəhərdə görüşüb. Deyilənə görə, azərbaycanlı şairənin bu əsəri hələ də Fransada Dümanın ev muzeyində saxlanılır [5,s 69].

Əlavə olaraq deyə bilərik ki, Xurşidbanu Natəvanın möhtəşəm tikmələri o vaxt Rusiyada təşkil olunmuş müxtəlif irimiqyaslı sərgilərdə uğurla nümayiş etdirilib. 1882-ci il Ümumrusiya Sərgisinin Qafqaz bölməsində təqdim olunan sənət əsərləri arasında şairənin zərif zövqlə tikdiyi tikmə də var idi. Mahud üzərində qızıl və gümüş saplarla işlənmiş bu tikmə möhtəşəm naxışlı örtüyü və emosional rəng sxemi ilə ictimaiyyət tərəfindən maraqla qarşılanmışdı.

Yekun olaraq demək olar ki, Xurşidbanu Natəvanın qrafika və bədii sənətkarlıq sahəsində yaratdığı əsərləri özündə ehtiva edən bədii irsinin yüksək bədii dəyərinə görə XIX əsr Azərbaycan incəsənətinin inkişafında yaddaqalan mərhələdir. Bu, gözəllik hissini əks etdirən, qədim və zəngin sənət arxivimizi zənginləşdirən bədii-tarixi milli sərvətdir.

## ƏDƏBİYYAT


1. Натəван / Под ред. Дж. Кулиева. — Азербайджанская советская энциклопедия: Главная редакция Азербайджанской советской энциклопедии, 1983. — Т. 7. — С. 163—164.
2. Исмаилов Э. Э. Восходящая родословная (пять поколений) Хуршидбану-беим Натаван // гл. ред. Исмаилов Э. Известия Азербайджанского историко-родословного общества : журнал. — Баку: Сада, 2000. — Вып. I (тираж: 300; 67 с.). — С. 38—39.
3. Исмаилов Э. Э. Ханы Карабахские: поколенное описание старшей линии рода // Журнал «Кавказ & Глобализация». — CA&CC Pres, 2014. — Т. 4, Выпуск 3-4. — С. 160—162
4. Abasova, L. V. et al. (eds.) (1992) Istoria azerbaijanskoi muziki Maarif, Baku, p. 116
5. "Natavan". Azerbaijani Soviet Encyclopedia. Vol. 7. National Academy of Sciences of Azerbaijan. 1983. pp. 163–164.

**Тагиева Тахмина**

**Азербайджанская поэтесса Хуршидбану Натаван**

**РЕЗЮМЕ**

Гуманизм, доброта, дружба и любовь – главные темы газелей и рубаев гениальной азербайджанской поэтессы Хуршидбану Натевана по прозвищу «Ханская дочь». Многие из этих стихотворений сегодня используются в народных песнях. Хуршидбану была не только поэтом, но и много работала в области искусства и общественно-политической жизни государства. Ханская дочь рисовала прекрасные картины, делала эскизы и орнаменты для знаменитых карабахских ковров. Эти произведения были записаны в альбоме «Гюль дефтери».

В данной статье дана краткая информация о Хуршудбану Натаване и указана основная сфера творчества. Хуршидбану пользовалась большим уважением в народе. Его альбом « Гюль дефтери» — очень ценное творческое наследие для нас и будущих поколений. Он состоит из 277 страниц картин. Более широкое исследование обсуждается в статье.

**Ключевые слова:** Хуршидбану Натаван, Гюль дефтери, искусство, художник, Карабах

**Taghıyeva Tahmina**

**The lady poetess of Azerbaijan - Khurshidbanu Natavan**

**SUMMARY**

Humanism, kindness, friendship and love are the main themes of the gazelles and rubais of the genius Azerbaijani poetess Khurshidbanu Natevan, nicknamed "The Khan's Daughter". Many of these poems are used in folk songs today. Khurshidbanu was not only a poet, but also did many works in the field of art and social and political life of the state. Khan's daughter drew beautiful paintings, made sketches and ornaments for the famous Karabakh carpets. These works were recorded in the “Flower Notebook” album.

In this article, brief information about Khurshudbanu Natavan is given and the main field of creativity is given. Khurshidbanu had great respect among the people. His album "Flower Notebook" is a very valuable creative heritage for us and future generations. It consists of 277 pages of paintings. A more extensive study is discussed in the article.

**Key words:** Khurshidbanu Natavan, Gül Daftari, art, artist, Karabakh.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: prof. Mirvari İsmayılova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**AYDAN RƏSULZADƏ**
**Odlar Yurdu Universiteti**
*Bakı, Nərimanov r-nu,*
*Koroğlu Rəhimov küç, 13 AZ1072*
*aydan.rasulzada@icloud.com*

# YÜKSƏK QABILIYYƏTLI TƏLƏBƏLƏR VƏ ANLAYARAQ ÖYRƏNMƏK

**Açar sözlər:** Öyrənmə prosesi,qabaqcıl təhsil,mövcud biliklər
**Ключевые слова:** Процесс изучения**,** высшее образование, существующие знания
**Key words:**Learning process,advanced education,existing knowledge

Son dörd onillikdə elm adamları insan idrakına dair anlamanın ininkişafına, biliyin necə formalaşmasına, təcrübəsnin təşkilinə, öyrənənlərin bir-birindən necə fərqli düşüncələrə malik olmalarına dair daha geniş məlumat verən tədqiqatlarla məşğul olmuşlar.Alimlər bu yeni yaranan tədqiqatlar toplusundan insan öyrənməsinin bir sıra əsas prinsiplərini sintez edə bilmişlər. Bu da təhsilin təbiətinə və onun nəticələrinə əhəmiyyətli dərəcədə təsir etmək potensialına malik oldugunu sübut edir.

Alimlər belə nəticəyə gəlmişlər ki, tələbələrin bacarıqlarında real fərqlər yaratmaq üçün həm ekspert təcrübəsinin mahiyyətini anlamaq, həm də bu təcrübəni öyrənmək üçün uyğun olan metodlar hazırlamaq lazımdır. Çünki həm qazanılan təcrübənin,həm də tədris zamanı istifadə olunan metodların sayəsində şagirdlər artıq öyrəndikləri bilik və bacarıqlardan yeni anlayışlar yaratmaq üçün istifadə edirlər.

Öyrənmə prosesi idrak proseslərini müəyyən edən, izləyən və tənzimləyən metakoqnitiv strategiyalardan istifadə etməklə asanlaşdırılır.Onu da qeyd edim ki,şagirdlərin qazanılacaq nailiyyyətləri ilə əvvəlki təcrübələri arasında qarşılıqlı əlaqəni özündə birləşdirən müxtəlif strategiyalar, yanaşmalar, qabiliyyət nümunələri və öyrənmə üslubları mövcuddur.Şagirdlərin öyrənmə motivasiyası və özünü hiss etməsi öyrənilənlərə və yaxud nə qədər öyrənildiyinə və eyni zamanda öyrənmə prosesinə nə qədər səy göstəriləcəyinə təsir göstərir.Şagirdlərin və ya tələbələrin öyrənərkən iştirak etdikləri təcrübələr və fəaliyyətlər onlar tərəfindən öyrənilənləri formalaşdırır.Tədqiqatlar aydın şəkildə göstərir ki, şagirdlərin məzmun bilikləri sahənin əsas təşkili prinsipləri və əsas konsepsiyaları olan - "böyük ideyalar" (məsələn, fizikada Nyutonun ikinci hərəkət qanunu, biologiyada təkamül konsepsiyası və riyaziyyatda həddanlayışı) ətrafında qurulub. (bax, məsələn,Kozma and Russell, 1997). Bu böyük ideyalar şagirdlərin geniş bilik bazasına uyğunluq verir; onlara problemlərin dərin strukturunu ayırd etməyə kömək edir və bu əsasda əvvəllər rast gəlinən problemlərlə oxşarlıqları tanımaga imkan yaradır. Tədqiqatlar həmçinin göstərir ki, şagirdlərin problemləri düşünmək və həll etmək üçün tətbiq

olunan tədris strategiyaları tədris olunan mövzularla və sagirdlərin malik olduqları biliklərlə sıx bağlıdır. Onların bilikləri əlaqəli təşkil olunur və onun tətbiq oluna biləcəyi konteksti müəyyən etmək üçün şərtləşdirilir.Qabaqcıl tələbələri daha böyük təcrübəyə doğru aparmaq üçün tələbələrin artan məzmun bilikləri toplusunu strukturlaşdırmaq, onların nail olduqları bilik və bacarıqlarını inkişaf etdirmək vacibdir. Buna görə də, qabaqcıl təhsil üzrə kurikulum və təlimat şagirdlərdə hər hansı problemin səthi xüsusiyyətlərini, fənnin daha dərin, daha fundamental prinsiplərinə qədər görmək bacarığını inkişaf etdirmək üçün tərtib edilir.

Tələbələr qabaqcıl təhsilin sayəsində artıq dünya haqqında necə düşüncələrə,yeni öyrənmə yanaşmalarına və naməlum problemlərin həlli səviyyələrinə əhəmiyyətli dərəcədə təsir edə biləcək bilik, bacarıq, inanc, konsepsiya və yanlış təsəvvürlərə sahib olurlar (Wandersee, Mintzes və Novak. 1994). İnsanlar yeni ideya və ya prosesi artıq başa düşdükləri ideya və ya proseslərlə əlaqələndirərək məna qururlar. İdrak üzərində aparılan tədqiqatlar göstərmişdir ki, uğurlu öyrənmə yeni biliklərin artıq əvvəlki biliklərlə əlaqələndirilməsini nəzərdə tutur. Bu bağlantılar bilik və ya bacarıqlara əlavə etmək, dəyişdirmək və ya yenidən təşkil etmək kimi müxtəlif formalarda ola bilər. Bu əlaqələrin necə qurulduğu həm müxtəlif fənn sahələrində həm də müxtəlif istedadları, maraqları və qabiliyyətləri olan tələbələr arasında dəyişə bilər (Paris və Ayers, 1994). Anlayaraq öyrənmək, lakin mövcud biliklərə yeni anlayışlar və proseslər əlavə etməkdən daha çox şey ehtiva edir.O, həmçinin konseptual dəyişikliyi, zəngin, inteqrasiya olunmuş bilik strukturlarının yaradılmasını nəzərdə tutur.

Tələbələrin mövcud bilikləri aşkar olunmazsa, onların təlim vasitəsilə inkişaf etdirdikləri anlayışlar və ya biliklər müəllimlərin nəzərdə tutduğundan çox fərqli ola bilər; Hətta bu şərhlər müəllimin nöqteyi-nəzəri ilə ziddiyyət təşkil etdikdə belə, tələbənin öz əvvəlki biliklərinə uyğun olan şərhlər qurmaq ehtimalı daha yüksək olur. Beləliklə, tələbələrə mühazirə oxumaq çox vaxt konseptual dəyişiklik yaratmaq üçün səmərəsiz bir vasitədir. Məsələn, Vosniadou və Brewer (1992) dünyanın düz olduğuna inanan şagirdlərin dünyanın kürə olduğunu öyrətdikdən sonra yeri üç ölçülü pancake kimi qəbul etdiklərini təsvir edir.Üstəlik, əvvəlki biliklər cəlb edilmədikdə, şagirdlər məktəbdə öyrəndikləri bilikləri sinifdən kənar dünya haqqında etdikləri müşahidələrindən ayıra bilmirlər.

Bundan əlavə, usaqlar orta məktəbə çatdıqda, onlar necə və hansı sürətlə öyrənmək istəkləri ilə bağlı öz seçimlərini əldə edirlər. Beləliklə, bəzi tələbələr bir növ təlimata müsbət cavab verəcək, digərləri isə fərqli yanaşmadan daha çox faydalanacaqlar. Müəllimlər bu cür fərqlərə həssas olmalıdırlar ki, təlimat və kurikulum materialları şagirdlərin inkişaf edən qabiliyyətlərinə, bilik bazasına, üstünlüklərinə və üslublarına uyğun olsun. Fərqli öyrənmə üslubları olan tələbələr öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün geniş imkanlara ehtiyac duyurlar.

Collins (1988) öyrənərək anlamanın aşağıdakı dörd xüsusi üstünlüklərini qeyd edir:

-tələbələr biliklərin tətbiqi şərtləri haqqında öyrənirlər
-tələbələr yeni və müxtəlif şəraitlərdə öyrənərkən ixtira və problemin həlli ilə məşğul olma ehtimalına malik olurlar
-tələbələr öz biliklərinin nəticələrini görə bilirlər
-tələbələr biliklərinin uyğun olan üsullarla mənimsədilməsi zamanı müəllim tərəfindən dəstək alırlar.

Müəllimlər real dünyadakı təlimlərdən və ya real dünya vəziyyətlərində istifadə olunan problemi həll etmə bacarıqlarını və strategiyalarını inkişaf etdirən təlimlərdən istifadə edərək müxtəlif vəziyyətlərdə istifadə oluna bilən mühüm təcrübələrə öyrənənləri cəlb edə bilərlər. Şagirdlər arasındakı fərqlər kurrikulumun və tədrisin necə strukturlaşdırılmasına təsir göstərir. Yüksək qabiliyyətli öyrənənlər xüsusi istedad sahəsində olduqca zəngin bilik bazası nümayiş etdirirlər. Bu sahə daxilində onlar digər tələbələrə nisbətən daha tez formal əməliyyat düşüncəsinə nail olmağa və qabaqcıl problemin həlli strategiyalarını nümayiş etdirməyə meyillidirlər. Yüksək qabiliyyətli öyrənənlər həmçinin daha erkən yaşda öz istedad sahələrində mücərrəd və mürəkkəb ideyalarla işləyə bilirlər.Yüksək qabiliyyətə malik olan şagirdlər məktəbdə tədris olunan məzmun biliklərinin çox hissəsini qeyri-rəsmi şəkildə mənimsəyirlər və nəticədə bu biliklər özünəməxsus olmağa meyl edir.Yüksək qabiliyyətli öyrənənlər digər tələbələrə nisbətən daha sürətli öyrənirlər. Kurrikulumun təklif olunduğu temp bu tələbələr üçün uyğunlaşdırılmalıdır. Kurikulum da mümkün olduqda fənlərarası əlaqələr quraraq daha mürəkkəb səviyyədə olmalıdır. Yəni, kurikulum nəticədə zənginləşdirilmiş və sürətləndiriilmiş formada təşkil edilməli və uyğun öyrənmə təcrübələrinin daha sürətli tempinə imkan verilməlidir.Əgər belə olarsa, çox yüksək qabiliyyətli tələbələr ya müstəqil olaraq, xüsusi proqramlar vasitəsilə, ya da veb-əsaslı kurslar vasitəsilə formal olaraq kursları keçməzdən əvvəl orta məktəb riyaziyyat və elm kurslarının məzmununu mənimsəmiş olacaqlar.Bunun üçün ilkin şərtlərdən kənar sınaq imkanları təmin edilməlidir. Bir çox yüksək qabiliyyətli tələbələr tipik orta məktəb səviyyələrini birbaşa atlaya bilirlər,onlar tez-tez problemləri alternativ vasitələrlə həll edə bilirlər və lakin test tapşırığının əsas konsepsiyasını başa düşmürlər (məsələn, cəbr məsələsini həll edə bilirlər, lakin cəbri bilmirlər).

Belə hallar baş verdikdə müəllimin qiymətləndirmələri yalnız çoxseçimli formatda olmamalıdır və tələbələr bir həll yolu taparkən öz biliklərini göstərməyi bacarmalıdırlar.Yüksək qabiliyyətli şagirdlərin dərsə motivasiyası məktəbdə darıxma səbəbindən tez-tez azalır və nəticədə müvəffəqiyyətsizliyə səbəb olur.

Huntun araşdırmasına görə effektiv tədrisin bir tələbi tələbənin təlim prosesindəki nailiyyətlərinin qiymətləndirilməsini və artıq mənimsənilmiş səviyyəni əhatə etdiyinə görə,yüksək qabiliyyətli tələbələr inkişaf baxımından bu tələblərin öhdəsindən gəlirlər və ona görə də həmin tələbələrə uyğun olaraq kurikulum qaydalarının təmin edilməsi vacibdir. Bunu etmək təkcə intellektual cəhətdən istedadlı tələbənin təhsil ehtiyaclarını ödəməyəcək, həm də onun yaxşı öyrənmə

bacarıqlarının, daha real və özünəməxsus konsepsiyaların ,nailiyyət motivasiyasının inkişafına kömək edəcək.

Bəzən belə hallara da rast gəlmək olur ki,yüksək qabiliyyətli tələbələrin öyrənmə səviyyəsi lazımi səviyyədə qiymətləndirilmir və beləliklə, xüsusilə öyrənmə meyarlarında tələbə üçün problem yaranır və tədrisin zəifləməsinə səbəb olur.

Bna görə də kurrikulum zaman keçdikcə dərin və yaxşı təşkil edilmiş bilik strukturlarının inkişafına yönəldilməlidir. Kurrikulumun dərinliyi istedadlı tələbələrə ekspert səviyyəsində xüsusi maraq kəsb edən sahəni tədqiq etməyə davam etmək üçün imkan verməlidir. Bu tələbələr üçün kurikulumlar onlara daim dəyişən bilik və məlumatı tədqiq etməyə və biliyi inkişaf etdirməyə imkan verməlidir.Yüksək qabiliyyətli uşaqlarda tənqidi və yaradıcı düşünmə bacarıqları da inkişaf etmişlər. Onlar problemin həllinin icra mərhələsində olduğundan daha çox vaxt sərf edirlər (yəni metakoqnitiv olaraq).Yüksək qabiliyyətli tələbələrdə inkişaf etdirilməli olan əsas düşünmə bacarıqları aşağıdakılardır:

- tənqidi düşünmə
- yaradıcı düşünmə
- problem tapmaq və həll etmək
- araşdırma və qərar qəbul etmək

Bu bacarıqlar hər bir məzmun sahəsində mənimsənilməlidir.

Yüksək qabiliyyətə malik olan tələbələr tapşırığın daha az dəqiq müəyyən olunduğu strukturlaşdırılmamış problemlərə üstünlük verirlər. Onlar həmçinin öz öyrənmə təcrübələrini qurmağı sevirlər. Onlar yeni material və ya konsepsiyaları mənimsəmək üçün materialın diqqətlə yığılmasına və ya addım-addım öyrənmə təcrübələrina meyl göstərmir ,əslində onlar belə yanaşmalardan məyus olurlar.( səh 10.Milli Elmlər, Mühəndislik və Tibb Akademiyaları.) Yaradıcı istehsalda erkən yetişənlər yetkinlik həyatında görkəmli nailiyyətlər nümayiş etdirməyə meyllidirlər.Belə hallarda təcrübəli tələbələr üçün mentorluq, təcrübə və ya uzunmüddətli tədqiqat imkanları təmin edilməlidir.

İstedadın inkişafının təcrübədən və getdikcə daha çətin və mürəkkəb bacarıqların fərdi sürətdə mənimsənilməsindən irəli gəldiyini nəzərə alsaq, sürətləndirilmiş öyrənmə təcrübələri vacibdir, həm də sahənin bilik bazasına yiyələnmək və idrak strukturlarının eyni vaxtda yenidən təşkili yaradıcılıq üçün bu təcrübələr zəruridir.Çünki yüksək qabiliyyətli tələbələr daha çox gözləntilər inkişaf etdirirlər, özləri haqqında daha yaxşı hiss edirlər və oxşar qabiliyyətə malik olan digər tələbələrlə işləyərkən daha yüksək səviyyəli cavablandırmalara malik olurlar.Belə ki,anlamanı inkişaf etdirmək üçün ayrılmaz olan bir sıra düşüncə hərəkətləri var:

- diqqətlə müşahidə etmək və orada olanları təsvir etmək.
- məzmunlu izahatlar və şərhləri təqdim etmək.
- sübutlarla əsaslandırmaq.
- fərqli baxışları və perspektivləri nəzərə almaq.

- nəticə çıxarmaq.

Şagirdlərin veriən tapşırığı başa düşdüklərini ,anlama proseslərini yoxlamaq təlim prosesinin tərkib hissəsidir. Şagirdlərinizin dərsdən nə götürdüyünü müəyyən etmək üçün bir neçə üsula malik olmaq həm müəllim üçün, həm də onlar üçün çox faydalıdır.Bir müəllim olaraq, təkmilləşmə nöqtələrini və bilik boşluqlarını müəyyən etmək üçün tələbələrinizin ev tapşırıqları ilə mübarizə aparmasını və ya testdə zəif nəticə göstərməsini gözləmək lazım deyil.Müəllim onlardakı sürətli inkişafı vaxtında müəyyən etməlidir.Bununla da şagirdlər özlərini daha çox dinlənilmiş və diqqətli hiss edəcəklər. Onlar hər dərsdən daha çox məlumat alacaqlar ki, bu da onların inamını artıracaq və irəliləyişlərini sürətləndirəcək.Bu prosesi gücləndirmək üçün müəllim Dərslikdəki dərs planına diqqətlə nəzər yetirməlidir,bu, müəllimin hazırlıq vaxtını azaldacaq və buna görə də məlumat veriləcək materialları hazırlamağa daha çox diqqətli olmağa imkan verəcək.Məsələn, dərz zamanı istifadə olunan xarici dilin aktivliyi dərs planına uyğun olaraq planlaşdırılmalı, dil əsasında geniş müzakirə şəraiti yaradılmalıdır.Çünki həddindən artıq yığcam olmaq məsələn, bəzən, bir cümlədə bir neçə fikri bir-birinə bağlamaq,təkrarlanan fikirləri söyləməklə və yaxud vacib məlumatı bir-birinə çox yaxınlaşdırmaqla başa düşməyi çətinləşdirə bilər. Qısa cavablar əsasən verilən sualların və tapşırıqların dolğun yerinə yetirilməməsinə gətirib çıxarır ki,bunun da bir neçə səbəbləri var;

- kontekstin olmaması
- tələbələrin bir neçə oxşar səslənən sözlərdən istifadə etməsi
- müəllimin tələffüz etdiyi sozləri düzgün tələffüz etməmək
- bir sözün bir neçə mənasından hansının nəzərdə tutduluğu anlamamaq

Əksinə, bəzən şagirdlər və ya tələbələr hələ də eşitdikləri hər bir sözü anlamağa çalışırlar və onların anlayışı ilk cümlənin yarısında müəllim nitqindən geridə qala bilər. Alternativ olaraq buna səbəb cümlənin uzunluğu,nisbi cümlələr, "birincisi" və ya "sonunda,nəhayət ki" kimi ifadələrdir.Bunun nəticəsində də onlar sözləri bir-birinə bağlamaq və ya cümlə qurmaq üçün çətinlik çəkirlər. Çox vaxt müəllim anlamanı asanlaşdırmaq üçün sadələşdirmə usuluna - uzun bir cümləni iki və ya daha çox qısa cümləyə çevirməyə keçir və yaranan problemi aradan qaldırmağa çalışır.Hətta müəllim daha tez-tez tələbənin başa düşdüklərini yoxlayır,hər cümlədən sonra dayanır və onların onu izlədiyini yoxlayır və ya (daha yaxşısı) başa düşmələrini yoxlayacaq bir sual verir.

Bəzən tələbələrin müəllimin dediklərini başa düşmələri və anlamaqları üçün vaxt lazımdır.Ona görə də anlama prosesini sürətləndirən bir sıra üsulları da nəzərdən keçirmək məqsədəuyğundur;

- söhbət mübadiləsi

Xarici dilin öyrənərkən danışıq sürətimi tənzimləmək üçün söhbət mübadiləsi çox effektivdir. Söhbət mübadiləsi qarşı tərəfdəkinin məzmunu başa düşmədiyi hallarda digərinin ona həmin məzmunu aydınlaşdırmağa hazır olması prosesidir.

- məqsədli əlavə qrup dərsləri

Bir tələbəyə sahib olmaq, onların başa düşə biləcəyi dildə danışmaq üçün məqsədli əlavə qrup dərsləri daha yaxşı təcrübədir və dərsi birə bir öyrətmək üçün intensiv təlim hesab edilir və səviyyəli dil bacarıqların mənimsəməyə daha yaxşı təsir göstərə bilir.

- Dərsləri qeydə yazmaq və ya video çəkmək

Bu zaman müəllim potensial anlaşılmazlıqları və onların səbəblərini axtarmaq və ya müəyyən etmək üçün problemli sinfə baxa və ya dinləyə bilər.

- tələbələri oyun təlimatlarına cəlb etmək

Məsələn, müəllim "Daha əvvəl kimsə voleybol oynayıbmı?" sualı ilə tələbələrə müraciət edir və sonra oyunun qaydalarını sinfə izah edir.

-əhatəli suallar vermək

Əhatəli suallar vermədən anlayışı yoxlamaq faktiki olaraq mümkün deyil. Əvvəlcədən yaxşı suallar hazırlamaq və onlardan istifadəni planlaşdırmaq tələbə öyrənməsi haqqında düzgün məlumat toplamaq üçün çox vacibdir.Öyrənmə hədəfi ilə planlaşdırılan suallar arasında hansı əlaqə var?

Müəllimlərin sualları tələbələri dərindən düşünməyə və cavablarını dəstəkləmək üçün mətndəki sübutlardan istifadə etməyə sövq edir.

Anlamanı yoxlayarkən, hər bir şagirdin nəyi bildiyini və nə edə biləcəyini öyrənmək vacibdir.edilməsidir. Protokollar tələbələrin müzakirəsi üçün strukturlaşdırılmış formatlardır ki, onlar eyni vaxtda əlaqəni təşviq edir və bütün tələbələrə müzakirədə bərabər şəkildə iştirak etməyə imkan verir. Tələbələr müzakirələrlə məşğul olarkən müəllim tələbələrin öyrənmə hədəfinə çatmaq istiqamətindəki irəliləyişləri ilə bağlı hər hansı müvafiq məlumatı strateji olaraq müşahidə edir, dinləyir və qeyd edə bilir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. B., 2007.
2.Kazımov N. Ali məktəb pedaqogikası. B., 1999.
3. İsmixanov M., Bəxtiyarova R. Ali məktəb pedaqogikası (mühazirə kursu). B.,
4. Pometun E. İnteraktiv təlim. (Müəllimlər üçün tədris vəsaiti) Bakı, 2010.
5. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007.
6. Zake D. Hərəyə bir portağal payı. Bakı, 2008.
7. Məktəbəhazırlıq qrupuna aid bədii təfəkkürün inkişafı, musiqi və fiziki mədəniyyət məşğələləri üzrə müəllim üçün metodik vəsait
8. Anlayışla Öyrənmə: Yeddi Prinsip." Milli Tədqiqat Şurası. 2002.
9.Bocharova OV, Arefyeva ON. Application of ICT in the classroom and after school. Kurgan: IPKiPRO of Kurgan Region; 2008.
10. British Council, Innovations in learning technologies for English language teaching. British Council 2013, 43p.
11. Druzhinin VI, Krivolapova NA. Organization of innovative activity in educational institution. Kurgan: IPKiPRO of Kurgan region, 2008.

12.English As a Second Language and English Literacy Development. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 1999.

**RƏSULZADƏ AYDAN**

## YÜKSƏK QABILIYYƏTLI TƏLƏBƏLƏR VƏ ANLAYARAQ ÖYRƏNMƏK

### XÜLASƏ

Təhsildə anlayışa tələbənin şəxsi məna və ya yaşananların təsviri proses kimi baxmaq olar. Məktəbdə tədris olunan məzmuna (və başqa yerlərdə əldə edilmiş məlumatlara) gəldikdə, şagirdlərin yaratdığı anlayış müəllimin anlayışı ilə eyni ola bilər. Burada öyrənənlər mövcud strukturlaşdırılmış məlumatları təqdim edildiyi kimi qavraya və anlaya bilərlər. Alternativ olaraq, öyrənənlər şəxsən müəllimin çatdırdığı məzundan fərqli və ya daha "dərin" zehni strukturlar (anlayış) yarada bilərlər.Bu zaman əsas məsələ uşaqlara sadəcə məlumat toplamaq deyil, onlara hər şeyi "gücləndirmək" və"imkan vermək"bacarıqlarını aşılamaqdır. Müəllimlər şagirdlərin anlayışını inkişaf etdirmək üçün əsas olan məlumat hissələrini vurğulamalıdırlar. Şagirdlərə sadəcə başa düşə biləcəkləri məlumat vermək əvəzinə, müəllimlər şagirdləri başa düşə biləcəkləri məlumatlarla tanış etməlidirlər.Müəllim (test nəticələrində və hesabat kartlarında) tələbələrin əldə etdiyi irəliləyişləri təsvir etməlidir. Əzbərdən öyrənmə, bir neçə konkret hallarda uyğun olsa da, çox vaxt aparır və əlbəttə ki, öyrənənin faydalı və ya kifayət qədər biliyə malik olmaması ilə nəticələnə bilər Mnemonik cihazlar burada işə düşə bilər. Əlaqəli (parçalanmış) məzmun əzbər öyrənmə ilə müqayisədə daha qənaətcildir. Tələbələr adətən müəllimin köməyi ilə yeni keçilən mövzunu tanış, bəlkə də əvvəllər əzbərləmiş və ya assosiativ şəkildə öyrəndikləri məlumatlara əsasən qavrayırlar. Bu zaman müəllim sinifdən əvvəlki dərsləri və ya təcrübələri xatırladır və sonra məlum və xatırlanan mövzu ilə bərabər yeni mövzunu təqdim edə bilər. Yəni yeni faktlar, potensial olaraq bir-biri ilə əlaqəli olmaqla yanaşı, "köhnə" və ya artıq öyrənilmiş faktlarla əlaqələndirilir. Şagirdlər artıq məlum olanları təfərrüatlandırırlar (Benjafield, 1992). İnternet və ya məlumat şəbəkəsi (yəni əlaqəli faktlar) məlumatın sonradan xatırlanmasına çox kömək edir.

Şagirdlərə faktları və bilikləri öyrənməyə kömək etmək üçün məlumatı çox öyrənənə qədər təkrarlamaq, onu təkrarən təqdim etmək və ya xatırladılmış faktlarla əlaqələndirmək lazımdır.

**RASULZADA AYDAN**

## SUMMARY
## HIGH ABILITY STUDENTS AND LEARNING BY UNDERSTANDING

In education, understanding can be viewed as a student's personal meaning or descriptive process of experience. When it comes to content taught in school (and information acquired elsewhere), students' understanding may be the same as the teacher's understanding. Here, learners can grasp and understand existing structured information as it is presented. Alternatively, learners may personally form different or "deeper" mental structures (understandings) than those conveyed by the teacher.In this case, the main issue is not just gathering information, but instilling in them the ability to "empower" and "enable" everything**.** Teachers should highlight pieces of information that are key to developing students' understanding. Instead of just giving students information they can understand, teachers should introduce students to information they can understand. The teacher should describe (in test results and report cards) the progress made by the students. Rote learning, while appropriate in a few specific situations, is time-consuming and of course may result in the learner not having useful or sufficient knowledge. This is where mnemonic devices can come into play. Linked (fragmented) content is more cost-effective than rote learning. Students usually grasp the new topic with the help of the teacher based on familiar, perhaps previously memorized or associatively learned information. At this time, the teacher recalls previous lessons or experiences from the class and can then introduce a new topic along with the known and remembered topic. That is, new facts are potentially related to each other as well as related to "old" or already learned facts. Students elaborate on what is already known (Benjafield, 1992). The Internet or web of information (i.e., related facts) greatly aids in later recall of information. To help students learn facts and knowledge, information needs to be repeated, presented repeatedly, or linked to recalled facts until they have learned a lot.

**РАСУЛЗАДЕ АЙДАН**

## РЕЗЮМЕ
## СТУДЕНТЫ С ВЫСОКИМИ СПОСОБНОСТЯМИ И ОБУЧЕНИЕ ЧЕРЕЗ ПОНИМАНИЕ

В образовании понимание можно рассматривать как личное значение учащегося или описательный процесс опыта. Когда речь идет о содержании, преподаваемом в школе (и информации, полученной в другом месте), понимание учащихся может быть таким же, как понимание учителя. Здесь учащиеся могут уловить и понять существующую структурированную информацию в том виде, в каком она представлена. В качестве альтернативы

учащиеся могут лично создавать другие или «более глубокие» ментальные структуры (понимания), чем те, которые дает учитель.Ключ заключается не только в сборе информации, но и в том, чтобы привить детям способность «расширять возможности» и «включать» вещи. Учителя должны выделять фрагменты информации, которые являются ключевыми для развития понимания учащихся. Вместо того, чтобы просто давать учащимся информацию, которую они могут понять, учителя должны знакомить учащихся с информацией, которую они могут понять.Учитель должен описывать (в результатах тестов и табелях успеваемости) прогресс, достигнутый учащимися. Зубрежка, хотя и уместная в некоторых конкретных ситуациях, отнимает много времени и, конечно, может привести к тому, что учащийся не будет иметь полезных или достаточных знаний. Вот где мнемонические приемы могут вступить в игру. Связанный (фрагментированный) контент более экономичен, чем механическое заучивание. Учащиеся обычно схватывают новую тему с помощью учителя на основе знакомой, возможно, ранее заученной или ассоциативно усвоенной информации. В это время учитель вспоминает предыдущие уроки или опыт в классе, а затем может ввести новую тему вместе с известной и запомненной темой. То есть новые факты потенциально связаны друг с другом, а также связаны со «старыми» или уже изученными фактами. Студенты уточняют то, что уже известно (Benjafield, 1992). Интернет или информационная сеть (т. е. связанные факты) очень помогают в последующем воспроизведении информации.

Чтобы помочь учащимся усвоить факты и знания, информацию необходимо повторять, представлять неоднократно или связывать с вспоминаемыми фактами до тех пор, пока они не узнают много.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: dos. Ülviyyə Nəsirova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**HACIYEVA SƏIDƏ VAQIF QIZI**
***Azərbaycan Dövlət Mədəniyyət***
***və İncəsənət Universiteti.***
AZ 1065, Bakı şəhəri
, İnşaatçılar prospekti 39. ***Eliyeva-seide@rambler.ru***

# QARABAĞIN MUSİQİ FOLKLORU

**Xülasə**

Təqdim olunan məqalə Qarabağ musiqi folklorunun araşdırılmasına həsr edilmişdir. Qarabağın musiqi mədəniyyəti Azərbaycan musiqi tarixində mühüm yer tutaraq, qədimliyi, zənginliyi və özünəməxsusluğu ilə seçilir. Qarabağın musiqi folkloru Azərbaycan şifahi ənənəli musiqisinin tərkib hissəsidir. Folklor mənəvi mədəniyyətin müəyyən bir sahəsidir. Burada xalqa xas olan ən qiymətli xüsusiyyətlər, onun mentaliteti, milli və əxlaq normaları cəmləşmişdir.

Qarabağın musiqi folkloru janr və musiqi-üslub rəngarəngliyi ilə seçilir. Qarabağın əmək nəğmələrini təşkil edən janrların hər birində müəyyən ictimai funksiyanın təsiri altında səciyyəvi musiqi və ifadə xüsusiyyətləri kompleksi formalaşmışdır. Tədqiq olunan bölgənin əmək nəğmələri sinkretizmin maraqlı təzahürləri ilə səciyyələnir. Məqalədə Qarabağ musiqi folklorunun bəzi janrlarının sinkretik xarakteri təhlil edilir. Son illərdə Qarabağın musiqi folklorunun öyrənilməsi sahəsində müəyyən addımlar atılmağa başlamışdır. Hələ, 2012-ci ildən etibarən Folklor İnstitutu Qarabağ layihəsi çərçivəsində "Qarabağ: folklor da bir tarixdir" toplusunu nəşr etdirməklə geniş oxucu kütləsinə təqdim etmişdir. Bu nəşrdə Qarabağ bölgəsindən çoxlu sayda bayatılar, laylalar, oxşamalar toplanmış, xalq mahnıları və xalq oyunlarından ibarət CD-lər buraxılmışdır. Elə həmin ildə Bakı şəhərində "Qarabağ folkloru: problemlər, perspektivlər" mövzusu ilə Respublika üzrə birinci Elmi Konfrans keçirilmişdir. Bu ənənənin davamı olaraq növbəti-2013-cü ildə Ağcabədi şəhərində "Qarabağ folkloru: problemlər, perspektivlər" adı altında ikinci Respublika Elmi Konfransı təşkil edilir. Konfransı davam etdirmək məqsədilə 2014-cü ildə Tərtər şəhərində "Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları" mövzusu ilə Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Konfransın materialları dərc edilərək elmi ictimaiyyətə və xalqa təqdim edilmişdir.

**Açar sözlər**: Azərbaycan folkloru, Qarabağ, sinkretizm, əmək nəğmələri, mugam, janr.

**Гаджиева Саида Вагиф кызы**

# МУЗЫКАЛЬНЫЙ ФОЛЬКЛОР КАРАБАХА

**Аннотация**

Музыкальный фольклор Карабаха является неотъемлемой частью музыки устной традиции Азербайджана. Музыкальная культура Карабаха занимает важное место в истории азербайджанской музыки, она выделяется

своей древностью, богатством и своеобразием. Фольклор – это определённая сфера духовной культуры. Здесь сосредоточены самые ценные свойства, присущие народу, его менталитет, национальная специфика, нормативы морали и нравственности.

Трудовые песни Карабаха отличаются жанровым и музыкально-стилистическим многообразием. Под воздействием определённой общественной функции в каждом из жанров, составляющих корпус трудовых песен Карабаха, сформировался характерный комплекс музыкально-выразительных особенностей. Для трудовых песен исследуемого региона характерны интересные проявления синкретизма. В статье анализируется синкретическая природа некоторых жанров трудового фольклора Карабаха. Понятие синкретизма в трудовых песнях охватывает широкий круг явлений и обозначает корреляцию между словом и музыкой, ритмическими телодвижениями и мелопоэтическим текстом, художественной и утилитарной функциями. В последние годы были предприняты определенные шаги в области изучения музыкального фольклора Карабаха. 2012 году группа сотрудников Института фольклора была командирована на территории, где размещены жители региона. Изданы три книги по собранным образцам фольклора и выпущен альбом, отражающий музыкальный фольклор Карабаха.

В 2013 году институт продолжил работу, начатую в рамках проекта «Сбор, систематизация и изучение Карабахского фольклора». Издан «Карабах: фольклор тоже история», на видео записаны различные церемонии, народные игры и площадные спектакли, свойственные Карабахскому региону.

**Ключевые слова**: азербайджанский фольклор, Карабах, синкретизм, трудовые песни, мугам, жанр.

**Hajiyeva Saida Vagif gizi**

## MUSICAL FOLKLORE OF KARABAKH

### Summary

The musical folklore of Karabakh is an integral part of the music of the oral tradition of Azerbaijan. The musical culture of Karabakh occupies an important place in the musical history of Azerbaijan, it stands out for its antiquity, richness and uniqueness. Folklore is a certain area of spiritual culture. The most valuable characteristics of the nation, its mentality, national characteristics, morality and moral norms are concentrated here.

Labor songs of Karabakh are distinguished by genre and musical-stylistic diversity. Under the influence of a certain social function in each of the genres that make up the corpus of labor songs of Karabakh, a characteristic complex of musical expressive features has formed. Some interesting manifestations of syncretism are characteristic for the labor songs of the studied region. The article analyzes the syncretic nature of some genres of labor folklore of Karabakh. The concept of

syncretism in labor songs covers a wide range of phenomena and denotes the correlation between the word and music, rhythmic movements and melodic poetry, artistic and utilitarian functions.

In recent years, certain steps have been taken in the field of studying the musical folklore of Karabakh. Since 2012, the Institute of Folklore published the collection "Karabakh: folklore is also a history" within the framework of the Karabakh project and presented it to a wide readership. In this publication, a large number of old songs, lullabies, and songs from the Karabakh region have been collected, and CDs containing folk songs and folk games have been released. In the same year, the first Scientific Conference of the Republic was held in Baku with the theme "Folklore of Karabakh: problems, perspectives". As a continuation of this tradition, in 2013, the second Republican Scientific Conference under the name "Karabakh folklore: problems, perspectives" is organized in the city of Agjabadi. In order to continue the conference, in 2014, an International Scientific Conference was held in the city of Tartar with the theme "Karabakh folk games and field performances in the context of the All-Turk". The materials of the conference were published and presented to the scientific community and the public.

**Keywords**: Azerbaijani folklore, Karabakh, syncretism, labor songs, mugam, genre.

Azərbaycan qədim və zəngin folklor ənənəsi olan bir ölkədir. Azərbaycanın qədim diyarı olan Qarabağ foklor nümunələri ilə zəngin olub, bu nümunələrin toplanaraq gələcək nəsillərimizə çatdırılması müasir dövrümüzdə folklorşünaslıq elmində aktual problemlərdən biridir. Bu problemin hərtərəfli və məqsədyönlü tədqiqi nəticəsində Qarabağın musiqi folklorunun tarixi inkişaf yolunu öyrənmək mümkündür.

XIX əsrdən başlayaraq bir sıra mətbuat səhifələrində Qarabağ folkloru ilə bağlı məlumatlar və nümunələr nəşr edilir və XX əsrdən Qarabağ folklorunun toplanması prosesinə start verilir. Qarabağın musiqi folkloru Azərbaycanın şifahi ənənəli musiqisinin tərkib hissəsidir. Azərbaycan folklorunun bütün janr müxtəlifliyi Ə.İsazadə [3], S.Seidova [4], S.Fərhadova [5] kimi alimlərin əsərlərində tədqiq edilmişdir. Lakin, Qarabağın musiqi folkloru hələ də sistemli şəkildə tədqiqat obyektinə çevrilməmişdir ki, bu da Qarabağın 30 ilə yaxın erməni vandalları tərəfindən işğalının nəticəsidir.

Bir sıra alim və tədqiqatçılar tərəfindən Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması aparılsa da, Qarabağın musiqi folkloru ayrıca olaraq tədqiq edilməmiş, bu bölgədə ifa olunan nəğmələrin təsnifatı verilməmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitunun nəşr etdirdiyi “Qarabağ folkloru bir tarixdir” kitabında Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri təhlil edilmişdir. Lakin, bu bölgələrin musiqi folkloru diqqətdən kənarda qalmışdır. Milli folklorun, mərasim musiqisinin öyrənilərək onların mənəvi dəyərlər sisteminə tətbiq

olunması bütün dövrlərdə aktual olmuşdur. Milli musiqi folkloru xalqımızın ruhunu, estetik duyumunu özündə cəmləşdirməklə, tarixin bütün dövrlərində bu adət-ənənələr insanların əxlaqi göstəricisinə çevrilmişdir [2, s.130].

Qarabağın musiqi folklorunun əsas hissəsini mərasim mahnıları, məişət mahnıları və əmək mahnıları təşkil edir. Qarabağın əmək mahnıları musiqi dili və üslub müxtəlifliyinə görə fərqlənir. Kişilərin ifa etdiyi əmək mahnılarını belə təsnifatlaşdırmaq mümkündür: karvan mahnıları, balıqçılıq, ovçuluq, çoban mahnıları, xırman mahnıları.

Janr müxtəlifliyinə görə qadınların əmək nəğmələri də rəngarəngdir: sağım, nehrə, toxuculuq, xalçaçılıq, həsirlərin hazırlanması, çörək bişirilməsi, sapların rənglənməsi, doşabın hazırlanması zamanı oxunan mahnılar.

Əlbəttə zaman keçdikcə Qarabağın əmək nəğmələri musiqi ifadə vasitələrinə görə bir-birindən fərqlənərək, bu nəğmələrdə xalqın mədəniyyəti və həyat tərzi öz əksini tapmış, sinkretik mədəniyyət səviyyəsində həyatın bütün mərhələləri musiqi folkloru ilə sıx bağlı olmuşdur [6, səh. 253].

Mahnıların artikulyasiyasını araşdırarkən reçitativ ifa tərzini müşahidə edirik. Qadınların ən çox ifa etdikləri əmək nəğmələri sırasında nehrə və toxuculuq nəğmələri böyük üstünlük təşkil edirdi. Bu da onunla izah edilir ki, Qarabağda heyvandarlıq çox inkişaf etdiyi üçün bütün ailələrdə nehrə hazırlanmasına yer verilirdi. Qadınlar nehrəni çalxalaya-çalxalaya oxuyurdular:

Saxlan, saxlan yağ olsun, ay balam yesin tox olsun
Balama yaxmac verərdim, əlinə alıb gedərdi.

Nəğmə deklamasiya xüsusiyyətli olub, burada bir səsin və motiv özəyinin təkrarını, səs ətrafında gəzişmələri müşahidə etmək mümkündür. Bu tip nəğmələr sosial-psixoloji mühitlə sıx bağlı olduğu üçün sadə insanların məişətinə daha çox nüfuz etmiş və bununla da xalq tərəfindən sevilə-sevilə icra edilmişdir.

Kişilərin ifa etdikləri əmək mahnıları arasında "Xırman nəğməsi" xalq arasında geniş yayılmışdır. Nəğmənin melodik strukturunun deklamasiya xüsusiyyətli və hərəkətli olması onun xarakterinin mülayim və bir qədər də müraciət formasında olmasına geniş imkan açır. Nəğmənin sözləri 4 və 5 hecadan ibarət olduğu üçün onun metrik ölçüsü və xanədaxili ritmik formulları müxtəlif şəkillərdə qurulmuşdur. "Rast" muğamının "Şikəsteyi-fars" şöbəsi əsasında səslənən "Xırman nəğməsi"nin diapazonu kiçik tersiya həcmindədir. Diapazonun məhdud olması nəğmənin qədimliyini bir daha təsdiqləyir. «Xırman nəğməsi»nin məqam-intonasiya təhlili sübut edir ki, bu nəğmə qədim ənənəyə malik nəğmələrdəndir.

Kişilərin ifa etdikləri əmək nəğmələri arasında "Çək şumla yeri" nəğməsi Qarabağ bölgəsində ən çox yayılmış nəğmələrdən olmuşdur:

Çək şumla yeri, durma daha, qaşqa kəlim çək!
Dırmıxlayaraq toxumları, mən də səpim çək!

Qarabağın Qubadlı və Füzuli bölgələrində qadınlar tərəfindən icra edilən "Xan-xan" tamaşası çox məşhur olub, bu tamaşada müxtəlif nəğmələr səsləndirilirdi.

Füzulidə icra edilən “Dəvəçi və biləndər” tamaşası da xalq tərəfindən çox sevilir və bu tamaşada səslənən nğəmələr xalqın dillər əzbərinə çevrilirdi.

Qarabağda fasiləsiz yağan yağışlar və davamsız quraqlıqlar xalqı müxtəlif qabaqlayıcı tədbirlər görməyə və müxtəlif mərasimlərin keçirilməsinə sövq edərdi. Bölgədə yağışı kəsmək və yağışı çağırmaq məqsədilə bəzi rituallar icra olunur və nəğmələr səsləndirilirdi. «Yağ yağışım» mövsüm nəğməsi yağışın çağrılması ilə bağlı yaranmış qədim nğəmələrdəndir. Kvarta intervalı ətrafında dövr edən mahnının məqam quruluşu «Segah» muğamının intonasiyaları əsasında olub, mayə səsi «si» səsi, istinad pərdələri «do», «re» pərdələridir. İnsanlar yağışı çağıraraq səslənirdilər:

Ay can, ay can torpağım, odda az yan torpağım.
İndi yağış yağacaq, sən düş islan torpağım.

“Yağ yağışım” nəğməsi səkkiz xanədən ibarət olub, kvadrat period formasında olan melodiyanın məzmununda yağışın çağırılması təsvir edilir.

Araşdırmalar nəticəsində Kəlbəcər və Zəngilan rayonlarından da müxtəlif folklor nümunələri toplanmışdır. “Qarabağı”, “Güllücə”, “Arazbarı”, “Gülüstanı”, “Əsgəranı” kimi bir çox oyun havaları Qarabağın gözəl təbiətə məxsus olan bölgələrinin adı ilə bağlıdır.

“Qarabağda bir dənəsən”, “Qarabağın yollarına düşəydim”, “Şuşa ceyranı”, “Xarı bülbül”, “Şuşalı” , “Laçın” xalq mahnılarında Qarabağın füsunkar təbiəti bir daha tərənnüm olunur.

Qarabağ aşıqlarının yaratdıqları havalar: “Qarabağ dübeytisi”, “Qarabağ kərəmisi”, “Qarabağ qaytağısı”, “Qarabağ gözəlləməsi”, “Qarabağ şikəstəsi”, “Qarabağ kəsməsi” kimi havalar aşıq sənətini daha da zənginləşdirmişdir.

Son illərdə Qarabağın musiqi folklorunun öyrənilməsi sahəsində müəyyən addımlar atılmağa başlamışdır.

Hələ, 2012-ci ildən etibarən Folklor İnstitutu Qarabağ layihəsi çərçivəsində “Qarabağ: folklor da bir tarixdir” toplusunu nəşr etdirməklə geniş oxucu kütləsinə təqdim etmişdir. Bu nəşrdə Qarabağ bölgəsindən çoxlu sayda bayatılar, laylalar, oxşamalar toplanmış, xalq mahnıları və xalq oyunlarından ibarət CD-lər buraxılmışdır. Elə həmin ildə Bakı şəhərində “Qarabağ folkloru: problemlər, perspektivlər” mövzusu ilə Respublika üzrə birinci Elmi Konfrans keçirilmişdir. Bu ənənənin davamı olaraq növbəti-2013-cü ildə Ağcabədi şəhərində “Qarabağ folkloru: problemlər, perspektivlər” adı altında ikinci Respublika Elmi Konfransı təşkil edilir. Konfransı davam etdirmək məqsədilə 2014-cü ildə Tərtər şəhərində “Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları” mövzusu ilə Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Konfransın materialları dərc edilərək elmi ictimaiyyətə və xalqa təqdim edilmişdir.

Beləliklə, Qarabağ bölgəsinin musiqi folklorunu araşdırarkən görürük ki, bu region qədim və zəngin musiqi folkloruna malikdir. Burada icra olunan əmək nəğmələrini müxtəlif növlərə ayırmaq mümkündür. Semantik təhlil baxımından

mahnıların metro-ritmik tərəfi böyük maraq doğurur. Sinkretizmin elementləri bir çox əmək mahnılarında öz əksini tapmışdır.

**Ədəbiyyat**

1. Kərimi S. Azərbaycan xalq mahnıları. I cild. Bakı, Öndər nəşriyyatı, 2005, 168 səh.
2. Дюшалиев К. Ш., Айтикеев С. Черты син-кретизма в киргизской народной песен-ной культуре // Музыка тюркского мира: Материалы Первого международного симпозиума. Алматы, 2009. С. 251.
3. Исазаде А. И. Азербайджанская народная музыка: Автореф. дис. д-ра искусствоведения. Киев, 1988. 46 с.
4. Сеидова С. М. Музыка в древних обрядах Азербайджана: на материале траурных песнопений: Автореф. дис. ... канд. искусство-ведения. Баку, 1981. 21 с.
5. Фархадова С. Т. Обрядовая музыка Азербайджана (на примере траурных песнопений и свадебных песен). Баку: Элм, 1991.130 с.
6. Дадашзаде К. Знаковая система дастана. Баку: Нурлан, 2004. 291 с.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**Nəsirova Cəmalə Tərlan qızı**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**AYTAC RAMIQ QIZI MƏMMƏDOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Aytacm803@gmail.com**

# OBRAZLARIN ÖYRƏDİLMƏSİ MƏSƏLƏSİNİN PROQRAM VƏ DƏRSLİKLƏRDƏ QOYULUŞU

**Açar sözlər:** məktəb, bilik, idrak, bədii ədəbiyyat, obrazlı təfəkkür
**Ключевые слова:** школа, знание, познание, художественная литература, образное мышление
**Key words:** school, knowledge, cognition, fiction, figurative thinking

Müasir məktəbdə müstəqil düşünməyi, qazandıqları bilikləri tətbiq etməyi, qarşılaşdıqları problemləri həll etməyi bacaran, saf mənəviyyatlı, təşəbbüskar, yaradıcı, demokratik ruhlu, humanist gənclər tərbiyə edilməsi sosial tələb kimi meydana çıxır. Orta məktəbi bitirən hər bir gənc bədii ədəbiyyatı, digər mənbələri oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı, fasiləsiz təhsilə hazır olmalıdır.

Orta məktəbdə tədris olunan fənlər sırasında xüsusi mövqeyi olan ədəbiyyat şagirdlərin mədəni inkişafını, cəmiyyətdə, ailədə rəftar qaydalarını, vətəndaşlıq borcunu, insanlıq şərəf və ləyaqətini formalaşdıran mühüm vasitədir. Şagirdlərin yaş, idrak, bilik səviyyəsinə uyğun seçilərək proqrama daxil edilmiş şifahi və yazılı ədəbiyyat nümunələri məhz bu vəzifələri həyata keçirməyə imkan verən bir kompleks təşkil edir . Müstəqil düşüncəli, yaradıcı, təşəbbüskar, cəmiyyətin mənafeyini düşünməyi, cəmiyyət quruculuğundakı nöqsanlara qarşı barışmaz olmağı, mütərəqqi yeniliyi vaxtında görməyi bacaran, onların dərinləşdirilməsində fəal iştirak edən, demokratik ruhlu, humanist şəxsiyyət yetişdirmək tələbi seçilmiş əsərlərin ideya-məzmununu şərtləndirmişdir.

Bədii ədəbiyyatı özünəməxsus məfkurə, təlim-tərbiyədə qüdrətli bir vasitə kimi dəyərləndirən metodika elmi onun tədrisinin ədəbi-bədii anlayışlar, estetik zövq, ədəbiyyat nəzəriyyəsi qaydaları səviyyəsində təşkilini də zəruri sayır. Buna görə də ədəbiyyat fənn kurikulmu tədris olunan hər bir əsərin ideya istiqaməti ilə yanaşı, bədii keyfiyyətlərinin, xüsusən dil-üslub incəliklərinin dərindən mənimsənilməsini və dəyərləndirilməsini ön plana çəkir.

Şagirdlər söz sənətkarlarımıza fərdi yanaşmağı bacarmalı, onları sevməli,ədəbiyyatımıza gətirmiş olduqları yenilikləri dərk etməlidirlər. Bu, bədii əsərlərin dərindən öyrənilməsi və qiymətləndirilməsi sayəsində mümkün ola bilər. Deməli, hər bir əsərin məzmunu, ideya-bədii keyfiyyətləri ədəbiyyat fənninin tədris edildiyi ilk sinifdən ciddi öyrənmə obyekti kimi dəyərləndirilməlidir. Təsadüfi deyildir ki, ədəbiyyat fənn kurikulumunda bədii mətnin oxusu, məzmununun

öyrənilməsi, təhlili üzrə zəruri bacarıqların formalaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Kurikulum islahatı ümumi təhsil islahatının mühüm tərkib hissəsi olub təlimin təşkili, məzmunu, strategiyaları və s. bağlı bir çox mühüm məsələləri ehtiva edir. Bu konseptual sənəd ənənəvi tədris proqramlarından daha mükəmməl, əhatəli və çoxcəhətli olması ilə fərqlənir. Bu sənədin ilk hazırlanan və müzakirəyə təqdim olunan bölməsi məzmun standartları olmuşdur. Ədəbiyyat fənn kurikulumunda əksini tapmış standartlar fənnin məzmununu, şagirdlərdə formalaşdırılmalı olan bacarıqları dolğun əhatə etməsi baxımından diqqəti cəlb edir. Bədii əsərin məzmun və təhlili ilə əlaqədar müəyyənləşdirilmiş alt standartların sinifdən-sinfə dərinləşdirilməsi və zənginləşdirilməsi bir məqsəd kimi seçilmişdir. Eləcə də şifahi və yazılı nitqin inkişaf etdirilməsi üzrə müəyyənləşdirilmiş məzmun standartları mükəmməl məzmunu, məntiqi ardıcıllığa malik olması ilə seçilir və bu istiqamətdə aparılan işin səmərəliliyinə əhəmiyyətli təsir edir.

Ədəbi qəhrəmanın oxucuya – şagirdə təsiri o vaxt mümkündür ki, onun xarakteri, davranış və əməlləri dərindən qavranılmış olsun. Lakin hələ bu da kifayət deyildir. Şagirdin ədəbi qəhrəman haqqında müstəqil fikri olmalıdır. Daha dəqiq deyilsə, şagird obrazın xarakter və əməllərinidəki müsbət və mənfi cəhətləri qiymətləndirməyi, obyektiv nəticə çıxarmağı bacarmalıdır. Metodik ədəbiyyatda deyildiyi kimi, obrazın nə iş gördüyünü, hansı əxlaqi-mənəvi keyfiyyətlərə malik olduğunu bilməklə kifayətlənmək olmaz; ədəbi qəhrəmanlar bütün cəhətləri ilə təhli edilməli, bütövlükdə qavranılmalı və qiymətləndirilməlidir. Bunun təlim prosesində gerçəkləşdirilməsi son dərəcə diqqətli, həssas, obyektiv olmağı tələb edir. Unudulmamalıdır ki, ədəbiyyat təliminin bir vəzifəsi də müsbət ideallı obrazı şagirdlərin gözündə böyütmək, tərbiyəvi təsirin nail olmaqdır. (6) Təlim prosesində şagirdlərin bilik və bacarıqları fəal, yaradıcı şəkildə mənimsəməsi, fənn üzrə əldə etdiyi bilikləri tətbiq etməsi və müstəqil yaradıcı düşünmə qabiliyyətlərinə yiyələnməsi faydalı metodlardan, iş növlərindən istifadəni zəruri edir. Məsələnin bu tərəfi ədəiyyat fənn kurikulumunda mühüm tələb kimi əks etdirilmişdir.

Yeni təlimi yanaşma məktəbdə şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsini vacib hesab edir. Təhsil sisteminin inkişaf etdirilməsi ilə bağlı dövlət sənədlərində milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü şəxsiyyət yetişdirilməsinin əhəmiyyəti xüsusi qeyd olunur. Bütün bunlar ədəbiyyat fənn kurikulumunun əsas istiqamətlərini təşkil edir.

Əsərin bütun komponentləri obrazlarla sıx bağlıdır. Əslində, onların hamısı obrazların formalaşmasına xidmət edən vasitələrdir. Yeni təhsil proqramının tələblərinə uyğun olaraq, məktəbdə obrazların öyrədilməsi, əsasən, aşağıdakı məsələləri əhatə edir:

1. Obrazın ictimai həyatla əlaqəsi;

2. Obrazda ifadə edilən idea-məzmun, problemlər. Siyasi, ictimai, əxlaqi və s. məsələlərin aydınlaşdırılması;
3. Obrazın xarakterinin yaradılmasında istifadə olunan ədəbi priyomlar: a) obrazın hərəkət və davranışı; b) müəllif xarakteristikası; c) obrazın tərcümeyi-halı; d) nitqi; e) portreti; ə) əşya və təbiət təsviri.
4. Şagirdin obraza münasibətnin müəyyənləşdirilməsi. (7)

Bu, məzmun standartlarının tələblərində də əksini tapmışdır. Standartların məzmunundan aydın olur ki, V-XI siniflərdə ədəbiyyat fənninin əsas obyekti bədii əsərlər, onlardakı obrazlardır. "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xətti əsərlərin öyrədilməsi zamanı iki əsas standart üzrə işlərin görülməsini tələb edir.

Bunlardan birincisi (1.1.) şagird "Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir", ikincisi isə (1.2.) "Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir" adlanır. Bu əsas standartların tələbləri o zaman reallaşmış olur ki, şagirdlər onların alt-standartlardakı bacarıqlara yiyələnsinlər (5, s. 321-340).

Deyilənlərdən aydınlaşır ki, bədii mətnlərin üzərində işi iki istiqamətdə aparmaq lazım gəlir: əsərin məzmununun öyrədilməsi və əsərin təhlilinin həyata keçirilməsi.Ədəbiyyat fənn kurikulumunda V-XI siniflərdə bədii əsərlərin obrazlar üzrə təhlili imkanları müvafiq standartlarda (1.2.2) öz əksini tapmışdır.

Təhlil dərslərinə, əksər hallarda, 1 saat vaxt ayrılır. Onların necə təşkili müəllimin metodik hazırlığından, pedaqoji ustalığından, şəraiti düzgün qiymətləndirməsindən, prosesə yaradıcı yanaşmasından asılıdır. Müəllim istəsə bu dərsi ya müzakirə (diskussiya), ya da tədqiqat yolu ilə apara bilər. "Dərsin maraqlı təşkili, şagirdlərin prosesdə fəal iştirakı, sərbəst mövqe bildirməsi, fakt və hadisələri, mövzu və ideyanı, obrazları dəyərləndirmədə şəxsi qənaətlərindən, təcrübələrindən, fikir və düşüncələrindən istifadə etməsi müəllimin işi təşkiletmə bacarığından asılıdır. Müəllim çalışmalıdır ki, təhlil dərsləri əslində həyat dərslərinə, ibrət dərslərinə çevrilsin. Məhz bu cəhətlərinə – möhkəmlətmə, tətbiq xarakteri daşımasına görə onlara deduktiv dərslər deyilir və əsərin öyrənilməsi başa çatır. Əlbəttə, bu prosesdə nəzəri anlayışların da mənimsənilməsi diqqət mərkəzində saxlanılır. Qruplara tapşırıqlar veriləndə janr xüsusiyyətləri, təsvir və ifadə vasitələri əlamət və xüsusiyyətlərinə görə nəzəri-praktik istiqamətdə işlər görülür". (6,s.56)

V-XI siniflər üzrə obrazların öyrədilməsi məsələsinə dərsliklərdəki münasibəti nəzərdən keçirək.

V sinif: Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.

Nizami Gəncəvi. "Kərpickəsən kişinin dastanı" halal zəhmətlə dolanan məğrur qoca ilə təkəbbürlü gənc obrazları. Dialoqdan çıxan əxlaqi nəticə. Və ya S.Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsi. "Qara torpaq və sarı qızıl" hekayəsini obrazların xarakterinə uyğun oxuyub, şərh etmək və s. məsələlərə diqqət yetirilir.

VI sinif: Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir. Nümunə olaraq, N.Süleymanovun "Birinci cığır" əsərini göstərə bilərik. Elxan, Kamran və Aslan obrazlarının xarakterik xüsusiyyətləri. Aslanın obrazının cəsarətinin əməlində təcəssüm olunması və s.

VII sinif: Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir. Məsələn, Süleyman Sani Axundov "Nurəddin" hekayəsi. Nurəddinin xarakterindəki başlıca cəhətlər aydınlaşdırılır. Əmiraslanla Gülpərinin oxşar və fərqli cəhətləri müəyyənləşdirilir. və s.

VIII sinif: Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir. Nizami Gəncəvinin "Sultan Səncər və qarı" hekayəsi. Qarı obrazı hansı cəhətlərinə görə diqqəti cəlb edir?, əsərdə hökmdar və onun məmurlarına münasibət necədir?, qarının sözləri ilə Sultan Səncər haqqında hansı təsəvvür yaranır? və s.

IX sinif: Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir. Mirzə İbrahimov "Talesiz insanlar" ("Gələcək gün" romanından parça). Həyatı və yaradıcılığı haqqında məlumat. "Talesiz insanlar" fəslində haqsızlığın hökm sürdüyü cəmiyyətdə sadə insanların taleyi. Musa kişi, Firidun obrazı.

X sinif: Davranış və əməllərinə,başqaları ilə qarşılıqlı münasibətinə,yazıçının mövqeyinə,digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. Nizami Gəncəvinin "İskəndərnamə" poemasından parça verilir. İskəndər və Nüşabə obrazlarının oxşar və fərqli cəhətləri aydışlaşdırılır. Daranın İskəndərlə müharibəsi, obrazların nitqi ilə əsas qayənin müəyyənləşməsi.

XI sinif: Obrazları xarakterik və əməlləri, yaşadıqları dövrdə sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. İlyas Əfəndiyev "Xurşidbanu Natəvan". Müəllifin yaxın keçmişimizə yeni baxışı. Əsərin mövzusu, ideyası. Natəvan mürəkkəb ictimai-siyasi şəraitdə xalqının, vətəninin təəssübünü çəkən insanların ümumiləşmiş obrazı kimi.

"Epik və dramatik əsərlərdə şagirdlər obrazların hərəkət və davranışlarını, daxili və xarici keyfiyyətlərini, əsərdəki yeri və mövqeyini, ifadə etdiyi əxlaqi-mənəvi dəyərləri düzgün dərk etməlidirlər. Unutmaq olmaz ki, müəllif yaratdığı obraz və ya obrazlar silsiləsi vasitəsilə bizə hansısa bir fikri təlqin edir. Əsərdə cərəyan edən əhvalat və hadisəni elə-belə, boş-boşuna danışmır. Ona görə də obrazların hər birinin fərdi keyfiyyətləri vardır və bu keyfiyyətlər şagirdlərə bəlli olmalıdır. Obrazların qarşılıqlı münasibətləri, intriqa və ya ziddiyyətlərin səbəbləri, hadisələrin gedişatı, müəllif mövqeyinin dərk edilməsi, obrazların hərəkət və davranışlarının motivləri diqqətlə araşdırılmalıdır". (5,s.255)

Dərslərin metodikası, şifahi və yazılı tapşırıqlar və yaradıcı tapşırıqlar sistemi elə işlənib hazırlanır ki, hər bir şagirdin təfəkkürünü, emosional obrazının inkişafını və nitq bacarıqlarının formalaşmasını təmin etsin. Müxtəlif növ tapşırıqlar, müstəqil

işlər şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına, tənqidi mühakimə yürütmək bacarığına zəmin yaradır.

Ədəbiyyat fənn kurikulumunda göstərilir ki, milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir. Şagird bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırmalı, məişət təsvirlərindən, nitqlərindən çıxış etməklə obrazlara münasibət bildirnməlidir. Məktəblilərin şifahi təqdimatlarda, nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə əsaslandırılmış tənqidi münasibət bildirməsi də mühüm təlim nəticəsi kimi qeyd olunur.

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)" (2013).
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. "Azərbaycan müəllimi" qəzeti, 8 sentyabr, 2009.
3. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968.
4. Veysova Z. Fəal/interaktiv təlim. Bakı, 2007.
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, ADPU nəşriyyatı. 349 s. 2019
6. Yusifov F. " Ədəbiyyat dərslərinin növləri" Aərbaycan dili və ədəbiyyat tədrisi 2021, № 3 (269), 49-62
7. https://naxcivanxeberleri.com/cemiyyet/31410-dbiyyat-drslrinin-tdrisind-obrazlarin-thlili.html


## XÜLASƏ


Müasir məktəbdə müstəqil düşünməyi, qazandıqları bilikləri tətbiq etməyi, qarşılaşdıqları problemləri həll etməyi bacaran, saf mənəviyyatlı, təşəbbüskar, yaradıcı, demokratik ruhlu, humanist gənclər tərbiyə edilməsi sosial tələb kimi meydana çıxır. Orta məktəbi bitirən hər bir gənc bədii ədəbiyyatı, digər mənbələri oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı, fasiləsiz təhsilə hazır olmalıdır.

Məktəb ədəbiyyat kursu şagird şəxsiyyyətinin, onun mənəvi aləminin, estetik zövqünün formalaşdırılmasında böyük imkanlara malikdir. Məktəblilər bədii əsərdə əks olumuş mürəkkəb hadisələri, həyati reallıqları dərk edib qiymətləndirməklə fəal həyat mövqeyinə yiyələnir. Bu mənada ədəbiyyat dərslərinə həyat və mənəviyyat dərsləri, aktiv idrak fəaliyyətinin təşkili növü kimi yanaşılmalıdır.

Ədəbiyyat dərslərində obrazlı bədii əsərlərin araşdırılması əsərin ümumən başa düşülməsi, əsərdə ideyanın aydınlaşdırılması baxımından mühüm prosesdir. Təhlil prosesində ədəbi əsərdəki obraz vasitəsilə şagirdlər həyatı dərk edir, müsbət insani

keyfiyyətləri, əxlaqi-didaktik məsələləri öyrənirlər. Bu mərhələ təkcə personajları öyrətmək üçün istifadə edilməməli, həm də bütövlükdə əsərin öyrədilməsinə xidmət etməlidir. Müəllif oxucuya çatdırmaq istədiyi ideyanı obraz vasitəsilə verir. Obraz bir növ ideya daşıyıcısı kimi qəbul edilir.

Elmi-metodik ədəbiyyatın təhlil edilməsindən məlum olur ki, məqsəd şagirdlərə bu yaxud da başqa obrazın xüsusiyyətlərini yox, bütövlükdə əsərin ideyasını, müəllifin niyyətini çatdırmaqdır. Başqa sözlə desək, obrazları araşdırarkən, vizuallar vasitəsilə işi təhlil etmək və anlamaqdır. Tədris prosesində bu mövzu çox vaxt unudulur. Başqa mühüm məqam isə odur ki, təsvirlərin təhlili prosesində obrazın səciyyəvi xüsusiyyətləri qeyd edilir, həyat və onun başqa obrazlarla əlaqəsi kimi mühüm məqamlar qeyd olunmur.

Şagirdlərdə bədii əsərləri obrazlara görə təhlil etmək bacarığının formalaşmasında ədəbiyyat dərslikləri böyük rol oynayır. Dərsliklərdə şagirdlərin mütaliə vərdişlərini inkişaf etdirməli, bədii ədəbiyyata maraq yaratmalı, onları tədqiqata və axtarışa sövq etməli, tədqiqatçılıq vərdişlərini inkişaf etdirməli, onlara milli və ümumbəşəri mənəvi dəyərləri aşılamalıyıq.

Göründüyü kimi,mövzu olduqca aktualdır və onun araşdırılması vacibdir.

**Айтадж Мамедова Рамик**

**Постановка вопроса обучения изображениям в программах и учебниках**

**РЕЗЮМЕ:**

В современной школе общественным требованием является воспитание молодых людей, способных самостоятельно мыслить, применять полученные знания и решать стоящие перед ними проблемы, чистых нравственных, предприимчивых, творческих, демократичных, гуманистичных. Каждый молодой человек, заканчивающий среднюю школу, должен уметь читать, анализировать, оценивать художественную литературу и другие источники, самостоятельно пополнять свои знания и быть готовым к непрерывному обучению.

Курс литературы имеет большие возможности в формировании личности учащегося, его духовного мира, эстетического вкуса. Школьники приобретают активную жизненную позицию, осмысливая и оценивая сложные явления и жизненные реалии, отраженные в художественном произведении. В этом смысле уроки литературы следует рассматривать как уроки жизни и духовности, как вид познавательной деятельности.

Рассмотрение изобразительных произведений искусства на уроках литературы – важный процесс с точки зрения общего понимания произведения и уточнения идеи в произведении. В процессе анализа через образ в литературном произведении учащиеся постигают жизнь, узнают

положительные человеческие качества, нравственные и дидактические вопросы. Этот этап следует использовать не только для обучения персонажей, но и для обучения произведению в целом. Автор дает идею, которую хочет донести до читателя через изображение. Образ воспринимается как некий носитель идеи.

Анализируя научно-методическую литературу, становится ясно, что цель состоит не в том, чтобы донести до учащихся особенности того или иного изображения, а идею произведения в целом, замысел автора. Другими словами, при изучении изображений необходимо анализировать и понимать работу через визуальные эффекты. Эта тема часто забывается в процессе обучения. Еще одним важным моментом является то, что в процессе анализа изображений отмечаются характерные черты изображения, но не упоминаются такие важные моменты, как жизнь и ее связь с другими изображениями.

Учебники литературы играют большую роль в формировании у учащихся умения анализировать художественные произведения по образам. В учебниках мы должны развивать у учащихся навыки чтения, формировать интерес к художественной литературе, побуждать их к исследованиям и поискам, формировать исследовательские привычки, прививать им национальные и общечеловеческие нравственные ценности.

Тема статьи достаточно актуальна и затронуты вышеперечисленные вопросы.

**Aytaj Mammadova Ramik**

**Setting the issue of teaching images in programs and textbookstextbooks**
**SUMMARY**

In the modern school, it is a social demand to educate young people who are able to think independently, apply the knowledge they have gained, and solve the problems they face, who are pure moral, enterprising, creative, democratic, and humanistic. Every young person graduating from high school should be able to read, analyze, evaluate fiction and other sources, increase their knowledge independently, and be ready for continuous education.

The literature course has great opportunities in shaping the student's personality, his spiritual world, and his aesthetic taste. Schoolchildren acquire an active life position by understanding and evaluating the complex events and life realities reflected in the artistic work. In this sense, literature lessons should be treated as life and spirituality lessons, as a type of cognitive activity.

Examining figurative works of art in literature classes is an important process in terms of general understanding of the work and clarification of the idea in the work. In the process of analysis, through the image in the literary work, students

understand life, learn positive human qualities, moral and didactic issues. This stage should not only be used to teach the characters, but also to teach the work as a whole. The author gives the idea he wants to convey to the reader through the image. The image is perceived as a kind of idea carrier.

Analyzing the scientific-methodical literature, it is clear that the goal is not to convey to the students the characteristics of this or that image, but the idea of the work as a whole, the intention of the author. In other words, when examining images, it is to analyze and understand the work through visuals. This topic is often forgotten in the teaching process. Another important point is that in the process of analyzing the images, the characteristic features of the image are noted, but important points such as life and its relationship with other images are not mentioned.

Literature textbooks play a major role in the formation of students' ability to analyze artistic works according to images. In textbooks, we should develop students' reading habits, create interest in fiction, encourage them to research and search, develop research habits, and instill national and universal moral values in them.

The topic of the article is quite relevant and the issues listed above are touched upon.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Soltan Hüseynoğlu tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAMILLA MƏHƏRRƏMZADƏ**
***Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi***
E-mail: tamilla_filologiya@mail.ru

# MƏMMƏDAĞA SULTANOVUN POEMALARI

## GIRIŞ

*İlk mətbu əsərini ("Sənət məktəbi" şeiri) 1926-cı ildə "Gənc işçi" qəzetində nəşr etdirən Məmmədağa Sultanov ötən əsrin 30-cu illərində mətbuatda tez-tez çıxış edir, "M.Sultanzadə", "M.Sultan", "M.S." imzaları ilə dərc olunan əsərləri ilə dövrün ədəbi tənqidinin diqqətini özünə cəlb edirdi. Sonralar daha çox "M.Soltan" imzası ilə tanınan müəllif poeziya ilə yanaşı, bədii nəsr, publisistika, bədii tərcümə və dramaturgiya ilə də məşğul olmuşdu. Lakin Böyük Vətən Müharibəsindən sonra o, bu sahədə olan istedadını klassik farsdilli ədəbi irsimizin bədii tərcüməsinə yönəltmiş, Xaqani Şirvani, Nizami Gəncəvi, Abbasqulu ağa Bakıxanov, Mirzə İsmayıl Qasir, Mirzə Fəqir Ordubadi və başqalarının əsərlərini orijinaldan Azərbaycan dilinə çevirən alim-şair kimi tanınmışdır.*

Məmmədağa Sultanovun yaradıcılığında poema janrının da özünəməxsus yeri var. Bu janrda yazdığı ilk əsərləri lirik poema üslubunda qələmə alsa da, onun poemaları içərisində qəhrəmanları real həyatdan alınan, ötən əsrin əvvəllərinin hadisələrini canlandıran oçerk poemalar üstünlük təşkil edir. Müəllif şeirlərində olduğu kimi poemalarında da fəhlə sinfinin, yeni sosialist reallıqlarının təsvirinə üstünlük verir, hakim ideologiyanın tələblərinə uyaraq sovet rejiminin "nailiyyətlər"ini tərənnüm edirdi. Elə buna görə də onun 30-cu illərdə qələmə aldığı poemalarında təbiət təsvirləri də ideologiyaya xidmət edirdi. Dəniz də, çöllər də kapitalizmlə savaşır, sosialist ideallarının qələbəsinə səsləyirdi.

Akademik İsa Həbibbəyli "Sosialist realizmindən milli istiqlaladək" başlıqlı məqaləsində bu dövrün ədəbi mənzərəsini belə xarakterizə edir: *"Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə dəyişən cəmiyyət ədəbiyyatın da istiqamətinə öz təsirini göstərmişdir. Başlanğıc mərhələdə, yəni 1920-1930-cu illərdə yeni ideologiya ilə klassik realist və romantik ənənə yanaşı fəaliyyət göstərmişdir. Klassik yazıçılar yeni dövrün tələblərinə uyğunlaşa bilmədikləri və ya bir çox hallarda uyğunlaşmaqda maraqlı olmadıqları üçün onların XX əsrin əvvəllərində yüksələn xətlə inkişaf etmiş yaradıcılığında 20-30-cu illərdə nəzərəçarpacaq bir durğunluq, gözləmə mövqeyi, ümidsizlik, bədbinlik kimi motivlər nəzərə çarpmışdır"* [1, s. 8]. Bunun əksinə olaraq, gənc nəsil, xüsusilə də işçi sinfinin nümayəndələri yaranmış boşluğu doldurmağa çalışır, yeni ədəbi tələblərə cavab verən nisbətən iri həcmli əsərlər yaratmağa cəhd edirdilər. M.Sultanovla eyni vaxtda elə "Gənc işçi"nin səhifələrindən bədii yaradıcılıq aləminə qədəm basmış Mikayıl Müşfiqin "Vuruşmalar", "Qaya", "Səhər" kimi poemaları da məhz bu illərdə qələmə alınmışdı.

M.Soltanın 1932-ci ildə yazdığı "İliç buxtası" da belə yaradıcılıq təcrübələrindəndir. Lirik poema janrında qələmə alınan əsərdə "Təbiət və biz", "Buxtada", "Yanğın", "10 il" kimi parçalar vahid ideyanın – vəhşi təbiətin insana ram olması idealının həyata keçməsi təqdiminə xidmət edir:

*Sarılaraq aramsız dəyişən dalğalara*
*Bilirəm çox böyükdür, genişdir bu təbiət.*
*Bəzən gözəl və bəzən dönər qasırğalara,*
*Yaradar ağla gəlməz, dəhşət sovuran qüvvət ...*
*İşçi: Bu kiçik "zəif" "aciz" görülən insan*
*Döyüşlər meydanında ilk açarkən gözünü.*
*Qalib çıxınca qədər döyüşür yorulmadan*
*Dəyişir təbiəti və dəyişir özünü.*
*Bu xislət işçilərə verir böyük istedad,*
*Odur ki tarix boyu dəyişir, geniş həyat* [8, s. 20].

Əsəri iki qəhrəmanlı poema oçerk adlandırmaq olar. Bunlardan biri tarixi şəxsiyyət neftçi Nəzərov Afanasi, digəri isə Buxtu salam – İliç buxtasıdır. 1925-ci ildə neft hasilatı məqsədilə Xəzərdə yenidən qurulan İliç buxtasının keçmişi haqqında Afanasi Nəzərov gənclərə məlumat verir. Onun Nobellər tərəfindən yaradıldığını, o zaman ibtidai buruqlarla təchiz edildiyini, bütün mühəndislərin burada neft hasilatının qeyri-mümkün olmasını söyləməsinə rəğmən, artıq sovet dönəmində mühəndis Cəlalovun inadkarlığı sayəsində neftçilərin yerin dərin qarlarını yarıb qara qızılı aşkara çıxardığını söyləyir.

Poemanın "Yanğın" adlı parçasında şair mədəndə baş verən fəlakəti dolğun bədii boyalarla təqdim edir. Neft buruğundakı yanğını qara geyimli qartalın atəşlə qanadlanmasına, yanğınsöndürənləri isə o qara quşu ram edən ovçulara bənzədərək yazır:

*Buruq bir gün motordan qığılcım qopararaq*
*Qara maye şəklində cəhənnəmə atlandı...*
*Alovdan şəhpər açdı buxtanın fəzasına.*
*Qara geyimli qartal atəşlə qanadlandı.*
*Susuz bir ovçu kimi dilini çıxararaq,*
*Yüksəklərdə "su" deyə uçdu böyük yoxuşu.*
*Lakin yanğın dəstəsi susdurarkən bu quşu*
*Yenə güldü göylərdə şaqraq səsli qara qan*
*Yenə ətrafı sardı qara geyimli fontan* [8, s. 21].

Mətbuatda M.Soltan imzası ilə 1932-ci ildə dərc olunan digər poema oçerk "Cəbhə" adlanır. Əsər Polad adlı gəncin həyat tarixçəsini nəql edir. Əsərdə Poladın dili ilə Birinci Cahan Hərbi təsvir edilir. Müəllif vətəndaş müharibəsi adı altında on minlərlə insanın necə qətlə yetirildiyini baş qəhrəmanının uşaqlıq xatirəsi əsasında canlandırıb belə təsvir edir:

*Gərilərmiş başlarda, ölümün qanadları,*
*Başlar üstə yağırmış yağış kimi güllələr.*
*Yağmadaymış ölümün qara buludlarından.*
*Sifətlərə ölümlə vurularmış şillələr...*
*Küçələrdə axarmış su yerinə qara qan.*
*Cəsədlərdən yaranmış səhralarda qanlı dağ.*
*Küçələrdə ölülərdən keçmək mümkün deyilmiş.*
*Oğul, ata, anadan bilməzmiş xəbər, soraq.*
*Laxtalanmış qan gölü ölülərlə əkilmiş* [3, s. 41].

Fikrimizcə, M.Sultanov məqamdan istifadə edib ermənilərin 1918-ci ildə xalqımıza qarşı törətdiyi soyqırımı təsvir edir, yaxud ən azından müharibə dəhşətlərini təqdim edərkən Bakının o zaman üçün yaxın keçmişində baş vermiş həmin hadiəslərə əsaslanır. Lakin ənənəyə sadiq qalaraq ermənilərin həyata keçirdiyi soyqırım hadisəsini sinfi mübarizə pərdəsi altında gizlətməyə çalışırdı.

Bu o dövrdə bir ənənə idi. Mustafa Quliyev hələ 1927-ci ildə çap etdirdiyi "Azərbaycanda Oktyabr düşmənləri" əsərində ermənilərin öz havadarlarının dəstəyi ilə Bakıda və Azərbaycanın digər qəzalarında törətdikləri qırğınları sinfi zəmində baş verən milli qarşıdurma kimi qələmə verirdi: *"Erməni burjuaziyası Bakı şəhərində toplanmış erməni hərbi qüvvələrindən istifadə edərək daşnaklar tərəfindən idarə edilən milli qüvvələr vücuda gətirdi. Azərbaycan bəylər və dükançıları da onlar kimi təcili bir surətdə öz milli dəstələrini təşkil edir və bunları cəbhədən qayıdan hərbi hissələrdən aldıqları silahlar ilə təchiz edirdilər. Burjuaziya bu kimi qüvvənin arasında toqquşma vücuda gətirərək milli qırğına səbəb oldu"* [2, s. 8].

Əsərdə ata-anasını belə qanlı qırğınlardan birində itirən, özgə yuvada bəslənən bir quşcuğaza bənzədilən Polad sovet ideologiyasının carçısı olan rəhbər obrazı ilə qarşılaşdırılır, şair məhz onun dilindən Polada öyüd-nəsihət verir. Əsərdə Poladın sevgilisi Sona da intiqam atəşi ilə alışıb-yanan, cəbhələrə atılıb sinfi düşmən üzərində qələbə əldə etmək istəyən gəncə tövsiyə verir. Sovet ideologiyasının tələblərindən çıxış edən müəllif Sonanın dili ilə:

*Cəbhə deyilmi kolxoz və nəhəng tikilişlər?*
*Cəbhə deyilmi bizdə yüksələn böyük işlər?* – deyir [4, s. 23].

Müəllif oçerk tipli poema janrında yaradıcılığını davam etdirərək "Əjdər" adlı əsər yazır və poema 1933-cü ildə dərc olunur. Bu əsərdə də ənənəyə uyğun olaraq baş qəhrəman sosializm uğrunda aparılan döyüşlərdəki mübarizəsini əmək cəbhəsində davam etdirir. Əjdərin poladəritmə zavodundakı zəhmətinin təsviri obrazlılığı ilə daha çox Nizami Gəncəvinin poemalarındakı ustaların, xüsusən də Fərhadın əməyinin bədii nəqlini xatırladır:

*O uzaq yerlərdən bura uçmuşdu,*
*O nəhəng zavodda sanki xam quşdu.*
*Alovlar yaxırdı xam şəhpərini,*
*Qızarmış metallar əzilərdi hər*

*Qaldırıb vurarkən çəkiclərini.*
*Zövq alır çırpınan qəlbilə Əjdər*
*Gurlayan ocağın nərələrindən,*
*Qığılcım sıçrardı zərbələrindən.*
*O, heç vaxt bıkmadan və boş durmadan*
*Tökürdü torpağa oddan incilər.*
*Getməzdi işini sona vurmadan*
*Sevirdi Əjdəri bütün işçilər* [9, s. 11].

Əsərin mütərəqqi cəhətlərindən biri də müəllifin işçi gəncləri savada-maarifə çağırmasıdır. O, baş qəhrəmanının simasında savadsız insanı *"qanadsız quşa"* bənzədir, necə ki, atəşsiz şam alışa bilməzsə, Əjdər kimi gənclərin də savad almadan yeni cəmiyyətdə inkişaf edə bilməcəyini deyir. Lakin hakim ideologiya dərhal araya girir, Əjdərə yolgöstərən Hadı adlı bir təcrübəli kommunist obrazı meydana çıxıb, ona Lenin ideallarından siyasi dərs verməyə girişir.

Əsər dövrün koloritini bizə təqdim edir. Məsələn, poemadan 30-cu illərdə gənc komsomolçuların *"yunqştorm"*dan [1] xüsusi uniforma geyindiyini öyrənirik. Eyni zamanda şair maraqlı keçid edərək baş qəhrəmanının xatirəsində inqilabdan öncə muzdur kəndlilərin acınacaqlı həyatını təsvir edir. Zamanının ədəbi ənənəsinə sadiq qalaraq ağalar və nökərlər qarşıdurmasını əsərə daxil edir:

*Budur, o, inəyi tövləyə saldı,*
*Cumaraq irəli atıldı yenə*
*Canavar baxışlı vəhşi ağası,*
*Yenə də əzildi qol-qabırğası.*
*Yenə də hər günkü iş oldu təkrar*
*Yenə də səsləndi göydə qamçılar.* [9, s. 13].

Rəsul Rzanın "Lenin" poeması Azərbaycan ədəbiyyatında proletariatın "ölməz" lideri haqqında ən möhtəşəm əsər hesab olunursa da, M.Sultanovun 1933-cü ildə dərc etdirdiyi "Lenin bayrağı altında" adlı kiçik lirik poeması bu mövzuda qələmə alınan ən mükəmməl əsərlərdən biridir desək, yəqin ki, səhv etmərik. Mövzu və məzmun baxımından əsər bədii dəyərini itirsə də, sənətkarlıq cəhətdən dövrünün mükəmməl sənət incilərindəndir. Şair elə şeirin ilk bəndində belə deyir:

*Nə yazsam, deyildir layiq o ada*
*Yazmasam, bu daha ağır qəbahət.* [5, s. 34].

V.İ.Leninin məşhur "Oxumaq, oxumaq, yenə oxumaq", – devizini xatırladan müəllif şeirdə onun əsərlərini mütaliə etdiyini, öyrəndiyini maraqlı keçidlərlə ifadə edə bilir:

*Oxudum, beynimə sarıldı saplar*
*Bu möhkəm saplarla şeir toxudum.*
*Göründə şeirimin mühitini dar,*

[1] *Veymar Almaniyasında Alman Kommunist Partiyasına yaxın gənclər təşkilatıdır.*

*Sönməyən həvəslə bir də oxudum.* [5, s. 34].

M.Sultanovun tarixi şəxsiyyət haqqında növbəti nəzm əsəri Mirzə Ələkbər Sabirin vəfatının 25 illiyinə həsr etdiyi "Sabirə" (1936) poemasıdır. O, maraqlı üsula əl atır, qəhramanı haqqında təəssürat əldə etmək üçün onun əsərlərini mütaliə etmək prizmasından çıxış edir. Poema lirik qəhrəmanın "Hor-hopnamə"ni oxuması ilə başlayır:

*Qarşımda açılan "Hop-hopnamə"ni*
*Oxurkən, dumanlı bir xəyal məni*
*Aparır keçmişin dərinliyinə.*
*Sözlərin, Sabirim, sanki bir iynə*
*Olaraq düşmənə sancılır, batır,*
*Gülüşlər içində dostu ağladır.*
*Hər sətir dalından görürəm səni,*
*Hər kəlmən daldırır xəyalə məni.*
*Baxaraq xalqımın cəhalətinə*
*Gülüşlər içində göz yaşı tökdün,*
*Dözmədin dostunun rəzalətinə*
*İti bir xəncərlə bağrını sökdün* [6, s. 4].

Şair oxumaq priyomundan istifadə edib Sabirin satiralarının bütün tənqid hədəflərini bir-bir sadalaya bilir, beləliklə də, onun yaşadığı məhrumiyyətlərin, mənəvi iztirablarının səbəblərini açıqlayır, onun ədəbiyyatımızdakı yerini və çəkisini göstərib, sağlığında xalqı tərəfindən layiqincə qiymətləndirilmədiyinə heyfislənir. Əsəri aşağıdakı nikbin notlarla bitirir:

*Ölüm çox həyatı yenə biçəcək,*
*Lakin ölməyəcəkdir böyük insanlar,*
*Təbiət durduqca yaşayıb onlar.*
*Bəşər səmasında açıb kəhkəşan,*
*Səadət yolunu verərək nişan,*
*Bu ölməz insanlar sırasında bir*
*Sönməyən ulduz tək işıqlanacaq,*
*Qəlbinin odilə daim yanacaq*
*Göz yaşı içində güləcək Sabir* [6, s. 4].

Ümumiyyətlə, M.Sultanovun əsərlərində belə maraqlı keçidlər kifayət qədərdir. Bu onun daim bədii axtarışda olduğunun göstəricisidir. Məsələn, şair-yazıçı 1936-cı ildə dərc etdirdiyi "Onun həvəsi" oçerkini Ruqiyyə Allahverdizadə adlı gənc idmançı qızın redaksiyaya gəlişi, ona qəzetdə çap etdirmək üçün bir məqalə təqdim etməsinin təsviri ilə başlayır. Müəllif özü ilə Ruqiyyə arasında dialoqdan sonra onun məktubunu oxucuya təqdim edir. Bu yazı ilə o, Fatma Əliyeva, Həqiqət Qaziyeva kimi gənc təyyarəçi qızlarımızı oxucusuna tanıdır. Daha sonra Ruqiyyənin yazdığı şeiri təqdim edib, Azərbaycan qızlarının inqilabdan qabaqkı acınacaqlı həyatını, Mirzə Cəlil tək klassiklərimizin ifşa etdiyi: erkən nikaha vadar edilmə, ailə

zorakılığına məruz qalma kimi halları şeirə daxil etməklə müasiri Cəfər Cabbarlının "Sevil" əsərində olduğu kimi haqqı tapdanan qadının mənəvi azadlıq əldə etdikdən sonra qazandığı nailiyyətlərini oxucusuna çatdıra bilir:

*İndi mənim uçmağa var həvəsim.*
*Cəbhələrə cəsarətlə getmək üçün,*
*Ölkəmizi müdafiə etmək üçün*
*Gurlasın təyyarədə səsim* [7, s. 3].

Bu şeir parçasından Azərbaycan da daxil olmaqla SSRİ-nin heç də yaxınlaşmaqda olan Böyük Vətən Müharibəsinə hazırlıqsız yaxalanmadığı da bəlli olur.

Onu da qeyd etmək yerinə düşər ki, 1936-cı ilin yanvarında Moskvada Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 15-ci ildönümü münasibətilə keçirilən rəsmi qəbulda Bataysk hərbi aviasiya məktəbinin məzunu, 21 yaşlı Sona Nuriyeva respublika əməkçiləri adından çıxış etmiş və İ.Stalinə məktub təqdim etmişdi. Haqqında danışılan əsərin də həmin hadisədən ilhamlanaraq yazıldığını güman etmək olar.

**Nəticə**

Bu məqalədə Məmmədağa Sultanovun 1932-ci ildən II Cahan savaşına qədər mətbuatda dərc olunan poemalarını təhlil etdik. Müəllifin müxtəlif illərdə bir-birinin ardınca dövri mətbuatda dərc olunan "İliç buxtası", "Cəbhə", "Əjdər", "Lenin bayrağı altında", "Sabirə" və "Onun həvəsi" kimi əsərlərinin daha çox lirik poema oçerk olduğunu təsbit etdik. Daha çox M.Soltan imzası qələmə alınan bu əsərlərin dövrün ədəbi tendensiyasına uyğun olaraq poema janrında yazıldığını və sovet ideologiyasının bədii ədəbiyyat qarşısında qoyduğu zəhmət adamlarının əmək cəbhəsində necə xarüqələr yaratdığını təsvir etmək tələbindən irəli gəldiyini müəyyən etdik. Müəllifin bu janrda olan əsərlərində etdiyi ricətlər, yaxın tarixi keçmişə səyahət, təbiət hadisəsini bədii obraz səviyyəsinə qədər yüksəltmək, öz fikirlərini yaratdığı obrazın dili ilə təqdim etmək, dövri mətbuatdan oxuduğu mühüm siyasi hadisələri və maraqlı həyat faktlarını bədii əsərə gətirmək, hətta əsərin əsas mövzusuna çevirə bilmək kimi bədii üsul və vasitələrdən istifadəsini təqdim etdik. M.Sultanovun 30-cu illərdə işıq üzü görən poemalarını xronoloji ardıcıllıqla araşdırdıqca onun sənətkarlıq məharətinin necə püxtələşdiyini də göstərmiş olduq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Həbibbəyli, İ. Sosialist realizmindən milli istiqlaladək (Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri) / 525-ci qəzet, – 2017, 6 yanvar. – s. 8;10.

2. Quliyev, M. Azərbaycanda Oktyabr düşmənləri, – Bakı: Azərnəşr, – 1927, – s. 55

3. Sultanov, M. Cəbhə // – Bakı: Hücum. – 1932. № 10-11. – s. 41.

4. Sultanov, M. Cəbhə // – Bakı: Hücum. – 1932. № 12. – s. 23.

5. Sultanov, M. Lenin bayrağı altında // – Bakı: Gənc bolşevik. – 1933. № 1. – s. 34.
6. Sultanov, M. Sabirə // – Bakı: Gənc işçi. – 1936, 20 dekabr. № 244. – s. 4.
7. Sultanov, M. Həvəs // – Bakı: Gənc işçi. – 1936, 5 oktyabr. № 183. – s. 3.
8. Sultanov, M. İliç buxtası // – Bakı: Hücum. – 1932. № 7-8. – s. 20-21.
9. Sultanov, M. Əjdər // – Bakı: Hücum. – 1933. № 1-2. – s. 11-13.

**Tamilla Məhərrəmzadə**

**Məmmədağa Sultanovun poemaları**

*Xülasə*

Məqalədə Məmmədağa Sultanovun 1932-ci ildən II Dünya Müharibəsinə qədər mətbuatda dərc olunan poemaları təhlil edilib. Müəllifin müxtəlif illərdə bir-birinin ardınca dövri mətbuatda dərc olunan "İliç buxtası", "Cəbhə", "Əjdər", "Lenin bayrağı altında", "Sabirə" və "Onun həvəsi" kimi əsərlərinin daha çox lirik poema oçerk olduğu təsbit edilib. Daha çox M.Soltan imzası qələmə alınan bu əsərlərin dövrün ədəbi tendensiyasına uyğun olaraq poema janrında yazıldığını və sovet ideologiyasının bədii ədəbiyyat qarşısında qoyduğu zəhmət adamlarının əmək cəbhəsində necə xarüqələr yaratdığını təsvir etmək tələbindən irəli gəldiyi müəyyən edilib. Müəllifin bu janrda olan əsərlərində etdiyi ricətlər, yaxın tarixi keçmişə səyahət, təbiət hadisəsini bədii obraz səviyyəsinə qədər yüksəltmək, öz fikirlərini yaratdığı obrazın dili ilə təqdim etmək, dövri mətbuatdan oxuduğu mühüm siyasi hadisələri və maraqlı həyat faktlarını bədii əsərə gətirmək, hətta əsərin əsas mövzusuna çevirə bilmək kimi bədii üsul və vasitələrdən istifadəsi təqdim edilib. M.Sultanovun 30-cu illərdə işıq üzü görən poemalarını xronoloji ardıcıllıqla araşdırdıqca onun sənətkarlıq məharətinin necə püxtələşdiyi də göstərilib.

**Açar sözlər:** Məmmədağa Sultanov, poema yaradıcılığı, oçerk, sosializm realizmi

**Tamilla Maharramzade**

**Mamedaga Sultanov's poems**

*Summary*

The presented article written by Mamedaga Sultanov analyses the poems published in the press from 1932 to Great Patriotic War. It was determined that the author's works such as "Mich Bay", "Front", "Ajdar", "Under the banner of Yenin", "Sabira", "His wish" published in periodicals in different years are more lyric poem essays. There are some (more lyric) determinations that these works written as M.Soltan signature were written in the poem genre in accordance with the literary trend of the time and they arose out of the demand of the Soviet ideology to describe how hardworking people created miracles on the labour front. The works of the

author inh this genre, travelling to the level  if an artistic image, presenting his ideas in the language of the image he created to bring important political events and interesting life facts that he had read firan periodicals into an artistic work even to the main theme of the work. By examining M.Soltan's poems published in the 1930s in chronological order, it was also shown how his artistic skills natured.

**Key words:** Mamedaga Sultanov, poem creation, essay, socialist realism.

**Тамилла Магеррамзаде**

**Поэмы  Мамедага Султанова**

*Резюме*

В статье анализируется поэмы М.Султанова  опубликованные в прессе с 1932 года до Великой Отечественной Войны.

Установлено, что такие авторские произведения как «Бухта Ильича», «Фронт», «Аждар», «Под флагом Ленина», «Сабира» и «Его желание» изданные друг за другом в разные годы являются в большей степени лирическими стихотворными очерками. Имеется выводы, что произведения авторство которых подтверждается подписью М.Солтан, созданы в жанре стихотворений, которые соответствуют литературной тенденции того времени, исходящей из потребности советской идеологии отражать  в художественной литературе успехи рабочих людей на фронте и в труде.

Произведения автора в этом жанре предполагают использование художественных приёмов и средств, путешествие в недавнее прошлое, возведение природного явление на уровень художественного образа, умение переносить важные политические события и интересные факты из жизни прочитанные из периодических изданий в художественное произведение и даже превращать их в основную тему произведения. При последовательном осмотре в хронологическом порядке произведении М.Султанова опубликованные в 1930 х. годах так же показано как созревало его мастерство.

**Ключевые слова:** Мамедага Султанов, произведение поэмы, очерк, социальный реализм.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: Akademik Rafael Hüseynov**
**tərəfindən  çapa tövsiyə olunmuşdur**

**İMANOVA KƏMALƏ XALİD QIZI**
Baş müəllim
Xarici dillər kafedrası
Azərbaycan Tibb Universiteti, Mərdanov qardaşları 58
İmanova.kamala@outlook.com

## PROBLEM BEHAVIORS FROM STUDENTS

**SUMMARY**

Behavior problems at school or university interfere with lessons and disturb other students. These problems often overwhelm teachers, particularly novices, and some consider them the most difficult aspect of a teacher's work day. There is no one cause of classroom disruptions, so the resources here are intentionally broad in scope. Students may be acting out of frustration, boredom, mental health issues, or a variety of other impulses, and their actions may reflect aspects of their personal lives as much as they do the classroom environment.

However, there are a variety of proactive steps that faculty can take to minimize the occurrence of these issues, and to be prepared for those situations that do emerge.

Children who exhibit behavior problems invariably require extra attention, which places strain on teachers and slows the pace at which lessons are offered and completed. Oftentimes, students will misbehave when they are not engaged or not motivated. By using positive reinforcements, you can redirect students' misbehavior. Try praising positive behavior, teaching politeness, offering rewards, and encouraging your students. Another way to improve student behavior is restructuring the way you teach. Do this by rearranging your classroom, giving hands-on assignments, showing a daily agenda, and giving students breaks.

Perhaps the most difficult task for an instructor is assessing a classroom behavioral issue in order to diagnose an appropriate response. Not all situations will be obvious as threats to the safety of you or others, nor will all minor distractions necessarily go away on their own. The difference between a disruption and danger can be difficult to judge in the moment, but the following resources can help you prepare yourself for making such an assessment and reacting in a measured way.

Finding the right strategies to inspire your students and help them learn self-control can go a long way in helping you learn how to deal with behavior problem students.

**Key words : behavior, problem, strategy, cause, action.**

Being a teacher can be a very fulfilling profession. However, it can also be a very challenging on at times, too.

From all the paperwork, grading, planning, and everything else that is needed to serve your class and help them learn. One other thing that can really challenge us as teachers is our students, particularly those with behavior problems.

If you feel at a loss about what to do to help your students learn and manage their behaviors, you're not alone. School-wide behavior programs can help, but there are other things that you as the teacher can be doing with your students.

According to statistical odds, it is likely that approximately 10% of your school's or universities population is facing serious mental health problems, violence or abuse at home, neglect, food uncertainty, or trauma.

When students are facing severe trauma or stressors, their brains aren't able to learn. The key is to learn how to reach beyond these stressors that children are facing and help them learn how to regulate their behaviors and emotions. This is when the learning will be able to occur.

Reports of problematic behaviors are on the rise nationally, not only in the classroom but in society at large.

Some of these immature, irritating, or thoughtless behaviors or "**classroom incivilities**" include:

- lateness or leaving early
- inappropriate cellphone and laptop usage in class
- side conversations
- disregard for deadlines
- grade grubbing
- sniping remarks
- cheating

These behaviors are not just instructors' pet peeves; they have **real costs** including:

- distracting other students and instructor in class
- reducing student participation
- lowering other students' and instructor's motivation in or out of class
- affecting fairness in grading
- using instructor or TA time unproductively
- feeling disrespected as a fellow learner or authority figure

**4 Types of Difficult Students**

Here are some of the main different types of difficult students:

1. **Disruptive students**: As their name suggests, disruptive students are those who are frequently disrupting your teaching or the other students in the classroom. The exact behaviors that are displayed, can vary depending on the student, but may

include calling out, walking around the room, interrupting others from doing their work, and more.

2. **Defiant students:** Defiant students are those who refuse to follow your directions. The level of defiance, again, can vary, but may include refusing to complete their work, refusing to follow classroom rules, or just a general refusal to do anything you ask. This level of defiance can also vary throughout the day or week, even for the same student.

3. **Inattentive students**: Inattentive students are distracted and not engaged in learning. It is probably clear to you that they aren't paying attention, but you can't seem to get them to follow along with your lessons.

4. **Students displaying apathy**: Apathy refers to a lack of caring. Apathetic students may convey to you that they just don't care how well they do in school, whether they follow the rules, or about any of the consequences you bring up.

**7 Common Reasons Behind the Destructive Behavior**

Unfortunately, there is not just one reason that students are disruptive or destructive in class. Here are some of the potential cause of behavior problems in your students:

1. Anxiety
2. Processing disorders
3. Learning disorders
4. ADHD
5. Depression
6. Past or current trauma
7. Autism

**How to Improve Communication in Class and Prevent Difficult Situations**

Now that we've discussed some of the possible reasons behind the behavior of your students, you may be feeling at a loss for how to regain control of your classroom and help your students focus on the lesson.

As a teacher, your job is to coach your students and teaching them how to act responsibly. This is a big task and there is no 'one' thing you need to do. Every student is different and will require individual attention and support, but here are a few things you can do that should help improve your classroom and how your students behave:

- Let your students know that their emotions are important and valid. Help them learn how to talk about and describe their emotions using clear and direct language, and in a calm manner.
- Understand that you will need to get to the underlying cause of your students' misbehavior to really address or extinguish negative behaviors, such as bullying, defiance, or aggression.

- Explicitly teach and model conflict resolution skills to your students. Examples include teaching students to take deep breaths or count to 10 before responding, modeling showing respect and empathy when sharing a problem or concern, and repeating what the other person you're speaking with said.
- Focus a lot of your attention on rewarding the students who are doing the right things. Giving them positive attention can help behavior problem students see that they can still get the attention they're seeking when they too listen and follow the expectations.
- Set clear expectations for your students and stick to them. Make sure students know what the rules are and be consistent with enforcing them.
- Make sure that the directions you are giving your students for independent work time are clear and easy to understand. You should also make sure that all the students in your room are able to hear you clearly so they understand what they are doing. A voice amplifier can help you save your voice while also ensuring it travels through the room for all to hear clearly.
- Make sure that consequences are immediate (or as close to immediate as you can get). This will help ensure that your students associate the consequences with the behavior that you are trying to eliminate. Without a clear connection, it is less likely that their behavior will change.

6 Tips for Skillfully Managing Extreme Student Behaviors

When your students' behaviors go from annoying to out of control, use these steps.

Dealing with extreme student behaviors can be a disheartening experience for teachers, and diffusing small behaviors before they become big problems requires a skillful balance of concealing your emotions and using techniques to de-escalate the behavior. Here are some tips on how to handle challenging student behavior and get back to class.

1**. Get to the Root of the Matter**

Behavior is a form of communication, so consider what could be causing the disruptive behavior. Determining the cause can help teachers proactively meet student needs, while remaining in control and avoiding inadvertently reinforcing bad behavior.

While the type of behavior may vary, the function of behaviors typically serve one of two purposes: to get something (i.e., attention) or to avoid something (i.e., work). For instance, a student who constantly disrupts your class may be communicating a need for attention.

Rather than reinforcing this behavior by responding to a student blurting out—as negative attention is still attention—try anticipating the behavior and meeting the

student's need beforehand. Meet with the student before class and ask them to help you with a special job. Make a point to have a one-on-one conversation about a subject of interest to the student. By meeting the student's need on your terms, you may stop the behavior from even occurring.

**2. Reach Out to Colleagues for Support**

Most schools have teachers who specialize in working with students who have behavior issues. If you're dealing with extreme student behavior, seek out these individuals and ask for their advice.

**3. Remember to Remain Calm**

One of the most important things you can do when dealing with challenging behaviors is maintaining your own self-control. Visualize yourself somewhere relaxing to maintain the appearance of calm, and use conversational "diffusers," which are short phrases such as "I hear you," "Thanks for sharing," or "Nevertheless." Spoken matter-of-factly, these diffusers can de-escalate a situation and show you're still in control.

Silence is another useful de-escalation tool. If a student is challenging you, try waiting silently for about 10 seconds and see if the student doesn't give up. While it might feel like an eternity, the extended wait time has shown to be effective.

**4. Have a Plan and Stick to It**

Every teacher should have a plan for dealing with students when behaviors are chronic or continue to escalate. If you're working with a student who has an identified emotional or behavioral disability, consult with the special education teacher. The student's Individual Education Plan (IEP) or Behavior Intervention Plan (BIP) should provide a detailed plan for handling their behavior.

Students will test boundaries, so teachers need to set clear limits that are consistently enforced. Whether it's a positive behavior system, rewards, or strikes, you need a classroom management system that rewards positive behavior and penalizes poor behavior choices.

Make sure your plan is clear and students are fully aware of the consequences for not following it. But more importantly, stick to your plan. Consistently enforce your rules, or students will quickly learn they can get away with misbehaving in your classroom.

**5. Involve Administration When Necessary**

When extreme behaviors occur, safety should be your primary concern. No teacher should tolerate being hurt or threatened. If students aren't responding to your attempts to correct their behavior, it may be time to involve administration.

With a violent incident, isolate the student and call for help. If you can't isolate the student, you may need to move the class away from the student for everyone's protection and safety. After the incident, allow yourself and your students time to cool down. Breathe and regain your composure, then be sure to write up a complete report detailing the behavior incident.

**6. Document, Document, Document**

If you're struggling with student behavior, make sure to document the behaviors and the interventions you've used to address them. Documentation is critical to establishing a pattern of behavior, and it's pertinent information for administration if they need to become involved. Also, if administration is not supportive or questions you, having documentation protects you by outlining the steps you've tried prior to involving them.

Like it or not, student behaviors are an inescapable part of being a teacher. Develop a plan and practice using techniques to stop behaviors before they begin. Skillfully managing student behaviors doesn't have to be the worst part of your job; it can be your opportunity to shine.

**Резюме**

Проблемы с поведением в школе или университете мешают урокам и мешают другим ученикам. Эти проблемы часто перегружают учителей, особенно новичков, и некоторые считают их самым трудным аспектом рабочего дня учителя. Не существует какой-то одной причины сбоев в классе, поэтому ресурсы здесь преднамеренно широки. Учащиеся могут действовать из-за разочарования, скуки, проблем с психическим здоровьем или множества других импульсов, и их действия могут отражать аспекты их личной жизни так же, как и обстановку в классе.

Тем не менее, есть ряд упреждающих шагов, которые преподаватели могут предпринять, чтобы свести к минимуму возникновение этих проблем и быть готовыми к тем ситуациям, которые все же возникают.

Дети, у которых есть проблемы с поведением, неизменно требуют дополнительного внимания, что создает нагрузку на учителей и замедляет темпы проведения и завершения уроков. Часто ученики плохо себя ведут, когда они не вовлечены или не мотивированы. Используя положительное подкрепление, вы можете изменить неправильное поведение учащихся. Попробуйте хвалить положительное поведение, учить вежливости, предлагать награды и поощрять своих учеников. Еще один способ улучшить поведение учащихся — это изменить подход к обучению. Сделайте это, реорганизовав свой класс, раздавая практические задания, показывая распорядок дня и давая учащимся перерывы.

Возможно, самой сложной задачей для преподавателя является оценка поведенческой проблемы в классе, чтобы диагностировать соответствующую реакцию. Не все ситуации будут очевидны как угроза вашей безопасности или безопасности других людей, а все незначительные отвлекающие факторы не обязательно исчезнут сами по себе. В данный момент может быть трудно

определить разницу между сбоем и опасностью, но следующие ресурсы могут помочь вам подготовиться к такой оценке и взвешенному реагированию.

Поиск правильных стратегий, которые вдохновят ваших учеников и помогут им научиться самоконтролю, может в значительной степени помочь вам научиться справляться с учащимися с проблемами поведения.

**Ключевые слова: поведение, проблема, стратегия, причина, действие.**

**Xülasə**

Məktəbdə və ya universitetdə davranış problemləri dərslərə mane olur və digər tələbələri narahat edir. Bu problemlər tez-tez müəllimləri, xüsusən də təcrübəsizləri sıxır və bəziləri onları müəllimin iş gününün ən çətin tərəfi hesab edir. Sinif uğursuzlıuqlarının heç bir səbəbi yoxdur, ona görə də buradakı resurslar qəsdən genişdir. Şagirdlər məyusluq, cansıxıcılıq, psixi sağlamlıq problemləri və ya müxtəlif impulslar üzündən hərəkət edə bilər və onların hərəkətləri sinif mühiti qədər şəxsi həyatlarının aspektlərini əks etdirə bilər.

Bununla belə, bu problemlərin baş verməsini minimuma endirmək və ortaya çıxan vəziyyətlərə hazır olmaq üçün fakültənin atacağı bir sıra qabaqlayıcı addımlar var.

Davranış problemləri nümayiş etdirən uşaqlar həmişə əlavə diqqət tələb edir ki, bu da müəllimləri gərginləşdirir və dərslərin təklif və tamamlanma tempini ləngidir. Çox vaxt tələbələr məşğul olmadıqda və ya motivasiya olmadıqda səhv davranırlar. Müsbət möhkəmlətmələrdən istifadə etməklə siz tələbələrin yanlış davranışlarını istiqamətləndirə bilərsiniz. Müsbət davranışı tərifləməyə, nəzakət öyrətməyə, mükafatlar təklif etməyə və tələbələrinizi həvəsləndirməyə çalışın. Tələbə davranışını yaxşılaşdırmağın başqa bir yolu öyrətdiyiniz üsulların yenidən qurulmasıdır. Bunu sinif otağınızı yenidən təşkil etməklə, praktiki tapşırıqlar verməklə, gündəlik gündəmi göstərməklə və tələbələrə fasilələr verməklə edin.

Ola bilsin ki, təlimatçı üçün ən çətin vəzifə müvafiq cavabı təyin etmək üçün sinifdəki davranış problemini qiymətləndirməkdir. Bütün vəziyyətlər sizin və ya başqalarının təhlükəsizliyinə təhdid kimi açıq-aydın görünməyəcək və bütün xırda diqqəti yayındıranlar mütləq öz-özünə keçməyəcək. Uğursuzluq ilə təhlükə arasındakı fərqi hazırda mühakimə etmək çətin ola bilər, lakin aşağıdakı resurslar özünüzü belə bir qiymətləndirmə aparmağa və ölçülmüş şəkildə reaksiya verməyə hazırlamağa kömək edə bilər.

Şagirdlərinizi ruhlandırmaq və onlara özlərinə nəzarət etməyi öyrənməyə kömək etmək üçün düzgün strategiyaları tapmaq, davranış problemi olan tələbələrlə necə məşğul olmağı öyrənməkdə sizə çox kömək edə bilər.

**Açar sözlər: davranış, problem, strategiya, səbəb, fəaliyyət.**

1. https://www.wikihow.com/Improve-Student-Behavior-in-the-Classroom
2. https://www.wikihow.com/Deal-With-Students-With-Behavior-Issues

3. https://www.cmu.edu/teaching/designteach/teach/problemstudent.html
4. https://scienceandliteracy.org/how-to-deal-with-behavior-problem-students/
5. https://utlc.uncg.edu/teaching/behavioral-issues/
6. https://www.wgu.edu/heyteach/article/6-tips-skillfully-managing-extreme-student-behaviors1802.html
7. https://classroom.synonym.com/neediness-insecurity-cause-breakups-23540.html
8. https://www.additudemag.com/slideshows/student-behavior-problems-in-the-classroom-teacher-tips/
9. https://www.frontiersin.org/articles/10.3389/feduc.2019.00159/full
10. https://www.learningsciences.com/blog/classroom-strategies-3-solutions-to-common-behavior-problems/

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: prof. Məmmədova Z.Ş.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**LEYLA RAMIZ QIZI SARIVƏLLI**
e-mail: leyla.s_93@mail.ru
**Azərbaycan Universiteti**
(Bakı şəh., 71 Ceyhun Hacıbəyli, 1007)

# Ş.ANDERSONUN "UAYNSBURQ, OHAYO" NOVELLALAR TOPLUSUNDA JANR HIBRIDLIYI: AMERIKA GERÇƏKLIYININ TƏCƏSSÜMÜNDƏ YENI YOLLAR AXTARIŞI

**Açar sözlər:** "Uaynsburq, Ohayo", janr hibridliyi, Amerika gerçəkliyi, novella

**Key words:** "Winesburg, Ohio", genre hybridity, American reality, novella

**Ключевыеслова:** "Уайнсбург, Огайо", жанровая гибридность, американская реальность, новелла

Şervud Andersonun "Uaysnburq, Ohayo" novellalar toplusu bir çox tədqiqatçılar tərəfindən roman-novella adlanır. Belə yanaşma heç də təsadüfü deyil. Çağdaş ədəbiyyatda iki müxtəlif janr birliyi adi hal olsa da, Şervud Anderson dövrü üçün yeni üslub və yeni forma eksperimentliyi kimi də dəyərləndirilə bilər. Hər iki janr yaddaşı köklü şəkildə biri-birindən fərqlənir. Əgər romanda müxtəlif hadisələrin, epizodların genişləndirilməsi və əlaqələndirilməsi baş verirsə, paralel intriqa və kolliziyaların çoxluğu ilə əlamətdardırsa, novella gözlənilməz sonluqla bitir və bu son nəticə hər şeyi öz ətrafında birləşdirir. Həcminin böyüklüyü və epizodların çox şaxəliliyi romanın novella quruluşundan köklü fərqləndirir. Romanın süjet quruluşunda kulminasiyadan sonra yeni hadisənin yaranması gözlənilən hal idisə, novellanın süjeti gözlənilməz sonluqla bitirir. Amma romanın özəlliyi ondadır ki, o bir neçə novella silsiləsindən qurula bilir. Ədəbiyyat tarixində ilk romanlar məhz silsiləvi novellalardan ibarətdir. Elə bu səbəbdən Şervud Andersonun "Uaysnburq, Ohayo"sunu roman-novella adlandırmaq olar. Toplunun yazıldığı dövrü nəzərə alsaq yazıçının yeni forma hibridliyinə nail olduğunu deyə bilərik. Amerikalı tənqidçi D.Andersonun ""Uaynsburq, Ohayo" aralıq personajına və formasına görə romana yaxınlaşır" [3,s.104] fikrini də nəzərə alsaq onun roman-novella adlandırmaqda heç də yanılmarıq.

Bu ilk növbədə onunla ifadə olunur ki, topludakı mərkəzi ideya bütün novella qəhrəmanlarını psixoloji, mənəvi-ruhani məkanda birləşdirir. Bu birlik novellaları eyni zamanda daxildən birləşdirir, onun semantikasını müəyyən edir. Bütün novellalar əyalət həyatını təcəssüm edir və hər novellanı birləşdirən ConUilard adlı personaj var. Bəzən o, özgələşmiş, cəmiyyətdən uzaq düşmüş qapalı insanların ona açılmasına yardım edir. Bu, xüsusilə "Qrotesk insanlar haqqında kitab", "Kağız yumruları", "Əllər", "Müəllimə", "Tənhalıq", "Söylənməmiş yalan" və s. novellalarda özünü göstərir. B.Qilenson yazır ki, toplu ona görə bir süjet ətrafında

birləşir ki, yazıçı bütün novellaların məzmunu "müəyyən nüanslarla, əhval-ruhiyyələrlə və açıq aydın görünən psixoloji mətnaltı mənalarda qurmuşdu. Andersona görə həqiqi həyat hekayəsi hansısa bir anın tarixçəsidir" [7, s.169].

Diqqətlə fikir versək "Qrotesk insanlar haqqında kitab" novellası ilə başlayan toplu digər novellaların proloqu rolunda çıxış edir. Məhz bu novellada söz açılan qrotesk insan anlayışı bütün digər novellaların mərkəzi ideyasına çevrilir. Beləcə yazıçı öz toplusuna metaforik ad qoyur və digər novella qəhrəmanlarına həqiqəti göstərməyə nail olur. Qrotesk metaforası "qeyri-adi", "anlaşılmayan", tərk edilən" özgələşmiş insan mənasını ifadə edir. Belə "seçilmiş" insanlar "yöndəmsiz" durumlarına görə canlı ölülərə dönmüş vaynsburqlulardan daha təmiz və daha layiqli görünürlər.

"Qrotesk insanlar haqqında kitab" novellası bütün digər novellaların ideya-emosional nüvəsini təşkil edir. Burada başlanan qrotesk insan anlayışı sonrakı novellalarda tədricən daha da açılır və yazıçının silsiləvi novella təşkilinə aydınlıq gətirir. Məhz bu novelladan başlayan və davam edən uaynsburqluların hekayələri "anlaşılmazlıqdan çıxır". Uaynsburq gerçəkləri bir çox qarşılıqlı anlaşılmazlıqları ehtiva edir. Amma bütün hallarda gerçək insanlararası münasibətlərin yoxluğu, toplumda hökm sürən biganəlik, ikili standartlar və müəyyən olunmuş stereotiplərdi. Bu standartlara və stereotiplərə uyğun gəlməyən anlaşılmaz, qrotesk insana çevrilirdi. Qrotesk insan normalardan uzaq düşən, hamı kimi olmayan insandır. Şervud Anderson onları böyük yazıçı məharəti ilə təsvir edir.

Lakin o da qeyd edilməlidir ki, Ş.Andersonun novellalar toplusu haqqında heç də birmənalı fikir olmamış, onun formasını qeyri-müəyyən hesab edənlər də tapılmışdır. Halbuki, Şervud Andersonun öz dövründə novella janrına yeni forma və məzmun dəyişikliyi gətirməsi danılmazdır. Amerikalı tədqiqatçı B.Spenser məhz bu yeniliyi görmür və yazırdı ki, "Uaynsburq haqqında novellaları zibil yeşiyinə atmaq lazımdır, ona görə ki, onun əvvəli və sonu olmalıdır" [6, s.163]. Yazıçı isə novella toplusu işıq üzü görəndə yeni "sərbəst forma" tapdığını qeyd edir, bu formanın Amerika gerçəkliyinin təsviri yolunda ən uyğun tapıntı hesab edir: "Roman forması amerikalı yazıçılarının yazılarına uyğun gəlmir. O, bizə Avropadan gətirilib. Bizə isə sərbəst forma lazımdır. "Uaynsburqda" mən öz sərbəst formamı yaratdım. Həyatın özü də hardasa sərbəst, axıcı bir şeydir, formasızlıq Amerika həyat tərzinə xas bir xüsusiyyətdir" [2, s.361].

Şervud Andersonun yeni "sərbəst forma" yaratmaq istəyi "Uaysnburq, Ohayo" mətnində özünü göstərir. Novellalar sanki dağınıq və pərakəndəlik keyfiyyətini qazanır. Lakin bu yalnız ilk baxışdan belədir. Əslində sərbəstlik hər novellanın yalnız içində özünü göstərir, əslində isə novelladan novellaya gizli bir bağlılıq var. Bu onları birləşdirən motivlər silsiləsidir ki, hər biri birləşərək toplunu bütöv edir. Sonda isə müəllifin nəzərdə tutduğu mifoloji-simvolik xarakter daşıyan həyat hekayələrində özünü göstərir.

Topludakı novellaları bir araya gətirən daxili süjet xətti də gözdən yayınmamalıdır. Əgər biz novellaların adlarına və onların ardıcıllığına, mövzu dairəsinə diqqət etsək

burada da bir süjet xəttini görə bilərik. "Qrotesk adamlar haqqında kitab" və "Əllər"də başlayan ekspozisiya xətti "Kağız yumruları" və "Ana" novellasında davam edirsə "Heç kəs bilmir", "İdeyalı insan" toplumda yığılan novellaların "düyün" nöqtəsi, "Macəra", "Mütəfəkkir", "Tendi", "Tanrı gücü" daha çox kulminasiya, "Müəllimə", "Tənhalıq", "Oyanma", "Qəribə adam" düyünün açılmağa doğru getdiyi "açılış"ı və "Məst olma", Ölüm", "Oyanış" və "Gediş" bədii sonluq kimi oxucunun gözündən yayınmır.

Digər tərəfdən topluda motiv birliyini də izləmək olur. Belə motivlər bir novelladan digərinə adlayır, müəyyən səbəb-nəticə əlaqələrini birləşdirir. Bütün novellalarda "əllər" çarəsizliyin, çıxılmazlığın, ümidini itirmiş insanın qəzəb, qorxu, bəzən isə deyə bilməyəcəyi istəklərinin simvoluna çevrilir. Yazıçı demək olar ki, insan əllərinin məna anlayışını novelladan novellaya daşıyır, özgələşmiş, tənha insanın daxili iztirabları kimi təsvir edir. "Əllər" novellasının qəhrəmani Uinqz Bidlbomun faciəsinə çevriləcək əlləri həm də onun həyatda qalmaq, yaşamaq şansıdır: "Uinqz Bidlbomun əlləri Uaynsburqda yalnız çevikliyinə görə diqqəti cəlb etdi. Onunla Uinqz Bidlbom yüz qırx kvadrat torpağın çiyələyini yığırdı" [1, s.91]. "Kağız yumrular" novellasının personajı həkim Rifi də böyük əllərin sahibi olduğu kimi böyük ağrıları daşıya bilən, insanı anlayıb başa düşən, özünü başqasına qurban verən şəxsiyyətin faciəsini təcəssüm edir: "Həkim Rifinin əlləri çox böyük idi" [1, s.91].

İnanılmaz sevgi və məhəbbət hissi ilə oğluna bağlanan və bütün reallaşmayan arzularını onda axtaran "Ana" novellasındakı personaj da qəzəblənəndə "əlləri yumruğa çevrildi, öləndən sonra da səni qoruyacam" deyir. "Filosof" novellasındakı Tom Uilli də "qəribə əlləri ilə" iş başında "həmişə əllərini ovuşdurudu... onun barmaqları getdikcə qızarırdı. Sanki onun əlləri bu yaxınlarda qana batmışdı, indi artıq bu qan quruyub" [1, s.95]. Bu və ya buna bənzər metaforik bənzətmələr "Uaynsburq, Ohayo" toplusunun motiv birliyini təşkil edir.

Toplunun silsiləvi forması onu deməyə əsas verir ki, Şervud Anderson ayrı-ayrı novellaların ideya-məzmununu bütöv qurmuşdur. Yazıçı özü də dəfələrlə sərbəst forma axtarışlarında olduğunu yazırdı: "Yeni sərbəst forma lazımdı və mən Uaynsburqda öz sərbəst formamı yaratdım"[2, s.361].Yeni sərbəst forma romanın güclü formasından uzaqlaşmağa şərait yaradırdı və görünür yeni forma axtarışları yazıçının yaradıcılıq axtarışlarıydı. Şervud Anderson özü də bu haqda etiraf edir və yazır ki, "Mən dəfələrlə özümü eksperimentallığa sövq edirdim. Dəfələrlə özümdən soruşurdum: "Nəsrdə daha nə etmək olar ki, onu hələ etməyiblər?" [5, s.305]. Həmçinin o, etiraf edirdi ki, onun yaradıcılığı "bəzi impulslara tabe idi... Qısa novellalar ani hisslərin nəticəsidir. Bu, bütövlüyü bir araya yığmaq ideyasıdır [4, s.19].

Keçən əsrin birinci rübündə ABŞ-da Avropa nəsrindən fərqli olaraq novella janrı hələ də öz formalaşma dövrünü keçir, halbuki, Avropa ədəbiyyatında artıq roman aparıcı janra çevrilmişdir. ABŞ ədəbiyyatının milli janrı olan novella "short story" adıylaV.İrvinqin, N.Hotornun, E.A.Ponun, O'Henrinin yaradıcılığında özünün ən pik

nöqtəsinə çatsa da Ş.Anderson bu janra yeni nəfəs gətirdi. Onu Avropa modernizminin üslubi priyomlarına yaxınlaşdırdı, yeni təhkiyə üslubuna çevirdi, ənənəvi üslubdan uzaqlaşdı. Onun təhkiyəçisi üçüncü şəxsin adından danışır, hadisə iştirakçısı ilə təhkiyəçini biri-birindən ayırır. Şervud Andersonun təhkiyəçisi toplunun ilk novellasında yaşlı yazıçının kitabını görür və bu hadisə ona təsir edir. Novellaları birləşdirən Corc Uillardın obrazı isə qrotesk insanları dinləyir, sonra isə qəzet köşələrində onlardan bəhs edir. "Qrotesk adamlar haqqında kitab"dakı yaşlı yazıçı, təhkiyəçi və Corc Uillard hər biri hekayəçi olmağa iddialıdır. Onların hər biri eyni zamanda da əsas süjetin inkişafına xidmət edir. Təhkiyə üsulunun özü Şervud Andersonun dövrü üçün yeni idi və yazıçı mətni onun yaranma prosesi ilə birləşdirməyə çalışırdı. Novella mətnindən də göründüyü kimi hadisələri nəql edən müəllif bəzən mövzudan uzaqlaşır, bəzən oxucu ilə dialoqa girir və beləcə, novelladakı vurğu məzmundan daha çox onun yaranma prosesinə yönəlir. Bəzən də təhkiyəçi hadisəni danışdığı yerdə kəsir və yeni hadisəyə keçir, novellanın bədii aləmi yeni süjetin yaranmasına köklənir. Başqa sözlə, yazıçı personajı hansısa bir xarakterik xüsusiyyətlə deyil, fraqmentlərə bölünmüş hadisələrin fonunda təsvir edir. Bu fraqmentarlıq ilk baxışdan oxucunu çaşdırsa da novellanın sonunda hadisənin vahid bir mərkəzdə birləşdiyini görmək olur. "Yeni sərbəst forma" qurmaq bacarığı Şervud Andersonun "Uaynsburq, Ohayo" toplusunun özəlliyi idi. Yaranan ideya bütövlüyündə müəllif ilə yanaşı oxucu da iştirak edir, silsilə novellaları bir araya gətirirdi. Şervud Andersonun təhkiyəsi həmçinin də dialojidir. Bu onunla özünü büruzə verir ki, oxucu daima mətnin oxu prosesinə cəlb edilir. Bəzən müəllif oxucuya müraciət edir: "o, insanları bizim səninlə tanıdığımız kimi tanımır. Ən azından yazıçı belə başa düşürdü və belə düşünmək ona xoş gəlirdi. İndi nəyə görə biz yaşlı adamla mübahisə etməliyik ki?!" [1, s.94]. Yaxud "Əllər" novellasında oxucuya müraciət edən müəllif personajın tənhalığını "bu kədər onun tənhalığının ayrılmaz hissəsinə çevrilmişdir" kimi ifadə edir.

Hadisələrin nəqli Amerika gerçəkliyini, toplumun düşdüyü mənəvi deqradasiyasını əks etdirir, həmçinin də hadisələrə obyektiv qiymət verən müəllif səsi kimi çıxış edir. Bir qayda olaraq novellalarda təhkiyə birinci şəxsin dilində nəql edilir. "Uaysnburq, Ohayo" toplusunda isə hekayə üçüncü şəxsin dilində səslənir. Şervud Anderson həm novella janrında olduğu kimi birinci şəxsdə, həmçinin romanın üçüncü şəxsində də mətni qurur. "Söylənməmiş yalan" novellası birinci şəxsdə, "Müəllimə", "Tənhalıq", "Heç kəs bilmir" isə üçüncü şəxsdə yazılmışdır. Belə yanaşma tərzi onu deməyə əsas verir ki, yazıçı novellalar toplusunun ideya-mövzu bütövlüyünü tipoloji cəhətdən roman janrının bütövlüyünə bənzədir.

Şervud Andersonun novellasındakı təhkiyəçi obrazı romanda olduğu kimi hər şeydən xəbərdar təhkiyəçidir. Təhkiyəçinin köməyi ilə müəllifin uydurulmuş dünyası gerçək dünyanı əksinə çevrilir. Onun səsi oxucunu idarə edir, elə bu səbəbdən təhkiyəçi novellaları birləşdirən əsas elementə çevrilir. Şervud Andersonun yaratdığı təhkiyəçi obrazı qəhrəmanların qəlb dünyasına enir, şüuraltısına müdaxilə edir və beləcə,

onların qorxu və istəklərini üzə çıxarır. “Ana” novellasının qəhrəmanından danışan təhkiyəçi onun portretini belə cızır: “Corc Uillardın anası Elizabet Uillard elə də hündür deyildi, çiçək xəstəliyi onun arıq üzündə öz izini buraxmışdı. Onun qırx beş yaşı olardı, amma hansısa müəmma onu vaxtından əvvəl qocaltmışdı” [1, s.96]. Təhkiyəçi zavallı görkəmi ilə həyatdan bezmiş qadını “əcinnə kimi otaqda gəzirdi” ifadəsi ilə oxucuya tanıdır. Amma bu qadın bütün gücü ilə oğlu Uillardın onun həyatını təkrarlanmamasını istəyir. Bütün günü allaha dua edir, oğluna gözəl həyat, yaxşı gün-güzaran arzulayır: “qapını arxadan bağlayıb diz üstə çökdü. O, bu otaqda ayin yerinə yetirirdi, bu ya dua, ya da göylərə ünvanlanmış tələb idi. Oğlunun simasında çoxdan unutduqlarını diriltməyi, itmiş mənliyini görməyi arzulayırdı. Bu onun duası idi” [1, s.96]. Təhkiyəçi təsvirini burdaca kəsir, çörəkçi Ebner Qroff və pişik balasından bəhs edir. Kimsəsiz pişik balası hər gün çörəkçinin kötəklərindən qaçır, amma hər dəfə də onun çörəkxanasına qayıdırdı: “Uzun müddət idi ki, çörəkçi ilə pişik arasında dava-dalaş gedirdi” [1, s.97].

Şervud Anderson novellalara paralel hadisələr daxil edir, eyni vaxtda bir neçə personajın həyat hekayəsini danışır. “Qrotesk adamlar haqqında kitab”da yaşlı yazıçıdan danışarkən mətnə dülgər obrazını gətirir və anidən onun həyat hekayəsini nəql edir. Çarpayını düzəltməyə gələn dülgərlə başlayan söhbətin aniliyi gəlişin səbəbini unutdurur. Bu zaman oxucu təhkiyəçi mövqeyi ilə müəllifin personajlarına olan səmimi rəğbətinin və xəfif yumor hissinin üst-üstə düşdüyünü görür: “Nə vaxtsa dülgər əsir düşmüş və həbsdə yatmışdı. O, həbsdə olarkən qardaşı acından ölmüşdü. Bu hadisə haqqında danışarkən o, ağlayır, ağlayarkən ağarmış bığlarının altındakı dodaqları titrəyir, bığlar yuxarı-aşağı hoppanırdı. Ağzında siqarla ağlayan qoca gülməli idi”[1, s.20]. Şervud Anderson göstərir ki, bu insanlar şəraitin təsirindən mənən şikəst olur, yaşamaq hissini itirilər. Onlar üçün həyatın adi sevincləri belə bitib, ailə xoşbəxtliyi, sevgi hissləri yox olub. Onlar həyatın qarmaqarışığından çıxış yolu tapa bilmir, yaşamaq ümidlərini itirir və elə bu səbəbdən öz səadətləri uğrunda mübarizə apara bilmirlər. Etiraz etməyə isə onların gücü çatmır. Elə buna görə emosiyalara qapılır, tənhalaşır, hər kəsdən təcrid olurdular. Bəzən isə özlərinin uydurduqları hadisələrin əsirinə çevirir, anlaşılmaz olaraq qalır və dəyişmək istəmirlər.

Topludakı novellaları biri-birinə bağlayan vacib məqamlardan diri də Uaynsburq şəhərinin tarixidir. Məhz onun fonunda ayrı-ayrı hadisələr cərəyan edir. Burda bir vacib məqam da ondan ibarətdir ki, Uaynsburqdakı hadisələrin çoxu oxucudan gizlədilir, ilk baxışdan sirli müəmma kimi saxlanılır, amma tədricən novelladan novellaya adlayan personaj onlardan bəhs edir. Bu müəmma, sirlilik həm şəhəri, həm də burda baş verən hadisələrə mifik don geyindirir. Belə miflər hər baş verən hadisədə özünü göstərir. Elə bu səbəbdən personajların taleyi və onların davranışları bütün bu görünməz hadisələrin əks sədasıdır. Yazıçı hər dəfə oxucuya ip ucu verir. O, bu mifik dünyanın daxili qanunauyğunluqlarına, qarşılıqlı əlaqələrinə işarə etməklə onların gerçək olmasını göstərir. Məlum olur ki, bir insanın, bir hadisənin

arxasında bütün bir cəmiyyət, toplum dayanır. Elə bu səbəbdən gizli də olsa, ümumi sosial-ictimai problemlərin önə çəkildiyi novellaları sadəcə toplu adlandırmaq olmaz. Qarşımızda yeni janrda yazılmış roman-novella və ya novellalardan yığılmış roman var. Göründüyü kimi bu novellada vahid süjet xətti olmasa da mərkəzi ideyası olan ümumi bir mif var.

Şervud Andersonun qeyri-adi obrazları nəinki onların zahiri görünüşlərində, həmçinin daxili durumunda, psixi deformasiyasında özünü göstərir. Şervud Anderson adi insanla qrotesk insan arasında olan şəffaf sərhədin nə qədər incə olduğunu, birindən digərinə asanlıqla keçməyin mümkünlüyünü qeyd edir. Başqa sözlə hər hansı bir hadisə insanı anidən mənən sınmış, ümidsiz bir insana çevirir. Bunu "Əllər"dəki Uinq Bidlbomunda, "Ana"dakı Elizabet Uillardında, həyat yoldaşının xəyanətini görən "Hörmətli insanlar"ın Uoş Uilyamsını, "Macəra"dakı Alisa Haydmanın başına gəldiyi hadisələrdə görmək olar. Bu hadisələr onların həyatını dəyişir, adi insandan qroteskə çevirir. Elə bu səbəbdən qrotesk emosional və psixi durumu pozulmuş, baş verən hadisənin şokunu yaşayan insanın "boşluğa" çevrilməsinin nəticəsidir.

Göründüyü kimi Şervud Anderson XX əsrin əvvəlləri Amerika ədəbiyyatında hökm sürən gözəl həyat, firavan yaşayış anlayışını yaratdığı qəhrəman qalereyasını dağıdır və yerinə Amerika reallığını, onun gerçək həyatının təsvirini gətirir. Cəmiyyətin norma və qaydaları sakit, rahat və tələsmədən yaşamaq diktəsini edir. Amma belə həyat topludakı personajları tənhalığa, özgələşməyə gətirib çıxarır. Ş.Anderson Amerika əyalətinin mifik surətini yaratmaqla bütünlükdə insan mövcudluğunun modelini yaradır. Qrotesk insanların ümidsiz, çarəsiz həyatlarını novellanın açıq strukturu formasında təsvir edir.

**Ədəbiyyat:**

1. Anderson Sh. WinesburgOhio. PenguinClassics. 1992. 256p.

2. Anderson Sh. Memoirs. University of NorthCarolina Press. 1989. 690p.

3. Anderson D. Sh.Anderson: An Introduction and Interpretation. NewYork, Chicago, San Francisco, Toronto, London, 1997. 182 p.

4. Phillips W.L., How Sherwood Anderson Wrote Winesburg, Ohio // American Literature, Vol. 23, No. 1 (Mar., 1951), 115 p.

5. Stouck D., Sherwood Anderson and the Postmodern Novel // Contemporary Literature, XXVI, 3, 1985, 309 p.

6. Spencer B.T. Sherwood Anderson: American Mythopoeist // Sherwood Anderson: A Collection of Critical Essays. Englewood Cliffs (N.J.), Prentice Hall Inc., 1974. 170 p.

7. Гиленсон Б. А. История зарубежной литературы первый половины XX века. Учебник и практикум 1-е изд. Сер. 58 Бакалавр. Академический курс. 2018. Москва, 377 с.

**Xülasə**

**Şervud Andersonun "Uaynsburq, Ohayo" novellalar toplusunda janrhibridliyi: Amerika gerçəkliyinin təcəssümündə yeni yollar axtarışı**

Şervud Anderson "Uaysnburq, Ohayo" toplusunda yeni forma hibridliyinə nail olur və bütün novella qəhrəmanlarını psixoloji, mənəvi-ruhani məkanda birləşdirməklə roman janrının semantikasını müəyyən edir. Romanda olduğu kimi "Qrotesk insanlar haqqında kitab" novellası ilə başlayan toplu digər novellaların proloqu rolunda çıxış edir. Bu novelladakı qrotesk insan anlayışı bütün digər novellaların mərkəzi ideyasına çevrilir, novelladan novellaya gizli bir bağlılıq yaradır. Digər tərəfdən novellaları birləşdirən motivlər silsiləsi, onları bir araya gətirən daxili süjet xətti də toplunu bütöv edir. Novellaların adları və onların ardıcıllığı, mövzu dairəsi vahid süjet xəttini qurur. Bütün bu kimi roman xüsusiyyətlərinin varlığı "Uaynsburq, Ohayo" toplusunu roman-novella adlandırmağa əsas verir.

**Leyla Sarivalli**

**Summary**

**The Genre of hybridity in Sherwood Anderson's collection of short-stories "Winesburg, Ohio": Searching for new ways in the embodiment of American reality**

Sherwood Anderson achieves a new form of hybridity in the collection of "*Winesburg, Ohio*", and defines the semantics of the novel genre by uniting all the heroes of the novella in a psychological, moral - spiritual space. As in the novel, the collection that begins with the novella "*The Book of Grotesque People*" acts as a prologue to other novellas. The concept of the grotesque man in this novella has become the central idea of all other novellas and creates an implicit link from story to story. On the other hand, the series of motifs that connect the novellas and the internal plot line has brought them together, making the collection entire. The names of the novellas and their sequence, the subject area and built a single plot line. The existence of all such novel features gives reason to call the "*Winesburg, Ohio"* collection a short story within a novel.

**Лейла Сарывелли**

**Резюме**

**Жанровая гибридность в сборнике рассказов Шервуда Андерсона «Уайнсбург, Огайо»: в поисках новых способов воплощения американской действительности**

Шервуд Андерсон достигает новой формы гибридности в сборнике «Уайнсбург, Огайо» и определяет семантику жанра романа, соединяя всех героев романа в психологическом, морально-духовном пространстве.

Как и в романе, сборник, начинающийся новеллой «Книга гротескных людей», выступает прологом к другим новеллам. Концепция гротескного человека в этой новелле становится центральной идеей всех остальных новелл, создавая скрытую связь от новеллы к новелле. С другой стороны, ряд мотивов, связывающих новеллы, и сближающая их внутренняя сюжетная линия делают сборник цельным. Названия новелл и их последовательность, тематика выстраивают единую сюжетную линию. Наличие всех подобных черт романа дает основание назвать сборник «Уайнсбург, Огайо» романом-новеллой.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: F.ü.f.d., dosent, Ülviyyə Rəhimova tərəfindən çapa tövsiyə olunmuşdur**

**BAHAR ƏLİYEVA**
**ADPU-nun nəzdində Azərbaycan**
**Dövlət Pedaqoji Kolleci**
**(İnşaatçılar prospekti 45)**
**baharaliyeva2017@gmail.com**

# MİR CƏLALIN YARADICILIĞI MÜASIR UŞAQ MÜTALİƏSİNDƏ

**Açar sözlər:** yazıçı, mənəvi, təhsil, oxucu, hekayə, bədii, tərbiyə, ideya, əsər, pedaqoq, yaradıcılıq, təlim

**Ключевые слова:** писатель, нравственный, образование, читатель, рассказ, художественный, воспитание, идея, произведение, педагог, творчество, обучение

**Key words:** writer, moral, education, reader, story, artistic, upbringing, idea, work, teacher, creativity, learning

Görkəmli yazıçı, ədəbiyyatşünas, pedaqoq Mir Cəlalın zəngin bədii yaradıcılığının mühüm bir hissəsini gənc nəslin təlim-tərbiyəsinə xidmət edən, yüksək ideya-bədii xüsusiyyətləri ilə seçilən əsərlər təşkil edir. Bu əsərlərdə o, özünü uşaq həyatını, arzu-istəklərini dərindən bilən, xalqın gələcəyi olan gənc nəslin həyatına böyük maraq göstərən sənətkar kimi təsdiqləmişdir. Mir Cəlalın hekayələrində gənclərin həyatı, mənəvi aləmi, həqiqət axtarışları, məram və diləkləri yüksək sənətkarlıqla əks etdirilmişdir.

Akademik Nərgiz Paşayeva ədibin şəxsiyyətini və elmi-bədii yaradıcılığını yüksək qiymətləndirərək yazır: " Kölgədə bitən ağacın kölgəsi olmaz" deyən Mir Cəlal zəngin bədii təsvir vasitələri ilə dolu olan kiçik nəsr formalarını – yüzlərcə hekayələrini qələmə alır. Bu hekayələrdə ədibin şəxsi müşahidələri, psixoloji hal-vəziyyət, dərin lirizm, tükənməz vətənsevərlik özünü çox qabarıq şəkildə üzə çıxarır."Kölgəsiz ağac" dedikdə isə, o bu hekayələrdə qələmə aldığı bir çox miskin, yazıq, həm də çox hiyləgər, riyakar və ucuz təbiətli insan obrazlarını nəzərdə tuturdu.

…Məlumdur ki, böyük və qızıl dövrləri bir hadisə və yaxud bir insan deyil, məhz kompleks şəkildə yaranan mədəni hadisələr və böyük şəxsiyyətlər dəstəsi meydana gətirir. Mir Cəlal Paşayev də XX əsr Azərbaycan tarixinin böyük və zirvə şəxsiyyətlərindən biridir. O, yazıçı, alim, pedaqoq, həm də Azərbaycanın - vətəninin əsl vətəndaşı və ləyaqətli oğlu idi. [1, s.10, 12.]

Təsadüfi deyildir ki, ədibin gənc nəslin mənəvi-estetik tərbiyəsində böyük rol oynayan, şəxsiyyət kimi formalaşmasının təməlini qoyan əsərləri Azərbaycan uşaq ədəbiyyatının klassik nümunələri kimi də dəyərləndirilir:"Zəngin yaradıcılıq yolu

keçən Mir Cəlal xalqımızın vətənpərvərliyini , gənclərin arzu və istəklərini, həyatdakı mənfiliklərlə mübarizəsini əks etdirən dəyərli romanlar, hekayələr yazmışdır.

Mir Cəlalın müasir dövrdə uşaq mütaliəsinə daxil olan əsərlərini iki qrupa bölmək olar:

1. Bilavasitə uşaqlar üçün yazılmış hekayələr.
2. Yaşlılar üçün yazılmış, gənc nəslin təlim-tərbiyəsi baxımından əhəmiyyətli olan əsərlərindən nümunələr.

Ədibin ciddi planda yazılmış "Badam ağacları", "Vətən yaraları", "Muştuluq", "Qorxu", "İki yuxu," "Nanənin hünəri", "Gülgəz hekayələrində mühüm mənəvi-əxlaqi problemlərdən, nəcib insani hislərdən söz açılmışdır." [3, s. 318]

Uşaq həyatından bəhs edən "Aqil" hekayəsində gənc nəsil üçün çox əhəmiyyətli olan təhsilə, elmə, biliyə çağırış motivləri güclüdür. Əsərdə hadisələr Murad kişinin öz nəvəsi Aqillə qarşılıqlı münasibətləri fonunda baş verir. Murad kişi yeganə oğlu Tapdığın müharibədə həlak olmasından sonra mehrini on iki yaşlı nəvəsi Aqilə salır, onunla nəfəs alır.

Əsərdə Aqilin bədii portreti real cizgilərlə çəkilir:" Bu, qaraşın, iri gözlü, sağlam və gülərüzlü bir uşaq idi. Səhərin gözü açılmamışdan axşama qədər bağda cövlan vurar, quş qovar, qum içində doyunca maşın sürərdi. Onun saf və şirin səsini eşitdikcə Murad kişi ürəyində deyərdi:" Bu olmasaydı, mən çoxdan ölmüşdüm."[1, s.44]

Hekayədə Murad kişi ilə Aqilin qarşılıqlı münasibətləri baba ilə nəvə üçün səciyyəvi olan cizgilərlə, həyati epizodlarla açılır. Murad kişi gizli-gizli nəvəsinin yerişinə, oturuşuna, danışığına diqqət yetirir, onun simasında hər dəqiqə oğlu Tapdığı görür, təsəlli tapır. Nəvəsini bir şəxsiyyət, cəmiyyət üçün faydalı olan bir insan kimi yetişdirmək niyyəti ilə onu gözdən qoymur, il ərzində hər gün məktəbə aparıb-gətirir, bu işi heç kimə etibar etmir. Muradın kitab oxuduğunu, dəftərində qeydlər aparmasını, məktəbə gedib-gəlməsini, mərifətli davranışını görəndə Murad kişinin gözləri yaşarır, qürur hissi keçirir.

Aqildən günün tutulacağını eşidən Murad kişi bu xəbərə inanmır, nəvəsini danlayır. Lakin səhəri gün günün həqiqətən tutulduğunu görəndə heyrət içində nəvəsinin sevincdən işıqlanan üzünə baxır. O, günəşi də, göyü də unudur. Yanında dayanan məktəbli nəvəsi onun gözündə günəş qədər böyüyür.

Böyük tərbiyəvi əhəmiyyət kəsb edən bu hekayədə hadisələrin mahiyyətini açmaq üçün dialoqlarda atalar sözlərindən, müdrik kəlamlardan sənətkarlıqla istifadə olunmuşdur: "At olanda ot olmur, ot olanda at", "Uşaqlı ev bazardır, uşaqsız ev məzar," "Çoxun xeyrindən artıq ziyanı var," "Bir olsun, pir olsun."

Uşaq qəlbinin, xarakterinin dərin bilicisi olan ədibin bədii sənətkarlığı əsərdə uşaq nitqinin çalarlarının, Aqilin təsvir olunan hadisəyə - günəşin tutulmasına, babasının bu xəbərə əvvəlcə inanmamasına münasibətinin təsvirində də öz əksini tapır. Yazıçı hekayədə ilk baxışda adi görünən, lakin çox əhəmiyyətli saydığı bir

hadisədən söz açmaqla oxucuya yenilik hissi, yaşlı nəsillə gəncliyin qarşılıqlı münasibətlərinə yeni baxış aşılaya bilir.

"Ərik ağacı" hekayəsini ədib ilk nəvəsi Aytəkinə ithaf etmişdir. Hekayədə təsvir edilən hadisələrin başlanğıcı 41-ci ilin yazında - fəlakətli müharibənin başlandığı dövrə təsadüf edir. Müharibə Köşgü kənd məktəbinin də dinc həyatını pozur.

Ədibin gənc nəslə ünvanlanmış digər əsərlərində olduğu kimi, bu hekayədə də mənəvi dəyərlər, insanın gücünə, insan əlinin, zəhmətinin qüdrətinə inam motivləri aparıcı yer tutur. Hekayənin qəhrəmanları kənd məktəbinin müdiri və təhsil ocağının təsərrüfatını idarə edən, on ildir məktəb üçün zəhmət çəkən, həyətini, bağçasını, odununu, suyunu, işığını min zəhmətlə sahmanda saxlayan Nəbi dayıdır.

Əsərdə ədib oxucuya müraciətlə həyatda insan üçün zəruri olan nəcib və mənəvi hisslərdən söz açır:"Hər məxluqun körpəsi zəif və möhtac olur. Körpələr kömək, himayə görməsə, yəqin ki, məhv olub gedər, yaşaya bilməzlər. Bəlkə buna görə təbiət insanların qəlbində körpələrə mərhəmət hissi qoymuşdur. Normal insan, kim olur-olsun, nə əqidənin, peşənin sahibi, hansı millətdən, zümrədən, cinsdən olur-olsun körpələrə kömək və mərhəmət hissi bəsləyir. Birində az, birində çox, birində aşkar, birində qapalı olur. Ancaq bu hiss hamıda olur.

Göydə uçan kəkliyi, qırqovulu, turacı vurub yerə salan ovçular, sələcədə civildəşən quş balalarına toxunmaz, əl vurmazlar. Ağac başındakı meyvəni dərmək üçün şax-budaqları qanırıb qırmaqdan çəkinməyənlər, təzəcə göyərən pöhrə ağacı həmişə himayə edər, qoruyarlar. Bunun özü nəcib və mənəvi bir hissdir." [ 1, s.119]

Məktəbin həyətində - əl-ayaqdan kənar yerdə torpağa düşmüş toxumdan cücərmiş ərik tingini görən məktəb müdiri onun ətrafına çubuqlar sancır, dibinə su tökür. Müəllimin niyyəti bir qədər böyüyəndən sonra tingi çıxarıb, yumşaq torpaqda, geniş bir yerdə basdırmaq olsa da, bu ona nəsib olmur. Dəhşətli bir hadisə baş verir, "acı rüzgar səmum kimi hər şeyi tufana tutur", müharibə başlayır.

Müdirin hərbi komissarlıqdan çağırış aldığını, sabah müharibəyə yola düşəcəyini eşidən Nəbi dayı onun mənzilinə gəlir, təhsil ocağı, uşaqlar üçün narahat olmamasını söyləyir. Məktəbi tərk edib cəbhəyə yola düşən müdir pilləkanın yanında ərik çərdəyindən göyərmiş tingi Nəbi dayıya göstərib onu göz bəbəyi kimi qorumağı tapşırır.

Müharibədən sonra müəllimin texnikumda hərbi dərs dediyini öyrənən Nəbi dayı onu axtarıb tapır, məktəb bağından dərdiyi bir səbət meyvəni ona hədiyyə gətirir. Müəllimin Nəbi dayı ilə səmimi görüşü əsərin ən təsirli səhnələrindəndir.

İllər keçsə də, müəllimin qəlbində yenidən Köşgü kəndinə getmək, doğma məktəbi görmək arzusu onu rahat buraxmır. Yazıçı öz qəhrəmanının vaxtilə yaşadığı, işlədiyi kəndin abadlığını,yeni tiikilmiş məktəbini, gözəl təbiətini göz önündə canlandırır: "Köşgü dağlardan enən dar dərənin otay-bu tayında salınmış xırda, yaraşıqlı bir yaylaq kəndidir. Aşağıdan, rayon kövşənlərinin qurtaracağından yuxarı

diklənənəndə Köşgü evləri pillə-pillə düzülmüş əlvan arı pətəklərinə bənzərdi. Məktəb dərənin sağında , güney yamacda idi.

Pəncərələri həmişə günəşin ilk şüalarını salamlardı. O zaman biz buraya at-fayton ilə çətin gələrdik. İndi kəndin içindən abad maşın yolu keçib rayon mərkəzinə gedir... İyirmi il əvvəl gördüyüm yerləri tanımaq istəyir, tanıya bilmirdim. Cığır kimi balaca küçələr sökülüb dağılmış, böyük yollar, sağ-solda daş evlər salınmışdı. Yalnız üfüqü örtən qocaman ağaclar, dərəyə enən meşə cığırları keçmişi xatırladırdı. Məktəbin yerində sıx ağaclıq, bir qədər uzaqda isə ağ daşdan tikilmə çox pəncərəli bina görürdüm." [1, s.122]

Ağ daşdan tikilmiş yeni məktəb binasını, yanındakı böyük bağı görən müəllim maşından düşüb doğma, əziz yerləri gəzəndə kövrək hisslər keçirir, körpələrin əhatəsində keçən cavanlıq illərini xatırlayır. Qarşısındakı ağsaçlı, qısaboylu, əsalı bir kişini Nəbi dayıya oxşadan müəllim gümanında yanılmadığını görür.

Nəbi dayı ona gümrah, iri gövdəli, uca qollu-budaqlı, başında lampa kimi ərik qızaran ağacı göstərib həmin ting olduğunu söyləyir. Müəllim inana bilmir ki, çöp kimi qoyub getdiyi ting nəhəng ərik ağacına çevrilmişdir.

O, indi Nəbi dayıya bir qoca, bələdçi bağban kimi yox, böyük məna və mətləblərdən xəbər verən hörmətli bir sima kimi yanaşır: "İndi mən onun əlini sıxmaq, önündə təzim edib təşəkkür eləmək arzusunda idim. Ancaq belə bir qəlb sahibi, torpağın, günəşin, əzəmətli dağların oğlu, quşlar kimi səs-səsə verən vətən balalarının ləyaqətli atası, müəllimi, əmək ustası uşaqların gələcəyinə belə bağ bəsləyə bilərdi. Bütün bu sıralanmış, şaxələnmiş, göyün bir qatına qalxmış ağaclar məğrur-məğrur dayanaraq, dağlara, dərələrə, düzlərə iftixarla baxaraq, sanki bu qoca bağbanın yaradan əlləri ilə fəxr edir, hər şeyi halal əməyin bəhrəsinə tamaşaya çağırırdı." [2, s.125]

Hekayə sənətkarın həyat hadisələrini, insan xarakterlərini dərin müşahidə bacarığını bir daha üzə çıxarır. Belə ki, ibrətamiz hadisələr, obrazların xarakteri, qarşılıqlı münasibətləri o qədər real, inandırıcı, təsirli əks etdirilmişdir ki, oxucuda əsərin müəllifin dərin həyati müşahidələrinin məhsulu olması, hekayənin qəhrəmanlarının real prototiplərinin olması təsəvvürü yaranır.

Sənətkar həyatda, məişətdə ilk baxışda diqqəti cəlb etməyən, adi görünən məsələləri gözlənilməz baxış bucağından təqdim etməyi , sadə, saf mənəviyyatlı insanların nümunəsində tipik obrazlar yaratmağı bacarır. Əsərdəki müəllim və Nəbi dayı obrazları müəllifə mənən yaxın insanları təcəssüm etdirdiyi üçün ədibin onların təqdimində poetik istedadı daha qabarıq üzə çıxır. Oxucu yığcam və obrazlı şəkildə əks etdirilən bu qəhrəmanların mənıəvi mövqeyini, qarşılıqlı münasibətlərini, insan təbiətindəki, həyatdakı gözəlliyi görməyi, dəyərləndirməyi öyrənir.

"Gülbəsləyən qız" hekayəsində yazıçı ana təbiətlə insanın mənəvi gözəlliyin vəhdətini sadə, zəhmətkeş bir gəncin – gülbəsləyən qızın həyata, insana, təbiətə münasibəti nümunəsində əks etdirmişdir. Hekayədə qəhrəmanın - gülbəsləyən qızın

adı çəkilmir. Bu, təsadüfi deyildir. Bununla müəllif yüksək mənəviyyatlı, həyatda gözəllik yaradan bir qızın timsalında fəal həyat mövqeyi tutan, öz əməyi ilə cəmiyyətə fayda verən, zəngin mənəviyyatlı gəncliyin tipik obrazını yaratmışdır.

Böyük sənətkarın əsərləri yazıldığı dövrdə olduğu kimi, bu gün də gənc nəslin mütaliəsində, ümumtəhsil məktəblərinin "Ədəbiyyat" dərsliklərində mühüm yer tutur. Ədibin milli və ümumbəşəri mənəvi dəyərləri, estetik baxışları böyük sənətkarlıqla əks etdirən əsərləri gənc nəsildə müasir dünyagörüşü, fəal həyat mövqeyi, azərbaycançılıq ideologiyası formalaşdırılmasına öz töhfəsini verir.

**Bahar Əliyeva**

**Mir Cəlalın yaradıcılığı müasir uşaq mütaliəsində**

**Xülasə**

Görkəmli yazıçı, ədəbiyyatşünas, pedaqoq Mir Cəlalın zəngin bədii yaradıcılığının mühüm bir hissəsini gənc nəslin təlim-tərbiyəsinə xidmət edən, yüksək ideya-bədii xüsusiyyətləri ilə seçilən əsərlər təşkil edir. Bu əsərlərdə o, özünü uşaq həyatını, arzu-istəklərini dərindən bilən, xalqın gələcəyi olan gənc nəslin həyatına böyük maraq göstərən sənətkar kimi təsdiqləmişdir. Mir Cəlalın hekayələrində gənclərin həyatı, mənəvi aləmi, həqiqət axtarışları, məram və diləkləri yüksək sənətkarlıqla əks etdirilmişdir.

Sənətkar həyatda, məişətdə ilk baxışda diqqəti cəlb etməyən, adi görünən məsələləri gözlənilməz baxış bucağından təqdim etməyi , sadə, saf mənəviyyatlı insanların nümunəsində tipik obrazlar yaratmağı bacarır. Əsərlərindəki müsbət obrazların bədii portretinin, mənəvi aləminin təqdimində ədibin poetik istedadı daha qabarıq üzə çıxır. Oxucu əsərdə yığcam və obrazlı şəkildə təsvir edilən bu qəhrəmanların mənəvi mövqeyini, qarşılıqlı münasibətlərini, həyatdakı gözəlliyi görməyi, dəyərləndirməyi öyrənir.

Sənətkarın əsərlərinin qəhrəmanlarının müxtəlif vəziyyətlərdə əməlləri müasir gənc oxucunu düşünməyə, həyat həqiqətlərini dərk etməyə, fəal mövqe tutmağa sövq edir. Ədibin əsərləri müasir gənc nəslin mənəvi-estetik tərbiyəsində, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

**Бахар Алиева**

**Творчество Мир Джалала в современном детском чтении**

**Резюме**

Важной частью художественного творчества известного писателя, литературоведа, педагога Мир Джалала являются произведения, служащие воспитанию подрастающего поколения и отличающиеся высокими идейно-художественными особенностями. В своих произведениях он зарекомендовал себя как великий писатель, глубоко знающий детскую жизнь и желания,

проявляющий большой интерес к жизни подрастающего поколения, за которым стоит будущее нации. В творчестве Мир Джалала жизнь, духовный мир, поиски истины, цели и мечты молодежи отражены с высоким художественным мастерством.

Писатель умеет представить обыденные вопросы, не привлекающие внимания на первый взгляд, с неожиданной точки зрения, создать типичные образы простых, чистых духом людей. Поэтический талант писателя наиболее ярко раскрывается в представлении художественного портрета и духовного мира положительных образов в его произведениях. Читатель учится видеть и ценить нравственное положение, взаимоотношения и красоту жизни этих героев, кратко и образно описанных в произведении.

Поступки героев произведений автора в различных ситуациях побуждают современного юного читателя задуматься, понять жизненные истины, занять активную позицию. Произведения писателя играют большую роль в духовно-эстетическом воспитании современного молодого поколения, в формировании личности с современным мировоззрением.

**Bahar Alieva**

**Mir Jalal's creativity in modern children's reading**

**Summary**

An important part of the artistic creativity of the famous writer, literary critic, teacher Mir Jalal are works that serve to educate the younger generation and are distinguished by high ideological and artistic features. In his works, he has established himself as a great artist, deeply aware of children's life and desires, showing great interest in the life of the younger generation, behind which stands the future of the nation. In the work of Mir Jalal, life, the spiritual world, the search for truth, the goals and desires of young people are reflected with high artistic skill.

The writer is able to present ordinary questions that do not attract attention at first glance, from an unexpected point of view, to create typical images of simple, pure-minded people. The poetic talent of the writer is most clearly revealed in the presentation of the artistic portrait and the spiritual world of positive images in his works. The reader learns to see and appreciate the moral position, relationships and beauty of the life of these characters, briefly and figuratively described in the work.

The actions of the heroes of the author's works in various situations encourage the modern young reader to think, understand the truths of life, and take an active position. The writer's works play a big role in the spiritual and aesthetic education of the modern young generation, in the formation of a personality with a modern worldview.

## Ədəbiyyat

1. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2005.
2. Yazıçı və zaman. Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bakı Universiteti, 2008.
3. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015.
4. İsmayılov Y. Mir Cəlalın yaradıcılığı. Bakı: Elm, 1975.
5. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti, 2007.
6. Xəlil Z., Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:ADPU-nun nəşriyyatı, 2008.
7. Yusifoğlu R. Uşaq ədəbiyyatı. Bakı: Təhsil, 2002.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur**

**НИГЯР СУЛЕЙМАНОВА**
Доктор философии по филологии, доцент
Азербайджанский университет языков
ул. Р.Бейбутова 134
nigarka-80@mail.ru

# ТЕМА ИДЕНТИЧНОСТИ В РОМАНЕ Х.КУРЕЙШИ “ЧЕРНЫЙ АЛЬБОМ”

## РЕЗЮМЕ

Вопрос личной идентичности интересовал писателей, мыслителей на протяжении многих веков. Общая дилемма подходов, встречающихся в западной традиции, заключается в том, как можно сохранить идентичность в сохранении себя, сталкиваясь с постоянными изменениями в жизни. Идентичность конструируется через историю, через события, произошедшие с нами. Религия часто играет немаловажную роль в формировании идентичности человека. Она может дать человеку чувство принадлежности, но также может ограничить его воспринимаемую свободу, что приведет к кризису веры.

В статье рассматривается роман английского писателя Х.Курейши “Черный альбом”. “Черный альбом” второй роман Х.Курейши, представляет собой захватывающую мультикультурную историю о взрослении пакистанского студента. Статья посвящена поиску идентичности человека в мультикультурном обществе. Х.Курейши является представителем постколониальной литературной традиции. Писатель в поисках самоидентичности небелого англичанина в лице Шахида в романе “Черный альбом”, который преодолевает трудности религиозного, социального, любовного плана. В романе обсуждаются различные идеологии исламского фундаментализма и модернизма, поскольку главный герой сталкивается с путаницей желаний: «принадлежать своему народу», но также хочет испытывать неограниченное удовольствие. Роман был назван в честь альбома Принца, неординарного певца 90-х., бросивший вызов обществу. Герой романа Шахид боготворит Прица, ведь он символ перемен. Х.Курейши писал о своих собственных кризисах идентичности, которые он пережил, когда рос в Англии, будучи сыном матери-англичанки и отца-индуса, который эмигрировал в Англию до того, как все его родственники переехали из Бомбея в Карачи после разделении Индии. Автор сам на себе испытал чувства своего героя.

**Ключевые слова: мультикультурализм, идентичность, иммигрант, религия, традиции, автор.**

Культура является одним из важных аспектов, которые нельзя отделить от человеческой жизни. Она дает восприятие чего-либо, суждение, идеи одних и других людей и то, как человек общается с другими. Культура — это больше, чем речь, одежда и обычаи в еде. Различия между культурами вызывают конфликт.

Рост населения в Великобритании, особенно в Англии, делает эту страну мультикультурной. Прибытие иммигрантов из некоторых стран, таких как Западная Индия и Южная Азия, породило идею мультикультурной Британии, а также Англии. Мультикультурализм вносит различие в ценности и убеждения между ними, а затем вызывает культурный конфликт. Результатом его различия является дискриминация. В Лондоне по-прежнему существует дискриминация и социально-экономический дисбаланс.

В Оксфордском американском словаре современного английского языка слово “идентичность” определяется как "качество или условие быть конкретным человеком или вещью". Идентичность - это то, что формируется через опыт и влияния, которые случаются с нами как с людьми на протяжении всей жизни. Эволюция идентичности может развиваться на разных этапах, останавливаться и останавливаться или снова начать прогрессировать, все зависит от обстоятельств в жизни и окружающих нас людей.

Действие “Черный альбома” Х.Курейши происходит в современной Великобритании. Его главный герой Шахид в поисках своего истинного “я” и идентичности. Шахид разрывается между фанатичными друзьями, мультикультурным межрасовым любовным романом и историческим багажом постколониальной Британии.

Евразийцы или англо-индийцы сформировали первую волну послевоенных азиатских иммигрантов. Они были смешанной расой - европейской и индийской, и сформировали административный класс между правителями и управляемыми. Эта группа людей была христианами, имела европейские имена и т. д. и сильно отождествляла себя с британцами. Они были за интеграцию.

Профессор Дэвид Чайлдс пишет в своей книге: “Британия с 1939 года: прогресс и упадок, о развитии британских колоний в двадцатом веке и об иммиграции в Великобританию и ее бывших колоний.” " В начале 1950-х годов послевоенная иммиграция начала расти из колоний Великобритании, когда распространились новости о британском процветании, и страна столкнулась с нехваткой рабочей силы".(1,63) Пакистан стал независимым в 1947 году, как и Индия. Тогда больше не было возможности использовать слово "индейский" для описания всех народов Индийского субконтинента, и термин "азиатский" впоследствии стал актуальным.

В книге Х.Курейси "Черный альбом" Шахид и его брат Чили выросли в районе среднего класса. Их отец всегда хотел и стремился к изменениям и новым материальным вещам, таким как обмен старой мебели на новую и

ремонт дома. Он был успешным бизнесменом, который зарекомендовал себя в обществе, но даже несмотря на то, что он адаптировался к своей новой родине, его личная жизнь оставляла желать лучшего. Отец Х.Курейши мечтал стать писателем, но азиаты не должны были приезжать в Англию, чтобы побаловать себя мечтами о создании жизни и средств к существованию в качестве писателя. Вместо этого их основное внимание должно было быть сосредоточено на создании жизни для себя, которая была бы невозможна в Пакистане. Он усердно работал всю свою жизнь, а затем умер от сердечного приступа. Он принял западные ценности и британский образ жизни, но до сих пор не был полностью принят в качестве полноправного члена британского общества.

У Шахида и его брата Чили очень разные взгляды на жизнь, в отличие от отца и опыт с которым он столкнулся в Великобритании как иммигрант пакистанского происхождения. Шахид сомневается в жизни, которую выбрали его отец и многие из его поколения. Он хочет что-то другое для себя, новый способ, отличающий от способа своих родителей, где он может найти свою собственную идентичность.

Основная цель поколения, к которому принадлежал пакистанский отец Х.Курейши, заключалась в том, чтобы заработать деньги в Англии и отправить большую часть этих денег домой в Пакистан. Но родственники, оставшиеся в старой родной стране, не имели полного представления картины того, какой была жизнь в Англии. Х.Курейси описывает этот факт так: “Они ничего не знали о холоде и дожде, жестоком обращении и тоске по дому.” (2,34)

Общество является важным фактором, когда дело доходит до того, как мы формируем нашу идентичность. "Слово “пакистанец” было превращено в оскорбление. Это было слово, которое я не хотел использовать о себе. Я не хотел быть собой". (2,28) Это именно те слова, которые Х.Курейши использует для описания своего собственного опыта в отношении своего двойного происхождения, имея пакистанского отца и мать англичанку, живя в Англии. Х.Курейши рассказывает о том, как ему и его друзьям, имеющим аналогичное происхождение, всегда напоминали, что они были иммигрантами второго поколения, и о том, что люди не думали, что они принадлежат Великобритании. То же самое можно сказать и о персонажах "Черного альбома". Они пытаются создать место для себя в британском обществе, каждый по-своему, но трудности — это реальность их жизни. Х.Курейши говорит, что, описывая свой собственный детский опыт; «мы были британскими детьми без дома». (2,70) Он также описывает, как его отсутствие идентичности имеет две перспективы. Он не британец и не пакистанец, что становится очевидным во время посещения его родственников в Пакистане. В "Черного альбоме", после смерти отца, Шахид чувствует, что ему нужно оторваться от семьи и начать жизнь заново. Шахид размышляет о своей

двойственности, которую он испытывает со своей любимой Диди, с одной стороны, и Риазом, своим религиозным другом, с другой.

Шахид пытается найти место в обществе, где он впишется и почувствует цель и принадлежность. Критик современной литературы Брюс Кинг описывает дилемму Шахида следующим образом: «На протяжении всего повествования Шахид колеблется между двумя наборами ценностей, предложенных ему его черными друзьями и его белой любовницей». (2,147) Он пытается сделать выбор. Он исследует различные области, такие как религия, раса и культура, чтобы найти свое место. Факт остается фактом, что он переживает трансформацию; развитие, рост себя как личности, и в конце книги он становится опытным и зрелым. Но к тому времени он также понял и пока отложил в сторону поиск ярлыка того, кто он есть или как его следует называть. Это ситуация, с которой сталкивается Шахид, которая ограничивает его карьерный рост в жизни и создает рамки, в которые он должен вписаться. Однако Шахид мечтает стать писателем, выбор карьеры, который не соответствует традиционной идентичности и стереотипу, который ему дает английское общество.

Роман посвящен поиску молодого человека своей идентичности в мультикультурном обществе, то есть в Великобритании сегодня.

Шахид обеспокоен отсутствием религиозной идентичности и приверженности. Он просто хочет "принадлежать своему народу". Это становится очевидным, когда он дружит с Риазом и Чадом. Шахид начинает тщательно разузнавать свою религиозную идентичность или ее отсутствие. Он несколько завидует своим друзьям, для которых вера кажется естественной и простой само собой разумеющимся. Он видит считает себя неудачником, когда дело доходит до религии, и сравнивает себя со своими более преданными друзьями, которые легко принимают религию и все, что с ней связано.

Идентичность человека — это то, что возникает при столкновении с другими людьми, их идентичностью и образом жизни в обществе. Некоторые люди никогда не сомневаются в своей идентичности, которая была дана им или сформирована семьей, культурой и традициями. Для них это само собой разумеющееся. Но для Шахида идентичность - это не то, что можно считать само собой разумеющимся как вопрос культуры, традиций и истории. Это может быть результатом его происхождения, как иммигранта второго поколения, все еще затронутого постколониальным наследием, что ставит его в дилемму того, кто он есть и кем станет. Шахид разрывается между многими вариантами идентичности, которые может предложить современное общество, и он чувствует, что сделать выбор или следовать традициям, либо принять английский образ жизни, либо попытаться сформировать свой собственный путь, каким бы он ни был, в поисках своего истинного я.

В ''Черном альбоме'' Х.Курейши успешно описывает тернистый путь Шахида поиска себя. Автор решает этот факт убедительно, так как нет легкого пути, нет правильного или неправильного выбора для главного героя.

Автор не предоставляет читателю простое решение того, как найди идентичность, а скорее истинное отражение самой жизни, и именно и в этом и заключается смысл книги. Это простой и убедительный реалистичный отчет о поиске идентичности человека в современной мультикультурной Великобритании и сложности, связанные с ней.

**Список литературы:**


1. Childs, David.Britain since 1939: Progress and Decline (British Studies Series, 10) Houndsmills:1995(34)
2. Kureishi H. Dreaming and Scheming: Collected Prose by Kureishi, Hanif (2002) (34)
3. Kureishi H. The Buddha of Suburbia / H. Kureishi. – London: Faber and Faber; Boston,
   1991. – 284 p.
4. Kureishi H. Intimacy. Midnight All Day. New York: Scribner Paperback Fiction, 2001.
5. Moore-Gilbert B. Hanif Kureishi. Manchester: Manchester University Press, 2001.
6. Sauerberg L.O. Intercultural Voices in Contemporary British Literature: The Implosion of Empire. New York: Palgrave, 2001.


**Nigar Süleymanova**

**H.Qureyşinin "Qara albom" romanında identiklik mövzusu**

**Xülasə**

Şəxsi kimlik məsələsi uzun əsrlər boyu yazıçıları və mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Qərb ənənəsində rast gəlinən yanaşmaların ümumi dilemması insanın həyatında daimi dəyişikliklərlə üzləşdikdə özünü fərd kimi itirmədən kimliyini necə qoruyub saxlaya bilməsidir. Kimlik tarix, başımıza gələn hadisələr vasitəsilə qurulur. Din çox vaxt insanın kimliyinin formalaşmasında mühüm rol oynayır. Bu, insana mənsubiyyət hissi verə bilər, eyni zamanda, onun dərk etdiyi azadlığı məhdudlaşdıra və iman böhranına səbəb ola bilər. Məqalədə ingilis yazıçısı H.Qureyşinin "Qara albom" romanından bəhs edilir. H.Qureyşinin ikinci romanı olan "Qara Albom" pakistanlı tələbə haqqında multikultural yetkinlik əhvalatıdır. Məqalə multikultural cəmiyyətdə insan şəxsiyyətinin axtarışına həsr olunub. H.Qureyşi postkolonial ədəbi ənənənin nümayəndəsidir. Yazıçı "Qara albom" romanında Şəhidin simasında dini, sosial, sevgi planında verilən çətinliklərini dəf edən ağdərili olmayan ingilisin kimlik axtarışındadır. Romanda baş qəhrəmanın "öz xalqına mənsub olmaq", həm də qeyri-məhdud həzz almaq istəyi arasındakı çaşqınlıqla üzləşdiyi bir vaxtda İslam fundamentalizminin və modernizmin müxtəlif

ideologiyalarından bəhs edilir. Romanın adı 90-cı illərin qeyri-adi müğənnisi, cəmiyyətə meydan oxuyan Prinsin albomunun adından götürülüb. Romanın qəhrəmanı Şəhid Prinsi ideallaşdırır, çünki o, dəyişiklik rəmzidir. İngilis ananın və Hindistan bölünərkən bütün qohumlarının Bombeydən Karaçiyə köçməsindən əvvəl İngiltərəyə mühacirət edən hindu atanın oğlu H.Qureyşi İngiltərədə böyüyərkən yaşadığı öz identiklik böhranı haqqında yazmışdır. Müəllifin özü qəhrəmanının hisslərini yaşamışdır.

**Açar sözlər: multikulturalizm, kimlik, immiqrant, din, ənənələr, müəllif.**

**Nigar Suleymanova**

**The theme of identity in the novel by H. Kureishi "The Black Album"**

**Summary**

The issue of personal identity has been of interest to writers and thinkers for many centuries. The general dilemma of the approaches found in the Western tradition is how one can maintain one's identity in preserving oneself when faced with constant changes in one's life. Identity is constructed through history, events that have happened to us. Religion often plays an important role in shaping a person's identity. It can give a person a sense of belonging, but it can also limit their perceived freedom, leading to a crisis of faith. The article deals with the novel by the English writer H. Kureishi "The Black Album". The Black Album, the second novel by H. Kureishi, is a gripping multi-cultural coming-of-age story about a Pakistani student. The article is devoted to the search for human identity in a multicultural society. H. Kureishi is a representative of the post-colonial literary tradition. The writer is in search of the self-identity of a non-white Englishman in the person of Shahid in the novel "The Black Album", which overcomes the difficulties of a religious, social, love plan. The novel discusses the various ideologies of Islamic fundamentalism and modernism as the protagonist faces the confusion of wanting to "belong to his people" but also wanting to experience unlimited pleasure. The novel was named after the album of Prince, an extraordinary singer of the 90s who challenged society. The hero of the novel, Shahid, idolizes the Prince, because he is a symbol of change. Kureishi wrote about his own identity crises, which he experienced while growing up in England, the son of an English mother and a Hindu father, who emigrated to England before all his relatives moved from Bombay to Karachi after the partition of India. The author himself experienced the feelings of his hero.

**Key words: multiculturalism, identity, immigrant, religion, traditions, author.**

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: f.f.d Gilə Huseynli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**VÜSAL HICRAN (İSGƏNDƏRLI)**
**Gəncə Dövlət Universiteti**
**vusalisgenderli010@gmail.com**

# NİZAMİDƏ NOVRUZ BAYRAMININ İZLƏRİ HAQQINDA

**Açar sözlər:** şeir, ədəbiyyat, yaradıcılıq, şair, folklor, ideya, poema, ənənə, tarixi
**Ключевые слова:** поэзия, литература, творчество, поэт, фольклор, идея, поэма, традиция, история**Key words:** poetry, literature, creativity, poet, folklore, idea, poem, tradition, history

Nizami Gəncəvi yaradıcılığının fikir və ideya qaynaqlarını araşdıran tədqiqatçılar şairin müxtəlif,tarixi,elmi mənbələrə müraciət etdiyini, Azərbaycan folklorundan yetərincə qaynaqlandığını qeyd etmişlər. Eləcə də "Xəmsə" və "Avesta" arasında oxşar süjetlərin, ortaq ideya və qənaətlərin varlığına dair kifayət qədər qiymətli araşdırmalar aparılıb. Ümumbəşəri sənətkar təsvir etdiyi xalqları, tayfa və qövmləri, müxtəlif təbəqəyə və zamanlara aid obrazları ümumiləşdirərkən onların məişət,əxlaq,yaşam qaydalarını da ustalıqla təqdim edir. Nizami irsinin araşdırılması, tədqiqi və tərcüməsində bənzərsiz xidmətləri olan nizamişünas alim, prof. Xəlil Yusifli yazır: "Nizami dühasının böyüklüyü ondadır ki, o, xalqla hökmdar, fərdlə cəmiyyət arasındakı münasibətləri və bu münasibətlərin kölgəli cəhətlərini qorxmadan, cəsarətlə açıb göstərə bilir". [4;8]

Şair təkcə mənsub olduğu xalqı deyil, bəşərin gələcək taleyini düşünmüş, bədii, fəlsəfi, elmi qənaətlərini "Xəmsə" boyu ümumiləşdirmişdir. Böyük sənətkar "İskəndərnamə" poemasının birinci hissəsi "Şərəfnamə"də "novruz" adından iki məqamda istifadə etmişdir.

Birinci: Şair "İskəndərin Nüşabə ilə məclisdə oturması" bölümündə bu bayramın adını təntənə, fəxr və qürür hissi ilə çəkir və sanki doğma vətəni Azərbaycanın ayrılmaz parçası olan Bərdədə Novruz şənliyinə bərabər bir unudulmaz, yaddaqalan, ömrə yazılmağa layiq gün haqqında danışır. Milli kimliyinə hər zaman ehtiramla yanaşan böyük Azərbaycan şairi Nizami İskəndərin Nüşabə ilə görüşünə qəlbən sevinir və bu sevinc hissini qiymətli sətirlərə çevirir:

Firidun şənliyi,Cəmin novruzu,
Üzlərdən silmişdi kədəri,tozu.[1;227]

Bu yanaşma Nizaminin digər əsərlərində də nəzərə çarpır:

"Sirlər xəzinəsi"ndə oxuyuruq:
Koca an ədl o an ensafsazi,
Ke ba fərzənd əz inan rəft bazi.
Cəhan ze atəşpərəsti şod çenan gərm
Ke bad əz in mosəlmani tora şərm.
(Hanı o ədalət və o insaflı rəftar

Ki, bunlar öz oğlu ilə o cür davrana.
Cahan atəşpərəstlikdən o cür isindi
Ki, səni bu müsəlmanlıq qoy utandırsın).

Yaxud "Yeddi gözəl" poemasında şair yazır:

Dirin name ra ço zənd-e məcus,
Celve zan dadeəm be həft ərus.
(Məcus Zəndi kimi qədim dastanı
Yeddi gəlinlə cilvələndirmişəm.)

İkinci: "İskəndərin İran atəşkədələrini dağıtması" bölümündə isə şairin başqa bir münasibəti ortaya qoyur. Zərdüştilikdən kifayət qədər qaynaqlanan, bütün poemalarında sevimli qəhrəmanlarını "zənd", "cəmşid", "atəşpərəst" kimi ifadələrlə oxşayan, hətta bəzən " atəşpərəsti" nümunə göstərən sənətkar bu bölümdə tamamilə ayrı bir mövqedən çıxış edərək iran atəşpərəstlərini nifrət və qəzəblə qarşılayır. Şair "novruz" sözündən xoşa gəlməycək bir tərzdə və məkanda istifadə edir. Burada "İranlılar" dediyi xalqın Novruz və Səddə bayramlarında yüngül əxlaq və həyat qanunlarını,daha doğrusu qanunsuzluqlarını kəskin şəkildə tənqid edir.

Görəsən, Azərbaycan şairi Nizami niyə məhz "İranlılar" dediyi qövmün inancını, qədim bayramını ələ salırdı? Özü də burada bayramın qeyd olunduğu yer məlumdur. Şair bu mənəviyyata ləkə saydığı qanunlar dünyasını İskəndərin əli ilə yıxandan dərhal sonra qəhrəmanını oradan uzaqlaşdırır və ağıllı nədimlərin tədbiri ilə Azərbaycana gətirir. Burada isə sadəcə müxtəlif yerlərdə gördüyü atəşləri söndürərək İsfahana gedir:

آزادگان تدبیر به آنجا وز
آبادگان آذر سوی درآمد
(Vəz anca be tədbir azadqan
Dər aməd suyi AZƏRABADQAN [3;698]
Aqillər məsləhət gördülər ona,
Oradan tərpənsin Azərbaycana.[1;179]

Həmin bölümün başlanğıcında oxuyuruq:

پیر دیدهجهان ای بیار سپندی
میر شبستان در فشان آتش بر[3;697]
(Ey dünyagörmüş qoca,üzərlik gətir,
Əmirin yataq otağındakı atəşə sən.) [2;206]

Bədii tərcümə:

Şahanə məclisdə ey sınaqlı pir,
Odda yandırmağa üzərlik gətir.[1;176]

Maraqlıdır ki,atəşkədələrin dağıdıllmasına,atəşin sonməsinə həsr olunan bölümün əvvəlində belə, atəşə inam hissi hakimliyini qoruyur.Burada şair bədnəzərə gəlməmək üçün üzərlik yandırmaq haqqında kultdan danışır.

Deməli,şair bu bölümdə müdriklik,ədalət rəmzi olan Zərdüştü,onun dünyanı xilas edəcək işığa inancını,bu inancı yaşadan Avestanı tənqid etmir,əksinə bu mənbədən yeri gəldikcə ustalıqla istifadə edir:

سپند دل از میسوزم چو ولیکن
گزند رساند چون بد چشم من به [3;698]
(Lakin ürəyim üzərliktək yanarsa
Mənə bədnəzər xətər yetirərmi?) [2;207]
Könlüm üzərliktək yanarsa əgər,
Üstümə düşərmi,söylə,bir nəfər? [1;176]

Həmişə olduğu kimi,burada da şair təhkiyəyə başlamazdan öncə folklor-dastan ənənəsinə sadiq qalır:

پیش داستانهای گزارنده
خویش عهدان پیش از گوید چنین[3;697]
(Köhnə dastanlardan xəbər verən
Özündən qabaq yaşamışlardan belə xəbər verir). [2;207]
Köhnə dastanları rəvayət edən,
Belə nəql eləyir uzaq keçmişdən.[1;176]

ایرانیان که بفرمود سکندر
میان پرستی آتش از گشایند [3;698]
(İskəndər əmr etdi ki,iranlılar
Atəşə pərəstişdən əl çəksinlər.) [2;207[
İrana əmr etdi böyük İskəndər,
Atəşpərəstlikdən etsinlər həzər.[1;176]
روزگار اندران رسم بود چنان
آموزگار آتشگه در باشد که [3;698]
(O vaxtlar belə qayda var idi,
Müəllim atəşgahlarda oturardı.)
Iranda adətdir keşmişdən bəri,
Atəşkədə idi alimlər yeri.[1;177]

Nizami yazır:

بود گنج خانهٔ آتشکده هر
Hər atəşgəde xane gənc bud [3;698]
(Hər bir atəşgah xəzinələrlə dolu idi) [2;207]

خراب بناها آن کرد چو سکندر
آب دریای چو گنجی کرد روان [3;698]
Onları kökündən yıxdı İskəndər,
Xəzinə axıtdı bir dəniz qədər.[1;177]

Beytin bədii tərcüməsi ilə orijinal mətn arasında kiçik bir uyğunsuzluq var.

Tərcüməyə görə İsgəndər atəşgədələri kökündən yıxır və dəniz qədər xəzinə axıdır, əslində isə "xəzinə su kimi axırdı" şəklində uğurlu filoloji tərcümədəndə görünür ki, müqayisə deyil, bənzətmə əsas götürülməli idi.

داشتی گذر کو گهیآتش بر
برداشتی گنج آن کندی بنا [3;698]
Hər atəşgədənin keçsə yanından,
Yıxaraq xəzinə yığardı ondan.[1;177]
(Hər atəşgaha ki,güzəri düşsəydi,
Uçurub xəzinəni götürürdü).[2;207]

پرست کاتش بود آن عادت دگر
(Degər adət an bud ke atəşpərəst..) [3;698]
نشست نوعروسان با ساله همه
(Həme sale ba nov ərusan neşəst).

Muğlarda belə bir azar da vardı..[1;177]

Beytin birinci misrasına diqqət edildikdə görürük ki,burada "atəşpərəst" sözü "muğlar" kimi bədii tərcümə olunub."

Hər il başında təzə bir gəlinlə oturardı, -filoloji tərcümə ilə

Hər ilin başında bir qız alardı, -bədii tərcümə arasındakı fərq də aydın hiss olunur.

سده جشن و جمشید نوروز به
آتشکده آیین گشتی نو که [3;698]
(Cəmşidin novruzunda, Sədə bayramlarında
Onda ki atəşkədələrdə ayinlər yenidən başlardı..) [2;208]

Novruz ilə Səddə bayramlarında,
Ayinlər yenidən olurdu bərpa.[1:177]

2007-ci ildə üç cilddə çap olunan "Azərbaycan etnoqrafiyası" kitabında oxuyuruq:

"Səddə bayramı da insanların qışa qarşı münasibətlərini, qışdan qorxmadıqlarını nümayiş etdirən bir bayramdır. Xalqımız Səddə deyimini yanvarın son günü, iki çillə arasındakı sərhəddə, Böyük çilləni əvəzləyən Kiçik çillənin sərt şaxtalarının qarşısını almaqdan ötrü çəkilən böyük maneə, odlu-alovlu bənd, yaxud sədd kimi mənalandırıb. Bayramın bütün tədbir və ayinləri də məhz bu məqsədə xidmət etmişdir. Novruza nə az, nə çox, düz əlli gün qaldığını bildirmək üçün icra olunan Səddə bayramında insanlar axın-axın gəlib təyin olunmuş meydana toplaşır. Meydanda böyük bir tonqal yandırılır. Toplaşanlar əl-ələ tutub tonqalın çevrəsinə dolanır, "əlli gün Novruza qədər, yüz əlli gün biçinə kimi" sözlərilə başlanan mahnı oxuyur, şənlik keçirir, rəqs edib əyləncəli tamaşalar göstərirlər".

Görünür, qədim tarixi olan bayramların məzmunu dəyişmiş, bu bayramların əyləncəyə çevrilməsi şairi hiddətləndirmişdir. Əl-Biruni Novruzu təbiətin yenidən dirilişi kimi qiymətləndirirdi. Nizamül Mülk "Siyasətnamə" əsərində Novruz bayramından ürəkdolusu ilə danışır. Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye", Mahmud Kaşğarlının "Divanü lüğət-it Türk", Balasaqunlu Yusif Xas Hacibin "Qutadqu bilik", Ömər Xəyyamın "Novruznamə"və b. əsərlərində rast gəlirik.

XIX əsrin bədii tarixçiliyinin başqa bir nümayəndəsi K.P.Masalskinin (1802-1861) tarixi romanları və hekayələri də geniş şöhrət qazanmışdı. Yazıçı burada ağıllı qurulmuş bir macəra süjeti ilə oxucunu necə maraqlandırmağın yolunu tapa bilmişdi. Lakin müəllif "Oxatanlar" romanının qəhrəmanı Burmistrovanın şəxsi həyatını tarixin güclü hərəkəti ilə bağlaya bilməmişdi. Düzdür, yazıçı əsərin son səhifələrində I Pyotrun simasını bütün problemlərin həllində kömək edən müdrik və ədalətli bir hökmdar kimi göstərməyə çalışdı. Nəzərə alsaq ki, tarixi roman milli-tarixi keçmişə olan bir romantik maraq əsasında, romantizm atmosferində yaranmışdır, o zaman romantika üçün tarixin bədii ünsiyyət vasitəsi kimi poetik fantastika ilə birləşməsi əsl həqiqətin qarantı olduğunu yəqin etmək olar. A.A.Bestujev bu əsərlərdə yazıçının yaradıcı təxəyyülündə *"tarixi keçmişin bədii biliklərinin əsas vasitələrini*" (2, s. 548) görürdü. Bu mövqe tarixə intuitiv baxışın romantik-idealist nəzəriyyəsinin əsasını təşkil etdi. Qədim Rus dövründən qalan bir tarixi romanın ən vacib mənbəyi və zəruri elementi, folklor hesab edilən romantik tənqidə də yer verilirdi. Ancaq tarix və fantastika romantik mənada parçalandı və əxlaq, gündəlik həyat, tarixi faktlar insanın daxili dünyası ilə əlaqəsiz öz-özünə mövcud idi. Romantizm ideyalarından uzaqlaşmaq və tarixi nəsrdə realist prinsiplərin formalaşması XIX əsrin 40-cı illərinin yazıçılarından N.A.Polevoy və A.F. Veltmanın əsərlərində xüsusi yer tuturdu. Yazıçı N.V.Kukolnikova isə bədii axtarışlarında fransız yazıçısı A.Dümanın romanlarından təsirlənərək tarixi romanın sevgi-macəra yönünü inkişaf etdirdi. O, həm də ədəbi axtarışlarında tarixi və bioqrafik janrda roman yaratmaq istiqamətini götürdü. Bu da tarixdə şəxsiyyətin rolu haqqında fikirlərini həyata keçirməyə imkan verdi və buna görə güclü şəxsiyyətlərin tarixi hadisələrin mərkəzində olması, başqalarına təsir göstərə bilməsi ehtimalını artırdı.

Tarixi romanın yeni formaları G.F.Kvitka (1778-1843) tarixi-etnoqrafik oçerkləri ilə janrın yeni formalarını yaratmış oldu. Yazıçı bədii təxəyyüllə tarixi

gerçəkliyi sintez edərək janrın sonrakı inkişafına güclü təsir göstərdi. Bununla yanaşı, onun əsərlərində didaktikaya və xristianlıq təbliğinə də rast gəlmək olur ki, bu da şəxsiyyətin tarixi hərəkatdakı rolunu nisbətən aşağı salırdı. XIX əsrin birinci yarısında tarixi mövzuda yazılan romanlar davam edir, lakin bu əsərləri tarixi romanın bugünkü standartları baxımından qiymətləndirmək çətindir. Tədqiqatçı S.M.Petrovun fikrincə: "*XIX əsrin 40-cı illərinə qədərki tarixi romanlarda bir təqlidçilik, epiqonçuluq da yox deyildi. Bu zaman rus ədəbiyyatında etik və estetik prioritetlərdə dəyişiklik oldu, qurulmuş ənənələr pozuldu, yeniləri yaradıldı"* (3, s. 267).

XIX əsrin ortalarında artıq Rusiya cəmiyyətinin mədəni şüurunda, onun milli və mənəvi mahiyyətinin dünyadakı yeri və rolu haqqında müəyyən bir təsəvvür meydana gəlmişdi. Müxtəlif tarixçilər və filosoflar tərəfindən irəli sürülən tarixi prosesdə fərdi insan varlığının tarixi və onun gedişatı haqqında fəlsəfi düşüncənin variantları sınaqdan keçirildi. Tarixi-bədii və mədəni diskursda yer alan Rus tarixi romantikası dövrünün tarixi və fəlsəfi mübahisələrini əks etdirməklə yanaşı, tez-tez sosial-fəlsəfi düşüncəni qabaqlayır, müxtəlif cərəyanları təhrik edir, formalaşdırır və toqquşdururdu. Bu, hər şeydən əvvəl, Rusiyanın inkişaf yolları, dünyada və tarixdə yeri barədə müzakirələrə başlayan daxili siyasi islahatların nəticəsi idi. Tarixi şüurun yüksəlişi, milli tarixi keçmişə maraq 1860-cı illərdə yeni bir mərhələyə daxil oldu, ədəbiyyatda tarixi mövzunun inkişafında yeni bir dövr müəyyənləşdi. Bu, ilk növbədə tarixi dramın inkişafına təsir etdi, lakin tarixi mövzularda nəsrdə də yeni cərəyanlar meydana gəlməyə başladı.

Tarixi gerçəkliyi dərk etmək üçün yeni prinsiplərin axtarışı Rusiya tarix elmində getdikcə yayılmaqda və özünə yer etməkdə idi. Burada Qərb tarixşünaslıq sxemlərinin və konseptual quruluşların təsiri də aydın görünürdü. Bu səbəbdən də ədəbi düşüncədə olduğu kimi, tarxçilikdə də Qərb düşüncəsi aparıcı rol oynayır. Tarixi iqtisadi əlaqələrin cəmlənmiş ifadəsi kimi nəzərdən keçirən filosoflar və tarixçilər tarixi prosesin sürətlənməsinə həlledici əhəmiyyət verdilər. Əsrin son üçüncü hissəsindəki materialist baxışlar sosial-fəlsəfi antropologiya, fəlsəfə, tarix və etika sahələrinə yayıldı. L.Feyerbax insanı *"yeganə, universal və fəlsəfənin ən ali mövzusu"* (4, s. 190) elan etdi. L.L.Feyerbaxın ardınca N.G.Çernışevski *"...həyatın hər hansı bir sosial sferası haqqında hər şeyin əsasını insanın təbiəti, içindəki hərəkətlər və fəaliyyətlər və ehtiyacları haqqında ümumi anlayışlar təşkil etməlidir"* (5, s. 829) düşüncəsini müdafiə etdi. Bütün bunlar tədricən tarixə münasibətdə əxlaqın müxtəlif bucaqlardan yenidən qiymətləndirilməsinə gətirib çıxardı. A.I.Herzen, D.I.Pisarev, N.A.Dobrolyubov, N.G.Çernışevski, P.N.Tkaçev və b. əsərlərində tarixə münasibətdə yeni yanaşmalar sərgilədilər.

Əxlaqın şəxsi marağı, fəzilətin meyarı kimi "ictimai fayda, ətraf mühitin və şəraitin məhsulu olan bir insan haqqında" (Helvetius) fikirlər tarixə münasibətdə rus mütəfəkkirləri tərəfindən mənimsənilmiş və yaradıcı şəkildə işlənmişdir. P.L.Lavrov "Tarixi məktublar"ında insanın şüurlu və ya şüursuz olaraq bütün tarixə qeyd-şərtsiz

görünən əxlaqi meyarları tətbiq etdiyini iddia etdi. Onun nöqteyi-nəzərincə tarixin mənəvi idealı keçmişin mənasını və perspektivini verə biləcək yeganə amildir, çünki bütöv tarix, hər şeydən əvvəl, ədalət idealının təcəssümüdür. Buna əsaslanaraq, deyə bilərik ki, XIX əsrin ikinci yarısında rus ədəbiyyatındakı tarixi roman bugünü anlamaq və gələcəyin inkişaf yollarını dərk etmək üçün keçmişə dönmüşdür. Bununla da bədii düşüncə və təxəyyülün köməyi ilə keçmişlə gələcək arasında bir körpü meydana gəlmişdi. Əksər romançılar üçün tarixi keçmiş indikindən daha cəlbedici görünürdü. Buna görə də, bu əsərlərdə tez-tez poetikləşən tarix gələcəyin qarantı kimi idealizə olunur və romantikləşdirilirdi.

XIX əsrin ikinci yarısında, təxminən 20 illik bir fasilədən sonra rus ədəbiyyatında yenidən tarixi romanların yazılması prosesində intensivlik yaşanır. XIX əsrin 70-90-cı illərində G.P.Danilevskinin (1829-1890) "Tuna üzərindəki Potyomkin" (1876), "Şahzadə Tarakanova" (1883), "Yandırılmış Moskva" (1885), "Qara il" (1888) və s. tarixi romanları II Ketrin dövrünə həsr olunmuşdu. Yazıçı bu əsərlərində XVIII əsr cəmiyyətinin əsas sütunlarından olan ailələri təsvir edirdi. Bu əsərlər hadisələrin effektivliyi, obrazların parlaqlığı, dövrün real gerçəkliklərinin təsviri ilə fərqlənirdi. Tədqiqatçı S.Petrovun bu fikirdədir ki: *"Bunt Moskva" romanında Tolstoyun "Hərb və sülh" əsəri ilə səsləşən bir çox epizod və görüntü var"* (3, s. 434). L.Tolstoy əsərinin Danilevskinin romanındakı aydın təsiri yalnız bəzi qəhrəman və mövqelərin xarici oxşarlığı ilə deyil, həm də yazıçının L.Tolstoyun müharibəni milli bir fəlakət kimi şərh etməsi, xalq müqavimətini Napoleonun şəxsiyyəti ilə əlaqəli şəkildə təsvir etməsi kimi təzahürlərində də özünü büruzə verdi. Lakin Napoleonun şəxsiyyətini mənəvi cəhətdən qiymətləndirərək tarixi böyüklüyünün mifini pozan Danilevski, eyni zamanda, onu müharibənin yeganə günahkarı hesab etdi. Ədəbiyyatşünas Viktor Şklovski fikrincə, L.Tolstoy tarixi gerçəkliyə əməl edərək Napoleonun antiinsani mahiyyətini yarada bilmişdir: *"Tolstoy napoleonizmin artıq inlkişaf etmiş mahiyyətinin işığında I Napoleon obrazını verirdi"* (6, s. 307).

70-ci illərdə ədəbi səhnəyə yazıçı V.S.Solovyov (1849-1903) daxil oldu və özünün tarixi romanlarını yazdı. Yazıçının uğuru ilk əsəri "Şahzadə Ostroq"dan (1876) başladı. Bundan sonra, demək olar ki, hər il müəllif oxuculara və tənqidçilərə yeni tarixi əsərlər təqdim edirdi. "Gənc imperator" (1877), "Qrenadier şirkətinin kapitanı" (1878), "Çar qız" (1878), "Çar səfirliyi" (1890), "Şahzadə kürəkəni" (1893) və s. əsərləri əsrin sonlarına doğru müəllifini populyarlaşdırdı. Tezliklə V.Solovyovun adı bir yazıçı kimi bütün Rusiyada məşhurlaşdı, əsərləri yüksək cəmiyyət salonlarında, intellektual dairələrdə çəkildi. Yazıçı inadla və israrla qarşısına qoyduğu məqsədinə çatdı. A.Saxarovun yazdığı kimi, əsərlərində: *"Rusiya tarixini bədii formada xalqın mülkünə çevirdi"* (7, s. 75). V.S.Solovyov öz romanlarında əsas diqqəti dövlət prinsipinin daşıyıcılarına, ifadə olunmasına yönəltmişdir. Ayrıca onun əsərlərində sənətkarlıqla yaradılan qadın obrazları qadının cəmiyyətdə getdikcə artan rolunu reallıqla əks etdirirdi.

Üç Tolstoy soyadlı məşur rus yazıçılarından birincisi A.K.Tolstoyun (1817-1875) 1862-ci ildə yazdığı İvan Qroznı zamanından bəhs edən və üzərində iyirmi ilə yaxın düşündüyü "Knyaz Serebryanıy" romanında baş qəhrəman olaraq İvan Qroznını götürürdü. Yazıçı bu romanı Qərb tendensiyası kontekstində yazmış, daha çox İvan Qroznının mənfi keyfiyyətləri üzərində dayanmış və onu zalım hökmdar kimi qələmə vermişdi. Romanda savyonofil ruhunda feodal Rusiyasını təsvir etmiş və boyarı ideallaşdıraraq İvan Qroznı və I Pyotrun keçirdiyi islahatlara qarşı çıxmışdır. Bu dövrdə yazılan "Puqaçevçilər" (1874), "Moskvadakı vəba" (1880), "Krutoyarskaya şahzadə" (1893), "Peterburq hərəkatı" (1880), və s. əsərlərindədə tarixi proseslər təsvir olunurdu. Bu əsərlərdən arxivlərdə materialları diqqətlə toplayaraq yazdığı "Puqaçevçilər" romanı oxucular arasında rəğbətlə qarşılandı. Bununla birlikdə, yazıçı romanlarında "*dilin parlaqlığını və rəngini, Ketrin dövrünün bəzi xırda şəxsiyyətlərini və xarakterik cəhətlərini müvəffəq şəkildə təsvir edirdi"* (8, s. 202].

E.P.Karnoviçin (1823- 1885) "Rusiyadakı Malta cəngavərləri" (1878), "Sevgi və tac" (1879), "Özünü elan edən uşaqlar" (1880), "Sankt-Peterburqdakı çətinlik" (1887) və s. əsərlərində, demək olar ki, XVII-XVIII əsrlərdə baş verən hadisələr təsvir edilirdi. Tarixi materiallar və faktların, hətta hadisələrin həqiqi iştirakçılarının replikaları belə diqqətlə qorunurdu. Buna görə də, onun tarixi povestləri bədii əsərdən çox, peşəkar bir tarixçinin əsərlərinə daha çox bənzəyir və müəyyən bir tarixi dövrü xarakterizə etmək üçün etibarlı mənbələr kimi istifadə edilirdi. A.F.Pisemski (1820-1881) yaradıcılığının son dövrlərində (XIX əsrin 70-80-ci illəri) rus ədəbiyyatının bərqərar olmuş mənəvi-əxlaqi istiqamətinə uyğun inkişaf edən tarixi romana keçdi. Əsas romanlarından biri "Masonlar"da (1880) tarixi hadisələrdən asılı olaraq insanın mənəvi və əxlaqi inkişafını təsvir etməyə çalışdı. Lakin onun bu təsvirlərində müəyyən bir qarışıqlıq da var idi. Tənqidçi S.Plexanovun yazdığı kimi: *"...A.F.Pisemskinin tarixə bağlılığını üzə çıxarmaq və şəxsiyyətin tarixdəki roluna münasibətini müəyyənləşdirmək bizim üçün çətin görünür, çünki yazıçı heç vaxt aydın dünyagörüşü ilə seçilməyib"* (9, s. 185).

XIX əsrin sonlarında tarixi mövzuda ən çox yazan yazıçılardan biri D.L.Mordovtsevin (1830-1905) "İdealistlər və realistlər" (1876), "Yalançı Dmitri" (1879), "Mamayevin döyüşü" (1881), "Müstəqil xalçaçı" (1895) və s. əsərlərində 1920-1930-cu illərin yazıçıları tərəfindən dəfələrlə xatırlanan mühüm tarixi hadisələr təsvir edilirdi. Novqorodluların öz azadlıqları uğrunda mübarizəsi, rəsmi kilsə arasındakı qarşıdurma, 1812-ci il Vətən müharibəsi və s. mordovyanlar öz əsərlərində tarixi həqiqətlərə arxalanır, tarixi prosesin qanunlarını və incikliklərini bədii formada dərk etməyə çalışırdılar. Yazıçı qəhrəmanları əvvəlcədən qurulmuş intriqanın sadə bir sxeminə sığışdırmamağa çalışırdı. Lakin D.L.Mordovtsev qəhrəmanlarını olduğu kimi və ya ola biləcəyi kimi başa düşməyə çalışmasına baxmayaraq, tarixi təfəkkürün təsvirinin yeni mərhələsinə yüksələ bilmədi. Müasir tədqiqatçılardan A.Soroçanın fikrincə, Mordovtsevin yaradıcılıq metodu *"...dünyəvi*

*və mənəvi ədəbiyyatdan xatırlatmalar səciyyəsi daşıyır və tam olaarq tarixi romanın əsasına çevrilə bilmir"* (102 s. 209).

Yazıçı P.V.Polejayeva (1827-1894) tarixi romanları içərisində Aleksey Petroviç" (1885) əsərini yazarkən mənbə və sənədlərə, elmi əsərlərə əsaslanmışdır. Rusiya dövlətinin tarixində görkəmli şəxsiyyətlər haqqında danışmaq, taleyini və faciəsini aşkar etmək üçün mümkün qədər obyektiv olmağa çalışdı. Milli tarixin bilinməyən məqamlarına maraq oyatmaq, tarixi şəxsiyyətləri siyasi və psixoloji orijinallığı ilə populyarlaşdırmaq yazıçının əsas məqsədlərindən biri idi. Bütün bunlar illüstrativ tarixi povest qarşısında qoyulmuş vəzifələr çərçivəsinə uyğun gəlirdi. Yazıçı V.V.Krestovski (1840-1895) isə tarixi əsərlərində rus xalqının tarixi rolu haqqında vətənpərvərlik ideyasını rəhbər tutmuşdur. Onun "Babalar" (1876), "Ulan Tsareviç Konstantin" (1875) tarixi hekayə və esselərində tarixi materaillardan geniş istifadə edilmişdir. "Rus bülleteni" jurnalında dərc olunan rus-türk müharibəsi ilə bağlı esseləri "Ordudakı iyirmi ay (1877-1878)" (1879) kitabına daxil edildi. Elə həmin illərdə M.N.Volkonski (1860-1917) "Malta zənciri" (1891), "Hersoqun qardaşı" (1895), "İmperatriçanın üzüyü" (1896), "Axtar və tap" (1904), "Hersoqun sirri" (1912), "Şahzadə Nikita Fyodoroviç" (1914) və s. tarixi mövzularda yazdığı romanların müəllifi kimi rus ədəbiyyatı üçün hələ yeni olan tarixi-macəra janrının yeni nümunələrini yaratmaqla məşğul idi.

Yazıçı N.E.Heinze (1852-1913) qırxdan çox roman və hekayə nəşr etdirdi; bunların arasında tarixi romanlar mühüm yer tuturdu. İlk tarixi romanı "Malyuta Skuratov"un (1891) uğurundan sonra "Arakçeyev" (1893) romanında əzablı və bədbəxt bir insan kimi təsvir etdiyi hərbi lider A.A.Arakçeyevin qeyri-ənənəvi obrazını yaratdı. Sosial münaqişələrin təsvirində rus realist ədəbiyyatının ənənələrini davam etdirən yaazıçı şəxsiyyətin təsvirində sərbəst insanı sosial hüdudlarından kənarlaşdıran XIX əsrin birinci yarısının romantizminin estetikasına diqqət yetirmişdir. Yazıçının tarixçiliyinin nisbiliyi və şərtiliyi "Tavrida şahzadəsi" (1895), "Taclı cəngavər" (1895), "Generalissimus Suvorov" (1896), "Böyük Novqorodun mühakimə günləri" (1897), "Novqorod azadlığı" (1895) romanlarında da özünü göstərirdi. Bu əsərlərində yazıçı yalnız tarixi şəxsiyyətləri və hadisələri qeyd etdikləri üçün şərti olaraq tarixi adlandırmaq olar.

XIX əsrin sonlarına doğru tarixi bədii ədəbiyyatda hərbi-tarixi nəsr deyilən yeni bir istiqamət meydana gəldi. Sevastopolun qəhrəmancasına müdafiəsi haqqında ilk böyük sənət əsərinin müəllifi böyük ensiklopedist alim M.M.Filippov (1858-1903) "Sevastopolu mühasirəyə aldı" (1888-1889) əsərində Krım hadisələrini təsvir edirdi. Krım müharibəsinin iştirakçısı olan L.N.Tolstoy bu kitaba dövrün dəyərli bədii faktı kimi istinad edərək yazırdı: *"...Mən romanı oxudum ..." Sevastopolu mühasirəyə aldım "...və tarixi detalların zənginliyinə heyran qaldım. Bu romanı oxuyan insan yalnız Sevastopol mühasirəsi deyil, bütün müharibə və onun səbəbləri haqqında tam aydın və tam bir şəkil alacaq "* (11, s. 574).

Bu cəhətdən L.Tolstoyun özünün yaradıcılığı tarixi roman janrının inkişafında böyük rol oynayır. Yazıçı əsərlərində daha çox ictimai proseslərə yer verir, dövrün məişəti, əxlaqı ilə yanaşı, ictimai-siyasi proseslərinin mənzərəsini də yaradırdı. “Kazaklar” (1856), “Hərb və sülh” (1869), "Hacı Murad" (1912), "Fyodor Kuzmiçin ölümündən sonrakı qeydləri" (1905) və s. əsərlərində çarların əxlaq pozğunluğu məsələsini qoyur və hadisələri realistcəsinə təsvir etməyə çalışırdı. Bu əsərlərdə rus çarları I, II Nikolay və I Aleksandrın həyatı saray kontekstində realistcəsinə verilirdi. Bu isə tarixi roman janrında yeni tendensiyanın yaranmasını şərtləndirirdi. Yazıçı bu əsərlərində əyanlara mənsub ailələrdəki despotizm düşüncəsini, təhkimçilik sistemi ilə barışmayan, vətəni, xalqı düşünən insanları təsviri etməklə rus mənəvi həyatının özünü göstərirdi. Onun əsərlərində dekabrist hərəkatının baş verdiyi zamandan başlamış əsrin sonlarına qədərki rus ictimai həyatında iştirak etmiş müxtəlif nəsillər təsvir olunurdu. "Dekabristlər" romanında Pyotr İvanıç, "Hərb və sülh" romanında isə Kutuzovun yaxın dostu qoca general Bolkonski, Andrey Bolkonski, Doloxov, Denisov kimi obrazlarla tarixi şəxsiyyət və hadisələri ictimai proseslər müstəvisində göstərirdi. Akademik M.C.Cəfərov L.Tolstoyun dövrün hadisələrini təsvir edərkən bir “tənqidçi”, “protestoçu” olduğunu nəzərdə tutaraq yazır: *"Hərb və sülh"də Pyer Bezuxov və Aleksandr Bolkonski, "Dirilmə"də Nexlyudov obrazlarında bu nəsildə yeni əxlaqi qanaətlər, yeni ictimai-siyasi əqidə doğuran şəraitin təsvirində Tolstoyun alovlu, protestoçu, ehtiraslı ifşaçı və böyük tənqidçi olduğu bütün qüdrətilə özünü göstərmişdi"* (12, s. 320).

Beləliklə, XIX əsr boyu rus ədəbiyyatında əsrin başlanğıcında yaranan tarixi roman janrının sürətli inkişafı baş verdi. Milli özünüdərk prosesi şəraitində aktuallaşan və ictimai tarixi şüurun və daxili elmi tarixşünaslığın xüsusiyyətlərini əks etdirən tarixi roman janrı müəyyən bir inkişaf yolu keçdi. Yazıçılar ya xarici, ya da yerli sələflərinin bədii, etik və estetik fikirlərini inkişaf etdirməyə fəal şəkildə davam etdilər. Bu prosesdə tarixi şüurun inkişafını da nəzərdən qaçırmaq olmaz. Bu mənada, yazıçılar tarixi şüura söykənərək tarixi düşüncənin inkişafında fəal iştirak etdilər. Artıq işlənmiş texnikaları nəzərdən keçirərək, tarixi rəvayətin inkişafında yeni meyllər formalaşdırarkən orijinal əsərlər yaratdılar. Bu proses rus romanlarının bədii sistemində tədqiq olunan janrın fəaliyyətinin bəzi ümumi nümunələrini müəyyənləşdirmək baxımından olduqca zəruri idi.

## ƏDƏBİYYAT

1.Щеблыкин И.П. Ранние традиции русской исторической прозы // Вопросы литературы XVIII века. Ученые записки. Сер. Филология. –Пенза: 1972. -с 123- 132.
2.Бестужев-Марлинский А.А. Сочинения: В 2 т. Е. 2. –Москва: Советский писатель -1958. -436 с.
3.Петров С.М. Русский исторический роман XIX века. -Москва: -Наука, -1964. -312 с.

4.Фейербах Л. Избранные философские произведения: В 2 т. Т., 1, -Москва: -1955. -546 с.
5.Чернышевский Н.Г. Литературная критика // Полное собрание сочинений: В 15 т. Т., 1, - Москва: -1947. -462 с..
6.Шкловский В. Заметки о прозе русских классиков. Москва: Советский писатель, -1955. -с. 307.
7.Сахаров А.Н. Историческая сага Всеволода Соловьева // Вопросы истории. - 2003. - № 9. - с. 74-107.
8.Розен А.Е. Записки декабриста // И дум высокое стремленье... / Сост. Москва: -1980. -326 с.
9.Плеханов С. Н. Писемский (ЖЗЛ). - Москва: Советский писатель, -1986. -278 с.
10. Сорочан А.Ю. «Квазиисторический роман» в русской литературе XIX века: Д.Л. Мордовцев: Монография. – Тверь: -2007. -284 с.
11. Толстой Л.Н. Собрание сочинений: В 22 т. Т., 20, -Москва: -1984. -562 с.
12. Cəfərov M.C. Həmişə bizimlə. –Bakı: -Yazıçı, -1980. -361 s.

**Mustafayeva P.**

## XIX əsrin ikinci yarısında rus tarixi romanının inkişaf yolu və meyilləri

**Açar sözlər: XIX əsr, rus, tarixi roman, inkişaf yolu, istiqamətlər**

XIX əsr boyu rus ədəbiyyatında əsrin başlanğıcında yaranan tarixi roman janrının sürətli inkişafı baş verdi. Rus tarixi romanı böyük bir inkişaf yolu keçdi. Bu proses XIX əsrin ikinci yarısında da davam etdi və onlarla tarixi roman yazıldı. Bu dövrdə yazıb yaradan yazıçıların yaradıcılığında və romantizm üslublu tarixi hekayələrində sentimentalizmi və ritorika xüsusi yer tuturdu. Bu əsərlərdə fantaziya elementləri müəlliflərin bədii ustalığının üstünlük təşkil edən amillərinə çevrildi. Yazıçılar tarixi faktların təqdimatında və hadisələrin, vəziyyətlərin təsvirində daha dəqiq və konkretlik nümayiş etdirirdilər. Milli tarixi keçmişi yenidən yaratmaq üçün bədii və stilistik vasitə mənbəyi kimi xalq mahnılarına, nağıllara, atalar sözlərinə müraciəti o dövr üçün yenilik idi. V.S.Solovyovun (1849-1903) daxil oldu və özünün tarixi romanlarını yazdı. Yazıçının uğuru ilk əsəri "Şahzadə Ostroq"dan (1876), "Gənc imperator" (1877), "Çar qız" (1878), "Çar səfirliyi" (1890), G.P.Danilevskinin (1829-1890) "Tuna üzərindəki Potyomkin" (1876), "Şahzadə Tarakanova" (1883), "Yandırılmış Moskva" (1885), "Qara il" (1888) və s. əsərlərində xalqın maariflənməsi, iqtisadi inkişafı, Rusiya dövləti və hökmdarların fəaliyyəti ilə bağlı düşüncələrini də ifadə edilirdi. Bu prosesdə yazıçılar tarixi şüura söykənərək tarixi düşüncənin inkişafında fəal iştirak etdilər. Artıq işlənmiş texnikaları nəzərdən keçirərək, tarixi rəvayətin inkişafında yeni meyllər formalaşdırarkən orijinal əsərlər yaratdılar. Bu proses rus romanlarının bədii sistemində tədqiq olunan janrın

fəaliyyətinin bəzi ümumi nümunələrini müəyyənləşdirmək baxımından olduqca zəruri idi.

**Mustafayeva P.**

**In the second half of the XIX century development path and trends of the Russian historical novel**

**Key words: XIX century, russian, historical novel, development path, directions**

The historical novel genre, which flourished throughout the 19th century in Russian literature, emerged at the beginning of the century. The Russian historical novel has advanced significantly. Dozens of historical novels were written throughout the second half of the XIX century while this process progressed. Sentimentalism and rhetoric had a significant role in the creativity of the writers who wrote and created in this period and in their romantic historical stories. In these works, fantasy elements became the dominant factors of the authors' artistic mastery. Writers were more precise and detailed in conveying historical information and describing historical events and circumstances. It was unique at the time to use folk songs, fairy tales, and proverbs as sources for artistic and stylistic tools to recreate national history. V.S.Solovyov (1849-1903) entered and began to write his historical novels. The writer's successful first work “Prince Ostrog” (1876), “The Young Emperor” (1877), “The Tsar Girl” (1878), “The Tsar's Embassy” (1890), and by G. P. Danilevsky (1829-1890) “Potemkin on the Danube” (1876), “Princess Tarakanova” (1883), “Burnt Moscow” (1885), “Black Year” (1888) also expressed his thoughts on the education of the people, economic development, the Russian state and the activities of the rulers. In this process, the authors took an active part in the growth of historical thinking based on historical consciousness. Reviewing already developed techniques, they created original works while forming new trends in the development of historical narration. This process was quite necessary in terms of defining some general examples of the activity of the studied genre in the artistic system of Russian novels.

**Мустафаева П.**

**Путь и тенденции развития русского исторического романа во второй половине XIX века.**

**Ключевые слова: XIX век, русский язык, исторический роман, путь развития, направления.**

На протяжении 19 века в русской литературе бурно развивался жанр исторического романа, возникший в начале века. Русский исторический роман прошел большой путь развития. Этот процесс продолжился талже во второй половине XIX века, и в этот периуд были написаны десятки исторических романов. Особое место в творчестве писавших и творивших в этот период

писателей и в их романтических исторических рассказах занимали сентиментализм и риторика. В этих произведениях элементы фантастики стали доминирующими факторами художественного мастерства авторов. Писатели более точно и конкретно излагали исторические факты, описывали события и ситуации. Обращение к народным песням, сказкам, пословицам как к источнику художественно-стилистических средств воссоздания национального исторического прошлого было новинкой для того времени. В 70-е годы на литературную сцену вышел писатель В. С. Соловьев (1849-1903), написавший свои исторические романы. В его произведениях под названием «Князь Острог» (1876), «Молодой император» (1877), «Царская девка» (1878), «Царское посольство» (1890), а также в романах Г. П. Данилевского (1829). - 1890 г.) «Потемкин на Дунае» (1876 г.), "Князь Тараканова" (1883 г.), "Москва сожженная" (1885 г.), "Черный год" (1888 г.) и др. широко высказывались мысли о воспитании народа, экономическом развитии и деятельности правителей в Российском государстве. В этом процессе писатели принимали активное участие в развитии исторического мышления, основанного на историческом сознании. Пересматривая уже разработанные приемы, они создавали оригинальные произведения, формируя новые направления в развитии исторического повествования. Этот процесс был совершенно необходим в плане определения некоторых общих примеров активности изучаемого жанра в художественной системе русского романа.

**Redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Çapa qəbul olunma tarixi: 15.04.2022**
**Rəyçi: filologiya üzrə elmlər doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur**

# *RƏY:*

**Fil.e.d., prof. İSMAYIL KAZIMOV**
**Fil.ü.f.d., dosent GÜNEL MIRZƏYEVA**

## NADİR MƏMMƏDLİNİN "NİTQ MƏDƏNİYYƏTİ" DƏRSLİYİ

***(Nadir Məmmədli. Azərbaycan dili və nitq mədəniyyəti. Norma, nitq mədəniyyəti sahələrivə nitqə verilən tələblər. Dərslik. II cild, Bakı, "Elm və təhsil", 2022, 512 səh.)***

Filologiya elmləri doktoru, prof. Nadir Məmmədlinin araşdırmalarının mühüm bir sahəsini Azərbaycan dili və nitq mədəniyyəti problemləri təşkil edir. Bu müasir problemlər onun 2 cilddən ibarət olan dərsliyində öz əksini tapmışdır. I cilddən əvvəllər bəhs olunub. Amma qeyd edək ki, Nadir Məmmədli dərsliyin 4 fəsildən ibarət olan I cildində Azərbaycan dili və nitq mədəniyyəti fənni; mədəniyyət, dil və nitq anlayışları; həmin fənnin məqsəd və vəzifələri, mədəniyyətin forma və növləri, "nitq mədəniyyəti" konsepsiyası, bu elmin digər linqvistik elmlərlə bağlılığı (I fəsil), Azərbaycan və azərbaycanlılar, Azərbaycançılıq və ideologiya, "Azərbaycan" toponiminin etimologiyası, bu xalqın soy-kökü və xalq kimi formalaşması, Azərbaycan əlifbası və s. haqqında çox vacib olan məsələlərə yeni baxış nümayiş etdirmişdir. Burada, müəllif həmçinin, türk dillərini təsnif etmiş və hər bir dil haqqında qısa və qiymətli elmi informasiya verir. (II fəsil), III fəsildə natiqlik sənəti tarixindən (Qədim Yunanıstanda, ellinizm dövründə, Qədim Romada, Fransada, Avropada, Rusiyada, Azərbaycanda natiqliik və s.), ayrı-ayrı mərhələlərdə dil məsələləri, natiqlər və natiqlik; IV fəsildə isə Azərbaycan folkloru və nitq mədəniyyəti kimi yeni məsələlərə geniş yer ayrılmışdır. Sonuncu fəsildə deyilir ki, "Nitq mədəniyyəti Azərbaycan milli folklor fenomeni ilə sıx bağlıdır. Azərbaycan nitq mədəniyyətinin ilk ən populyar örnəkləri, heç şübhəsiz, bu xalqın qədim tarixi, zəngin ideya-estetik məzmun mündəricisi, tükənməz idrak-dərketmə enerjisi olan şifahi söz sənətidir".

Qeyd edək ki, ədəbi dilimizin əsas normalarından biri də leksik normadır. N.Məmmədli, öncə, leksikologiya və onun təsviri, tarixi, müqayisəli növlərindən bəhs edir, sonra isə forma və məzmunca söz qruplarında (omonim, sinonim, antonimlər) leksik normanın mənaca təsnifini aparır, qruplaşdırır. Ardınca omoformlar, omofonlar, omoqraflar, transomonimlər yaxud dillərarası asimmetriya ("yalançı ekvivalentlər"), onların nitqdə daşıdığı mənaları üzə çıxarır. Alınma sözün

mənasının reseptor dildə aprobasiyası, paronimlər, çoxmənalı sözlər, metaforlar haqqında kifayət qədər yığcam və dolğun məlumatlara rast gəlirik. Kitabda metafor, metoforlaşma prosesi haqqında fikirlər yeniliyi ilə fərqlənir. Müəllif yazır ki, metafor nitq və mətndə ifadə vasitəsi kimi ideyaları konkretləşdirir, sözün nominativ mənası və assosiasiyaların, əşyaların oxşarlığına uyğun olaraq təfəkkürdə müəyyən təəssürat, təsəvvür yaradır; xüsusilə də bədii əsərlərdə öz potensialını üzə çıxarır. Metaforlaşma prosesdir-daimidir, zaman keçdikcə estetik dəyərlərini, gözlənilməzliyini heç vaxt itirmir.

Məcazın digər növləri ( metonimiya, sinekdoxa və s.) haqqında fikirlər, xüsusən də bölgü, onların bir-birindən fərqləndirilməsi ağlabatan cəhətlərilə yadda qalır. N.Məmmədli leksik normanı mənşə cəhətdən də şərh edir, sözlərin alınma amillərini müəyyənləşdirir. Alınma söz və terminlərin mənimsənilməsinin şərtlərini göstərir: 1) sözlərin alan dilin qrammatik sinif və kateqoriyaları ilə əlaqələndirilməsi; 2) əcnəbi sözün fonetik mənimsənilməsi; 3) əcnəbi sözün qrammatik mənimsənilməsi; 4) sözün sözdüzəldicilik aktivliyi; 5) əcnəbi sözün semantik mənimsənilməsi; 6) nitqdə müntəzəm işlənməsi (s.202).

Dərslikdə digər mənimsənilmə səviyyələri (fonetik, qrafik, orfoqrafik, qrammatik, semantik mənimsəmələrin xüsusi əlamətləri, xarakteri və s.) ayrı-ayrılıqda təhlil olunmuşdur.

Prof. N.Məmmədli dilimizin leksik normasını sözlərin istifadə dairəsi üzrə də tədqiqata cəlb etmişdir. Düşüncənin inkişafı dilin inkişafını tənzimləndirdiyi üçün istifadə dairəsinə görə sözlər müəllif tərəfindən 1) ümumişlək sözlər; 2) məhdud dairədə ictimai zümrələr və kollektiv tərəfindən işlədilən sözlər (loru, vurqar, arqo, jarqon, dialekt; 3) xüsusi sözlər (terminlər) olmaqla da qruplaşdırılmışdır.

Dərslik müəllifi leksik normanı sözün ekspressiv-üslubi əlamətlərinə görə də interpretasiya edir. O, tabu sözlərin, evfemizmlərin, epitetlərin, alliterasiyaların, təkrarların, işlək, istifadə normalarını müəyyənləşdirir; bunların yaranma yollarını, poetik-üslubi səciyyəsini verir. Xeyli sayda bədii ədəbiyyatdan seçilmiş nümunələr vasitəsilə tələbələr həmin normaları intensiv şəkildə öyrənə bilirlər.

Dərslikdə leksik norma məsələləri Azərbaycan dilinin aktiv və passivliyinə görə də nəzərdən keçirilmişdir. Aktiv və passiv leksikanın tərkib hissəsi kimi tarixizmlərə, arxaizmlərə və neologizmlərə diqqət yönəldilmişdir. Dil obyektiv gerçəkliyi müxtəlif ifadə formaları ilə təzahür edir. Onlardan biri də sözlərin məna əlaqələrini- semantik strukturu, funksional nitq xüsusiyyətlərini, üslubi ifadə imkanlarını ümumiləşdirən frazeoloji vahidlərdir. Əlbəttə, bu əlamətlər frazeoloji normaya aiddir. Frazeoloji normaya verilən tələblərdən biri-həmin vəhdətlərin, modellərin mənasından qaydasında istifadə etməkdir.

Əsərdə qrammatik normanı müəllif morfoloji və sintaktik yaruslar üzrə də aydınlaşdırır. Qrammatik kareqoriyalarda norma mənsubiyyət, hal, inkarlıq paradiqmalarını əhatə edir.

Sintaktik norma çərçivəsində sərbəst söz birləşmələrinin və cümlələrin yarımçıq, bütöv, şəxsli və şəxssiz cümlələrin norma xüsusiyyətləri və bu normanın pozulma halları, baş və ikinci dərəcəli üzvlərin dildə və nitqdə normalaşma qanunauyğunluqları sadə cümlələri genişləndirən üzvlərdə və eləcə də mürəkkəb cümləyə, mürəkkəb sintaktik bütövə aid norma məsələləri işıqlandırılmışdır.

Nitq mədəniyyəti məsələləri həmişə aktual olub, çoxcəhətli, çoxplanlı parametrlərə malik olduğu üçün müəllif kitabda norma, onun sahələri və nitqə verilən tələblər mövzularına məhz dərsliyin 2-ci cildində geniş yer ayırmışdır. Dərsliyin bu cildində I fəsil "Ədəbi dil norması" adlanır. Həmin fəsildə "norma" termin- anlayışına aydınlıq gətirilir. Müəllif bu anlayışı düzgün olaraq geniş və dar mənada şərh edir: Norma dilin inkişafının daxili qanunları, həmçinin cəmiyyətin ənənələri ilə şərtlənir və qəbul edilir. N.Məmmədli norma və ona yaxın olan variantlıq münasibətləri üzərində dayanır, onları bir-birindən fərqləndirir. Bu fərqlər normanın mütləq, variantın nisbiliyi, bərabərhüquqa malik olmaması ilə səciyyələnir.

Dil normasının başlıca keyfiyyətləri müəllifin təqdimatında və izahında uzun müddət dil sisteminin tarazlığını qoruyub saxlamağı təmin edən sabitlik, normativ qaydaların yayılmasına və riayət olunmasına nəzarət, dili kənar təsirlərdən mühafizə etmək, ədəbi ənənələr və mənbələrin nüfuzu, dili və onun faktlarını mədəni-estetik cəhətdən dəyərləndirmək və s. amillərlə əsaslanılır. Ədəbi dildən söhbət edərkən N. Məmmədli onun konkret olaraq 8 xüsusiyyətini göstərir: funksional üslublar sisteminin bütün fəaliyyət sahəsinə xidmət edir; nisbi davamlıdır, yazılı nitq norması ilə təsbit edilir; variantlılığa və dəyişkənliyə meyillidir; kodifikasiya edilir və zamanın tələbləri ilə normalaşır, yüksələn xətt üzrə inkişaf edir və s.

N.Məmmədli ədəbi dildə normaya verilən 4 tələbi özünəməxsus ifadə tərzi ilə qruplaşdırır. Bu tələb normanın dilimizdə danışan bütün şəxslər üçün vahid və məcburi olması; normanın mühafizəkarlığı və onun qanunları, istifadə etdiyimiz cəmiyyətdə formalaşmış qayda-qanunların saxlanması və qorunması; normanın zamana uyğunluğu, sosial şəraitdən asılı olaraq dəyişməsi, nəhayət linqvistik və sosial kateqoriyalılığı. Yaxşı cəhətdir ki, N.Məmmədli normanın tarixini izləyir və inkişaf prosesində aşağıdakı əlamətləri də qoruyub saxladığını göstərir: nisbi sabitlik, yayılma, ümumi istifadə, istifadəyə uyğunluq, dil sisteminin imkanları.

Dərslik müəllifi normanı uzus və ədəbi dilin quruluşu ilə əlaqələndirir. Aşağıdakıları normalaşma prosesində çox vacib hesab edir:

1) Ədəbi dilin sabitləşməsi onun bərabərləşməsinə, eyniliyinə gətirib çıxarmamalıdır;

2) normalaşma şifahi və yazılı dil arasındakı fərqləri kəskinləşdirməməlidir;

3) normalaşma variantları da saxlamalı, funksional və üslubi fərqləri aradan qaldırmamalıdır: (s.25).

Müəllif çox vacıb olan məsələni – normanı müasir Azərbaycan dilinin bütün səviyyələrində tədqiqata cəlb edir. Ardıcıllığı, sistemliliyi demək olar ki, gözləyir: öncə, fonetika; sonra fonetik norma. Orfoepiya. Orfoepik norma. Orfoqrafiya.

Orfoqrafik norma və s. Dərslik müəllifi əvvəlcə fonetik vahidlərdən, fonetikanın ümumi prinsiplərindən, fonetikanın müxtəlif növlərindən bəhs edir. Sonra normaların izahına müəyyən həcmdə yer ayırır. Orfoepik norma ilə orfoepik variant anlayışlarını fərqləndirir. Sait və samit səsləri müxtəlif prinsiplərə görə təsnif edir. Orfoqrafik normanın fonetik, morfoloji və tarixi-ənənəvi prinsiplərini ayrı-ayrılıqda şərh edir, dilimizin orfoqrafiya normalarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli qərarı ilə təsdiqlənmiş və 3 noyabr 2020-ci il tarixli 438 nömrəli qərarı ilə müəyyən dəyişikliyi nəzərə çatdırır. Milli və alınma mənşəli sözlərdə, şəkilçilərdə yazılış qaydalarını və s. maraqlı və öyrədici nümunələr üzrə təhlil edir. Bu, tədris baxımından da olduqca əhəmiyyətlidir.

N.Məmmədlinin kitabının son fəsillərini nitq mədəniyyəti sahələri və nitqə verilən tələblər təşkil edir. Forma və məzmununa görə nitqin ən geniş yayılmış sahələri daim taktiki informasiyaların və metodiki vasitələrin sistemli biçimdə tətbiqinə əsaslandığı üçün tədqiqatçı nitqin ən geniş yayılmış sferalarını "ictimai-siyasi nitq", "diplomatik nitq", "məhkəmə nitqi", "istehsalat nitqi", "mitinq nitqi", "parlament nitqi", "yubiley və masaətrafı nitq", "yas-matəm nitqi", "təbrik nitqi", "hərbi nitq", "dini nitq", "akademik nitq", "ekran-efir nitqi" üzrə təhlil edir. Bu nitq situasiyaları Ulu öndər Heydər Əliyevin və ölkə prezidenti İlham Əliyevin çıxışlarından zəngin örnək vasitəsilə verilir.

Dil kommunikativ məqsədlər üçün həyatın rəngarəng sahələrinə nüfuz edir. Müəllif Azərbaycan nitqinin kommunikativ keyfiyyətlərini də diqqətdə saxlayaraq, onun münasibliyi, zənginliyini, təmizliyini, dəqiqliyini, məntiqliyini, əlverişliliyini, ifadəliliyini və düzgünlüyünü yaradan, təmin edən və bu əlamətlərə təsir göstərən normaları ayrı-ayrılıqda şərh etmişdir.

Beləliklə, biz norma və nitq mədəniyyəti problemlərinin Nadir Məmmədli düşüncəsində üzə çıxan məqamları ilə ətraflı tanışıq olduq və bəyəndik. Norma ziddiyyətli və mürəkkəb bir fenomen olsa da, ona məxsus təklifləri, eləcə də müəllifin dilimizdə baş verən təbii prosesləri və hadisələri obyektiv qiymətləndirməsini təqdirəlayiq sayırıq...

# İÇİNDƏKİLƏR:
# DİLÇİLİK

**FİZULİ NƏCMƏDDİN OĞLU MUSTAFAYEV**
KİNO DİLİNDƏ SÖZ BİRLƏŞMƏSİ VƏ SÖZ HAQQINDA ..... 3

**MİRZƏHRA İMAMƏLI QIZI QULUZADƏ**
QUANTITATIVE ANALYSIS OF MOTIVATION OF PRIMARY SCHOOL STUDENTS DURING THEIR EDUCATION IN ENGLISH ..... 10

**AYSEL ŞAVAAT QIZI FƏTƏLİYEVA**
XARİCİ DİL TƏDRİSİNDƏ NITQ TAPŞIRIQLARI ..... 21

**KƏRİMOVA ŞƏRQİYYƏ ELBRUS QIZI**
ƏNƏNƏVİ VƏ FƏAL TƏLİMİN MÜQAYISƏLI ÖYRƏDILMƏSI YOLLARI ..... 27

**MÜJGAN MƏMMƏDZADƏ CEYHUN**
ƏDƏBİ DİL NORMALARININ TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ ..... 35

**MƏMMƏDOVA ELNARƏ ADİL qızı**
**İRADƏ İMANOVA**
MAHMUD KAŞQARLININ “DİVANÜ LÜĞAT İT-TÜRK” ƏSƏRİNDƏ FEİLİN ŞƏKİLLƏRİ ..... 42

**TURKAN ALI GIZI GULUZADA**
LINGUISTIC FEATURES OF WRITTEN ACADEMIC TEXTS ..... 49

**GÜLNAR TARIYEL QIZI İSMAYILOVA,**
YUNUS ƏMRƏ VƏ QAZI BÜRHANƏDDIN “DIVAN”LARINDA SÖZ YARADICILIĞI
( morfoloji yolla düzələn sözlər, ad düzəldən şəkilçilər) ..... 55

**NƏRMIN ELMIK QIZI QAFARLI**
MÜASİR İNGİLİS DİLİNƏ TARİXƏN TƏSİR EDƏN EKSTRA-LİNQVİSTİK AMİLLƏR ..... 69

**LAMİYƏ İLDIRIM QIZI ƏLIYEVA**
AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ MƏTNLƏRİN TƏHLİLİNİN NƏTİCƏLƏRİNƏ DAİR ..... 76

**HƏQİQƏT MÜBARİZ qızı HÜSEYNOVA**
HİSS-HƏYƏCAN İFADƏ EDƏN KONSEPTLƏRİN MƏTNYARATMA İMKANLARI ..... 83

**RƏHİMOVA GÜLNARA SAHİB QIZI**
THE HISTORY OF WRITING..... 90

**SƏFURƏ İLQAR QIZI İSAYEVA**
DİL VƏ NİTQDƏ İZAFİLİK PRİNSİPLƏRİ VƏ ONLARA YANAŞMALAR ..... 99

**HÜSEYNOVA ZÜLFİYYƏ SƏLİM QIZI**
**İRADƏ İBRAHIMOVA**
MÜASİR İNGILIS DILINDƏ QRAMMATIK MATERİALIN KOMMUNIKATIV METOD VƏ ÜSULLARLA TƏDRIS OLUNMASI ..... 107

**ÇİNARƏ QƏHRƏMANOVA**
DİALEKTLƏRİN TƏDQİQİ-TARİXİ DİALEKTOLOGİYA..... 114

**NİHAD MUSAZADE**
A SEMANTIC AND SOCIOLINGUISTIC INVESTIGATION INTO PEJORATION IN AZERBAIJANI AND ENGLISH..... 120

**SURAYYƏ İBRAHİMOVA**
THE COMPARATIVE LINGUISTIC STUDY OF REPETITION IN USA PRESIDENTS' SPEECHES: BARACK OBAMA, DONALD TRUMP ..... 130

**ƏLİHEYDƏR YUNİS OĞLU AĞAKİŞİYEV**
**İRADƏ İSRAFİL QIZI KƏRİMOVA**
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ DƏRSLİKLƏRİNİN VƏZİYYƏTİ (AZƏRBAYCAN ƏDƏBİ DİLİNİNN LEKSİK NORMALARINA ƏMƏL OLUNMASI). DƏRSLİK MÜƏLLİFLƏRİNİN MƏSULİYYƏTİ ..... 142

**MAMMADOVA SVETLANA NASIB**
TRANSLATION OF IDIOMS IN ENGLISH INTO OTHER LANGUAGES 152

**ZAMANOVA ZÜLEYXA HAFİZ QIZI**
**İSGƏNDƏRZADƏ İRADƏ**
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN LEKSİK- SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN QARIŞILIQLI MÜNASİBƏTLƏRİNƏ DAİR ..... 159

**HƏSƏNOVA NİGAR XALİD QIZI**
**ZAMANOVA XALİDƏ YAŞAR QIZI**
MÜASIR İNGİLİS DİLİNDƏ PRAKTİK- DİPLOMATİK DANIŞIQ TƏRZİ ..166

**İRADƏ VƏLİYEVA**
**KƏMALƏ HÜSEYNOVA**
INGILIS DILINDƏ CERUNDUN FEİLİ - İSMİ XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCAN DİLİNDƏ MƏQBUL EKVİVALENTLƏRİ ..... 173

**LEYLA VƏLI QIZI QOCAYEVA**
**DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA**
METAFORİKLƏŞMƏ PROSESİ VƏ BU PROSESƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR ..... 180

**TAMARA ŞƏRBƏT QIZI ƏLİZADƏ**
QƏDİM ABİDƏMİZ – "KİTABİ-DƏDƏ QORQUD"UN DİLİNƏ DAİR ..... 186

**SÜDAVƏR İQBAL QIZI BAĞIROVA**
MOTİVASİYA HƏVƏSLƏNDİRİCİ, HƏRƏKƏTVERİCİ VƏ STİMULLAŞADIRICI TƏLİM FAKTORU KİMİ ..... 193

**İBRAHİMOVA İRADƏ RZA QIZI**
MÜASİR İNGİLİS DİLİNDƏ ALINMA SÖZLƏRİN LEKSİK VƏ FONETİK MƏNİMSƏNİLMƏSİ ..... 200

**QOCAYEVA LEYLA VƏLI QIZI**
MƏTNİN QURULMA MEXANİZMİ VƏ SEMANTİKASI..... 208

**MİRZƏHRA İMAMƏLİ QIZI QULUZADƏ**
QUANTITATIVE ANALYSIS OF MOTIVATION OF PRIMARY SCHOOL STUDENTS DURING THEIR EDUCATION IN ENGLISH..... 214

## *ƏDƏBİYYATŞÜNASLIQ*

**MƏSUMƏ RƏCƏBOVA**
MÜƏLLİM VƏ ŞAGİRDİN ÜNSİYYƏTİ ZAMANI ORTAYA ÇIXAN TƏZAHÜR FORMALARI ..... 225

**D.Ə.NAĞIYEVA,**
**İ.B.ƏLİYEVA**
CƏLİL MƏMMƏDQULUZADƏNIN BƏDİİ NƏSRİNDƏ TƏHKİYƏ 232

**TAĞIYEVA TƏHMİNƏ**
QARABAĞIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİNİN YARADICILIĞININ MİLLİ-MƏDƏNİ İRSİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ ..... 238

**SABİR ƏSƏDOV**
XX ƏSRİN İKİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDA ANA DİLİ MƏSƏLƏSİ ..... 247

**AYTAC MEHMAN QIZI HƏSƏNOVA**
ŞAGİRDLƏRİN FƏALİYYƏTİNDƏ MOTİVASİYANIN ƏHƏMİYYƏTİ..... 255

**FİDAN ALIŞAN QIZI ƏLİYEVA**
NƏSR ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏTBİQİ ..... 261

**BABAYEVA MƏLAHƏT RAMIZ QIZI**
MÜASİR POST-QEYRİKLASSİK DİSKURSDA FOLKLOR ANLAYIŞININ TRANFORMASİYASI ..... 269

**TAHİRƏ FƏRMAN QIZI YUSİFOVA**
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİZAMİ GƏNCƏVİ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ İMKANLARI ..... 277

**GÜNAY MƏTLƏB QIZI QULIYEVA**
İBRAHİM HƏQQİ ƏRZURUMININ "MƏRİFƏTNAMƏ" ƏSƏRİ..... 285

**ƏSMƏR DADAŞ QIZI HÜSEYNOVA**
SOVET TEATRŞÜNASLIĞINDA DRAMATURGIYA..... 293

**QULIYEVA PƏRVANƏ ELMAR QIZI**
M.S.ORDUBADİNİN DEMOKRATİK RUHLU ŞERLƏRİ..... 304

**LEYLA ƏLƏSGƏROVA**
S.YAĞMURUN "EŞQİN GÖZ YAŞLARI-ŞƏMS TƏBRİZLİ" VƏ E.ŞAFAKIN "EŞQ" ROMANINDA ŞƏMS SURƏTİNİN MÜQAYİSƏSİ..... 311

**TAĞIYEVA TƏHMINƏ**
AZƏRBAYCANIN XANIM ŞAIRI – XURŞİDBANU NATƏVAN ..... 317

**AYDAN RƏSULZADƏ**
YÜKSƏK QABILIYYƏTLI TƏLƏBƏLƏR VƏ ANLAYARAQ ÖYRƏNMƏK..... 322

**HACIYEVA SƏIDƏ VAQIF QIZI**
QARABAĞIN MUSİQİ FOLKLORU..... 331

**AYTAC RAMIQ QIZI MƏMMƏDOVA**
OBRAZLARIN ÖYRƏDİLMƏSİ MƏSƏLƏSİNİN PROQRAM VƏ DƏRSLİKLƏRDƏ QOYULUŞU ..... 337

**TAMILLA MƏHƏRRƏMZADƏ**
MƏMMƏDAĞA SULTANOVUN POEMALARI ..... 345

**İMANOVA KƏMALƏ XALİD QIZI**
PROBLEM BEHAVIORS FROM STUDENTS..... 353

**LEYLA RAMIZ QIZI SARIVƏLLI**
Ş.ANDERSONUN "UAYNSBURQ, OHAYO" NOVELLALAR TOPLUSUNDA JANR HIBRIDLIYI: AMERIKA GERÇƏKLIYININ TƏCƏSSÜMÜNDƏ YENI YOLLAR AXTARIŞI ..... 361

**BAHAR ƏLİYEVA**
MİR CƏLALIN YARADICILIĞI MÜASIR UŞAQ MÜTALİƏSİNDƏ ..... 369

**НИГЯР СУЛЕЙМАНОВА**
ТЕМА ИДЕНТИЧНОСТИ В РОМАНЕ Х.КУРЕЙШИ
“ЧЕРНЫЙ АЛЬБОМ” ..... 376

**VÜSAL HICRAN (İSGƏNDƏRLI)**
NİZAMİDƏ NOVRUZ BAYRAMININ İZLƏRİ HAQQINDA..... 382

**ГУЛСАНАМ МАХСУТОВНА НОРОВА**
МАҚСУД ШАЙХЗОДА АДАБИЙ МЕРОСИНИНГ
ТИЛ ХУСУСИЯТЛАРИ..... 390

**MƏMİŞOVA GÜLZAR ƏLİ QIZI**
AZƏRBAYCANDA MUSİQİ MƏDƏNİYYƏTİNİN BƏZİ
ƏDƏBİ – TARİXİ PROBLEMLƏRİNƏ DAİR ..... 399

**PƏRVANƏ MUSTAFAYEVA**
XIX ƏSRİN İKİNCİ YARISINDA RUS TARİXİ ROMANININ İNKİŞAF
YOLU VƏ MEYİLLƏRİ .....404

***RƏY:***

**İSMAYIL KAZIMOV**
**GÜNEL MIRZƏYEVA**
NADİR MƏMMƏDLİNİN “NİTQ MƏDƏNİYYƏTİ” DƏRSLİYİ.....414

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 15.04.2023
Şərti çap vərəqi 26,5. Sifariş № 92
Kağız formatı 60x84 1/8. Tiraj 500

**Jurnal “Elm və təhsil”** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4